Azərbaycan Milli Elmlər Akademiyası
Milli Azərbaycan Tarixi Muzeyi

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ
– 2018 –

Bakı – 2018

Milli Azərbaycan Tarixi Muzeyinin
Elmi Şurasının qərarı ilə nəşr edilir

Təsisçi:
AMEA Milli Azərbaycan Tarixi Muzeyi

Redaksiya heyəti:
Nailə Vəlixanlı – AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru (baş redaktor), Gülzadə Abdulova – tarix üzrə fəlsəfə doktoru, Fərhad Cabbarov – tarix üzrə fəlsəfə doktoru (məsul katib), Firdovsiyyə Əhmədova – tarix üzrə fəlsəfə doktoru, Nərgiz Əliyeva - tarix üzrə elmlər doktoru, Əli Rəcəbli - tarix elmləri doktoru, professor, Səbuhi Əhmədov – tarix üzrə fəlsəfə doktoru, Nasir Quluzadə – tarix üzrə fəlsəfə doktoru, Məhfuzə Zeynalova - tarix üzrə fəlsəfə doktoru

Redaksiyanın ünvanı:
Bakı şəhəri, H.Z.Tağıyev küçəsi, 4.
Tel.: 012 493 23 87, Faks: 598 52 11
E-mail: aztarmuzey@azhistorymuseum.az

Milli Azərbaycan Tarixi Muzeyi – 2018. Bakı, "Elm", 2018, 330 səh.

İSBN

© Elm

Emin Dadaşov, Ramiyə İsmayılova

D.Yermakovun fotokolleksiyası Şimali Azərbaycanda salınmış rus məskənlərinin öyrənilməsində mənbə kimi (MATM materialları əsasında)

Açar sözlər: *Köçürmə siyasəti, Muğan, Petropavlovka, suvarma sistemi, Qolitsin kanalı, D.Yermakov, "WOOD", fotomateriallar*

UOT 94 (479.24)

Çar Rusiyasının köçürmə siyasəti nəticəsində Azərbaycanın şimal torpaqlarına yerləşdirilmiş rusların məşğuliyyəti, təsərrüfat həyatı və məişətinin qurulmasında iştirakı dövrün məşhur rus fotoqrafları, D.İ.Yermakov, S.P.Qorski və b. tərəfindən çəkilmiş nadir fotoşəkillərdə öz əksini tapmışdır. Həmin fotomateriallar istər elmi, istərsə də elmi-publisistik ədəbiyyatda köməkçi materiallar kimi işıqlandırılmışdı. Lakin bu və ya digər mövzuya aid fotomaterialların ayrılıqda elmi təhlilinə ehtiyac duyulur. Məqalənin məqsədi də bu fotomaterialları ayrıca tədqiqat obyekti kimi elmi dövriyyəyə daxil etməkdir.

Vətən tarixşünaslığında Şimali Azərbaycan ərazisinə köçürmələrin həyata keçirilməsi, köçkünlərin buradakı ictimai-siyasi, sosial-mədəni təşkilatlarının yaranması və fəaliyyətinə həsr olunmuş məsələlər öz əksini (1; 3, 5) tapsa da, bu tədqiqat əsərlərində məqaləyə cəlb olunan fotomateriallardan tədqiqat obyekti kimi istifadə olunmamışdır.

XIX əsrin sonu-XX əsrin əvvəllərində etnoqrafik fotoçəklişləri ilə məşhurlaşan rus fotoqrafı, şərqşünası və etnoqrafı Dmitri Yermakovun foto irsinin böyük bir hissəsi Gürcüstan Milli Muzeyi və Niderland Krallığının Roterdam şəhərində yerləşən Foto Muzeyində mühafizə olunur (11, p.67).

D.Yermakov (1846-1916) fotoqraf kimi ilk fəaliyyətinə Ananuri şəhərindəki hərbi akademiyanın nəzdində xəritəçəkmə və topoqrafik xəritələrin hazırlanması üçün istifadə olunan foto şöbəsində başlamışdır. 1880-1900-cü illər fotoqrafın gərgin iş dövrü hesab olunur. Sistemli şəkildə müxtəlif ekspedisiyalara dəvət alan Yermakov çətin yürüş şəraiti üçün foto texnikanı və səyyar laboratoriyanı da təkmilləşdirmişdir. Fotoqrafın Qafqazın tarix, etnoqrafiya, memarlıq və

mədəniyyətini əks etdirən işləri unikallığı ilə seçilir (12, p.32).

Məqaləyə cəlb olunan kolleksiya AMEA Milli Azərbaycan Tarixi Muzeyinin zəngin bölmələrindən olan Sənədli mənbələr fondunda (SMF № 225, 377, 691) mühafizə olunur. Bu fotomaterialların 100-dən çoxu 04 mart 2010-cu il tarixində Niderland Krallığının Azərbaycandakı səfirliyinin rəsmi açılışı münasibətilə AMEA Milli Azərbaycan Tarixi Muzeyində təşkil olunmuş Dmitri Yermakovun sərgisində nümayiş olunmuş və Muzeyə hədiyyə edilmişdir.

D.Yermakov tərəfindən Muğan ərazisində salınmış rus məskənləri, suvarma sistemləri, burada yaşayan əhalinin məşğuliyyəti və s. fotokameranın yaddaşına köçürülmüşdür.

Şimali Azərbaycanda ilk rus məskənlərinin salınması general A.P. Yermolovun təşəbbüsü ilə həyata keçirilirdi. Belə ki, XIX əsrin 20-ci illərində A.P. Yermolov Cənubi Qafqazda ailəli əsgərlərdən ibarət hərbi-təsərrüfat tipli məskənlərin yaradılması planını irəli sürmüşdür (9, c.793). Generalın bu təklifinin iki – işğal olunmuş ərazilərdə rus elementinin gücləndirilməsi və cənubda imperiyanın yeni sərhədlərini müdafiə etmək üçün daimi hərbi qüvvələrin təmin olunması məqsədi var idi (4, c.102). Rusların süni şəkildə köçürülməsi uğursuzluqla nəticələnsə də, general Yermolovun layihəsi Şimali Azərbaycana pravoslav kilsəsi üçün "etibarsız ünsür" hesab edilən sektantların yerləşdirilməsi üçün şərait yaratdı.

İlk dəfə olaraq ruslar Dövlət Şurasının göstərişi ilə 20 oktyabr 1830-cu il tarixində "duxoborlar, ikonoborlar, molokanlar... və digərləri xüsusi zərərli ünsür" hesab edilərək Cənubi Qafqaza, o cümlədən Azərbaycana – Qızıl qışlağa köçürülmüşdülər (2, c.281). Artıq 1830-cu illərin sonunda Azərbaycan ərazisində Rusiyanın mərkəzi quberniyalarında kəndli həyəcanlarının qarşısını almaq məqsədi ilə köçürülmüş təriqətçilərdən ibarət 11 kənd salınmışdır (8, c.37).

Çar Rusiyasının Şimali Azərbaycanda yürütdüyü müstəmləkə siyasəti zamanı Muğan çölünə böyük ümidlər bəsləyir və siyasi cəhətdən burada qeyri-rus, xüsusilə ermənilərin məskunlaşması tamamilə yolverilməz hesab edirdi (10, c.63).

Muğan düzü Kür-Araz ovalığının sağ sahilində yerləşir və Bakı quberniyası Cavad və Lənkaran qəzalarının tərkibinə daxil idi. 1887-ci ildə Rusiyanın Qafqazda baş rəisi knyaz A.M. Dondukov-Korsakovun (1820-1893) göstərişi ilə ləğv edilmiş Cavad qəza şəhərinin (əsası 1886-cı ildə qoyulmuşdur) yerinə ruslar köçürülmüşdür. Beləliklə, Muğanda ilk rus məskəni – Petropavlovka salınmışdır (10, c.38).

1905-1914-cü illərdə çarizmin Cənubi Qafqazda yürütdüyü köçürmə siyasətinin məqsədi Şimali Azərbaycanın Muğan çolü kimi qədim əkinçilik mədəniyyətinə malik ərazisini sənaye pambıqçılığının mərkəzinə çevirmək idi. Əvvəldə də qeyd etdiyimiz Petropavlovka qəsəbəsini çıxmaqla, 1901-1902-ci illərə qədər yeni yaşayış məskənlərinin salınması prosesinə uzunmüddətli fasilə verilmişdir. XX əsrin əvvəllərindən başlayaraq Muğan aktiv şəkildə məşğuliyyəti pambıqçılıq olan pravoslav ruslarla məskunlaşdırılırdı. Məskunlaşma qeyd olunan ərazidə suvarma

sistemi və kanalların inşası ilə paralel aparılırdı.

Qolitsin suvarma sisteminin başlanğıcını qoyan Gur-gur kanalının istifadəyə verilməsinə qədər Muğanda yaşayan rusların vəziyyəti ağır olaraq qalırdı. Belə ki, köçürülənlərin adət etmədiyi qida və çox isti iqlimlə üzləşmələri, onlar arasında ölümlə nəticələnən xəstəliklərin yayılmasına gətirib çıxarırdı. Kolonistlərin yaşayışını çətinləşdirən hadisələrdən biri də Kür və Araz çaylarının vaxtaşırı daşaraq ətraf əraziləri basması idi. Bu daşqınar nəticəsində sahil ətrafı qəsəbələrdə 100 000 desyatindən çox ərazi – əkin və otlaq sahələri yararsız vəziyyətə düşürdü. Öz növbəsində hökumət yaz fəslində çayların daşması ilə əlaqədar heç bir tədbir görmürdü. Digər tərəfdən köçürmə siyasətinin inkişafı suvarma sistemlərinin tikinti və Kür, Araz çaylarının axınını tənzimlənməsi prosesi ilə sıx əlaqədar idi (5, c.284).

Muğan ərazisində torpaqların suvarılması üçün çəkilən kanalların böyük əhəmiyyət daşıdığını məqaləyə cəlb olunmuş fotomateriallardan da görə bilərik. Belə ki, D.Yermakovun kolleksiyasına daxil olan – “Xəndək tərəfdən Nikolayevka kəndi (17749. Николаевка. Село со стороны канавы. 22)” (SMF 377/66) fotosunda 1901-ci ildə mühəndis-hidravlik Mayevski tərəfindən inşa edilmiş və başlanğıcını yeni Arazdan götürən kiçik həcmli xəndək və onun sahilində salınmış ruslardan ibarət Nikolayevka qəsəbəsi təsvir olunmuşdur.

Qafqazın baş rəisi Knyaz Q.S. Qolitsinin (1838-1907) Qafqazda fəaliyyəti zamanı, 1900-cü ildə Muğanda suvarma istiqamətində tədqiqat aparılması üçün 37 000 rubl həcmində maliyyə ayrılmışdır (3, c.294). 1905-ci ildə 3000 desyatin xəzinə torpağını suvarmaq üçün nəzərdə tutulmuş Aşağı Qolitsin kanalının inşası yekunlaşdı. 1907-1909-cu illər ərzində isə dağ mühəndisi Koziçin tərəfindən başlanğıcını köhnə Araz çayı – Saatlı kəndinin yaxınlığından götürən Yuxarı Qolitsin suvarma kanalının tikintisi başa çatmışdır.

“Muğan. Petropavlovka kəndi. Yuxarı Qolitsin kanalının şlüzu (17784. Мугань. Петропавловка село. Шлюз верхнего Голицынского канала 57)” (SMF 225/60) fotoşəklində də adından da aydın olduğu kimi suvarma işləri üçün nəzərdə tutulmuş sistem təsvir olunmuşdur. Suvarma məqsədli kanalın suburaxma qabiliyyətinin tənzimləmək üçün istifadə edilən şlüz adlı qurğu fotodan da göründüyü kimi, daşdan hörülmüş arakəsmələr arasındakı dəmir konstruksiyadan ibarətdir. Sututumuna görə bu şlüz Nikolayevka qəsəbəsinin yaxınlığında salınmış xəndəkdən fərqlənir. Bu da Petropavlovka kənd əhalisinin sayının çox olması ilə əlaqədar ola bilər.

Daha bir fotoda – “Muğan. Saatlı kəndi. Yeni Araz çayı üzərindəki İmperator II Nikolay şlüzu (17774. Мугань. Саатлы село. Шлюз Императора Николая II на Новом Араксе 47)” (SMF 225/61) suvarma qurğusu təsvir olunmuşdur. Bu qurğu ölçü və təyinatına görə öncəkindən fərqlənir. Arazda çay daşqınlarının qarşısını almaq və bunun hesabına salınacaq yeni rus məskənləri üçün 70 000 desyatin torpağı azad etmək üçün nəzərdə tutulan bu suvarma sistemi Yeni Arazın mənbəyində inşa edilmişdir (10, c.56).

Həm şlüzun sağ hissəsində Rusiya imperiyasının simvolu olan ikibaşlı qartal formalı kiçik abidə, həm də suvarma qurğusunun Rusiyasının sonuncu hökmdarı imperator II Nikolayın (1868-1918) şərəfinə adlandırılması bir daha çar hökumətinin istər siyasi, istərsə də iqtisadi cəhətdən bu regiona göstərdiyi önəmi sübut edir.

Ümumilikdə 1909-1911-ci illər arasında Qolitsin suvarma sistemi üzərində 9 rus məskəni salınmış və nəticədə onların sayı 14 olmuşdur (3, c.298). Suvarma sistemlərinin çəkildiyi tarixi nəzərə alaraq, fotoların 1909-1910-cu illər arasında çəkildiyini ehtimal edə bilərik.

Rusların yaşadığı qəsəbələrin adlandırılması zamanı çar ailə üzvləri və Qafqaz üzrə yüksək inzibati vəzifələr daşıyan şəxslərin– Nikolayevka, Alekseyevka, Qolitsino, Krivoşeino və s. soyadlarından istifadə edilmişdir. Bunun nəticəsi olaraq eyni adda olan rus məskənlərinə Cənubi Qafqazın əksər qəza və quberniyalarında rast gəlmək olar.

Muğan ərazisində salınmış rus məskənlərinin ümumi görünüşü Rusiyanın daxili quberniyalarındakı eyni növ tikililərdən fərqlənmirdi. D.Yermakovun Muğanda çəkdiyi fotolar arasında 1905-ci ildə əsası qoyulmuş Alekseyevka kəndinin ümumi görünüşü də var. "Muğan. Alekseyevka kəndi (17769. Мугань. Алексеевка. Село 42)" (SMF 225/59) təsvirli fotoşəkildə hər iki tərəfdə ruslara məxsus evlərin olduğu geniş küçəni görmək olar. Sonuncunun enli ölçüyə malik olması iri həcmli furqon və kotanların, çoxlu sayda mal-qaranın sərbəst hərəkəti ilə əlaqədar idi (8, c.39).

Muğan ərazisindəki evlərin inşasında və quruluşunda buraya köçürülmüş ruslar özlərinə məxsus ənənələri yaşatmağa çalışırdılar. Əsasən taxtadan tikilmiş qurama üsullu evin daxili və kənar hissələri palçıqla suvanır, sonda isə əhənglə ağardılırdı. Fotonun sağ hissəsindəki evdə də müşahidə etdiyimiz kimi dam hissə qamışla örtülmüşdür. Malikanə formasında olan evlərin iki – yaşayış və təsərrüfat hissədən ibarət olması da diqqəti cəlb edir (7, c.78). Evin pəncərələri həm ön (adətən 1 və ya 2), həm də yan (2 və ya 3) hissədə quraşdırılmışdır.

İlk baxışdan ikimərtəbəli tikilini xatırlatsa da, evlər bir mərtəbəli, lakin kiçik zirzəmili tikilirdi (1, s.373). Kolleksiyadan daha bir – "Muğan. Kür çayının daşması zamanı suyun altında qalmış Artyom Kaqermanovun evi (177763. Мугань. Петропавловка. Залитый наводнением из р. Куры. дом Артема Кагерманова 36)" (SMF 691/80) fotoşəkildə bünövrənin funksiyasını aydın şəkildə müşahidə etmək olar. Belə ki, çay daşları, taxta və gilin vasitəsilə inşa edilmiş bünövrə zirzəmi ilə yanaşı, evi çay daşqınları, güclü yağışlar və daxilini nəmişlikdən qoruyurdu.

Hər üç fotoda diqqət çəkən məqamlardan biri də Muğan ərazisinə köçürülmüş rusların ev inşası zamanı yerli əhalinin artıq formalaşmış tikinti elementlərindən istifadə etməsidir. Belə ki, yerli iqlimə uyğunlaşdırılmış, evlərin ikinci mərtəbəsini xatırladan, dörd ağac dirək üzərində tikilmiş, dam hissəsi bölgənin ucuz tikinti materialı – qamış və gil ilə örtülən qüllələr azərbaycanlılardan mənimsənilmişdir. Həmin qüllələrdən rus ailələri gecələr ağcaqanadlardan, günün qızmar vaxtı isə

günəşdən qorunmaq üçün istifadə edirdilər (3, c.415).

Azərbaycanda məskunlaşmış rus kəndliləri özləri ilə buraya kartof, çuğundur və digər kökmeyvəli kənd təsərrüfat, kəsmik və xama kimi süd məhsullarını, əkinçilik, bağçılıq sistem və ənənələrini gətirmişdilər. Bölgədə yerləşdirilmiş ruslar əsasən kənd təsərrüfatının əkinçilik, bağçılıq, bostançılıq və bəzi bölgələrdə süd məhsullarının istehsalı ilə məşğul olurdular.

Rus kəndliləri Azərbaycan təbiəti üçün səciyyəvi olan buğda sortları əkirdilər, özləri ilə gətirdikləri toxumlar isə yerli şəraitə cavab vermədiyi üçün istifadəyə yararsız idi. Az vaxt içərisində yüksək keyfiyyətli məhsul götürməyə nail olan ruslar yerli əhaliyə toxumluq taxil da satırdılar (1, s.365).

XIX əsrin sonu-XX əsrin əvvəllərində kənd təsərrüfatının yeni avadanlıqlarla təmin edilməsi buraya rusların sistemli şəkildə köçürülməsi ilə əlaqədardır. Belə ki, kəndlilərin yeni avadanlıqlarla təmin edilməsində təbiət və iqlim amilləri xüsusi rol oynamışdır. Lakin kifayət qədər baha olan taxıl biçini üçün nəzərdə tutulmuş avadanlıqlara yalnız varlı rus kəndliləri sahib ola bilirdilər. 1850-ci ildə kənd təsərrüfatı avadanlıqlarının yayılması və tətbiqi ilə əlaqədar "Qafqaz kənd təsərrüfatı cəmiyyəti" yaradıldı. Cəmiyyətin tərkibində yaradılan komissiya tərəfindən əldə olunmuş avadanlıqlar təcrübədən çıxarılır və xüsusi anbarlarda saxlanılırdı (3, c.407).

D.Yermakovun Muğanda çəkdiyi fotoşəkillər arasında taxıl biçini prosesini əks etdirən "Muğan. Petropavlovkada amerikan avadanlıqları ilə biçin (17772. Мугань. Петропавловка. Жатва американскими машинами. 45)" (SMF 691/78) (şəkil 6) adlı təsvir də var. Bu foto iki variantda kolleksiyaya daxil edilmişdir. Onlardan birində dörd atın qoşulduğunu və iş prosesində iştirak edən dörd rus kəndlisini, onların yanında dayanmış hərbi formalı şəxsi görə bilərik.

Digər "Muğan. Petropavlovkada amerikan avadanlıqları ilə taxıl yığımı (17744. Мугань. Петропавловка. Сбор пшеницы американскими машинами. 17)" (SMF 691/81) (şəkil 7) fotoşəkildə də tarlada işləyən heyəti görə bilərik. Taxıl biçinində istifadə edilən avadanlığın arxa hissəsindən çəkilmiş fotoda "WOOD" amerikan şirkətinə aid ticarət nişanını aydın şəkildə müşahidə etmək olur. 1852-ci ildən başlayaraq Volter Vud (Walter Wood) tərəfindən istehsal olunan "Vud" markalı biçin alətləri rus kəndliləri arasında geniş istifadə edilirdi. Vudun biçin avadanlığı qabaq oturacaqda əyləşmiş və əlinin altında qalxıb-enən kəsici hissəni idarə edən ling olan sürücüdən və platformanı biçilmiş taxıldan təmizləyən işçilərdən ibarətdir (6, c.36). Yeni kotan, taxıl biçən və digər dövr üçün müasir texnikaların istifadəsi məhsuldarlığı artırırdı. Sonuncuların adət etdikləri kənd təsərrüfatı alətlərindən üstünlüyünü əyani surətdə görən yerli əhali də onların istifadəsinə maraq göstərirdi.

Çar Rusiyasının imperiyanın ucqarlarında yürütdüyü müsəmləkəçilik siyasəti yerli mətbuatla yanaşı, dövrün məşhur fotoqraflarının da diqqətini çəkməyə bilməzdi. Xüsusi olaraq pambıqçılıq sənayesi üçün prespektivli bölgə kimi seçilən Muğan çölü, burada məskunlaşmış rusların iqtisadi-təsərrüfat həyatı, kəndlərin

sosial strukturu maraq kəsb edirdi. D.Yermakovun məqaləyə cəlb olunan foto kolleksiyasını təhlil etdiyimiz zaman diqqətin xüsusilə Petropavlovka kəndinə yönəldiyini görürük. Bu da əbəs yerə deyildi. Belə ki, Muğan ərazisində salınmış ilk rus məskəni olmaqla yanaşı, artıq 1914-cü ildən bölgənin inzibati mərkəzinə çevrilir. Bu fotoşəkilləri bir növ çar Rusiyasının ucqarlarda yürütdüyü müstəmləkə siyasətinin nəticələrini nümayiş etdirən “hesabat” kimi də qəbul edə bilərik.

Kolleksiyanın böyük hissəsi Muğanın şimal bölgəsinə köçürülən məskənlərdə çəkilmiş fotolardan ibarətdir. Bu bir daha 1904-cü il Rusiya hökuməti tərəfindən rusların sistemli şəkildə əvvəlcədən hazırlanmış sahələrə köçürülməsi haqqında qanunun effektivliyini sübuta yetirir. Fotoların da əyani surətdə təsdiqlədiyi kimi, çar məmurları yeni köçürülənləri torpaq, suvarma sistemləri, yeni kənd təsərrüfatı avadanlıqları ilə təmin edirdi. Digər tərəfdən bunlar Azərbaycanda kapitalist münasibətlərinin inkişafına təkan vermiş və yeni kənd təsərrüfatı məhsullarının becərilməsi ilə nəticələnmişdir.

Milli Azərbaycan Tarizi Muzeyində mühafizə olunan fotomaterialları ayrıca tədqiqat obyekti kimi cəlb edərək tarix, etnoqrafiya və kənd təssərüfatı istiqamətlərində əyani olaraq yeniliklər əldə etmək olar.

İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı:

1. Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı, 2000.
2. Акты, собранные Кавказской археографической комиссией (АКАК). Том 10, док. 293. Тифлис, 1885.
3. Багиров Ф.Э. Переселенческая политика царизма в Азербайджане (1830-1914 гг.). М., 2009.
4. Бунятов Г. Быт русских крестьян Лорийского участка, Борчалинского уезда, Тифлисской губернии / Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК). Вып. 31, отд. 2. Тифлис, 1902.
5. Вердиева Х. Переселенческая политика Российской империи в Северном Азербайджане (XIX-начале XX вв.). Баку, 2016.
6. Ефимов С. История техники. М., 1937.
7. Зейналова С. Формирование европейских этнических общин на Кавказе (XIX – первая половина XX в.). Баку, 2010.
8. Козлов В.И., Комарова О.Д., Степанов В.В., Ямсков А.Н. Проблемы адаптации русских старожилов в Азербайджане (середина XIX-XX в.) / Советская этнография, № 6. М., 1988.
9. Полное собрание законов Российской Империи. Собрание. 1649-1825 гг. Под редакцией М.М. Сперанского. Том 37, №28.714. СПб, 1830.
10. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку, 1990.

11. Likokeli N. Photostudio Ermakov. Photographer, collector, entrepreneur // "Museum". Georgian National Museum's journal. №2, 2015.
12. Masters of 19th Century Photography, Dimitri Ermakov, Photographer and Collector. Georgian National Museum, 2014

Emin Dadashov, Ramiya İsmayilova
Photo collection of D.Yermakov as a source of the investigation of the russian settlements in the Northern Azerbaijan (based on the photographs from NMHA)

Summary

Key words: *displacement policy, Mugan, Petropavlovka, irrigation system, The Golitsyn channel, D.Yermakov, "WOOD", photographs*

The life and occupation of Russian countrymen displaced to the Mugan region had been described in the article with the photographs by the famous russian photograper D. Yermakov i.e. as a historical source had firtsly been involved in the investigation.

The photographs enable us to observe the displacement of either russians to the distant areas or the construction of the irrigation systems, as well as the colonialism policy lead by the Russians by implementation of new agricultural equipment which were resulted in russianization, christianization of the Northern Azerbaijan and finally, being dependant on the metropolitan.

Эмин Дадашев, Рамийя Исмайлова
Фотоколлекция Д. Ермакова, как источник по изучению русских поселений в Северном Азербайджане (на основе материалов Национального музея истории Азербайджана»)

Резюме

Ключевые слова: *переселенческая политика, Петропавловка, оросительная система, Голицынский канал, Д.Ермаков, "WOOD", фотоматериалы*

В статье впервые в качестве исторического источника по изучению быта и хозяйственной деятельности переселенных на Мугань русских крестьян использованы фотоматериалы известного русского фотографа Д.Ермакова

На основе данных фотоматериалов можно проследить как переселенческую

политику, так и строительство оросительной системы с применением новинок сельскохозяйственной техники на окраинах царской России; колониальная политика правительства приводила к русификации, христианизации и более тесной зависимости Северного Азербайджана от метрополии.

Şəkil 1



Şəkil 2

Şəkil 3

Şəkil 4

Şəkil 5

Şəkil 6

Şəkil 7

Bəhman Kərimov

"Talışinskilərin ailə arxivi" Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

Açar sözlər: Ş*imalı Azərbaycan, Lənkəran, muzey, Talışinski, Talışxanov.*

UOT 94 (479.24)

Məqalədə, Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli mənbələr fondunun 227, 230, 367 saylı qovluqlarda mühafizə edilən Talışinskilərə (Talışxanovlara) aid sənədlər və foto materiallar əsasında nəslinin məhşur hərbiçiləri olan Mirəli xan və oğlanları - general-mayor Mirkazım xan, genaral-mayor Xəlil bəy, hərbi həkim Mirəlinağı xan, general-mayor Əsəd bəy Talışxanovun məktublları əsasında onların keçdiyi həyat yolu və Lənkəran qəzasında mövcud vəziyyət araşıdılır.

Bütövlükdə tədqiqata cəlb edilmiş materiallar ilk dəfədir ki, kompleks şəklində araşdırılır və elmi dövriyyəyə gətirilir.

Bildiyimiz kimi, hələ qədimdən Azərbaycanda elə nəsillər, elə tayfalar olub ki, onlar öz döyüşkənliyi ilə təkcə Qafqazda yox, hətta Avropada da tanınıblar. Azərbaycanda olan digər nəsillər kimi Lənkəranda Talışinskilər (Talışxanovlar) kimi doğma Vətənimizin başı üstünü təhlükə alanda birləşib ayağa qalxan, onun hər qarışı uğrunda canlarından keçən oğullar yetişib.

Muzeyin Sənədli Mənbələr Fondunda mühafizə olunan zəngin materiallar içərisində Talışinskilərə (Talışxanovlara) aid olan böyük bir kolleksiya mühafizə edilir. Muzeyin 367 nömrəli qovluqda Mirəli xan Talışinski və onun oğlu Mirkazım xanın keçdiyi həyat yolu xronoloji ardıcılıqla verilmişdir. Bu iki siyahıdan əlavə fondun 230 nömrəli inventar vahidində XX əsrin əvvəllərinə aid, Mirəli xan Talışinskinin oğlanları - Mirkazım xana, Mirəlinağı xana, Əsəd bəyə aid məktublar qiymətli tarixi mənbə kimi mühafizə edilir. Birinci sənəddə 1849-cu ildə çar I Nikolay tərəfindən Mirəli xana nünunəvi xidmətə görə prapoşik rütbəsinin verilməsi haqqında məlumat verilir. Digər biri isə Mirəli xan Talışinskinin yazdığı şəcərədir. Şəcərənin üzərindən də göründüyü kimi, "Mir Mustafa ibn əl-Mərhun Mir Əli xan

Lənkərani" adı ilə hicri 1332-ci il cəmadiül-əvvəl ayının 18-də (miladi 1914-cü il 14 aprel) qələmə alınmışdır. Şəcərədə yazılır: Bismillahir-rəhmanir-rəhim!

İnsanı sudan yaradan və onu şərafətləndirib izzət sahibi edən Allaha həmd olsun. Onun sevgili Peyğənbərimizə də dua və salam olsun....

Mir Əli xan ibn Mir Hüseyn xan ibn Mir Mustafa xan ibn Əmir Qara xan ibn Mir İsmayıl xan ibn Mir Üzeyir xan ibn Mir Xəlil xan ibn Mir Məhəmməd Pza xan ibn Mir Şəmsəddin xan ibn Mir Vəliyüddin xan ibn Mir Hüseyn xan ibn Mir Müəyyin xan ibn əs-Seyyid Əliyyül-Hürümi ibn əs-Seyid Yusif ibn əs-Seyyid Münfəsir Billah ibn əs-Seyyid Şərütiddin ibn əs-Seyid Həsən ibn əs-Seyyid Məhəmməd ibn əs-Seyyid Əhməd ibn əs-Seyyid Əbu Abdulla əl-Hüseyn ibn əs-Seyyid Əli ibn əs-Seyyid Yəhya ibn əs-Seyyid Yəhya ibn əs-Seyyid Hüseyn Zid-Damğa ibn Zeydüş – Şəhid ibn ül-İmam əl-Məsum Əli Zeyyinəl-Abidin ibn əl-Hüseyin əs-Şəhid Bəkir Billah. (Allahın salamı bunların və ailələrinin ürəyində olsun.

Bunu bir elm əhli olan Mir Mustafa ibn əl-Mərhum Mir Əli xan Lənkərani yazmışdır. 18 cəmadiül-əvvəl 1332 Hicri (4, SMF inv. 367/4).

Apardığımız araşdırmalar zamanı Mirəli xan Talışinski haqqında demək olar ki, heç bir yerdə məlumat əldə edə bimədik. Yalnız, E.E.İsmayılovun "Генеалогия Талышинских–Талышхановых" kitabında bir cümlə ilə, onun çar ordusunun zabiti olması haqqında məlumat verilir (6, s. 57). Lakin Mirəli xanın muzeydəki kolleksiyası içərisində, hərbi fəaliyyəti qısa şəkildə şərh olunur. Muzey materiallarına əsasən çar ordusunda xidmət edən Mirəli xan Talışinski 1825-ci ildə Lənkəran şəhərində anadan olmuşdur (4, SMF inv 367). O, ordudakı nümunəvi xidmətə görə "1847-ci il dekabrın 1-də podpraporşik, 05.03.1849-cu ildə praporşik, 10.11.1855-ci ildə əla hərbi xidmətə görə podporuçik rütbəsini almış, 22.06. 1862-ci ildə Qafqaz xəttinin 21 nömrəli batalyonun poruçiki, 18. 06. 1871-ci ildə bölük komandir, 20.11. 1874-ci ildə komandirlərin öyrədilməsi üzrə rəhbər, 28.04. 1875-ci ildə Lənkəran meşə komandasının komandiri, 01.04. 1877-ci ildə 3-cü və 4-cü bölük komandiri, 01.09.1877-01.03.1879-cu ildə hərbi xəstəxananın komandiri, 13.05.1880-ci ildə qərərgah rəisi, 22.08.1880-17.12.1880-ci illərdə 2-ci bölüyün komandiri" (4, SMF inv 367) vəzifələrində çalışmışdır.

Muzeyin fond materialından göründüyü kimi, 1847-ci ilin dekabrın 1-dən çar ordusu nəzdində gürcü nizami qoşununun yerli Bakı batalyonunun unter-zabiti kimi xidmətə başlamış Mirəli xan Talışinski orduda otuz altı ilə qədər xidmət etmişdir. O, 1883-ci ildə ştabs-kapitan rütbəsində rəsmi geyimi daşımaqla və yüksək pensiya təminatı ilə ordudan təxris olunmuşdur.

Bu məsələ ilə bağlı muzey fondunda mühafizə edilən 230 nömrəli inventar qovluqdakı Mirəli xan Talışxanovun 1883-cü il 12 may tarixli məktubda yazılır: "Mən ordudan tərxis olunduqdan sonra Bakı quberniyası Lənkəran qəzasının polis idarəsinin sərəncamına göndərilərək, Lənkərana qayıtdım..." (4, SMF inv. 230).

Fond materialları içərisindəki Mirəli xanın məktubu ilə yanaşı, Lənkəran şəhərində tikdirdiyi binanın planı də qorunub saxlanılır.

Mövcud sənədlərə əsasən Mirəli xan Talışinski orduda yüksək xidmətlərinə görə, “1874-cü ildə 3-cü dərəcəli Müqəddəs Stanislav, 1853-1856-c il Kırım müharibəsinin xatirəsi münasibəti ilə tunc medal və Vladimirski lenti, Qafqazın müdafiəsi uğrunda 1877-1878-ci il müharibəsi münasibəti ilə tunc medalla” (4, SMF inv. 367) təltif edilmişdir.

Bununla yanaşı, muzeyin fond materialları içərisində Mirəli xanın böyük oğlu Azərbaycanın tanınmış hərbi və ictimai xadimlərdən biri Mirkazım xan Mirəli xan oğlu Talışinskiyə və onun ailəsinə aid çoxlu sayda materiallar mühafizə edilir. Muzey materiallarına əsasən Mirkazım xan 1856-ci ildə Lənkəran şəhərində anadan olmuşdur. İlk təhsilini Lənkəran üçsinifli gimnaziyasında alan Mirkazım xan sonradan ailəsi ilə birlikdə Bakıya köçmüş, burada realnı məktəbinin tam kursunu bitirmişdir. O, iyirmi bir yaşında Tflisdə yerləşən İkinci Dərəcəli Konstantin Yunkerlər Hərbi məktəbini bitirdikdən sonra 16-cı Qrenadyor Minqrel alayında xidmətə başlayır. Cəmi bir ildən sonra ona, nümunəvi xidmətinə görə unter-zabit rütbəsi verilmişdir.

Mirkazım xan 16-cı Qrenadyor Minqrel alayının praporşiki kimi 1877-1878-ci illər Rusiya-Türkiyəyə müharibəsində iştirak etmiş, Aleksandropol hərbi əməliyyatı rayonunda göstərdiyi qəhrəmanlığına görə tünd bürünc medalla təltif olunmuşdu (5, s. 59).

1882-ci ildə tərtib olunmuş bir sənəddə Mirkazım xan əla atıcı olduğuna görə avqustun 26-da birinci dərəcəli atıçı kimi təltif edilmiş və yetmiş dörd rubl pulla mükafatlandırılmışdır (5, s. 59). Hərbi nizam-intizama ciddi riayət edən, birinci dərəcəli atıcı Mirkazım xan Talışinski 1884-cü ildə Tiflisdəki Yunkerlər məktəbinə müəllim təyin olunaraqla ona qərargah-kapitanı rütbəsi verilir. 1891-ci ilə qədər burada müəllim işləyən Talışinski həmin ildə yenidən, xidmət etdiyi Qrenadyor Minqrel alayının 13-cü rotasının komandiri kimi fəaliyyətə başlayır.

Yüksək hərbi təcrübəyə malik, podpolkovnik Mirkazım xan 1899-cu ildə 119-cu Kolomensk piyada alayına, 1901-cu ildə isə 82-ci Dağıstan alayına, 1904-cü ildə 206-cı Lorqo-Kaqul ehtiyat piyada alayına, bir müddət sonra isə 1905-ci il sentyabrın 9-da podpolkovnik kimi Benderı şəhərində yerləşən 55-ci ehtiyat piyada batalyonunda komandi vəzifəsində çalışmışdır.

Bununla yanaşı, podpolkovnik Mirkazım xan 1903-cü ildə Qafqaz Hərbi Dairəsinin Hərbi Dairə məhkəməsinin üzvü kimi də fəaliyyət göstərmişdir. Bütün bunlarla yanaşı, onun ordudakı xidmətlərini yüksək qiymətləndirilərək, üçüncü dərəcəli Müqəddəs Anna, ikinci və üçüncü dərəcəli Müqəddəs Stanislav ordenləri, III Aleksandırın hakimiyyəti dövrünə aid xatirə medalları ilə təltif edilmişdir.

Mirkazım xanın ailəsi ilə bağlı 1905-ci il martın birində tərtib olunmuş “xidmət kitabçası”nda yazılırdı: “Mirkazım xan Talışinski Tiflisli saray müşaviri

(çar Rusiyisında yeddinci dərcəli mülki rütbə) Ağabəy Yadigarovun qızı Məsumə xanımla 1888-ci ildə ailə qurmuşdur. Mirkazım xan və Məsumə xanımın dörd övladı olmuşdu. Qızları - Sarabəyim 1890-cı il fevralın 7-də, Liyabəyim 1891-ci il fevralın 8-də, Züleyxa 1892-ci il avqustun 3-də, oğlu Mirəli 1895-ci il sentyabrın 9-da anadan olmuşdur" (5, s.58).

Mirkazım xanın Məsumə xanımla evlənməsi ilə bağlı Muzeyin Sənədli mənbələr fondunda da materiallar mühafizə edilir. Tiflis Yunker məktəbinin kiçik zabiti, qərargah-kapitanı Mirkazım xanın Talışinskinin evlənməsi ilə bağlı 1889-cu il 30 yanvar tarixli raportda yazılır: "Alicənab Sizi saray müşaviri Ağa bəy Yedigarovun qızı Məsuma xanımla qanuni evlənmək münasibəti ilə təbrik edirik..." (4, SMF inv. 230).

Digər bir sənəddə, Ağa bəy Yedigarovun bu evliliyə razılıq əlaməti olaraq 25 yanvar 1889-cu il tarixli iltizamnamə yazılır: "Mən saray müşaviri Ağa bəy Mustafa bəy oğlu Yedigarov qızım Məsumə xanımın, Tiflis Yunker məzunu, 16-cı qrenadyor Minqrel alayının qərargah-kapitanı Mirkazım xanın Talışinski ilə evlənməlinə heç bir etirazım yoxdur (4, SMF inv. 230).

Muzeyin fondunda Mirkazım xanın uşaqları - oğlu Mirəli, qızı Sara xanımı fotoşəkilləri də tarixi mənbə kimi qorunub saxlanılır. Birinci fotoşəkildə, inventar kitabına əsasən Mirkazım xanın uşaqları Sara və Mirəli olduğu qeyd edilir. Lakin şəkildən də göründüyü kimi hər iki uşağın geydikləri, əsasən palto və baş geyimi eyni formadadır (4, SMF inv. 127/2). Fotoşəkilə əks olunan geyim formasına əsasən demək olar ki, burada ayaqüstə, Mirkazım xanın böyük qızı Sarabəyim xanım və onun yanında oturan vəziyyətdə kiçik bacıları Liyabəyim və ya Züleyxadır. Çünki burada əks olunmuş uğaqların ikisi də qız geyimi formasındadır. İkinçi fotoşəkildə Tiflis şəhəri ikinci qızlar gimnaziyasının şagirdi geyimində Sarabəyim xanım (4, SMF inv. 127/8), digərində Tiflis şəhəri ikinci klassik gimnaziyasının şagirdi Mirəli əks olunmuşdu (4, SMF inv. 127/9).

Rusiyanın müxtəlif şəhərlərində - Minskdə, Mogilyovda, Qroznıda, Sibirdə hərbi xidmətdə olan və uzun illər orduda qüsursuz işləyən podpolkovnik M.M.Talışinskiyə 1915-ci ildə general-mayor rütbəsi verilmişdi. Elə həmin il I Dünya müharibəsi başlanması ilə əlaqədar olaraq, Nikolsk-Ussriyel şəhərində yerləşən üçüncü Sibir atıcı polkunun komandiri vəzifəsində işləyən general M.M.Talışinski ailəsini Tiflisə yola salaraq, müharibəyə yola düşür (3, s.37). Muzey materialları içərisində Mirkazım xana general-mayor hərbi rütbəsi alması münasibətilə qardaşı Mirəlinağı xanın göndərdiyi məktubda, Mirkazım xanın general-mayor hərbi rutbəsi almaq münasibətilə təbrik edərək, ona hədiyə olaraq 100 rubl" göndərdiyi qeyd edilir (4, SMF inv. 230).

Generalın qızı Züleyxa xanım öz xatirələrində yazırdı ki,"Yadımdadır, o vaxtlar inqilabi iş üstüdə "Potyomkin" zirehli gəmisinin heyəti Sibirə sürgün olunmuşdur. Onlar bizim qonşuluğundakı qəsəbədə yerləşdirilmişdilər. Komandirlər xırda bir

səhvə görə ağır və dözülməz cəza verəndə atam onlara (sürgündəkilərə) havadar dururdu. Hətta, bir neçəsini, ölüm cəzasından belə xilas etmişdi. Ucaboy, enlikürək matroslar atamla çox hörmət-izzətlə görüşürdülər. Onlar küçədə atama rast gələndə qurşağa qədər əyilir, "Əlahəzrət, səxavətiniz həmişə var olsun! Kölgəniz bizim əzabkeşlərin üstündən əskik olmasın!" – deyib yolun qırağına çəkilər, lal-dinməz dayanardılar. Atam isə gülümsünüb onlara yanaşar, əl-tutar və "Bu qədər təzim nəyə gərəkdir?" – deyib kədərlə köks ötürərdi (5, s. 59).

General-mayor Mirkazım xan Talışinski 1916-ci ildə ordudan tərxis edildikdən sonra Tiflisə, ailəsinin yanına qayıdır. O, burada da işsiz dayanmır. Elə həmin ildə həmyerlisi, topoqrafiya general-mayoru İbrahimağa Vəkilovla birlikdə Qafqaz Müsəlmanları Xeyriyyə Cəmiyyəti yaradırlar. İ.Vəkilov cəmiyyətin sədri, M.Talışinski isə onun mavini seçilir (7, s. 789). Onu da qeyd edək ki, generalın böyük qızı Sarabəyim xanım Talışinskaya da (1890-1976) Qafqaz Qadın Müsəlman Xeyriyyə Cəmiyyətinin yaradıcılardan biri və onun xəzinədarı olmuşdur (7, s. 790). 1918-ci ildə Lənkərana gələn general doğulduğu yurd yerini gəzir, doğmaları ilə görüşür. Azərbaycan xalqının görkəmli oğlu, hərbi xadim Mirkazım xan 1938-ci ldə Bakıda vəfat etmişdir.

Bildiyimiz kimi, Şimalı Azərbaycanın digər regionları ilə yanaşı Lənkəran qəzası da əhali I Dünya müharibəsinin qələbəsi uğrunda ön və arxa cəbhədə çalışmışdır. Bu dövrdə, Lənkəran qəzasından göndərilən "könüllü" birləşmələrlə yanaşı, Talışinskilər nəslinin məşhur generalları Mirkazım xan, Xəlil bəy, Əsəd xan, həkim Ağaxan Talışinski ön və arxa cəbhədə qəhrəmanlıqla döyüşmüşdülər. Muzey materialları içərisində general-mayor Mirkazım xan Talışxanovun doğma qardaşı Mir Məmmədhəsən xan Talışinskinin döyüşlərin birində qəhrəmanlıqla həlak olduğu qeyd edilir. Apardığımız araşdırmalar zamanı heç bir yerdə Talışinski nəslinin I Dünya müharibəsində qəhrəmanlıqla həlak olmuş zabiti haqqında məlumat əldə edə bilmədik. Lakin muzeyin fondunda mühafizə olunan, Mir Məmmədhəsən xan Talışinskinin ölümü haqqında "Təsdiqnamə"də yazılır: Alihəzrət (inqilabdan əvvəl çar ailəsindən olan knyazların titulu) İmperiyanın Böyük knyazı Dimitri Konstantinoviçin polkonda xidmət edən, 16-cı Qrenaderski Munqrenski polkonun istefaya çıxmış general-mayor Talışxanovun (Mirkazım xanı nəzərdə tutulur – B.K.) doğma qardaşı Mir Məmmədhəsən xan Talışinski 1914-cu il 24 sentyabr tarixində Rudki kəndi yaxınlığında baş vermiş döyüşdə həlak olmuşdur. İmza: Böyük knyaz Dimitri Konstantinoviç. Döyüşən ordu. 12 noyabr 1914-cü il" (4, SMF inv. 230).

Muzeyin fond materialları içərisində Mirkazım xanın digər qardaşı Mir Əlinağı bəy Talışxanova verilən şəhadətnamə qiymətli mənbə kimi çox maraqlıdır. İlk dəfə elmi dövriyəyə cəlb olunmuş bu sənəddə poruçik (çar ordusunda zabit rütbəsi) Mir Əlinağı bəy Talışxanovun 1876-ci il iyulun 18-də anadan olduğu göstərilir. Mənbəyə əsasən Mir Əlinağı bəy Talışxanov 1888-ci ildə üçsinifli Tiflis realin məktəbinin

daxil olmuş və 1891-92-ci tədris ilində məktəbin üçüncü sinifini birirmişdir (4, SMF inv. 230). Burada onun aldığı qiymətlərdə də öz əksini tapmışdır.

Fond materiallına əsasən Mir Əlinağı bəy Talışxanov 1892-ci ildə məktəbi bitirdikdən sonra Tiflisdə hərbi feldşer məktəbinə daxil olmuşdur. Mənbədə, 16-cı Qrenad Munqrenski polkonun qərargah-kapitanı (Mirkazım xan) Talışinskinin qəyyumu olduğu kiçik qardaşı haqqında Qafqaz Hərbi dairəsinin Hərbi-həkimlər inspektruna göndərdiyi ərizədə yazılırdı ki, “Qardaşım Mir Əlinağı bəy Talışxanov 1886-ci ildə Bakı realnı məktəbinin birinci sinifinə daxil olmuş, lakin atasının işi ilə əlaqədar Tiflisi realni məktəblərində təhsilini davam etdirmişdi. Təhsilini başa vurduqdan sonra Tiflisdə hərbi feldşer məktəbinə daxil olmuşdur...” (4, SMF inv. 230).

Mir Əlinağı bəy Talışxanova aid, Qafqaz Hərbi dairəsinin Hərbi-həkimlər inspektrunun 29 mart 1893-cu il tarixli sənəddə yazılırdı: “16-cı Qrenad Munqrenski polkonun qərargah-kapitanı (Mirkazım xan) Talışinskinin qardaşı, Tiflisdə hərbi feldşer məktəbinin tələbəsi Mir Əlinağı bəy Talışxanovun sənədləri Tiflis hərbi qospitalının baş həkiminin sərəncamına göndərilmişdi” (4, SMF inv. 230).

Muzeydə mühafizə edilən Mir Əlinağı bəy Talışxanova aid qiymət cədvəlində onun iki illik Tiflis hərbi feldşer məktəbini 1892-93-cü tədris ilində müffəqiyyətlə tam kursu bitirdiyi qeyd edilir (4, SMF inv. 230).

Bununla yanaşı, muzey fondunda Talışinskilərin (Talışxanov) bir böyük sahibkar kimi mülklərində əldə olunan gəlirlərinə dair zəngin sənədlər vardır. Sənədlərin birində Mir Bağır xan Talışınskinin 1915-ci il oktyabrın 7-də Qafqaz canişininə göndərdiyi məktubda ona məxsus olan Girdəni sahəsinidə, meşədən istifadəyə görə verilmiş bir günlük bilitenin qiyməti 70 qəpik olduğu yazılır. Mənbəyə əsasən Mirəlinağı bəyin nəzarətində olan Mirkazım xanın mülkündən 1909-cu ildə 2793 rubl, 1910-ci ildə 2058 rubl, 1911-ci ildə 1176 rubl gəlir əldə edilmişdir. Məktubda Girdəni, Miyanku, Rovu, Boradigah meşə sahəsində əldə edilən gəlirlərlə bağlı məlumat da öz əksini tapmışdır (4, SMF inv. 230).

Lənkəran qəzasının tarixinin öyrənilməsi üçün mühüm əhəmiyyət kəsb edən bu sənədlərin araşdırılması Vətən tarixinin tədqiqində xüsusi aktuallığa malikdir. Sənədlərin birində Mirnağı xanın Mirkazım xana göndərdiyi məktubların birində, torpaq mülklərində mövcud problemlər və əldə olunan gəlirlərdə gecikmələr və icadarların vergidən imtina etməsi məsələləri haqqında məlumat öz əksini tapır. Bununla yanaşı, 1913-cü ilə aid məktubda da Mirkazım xan ona aid meşələrin başqaları tərəfindən zəbt edildiyi qeyd edir (4, SMF inv. 230). Aparılmış tədqiqatlara əsasən bu məktublar, 1912-13-cü illərdə Lənkəran qəzasında baş verən kəndli çıxışları haqqında qiymətli mənbə kimi xüsusi əhəmiyyətə malikdir.

Əsəd bəyin 1914-cü il fevralın 19-da qardaşı Mirkazım xana göndərdiyi məktubda da Butəsər işindən yəni, burada baş verən üsyanlardan söhbət açılır, onlara aid torpaqların zəbt edilməsi məsələsinə toxunur. Məktubda baş vermiş

etirazın məhkəmə vasitəsilə həl edilməsini və sahibkarların əmlaklarının qorunması üçün Peterburqa müraciət edilməsi qeyd edir (4, SMF inv. 230).

Fond materiallarında Mirnağı xan Talışinskin 1915-ci il oktyabrın 17-də Mirkazım xan göndərdiyi məktubda birgə istifadə etdiyimiz meşə təsərüfatından əldə edilən gəlirlərlə bağlı məktubda da bu məsələlər ön planda öz əksini tapır. Məktubda yazılır: “Sizin və Əsəd xanın payına düşən hissələr tam şəkildə Sizə göndərilmişdir. Lakin bu dövrdə Boradiga mülkündə baş qaldıran narazılıqlar bu məsələlərdə müəyyən problemlər yaradır. Mir Əzir bu məsələlərlə bağlı müəyyən işlər görsədə hələ heç bir nəticə əldə edilməyib. Hələdə torpaq üstündə mübahisələr davam edir” (4, SMF inv. 230).

Muzey materiallarından da göründüyü kimi Mirəli xan Talışinskinin bütün oğlanları atasının yolu ilə gedərək hərbiçi kimi, yüksək rütbəyə sahib olmuşdular. Onun çar ordusunda nümunəvi xidmətə general-mayor hərbi rütbəsinə qədər yüksəlmiş kiçik oğlu Xəlil bəy Talışinski (Talışxanov) 1859-cu ildə anadan olmuşdur. Xəlil bəy Birinci dünya müharibəsi dövründə (1914-1917-ci illər) çar ordusunda azərbaycanlılardan təşkil olunmuş “Dikaya diviziya”da xidmət emişdir. 1917-ci ildə diviziya ləğv edildikdən sonra o, dekabr ayında yaradılan Müsəlman korpusu adlandırılan ordunun 1-ci atıcı diviziyasının komandiri kimi fəaliyyətə başlayır. Diviziyanın 1-ci alayının təşkili ilə əlaqədar Xəlil bəy Talışinski 1918-ci il fevralın 24-də rəhbərlik etdiyi qərargahın zabitləri ilə Bakıya gəlmişdi. O, diviziyanın 1-ci piyada alayını formalaşdırmaq məqsədi ilə dərhal Bakıya yollanması vətənpərvərliyi və igidliyindən xəbər verir. Bu zaman, Milli hərbi qüvvələrin formalaşmasına maneçilik törədən bolşeviklər və erməni-daşnak hərbi qüvvələri Xəlil bəy Talışinskini və zabitləri dəmir yolu vağzalında həbs etmişdilər. Bu hadisə xalq kütlələrinin geniş narazılığına səbəb olduğundan onlar Talışinskini və onun zabitlərini azad etməyə məcbur oldular. Xəlil bəy Talışinski və ətrafındakı zabitlər alayın təşkili ilə əlaqədar Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi “İsmailiyyə” binasında fəaliyyətə başlayırlar. Onun yaratdığı alayın hissələri 1918-ci il martında Bakıda törədilən soyqırımı zamanı bolşevik-erməni qüvvələrinə qarşı inadlı müqavimət göstərmişdir. Onun bu mübarizəsi sayəsində dinc əhalinin bir qisminin Abşeron kəndlərinə çəkilməsini təmin etmək mümkün olmuşdur. Sonradan Bakıda hərbi vəziyyətin mürəkkəbləşməsi ilə əlaqədar Xəlil bəy Talışinski korpus komandirinin əmrinə əsasən, şəhəri tərk etdir (1, s. 391). Onun sonrakı fəaliyyəti haqqında məlumat yoxdur. Lakin, G. Məmmədzadənin “Lənkəran mahalının sərkərdələri” kitabında” (3) Xəlil bəyin Azərbaycanın ərazi bütövlüyü uğrunda, Lənkəran qəzasının bolşevik, erməni və ağqvardiyaçı quldur dəstələrindən təmizlənməsi əməliyyatında iştirak etdiyini, Lənkəran şəhərinin azad edilməsindən sonra çəkilmiş aşağıdakı fotoşəkili verməklə təsdiq edir. Fotoşəkildə Lənkəran qəzasının general-qubernatoru Cavad bəy Məlik-Yeqanov, Həbib bəy

Səlimovun və digərlərlə yanaşı Xəlil bəy Talışinski də əks olunmuşdu.

Bildiyimiz kimi, 1917-ci ildən başlayaraq Lənkəran qəzası, bolşevik, erməni və ağqıvardiyaçıların amansız soyqırımına məruz qalmışdır. Bu qırğınlar nəticəsində minlərlə insan öldürülmüş və didərgin düşmuşdur. Beləliklə, Azərbaycanın cənub bölgəsində ölkənin ərazi bütövlüyünün təmin edilməsi üçün Azərbaycan Xalq Cümhuriyyəti ordu hissələri 1919-cu ilin avqustunda həyata keçirdiyi hərbi əməliyyat zamanı, əvvəllər bolşeviklərin, sonra isə ağqvardiyaçı qüvvələrin nəzarətində olan Lənkəran qəzası düşmən qüvvələrindən təmizləndi.

Beləliklə, Lənkəran qəzasında ağalıq edən bolşevik və erməni quldur dəstələrinin, denikinçilərin ağalığına son qoyulmuşdur. Dövrü mətbuatda bu səhnəni əks etdirən yazıda qeyd edilirdi ki, "Son günlər Azərbaycan ordusunun göstərdiyi rəşadətlər və qəhrəmancasına mübarizələri vəsfə gəlməz qorxusuz hücumları düşməni vəhşət və iztiraba salaraq böyük müzakirələrdən sonra təslim olmağa məcbur etdilər. Muğan ordusu düşənbə günü şəhəri boşaldıb məyus halda geri çəkildilər. Ertəsi gün Azərbaycan ordusunun istiqbalına hazırlaşan əhali kişi-qadın, böyük-kiçik hamı əllərində gül dəstələri tutaraq ordunu qarşılamaq üçün sevinclə Böyük Bazar tərəfə axın-axın gedirdilər. Yolda ana-oğul, qohum-qardaş cəhənnəmdən xilas olmuş günahkarla kimi bir-birilə görüşüb şadlanırdılar. Sanki illərdir qaranlıqda qalıb indi aydınlığa çıxmışdılar. Bəli, qara buludlar üzərimizdən çəkildi. Haqq parladı.

Azərbaycanın nəğmə və şərqilərinin məlahəti, zabitlərin amiranə bir vəziyyətdə addım atmasının səsi hər yerə yayılırdı. Ay-ulduzlu bayraqların dalğalanması xəstə ürəklərin bütün cəfa və sitəmlərini unutdururdu. Ordu komandanı və qubernator camaat qarşısında Quranı Şərifi ziyarət edib, duz-çörək daddılar. Qubernator Cavad bəy nitq edib xalqa Azərbaycan hökumətinin gətirdiyi səadətdən, azadlıqdan danışdı. Onun sözləri əhalinin "Yaşasın Azərbaycan", "Yaşasın ordu", şüarları sədaları ilə alqışlandı. Qurbanlar kəsildi. Orduya yürüş əmri verildi. Camaatla bərabər uşaqlar, oğlan və qızlar əllərində rəngbərəng güllər əziz qonaqları ordunun yerləşəcəyi binaya qədər müşayiət etdilər (2).

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparan, Milli ordumuzda yüksək vəzifədə çalışan Xəlil bəy Talışinski 1920-ci il aprel çevrilişindən sonra XI qırmızı ordunun Xüsusi şöbəsinin göstərişi ilə digər Cümhuriyyət generalları ilə birlikdə həmin ilin iyulun 16-da Nargin adasında güllələnmişdir.

Beləliklə, Vətən tarixinin araşdırılmasında mövcud arxiv və fond materialların araşdırılması tarixşünaslıq üçün vacib məsələlərdən biridir. Bu istiqamərdə böyük işlər aparan Milli Azərbaycan Tarixi Muzeyi Vətən tarixini təbliğ etməklə yanaşı, fondlarında zəngin materialları araşdıraraq elmi dövriyəyə gətirərək onu daha da zənginləşdirir.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:

1. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. İki cilddə. II cild. Bakı, 2005.
2. "Azərbaycan" qəzeti, 20 avqust 1919-cu il, № 261.
3. Məmmədzadə G. Lənkəran mahalının sərkərdələri. Bakı, 1996.
4. Milli Azərbaycan Tarixi Muzeyinin Sənədli Mənbələr fondu, inv. 227, 230, 367.
5. Nəzərli Ş. Ə. Azərbaycan generalları. Bakı,1991.
6. Исмаилов Э.Э. Генеалогия Талышинских–Талышхановых. Баку, 2001.
7. Кавказский календарь на 1917 г. Тифлис, 1916 г.

Bahman Kerimov

"History of the Talyshins" as a study of the history of Azerbaijan (based on the materials of the Museum)

Summary

Key word: *Northern Azerbaijan, Lankyran, museum, Talyshinskie-Talyshkhanov, family archive*

In the statue of the martyrs in the National Museum of Azerbaijan (Fund of Documentaries, № 227-230), the documents and photographs of the representatives of the Dingas of Talyshinskii (Taghkhanov). The XIX century was marked by a rebuilding of the 19th century by Mirali Khan and Major General Mirkyazim Khan and Major General Halil Bohum, a military healer with Miralinaghi Khan and Major General Asad bastion Talushkhanov in a prehistoric lifeboat and in the Lankaran district.

Materials are embedded systemic and are published first.

Бахман Керимов

«Семейный архив Талышинских» как источник по изучению истории Азербайджана (на материалах Национального Музея Истории Азербайджана)

Резюме

Ключевые слова: *Северный Азербайджан, Лянкяран, музей, Талышинские-Талышхановы, семейный архив.*

В статье приведены хранящиеся в Национальном музее истории

Азербайджана (Фонд документальных источников, № 227-230) документы и фотографии представителей династии Талышинских (Талышхановых). Представлена переписка видного военного конца XIX – начала XX веков Мирали хана с сыновьями – генерал-майором Миркязым ханом и генерал-майором Халил беком, военным врачом Миралинаги ханом и генерал-майором Асад беком Талышхановым о пройденном жизненном пути и обстановке в Ленкоранском уезде.

Материалы носят системный характер и публикуются впервые.

Mirkazım xan Talışinski

Xəlil bəy, Lənkəran geniral-qubernatoru C.Məlik-Yeqanov, ingilis geniralı Doron Lənkəran zəhmətkeşləri arasında. 1919-cu il.

Oğlu Mir Əli Tiflis şəhəri ikinci klassik gimnaziyasının VI sinif şagirdi. Tiflis, 1908

Sara xanım Tiflis şəhəri ikinci qızlar gimnaziyasının şagirdi. Tiflis, 1906-07

Mirkazım xanın uşaqları Sara və Mirəli

Nərmin Bağırova

Muzeyin kolleksiyasında "Səadət"xeyriyyə cəmiyyətinin tarixinə dair eksponatlar

Açar sözlər: *Axund Ağa Əlizadə, "Səadət" ruhani cəmiyyəti, "İttihad" məktəbi, Üzeyir Hacıbəyli, Bəhram Axundov, Ağa Axundov*

UOT 94 (479.24)

1905-ci il inqilabından sonra hökumətin oktyabr bəyannaməsi ölkədə mədəni-maarif işlərinin daha da inkişaf etməsinə təkan verdi. Maarif və təhsil məsələləri xüsusilə yerli dövri mətbuatda öz əksini tapırdı. Məqalələrdə milli dildə təhsil almağın, tədrisin həcmi və keyfiyyətinin artırılması məsələləri öz əksinin tapırdı.

Beləliklə, XIX-XX əsrin əvvəllərində Azərbaycan xalqını oyatmaq, maarifçilik ideyalarının yayılması, elmsizliyin, savadsızlığın aradan qaldırılması məqsədi ilə ölkənin hər bir yerində xeyriyyə cəmiyyətləri yaradılmağa başlayır. Bu işdə Azərbaycan xalqının alicənab, maarifpərvər adamları xeyirxahlıq göstərərək, öz şəxsi iştirakı və vəsaitləri hesabına müxtəlif cəmiyyətlər təşkil edir, xalqının təhsili və inkişafı qayğısına qalırdılar.

Azərbaycanda xeyriyyəçiliyin qədim kökləri vardır. Lakin XIX əsrin sonunda xeyriyyəçilik geniş miqyas almış, yeni forma və məzmun kəsb etmiş, hüquqi normaya çevrilmiş və bu sahədə təşkilatlar yaranmışdır. Bu, Azərbaycanda kapitalist münasibətlərinin inkişafı, habelə dövrün ictimai-iqtisadi həyatı ilə də bağlı olmuşdur. XIX əsrin ikinci yarısında Azərbaycanda kapitalist münasibətlərinin sürətlə inkişafı ölkədə ictimai-iqtisadi münasibətlərlə yanaşı, həm də əhalinin sosial-mədəni həyatına öz təsirini göstərmişdir. Neftin sənaye üsulu ilə çıxarılması Azərbaycan iqtisadiyyatını kapitalist münasibətləri axarında sürətləndirdikcə ölkədə əhalinin təbəqələşməsi də sürətlənir, nəticə etibarı ilə az saylı milyonçularla yanaşı, xalqın böyük bir hissəsini təşkil edən yoxsullar ordusu yaranırdı. Kapitalizm nəzəriyyəçiləri onu "proletariat" adlandırırdı. Kapitalizmin bütün ziddiyyətləri ilə əhatə olunan xalq kütləsi hər şeydən əvvəl maddi çətinliklərlə üzləşirdi. Belə bir

ictimai-iqtisadi şəraitdə xalq haqqında, onun elmə, təhsilə yiyələnməsi, dolanacağı barədə düşünən demokratik ruhlu ziyalılar yeni xeyriyyə cəmiyyətləri yaratmaq təşəbbüsünə əl atdılar.

Haqqında bəhs etdiyimiz dövrdə xalqın maariflənməsi işində böyük xidmətləri olmuş xeyriyyə cəmiyyətlərindən biri də rəsmi olaraq 1907-ci ilin iyun ayının 7-də Nizamnaməsi qeydə alınmış, ancaq dindar müsəlmanların və seyidlərin üzv ola biləcəkləri "Səadət" cəmiyyəti olmuşdur.

Ölkəmizin elmi-mədəni ocaqlarından biri olan Milli Azərbaycan Tarixi Muzeyinin fondlarının kolleksiyasında Azərbaycanda maarifin tarixinə, görkəmli maarif xadimlərinin fəaliyyətinə, eləcə də məqalədə bəhs olunduğu "Səadət" xeyriyyə cəmiyyətinin fəaliyyətinə dair müxtəlif səpgili zəngin materiallar toplanmışdır. Həmin materilallara əsasən Muzeyin Sənədli Mənbələr, Etnoqrafiya, Neqativ fondlarında rast gəlmək olar.

Belə ki, "Səadət" cəmiyyətin yaranması tarixçəsinə nəzər saldıqda qeyd edə bilərik ki, 1906-cı ildə müsəlmanların təlim-tərbiyəyə ehtiyaclarını müzakirə edən bir qrup maarifpərvər ruhani mədrəsəsi tikmək qərarına gəlir. Bu tədbiri həyata keçirdikdən sonra isə Təzəpir mədrəsəsini təmir etməyi qarşısına məqsəd qoyan qrup müəyyən maneələrlə üzləşincə xeyriyyə cəmiyyəti yaratmaq fikrinə düşür. Beləliklə, cəmiyyət ideyasını gerçəkləşdirən qrupun hazırladığı Nizamnamə 1907-ci ilin iyun ayının 7-də təsdiq olunur. Nizamnamənin 1-ci maddəsində də göstərildiyi kimi cəmiyyət Bakı şəhərindəki dini məktəb və mədrəsələrin yeni əsaslar üzərində yenidən təşkil olunması məqsədi ilə qurulmuşdur. Həmçinin zamanın ruhuna uyğun olaraq yeni dini təhsil müəssisələrinin, müəllim institutları və başqa ali məktəblərin açılması da cəmiyyətin qarşısında duran vəzifələrdən idi. Bir ay sonra isə Hacı Qasım bəy məscidinə toplaşan müsəlmanlar təsis toplantısı keçirərək tanınmış üləmalardan mötəbər alim Axund Molla Ələkbər Abbasquluzadəni sədr, Axund Molla Ağa Ağaəlizadəni isə sədr müavini və dövrünün tanınmış din xadimlərindən ibarət 14 nəfərlik idarə heyəti seçdilər. 24 fəxri, 98 həqiqi və 122 himmətli üzvü olan cəmiyyətin rəhbər orqanına üləmalarla yanaşı, ziyalılar və Murtuza Muxtarov kimi sərvət sahibləri daxil olsalar da cəmiyyət özünün daha çox dini təəssübkeşliyi ilə digər xeyriyyə cəmiyyətlərindən fərqlənirdi. Cəmiyyət dini təhsilin inkişafına maraq göstərir və əsasən bu sahədə xeyriyyəçilik fəaliyyətinə diqqət yetirirdi (1, s. 232-233).

Cəmiyyətin "Mədrəseyi-səadət" adlı məktəbinin açılması onun fəaliyyətində ən mühüm hadislərdən biri olmuşdur. 1907-ci ildə Bakıda fəaliyyətə başlamış mədrəsəyə müdir olaraq Fransanın Sorbonna Universitetində təhsil almış fransız, fars, ərəb və türk dillərini mükəmməl bilən, müasir elmi nailiyyətdən xəbərdar və əslən iranlı olan Mirzə Ələkbər adında bir şəxs dəvət olundu. Müdir də daxil olmaqla mədrəsədə 1908-1909-cu tədris ilində 7, sonrakı dövrdə isə 14 müəllüm çalışırdı. Mədrəsədə güclü pedaqoji kollektiv toplanmışdı: Əli bəy Hüseynzadə-

türk, alman dillərini və tarixi, Fərhad Ağazadə - ana dili, coğrafiya və riyaziyyatı, Axund Hacı Molla Əbdürrəhim Hadizadə isə şəriəti tədris edirdi. 1908-1911- ci illər arasında mədrəsədə riyaziyyat, rus dili və nəğmə dərslərini aparan Üzeyir bəy Hacıbəylinin tədris proqramlarının təkmilləşdirilməsində xüsusi rolu olmuşdur.

Müxtəlif illərdə məktəbdə çalışmış Məhəmmədhənifə Terequlov-rus dili, Əli Hüseynov- hesab, Kazım bəy Məlikov-coğrafiya və rəsm, Molla Əbdül Rəhimov-şəriət fənlərindən dərs demişlər. Mədrəsədə çalışan müəllimlər arasında dövrünün tanınmış ziyalılarından Ceyhun bəy Hacıbəyov, nakam şairimiz Mikayıl Müşfiqin atası Mirzə Qədir İsmayılzadə, Əli Terequlov, Musa Rza Əsgərlinin və mədrəsənin həkimi Bəhram bəy Axundovun da xidmətlərini qeyd etmək vacibdir.

Muzeyin Neqativ fondunun kolleksiyasında "Mədrəseyi-səadət" məktəbinin müəllimlərinin qrup şəkli (2), eləcədə məktəbin rus dili müəllimi olmuş Məhəmmədhənifə Terequlovun (2) şəkli qorunub saxlanılır.

Fəaliyyətə başladığı vaxtdan etibarən xalqın rəğbətini qazanmış mədrəsəyə tələbat gündən-günə artır və mövcud bina darısqallıq edirdi. Mədrəsənin müdiri, sonralar İranın Balkan ölkələrində və Misirdə səfiri olmuş Mirzə Ələkbər xan Bəhməndən və onu qısa müddət ərzində əvəz edən Axund Molla Ağa Əlizadədən sonra cəmiyyət mədrəsəyə türk dili müəllimi kimi fəaliyyət göstərən Əli bəy Hüseynzadəni müdir vəzifəsinə təyin etdi.

Çar hökumətinin getdikcə artan təzyiqləri nəticəsində və ittihatçı dostlarının dəvətilə 1910-cu ilin dekabr ayının 4-də, Türkiyəyə gedənə qədər, Əli bəy böyük uğurla həmin vəzifədə çalışdı.

Mədrəsədəki təhsil sisteminin ən üstün cəhətlərindən biri onun ciddiliyi və obyektivliyi ilə izah oluna bilər. Şagirdlər hər dərs ilinin sonunda may ayında şifahi və yazılı imtahanlar verir və ancaq müvəffəqiyyət qazanandıqları təqdirdə növbəti şöbəyə keçirdilər. Mədrəsənin şagirdləri 1-ci sinifdən etibarən üstündə məktəbin adı yazılmış, düymələri sarı, hər qolunda bir düyməsi, bir də mavi zolaq olan kitel və ortasında xüsusi nişan olan papaqdan ilarət xüsusi forma geyərdilər. 3 hazırlıq şöbəsi və 4 əsas sinif ilə fəaliyyətə başlamış mədrəsə ibtidai və natamam orta təhsil verirdi. Mədrəsədə təhsilini başa vurduqdan sonra şagirdlər gimnaziya və realnı məktəbdə oxumaq hüququ əldə edirdilər. Türkiyə maarif sistemini əsas alan mədrəsənin tədris planlarına nəzər saldıqda hazırlıq şöbəsinin 1-ci ilində İslam dininin əsasları, Türk dili və hesab fənlərinə yer verildiyinin şahidi oluruq. 1-ci ildə nəzərdə tutulmuş həftəlik 18 saatlıq dərsin 10 saatının bilavasitə Türk dilinə ayrılması cəmiyyətin ana dilinin tədrisinə verdiyi əhəmiyyətdən irəli gəlirdi. İkinci və üçüncü il şöbələrində isə təhsil proqramı bir qədər mürəkkəbləşirdi. Belə ki, dini elmlərdən şəriət fənnindən başqa Qurani-kərim, xarici dillərdən isə Türk dili ilə yanaşı fars və rus dilləri də tədris olunurdu. Bundan başqa, şagirdlərə ərəb dili, hesab, müsəlman və rus hüsnxətti, naqqaşlıq və rəsm fənləri də öyrədilirdi. Nəhayət,

üçüncü il şöbəsindən sonra 1-ci sinif gəlirdi və orada şəriət, hesab, rəsm, Türk, rus, fars dili fənlərinə alman dili, tarix, təbiət, coğrafiya, Rusiya tarixi də əlavə olunurdu. 2- ci sinifdə həmin fənlərdən başqa fransız dili, 3-cü və 4-cü siniflərdə isə qədim tarix, riyaziyyat və həndəsə fənləri tədris olunurdu. Mədrəsənin tədris planından da görüldüyü kimi təhsil müddətində şagirdlərə dini elmlərlə bərabər dünyəvi elmlər də öyrədilirdi. Ən başlıcası isə, burada təhsil alan şagird ana dilindən başqa beş xarici dil öyrənmək imkanı əldə edirdi ki, bu da o dövr üçün son dərəcə lazımlı idi. Mədrəsənin nəzdində fəaliyyət göstərən axşam kursları da əhalinin savadlandırılması işində mühüm rol oynamışdır. Xalqın maariflənməsi prosesində yaxından iştirak edən cəmiyyətin mənəvi dəyərlərə bağlılıgı və açdıgı məktəblərdə istifadə olunan dərsliklərin əsasən İstanbuldan və Təbrizdən gətirdilməsi Qafqaz Daxili İşlər Komissarlığının Tədris Dairəsinin diqqətindən kənarda qala bilməzdi. Bakı şəhər bələdiyyə idarəsi müxtəlif bəhanələrlə xeyriyyə cəmiyyətlərinin, o cümlədən "Səadət" cəmiyyətinin açdığı məktəblərdə yoxlamalar aparır, tədris planları və proqramları, müəllimlərin kimliyi, dərsliklərin kim tərəfindən yazılması haqda müfəssəl məlumat tələb edirdi. Maraqlıdır ki, o dövrün maarifçi-demokratları da bir sıra hallarda cəmiyyətin fəaliyyətini qəbul etmir, onu molla hazırlamaqda ittiham edirdilər. 1908-ci ildə "Molla Nəsrəddin" jurnalında nəşr olunmuş "Səkkiz yüz molla" adlı məqalə də məhz bu qəbil münasibəbin nəticəsi idi (1, s.341).

Fəaliyyətə başladığı dövrdə cəmiyyət həmçinin Bakıda "İttihad", Tiflisdə isə "İttifaq" adlı məktəblər təşkil etmişdi. Belə ki, 1906-cı ildə «Səadət»cəmiyyətin dəstəyi ilə açılmış və Cənubi Azərbaycandan gəlmiş fəhlələrin üşaqları üçün təşkil olunmuş rus-fars 7 sinifli "İttihad" kişi progimnaziyası 8-17 yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur, 180 şagirdi var idi. Müəllimləri: rus dili-İvan Alekseyeviç Motorin, hesab-Xudadat Əzizbəyov, tarix coğrafiya-Qasım Qasımov, alman dili-Ağalar bəy Mahmudbəyov, fransız dili-Ağa Axundov, ərəb dili- Mirzə Mahmud xan, fars dili-Əsədulla Əliyev, türk dili-Seyidəli Mehdiyev. Məktəbin binası Bakı şəhəri Sadovaya küçəsi (indiki Niyazi küçəsi) Şahidanov adlı şəxsin evində yerləşirdi (4,s.341). Muzeyin Sənədli Mənbələr Fondunda Belçikanın Lyej Universitetini bitirmiş, görkəmli mühəndislərimizdən biri və eyni zamnanda "İttihad" gimnaziyanın fransız dili müəllimi olmuş Ağa Axundovun (3), eləcə də məktəbin həkimi olmuş Bəhram bəy Axundovun materialları (3) qorunur.

"İttihad" progimnaziyasının proqramına əsasən burada bütün əsas şərq və avropa dillərinin tədris olunması nəzərədə tutulurdu. Beləki 3-cü sinifin proqramına əsasən rus dilinin tədrisinə 6 saat, fransız dilinin 4 saat, ərəb və alman dilinin 3 saat, və yalnız 2 saat şəriət, hesab, cəbr, coğrafiya, tarix və təbiətşünaslıq fənnlərinə ayrılırdı. Sözügedən gimnaziyanın şagirdləri yaşıl, yaxası dik duran və qolunda eynilə yaşıl zolaqlar olan mahud pencək və mahuddan olan şalvar geyinirdi. Papaqlarında şiri-xurşid (günəş və şir) təsviri və "ittihad mədrəsəsi" sözləri yazılan metal lövhə taxılımışdır. 1-ci və 4-cü

sinifdə oxuyan şagirdlər boz mahuddan tikilmiş və gümüş düymələri olan şalvar və köynək geyirdilər. 5-ci sinifdən başlayaraq və böyük siniflərin şagirdlərinin gündəlik papaqları üzərinə ağ zolaqlar çəkilir, ortasına gümüş lövhə vurulurdu. Məzunlara dogma tədris müəssisəsinə gələrkən qara kostyum geyinməyə və qalstuk taxmağa icazə verilirdi. Gimnaziyada humanitar elmlərin- tarixin, ədəbiyyatın, o cümlədn latın və yunan dillərinin tədrisinə xüsusi önəm verilirdi. Böyük siniflərin şagirdləri təhsilini universitetdə davam etdirməyi hazırlaşırdı.

Sənədli mənbələr fondunda həmçinin “İttihad” ginmaziyasının məzunu, pedaqoq Məmməd Həsən Qasımzadənin (3) materiallları saxlanlır. Kolleksiyada onun gimnaziyada təhsil aldığı zaman, həmin məktəbin formasında şəkli, gimnaziyanın müxtəlif siniflərində ayrı-ayrı rüblərində davamiyyatı haqqında şəhadətnamələri, attestatı eləcədə məktəbin və digər sənədləri daxildir. Fondun digər kolleksiyasında isə məktəbin müəllim və tələbələrindən ibarət qrup şəkli qorunur (3).

Bakıdakı məktəbdən fərqli olaraq, Tiflisdə açılmış “İttifaq” məktəbi xüsusi nəzarət altında fəaliyyət göstərmişdir. Məktəbdə təhsil pullu olsa da, cəmiyyət mədrəsədə imkansız, lakin istedadlı şagirdləri öz hesabına oxudurdu. Sadəcə cəmiyyətin 1907-1910-cu illər ərzindəki fəaliyyətinə dair hesabatdan bəlli olur ki, ilk üç ildə məktəbdə təhsil alan şagirdlərdən birinci ildə 126 nəfərdən 46, ikinci ildə 132 nəfərdən 108, üçüncü ildə isə 300 nəfərdən 200 şagird bilavasitə cəmiyyətin maddi yardımı hesabına oxumuşdur. Mədrəsə üçün kirayəyə götürülmüş mövcud binanın darısqal olduğunu və özünün müstəqil binaya sahib olması zərurətini nəzərə alan cəmiyyət rəhbərliyi 1910-cu ildə yeni binanın tikmək haqda qərar verdi. Binanın layihəsini hazırlamaq Zivər bəy Əhmədbəyova tapşırıldı. Binanın bünövrəsi qoyuldu və tikinti işlərinə başlandı, iki mərtəbəsi yenicə hazır olmuşdu ki, I dünya müharibəsi başladı. Hökumətin qərarına əsasən təcili olaraq binanın damının örtülərək yaralı əsgərlər üçün hərbi xəstəxanaya çevrilməsi səbəbindən mədrəsə öz fəaliyyətini köhnə binada davam etdirməyə məcbur oldu. Cəmiyyətin həyata keçirdiyi digər bir tədbir də kitabxana açılması ilə bağlı olmuşdur. Kitabxananın açılmasından sonra oradakı kitabların toplanması praktikası da tamamilə xeyriyyəçilik ənənlərinə uyğun həyata keçirilirdi. Ayrı- ayrı ziyalılar kitabxanaya kitab bağışlama kampaniyası başlatdılar. Qısa bir müddət ərzində kitabxananın fondunda ərəb, fars, türk və rus dillərində külli miqdarda maraqlı kitablar toplandı.

Cəmiyyətin Bakıdan başqa digər bölgələrdə də şöbə açdığına dair mənbələrdə məlumatlara rast gəlmək mümkündür. Lakin təəssüflər olsun ki, ümumiyyətlə xeyriyyə cəmiyyətlərinin, o cümlədən “Səadət” cəmiyyətinin, Azərbaycanın digər guşələrindəki maarifçilik fəaliyyəti haqqında təqdiqiqat aparılmayıb. Ümid edirik ki, gələcək tədqiqatlarda milli maarifçilik tariximizdə özünəməxsus silinməz iz buraxmış mədəni-maarif cəmiyyətlərinin Azərbaycanın başqa bölgələrində olan fəaliyyəti haqqında araşdırmalar aparılacaq.

İstifadə olunumş mənbə və ədəbiyyat:

1. Babaşlı M. XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış və maarifçilik hərəkatı. Bakı, 2003.
2. MATM Neqativ fondu, inv. № 16766, 14809.
3. MATM Sənədli mənbələr fondu, inv.№ 125, 55, 310, 439.
4. Tahirzadə N. Azərbaycan təhsil tarixi oçerkləri və ilk ali təhsillirərimiz. Bakı 2015.

Narmin Bagirova

Exhibits on the history of charity society "Saadet" in the collection of the Museum

Summary

Keywords: *Akhund Agha Alizadeh, spiritual society "Saadet", school "Ittihad", Uzeir Hajibeyli, Bahram Akhundov, Agha Akhundov*

In the article, based on valuable museum materials on the history of enlightenment, it is told about the creation of the Muslim spiritual society "Saadet" that existed in Baku. Opened in 1908 the same spiritual school, was the first Muslim school in the Caucasus for boys. The Society was headed by Akhund Agha Alizadeh.

The pedagogical composition of the school of society consisted of a team of like-minded people, people of advanced and comprehensively educated. The greatest interest in the Museum collection is provided by the materials of the organizers, teachers, and students of the school "Saadet".

Нармин Багирова

Экспонаты по истории благотворительного общества «Саадет» в коллекции Музея

Резюме

Ключевые слова: *Ахунд Ага Ализаде, духовное общество «Саадет», школа «Иттихад», Узеир Гаджибейли, Бахрам Ахундов, Ага Ахундов*

В статье на основе ценных музейных материалов по истории просвещения рассказывается о создании существовавшего в Баку мусульманского

духовного общество «Саадет». Открытое в 1908г. одноименное духовное училище, являлось первой на Кавказе мусульманской школой для мальчиков. Возглавлял Общество Ахунд Ага Ализаде.

Педагогический состав школы общества состоял из коллектива единомышленников, людей передовых и всесторонне образованных. Наибольший интерес в коллекции Музея представляют материалы организаторов, педагогов, а также учащихся школы «Саадет».

"Mədrəseyi-səadət" məktəbinin şagird və tələbələrindən ibarət bir qrup. Mərkəzdə məktəbin musiqi müəllimi Üzeyir Hacıbəylidir

"Mədrəseyi-səadət" məktəbinin müəllimləri

“İttihad” gimnaziyanın fransız dili müəllimi Ağa Axundov

“İttihad” gimnaziyanın həkimi Bəhram bəy Axundov



اخبار نامه

СВѢДѢНІЯ

ОБЪ УСПѢХАХЪ И ПОВЕДЕНІИ

Ученика I класса

ПЕРСИДСКОЙ ГИМНАЗІИ „ИТТИХАДЪ“ ВЪ БАКУ

Касумова Мамедъ Гасана

За четверть учебн. 1909/1909 учебн. год.

Поведеніе	5
Вниманіе	5
Прилежаніе	5
Пропущено ур.	
Мѣсто по усп.	I

Резолюція Педагогическаго Совѣта

Переходитъ во второй классъ съ похвальнымъ листомъ первой степ.

ПРЕДМЕТЫ	II.	V.
Законъ Божій		5
Арабскій яз.		5
Персидскій яз.	5	5
Татарскій яз.		
Русскій яз.	5	5
Французскій яз.		
Нѣмецкій яз.		
Англійскій яз.		
Латинскій яз.		
Логика		
Ариѳметика		5
Алгебра		
Геометрія		
Тригонометрія		
Физика и Химія		
Природовѣд.		5
Космогр.		
Исторія		
Географія		5
Анатом. и Физіолог.		
Законовѣд.		
Психологія		
Философія		
Коммер. наук.		
Гимнаст.		
Рисованіе		5
Чистописаніе		5

Директоръ

Классный наставникъ

Подп. родителей

“İttihad” ginmaziyasının məzunu Məmməd Həsən Qasımzadə və onun davamiyyatı haqqında şəhadətnaməsi

Gimnaziyanın şagird və tələbələrindən ibarət bir qrup

Севиль Казиева

Шафига Ахундова – одна из первых женщин-композиторов Азербайджана

Ключевые слова: *Шафига Ахундова, композитор, песня, лирико-вокальный жанр, афиша*

UOT 94 (479,24)

«Не было бы Узеира муаллима, не было бы и меня». Таков мой творческий эпиграф. И это действительно так! Сегодня всем своим существованием, всеми своими успехами я обязана своему учителю». (4, с.31) Так говорила о великом родоначальнике профессиональной азербайджанской музыки композитор Шафига ханым Ахундова. Эти слова могут повторить многие азербайджанские музыканты – воспитанники и ученики любимого маэстро.

Именно с рождением и постановкой первой азербайджанской оперы «Лейли и Меджнун» Узеира Гаджибейли в 1908 г. начался отсчет нового периода в истории музыкального искусства нашей родины. Для развития театрального дела, появления национальной профессиональной музыки – синтеза европейской и народной была необходима организация музыкального образования, подготовка профессиональных кадров актеров, музыкантов-исполнителей, композиторов, педагогов. Поэтому Уз.Гаджибейли придавал важное значение этим вопросам, стараясь успешно разрешить и претворить их в жизнь. Он уделял большое внимание обучению музыке детей, особенно, девочек, тем самым способствуя воспитанию женских кадров во всех жанрах музыкального искусства.

Шафига Ахундова с теплотой и любовью вспоминает первую встречу с основателем азербайджанской современной музыкальной культуры: «В 1939 году я пришла к Узеир беку не имея музыкального образования. Однако музыку я очень любила, даже пыталась сочинять ее. Я села за фортепиано, сыграла и спела сочиненную мной песню. С того времени я стала учиться в отделении тара, а затем на подготовительном курсе, открытом Узеир муаллимом при консерватории. В классе Узеира муаллима я изучала композицию и основы

азербайджанской народной музыки». (4, с.31) Уз. Гаджибейли подметив в девочке музыкальные способности, задатки будущего композитора, всегда поддерживал, помогал и направлял в ее первых творческих начинаниях. Он советовал ей обучаться пению, видя и слыша ее хорошие голосовые данные. Она занималась по вокалу у выдающейся певицы Шовкет Мамедовой. И по рекомендации Уз.Гаджибейли она участвовала при исполнении впервые на правительственном смотре в Филармонии в 1944 г. его Государственного Гимна Азербайджанской ССР (4, с.32).

Шафига Ахундова является одной из первых женщин-композиторов Азербайджана, первая на Востоке, написавшая оперу и музыкальную комедию, первая писавшая музыку к театральным постановкам. Ее творчество интересно и оригинально.

Уже в начале 1940-х годов появляются ранние сочинения молодого композитора. Будучи студенткой музыкального техникума, занимаясь в классе Уз. Гаджибекова, она пишет в 1943 г. песню «Zəfər bizimdir» (Победа за нами), посвященная войне 1941-45 гг. И в тот же год она становится членом Союза композиторов Азербайджана. Ш.Ахундова принимала участие в 1944 г. в конкурсе на создание музыки Государственного гимна Азербайджанской ССР. Ее произведение было представлено на конкурсе как «Победный марш», отличающееся боевым героическим характером.

Она сочиняет музыку для народных инструментов, симфонического оркестра, струнных и духовых инструментов, фортепиано и голоса. Желая продолжить музыкальное образование Шафига ханым поступает в Азербайджанскую Государственную консерваторию на композиторское отделение в класс профессора Бориса Зейдмана, приглашенного Уз.Гаджибейли в 1939 году из Ленинградской (Санкт-Петербург) консерватории.

На протяжении творческой жизни композитором были написаны музыкальные партитуры к 60-ти театральным спектаклям, около 600 песен и романсов, оперетта «Ev bizim, sirr bizim» («Дом наш, тайна наша») на либретто поэта Новруза Гянджали, премьера которой состоялась 5 января 1965 года на сцене Театра музыкальной комедии, рассказывающей о современной жизни молодежи того периода, об их интересах, стремлениях и поисках истинных ценностей. Опера «Gəlin qayası»(«Скала невесты»), написанная Ш.Ахундовой по мотивам одноименной повести писателя Сулеймана Рагимова в 1972 г., была поставлена на либретто поэта Искендер Джошгуна и Агакиши Кязымова 27 апреля 1974 г. на сцене Азербайджанского Государственного Академического театра оперы и балета им. М.Ф.Ахундова. Музыкальным руководителем и дирижером являлся Рауф Абдуллаев, режиссер Агакиши Кязымов, художник Энвер Алмасзаде, балетмейстер Гамер Алмасзаде (1, с.159).

В музыке оперы композитор использовал мугамы, народные

азербайджанские песни, танцевальные мелодии в сочетании с симфоническими и хоровыми исполнениями. Особенностью оперы являлась связь мугамной импровизации с симфонической партитурой. Поэтому в спектакле были привлечены известные народные певцы-хананде такие как Назакет Мамедова, Рубаба Мурадова, Гюльхар Гасанова, Ариф Бабаев, Баба Мирзоев, Махрур Мурадова, Адиль Меликов и вокалисты Фирудин Мехтиев, Сафура Азими и другие (2). Музыка оперы лирического характера, прославляющая неиссякаемую силу любви.

Обращаясь к различным жанрам музыкального искусства, композитор оставалась верной своему стилю и художественному вкусу.

Один из самых интересных, ярких и плодотворных жанров в творчестве Ш.Ахундовой является лирико-вокальный жанр, где она создала ряд прекрасных произведений, творчески используя мугам и ашыгские песни. «Шафига ханым Ахундова почти всегда стояла у истоков своих песен, которые сама пела, сама находила своего поэта, чаще всего увлекала поэта своей идеей. Она всегда знала и чувствовала, какая песня нужна людям, о чем они хотят петь» (3). В принципе почти все творчество композитора основано на мелодиях песен, будь то к драматическим, детским, комедийным спектаклям или же в опере и оперетте.

Свидетельством ее успеха, признания и ее широкой популярности среди зрителей, а также о жизненном и творческом пути композитора рассказывает коллекция материалов Ш.Ахундовой, хранящаяся в фонде документальных источников Национального Музея истории Азербайджана (инв.№ № 1537-1554, 1649-1674). Это фотографии, документы, афиши, ноты, письма-благодарности и поздравления от слушателей и поклонников ее искусства.

Особый интерес представляют афиши (24 ед.) спектаклей, поставленных в разных театрах республики, показывающие многообразность музыкальных сочинений композитора. Музыка Ш.Ахундовой звучала на сцене Гянджинского (Кировабадского) Государственного драматического театра им. Дж.Джаббарлы в спектаклях «Qaynana» («Свекровь») Меджида Шамхалова, «Günəş» («Солнце») Лютвели Гасанова, поставленных в 1957 г., на премьерах спектаклей «Nəsrəddin şah» («Насреддин шах») к 60-летнему юбилею со дня рождения Джафара Джаббарлы в 1960 г., «Almaz» пьесы Дж.Джаббарлы в 1961 г., «Sabir» Гаджиага Гулиева, посвященный 100-летию народного поэта Сабира в 1962 г., «Viçdan» («Совесть») Бахтияра Вагабзаде в 1958 г., а также «Şərqin qalası» («Восточная крепость») Гурбана Мусаева в 1960 г. и др.

Одна из ранних афиш, датируемая 1947 годом, относится к спектаклю «Kiçik qəhrəmanlar» («Маленькие герои») пьесы Тамары Шафиевой, поставленный на сцене Азербайджанского Государственного Кукольного театра и спектакль «Keçinin qisası» («Месть козла») пьесы Эйюба Аббасова, поставленный в

1966 г. Мелодии песен, написанные к детским пьесам особенно дороги для композитора и особенно любимы маленькими зрителями. Афиши спектаклей Театра юного зрителя насчитывают 6 единиц в коллекции: пьесы Э.Аббасова «Bahar nəğməsi» («Весенняя песня»), поставленная в 1948 г. режиссером Гасан Алиевым, в главной роли Агададаш Курбанов и «Aqil və Sərvinaz», поставленная в 1956 г. режиссером Керим Гасановым, надо отметить, что музыкальные сочинения, написанные ранее к этим пьесам, являлись первыми творческими работами Ш.Ахундовой к театральным постановкам (1, с.255); пьеса «Qonşular» («Соседи») Юсиф Азимзаде в 1961 г, а также пьеса «Şirinbala bal yığir» («Ширинбала мед собирает») Салам Гадирзаде в постановке Улдуз Алиевой в 1965 г. Интересны афиши с премьерами спектаклей «Son məktub» («Последнее письмо») Рауфа Исмайлова в постановках режиссера К.Гасанова в 1957 г. и «Əlvida Hindistan» («Прощай Индия») Гейбулла Расулова режиссера Зафара Нейматова в 1963 г. Во всех этих спектаклях звучала красочная, яркая и запоминающая музыка Ш.Ахундовой.

По случаю II Республиканского Фестиваля молодежи Азербайджана в 1957 г. в Доме культуры металлургов имени Дж.Джаббарлы состоялась премьера спектакля «Севиль» пьесы Дж.Джаббарлы в постановке русского драматического коллектива, музыка Ш.Ахундовой. Афиша спектакля также хранится в коллекции музея.

Во время проведения Театральной весны Закавказских республик в Ереване в 1958 г. был показан Азербайджанским Государственным драматическим театром спектакль «Бухта Ильича» Джаббара Меджнунбекова в постановке Адиля Искендерова, музыка Ш.Ахундовой, с участием выдающихся мастеров сцены Лейлы Бедирбейли, Окумы Курбановой, Исмаила Дагыстанлы, Али Курбанова, Агасадыха Герайбейли, Мустафы Марданова и других – об этом рассказывает афиша из материалов Шафиги ханым.

К сочинениям музыкальных комедий композитора относятся две афиши. Одна является анонсом премьеры спектакля «Ev bizim, sirr bizim»(«Дом наш, тайна наша») (текст Новруза Гянджали) на сцене Азербайджанского Государственного театра Музыкальной комедии, другая – премьера спектакля «Яшар» по пьесе Дж.Джаббарлы на сцене Нахчыванского Государственного музыкального драматического театра имени Джалила Мамедгулузаде в 1967 г. Она интересна и примечательна тем, что имеет дарственную надпись Ш.Ахундовой от режиссера театра: «Любимому композитору за созданное на высоком уровне прекрасное музыкальное сочинение к спектаклю, с благодарностью и признательностью, с надеждой вновь работать совместно над новыми постановками. От главного режиссера театра, Заслуженного деятеля искусств Бахши Галандарлы. 11 февраля 1967 год» (5, №1671).

Надо отметить, что признание и любовь слушателей разного возраста,

со всех уголков республики к творчеству композитора выражены в письмах, телеграммах, стихах, поздравлениях, хранящихся в коллекции музея. Это письма от комсомолки, школьницы 10 класса Велиевой Дильшад из Ордубада, которой особенно полюбилась песня «Lay Lay» в исполнении Фатмы Мехралиевой, Шовкет Алекперовой и Сары Гадимовой; из города Барды Розы Наибовой, закончившая школу и готовившаяся к поступлению в медицинский институт, сочинила в честь Шафиги ханым стихи «Bəstəkar qız». Педагог Новруз Алиев из города Астары сообщает, что во всех селах у подножья Талышских гор сельчане слушают по радио песни Ш.Ахундовой, восхищаясь прекрасными мелодиями, далее, он пишет: «Мы очень рады, что Азербайджан дал такого талантливого композитора как Вы и гордимся Вами и Вашей нежной музыкой, покорившей наши сердца»; рабочий совхоза из Шемахи Зиреддин Гаджиев, написавший письмо со стихами (гошма) «Bəstəkar», посвященные композитору. Во всех письмах звучит просьба написать музыку к сочиненным ими стихам.

Сохранившиеся поздравительные телеграммы с пожеланиями здоровья и больших творческих успехов Ш.Ахундовой были получены от Союза композиторов Азербайджана и Азербайджанского Музыкального Фонда, от семьи Гнесиных из Москвы, от замминистра культуры Азербайджана Алибековой.

О театральной деятельности композитора говорит имеющийся в музее документ – выписка из приказа № 32 Гянджинского (Кировабадского) Государственного драматического театра об объявлении благодарности Шафиги Ахундовой за прекрасно сочиненную музыку к спектаклю «Böyük ürək» («Большое сердце») Имрана Касумова и Гасана Сеидбейли и за большую плодотворную работу в течение многих лет в театре. Гянджа (Кировабад), 25 марта 1958 г.(5, №1551).

В материалах коллекции имеются несколько фотографий Шафиги ханым: с комсомольцами в Баку (1947 г.), за творческой работой у пианино, встреча с пионерами в родном городе Шеки (1963 г.), с друзьями, деятелями искусства Шовкет Алекперовой, Рауфом Атакишиевым и другими у родника в окрестностях Шеки. Среди фотографий находится интересный снимок первых женщин композиторов Азербайджана – сидящие у пианино Фарида Кулиева, Ольга Никольская, Адиля Гусейнзаде и Шафига Ахундова, а также два редких снимка Первого Всесоюзного съезда советских композиторов, проходившего с 19 по 25 апреля 1948 года в Москве (5, № 1539,1540). Союз композиторов СССР являлся творческим объединением советских композиторов и музыковедов. Одним из основных задач Союза композиторов СССР являлось развитие братских национальных культур советских народов. Союз композиторов Азербайджана был создан 30 июня 1934 года как

общественная музыкальная творческая организация и входила в СК СССР. На фотографиях запечатлена азербайджанская делегация, участвовавшая на первом съезде в составе молодых, тогда еще, но уже известных композиторов: Фикрет Амиров, Гара Гараев, Джевдет Гаджиев, Сулейман Алескеров, Сеид Рустамов, Шафига Ахундова, Агабаджи Рзаева, Султан Гаджибеков, Адиля Гусейнзаде, и музыковедов: Эмина Эльдарова, Борис Зейдман, Даниил Данилов, Н. Чумаков.

В коллекции материалов находится и нотная рукопись песни «Zəfər bizimdir» («Победа за нами»), сочиненная Ш.Ахундовой в 1943 году и переданная с дарственной надписью Музею истории Азербайджана в 1975 г. В музее хранится также книга-ноты «Маһнылар» для фортепиано и пения, изданные в 1978 г. В нее вошли самые лучшие песни композитора на слова поэтов Мирвари Дильбази, Искендер Джошгуна, Бахтияра Вагабзаде и других.

Являясь талантливым композитором лирико-вокального жанра, Шафига Ахундова всегда пользовалась большим уважением и любовью народа, ее теплые задушевные, льющиеся от сердца мелодии песен неоднократно печатались, исполнялись и исполняются с успехом известными певцами на различных сценах: в театре, филармонии, концертных залах. Ее незабываемое творчество, в исполнении выдающихся азербайджанских музыкантов, хранится в Государственном архиве аудиозаписи Азербайджанской Республики и фонде-фонотеки Азербайджанской Государственной телерадио компании (1, с.312-356). Коллекция же документальных материалов о жизни и деятельности Ш.Ахундовой также бережно хранится в Национальном Музее истории Азербайджана, обогащая фонды и экспозицию историей музыкального искусства XX века.

Список использованной литературы и источников:

1. Şirinova S.T. Nəğmədir həyat. Bakı, 2005.
2. Гумматова Н. Творчество Шафиги Ахундовой. http://www.rastmd.com/FileUpload/bs473224/File/6_-
3. Кафарова З. Корифей азербайджанского музыкального искусства. Газета «Зеркало», 2014, 25 января, с.14.
4. «Слово об Узеире Гаджибекове». /составитель Исазаде А./ Баку, 1985.
5. Фонд Документальных Источников НМИА.

Sevil Qazıyeva

Azərbaycanın ilk qadın bəstəkarlarından olan Şəfiqə Axundova

Xülasə

Açar sözlər: *Şəfiqə Axundova, bəstəkar, afişa, mahnı, lirik nəğmə janrı*

Məqalə ilk opera, musiqili komediya müəllifi olan, teatr tamaşalarının musiqisini yazan Azərbaycanın qadın bəstəkarı Şəfiqə Axundovaya həsr olunmuşdur. Lirik nəğmə janrında çalışan istedadlı bəstəkar Azərbaycan musiqi sənətinin qızıl fonduna daxil olmuş unudulmaz təranələri ərsəyə gətirmişdir. Bu musiqi xadiminin Milli Azərbaycan Tarixi Muzeyində qorunan kolleksiyası afişa, fotoşəkil, not yazısı və sənədlərindən ibarətdir.

Sevil Kaziyeva

Shafiga Akhundova, one of the first female composer of Azerbaijan

Summary

Keywords: *Shafiga Akhundova, composer, poster, song, lyrical song genre*

The article is devoted to the female composer of Azerbaijan Shafiga Akhundova, the author of the first opera, musical comedy, the music writer of the theatre play. Gifted composer worked in lyrical song genre produced unforgettable songs which were included in the golden fund of Azerbaijani music art. Collection of this music figure protected in the National Museum of History of Azerbaijan consists of posters, photos, sheet music and documents.

Азербайджанская делегация на Первом съезде композиторов СССР в Москве. 22 апреля 1948 г.

(сидит: слева 3-я Ш.Ахундова)

(сидит: слева Ш.Ахундова)

Sevinc Vahabova

Silahlar üzərində şərq mədəniyyətinin elementləri

Açar sözlər: *silahsazlıq ənənələri, ornament, dekorativ-tətbiqi sənət, tüfəng lülələri*

UOT 94 (479.24)

Azərbaycan xalqı zəngin bədii irsə malikdir. Ayrı-ayrı usta və sənətkarlar tərəfindən yaradılmış memarlıq abidələri, dekorativ əsərlər, silah nümunələri, ziynət əşyaları xüsusən geniş qrup təşkil edir. Aparılan tədqiqqatlar bir çox xalq sənətkarlarının adı və əsərlərini müəyyənləşdirməyə imkan verir. Həmin materiallar bir sıra sənət sahələrinin elmi cəhətdən ümumiləşdirilməsinə, bəzilərinin ardıcıl tarixinin yaradılmasına imkan verir.

İlkin zamanlardan insanlar müəyyən fikri ifadə etmək və bir-birləri ilə əlaqə yatarmaq üçün rəsm yazısını yaratmış və inkişaf etdirmişlər. Məlum olduğu kimi, parça, tikmə, xalçalar, ənənəvi silahlar ta qədim zamanlardan başlayarq bu günə qədər insanların həyat və məişətində əməli əhəmiyyət kəsb etməklə yanaşı, böyük bədii ideyaya malik olmuşdur. Sənətkarlıq nümunələrinin bədii xüsusiyyətləri və məzmunu onların rəsmi, ornamenti və materialı vasitəsilə əks etdirilmişdir. Bu bədii xüsusiyyətlər və məzmun ən əvvəl ornamentdən asılıdır.

Ornamentlər tətbiq olunduğu sənət nümunəsini bəzəməklə yanaşı, həm də onun məzmunun üzə çıxarılmasına xidmət edir. Tədqiqatlar göstərir ki, keşmişdə sənət nümunələrinə vurulan bəzəklər heç vaxt sərbəst xarakter daşımamış və ənənəvi qanunlar əsasında icra edilmişdir.

Azərbaycanda olmuş xarici ölkə səyyahlarından Övliya Çələbi, Ş.Şarden, Adam Oleari və başqaları sənətkarlığın inkişafına islam dininin də böyük təsiri olduğunu qeyd edirlər. Onlar burada hər sənətin müqəddəs dini bir şəxsin adı ilə bağlı olduğunu göstərirlər. Övliya Çələbi 32 belə müqəddəs şəxsin adını çəkir. Məsələn, Həzrət İlyas toxuculuq, Həzrət Davud silah, zirehli geyim sənətinin

himayəçisi olmuşdur.(4,s.96)

Sənətkarlıqla əlaqədar olaraq Şamaxı, Təbriz, Ərdəbil şəhərlərində keçirilən dini mərasimlər, sənət damğaları və s. haqqında səyyahların verdikləri məlumat da çox maraqlıdır. Əşya üzərində tətbiq olunan ornament kompozisiyası, onun ünsürlərinin quruluşu və forması haqqında müxtəlif mülahizələr bir çox orta əsr Şərq rəssamı və sənətşünasının əsrlərində da rast gəlinir. İskəndər Münşinin “Tarixi-aləm-araye-Abbasi” əsərində Qazi Əhmədin “Rəssamlıq və xəttatlıq” haqqında risaləsində, Sadıq bəy Əfşarın rəssamlığa aid “Qanun-əssövər” adlı yazısında ornament sənəti, ornamentlərin quruluşu və formalarından xeyli bəhs edilir. (4,s. 97)

XVI əsrin görkəmli Azərbaycan rəssamı, şairi, xəttatı Sadıq bəy Əfşarın yazıları bu cəhətdən maraqlıdır. Müəllif rəssamlığa aid risaləsində ornament növlərindən bəhs edərkən onların əsas yeddi təsvir motivindən, yəni islimi, xətai, nilufər, firəngi (Avropa tipli), bulud, vağ (fantastık ağac adıdır) və bəndi rumidən (Bizans toru) ibarət olduğunu qeyd edir. Yazıda şir, əjdaha, simurq və başqa fantastik heyvan təsvirlərindən quraşdırılmış ornament morivlərindən də ətraflı bəhs edir. Müəllif, heyvan rəsmlərinin çəkərkən onları quru, statik vəziyyətdə, cansız yox, daim hərəkətdə və canlı verməyi məsləhət görür. “Bir heyvanın başqası ilə mübarizəsini təsvir edərkən, onları elə çəkmək lazımdır ki, heç birinin bir pəncəsi belə hərəkətsiz qalmasın.” Bundan başqa, ornamentlərin tətbiq olunduğu əşya üzərində neçə yerləşdirilməsi, yerliklə bəzəyin mütənasibliyi və s. haqqında fikirləri də diqqəti cəlb edir(1, s. 10).

Azərbaycan ornamenti sahəsində aparılan araşdırmalar göstərir ki, parça, tikmə, silah və xalça üzərində past gəlinən ornamentlər çox müxtəlif olsa da, onları əsasən beş qrupa bölmək olar:

1. Həndəsi ornamentlər
2. Nəbati ornamentlər
3. Canlıların rəsmlərindən quraşdırılmış ornamentlər
4. Müxtəlif formalı yazılarlardan ibarət ornamentlər
5. Emblem və simvol ornamentləri

Azərbaycan ornamenti sahəsində həndəsi ornamentlərin ən geniş yayılmış növləri düz, qırıq, dalğavari xətlər, üçbucaq, dördbucaq, dairə, beş, altı, səkkizguşəli ulduz və s.-dir.

Bir çox dekorativ tətbiqi sənət nümunələrində, həmçinin silahlar üzərində işlənən əsas ornamental naxış elementlərindən biri “islimi”dir. Bu naxışa Azərbaycanda, Orta Asiyada, Türkiyədə “islimi”, İranda, Əfqanıstanda “eslimi”, Hindistanda, Pakistanda “səlimi” və yaxud “eslimi-xətai”, Qərbi Avropa və Amerikada “arabeska” (ərəbi) deyirlər (3,s.31). İslim əsasən “islimi”-“bəndlik” kompozisiyasında işlənir, sərbəst “islimi” özlüyündə rast gəlinmir. Əsasən “islimi” spiralların sonuna birləşən elementlərdəndir, digər hallarda isə spirallardan çıxan digər spiralın doğmasına şərait yaradır. İslimilər bir neçə qrupa ayrılır: sadə, qanaqlı, haçalı, butalı, hörmə.

Milli Azərbaycan Tarixi Muzeyinin silah kolleksiyasında saxlanılan müxtəlif çeşidli silahlar üzərində "islimi" naxışına rast gəlmək olar. Belə ki, bir neçə tüfəng lüləsi üzərində islimi elementləri diqqəti cəlb edir. 152 inventar nömrəli tüfəng lüləsi poladdan hazırlanmışdır. Lülə boyunca islimi naxışlar həndəsi xətlərin içərisində cızma üsulu ilə cızılmışdır. Həndəsi motivlərdən başqa lülənin üzərində qabarıq formada müxtəlif insan fiqurları-əlində ox-yay, əsa, şahin quşu tutmuş kişi personajları həkk olunmuşdur.

Başqa bir tüfəng lüləsinə nəzər salaq. 153 saylı tüfənf lüləsi Dəməşq poladından hazırlanmışdır. Lülənin gövdəsi səkkiztillidir. Üzərinə kənar haşiyələri dalğavari xətlərlə əhatələnmiş bütünlüklə nəbati naxışlar və quş təsvirləri həkk edilmişdir. Naxışların bəzi hisələri qarasavatla minalanmışdır.

Dekorativ sənətdə, memarlıqda işlənən əsas elementlərdən və ya kompozisiyalardan biri də "kətəbə" dir. Orta və Yaxın Şərqdə "kətəbə"-"kitabə", "ketibe" və ya "ketebe" adlandırılımışdır. "Kətəbə" sözünün mənası məktub və ya yazı incəsənəti deməkdir. Avropa sənətşünasları "kətəbə" kompozisiyasını "Səlcuq zənciri" adlandırırdılar. X-XII əsrlərdə bu forma demək olar ki, Yaxın Şərqdə çox yayılmışdı (3,s.46)

Silahlar və Bayraqlar fondunda qorunan orta əsr döyüşçüsünün müdafiə yaraqlarından sayılan qalxanların kənar haşiyələrində müxtəlif kətəbələr həkk edilmişdir. Bu kətəbələrin içərisində ərəb qrafikalı kufi yazılar yazılmışdır. Haşiyələr müxtəlif medalyonlarla bəzədilmişdir.

Dekorativ tətbiqi sənətdə geniş yayılmış elementlərdən biri də "tağ" və "ləçək"dir. "Tağ" memarlıqda sadə yarımdairə formasında olan bir quruluşdur. Tağları xalq ustaları 7 hissəyə ayırır:

1. Tağüstü
2. Quppa
3. Görüş nöqtəsi
4. Dirsək
5. Alın
6. Ətək
7. Tağlararalığı

Tağ həm memarlıqda, həm dekorativ sənətdə özünəməxsus tərzdə işlənmişdir. Məsələn, orta əsrlərdə "təqdis", "Zəfərtağı", "Nüşrəttağı", XV əsrdə "Alaqapı", "Əliqapı" və s. adlanırmış. Tağlar şəhərin mərkəzində yaxud şəhərin girəcəyində hörmət və şöhrət mənasında tikilirmiş Zəfər qazanmış ordu həmin tağların altından keçərək şəhər daxil olurdu. Ornament sahəsində hər bir tağın özünəməxsus adı və xarakteri vardır.

1. Hilali tağ. Belə tağın qolları dairə formasında birləşərək qypara formasını alır.
2. Bəyzən tağ. Belə tağın qollarını görüşdüyü yer kütuclu olur və ya Mehrablıtağ
3. Sivri tağ. Belə tağın qolları itiuclu olaraq birləşir, "Dik tağ", "İti tağ" adlanır.

4. Kəsik tağ. Belə tağın yuxarı hissəsi kəsik olur.

Milli Azərbaycan Tarixi Muzeyinin zəngin silah kolleksiyasındakı soyuq silah nümunələrindən xəncərlərin tiyələri üzərində belə tağlar formasında damğalar mövcuddur. Bu damğaların bəzilərinin içərisində silahı hazırlayan ustanın adı və ya sahibinin adı yazılır. Damğaların əksəriyyəti forma baxımından üçüncü növ tağ qrupuna, yəni sivri tağ qrupuna aiddir.

Ornamentlər içərisində “dekorativ arka-ləçək” demək olar ki, Azərbaycan incəsənətində işlənən əsas elementlərdəndir. Qədim dövrlərdən ləçək simmetrik yaradılıb və ləçəyin formasında və müxtəlif hissələrinə özünəməxsus adlar verilib. Məsələn:

1.Qanad

2.Ətək

3.Anaxətt

4.Heykəlbaşı

5.Alınlıq

Azərbaycan dekorativ sənətində və memarlıqda arka-ləçək ornamentindən çox geniş istifadə olunurdu. Belə naxışlara sənətklarlığın digər sahələrində də rast gəlinir. Azərbaycan silahsazlıq məktəblərinin nümunələrinə diqqət yetirsək müxtəlif soyuq və odlu silahlar üzərində belə naxışlar diqqəti cəlb edir. Soyuq silahlardan ən geniş yayılımış növü olan xəncərlərin tiyəsi əsasən poladdan hazırlanırdı. Tiyənin hazırlandığı polad həm keyfiyyət baxımından, həm də kəsicilik qabiliyyəti baxımından ən yüksək keyfiyyətə malik olan Dəməşq poladından hazırlanırdı. Belə tiyələrin üzərində arka-ləçək formasında damğalar vurulurdu. Bununla yanaşı, odlu silah qrupuna aid tüfənglərin lülələrində belə formada kəsilmiş damğalara rast gəlinir. Arka-ləçək formalı damğaların içərisində ustanın və ya silahın sahibinin adı həkk olunurdu (5,s.29). Tüfənglərin qundaqları daha davamlı ağac növündən düzəldilirdi. Qundaqsazlar qundağın bəzi yerlərinə müxtəlif basma, qoyma, taxma üsulu ilə vurulmuş naxışlar həkk edirdilər. Bu üsulla sədəfdən, sümükdən, qızıl və ya gümüşdən vururlmuş inkrustasiyaların əksəriyyəti məhz arka-ləçək formasındadır. Məsələn, Silahlar və Bayraqlar fondunda olan bir neçə tüfəng nümunəsində bu tip elementlərə rast gəlinir. 120 saylı tüfəngin lüləsi Dəməşq poladıdır, mərkəzi hissəsində ərəb qrafikası ilə yazılmış yazılar, nəbati naxışlar vurulmuşdur. Qızılla işlənmiş ulduz formasında olan naxışlar kətəbənin içərisində həkk olunub. Burada həmçinin “başlıq” adlanan ornamentdən də istifadə edilmişdir.

Həmişə olduğu kimi lülənin xəznəyə yaxın hissəsində beşguşəli formada kəsilmiş damğa həkk olunub. Muzeyin silah kolleksiyasındakı nümunələrin əksəriyyətində belə ornament və naxışlara rast gəlmək olar.

Dəbilqələrin üzəri nəbati naxışlar fonunda “başlıq” ornamenti ilə bəzədilmişdir. Hətta burunluğun yuxarı ucu bu formada kəsilmişdir.

Azərbaycan naxış sənətində əsas yerlərdən birini tutan naxış “buta”dır. “Buta”

çox dolğun və çoxşaxəli bir elementdir. Xalq arasında ən tanınan və sevilən bir formadır. "Buta" öz tarixi-simvolik köklərini atəşpəstliyin ilkin dövrlərinə aparıb çıxarır (3,s.35). Atəşpərəst olmuş hindistanlıların tirmə parçalarında, İranın parçalarının metal gəzmələrində və Azərbaycanın xalçalarında rast gəlinir. Buta ornamentindən digər sənə sahələrində də istifadə olunurdu. Dəmirçilik, misgərlik, zərgərlik nümunələrində buta naxışı ən geniş yayılmış naxışlardan biri kimi əks olunur. Təsadüfi deyil ki, silah istehsalında da buta təsvirlərinə çox geniş yer verilirdi. Muzeyin bir çox nümunələrində buta təsvirlərinə çox geniş yer verilirdi.

Odlu silahların lülələrində, xəncər qınlarında, dəbilqələrin, qolşaqların əsas hissəsində cızma, oyma üsulu ilə çıkilmiş, üzəri qarasavadla minalanmış buta təsvirləri mövcuddur. Döyüşçünün şəxsi müdafiə kompleksinə daxil olan qolçaqların üzərində də nəbati ornamentlər, oturmuş şahzadə təsvirləri, meyvə qabları təsvir olunur. Qolçaqların bir neçə nümunəsində yuxarı və aşağı hissədə iri buta təsvirləri diqqəti cəlb edir. Butaların içərisi minalanmış nəbati naxışlarla bəzədilib. Kənar haşiyələrin içərisindəki ərəb qrafikalı yazılar cızma üsulu ilə həkk olunmuşdur.

Silahlar üzərində daha bir ornament növü "haşiyə" diqqəti cəlb edir. Haşiyəni şimal-şərqi Azərbaycanda "şam" və ya "əlyam", Qarabağda "yeleən", Cənubi Azərbaycanda "haşiyə" kimi adlandırmışlar (3.s.40). Haşiyə müəyyən olunmuş sahəni, perpendikulyar, horizontal, diaqonal və b. formalarda əhatə edir və bəzi hallarda istənilən predmetin müstəqil. Tamamlanmamış kompozisiya bəzəyi kimi səciyyələnir.

Silahlar üzərində ən çox haşiyənin həndəsi formalarından olan su forması işlənmişdir. Ümumiyyətlə, su, düz xətt olaraq ən sadə haşiyə kimi tərbiqi sənətin bütün sahələrində özünəməxsus yer tutmuşdur. Qədim türklərdə su xeyirin və uğurun rəmzi olaraq işlənmişdir. Su elementi silahsazlıqda da işlənmişdir. Belə ki, orta əsrə aid bəzi silah nümunələrin üzərində qızılla, gümüşlə işlənmiş su elementinə rast gəlmək olar. Məsələn, Silahlar və Bayraqlar fondunda saxlanılan 102 saylı tüfəngin lüləsi poladdır, səkkiztillidir. Üzərində qızılla işlənmiş nəbati motivli naxişlar həkk olunub. Lülənin ağız və qundağa tərəf olan hissəsində isə qızılla işlənmiş su haziyəsi vurulub.

Orta əsr Azərbaycan silahlarının müqayisəli tədqiqatları bu regionda yayılmış silah növlərinin ümumi hazırlanma ənənəsinin olduğunu göstərir. Silah uzun müddət tətbiqi dekorativ incəsənətin, daha dəqiq "bədii metal"adlanan sahənin vacib obyektlərindən biri olmuşdur. Bəzən bu və ya digər silahın hansı xalqa və yaxud ölkəyə məxsus olduğunu söyləmək çətindir. Ona görə silahın düzəldilməsi, onların üzərindəki müxtəlif ornament və bəzəklərin, incəsənət motivlərinin işlənməsi qaydalarını daha dərindən izləməyə imkan verən bədii texniki təhlilə ehtiyac yaranır. Silah sənətinin milli keyfiyyətlərinin əsasında dayanan texniki və bədii normaların müəyyənləşdirilməsi də əsas nəticələrindən sayılır. Silahsazlıqda işlənən, ona estetikgörünüş verən dekorun inkişafı onu bədii mədəniyyətin ayrılmaz hissəsinə çevirir. Yerli ustaların hazırladıqları bu silahlar möhkəmliyi və texniki bütövlüyü

ilə seçilməklə yanaşı, həm də sənət əsəri kimi dəyərləndirilirdi. Bu baxımdan orta əsr silahların sənətkarların bədii-estetik dünyagörüşü və təcrübəsinin sintezi kimi çıxış edirdi.

İstifadə olunmuş ədəbiyyat:

1. Əfəndi R. Azərbaycan el sənəti. Bakı, 1971.
2. Əfəndiyev R. Azərbaycanın bədii sənətkarlığı dünya muzeylərində. Bakı, 1980.
3. Tahirov K. Azərbaycan xalçası. Bakı, 2012.
4. Гейдаров М.Х.Города и городское ремесло Азербайджана XIII-XVII вв Баку, 1982.
5. Искусстао Азербайджана. Баку, 1964.

Sevinj Vahabova

Element of Eastern culture on weapons

Summary

Key words: *weaponsmithing traditions, ornament, decorative and applied art, rifle barrels*

The article is about various ornaments on decorative and applied art samples of Azerbaijan. There is given information on ornaments and adornments used in weaponsmithing traditions of Azerbaijan. Similar drawings on weapons used for various purposes in the collection of the Museum are investigated.

Севиндж Вагабова

Изображения восточных элементов на оружиях

Резюме

Ключевые слова: *оружейное дело, орнамент, декорвтивно-прикладное искусство, ствол винтовки*

В статье повествуется о высоком художественно- эстетическом мировоззрении и профессиональном опыте азербайджанских мастеров оружейного дела. Оружие изготовливаемые местными мастерами,отличались не только мощностью, техническим полноценностью, но и оценивались как произведения искусства.

SBF 129 - Çaxmaqdaşlı tüfəng. Xəzinə hissədən fraqment

Qolçaq SBF 413

SBF 390

SBF 120-tüfəng lüləsi. Fraqment

SBF 122.

SBF 342

Sevinc Nəsirova

İslam dininin toxuculuq məmulatlarında əksi (MATM materialları əsasında)

Açar sözlər: *islam dini, namazlıqlar, arka, qəndil, gülabdan*

UOT 39

Bütün dünyada islamın yayılması ilə birgə yeni mədəniyyət-islam mədəniyyəti yaranmışdır. Əlbəttə ki, Azərbaycan mədəniyyətinin tərkibində islam mədəniyyətinin özünəməxsus yeri olmuşdur. İslam mədəniyyəti bədii sənət nümunələrinə və memarlıq sənətinə öz təsirini göstərmişdir. X əsrdə Xilafətdə parçalanmanın başa çatması, ərəbdilli mədəniyyətin canlanmasına nəinki mənfi təsir göstərmədi, əksinə bir-biri ilə rəqabətə girən yeni-yeni siyasi mədəni mərkəzlərin meydana gəlməsinə səbəb oldu [2, s. 162]. Yeni mədəniyyət toxuculuq nümunələrinə də təsirsiz ötüşməmişdir. İslamın təsiri ilə toxuculuq məmulatlarında baş verən dəyişiklikləri belə qruplaşdırmaq olar:

1. Namaz ayinini icra etmək üçün yeni toxuculuq məmulatı - namazlıqlar toxunmağa başlamışdır.
2. Toxuculuq məmulatları üzərində ərəb əlifbası ilə müxtəlif dini mahiyyətli yazılar (Qurandan ayələr və müqəddəslərin adları) yazılmağa başlamışdır.
3. İslam tətbiqi sənət nümunələri və memarlığı üçün xarakterik olan arkaların, müqəddəs ziyarətgahların (Kəbə və başqa ziyarətgahların) təsvirləri toxunmuşdur.
4. Dini mərasim və ayinlərdə istifadə olunan əşyaların (güləbdan, möhür, təsbeh və s.) təsvirləri toxunmağa başlamışdır.

Ərəblərin dövlət dili olan ərəb dili eyni zamanda müqəddəs Qurani-Kərimin dili olduğu üçün yerli xalqlar arasında da geniş yayılmışdır. Bu səbəbdən XX əsrin ikinci yarısına qədər Azərbaycanda da toxuculuq məmulatlarının bir çoxu üzərində ərəb hərfləri və rəqəmlərindən istifadə olunmuşdur. Məsələn, Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda mühafizə olunan 9521 inventar nömrəli xalçanın

üzərinə ərəb hərfləri toxunmuşdur. Qeyd edək ki, ərəb əlifbası ilə müxtəlif yazılara (məmulatın toxunduğu vaxta, onu toxuyanın adına və s.) yalnız xalçalar üzərində deyil, həm də qələmkarlar, tikmə nümunələri üzərində də rast gəlirik. Muzeyin zəngin toxuculuq kolleksiyasından əsasən qələmkar məmulatı və namazlıqlar üzərində müqəddəs Qurandan ayələr və müxtəlif tutumlu yazılar müşahidə olunur.

İslam mədəniyyətinin təsiri altında yaranan ilk toxuculuq nümunəsi namazlıqdır. Namaz ibadətinin vacibliyi, əvəzolunmazlığı Quranın yüzdən artıq yerində müxtəlif səbəblərlə vurğulanmışdır [7, s. 252]. Namazlıqlar, bir qayda olaraq, ibadət edən müsəlmanların əvəzolunmaz xalısı olmuşdur. MATM EF-da 116 namazlıq mühafizə olunur. Azərbaycanda "canamaz", "namazlıq", "mehrabi", İranda "tağı", "cənamaz", Ərəbistanda "səccadə" adlanan bu xalçalar istər formaca, istərsə də kompozisiya baxımından digər xalça məmulatlarından fərqlənirlər [13, s. 117-118]. Belə xalçalar qonşu Türkiyədə də, Ərəbistanda olduğu kimi, "səccadə" adlanırlar. Etnoqraf Ş.Bünyadova müsəlmanların namaz qılmaq üçün istifadə etdikləri xüsusi şəkildə tikilib hazırlanan dördkünc şəklində parçaya "canamaz" deyildiyini yazır [1, s. 86].

Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunda mühafizə olunan 8865 inventar nömrəli xalçanın üzərinə toxunmuş məscid bütün möhtəşəmliyi ilə təsvir edilmişdir. Xalçanın üzərində toxunduğu tarix 1947-ci il göstərilmişdir. Burada üst hissədə məscidin çöldən, aşağı sahədə isə məscidin içəridən təsviri verilmişdir. Alt hissədəki təsvirdə məsciddəki qəndillər təsvir olunmuşdur. Ara sahələrdə isə Göy Tanrıçılıqdan məlum olan müxtəlif inancları ifadə edən xaç, bukağı, quş təsvirləri yer alır. Bu haqda akademik N.Vəlixanlı belə yazır: "*Köhnə dindən dönmə və yeni dinə gəlmə prosesi sürətli olmamış, ərəblərin işğalın ilk çağlarında Ərdəbildə, Dərbənddə, Şamaxıda və başqa yerlərdə hətta məscidlər tikdirməsinə, eləcə də əldə etdikləri siyasi üstünlüyə baxmayaraq, azərbaycanlıların zərdüşti, bütpərəst və xristian ulu babaları əvvəlki etiqadlarından xoşluqla, birdəfəlik üz döndərməmişdilər*" [8, s.115]. Bu təsvirlərin islamın yayılmasından sonra, xüsusilə də ibadət üçün nəzərdə tutulmuş bir xalçada istifadə olunması onların sonradan ilkin mənalarından uzaqlaşaraq yalnız doldurucu element kimi istifadə olunduğunu göstərir. Muzey inventarları içərisində namazlıqların bəziləri üzərində canlı təsvirlərinin olması diqqətimizi daha çox çəkir. Belə ki, islami qanunlara əsasən hər hansı bir canlının təsviri qadağan olunmuşdur. Lakin buna baxmayaraq, istər Azərbaycan, istərsə də qonşu Türkiyə ərazisində üzərində canlı təsvirləri olan namazlıqlar toxunmuşdur. Türkiyənin Tonus bölgəsində namazlıqlardan biri üzərinə dəvə toxunmuşdur. Lakin islami qaydalardan irəli gələrək üzərində namaz qılacaq kişiyə zərər verməsin deyə, sonradan onun üstünə boya tökülmüşdür [10, s. 13]. Namaz qılmaq üçün nəzərdə tutulmuş məmulatın üzərində canlı təsvirlərin olması ilə əlaqədar hədislər də vardır. Səhabələrdən Əbu Hureyrənin nəql etdiyi hədislərdən birində deyilir ki, "*Bir dəfə mələk Cəbrayıl ona izn verməsinə baxmayaraq həzrəti Peyğəmbərin (h.ə.s.) otağına*

daxil olmaqdan çəkindi və Peyğəmbərə belə dedi: üstündə bəzi at və insan təsvirləri olduğu pərdələrin asıldığı bir evə mən necə daxil olum? Bu təsvirlərin ya başları qoparılmalı və ya bu pərdəni yerə sərməlisiniz. Biz mələklər içində təsvir olan evlərə girmərik.." [9, s. 287]. Buradan belə nəticəyə gəlmək olar ki, namaz qılan şəxsin səcdə etdiyi tərəfdə deyil, ayaqları altında olmaq şərtilə canlı təsvirlərin verildiyi bir məmulat üzərində namaz qılmaq heç də qəbahət olmamışdır.

Fonddakı bir çox inventar üzərində məscidin daxili və xarici görünüşü ustalıqla təsvir olunmuşdur. Məscid təsvirli məmulatlardan biri də 8929 inventar saylı namazlıqdır ki, burada böyük bir məscid və məscidin daxili qəndilləri təsvir olunmuşdur. 6013 inventar nömrəli canamaz üzərində müsəlmanların müqəddəs ziyarətgahı olan Kəbə təsvir olunmuşdur. Beytullahın, yəni Allahın evi olan Kəbənin İbrahim peyğəmbər tərəfindən, bəşər tarixində tövhid etiqadına xas inşa edilmiş ilk məbəd olduğuna inanılır. İbrahim peyğəmbər bu məbədi inşa etməklə yanaşı, həcc kimi tövhid etiqadına xas bir ibadətin də əsasını qoymuşdu [7, s. 254]. Allahın bütün müsəlmanlara buyurduğu beş əsas şərtdən biri də imkanı çatan şəxslərin Kəbəni ziyarət etməsidir. Allah rəsulu Məhəmməd peyğəmbər (s.ə.v) ikisi hicrətdən əvvəl, biri isə hicrətdən sonrakı dövrdə olmaqla üç dəfə həcc etmişdi. O, Beytullahda həmçinin umrə ibadətlərini də yerinə yetirmişdir [7, s. 254]. Bu səbəbdəndir ki, bəzi namazlıqlar üzərində Kəbə təsvir olunmuşdur. Ola bilər ki, bu namazlıqlar artıq həcc ziyarətini yerinə yetirmiş şəxslərin namaz qılması üçün nəzərdə tutulmuşdur.

Namaz zamanı istifadə olunan möhür, təsbeh və "saqqal darağı", bəzən xırda diş çöpü, misvak bütün bu əşyalar canamaza toxunurdu [13, s. 119]. Azərbaycan və Dağıstan namazlıqları üzərində bu təsvirləri görə bilirik. 8608 inventar nömrəli tünd qırmızı rəngli məxmərdən hazırlanmış namazlıq üzərinə möhür yeri toxunmuşdur. Muzeydə mühafizə olunan Şamaxı bölgəsinə məxsus 1465 inventar nömrəli tikmə üzərində möhür, təsbeh və "Sübhanə rəbiyəl azim və bilhəmdih" sözləri toxunmuşdur. Məlum olduğu kimi bu ifadə namaz qılınan zaman deyilir və tərcüməsi belədir: "Uca rəbbimi nöqsan sifətlərdən tənzif edirəm və həmd ona məxsusdur". Bununla yanaşı tam mərkəz hissədə dairə içərisinə "Allah Məhəmməd ya Əli" sözləri işlənmişdir. Bu baxımdan maraqlı olan digər 2271 inventar saylı namazlıq öz qeyri-adiliyi ilə digərlərindən fərqlənir. Belə ki, namazlıq üzərindəki mehrab boyunca və haşiyələrdə dini tutumlu yazılar yazılmışdır. Namazlıq XX əsrin əvvəllərinə aiddir. Onun üzərində xəlifə Əlinin qılıncı toxunmuşdur. Belə ki, həm sağda, həm də solda təsvir edilmiş qılınc şiə məzhəbli müsəlmanların imam Əliyə məhəbbətlərinin təcəssümü olaraq toxunmuşdur. Qılınc hazırda İstanbulun Topqapı sarayında mühafizə olunur. Lakin bu qılıncın həqiqətən xəlifə Əlinin qılıncı olmaması barədə də mülahizələr var. Namazlığı fərqləndirən digər cəhəti isə üzərində doldurma texnikası ilə işlənmiş nəbati təsvirlərlə yanaşı Allahın

adlarının namazlıq boyunca kiçik dairələr içində tikmə üsulu ilə doldurulmasıdır. Namazlıq üzərində olan bir fraqmentdə isə "Sübhanə rəbiyəl azim. Və Muhammməd Allahu əkbər, inna fettahna leke fethan mubinen" sözləri işlənmişdir ki, mənası "Uca rəbbimi nöqsan sifətlərdən tənzif edirəm. Və Muhammməd Allah böyükdür. Şübhəsiz biz sənə açıq-aşkar bir fəth verdik". Qeyd edək ki, bu yazı Quranın 48-ci surəsi olan "Fəth"surəsindən götürülmüşdür. Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında sərgilənən bayraqların bir çoxu üzərində də Zülfüqar qılıncı və Fəth surəsinin təsvirinə rast gələ bilərik.

Bəzi namazlıqlar üzərində isə ay və ulduz toxunmuşdur. Yarım ay islam tarixində mühüm yer tutmuşdur. Hilal adlanan ayın bu formasının adı hətta Qurani-Kərimdə də çəkilir. Türk xalqları üçün xarakterik olan ay inancını namazlıqlar üzərinə toxunmuş hilalla səhv salmaq düzgün olmazdı. Əsasən birlikdə verilən ay və ulduz burada sırf İslam dininin simvolları kimi çıxış edir. 2250 inventar saylı qələmkar canamazın üzərində yenə də namaz duası "Sübhanə rəbiəl əla və bilhəmdihi" sözləri yazılmışdır. Üzərindəki naxışlar baxımından diqqəti çəkən digər bir namazlıq Bakı sakinindən əldə edilmiş 9706 nömrəli namazlıqdır. Namazlıq Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında sərgilənir. Bu namazlıq üzərində İslamın demək olar ki, bütün simvolları toxunmuşdur. Burada kompleks şəkildə məscid və üzərində hilal, eləcə də ulduz, mehrab, qəndillər və "Zülfüqar" qılıncı toxunmuşdur. Lakin maraqlısı budur ki, yenə Göy tanrıçılıqdan qalma ideologiya burada da özünü biruzə verir. Məscid rəsminin üzərində həm də günəş toxunmuşdur. Eyni zamanda iki simurq quşu toxunması xalqın İslam dininın dəyərlərinə hörmət etməsi ilə yanaşı, XX əsrdə hələ də onun genetik yaddaşını silinməməsidir. Üzərində ərəb əlifbasının xəttatlıq üslubunda müxtəlif ayələr yazılmışdır. Namazlığın XX əsrə aid olmasını onun üzərində hicri təqvimi ilə 1331 yazılması göstərir. Hesablamalara görə bu tarix 1960-cı illərə təsadüf edir. Namazlıq üzərində xəlifə Əlinin qılıncı ilə yanaşı, oğlanları Həsən və Hüseynin də adını oxumaq mümkündür. Namazlığın yuxarı sağ küncündə isə "həmd və həmd" yazılmışdır.

Namazlıqları kompozisiyalarına görə iki qrupa bölmək olar: 1. Ərəb işğalından sonra xalq toxucuları tərəfindən müstəqil toxunan xalçalar; 2. XVI əsrdən başlayaraq profesional ustaların eskizləri əsasında toxunan xalçalar. Namazlıqlar üzərində əsasən tağ və mehrablar toxunurdu. Arkaların bədii tərtibatına diqqətlə fikir verdikdə onların insan fiqurunu xatırlatdığını görərik ki, bu da namazlıqların qədim dini inancla bağlı olduğunu təsdiqləyir [13, s. 122]. Qeyd edək ki, bu cür tağlar Azərbaycanda İslam dininin yayılmasından sonrakı qəbir abidələri üçün də xarakterikdir. L.Kərimov namazlıqlarda təsvir olunan arkaları öz kökləri ilə qədim zamanlara gedib çıxan gözəllik və sevgi ilahəsi Veneranın, ayın, günəşin yaxud yeddi məşhur planetin simvol-təsvirlərinin olduğuna şübhə belə etmədiyini yazır [13, s. 122]. Tağlardan məscidlərin tərtibatında da geniş isifadə olunmuşdur.

Əslinə qalsa, tağlar yalnız ərəb memarlığı üçün xarakterik olmamışdır. O hələ qədim zamanlardan ibadətgahlarda istifadə olunmuşdur. VII əsrədək davam etmiş tağlardan memarlıqda və təsvirlərdə istifadə ərəb işğalı ilə nəinki aradan çıxmamış, hətta yeni dini adətlərə-İslam dini adətlərinə uyğunlaşaraq sonrakı dövrlərdə də inkişafı təmin olunmuşdur [13, s. 109]. Namazlığın bəzək tərtibatında “mehrab” nəqş motivi üstünlük təşkil edir [6, s. 84]. Elə muzeydə mühafizə olunan namazlıqların əksəriyyətinin üzərində də belə mehrabları müşahidə etmək olar [İnv. 8964].

İslamın Azərbaycana gəlməsi ilə burada hicri təqvimindən istifadə olunmağa başlanmışdır. Bu təqvimin təsviri bir çox toxuculuq məmulatı üzərində vardır. Xüsusilə bu təqvimin aylarının yazılması daha geniş yayılmışdır. 6447 inventar saylı xalça üzərində hicri tarixinin ayları - rəcəb, şaban, şəvval, ramazan, zülqədər, rəbi-əl əvvəl, rəbi-əl axır, cəmazi-əl əvvəl, cəmazi-əl axır, səfər, məhərrəm sözləri yazılmışdır. Şuşada toxunmuş bu xalça üzərində adı çəkilən ayların adı müxtəlif bəzəklərin içərisində verilmişdir. Qeyd edək ki, namazlıqlar hökmdarlara təqdim olunan dəyərli hədiyyələr kimi də istifadə olunmuşdur. XVI əsrdən qalma 163 x 110 sm. ölçülü əntiq canamaz vaxtilə Səfəvi hökmdarı tərəfindən Osmanlı sultanlarından III Murada sülh hədiyyəsi kimi təqdim edilmişdir [1, s. 88]. Ümumiyyətlə, dünyanın məşhur muzeylərində Azərbaycanda toxunmuş namazlıqlar bu gün də mühafizə olunmaqdadır. Belə namazlıqlar əsasən Səfəvi dövrünə aiddir və şəxsi sifarişlə toxunmuşdur. XVI əsrdə Azərbaycanda toxunmuş bir neçə namazlıq xalçası İstanbulda yerləşən Topqapı Muzeyinin dəyərli eksponatları sırasındadır [13, s. 122.]. Tikmələrdən hazırlanmış namazlıqların bəziləri buta təsvirləri ilə də bəzədilmişdir. 2242, 2247, 5280, 5282, 6474 inventar nömrəli namazlıqlar üzərində müxtəlif butalar təsvir olunmuşdur.

Muzeydə mühafizə olunan namazlıqlar əsasən bir adamın namaz qılması üçün nəzərdə tutulmuşdur [inv. 2533,4150, 4710, 4755, 4778]. Onların üzərinə adətən ərəb əlifbası ilə müqəddəs Quranın ayələri, müqəddəs ziyarətgah Kəbə, məscidlər və müxtəlif doldurucu naxışlar toxunmuşdur. Bəzi namazlıqların təsvirləri isə əsasən, tağ və mehrablardan ibarətdir. MATM EF-da namazlıqların araşdırılması zamanı onların naxış tərtibatını üç qrupa ayırmağın məqsədəuyğun olduğunu düşünürük: 1-ci qrupa İslamın simvolları sayılan məscid, qəndil, möhür, “Zülfiqar” qılıncı, təsbeh, Quran, hilal və ulduz; 2-ci qrupa ərəb əlifbası ilə yazılmış ayə və digər dini tutumlu yazılar; 3-cü qrupa isə İslamdan əvvəlki dini inancların qalıqları olan təsvirləri daxil etdik ki, bunlara buta tovuz, simurq quşları, ağaclar, günəş və başqa təsvirlər aiddir.

Azərbaycan toxuculuq məmulatları üzərində İslam dininin yayılması ilə birgə toxunmağa başlanan təsvirlərdən biri də gülabdan təsvirləridir. Bu təsvirlər əsasən MATM EF-da mühafizə olunan qələmkar və namazlıqların üzərini bəzəyir. Təsvir haqqında elmi ədəbiyyatda olduqca az məlumat vardır. Gülabdan sözü fars

mənşəlidir və "gül suyunun qoyulduğu qab" mənasını ifadə edir. Adətən, hər zaman eyni formada - boynu ensiz, gövdəsi isə dairəvi şəkildə olur. İslam dininə əsasən xoş qoxu, təmizlik olduqca önəmlidir. Bu səbəbdən də islam dininin yayıldığı bütün ölkələrdə gülabdandan istifadə olunmuşdur. Qonşu Türkiyə ərazisində gülabdanlar özünəməxsus şəkildə istifadə olunmuşdur. Osmanlı dönəmində gözəl qoxular saray həyatının bir parçası olmuşdur [12, s. 464]. Gül suyundan yalnız ayinlər zamanı deyil, həm də Osmanlı sarayının mətbəxində də istifadə etmişlər. "Aşure" adlandırılan yeməyin içərisinə bəzən bir qab gülab qoyularaq bişirilirdi [11, s. 214]. Qeyd edək ki, "aşure" adlandırılan yemək Azərbaycanda bişirilən hədiyə uyğundur. Sadəcə bəzi əlavə məhsullar qatılaraq, şirniyyat kimi verilir. Göründüyü kimi gül suyu xoş ətrinə görə həm müəyyən mərasimlərdə, həm də mətbəxdə istifadə olunurdu. Hazırda xalq arasında gül suyundan təzyiq salan vasitə kimi də istifadə olunur. Eyni zamanda gülabdanlardan, əsasən, Azərbaycan ərazisində yas mərasimlərində istifadə olunur. Onlar həm də evlərin interyerinin bəzədilməsi zamanı gərəkli olmuşdur. Artıq evlərdə bir məişət ləvazimatı kimi istifadə olunan gülabdanlar Azərbaycan el sənətində ərəb-islam mədəniyyətinin təsiri kimi yaranmış və təyinatı üzrə işlədilmişdir. Gülabdan təsvirlərinə daha çox Muzeyin qələmkar parçaları üzərində rast gəlirik.

Beləliklə, islam mədəniyyəti toxuculuq nümunələrimiz və bütövlükdə, mədəni irsimizə yeni ənənələr gətirərək, onun daha da zənginləşməsinə təkan vermişdir. İslamın təsiri ilə toxuculuq məmulatları üzərində bəzi naxışlar stilizə olunaraq nəbati naxışlara çevrilsə də, onların üzərində yeni dəstxət də duyulur. İslami qadağalara baxmayaraq, istər miniatür sənəti, istərsə də süjetli məmulatların sayı xeyli dərəcədə artmışdır. Belə nəticəyə gəlmək olar ki, islamın təsiri altında köhnə dini qalıqlara qadağalar tətbiq edilsə də, toxuculuq məmulatları üzərində bəzi təsvirlərin verilməsi qəbahət hesab edilməmişdir.

İstifadə olunmuş mənbə və ədəbiyyat:

1. Bünyadova Ş. T. Namazlıq. // Azərbaycan xalçaları. cild 4, N-13, 2014.
2. Əliyeva N. Azərbaycanda islam mədəniyyəti (VII-XIII). Bakı, 2017.
3. MATM EF inv. 2851. Namazlıq.
4. MATM EF inv. 6447. Namazlıq.
5. MATM EF inv. 8608. Namazlıq.
6. Mustafayev A. Azərbaycanın maddi-mədəniyyət tarixi. Bakı, 2009.
7. Nəsirov E. İslam tarixi. I cild. Bakı, 2012.
8. Vəlixanlı N. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. Bakı, 2016.
9. Eyupoğlu İ.Z. Anadolu inançları. Anadolu üçlemesi 1. İstanbul, 1998.

10. Kayıpmaz F., Kayıpmaz N. Sivas Tonus seccadeleri. Türk Türk etnoqrafya dergisi. Sayı XVIII. Ankara 1988. S.5-59.
11. Özlü Z. Osmanlı sarayında aşure geleneği uygulamasına dair. Milli folklor dergisi. 2014,Yıl 26, sayı 101.
12. Talas M., Aksoy N.D. Osmanlı süsleme sanatlarının türk kültür tarihi ekseninde değerlendirilmesi. TÜBAR XIX. 2006 Bahar.
13. Керимов Л. Азербайджанский ковер. Т. II. Баку, Гянджлик, 1983.

Sevinj Nasirova
Reflection of the Islam religion in textiles

Summary

Key words: *Islam, namazlik-prayer rug, arch, lamp, gyulabdan-vessel for pink water*

With the spread of Islam, an Islamic culture arose and it a short period of time it quickly became widespread. Islamic culture also affected textile products. Particularly, various symbols and prayers of Islam were woven on products so-called «namazlyg» prayer carpets. Elements related with Islamic culture are the most frequently found on carpets, handicrafts and the embroideries «namazlyg» prayer carpets. It was discovered the names of mosques, crescents, prophets and imams on many textiles ("gyalamkar", carpets, artificial embroideries, etc.) being stored in the scientific funds of NMHA. This culture led to the creation of a new direction in Azerbaijani textile art, despite all prohibitions in Islam it contributed to the development of Azerbaijani textiles.

Севиндж Насирова
Отражение исламской религии в текстильных изделиях

Резюме

Ключевые слова: *Ислам, намазлыг-молитвенник, арка, светильник, гюльабдан (сосуд для розовой воды)*

С распространением ислама возникла исламская культура и быстро получила широкое распространение за короткий промежуток времени. Исламская культура также повлияла на текстильные изделия. В особенности различные символы и молитвы ислама были сотканы на изделиях, называемых

«намазлыг». Элементы, связанные с исламской культурой, чаще всего встречаются на коврах, рукодельных изделиях и вышивках «намазлыг». Мы встречаем названия мечетей, полумесяцев, а также имена пророков и имамов на многих текстильных изделиях (гялямкар, коврах, художественных вышивках и т. д.), хранящихся в научных фондах НМИА. Данная культура привела к созданию нового направления в азербайджанском текстильном искусстве, несмотря на все запреты в исламе, оно внесла свой вклад в развитие азербайджанских текстильных изделий.

Namazlıq

MATM EF inv. 6447

MATM EF inv.8608

Sara Əhmədova

Etnik azlıqların sənət mədəniyyəti – həsirçilik (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında)

Açar sözlər: *toxuculuq, həsirçilik, hörmə sənəti, muzey, etnik qruplar*

UOT 39

Qədim tarixə malik olan Azərbaycan etnik tərkibi və mədəniyyətinə görə çox rəngarəngdir. Ölkənin təbii ehtiyatlar və xammalla zəngin olması qədim zamanlardan bu ərazidə müxtəlif xalqların yaşamasına şərait yaratmışdır. Bu təbii zənginlik Azərbaycanda müxtəlif sənət sahələrinin yaranmasına və inkişafına zəmin olmuşdur. Xalq sənətkarlığında əsas yeri olan toxuculuq sənətinin izləri də çox qədim zamanlara gedib çıxır. Bu sənətin ilk bəsit növünün meydana gəlməsinin zəruri şərti olan xammal ehtiyatının bolluğu cəhətdən Azərbaycan ərazisi tarixən tükənməz imkanlara malik olmuşdur.

Qeyd etdiyimiz kimi toxuculuq sənətinin tarixi çox qədimlərə gedir. Belə ki, toxuculuğun ilk rüşeymləri hörmə sahəsində yaranmış bəsit texniki vərdişlərlə üzvi surətdə bağlı olub, hələ Mezolit dövründə izlənilir. Qobustanda «Firuz» yaşayış düşərgəsindən Son Mezolit dövrünə aid, hörmə işində istifadə edilən 8 ədəd iti uclu sümük alət tapılmışdır (1, s.426). Neolit dövründən başlayaraq sadə-ibtidai toxuma istehsalına keçilmişdir. Buna səbəb isə zamanla hörmə işinin inkişafı nəticəsində yeni texniki vərdişlərin yaranması olmuşdur. Toxuculuq sahəsini araşdırarkən əyirmə məşğuliyyətini də öyrənmək mühüm əhəmiyyət kəsb edir. Arxeoloji qazıntılar nəticəsində Eneolit dövr abidələrinin əksəriyyətindən müxtəlif tipli əyircəklər tapılmışdır. Tarixi inkişafın sonrakı prosesində onların müxtəlif növləri yaranmışdır. Tunc və Dəmir dövrü abidələrində bu müxtəliflik daha çox diqqətimizi cəlb edir. Toxuculuğun ilk təşəkkül mərhələsində yabanı və mədəni lifli bitkilər olan lığ, pizə, dala, kətan və pambıq ilə paralel yun və ipək də toxuculuq sənəti üçün əsas xammal rolunu oynamışdır.

Toxuculuq sənətində hələ eramızdan çox-çox əvvəl başlanmış bəsit əmək bölgüsü məhsuldar qüvvələrin sonrakı inkişafı və yeni xammal növlərinin meydana gəlməsi ilə əlaqədar məmulat növləri üzrə ixtisaslaşma prosesi ilə əvəz olunmuşdur. Toxuculuğun ənənəvi sahələri daxilində xammal mənbələri məhsul növləri üzrə ixtisaslaşmanın dərinləşməsi nəticəsində toxuma məmulatının müxtəlif çeşidləri yaranmışdır (1, s.426). Toxuculuq sənətinin ən qədim sahələrindən biri həsirçilikdir. Bəşər tarixində həsir, hörmə səbət sənəti insan cəmiyyətinin ən qədim ixtiralarından sayılır (4, s.403). Hörmə texnikasının təkmilləşməsi, xüsusilə burma və eşmə vərdişlərinin yaranması əyriciliyin meydana gəlməsinə zəmin hazırlamışdır. Həsirçiliyin tarixi daha qədimlərə getsə də, bu sahə XIX – XX əsrlərdə Azərbaycanda daha geniş yayılmış, günümüzdə bir sıra etnoqrafik bölgələrin əhalisi tərəfindən qorunub saxlanılmışdır.

Həsirlər Azərbaycanda, xüsusilə, Kür və Araz boyu yaşayış yerlərində, Lənkəran, Astara, Masallı, Lerik bölgəsində qədimdən əvəzsiz məişət əşyası kimi işlədilib (2, s.216). Bu gün isə bu sənətkarlıq sahəsinin ən mühüm daşıyıcıları Azərbaycanın cənub bölgəsinin əhalisidir. Cənub bölgəsi özünün etnoqrafik rəngarəngliyi ilə seçilir. Burada türk əhali ilə bərabər, irandilli talış etnik qrupu da yaşayır. Onlar, əsasən Lənkəran, Astara, Masallı və Lerik rayonlarında, eləcə də, İranın şimalında yaşayan xalqdır. İran dil ailəsinə mənsub olan talış dilində danışırlar. Talışların maddi və mənəvi mədəniyyətləri Azərbaycan türklərindən bir o qədər fərqlənməsə də, öz etnik xüsusiyyətlərini qoruyub saxlamışlar (3, s.106). Odur ki, toxuculuğun müxtəlif sahələri kimi həsirçilik də həm talışların, həm də yerli əhalinin həyatında mühüm rol oynayır. Bu sənət onların təkcə iqtisadi həyatlarında deyil, eləcə də ailə-məişətində, adət-ənənələrində özünə münasib yer tutur. Hazırda isə bəhs etdiyimiz sahə ilə daha çox cənub bölgəsi əhalisi, eləcə də talışlar məşğul olur. Bölgədə aparılan etnoqrafik tədqiqatlar da bunu açıq şəkildə göstərir. Etnoqrafik materiallardan aydın olur ki, xüsusilə qadınlar həsir sənətinin sirlərinə yiyələnməklə yanaşı, onun yaşadılması qayğısına da qalmış, sənətin ənənələrini övladlarına aşılamağı özlərinə borc saymışlar. Qeyd olunan səbəblərə görə, XIX və XX əsrlərdə həsir sənəti yuxarıda sadaladığımız bölgələrin əhalisinin, başlıca olaraq bir neçə kəndində, eyni zamanda bir sıra həsirçi ailələrin nümunəsində nəsildən-nəsilə, atadan oğula, anadan qıza ötürülməsi ənənələri hesabına yaşadılmışdır. Bu baxımdan Astara rayonu, Kakalos kənd sakini, 1952-ci il təvəllüdlü Rzayev Rüfət bildirir ki, hələ uşaq yaşlarında həsirlə tanış olmuş və onun sirlərini öyrənmişdir. Bu gün cənub bölgəsində həsir sənətinin inkişafı və təbliğində Rüfət Rzayevin xidmətləri böyükdür. Həsirçi ustanın verdiyi başqa bir məlumatı da qeyd etmək maraqlı olardı. O, bildirir ki, onun uşaqlıq illərində həsirləri, hətta, çarpayının üzərinə döşəyin altına belə sərərmişlər (17). Bu da bir daha göstərir ki, həsirlər bölgə əhalisinin gündəlik həyatının bir parçasına çevrilmişdir. Əlavə olaraq, həsirlərdən, ipəkçilikdə, meyvələrin qurudulmasında,

habelə alaçıq örtüyü və taxıl kisəsi kimi də istifadə edirdilər (2, s.216).

Həsirçiliyin cənub bölgəsində, daha dəqiq desək, Lənkəran-Astarada daha geniş yayılmasının və bu ənənənin bu günə qədər də davam etdirilməsinin bir sıra səbəbləri vardı. Bu ilk əvvəl zonanın iqlim şəraitindən asılı idi. Bölgənin təbiətinə, rütubətliyinə yaxşı bələd olan əhali evlərin döşəməsinə sərilmiş xalça-palazın nəmlənib çürüməsinin qarşısını almaq üçün, altına həsir salar və bununla onların məhv olmasının qarşısını alardı. Çünki, qədim dövr və orta əsrlərdə evlərin döşəməsi palçıqdan olardı. Adətən, döşəmə saman qatılmış palçıqla qalın suvanır, suvaq quruyandan sonra onun üzərinə və divarlara ağ gildən şirə çəkilirdi (14, s.73). Eyni zamanda həsirdən istifadə etməklə həm də müxtəlif xəstəliklərin qarşısını almaq olurdu. Bunun üçün isə xüsusi bitki növü olan kələpizdən istifadə olunur. Həm kələpiz adlanan bitki, həm də həsir toxumaq üçün istifadə olunan digər bitkilərin əksəriyyəti özündə su və hava keçirməyən qapalı məsamələr, boşluqlar olduğundan soyuğu və nəmi buraxmırdı (4, s.404). Qeyd olunan səbəbdən bölgənin dənizkənarı ərazilərində məskunlaşan kəndlərində əhali həsirə evin vacib avadanlığı kimi baxırdı. Hətta əhali arasında mövcud olan ailə adətlərinə görə gəlin köçən qızlara başqa cehizlərlə yanaşı, müxtəlif cür həsirlərin verilməsi də qəbul edilmiş ənənələrdən sayılmışdır (3, s.122). Q. Cavadov isə qeyd edir ki, kasıb ailələrdə gəlin köçən qızlarına naxışlı həsirlərin cehiz verilməsi adət halını almışdır. Yəni, deyə bilərik ki, həm regionun iqlim şəraiti, həm də əhalinin adət ənənələri və gündəlik tələbatı həsirçiliyin burada bir sənət kimi inkişafına şərait yaratmışdır. Q. Cavadov həsirçiliyin talışların məişətində mühüm yer tutmasını və Azərbaycanda bu sənətin onların adı ilə bağlı olmasını həsirçilikdə istifadə olunan əmək alətlərinin, eləcə də bitki adlarının talış dilinə məxsus olması ilə əlaqələndirir (4, s.405). Ancaq bununla belə, qeyd olunan bölgələrdən başqa, həsirçilik sənəti Azərbaycanın digər bölgələrindən, xüsusilə, Qarabağ bölgəsində də qeydə alınmışdır (13, s.39). Qarabağ zonasında isə həsir adətən qamışdan hazırlanmışdır. Çünki bu bölgənin təbiəti və iqlimi ilə əlaqədar olaraq həsir üçün ən optimal xammal qamış hesab olunur. Qarabağ bölgəsində həsiri qadınlar, cənub bölgəsində isə həm qadınlar, həm də kişilər toxuyurmuşlar (13, s.40).

XIX əsrin 90-cı illərində Lənkəran bölgəsinin əhalisi, məişəti və sənətkarlığını tədqiq edən D.Kistenyev həsirçilik sənətinin burada inkişafından da yazaraq bu sənət sahəsi ilə talış əhalisinin də məşğul olduğunu yazır (4, s.405). Müəllifin daha sonra həsirçilik sənətində cil (pizə) adlı bitkidən istifadə edildiyini onun da kələ pizə və gilə pizə olmaqla iki növünün olduğunu göstərir. Məlumatlardan görünür ki, həsirçilik talışların, eyni zamanda, bölgə əhalisinin məişətində mühüm rol oynamış, xüsusilə xalçası, palazı olmayan əhali arasında ondan geniş istifadə edilmişdir. Həsirçi Rüfət Rzayev də hələ 5-6 yaşlarında olarkən həsirlərin qız-gəlinlərə cehiz verilməsi faktının şahidi olmuşdur (17). Etnoqraf Arif Mustafayev

isə həsirçilik sənətinin inkişafı üçün vacib sayılan bitkilərdən, onlardan müxtəlif məişət əşyalarının istehsalından, toxuculuq dəzgahlarından və əhali arasında mövcud olan həsir növlərindən bəhs etmişdir (12, s.262-263).

Ümumilikdə, həsir əsasən bataqlıq yerlərdə bitən, «dala», "cil", "lığ", "pizə" və ya "puzə" adları ilə məlum olan bitkilərdən toxunur. Həsirçi, Masallı rayon sakini Alışova Sidiqə xanımın məlumatına əsasən aydın olur ki, həsir toxumaq üçün lazım olan bitkilər əsasən iyun-iyul aylarında toplanılır və bu proses, hətta, avqust ayına qədər davam edir, daha sonra yerə sərilərək öz havasına qurudulur (14). Toxunduqları materialdan asılı olaraq cil həsir (dələ tomon), lığ həsir (lığə tomon), böyük pizədən hazırlanan həsir (kələ pizə tomon), xırda pizədən hazırlanan həsir (hırdə puzə tomon) olmaqla dörd qrupa bölünür (4, s.407). Həsiri hansı məqsədlə istifadə edəcəklərindən asılı olaraq, onun formasının təyinatını əvvəlcədən ölçüb biçirdilər. Etnoqrafik materiallar həsirçilik sənətində əsasən sadə quruluşlu iki dəzgahdan istifadə olunduğu göstərilir. Biri yer dəzgahı (üfüqi), digəri asma (şaquli) dəzgahdır. Adları fərqli olsa da, hər iki dəzgah bir-birinə oxşardır. Yer dəzgahında «si» adlanan döyəc taxtasından istifadə olunur. Q. Cavadov taxtanın üzərində 30 dəlik olduğundan talışların ona «si» adı verdiyini qeyd etmişdir (4, s.413). Ancaq başqa bir faktı da qeyd etmək olar ki, bölgədə bu döyəci həm də"sil" adlandırırlar. Türkdilli əhalinin fikrinə görə isə bu, siyirmək sözü ilə də əlaqəli ola bilər. Bu isə ayrı bir tədqiqat işinin mövzusudur.

Hər bir xalqın maddi mədəniyyət nümunələrinin qorunub saxlanması və gələcək nəsillərə çatdırılmasında muzeylər mühüm rol oynayır. Bu sahədə isə ən böyük iş Milli Azərbaycan Tarixi Muzeyinin üzərinə düşür. Milli Azərbaycan Tarixi Muzeyinin Etnoqrafiya fondunun (MATM EF) zəngin kolleksiyasında etnik azlıqların məişətinə aid xeyli sayda material qorunub saxlanılır. Fondun inventar kitabında yuxarıda bəhs etdiyimiz alət "tumunasi» adı ilə qeydiyyyata düşmüşdür (EF inv.№7491, şəkil 1). Qeyd edilən ifadə talış dilindəki tomon-həsir və si-həsir toxuyan dəzgah sözlərinin birləşməsi nəticəsində əmələ gəlmişdir. Muzeydə olan alətin-döyəcin birinin üzərində 34, digərinin isə 40 dəlik vardır və armud ağacından hazırlanmışdır. Bu isə onu göstərir ki, zamanla həsirin ölçülərindən asılı olaraq "si" dəzgahının üzərindəki dəliklər dəyişilmiş, artırılıb və ya azaldılmışdır. Bu fakt isə Q. Cavadovun fikrini təkzib edir.

MATM-da həsir toxuyan dəzgah da qorunub saxlanılır. Dəzgah Etnoqrafiya şöbəsinin mudiri G.Abdulova və şöbə əməkdaşı T.Şiriyevin 2012-ci ildə Lənkəran bölgəsinə ezamiyyəti zamanı gətirilmişdir. Burada istifadə olunan "si"-döyəc taxtasının üzərindəki dəliklərin sayı 40 ədəddir.

Bundan əlavə fondda, bölgə sənətkarları tərəfindən həsirdən hazırlanmış bir neçə maddi mədəniyyət nümunləri saxlanılır. Bunların arasında tərəzi, məcməi, balıq daşımaq üçün zənbillər, səbətlər, döşənəcək kimi istifadə olunan həsirlər və başqa təyinatlı xüsusi həsir nümunələri mühafizə olunur.

Həsirlər hazırlanma formasına görə iki növə bölünür: sadə və naxışlı. Sadə həsirlərdən fərqli olaraq, naxışlarla toxuma bir qədər mürəkkəbdir. MATM EF-də qorunub saxlanılan həsir nümunələrinin üzərinə də müxtəlif naxışlar vurulmuşdur. Adətən naxışlı həsirlərin hazırlanmasında həndəsi naxışlar xarakterikdir. Aşağıdakı həsir nümunəsi rombşəkillidir. Pizədən toxunmuş buhəsirin eni 66 sm, uzunluğu 1 m 10 sm-dir (EF inv.№5305, şəkil 3). Belə həsir nümunələri adətən ya döşəməyə sərilir ya da pəncərə ağzı üçün istifadə olunurdu. Bəzən isə evin divarlarına da yerdən 50-60 sm hündürlükdə həsir çəkilirdi (14, s.73). Muzeyin kolleksiyasında həm pizə, həm lığ, həm də dala adlı bitkilərdən hazırlanmış həsirlər vardır. Digər həsir nümunəsi daladan toxunmuş, ortasında isə 9 ədəd iri həndəsi naxışlı haşiyə var. Eni və uzunluğu 1 m-dir (EF inv.№5309, şəkil4). Bu cür həsirlər adətən döşəməyə sərmək üçün istifadə olunurdu.

Tədqiqatçı D. Kistenyev bu sənət sahəsinin bölgədə çox zəif inkişaf etdiyini, həsir əşyalarının isə demək olar ki, satışa çıxarılmadığını da qeyd etmişdir. Ancaq, bu cür həsir məmulatlara başqa regionlarda hazır formada rast gəldiyimiz üçün bu fikirlə razılaşmaq düzgün olmazdı. Ola bilsin ki, XIX əsrdə satış üçün istifadə etməyiblər, amma, sonrakı dövrdə bu məqsədlə də istifadə edilmişdir. MATM EF-də mühafizə olunan həsir nümunələri daha çox Lənkəran bölgəsinə aiddir.

Etnoqrafik materiallardan aydın olur ki, həsir zənbillər də əhali arasında geniş yayılmışdır. Müxtəlif yükləri daşımaq üçün istifadə edilən belə zənbillərin ölçüsü fərqli olurdu və əsasən kişilər tərəfindən toxunulur. MATM EF-də bir neçə belə həsir zənbillər vardır (EF inv.№2931, şəkil 5). Həsir zənbillərin geniş istifadəsinin əsas səbəblərindən biri bu idi ki, həsir əşyalarda saxlanılan qidalar xarab olmurdu. Buna görə də balıq, meyvə və tərəvəzlər adətən belə həsir zənbillərdə daşınırdı. Həsirçilər Alışova Sidiqə, Rzayev Rüfət, Nəzərova Tamara bu faktı təsdiq edirlər (15; 16; 17). Bu gün cənub bölgəsində bu sahədə qadınların əməyi daha çoxdur. Həsir üçün bitkilərin toplanılması, daşınması və qurudulmasında qadınların əməyi böyükdür (15).

MATM EF-da bir neçə hörmə sandıq nümunələri də qorunur. Bu cür həsir sandıq nümunələri bir çox hallarda dairəvi formada hazırlanırdı. Belə məişət əşyalarının toxunması eyni qaydada hazırlanır, ancaq ölçülərinə görə fərqlənirdi. Aşağıdakı şəkildəki səbət cildən hazırlanmış açıq və tünd qəhvəyi rəngli dairəvi formalı toxunmuşdur. Qapağı nisbətən xırda olub, ağzına taxılır. Qapağının ortasına qəhvəyi rəngli parça tikilmişdir. Diametri isə 20 sm-dir. Bu cür səbətlər müxtəlif təyinatlı olub, eyni zamanda iynə-sap saxlamaq üçün də istifadə olunurdu. Adətən iynə-sap qabları kiçik ölçüdə hazırlanırdı.

MATM EF-də çəltik şitili daşımaq üçün istifadə olunan səbət nümunələri də saxlanılır. EF 5241 inventar saylı səbətin hazırlanmasında isə söyüd ağacının çubuqlarından da istifadə edilmişdir. Qola rahat keçirmək üçün ona ağacdan iki qulp da əlavə olunmuşdur. Həmin iki qulpun araları isə həsirlə hörülmüşdür. Bunu etməkdə məqsəd isə çəltik şitili daşıyan zaman kürəyin ağrımasının qarşısını almaq idi (şəkil 7).

Həsirdən toxunan zənbillər, papaqlar, çantalar, saxsı qablar üçün tutacaqlar, asılqanlar və digər məmulatlardan bu gün də geniş şəkildə istifadə olunur. Əlbəttə ki, bu gün həsirdən hazırlanan bir çox əşyalar forma və dizayn baxımından daha dekorativ və cəlbedicidir. Bu isə Azərbaycanda həsirçilik sənətinin dövrün tələbinə uyğunlaşdırılmasını, daim inkişafda olmasını və yenilənməsini göstərir. Astara rayon sakini R. Rzayev həsir papaqlar haqqında danışarkən qeyd edir ki, əkin sahələrində çalışan insanlar adətən belə baş geyiminə üstünlük veririrlər. Çünki həsir papaqlar temperaturu eyni saxlayır, başa gün dəyməsinin və baş dərisin tərləməsinin qarşısını alırdı (17).

Bütün bunlar göstərir ki, həsirçilik tarixi inkişafın müxtəlif mərhələlərində əhalinin məşğuliyyətinin əsas və ayrılmaz sənət sahələrindən biri olmuşdur. Ağır zəhmət tələb edən sənət sahəsi olmasına baxmayaraq, bu gün də, bu həsir məmulatlara maraq itməmişdir. Son illərdə isə turizmin inkişafı ilə əlaqədar olaraq bəhs edilən sahə öz aktuallığını qoruyub saxlamaqdadır.

MATM-ın Etnoqrafiya fondunda qorunan və çöl-etnoqrafik materiallarına əsasən deyə bilərik ki, həsirçilik sənəti əsrlər boyu ənənəvi şəkildə davam etdirilərək, Azərbaycan xalqının həyatında çox mühüm yer tutmuş, istər qədim zamanlarda, istər XIX-XX əsrlərdə, istərsə də müasir dövrümüzdə əhalinin məişətində öz əhəmiyyətini qoruyub saxlamışdır.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:

1. Azərbaycan etnoqrafiyası: 3 cilddə. I cild. Bakı, 2007.
2. Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə. X cild. Bakı, 1987.
3. Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları (tarix və müasirlik). Bakı, 2000.
4. Cavadov Q. Talışlar. Bakı, 2004.
5. Milli Azərbaycan Tarixi Muzeyi Etnoqrafiya Fondu (MATM EF), inv.№2931.
6. MATM EF, inv. № 4735.
7. MATM EF, inv. № 5305.
8. MATM EF, inv. № 5309.
9. MATM EF, inv. №5241.
10. MATM EF, inv. № 7491.
11. MATM EF, inv. № 7579.
12. Mustafayev A. Azərbaycanda sənətkarlıq. Bakı, 2001.
13. Səfixanova A. Qarabağ bölgəsi həsir nümunələrinin semantik xüsusiyyətləri // "Konservatoriya", № 3, 2016.
14. Vəliyev F. XIX-XX əsrin əvvəllərində Azərbaycanın maddi mədəniyyəti. Bakı, 2010.
15. Məlumatçıların siyahısı:

16. Alışova Sidiqə Eynulla qızı, 1952-ci il təvəllüdlü; Masallı r., Musaküçə k.
17. Nəzərova Tamara Viktorovna, 1964-cü il təvəllüdlü; Masallı r., Türkoba k.
18. Rzayev Rüfət Barat oğlu, 1953-cü il təvəllüdlü; Astara r., Kakalos k.

Sara Ahmadova

Art culture of ethnic groups – matting (based on materials of the National Museum of History of Azerbaijan)

Summary

Key words: *weaving, matting, weave art, museum, ethnic groups*

Azerbaijan is a rich country with its ancient history and people. Being rich for its natural resources and raw material paved the way for the living of different nations in this territory from ancient times. This natural wealth in Azerbaijan paved the way for creation and development of various types of art. Traces of weaving that played important role in handicraft date back to ancient times. One of the ancient types of weaving is matting. From ancient times mats were used as irreplaceable household tool in Azerbaijan. Especially, in habitats along Kura and Araz rivers, and south part of Azerbaijan (Lankaran, Astara, Masally, Lerik). Mat products which kept in the National Museum of History of Azerbaijan and the materials of ethnographic researches are involved as well.

Сара Ахмедова

Ремесленная культура этнических меньшинств – производство циновок (по материалам Национального музея истории Азербайджана)

Резюме

Ключевые слова: *ткачество, производство циновок, музей, этническая группа*

Благоприятные природные условия и большое количество природных ресурсов, создали условия для поселения в Азербайджане многих народов. Природные богатства стали почвой для зарождения и развития разных отраслей ремесла. Одной из древнейших отраслей ремесла в Азербайджане считается производство циновок. Циновоки- неотъемлемая часть быта населения Междуречья Куры и Араза, а также южных регионов Азербайджана (Ленкорани, Астары, Массалы, Лерика). К исследованию, привлечены материалы Национального Музея Истории Азербайджана, а также материалы собранные во время научной командировки в указанные регионы.

Фуад Агаев

К истории табачной промышленности Бакинской губернии в начале XX века

Ключевые слова: *табаководство, табачная фабрика Наги Мехтиева, Абульгасым Гусейнзаде, трудовой договор*

UOT 94 (479.24)

Одной из сравнительно «молодых» отраслей промышленности на территории Северного Азербайджана в конце XIX – начале XX века являлась табачная промышленность. При этом к началу XX века в уездах, где культивировался табак, в хозяйстве государственных крестьян по сравнению с другими отраслями земледелия, эта культура занимала весьма скромное место. Незначительный ареал распространения этой технической культуры в уездах региона объяснялся тем, что табаководство требовало трудоемкой работы в течение всего года, а прибыль отрасли была незначительной, также в данных уездах интенсивно развивалась более доходная техническая культура – хлопок (2,с.48).

Несмотря на эти причины, культивирование табака приносило гораздо больше дохода, чем, к примеру, зерновые культуры. В начале XX века началось постепенное сокращение производства табака. Преобладание мелких табаководческих хозяйств не ставит под сомнение капиталистической организации этой отрасли земледелия, но по размерам плантаций и урожаю основные позиции были сосредоточены в руках крупных хозяев.

Эта группа предпринимателей были владельцами табаководческих хозяйств капиталистического типа, где весь производственный процесс производился с применением труда наёмных рабочих. Кроме того, в уездах основную часть площадей составляли именно промышленные плантации, немалая часть урожая с которых шла на продажу в Баку, Шемаху и внутренние регионы страны.

О высоком качестве продукции, произведённой на территории Северного Азербайджана, свидетельствовал тот факт, что продукты табаководства получали высокие оценки на международных выставках. В 1911 году на международной выставке в Риме ширванский табак был удостоен главного приза «Гран при» с награждением золотой медалью (2, с.51). Несмотря на ограниченность развития, табаководство одновременно с удовлетворением местных потребностей все более приобретало товарный характер.

В начале XX века Баку превращается в один из ведущих городов тогдашней Российской империи с населением более 100 тыс. человек (1,с.66). Основу экономики составляла нефтяная промышленность и связанные с ней отрасли. Однако наряду с этой отраслью в Азербайджане, в том числе и в Бакинском районе, развиваются пищевая, лёгкая и другие отрасли промышленности.

Появление машинного производства в табачной промышленности Южного Кавказа сыграло основную роль в развитии этой отрасли производства. Внедрение механических станков и двигателей внутреннего сгорания, резко повысило производительность труда и коренным образом перестроило техническую структуру многих табачных предприятий. Преимущественно в городах Баку, Тифлисе и Батуми, как в ведущих промышленных центрах Южного Кавказа, были сконцентрированы крупные механизированные табачные фабрики.

В 1891 году на всем Южном Кавказе действовало 18 механизированных фабрик в данной отрасли, но уже в начале XX века количество фабрик сокращается за счет концентрации и расширения отдельных предприятий, что позволило крупным предприятиям обеспечить себя сбытом табачных изделий не только на Кавказе, но и во все губернии Российской империи и даже за границу, в частности, в Турцию, Иран, Египет и ряд других стран. Несмотря на сокращение числа табачных фабрик в регионе, общая сумма выработки продукции имела тенденцию к увеличению. Развитие табаководства в регионе, главным образом, шло по возрастающей линии, что объяснялось ростом потребности на табак как внутри Южного Кавказа, так и за её пределами (1,с.67).

Согласно «Своду данных фабрично-заводской промышленности в России за 1893 год», опубликованной Министерством финансов, в Елизаветпольской губернии функционировали 2 табачные фабрики с годовым оборотом в 45 тыс. рублей и числом работников – 25 мужчин и 4 женщины, а в Бакинской губернии – 3 фабрики с годовым оборотом в 302 тыс. рублей и числом работников в 440 мужчин и 14 женщин (4, с.67).

Рост промышленности, в том числе и табачной, закономерно сопровождался и усилением противоречий между владельцами табачных фабрик и рабочими. Если в начале XX века, предпринимателям удавалось, при помощи официальных властей, противостоять росту забастовочного

движения, то после падения самодержавия в марте 1917 года, ситуация вышла из-под контроля. Массовые выступления рабочих на различных предприятиях привели к тому, что предприниматели вынуждены были соглашаться на новые взаимоотношения с рабочими коллективами.

Национальный музей истории Азербайджана обладает материалами о развитии табачной промышленности в Северном Азербайджане начала XX века на примере фабрики известного предпринимателя Наги Мехтиева. Предприниматель являлся одним из видных представителей национальной буржуазии конца XIX – начала XX веков. Основной пласт материалов относится хронологически к 1917 году, к периоду падения российского самодержавия и нарастания перемен в общественно-политической и социальной сферах, выходу на арену копившихся долгие десятилетия противоречий и затрагивает вопросы взаимоотношений между видным представителем национальной буржуазии и рабочими его фабрики.

При этом следует учитывать, что именно крупная машинная индустрия, в том числе и в табачной промышленности, произвела решительный переворот в условиях жизни рабочих, поднимая материальный уровень последних на более высокую ступень (3, с. 110). Несмотря на это, продолжительность рабочего дня для работников табачной промышленности и условия их труда оставались в качестве основного раздражителя.

Согласно сведениям о продолжительности рабочего дня и зарплате рабочих табачных фабрик из «Свода данных о фабрично-заводской промышленности России» за 1890, 1892, 1897 годы месячная заработная плата рабочего составляла от 7 до 15 рублей при 12-часовом рабочем дне (3, с. 108).

Требуется пояснить, что табачная фабрика Н. Мехтиева занимала одно из ведущих мест в табачной промышленности Южного Кавказа. Об этом свидетельствуют рекламные плакаты 1915 года, где на фоне географической карты мира были написаны слова «Дарданеллы» и «Курите папиросы Дарданеллы» с пояснением, что фабрика удостоена ряда медалей и наград за высокое качество продукции. Также рекламный плакат фабрики представлен в постоянной экспозиции Музея истории Азербайджана в разделе «Развитие промышленности во второй половине XIX века». С приходом технологических новинок индустрии в табачную сферу, внедряются гильзовые и папиросонабивные машины, крошильные станки с механизированным приводом, происходит постепенное расширение производства.

Безусловно, в расширении этой отрасли промышленности большую роль сыграла популяризация употребления табака, который с одной стороны стал обычным товаром массового потребления, а с другой прочно вошёл в повседневную жизнь значительного количества людей, прежде не употреблявших табачную продукцию. Следовательно, большие прибыли,

получаемые Наги Мехтиевым, в известной степени, увеличивали и эксплуатацию рабочей силы.

Революционные веяния, массовые акции с перерастанием политических требований в экономические и наоборот, парализовали деятельность многих предприятий, как в Баку, так и в других городах Северного Азербайджана. Рабочие коллективы на предприятиях Северного Азербайджана активно включились в процесс выработки соглашений с владельцами предприятий. Не обошёл процесс и табачные фабрики города Баку. Рабочие фабрики Н.Мехтиева потребовали от владельца фабрики принципиально новых трудовых отношений. Говоря о событиях того периода, невозможно обойти вниманием, жизнь и трудовую деятельность одного из работников фабрики – бухгалтера Абульгасыма Гусейнзаде, чья биография свидетельствует о сложных перипетиях его судьбы и одновременно проливает свет на социальные процессы начала XX века в Баку.

8 мая 1910 года А.Гусейнзаде было выдано свидетельство за № 223 об окончании частных бухгалтерских курсов А.Тер-Каспарова в Баку. Абульгасым Гусейнзаде до прихода на фабрику Н.Мехтиева работал секретарём в Бакинском Мусульманском Духовном училище «Саадет» с сентября 1910 года по октябрь 1911 года и по оценке руководства учебного заведения «…отличался добросовестным отношением к труду и необыкновенной любовью к делу»(5). Моральные и деловые качества А.Гусейнзаде привели его на табачную фабрику известного предпринимателя Н.Мехтиева, где он вскоре занимает должность бухгалтера вплоть до 1917 года.

А.Гусейнзаде, который с 1917 года становится одним из активных участников забастовочного движения, принимал непосредственное участие в данных событиях. Его подпись стоит под требованием рабочих и мастеровых табачной фабрики к владельцу Наги Мехтиеву о выплате жалования за два месяца в счёт будущего коллективного договора от 17 октября 1917 года. Коллектив фабрики предупредил владельца: «Если же это требование Вами, почему-либо будет отвергнуто, Союз оставляет за собой право действий в дальнейшем».(5) Документы свидетельствуют, что владелец фабрики вынужден был принять требования рабочих в полном объёме. Все требования были оформлены председателем правления профессионального союза рабочих и работников комиссии табачной фабрики в лице А.Гусейнзаде.

При этом трудовой коллектив потребовал резкого увеличения заработной платы – в качестве объяснения причин этого шага было приведен рост цен на продукты питания в Баку в первой половине 1917 года. Развал Кавказского фронта, рост дороговизны, распад функционировавшей административной системы, общая неопределённость ситуации привели к резкому ухудшению жизни самых бедных слоёв общества – рабочим и их семьям. «Учитывая,

что рост цен на предметы первой необходимости не прекращается, и будет продолжаться впредь, выдать рабочим дополнительное пособие…» (5). Уместно привести и ряд других требований коллектива: «I. Установить расчётную книжку для служащих. 2. Выдать всем служащим месячные отпуска с сохранением содержания и т.д.» (5).

Дело в том, что крупный капиталист, каким являлся Наги Мехтиев, не мог позволить себе снижать зарплату ниже какого-то определенного уровня, так как это поставило бы предприятие перед опасностью лишиться в страдную пору необходимого континента рабочих, а, следовательно, поставить под угрозу бесперебойность производственного процесса. Следовательно, рабочий коллектив не оставил предпринимателю иного выхода, кроме как согласиться на все предъявленные требования.

Чтобы понять важность для рабочего коллектива заключенного договора, следует напомнить, что в период самодержавия создание профсоюзных обществ и тем более открытое противопоставление интересов рабочих интересам предпринимателей не разрешалось, также по закону преследовались активные участники массовых выступлений рабочих даже на экономической почве.

Давление рабочего коллектива было настолько сильным, что после прихода Бакинского Совета к власти в начале 1918 года, Наги Мехтиев выдал А.Гусейнзаде доверенность на управление фабрикой, что фактически означало национализацию предприятия. «Настоящим уполномочиваю Вас управлять табачной фабрикой моею, находящейся в городе Баку… Кроме того, уполномочиваю Вас получать в почтово-телеграфной конторе адресованные на моё имя денежные переводы и посылки, а также нанимать для фабрики служащих и мастеровых людей…» (5). Уже после установления Советской власти в апреле 1920 года фабрика стала государственным предприятием, а сам А.Гусейнзаде занял должность главного бухгалтера.

Из коллективного договора 1917 года и содержания требований становится ясно, что они были обдуманы, учитывали экономические и политические обстоятельства, и стали общими при переговорах уполномоченных рабочего коллектива с предпринимателем.

Список использованной литературы и источников:

1. Джалилов А.Г. Бакинский промышленный район и пищевая промышленность Южного Кавказа в начале XX века//Bakı Universitetinin Xəbərləri. № 4. Humanitar elmlər seriyası. 2011.
2. Гасанов Г. Из истории североазербайджанской деревни в конце XIX – начале XX вв. Баку, 2007.

3. Кафарова З. Формирование рабочего класса Азербайджана. Баку, 2004.
4. Свод данных фабрично-заводской промышленности в России за 1893 год. Материалы торгово-промышленной статистики. Министерство финансов. 1896 г.
5. Национальный Музей истории Азербайджана. Фонд документальных источников. № 533.

Fuad Ağayev
XX əsrin əvvəllərində Bakı quberniyasının tütünçülük sənayesinin tarixindən

Xülasə

Açar sözlər: *tütün, Nağı Mehdiyevin tütün fabrikası, Əbülqasım Hüseynzadə, əmək müqaviləsi*

Məqalənin tədqiqat obyektini 1917ci ildə Nağı Mehdiyevə məxsus tütün fabrikinin işçiləri ilə müəssisənin sahibi arasındakı istehsalat münasibətləri təşkil edir. Müəllif sosial-iqtisadi və ictimai-siyasi hadisələr fonunda fabrik işçiləri mübarizəsinin müvəffəqiyyətinə və etirazın təşkilatçılarından biri olan – mühasib Abulqasım Hüseynzadənin aparıcı roluna diqqəti yönəldir.

Fuad Aghayev
On the history of the tobacco industry in Baku province in the early XX century

Summary

Key words: *tobacco, Nagi Mehdiyev tobacco factory, Abulgasim Huseynzadeh, employment contract*

The subject of the research in this article is the production relations of tobacco factory workers with the owner of the enterprise – Nagi Mehtiev in 1917. The author draws attention to the success of the struggle of factory workers against the background of the socio-economic and socio-political situation and the leading role of one of the organizers of the protest – accountant Abulgasim Huseynzade.

Allahverdi Əlimirzəyev

Massagetlər və Azərbaycan

Açar sözlər: *qədim Azərbaycan, antik mənbələr, massaget tayfası, Araz çayı, Tomiris.*

UOT 94 (479.24)

Əhəməni - İran dövlətinin banisi II Kuruşun (e.ə. 558-530) ölümü bədii mövzu kimi antik müəlliflərin yaradıcılığında dərin iz buraxmış, əsrdən əsrə ötürülərək əfsanələşmişdir. E.ə. V əsrdən başlayaraq Herodot, Ktesi, Beros, Strabon, Arrian, Polien, Diodor, Ammian Marsellin və digər yazarlar bu mövzuya müraciət etmiş, onlara məlum detallarla fərqli hekayələrin yaranmasına səbəb olmuşlar. II Kuruşun ölümü ilə nəticələnən hərbi əməliyyatlar haqqında Əhəməni dövlətinin rəsmi mövqeyini əks etdirən mənbənin yoxluğundan antik müəlliflərin yazdıqları ilə kifayətlənməli oluruq. Bir əsrdən artıqdır ki, antik mənbələrin ziddiyyətli məlumatları əsasında II Kuruşun məğlubiyyəti ilə nəticələnən həlledici döyüşün harada baş verdiyi ilə bağlı ən mötəbər mənbədə, H/HHerodotun “Tarix” əsərində bildirilir ki, Əhəməni şahı massagetlərin torpaqlarını ələ keçirmək üçün onların dul qalmış xanım hökmdarı Tomirisə elçi vasitəsilə izdivac təklif edir [**6**, I. 201-216]. Tomiris bu məkirli niyyəti rədd edir, əvəzində əsir düşmüş oğlu Sparqapisin azad olunmasını tələb edir. Hərbi əməliyyatların həlledici mərhələsində II Kuruşun komandanlığı ilə Əhəməni ordusu Araz çayını keçib, massagetlərin torpaqlarına daxil olur. Arazdan şimalda baş verən ağır döyüşlər massagetlərin qələbəsi, Əhəməni şahının ölümü ilə nəticələnir.

Bu hekayənin reallığı əks etdirdiyi şübhə doğurmasa da, hadisələrin harada cərəyan etdiyi mübahisə predmeti olaraq qalır. Mövzunun başlıca tədqiqatçıları olan sovet tarixçiləri massaget tayfalarının məskunlaşdığı ərazini Xəzər və Aral dənizləri arasında lokalizə edirlər [24, c.231-250; 7, c.175-187 ; 21, c.115-130; 22, c.46-70, 14, c.127, 172].

Antik dövrün sonlarına və erkən orta əsrə aid qaynaqlara istinadən massagetlərin Azərbaycanın şimal-şərq bölgəsində yayıldıqları qeyd olunsa da, bu məskunlaşmanı e.ə. I əsrdən sonrakı dövrlərə aid edirlər [1, s.26; 22, c.69]. Təqdim olunan məqalə massagetlərin Azərbaycanın tarixi torpaqlarında əvvəllər də yayıldıqları ehtimalını ilk mənbələrin obyekriv təhlili ilə sübuta yetirməyə hesablanıb. Bu məqsədlə mənbələrdəki məlumatların təhlilindən doğan arqumentləri 2 aspektdən nəzərdən keçirəcəyik.

1.Coğrafi nomenklatura. E.ə. I minilliyin yarısında massagetlərin yayıldığı ərazi Herodotun əsərində belə təsvir olunur: " Onlar [= massagetlər- A.Ə.] şərqdə, günəşin doğduğu tərəfdə, Araks çayının arxasında ...yaşayırlar" [6, I. 201]. Bənzər ifadə ilə Dionisi Perieqetin "Yerin təsviri" əsərində qarşılaşırıq: ".... şərqdə, gurultulu Araksın qarşı tərəfində massagetlər yaşayır" [8, 739-740].

Lakin antik müəlliflərin əsərlərindəki "Araks" hidroniminin identifikasiyası ilə bağlı araşdırmalar gözlənildiyinin əksinə olaraq problemi daha da qəlizləşdirdi. "Araz"ın əslində hidronim deyil, qədim iran dillərində "axar çay" anlamında işləndiyinə əsaslanaraq (müqayisə et: qədim fars dilində rauča, Avestada raočah, sanskritcə ruxša, müasir farscada rud), istənilən çayın bu adla ifadə oluna bilməsi fikri irəli sürüldü. Antik dövrdə bir neçə iri çayı "Araks" adlandırırdılar [9, c.184]. Ehtimal olunur ki Herodot " Arakses" adı altında üç fərqli çayı – Volqanı, Amudəryanı və indiki Arazı qarışıq salmışdır [22, c.65-66; 25, c.53; 13, c.123]. Bu onunla əsaslandırılır ki, onun əsərində "Araksın" təsviri hansısa konkret bir çaya uyğun gəlmir. Digər tərəfdən, massagetlərdən danışarkən Herodotun "deyirlər" sözünü işlətməsi güman etməyə əsas verir ki, onun məlumatları, o cümlədən Araz çayı haqqında informasiyası fərqli şifahi mənbələrdən alınmışdır. "Araks" çayı haqqında Herodot yazır: "Araks çayı matienlərin [ölkəsindən] axır....Araksın qollarından biri açıq ərazilərdən Kaspi dənizinə axır" [6, I. 202]. Bənzər ifadə ilə Strabonun "Coğrafiya"sında "Araksos" çayının təsviri zamanı qarşılaşırıq: "... [Araksos] matienlərin [ölkəsindən] axaraq 40 qola ayrılır" [23, XI, 14,13]. Əsərin başqa yerində Herodot "Araksı" "gündöğan [tərəfə] axan çay" kimi xarakterizə edir [6, IV, 40].

Κΰρος δέ προελθών άπδ του Ά ράξεω ήμερης δδδν Ιποίεε τάς Κροίσου ύποθήκας. μετά δέ ταυτα Κύρου τε και Γίερσέων του καθα ρού στρατού άπελάσαντρς δπίσω επι τδν Άράξεα, λείφθέντος δέ του άχρηίου, Ιπελθουσα των Μασσαγετέων τριτημορις του στρατού τούς τε λειφθέντας τής Κύρου στρατιής Ιφόνευε άλεξομένους και τήν προκειμένην ιδόντες δαΓτα, ώς Ιχειρώσαντο τούς Ιναντίους, κλιθέντες Ιδαίνυντο, πλη- ρωθέντες δέ φορβής και οΓνου ηυδον. οι δέ Γίέρσαι επελθόντες πολ λούς μέν σφεων Ιφόνευσαν, πολλφ τι πλευνας Ιζώγρησαν, και άλλους και τδν τής βασιλείης Τομύριος

Şəkil 1. Massagetlər Herodotun "Tarix" əsərində

Güman olunur ki, Herodot massagetlərin təzyiqi ilə skiflərin"Araksı " keçdiyindən danışarkən Volqanı, II Kuruşun keçdiyi "Araks" hidronimində Amudəryanın qollarından birini, mənbəyi matienlərin ölkəsindən başlayan "Araks"

deyərkən indiki Arazı nəzərdə tutmuşdur. Əhəməni dövləti ilə massagetlərin ölkəsi arasında sərhəddin Volqadan keçdiyi qeyri-mümkün görünür, çünki bu çay Xəzərə şimaldan tökülür.

живущих у Великой Кавказской горы, … и приказывает им отказаться от разбоя и не заниматься угоном людей…»; Нестор: «Если придут черные болгары и станут воевать в Корсунской стране, то приказываем русскому князю, чтобы он не пускал их, иначе причинят ущерб и его стране…» [15, с. 372; 32, с. 90; 49, с. 234; 59, с. 55]. Здесь следует добавить и сообщение Страбона, который отмечает, что в Утии, провинции Кавказкой Албании, «живут и некоторые другие племена, занимающиеся разбоем и войной, чем земледелием, что объясняется суровостью страны» [Strabo IX, VII, I]. Если же учитывать то, что названия таких германских племен, как «бургунд, алеман, гот» в своей основе тюркского происхождения, в данном случае интересен рассказ из «Истории лангобардов» о королевстве франков: «События времен Троянской войны… По мнению Фредегара, франки, ведущие свой род от троянцев, самый отважный народ на земле … франки странствовали по Азии, … затем проникли в Европу, какая-то их часть осела на берегу Дуная между Океаном и Фракией. Они избрали себе короля по имени Торквот, и от него это племя приняло название турки. … » [71]. А уже если же добавить ко всему сказанному разрушение в 455 г. Рима вандалами, то можно заметить, что все источники единогласны в идентификации венедов с асами. Поэтому можно утверждать, что в названии «вандалов» «al» является суффиксом определения. Упоминание же Прокопия о родстве склавинов/саклабов, в данном случае булгар, и антов, а вместе с этим и венедов по Иордану, можно считать безупречным. Таким образом, наш анализ источников свидетельствует о том, что родоначальниками римских патрициев были троянские венеды, т.е. тюрки-асы по происхождению, которые и принесли с собой на Аппенины понятие «canis/волчица» и будущее название страны – «Италия», восходящее к тюркскому понятию «İt eli» - «страна волка/собаки». Именно эта философия и лежит в основе понятий «викинг/варяг».

Но здесь следует обратить внимание и на такое сообщение из рассказа Снорри: «Круг Земной, где живут люди, очень изрезан заливами. Из океана, окружающего землю, в нее врезаются большие моря ... От этого моря отходит на север длинный залив, что зовется Черное море. Он разделяет трети света. Та, что к востоку, зовется Азией, а ту, что к западу, некоторые называют Европой, а некоторые Энеей ...» [52]. Из этого сообщения выходит так, что название Европы «Энея» опять же связана с булгарами-венедами, именуемыми в источниках асами. Так, когда Геродот рассказывает об обычаях древних египтян, он пишет: «Чистых быков и телят египтяне приносят в жертву повсюду. Напротив, коров приносить в жертву им недозволенно. Они посвящены Исиде. Ведь Исида изображается в виде женщины с коровьими рогами (подобно изображению Ио у эллинов) и все египтяне точно также почитают больше всех животных коров» [Herod II:41; 43, с. 568]. По рассказу

Геродота Ио была дочерью правителя Аргоса Инаха [Herod I:1]. Несколько иначе с этой версией мы встречаемся в рассказе Иосифа Флавия, который считает основателем Аргоса Даная. Й.И.Израильсон, корректируя данное сообщение, пишет, что древние аргосцы основателем города считали не Даная, а Инаха [57, с. 22-23]. Судя по этим же источникам, выходит так, что во главе первого «греческого» полиса Арго, стояла тюркская династия. Но мы в сущности можем отметить, что если в тюркских языках «inek/ene» - это «корова», то «дана» это теленок. Поэтому для нас очень интересен рассказ Аммиана Марцеллина о Причерноморском побережье. Историк пишет: «Оконечности лука образуют с обеих сторон два узких Босфора, лежащие друг против друга, Фракийский и Киммерийский. Имя Босфора они носят потому, что некогда дочь Инаха, превращенная, по словам поэтов, в корову, перешла через них в Ионийское море»[40, с. 254-255]. В комментарии же, что Босфор – «βοός πoροξ, бычий брод» [40, с. 255]. Что же касается греческого «βοός/бос», то следует отметить, что «теленок» по-тюркски «бузов». Так вот, именно с этим культом и связано происхождение названия Византий!!! Учитывая то, что в догреческой балканской и малоазийской мифологии культ быка занимал достаточно почетное место, можно считать, что имя Энея, отца Аскания может также этимологизироваться на основе тюркского языка из слова «İnək»/ «Корова». Как можем заметить по этим примерам из письменных источников наиболее широкое распространение в тюркской мифологической традиции занимают символы - "Kut/Tur(Бык/Бог)→Kurt/Kutr (Волк)+Bars (Горный лев) +Yılan/İlan/Əjdaha (Змей/Дракон). Например, по версии «Огуз-наме» Огуз хаган изображается так: «Ноги его были подобны ногам быка, поясница – пояснице волка, плечи подобны плечам соболя». А согласно киргизскому эпосу о Манасе, этот герой «имел тигровую шею, змеиные веки, волчьи уши» [39, с. 122]. Очень интересно, это «триединство» «был/волк/барс» наблюдается и в азербайджанском мугаме – Maye (buğa)-Qurdu (kürdü)-Şikəste-i bars (fars). Характерно, что в тюркском языке «Kut» - это «Бог, Святой дух, свет», мифологической манифестацией которого является Бык. Изображение этого животного, как религиозный символ, достаточно отчетливо прослеживается в древнейшей мифологии. Модификацию Бык-Лев мы встречаем в символах монотеизма, например у иудеев יהוה – Yahva/Бог, alef → Ariel (Божий лев), в Исламе Heydar/Əsadullah (Божий лев) - в арабском языке «бык/телец» - ثور / sur. Уже у египтян манифестацией RA был Лев (сфинкс). Известно и то, что одним из имен RA было и Hekri, что на основе закона метатезы сонорного «-r» произносится как «Hekir», что уже соответствуют тюркскому понятию "Gök Ər", т.е. «Небесный Бог/Gök Tanrı» [11, с. 308-355], в имени которого уже прослеживается «Tan/Бык-Телец». На основании этой модификации получается мифологическое раздвоение, ибо тогда как RA – это

кот/лев, то его соответствие Hekri/Tanrı – это уже бык. Можно заметить, что египетская мифология тоже сохранила в себе модификацию Лев/Бык. В греческой мифологии Зевс/D(Z)eu(v)s является отцом (!!!-Алекпер) Геракла. А это подтверждается словарным фондом самого имени «греческого» героя, где второй слог данного имени «-akl» соответствует тюркскому понятию «ogul/сын» [7, с. 68-80]. При закономерности же закона лингвистики «ретатизма/зетатизма» AR соответствует понятию AL (Allah), что находит аналогию в имени Alı, кто был отцом Koroğlu, образа, на основании которого и формировалась легенда о Геракле. Можно заметить, что и RA, и D(Z)eu(v)s – это Световое начало. Но здесь уже опять проявляется модификация бык→волк, Так например, Геракл, как греческий вариант Кёроглы, является сыном Громовержца – Зевса, явившегося Алкмене в образе быка, то согласно азербайджанскому варианту тюркского дастана Кёроглы у этого героя от дербендской тюркской красавицы Момине-хатун, рождается сын Гасан, которого легенда именует "Qurd oğlu", имя которого в связи с распространением мусульманских традиций было преобразовано в «Kürdoğlu», т.е. «сын курда». Если же довериться греческой мифологии, то мать Геракла кроме этого героя от своего «законного мужа» Амфитриона родила и Ификла. А имя Ἰφικλῆς, в имени которого прослеживается то же понятие «сын –akl/ikl", в этом случае при закономерности перехода «f/t» читается и как «İtikl», то есть «сын собаки». Эта легенда уже перекликается с сообщением Рашид ад-Дина о беременности Алан-Гоа. Это световая семантичность отражена и в названии первой столицы Албании «Кабала», находящейся в Барселии. К тому же культ «барса», с которым было связано наименование второй столицы Албании – Барза'а, Барда'а, также отражает ту же световую сущность.. Прав римский автор Гай Юлий Солин, который пишет, что «албаны … родятся с белыми волосами, и седину их считают добрым знамением; таким образом, цвет головы дал имя народу…» [7, с. 91]. На основании всего изложенного считаем, что с именем асов можно связать и имя сына Энея – Аскания. Сравнительное сопоставление письменных источников и языкового материала позволяет нам утверждать, что производное от тюркского «ay/ey/iй» в смысле «дом поселение» и восходящее к нему в греческих источниках, а конкретно, в имени Асканий, частица «ay/iy», есть уже окаменевшее отыменное окончание греческого языка. Исходя из данной аналогии, можно заметить, что основу имени сына Энея составляет понятие «Askan» (например, Astarxan, Asparux), где частица «-кан» связана с тюркским «хан» в смысле «вождь, жрец». Известно, что Аспарух был сыном Кубрат хана. Предполагают, что булгары во главе с Аспарух-ханом принадлежали к кутригурам. Некоторые исследователи, увлекшись «ираноязычными поисками» генезиса тюрок, прибегали к достаточно нечистоплотным методам исследования, именуемым

фальсификация. Именно, основываясь на этих выводах О.Б.Бубенок и Ф.Х.Гутнов решили этимологизировать имя Аспарух-хана из иранского как «Aspa-ruk», как «светлый конь», что на самом деле по их интерпретации должно было бы звучать «конь светлый». Но, осознавая неправильность своих суждений, они подогнали интерпретируемое ими это понятие «конь светлый», под нормы русской грамматики … и получили «светлый конь» [30, с. 4; 23]. Передача же данного имени в форме «светлый конь», а не «конь светлый» было вызвано тем, что их трактовка не укладывалась в норму грамматических принципов иранских языков. Однако, если отец Аспаруха – Кубрат – это уже «Курт/волк», то и имя сына основателя Великой Булгарии должно иметь то же значение из «as /светлый/+ börü/волк/+ «к» /антропоморфный суффикс». Но на знамени Аспаруха был изображен не Волк, а Барс. Это уже свидетельствует, что род Кубрата был представителем «барсилей». Все это позволяет нам утверждать, что имя одного из предводителей венедов - Аскания должно этимологизироваться на тюркской языковой основе как «хан Асов». Учитывая популярность протезирования «к/г» [ут/к-ут (огонь, душа), утии/к-утии - утигур/к-утигур (племена)], мы допускаем закономерным отождествление асов с каспиями, т.е. (к)+as/этноним/ + pi/суф.мн.ч./ + iy/отыменное окончание/. Синонимом названия Каспийского моря является наименование «Хазар», где фонема «х/к» также является протезированным звуком. В названии же «азар», т.е в слове, которое является составной частью названия Азербайджан, опять прослеживается этноним «асов». Название «кас-/каз-» закреплено в названии «хазар, казак, казах, касог». Известно, что «касоги» старославянских летописей это черкесы, чье имя по нашему убеждению двусоставно и состоит из тюркских слов «çerik (воин) + as (этноним), что дословно переводится как «воин ас». Название племени «as» наряду с названием «Азербайджан» восходит к более отдаленным временам, что нашло свое отражение в названии «Azıx», где человек 700 тыс. лет назад научился использовать огонь. При закономерности перехода в тюркских диалектах «d/z»[84, с. 35] (это упоминание в источниках хоронима Азербайджана как «Адирбиджан/ Азирбиджан»), то название «Azıx» можно произнести и «Адых/Адыг»и, которые со средневековья назывались «черкесами» [58, с. 24, 1480]. Думаем, что в данном случае современные «адыги» также как нынешние авары, болгары, удины и казаки ныне являются всего лишь носителями тюркского наименования. А параллель в названии "az/as/ad" позволяет утверждать о родственности (k)as+pi-ев и (k)+adus-ев с алано-асами. Видимо, неспроста, как сказано выше, Ибн Хордадбех располагал алан в зоне обитания указанных племен. Неспроста и то, что каспии в письменных источниках идентифицируются со скифами [Herod, VII:67]. Учитывая закон полиндрома и метатезы в этнических наименованиях, например, гел→лег, полагаем, что

название «kas(pi)»и согласно указанному закону словообразования соответствует понятию «sak» -kas→sak.

В конце XVIII до н.э. Египет подвергся нашествию гиксосов, название которых производят из искаженных египетских слов как «правители пастухов» или «правители пустынных стран». Эти данные исходят из высказываний Манефона. Манефон приводит такое сообщение: «…Все их племя называлось гиксос, т.е. «цари пастухи», ибо «гик» на священном языке означает царь, а «сос» общем наречии – «пастухи», и так получается составное «гиксос». Некоторые говорят, что это были арабы. А в другой копии наименованием «гик» не обозначаются «цари», но, напротив, объясняются «пленник-пастухи»: ибо, действительно, по-египетски «гик» и «гак», произнесенное с густым предыханием, точно означает «пленники». И это кажется мне более вероятным и согласующимся с древней историей» [60, с. 58]. Можно заметить, что Манефон сам не знает значения данного понятия, которое хочет транскрибировать на основании древнеегипетского языка. Непонятно, почему исследователи, вслед за Манефоном, также стараются этимологизировать данное понятие из древнеегипетского, когда оно таковым не было. Гиксосы в XIX в.до н.э. создали свое государственное образование, охватывающее Палестину и Синайский полуостров. Воспользовавшись ослаблением Египта гиксосы в 1710 г. до н.э. захватили страну, обосновавшись в Северном Египте, где и построили свой главный город Аварис [37, с. 48-49]. В связи с этим следует внимание на очередной рассказ Страбона о скифах : «Но Скифы былых времен … считались у Эллинов действительно такими, какими их изображает Омир…Анахирсис, Аварис и некоторые другие скифы, им подобные пользовались большой славой среди Эллинов» [37, с. 113]. А Ибн Русте подчеркивает, что «малик /Сарира/ именуется Авар» [70, с. 144]. Попытка Л.Н.Гумилева, ссылавшегося на византийского историка VII века Феофилакта Симокатту, который писал, что авары – это псевдоним племен уар и хунни, впоследствии принявшего имя могущественного народа [26, с. 165-172], не выдержало критики [74, с. 350]. Мы не исключаем и того, что этнический состав гиксосов по-своему происхождению был пестрым. Но это не умаляет того, что главный род гиксосов был тюркского происхождения. Сравните наименование гиксосов с библейскими «Гогами-Магогами», а также с Гогареной античных и Гугарком армянских историков /от тюркск. «göy/gök(небесный) + ər(муж)/ с названием государства Гёк-тюрков. Кстати, арабоязычная традиция именует «Гогов-Магогов» - «Йаджудж-Маджудж». А Низами уподобляет их псам и волкам [76, с.581]. Впоследствии иудеи именовали жителей Ханаана, где некогда господствовали гигсосы – «псами». Учитывая световую манифестацию волка/собаки», мы полагаем, что в названии «гиксос»ов зафиксировано племенное название асов, т.е göy/gök +

as /племя/ + os /окон. имени существительного греческого языка. Ведь есть же и белые асы – (h)ak+as или «гагаузы – gök oquz»-ы.

Таким образом, подытоживая сказанное в данной статье, следует отметить, что неправильная этническая характеристика названия «алан/асов» привела исследователей к довольно путаным выводам. Имеющий световую семантику этноним «ас», к названию которых восходит происхождение названия «Азия», фигурирует на всем пространства с момента становления этнического самосознания, т.е. как минимум с III тыс. до н.э.

Список использованной литературы:

1. *Gəncəvi Nizami* İskəndər-namə. Bakı. 1983
2. *Fazili Abdulla* Azərbaycanın qədim və ilk orta əsrlər tarixi İran tarixşünaslığında (III-VII əsrlər) Bakı. Elm 1984
3. *Mobili Robert* Udicə-azərbaycanca-rusca lüğət. Bakı. Ləman. 2010
4. *Vəlixanlı Nailə* IX-XII əsr ərəb coğrafiyaşünasları Azərbaycan haqqında. Elm. Bakı, 1974
5. *Абрамян Р.* Пехлевийско-персидско-армяно-русско-английский словарь. Ереван. Митк.1965. с. 163,181
6. *Агафангел.* Крещение армян, грузин, абхазов и аланов св. Григорием. Арабская версия. Перевод.Н.Марра – Записки Восточного отделения Императорского русского археологического общества.1905, т.XVI, вып. II-III
7. *Алиев Кемал* Античные источники по истории Азербайджана. Баку. Элм.1987.
8. *Алекперов Алекпер* Зурна и джанги /к этимологии происхождения названий в свете проблем этногенеза // Türkologiya №4.2015.ss.67-80
9. *Алекперов Алекпер* Кадусии как древнейший тюркский этнос Азербайджана // Dirçəliş – XXI əsr. Azərbaycan dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu.147-148/2010
10. *АлекперовА.Ф.* Об этническом происхождении скифов//Актуальные проблемы истории Кавказа. Материалы международной конференции, посвященной 100-летию со дня рождения Р.М.Магомедов (Махачкала, 14-15 апреля 2010 г.) Махачкала. 2010, с.113-115.
11. *Алекперов Алекпер* По поводу некоторых тюркско-семитских и тюркско-индоевропейских исторических языковых параллелей // Türkologiya. 2. Bakı. 2012. с.65-78
12. *Алекперов Алекпер* Тюрки Азербайджана. Şərq-Qərb, Баку. 2011
13. *Алекперов Алекпер* Этимология некоторых названий тюркско-албанского

происхождения // Dirçəliş XXI, 2011. 158-159
14. *Алемань Августи* Аланы в древних и средневековых письменных источниках. Москва. Менеджер. 2003
15. *Анналы*. Малые произведения .Пер.А.В.Бобович. Изд. Наука. Л.1970.с. 372;
16. *Армянская география* VII века по Р.Х. (приписывающаяся Моисею Хоренскому.Текст и перевод с привосокуплением карт и объяснительных примечаний. Издал К.П.Патканов. Санктпетербург. 1877. Изд. «Вехи». 2006. http://www.playcast.ru/view/2061427/40bb1eba4600e1095a620a19a442d83f8cf4dba4pl
17. *Артамонов М.И.* История хазар. Ленинград. 1962
18. *Бартольд В.В.* Извлечения из сочинения Гардизи «Зайн ал-ахбар». Приложение к «Отчету о поездке в Среднюю Азию с научною целью» 893-1894 гг. Соч. т.VIII. М.1973
19. *Бейлис В.М.* Ал-Идриси (XII) о Восточном Причерноморье и юго-восточной окраине русских земель//Древнейшие государства на территории СССР. Материалы и исследования. 1982 год. М.1982
20. *Бичурин Н.Я.* / Иакинф / Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. Москва. АН СССР. 1950. т. I
21. *БоднарскийМ.С.* Античная география. М. 1953
22. *Бубенок О.Б.,* РадівіловД.А.Раннiхозари на півдні Схидноі Европи // СхіднийСвіт. Інститут сходознавстваім.А.Ю.Кримського НАНУ. 3.2010. Киів. 2010
23. *Волин С.* К истории древнего Хорезма // Вестник древней Истории.1941, №1, с.193-194
24. *Гиндин Л.А.*Троянская война и аххиява хеттских клинописных текстов // Вестник Древней истории 1991, № 3.http://annales.info/hetts/small/vdi_91_3.htm
25. *Грюнебаум фон Г.Э.* Классический Ислам. Очерки истории. (600-1258). М. 1986
26. *Гумилев Л.Н.* Тысячилетие вокруг Каспия. Баку. 1991
27. *Гутнов Ф.Х.* Ранние аланы. Проблемы этносоциальной истории. Владикавказ. Ир. 2001
28. *Димитров Д.* Протобулгарысеверного и западного Черноморья. Варна, 1987. http://groznijat.tripod.com/p_bulgar/index.htm;
29. *Долгорукий Алексий, Шпилевская Наталья* Долгорукие, Долгоруковы и Долгорукие-Аргутинские. С.Петербург.1869
30. *Древнетюркский словарь*. М. 1969
31. *Зороастрийские тексты.* Суждения духа разума (Дадестан-и меног-и храд). Сотворение основы (Бундахишн) и другие тексты. Памятники письменности Востока. CXIV. Издание подготовлено О.М.Чунаковой.

Изд. «Восточная литература» РАН Москва.1997

32. *Иордан* О происхождении и деянии гетов. Getika. под ред. Е.Ч.Скрижинской. Изд Восточная литература. М. 1960
33. *История Древнего* Востока под ред. В.И.Кузищина. Москва.1979
34. *Кассий Дион* Римская история//КДПАА.М.1991
35. *Кляшторный С.Г.* Древнетюркские рунические памятники как источник по истории Средней Азии. Изд. Наука. М. 1964
36. *Кононов А.Н.* Опыт анализа термина тўрк // в сб. Гумилев Лев Н. «Древние тюрки» Соч. т. 13. М.2001
37. *Латышев В.В.* Известия древних писателей греческих и латинских о Скифии и Кавказе.т. I. вып. 3. СПб. 1900
38. *Ливий Тит* История Рима от основания города. Изд. Наука М.1989, т.1
39. *Липец Р.С.* «Лицо волка благословенно…» [Стадиальные изменения образа волка в тюрко-монгольском эпосе и генеалогических сказаниях] // Советская этнография. 1981, № 1
40. *Марцеллин Аммиан* Римская история. Пер. с латинского Ю.А.Кулаковского и А.И.Сонни. Изд. Алатейя. Санкт-Петербург . 2000
41. *Меликсет-Бек Л.* М. Хазары по древнеармянским источникам в связи с проблемой Моисея Хоренского. - В кн.: Исследования по истории культуры народов Востока. Л., 1960
42. *Мещерский Н.А.* История Иудейской войны Иосифа Флавия в славяно-русском перводе М-Л. 1958.
43. *Мифы народов мира* под ред. С.А. Токарева, т. 1. Наука. М.1991, т. 2
44. *Минорский В.Ф.* История Ширвана и Дербенда. Москва. 1963
45. *Новосельцев А.П.* Хазарское государство и его роль в истории Восточной Европы и Кавказа. Изд. Наука. М. 1990,
46. *Павел Диакон* История лангобардов.// Памятники средневековой латинской литературы IV-IX веков- https://profilib.com/chtenie/HYPERLINK «https://profilib.com/chtenie/128022/pavel-diakon-istoriya-langobardov.php»128022HYPERLINK «https://profilib.com/chtenie/128022/pavel-diakon-istoriya-langobardov.php»/pavel-diakon-istoriya-langobardov.php
47. *Плетнева С.А.* Половцы» Москва.1990
48. *Плутарх* Избранные жизнеописания т. 1 Москва. 1990
49. *Повесть временных лет* под ред. В.П. Адриановой-Перетц. Изд.Наука. М-Л. 1950, ч. I
50. *Рашид ад-Дин.* Сборник летописей т.I, кн. I. Изд. АН СССР. М-Л.1952 /221./
51. *Советский энциклопедический словарь.* Изд. Советская энциклопедия.М.1985
52. *Стурлусон Снорри.* Круг Земной. Москва. Наука, 1980. Издание

подготовили: А. Я. Гуревич, Ю. К. Кузьменко, О. А. Смирницкая, М. И. Стеблин-Каменский. http://norse.ulver.com/src/konung/heimskringla/intro.html
53. *Снорри Стурулсон* Младшая Эдда. Л. 1970
54. *Таиров Ф.Таир*. Шумеры. Кто они и где они? ArtPress. Тошкент. 2010, с.30-36
55. *Тацит Корнелий.* Анналы. Малые произведения .Пер.А.В.Бобович. Изд. Наука. Л.1970
56. *Тер-Гевондян А.Н.* Армения и Арабский Халифат. Изд. АН Арм. ССР. Ереван. 1977,
57. *Флавий Иосиф* О древности иудейского народа. Против Аппиона. Перевод с греческогоЯ.И.Израэльсона. С.Петербург. 1895
58. *Хабичев М.А.* О древнетюркских рунических надписях в Аланских катакомбах // Советская тюркология.1970.№ 2. с. 64-69
59. *Хоренский Моисей.* История Армении пер.Н.О.Эмина Москва. 1893
60. *Хрестоматия по истории Древнего Востока*.ч. 1. под ред. М.А.Коростовцева. М.1980
61. *Хроники длинноволосых королей* Сборник /http://lib.rus.ec/b/103852/read
62. *Черняловский З.М.* Всеобщая история государства и права. Москва. 1983
63. *Шестаков П.Д.* Кто были древние булгары. ЖМНП. 1883
64. *Шуке Галина* Были ли латыши тюрками? Феномен обнаружения тюркского субстрата Прибалтики Даугавпилс, 2010, ISBN 978-9984-49-046- с.18. //http://s155239215.onlinehome.us/turkic/40_Language/ShugeTurkicLatvianRu.htm
65. *Эрдейн И. Авары* // Гумилев Лев Н. Древние тюрки Соч. т.II. М. 1999
66. *Юшков С.В*. К вопросу о границах Древней Албании// Известия АН СССР, т.1. Москва.1937 с.129-148
67. *GoldenP.B*. Thepeople نوكردة // ArchivumEurasiaeMediiAevi, I, Lisse, 1975
68. *EcrhardtA.* La legende del'oringe troyenne des Turcs» KCs-A. II.6. 424-427
69. *Hudud al-Alam* / The region of the world/ Tr. and expl. by V. Minorsky, London, 1937
70. *Ibn Ruste* Kitab a'lak an-nafisa.Leyden. 1892
71. *Ibn Khordadbeh* Kitab al-masalik va-l-mamalik M. de Gouye. Leyden.1889
72. *Kafesoglu J.* Bulgarlarin kokeni. Istanbul. 1965
73. *KasғariMahmudal* – Compedium the Turkic dialectsed. Andtr. By Robert Dankoff. Harvard.1982.v.I
74. *PaulusD*. Historia Langobardorum, VI:24 //www.thelatinlibrary.com/pauldeacon.htm; http://lib.rus.ec/b/103852/read
75. *PritsakO*. The Pečenegs //Archivum Eurasiae Medii Aevi, I, Lisse, 1975

Ələkbər Ələkbərov
Alan-asların mənşəyi haqqında

Xülasə

Açar sözlər: a*lanlar, aslar, Troya, venedlər, saqlablar, bulqarlar*

Məqalə alanların etnik mənşəyinin öyrənilməsinə həsr edilib. Bir çox tədqiqatçılar qərəzli olaraq alanların müasir xələfləri kimi müasir osetinləri qəbul edirlər. Qaynaqlardan göründüyü kimi, asların adlarından biri də aslar idi, Asiya adı da öz mənşəyi ilə onlarla bağlı idi. Aslarla miladdan öncə II minillikdə Kiçik Asiyada mövcud olan Assuva əyalətinin adı bağlı idi ki, bu alan-asların miladın I əsrdə tarixi səhnəyə çıxması haqqında deyilənləri tam inkar edir. Qaynaqlardan göründüyü kimi, asların digər adları vənəd, iskit, kaspi, kadus idi.

Alekper Alekperov
About the origin of the Alans-Ases

Summary

Key words: *Alans, Ases, Troya, Vened, Saqlab, Bulgar*

This article is devoted to study the ethnic origin of Alans. Some researchers tendentiously accept modern Ossetians as contemporary successors of the Alans. As the sources show, one of the Alans' name was Ases, and the name of Asia originally was connected with them. Also the name of Assuva province was connected with Ases, existed in Small Asia in the II millennium BC. And this idea absolutely ignores such information that Alan-Ases appeared in history in the I millennium BC. As the sources show, the other names of Ases were Vanad, İskit, Caspi and Cadus.

Nailə Vəlixanlı

Ərəb Xilafətinin zəifləməsi nəticəsində Cənubi Qafqazın Qərb bölgələrində siyasi duruma dair (IX əsrin sonu – X əsr)

Açar sözlər: *Sünik, alban knyazları, Baqratilərin hərbi yürüşləri, Sacilər, Salarilər, Şəddadilər, Duləfilər, qriqoryanlaşma, xalkidonçuluq*

UOT 94 (479.24)

861-ci ildə xəlifə əl-Mutəvəkkilin (847-861) öldürülməsindən sonra bir qədər də zəifləmiş Ərəb imperiyasının parçalanma prosesinin güclənməsinə baxmayaraq, Xilafət özünün Cənubi Qafqazdakı valilik idarəsini saxlamaqda davam edirdi. 863-cü ildə, burada cəmi bir il vali kimi fəaliyyət göstərən Əli İbn Yəhya əl-Ərməni Bizansla gedən döyüşlərin birində həlak olur (*21, c. II, s. 411*). Ondan sonra başı əsasən Bizansın hücumlarını dəf etməyə qarışan xəlifənin bölgəyə təyin etdiyi valilər yerli hakimlərə hələ də güzəştlə yanaşır, onların daxili idarəçiliyinə çox vaxt qarışmır, hətta vergilərin yığılmasını da onlara etibar edirdilər. Mənbələr ölkədəki vəziyyətin bu gərgin dövründə Dəbildə baş verən və bir il davam edən “dəhşətli zəlzələnin” yüz iyirmi min insanın həyatına son qoyduğu, bir çox evləri və sarayları dağıtdığı haqqında məlumat verirlər (*2, s. 199; 12, s. 75*).

Xilafətin qısa bir müddət ərzində beş xəlifənin (əl-Muntəsir, əl-Mustəin, əl-Mutəzzbillah, əl-Muhtədi, əl-Mutəmid) bir-birini əvəz edən bu ağır günlərində (861-870) imperiyanın hər yerində olduğu kimi Cənubi Qafqaz ərazisində də ərəb hakimiyyətinə qarşı çıxışların ardı-arası kəsilmirdi. 870-ci ildə xəlifə əl-Mutəmidin (870-892) Şeybanilərdən olan İsa ibn Şeyx ibn Xalidi Ərminiyənin* valisi təyin etməsi ilə hələ Abbasilərin hakimiyyətə gəldikləri illərdə onların bölgəyə, o cümlədən Sünik ərazisinə köçürülən soydaşlarının mövqelərinin

* Burada Ərəb Ərminiyəsi-Cənubi Qafqazda ərəb işğal dairəsinə verilən inzibati ərazi adı nəzərdə tutulur. Bax: 5, s. 44-46.

möhkəmləndirilməsinə başlanıldı. Mutəğəlliblərin* yeni ərəb üsul-idarəsinə qarşı yönəldilən çıxışları yenidən qızışdı. Xilafətin bölgədəki təmsilçisi kimi çıxış edən vali İsa ibn əş-Şeyxin özünün də az sonra müxalif qüvvələrə qoşularaq, mərkəzə qarşı üsyan etməsi, mövcud vəziyyətin daha da mürəkkəbləşdiyini göstərir. Bu çıxışların qarşısını tezliklə almağın qaçılmaz olduğunu yaxşı başa düşən xəlifə əl-Mutəmid hərbi xidmətləri ilə tanınan, o vaxtadək müxtəlif rəsmi vəzifələrdə fəaliyyət göstərən, məşhur Sacilər nəslinin banisi, mənşəcə Usruşana türklərindən olan Əbu-s-Sac Divdadı üsyançılara qarşı göndərir (*7, s. 231*). İsa ibn Şeyx və digər mutəğəlliblərlə aparılan döyüşlər 874-cü ilədək davam edir. Lakin bir yandan ərəb imperiyasının, xüsusilə, ucqarlardakı hakim və canişinlərinin separatizminin güclənməsi, digər tərəfdən 869-cu ildən Cənubi İraqda başlamış zincilər üsyanının genişlənməsi, eləcə də Səffarilərlə** mübarizənin kritik həddə çatması və nəhayət, Bizansın Cənubi Qafqaz siyasətini fəallaşdırmaq cəhdləri Xilafətin bu bölgədəki mövqeyinin zəifləmə prosesini gücləndirdi. Mənbələr yerli hakimlərin, eləcə də mutəğəlliblərin öz aralarında da baş verən dini-siyasi ixtilafların çoxaldığını qeyd edirlər. Moisey Kalankatuklu hələ də valilik fəaliyyətini davam etdirən İsa ibn Şeyxlə onun Bərdədəki naibi, bölgədəki hakimiyyəti ələ keçirmək cəhdi ilə üsyan etmiş Məhəmməd ibn Əbdülvahid əl-Yəməni arasında baş verən "dava" haqqında məlumat verir. Bu məlumata görə üsyançıların möhkəmləndikləri Bərdə şəhərinin mühasirəsində vali İsanın və onu dəstəkləyən erməni knyazı Aşot Baqratuninin əsgərləri ilə yanaşı Albaniyanın digər vilayətlərinin, o cümlədən Sünikin knyazlarının qoşunları da iştirak edirdilər. Gərgin müqavimətlə rastlaşan və on üç aylıq mühasirədən sonra da üsyançıları ram edə bilməyən İsa ibn Şeyx xəlifə tərəfindən geri çağırılır (*2, s. 199*).

Xilafət daxilində parçalanma prosesinin daha da genişlənməsi, Azərbaycan ərazisinin ayrı-ayrı hissələrində - Şirvanda və Dərbənddə artıq hakimiyyətin yerlərdəki ərəb hakimlərinin əlinə keçməsi, bəzi yerli feodalların mərkəzdən asılı olmayan siyasət yürütmələri və müstəqil dövlət yaratmaq cəhdləri başı daxili və xarici münaqişələrin həllinə qarışmış Xilafətin bölgədəki mövqeyini az qala heçə endirmişdi. İsa ibn Şeyxin rəsmi olaraq hələ də vali kimi qalmasına baxmayaraq, onun, sözsüz ki, dövrün real vəziyyətini nəzərə almaqla yürütdüyü məcburi güzəştli siyasət bölgə feodallarının mövqelərinin bir qədər də möhkəmlənməsinə, dini-siyasi fəallıqlarının artmasına səbəb olmuşdu. Bununla yanaşı, baş verən hadisələrin obyektiv nəticəsi olan durum əsr yarımdan artıq bir müddətdə Cənubi Qafqazın ərəb işğallarına məruz qalmış hissələrində Xilafətin yaratdığı Ərəb Ərminiyəsi vilayətinin inzibati qurum kimi mövcudluğuna faktiki olaraq son qoymuş oldu.

875-ci ildə alban katolikosu Yovsepin vəfatından sonra onun yerinə yeni

* Mütəğəllib (hərfən: "qalib gəlmiş") - Azərbaycana köçmüş və burada yaşadıqları uzun illər ərzində yerliləşmiş, mal-mülk sahibi olmuş "köhnə" ərəblər.
** Sistanda (Əfqanıstan və İran arasında) əsas şəhərləri Zərənc və Nişapur olan dövlət (861-900).

katolikosun seçilməsi məsələsinə erməni knyazı Aşot Baqratuninin müdaxiləsini, xüsusilə də onun "albanların müqəddəs Qriqorinin qoyduğu qaydaya riayət edib, katolikosluq təyinatını ermənilərdən alması" tələbini (*2, s. 199*) bölgədə dini tabelik yolu ilə siyasi üstünlüyün də əldə olunması məqsədilə atılan addım kimi qiymətləndirmək olar. Moisey Kalankatuklunun məlumatına görə, o vaxtadək Albaniyanın Meskoqmank (Meskuenk)* vilayətinin yepiskopu olan Samuilin erməni katolikosu Georq tərəfindən Sünikin katolikosluğuna təsdiq olunması, knyaz Aşotun çox keçmədən din xadimlərinin, o cümlədən həmin erməni katolikosunun köməyilə "Sünikdə çoxdan ləğv olunmuş qriqoryanlıq təriqətini yenidən bərpa etməyə nail ola bilməsi" (*2, s. 200*) çox maraqlı bir faktı təsdiq edir. Belə ki, hələ VIII əsrin başlanğıcında ərəb xəlifəsi Əbdülməlik ibn Mərvanın (685-705) bilavasitə köməyi ilə alban kilsəsinin erməni kilsəsinə tabe olunmasına baxmayaraq (*bu haqda bax: 2, s. 177; 1, s. 183-185*), Sünik kilsəsi o vaxtlar öz müstəqilliyini saxlaya bilmiş, bununla da görkəmli rus şərqşünası İ.P.Petruşevskinin sözləri ilə desək, Albaniyada "ölkəni erməniləşdirmək aləti olan" (*16, s. 8*) erməni kilsəsinin bu cəhdinin həyata keçməsinə mane olunmuşdu. O zamandan bəri Sünik kilsəsi, göründüyü kimi, diofizilik təlimini hələ də saxlaya bilmişdi**.

Aşot Baqratuninin bölgədəki fəallıqlarını bu dəfə də itirən ərəblər tərəfindən dəstəklənməsi ilə liderliyi ələ almaq cəhdi, qismən də olsa yerinə yetir. Xarici müdaxilənin səngidiyi, Xilafətin və Bizansın bölgədəki hadisələrə təsir gücünün azaldığı bu dövrdə ərəb valisi İsa ibn Şeyx ərəblərin "Əbl-Abas" adlandırdıqları (*6, s. 107; 12, s. 77*) Aşot Baqratuninin "ermənilərin çarı taxtına bərqərar olması" haqqında xəlifə razılığını elan edir. Eyni vaxtda qədim alban arranşahilər nəslindən olan mənşəcə sünikli alban knyazı Qriqor Hamənin də "dağılmış Albaniya çarlığını bərpa etdiyi" bildirilir (*2, s. 200*). Asogikin məlumatından görünür ki, bu hadisə "yunan (Bizans, *N.V.*) çarı I Vasilinin (867-886) günlərində və onun razılığı ilə erməni təqviminin 336-cı ilində (886-887)" baş vermişdir (*6, s. 106-107*). Bu fakt Xilafətin bölgədəki hadisələrə təsir gücünün hələ də qüvvədə olduğu həmin vaxtda istər Aşot Baqratuninin, istərsə də Qriqor Hamənin hakimiyyətə gəlmələrində Bizans imperatoru I Vasilinin də rolunun heç də az olmadığını təsdiq edir.

Tarixçi Asogik, çar olanadək, 30 il müddətində gah "knyaz, gah da Ermənistan və İveriyanın knyazlar knyazı" olan Aşot Baqratunini, bununla yanaşı "bütün yaxınlıqdakı xalqların qalibi" adlandırır (*6, s. 107*). Baqratilərin fəaliyyəti haqqında geniş məlumatı ilə fərqlənən katolikos İohann Drasxanakertsi isə "işxanların işxanı" kimi təqdim etdiyi **Aşot Baqratuninin hakimiyyəti ələ alan kimi qonşu xalqları tabe etmək məqsədilə hərbi yürüşlər təşkil etməsi, bəzi alban və gürcü**

* Ərəb mənbələrində əl-Miskuan adı ilə qeyd olunur; indiki Ağdərə rayonu ərazisində lokalizə olunan, Moisey Kalankatuklunun "Arsax vilayətinin meşələri qalın və dərələri dərin" yeri kimi təqdim etdiyi vilayət (*2, s. 34; 17, s. 228*).

** Diofizilik və ya xalkidonizm İsa peyğəmbərin (İisus Xristosun) ikili-ilahi və insan təbiətini qəbul edən dini təlim; monofizilik – İsa peyğəmbərin yalnız ilahi təbiətini qəbul edən dini təlim.

vilayətlərini (Uti, Quqark və b.) itaətə məcbur edə bilməsi haqqında məlumat verir (*12, s. 78*). Müəllifin Bizans imperatoru I Vasilinin erməni işxanı ilə "sülh, itaət və dostluq" müqaviləsi bağlaması, hətta onu özünün "sevimli oğlu" (yəni, tabeliyində olan şəxs, *N.V.*) adlandırması haqqında məlumatları (*yenə orada*), həmçinin Xilafətin də dəstəklədiyi Aşotun regiondakı yüksək mövqeyindən xəbər verir. Görünür, məhz buna görə, erməni tarixşünaslığında separatçılığın gücləndiyi və xüsusilə, ərəb imperiyasının az qala süqutuna səbəb ola biləcək siyasi şəraitin yarandığı bu dövrdə, vaxtilə Ərəb Ərminiyəsi bölgəsinin tərkib hissəsini təşkil edən xristian etiqadlı əhalisi olan alban və gürcü vilayətlərinin Baqratilərin "təsir dairəsində" olduğu bildirilir. Həmçinin, həmin vaxt Sünik vilayətinin hakimləri II Qriqor Supanın və Vasaq İşxanikin əslində daha çox Xilafətin asılılığında qalan Baqratiləri bir süzeren kimi tanımaları göstərilir, Sünik nəinki onların təsir dairəsində, hətta bilavasitə tabeliyində olan vilayət kimi təqdim edilir (*15, s. 239*). Lakin, mövcud reallıq Baqratilərlə olan qohumluq əlaqələrinə (erməni knyazı Aşotun qızı Məryəmin Sünik knyazı Vasaq Qaburun arvadı, yəni hakimiyyətdə olan knyazlardan biri – II Qriqor Supanın anası olması), eləcə də Sünik kilsəsinin, yuxarıda qeyd etdiyimiz kimi, uzun illər davam edən kilsə ixtilaflarından sonra (*bax: 1, s. 82-87*), nəhayət, erməni kilsəsinə tabe edilməsinə də baxmayaraq, vilayətin hakimlərinin digər yerli alban knyazları ilə bağlılıqlarını, ermənilərə bilavasitə tabe olmadıqlarını, irsi hakimiyyətlərini qoruyub saxladıqlarını təsdiq edir.

Bununla yanaşı, mənbələrin müqayisəli təhlili, erməni məliki Baqrati Aşotla eyni vaxtda Albaniya dövlətini bərpa edən Qriqor Hamamin öz fəaliyyəti ilə qonşu xalqların əraziləri hesabına sərhədlərini genişləndirməyə çalışan Baqrati məliklərindən fərqli olaraq əzəli ata-baba mülklərində möhkəmlənmək, quruculuqla məşğul olmaq istəyini nümayiş etdirir.

Moisey Kalankatuklu "Sünikin hakimi" Səhl ibn Sumbatın oğlu Atrnersehlə Varaz Tiridatın qızı Sparamanın izdivacından doğulan Qriqor Haməmi alban knyazı (*2, s. 200*), katolikos İohann, görünür, Göycə gölündən şərqə doğru torpaqlara, o cümlədən, solsahili Albaniya ərazisindəki vilayətlərə də sahiblik etdiyinə görə "Şərqin böyük işxanı" (*12, s. 94*), Asogik - "alban (axvan) çarı" (*6, s. 110*) adlandırırlar. Asogik "şərqli Haməmi", həmçinin məşhur ilahiyyatçı və dilçi kimi də təqdim edir (*6, s. 108*).

Lakin xəlifə hakimiyyətinin zəifləməsindən istifadə edən yerli feodalların, o cümlədən Qriqor Hamamin əldə etdikləri bir sıra uğurlar bölgədə sülhü və əmin-amanlığı yarada bilmir. Hətta, əksinə, siyasi baxımdan zəifləməsinə baxmayaraq, hegemonluğunu itirmək istəməyən xəlifə əl-Mutəmidin öz sərkərdəsi, Sacilər nəslinin nümayəndəsi Məhəmməd ibn Əbu-s-Sacı 889-cu ildə bölgəyə vali təyin etməsi ilə bütövlükdə regionda, o cümlədən Azərbaycanın cənubunda da gərginliyin artması müşahidə olunur. Mənbələr hakimiyyətlərini möhkəmlətmək cəhdi ilə çıxış edən yerli feodallardan ərəb üsul-idarəsinə qarşı mübarizəyə qalxan Marağa hakimi

Abdallah əl-Həmədaninin başçılığı ilə üsyan etmiş əhalinin müdafiə etdiyi Marağa şəhərinin yalnız uzunmüddətli mühasirədən sonra alındığını bildirir. Ət-Təbəri və İbn əl-Əsir bu mühasirənin az qala 3-4 il çəkdiyini xüsusi qeyd edirlər (*23, III, s. 2137; 19, s. 67; bax həmçinin: 3, s. 93; 7, s. 232*). Vəziyyətin bu dərəcədə Xilafətin zərərinə mürəkkəbləşməsi xəlifəni Cənubi Qafqaz siyasətində reallığa uyğun addımlar atmağa məcbur edir.

890 (891)-cı ildə vəfat edən Baqrati hökmdarı Aşotun yerini oğlu I Smbat (890-913) tutur. Asogik onun Bizans imperatoru VI Levin (886-912) razılığı ilə hakimiyyətə gəldiyini bildirir (*6, s. 108*). Xəlifə əl-Mutədid (892-902) isə onun hakimiyyətini rəsmi olaraq yalnız iki il sonra, yəni Azərbaycan valisi Məhəmməd ibn Əbu-s-Sac vasitəsilə göndərdiyi təsdiq fərmanı ilə tanıyır. Lakin I Smbatın Bizansla ittifaq yaratmaq cəhdləri onunla Xilafət arasında münasibətləri yenidən pisləşdirir (*12, s. 88*).

Elə həmin 892-ci ildə, uzun hakimiyyət illərindən sonra, katolikos İohannın "allaha yaxın, dindar həyat yolu yaşayan" insan kimi təqdim etdiyi "Sisakan işxanı, İşxanik adlandırılan Vasaq" vəfat edir. Mənbədəki məlumata görə, Vasaq İşxaniki Sünik taxtında onun özü kimi sakit, sülhsevər, dindar, allahdan qorxan, hər şeyi tamamilə öz ata mülkünün abadlaşdırılmasına yönəldən qardaşı Aşot əvəz edir (*12, s. 79*).

893-cü ildə Məhəmməd ibn Əbu-c-Sac xəlifənin tapşırığı ilə böyük bir qoşunla az qala ərəblər tərəfindən işğal edildiyi gündən onların hərbi düşərgəsinin qərarlaşdığı Naxçıvan şəhərinə gəlir, oradan isə Dəbil (Dvin) şəhərinə doğru hərəkət edir. Alagöz (Araqats) dağı yanında qoşununu cəmləşdirən, lakin, ərəblərlə döyüşə girmək istəməyən I Smbat barışıq əldə etmək məqsədilə erməni katolikosu Georqu Məhəmmədin düşərgəsinə göndərir. Katolikosu əsir saxlamaqla bərabər Vjan qalası yanında döyüşü davam etdirən Məhəmməd bununla belə qələbə qazana bilmir. Əldə olan razılığa və barışığa görə katolikos Georqdan başqa bütün əsirlər geri qaytarılır. Yalnız alban işxanı Qriqor Haməmin işə qarışması, vasitəçiliyi və valinin tələb etdiyi böyük miqdarda azadlıq haqqı (qızıl və gümüş) ödənilməsi nəticəsində erməni katolikosu Georq azad edilir (*2, s. 200; 12, s. 94; 6, s. 110; 9, s. 78; bax həmçinin: 7, s. 234*). Bu fakt bir yandan alban hökmdarının avtoritet və nüfuzunu təsdiq edirsə, digər tərəfdən onun erməni tarixşünaslığında qəbul olunmuş Baqratilərdən asılılıq və ya onlara tabelik iddialarını rədd edir.

Elə həmin il xəlifə əl-Mutədid qonşu torpaqlar hesabına öz sərhədlərini genişləndirməyə çalışan I Smbata yenidən məliklik tacını göndərməklə onun bölgədəki hakimiyyətini bir daha təsdiq edir. I Smbatın arası kəsilməyən hücumlarından cana doymuş yerli hakimlərin birmənalı qarşılamadığı bu xəlifə fərmanı bölgədəki müxalif qüvvələr arasındakı ixtilafı daha da kəskinləşdirir. Bununla yanaşı, Baqratilərin şimal sərhədlərini genişləndirmək məqsədilə gürcü torpaqlarına hücumları, Vaspurakan hakimləri, Baqratilərlə yaxın qohumluq əlaqələrinə baxmayaraq onlara ciddi rəqib olan Arsruniləri zəiflətmək üçün həyata

keçirdikləri tədbirlər, xüsusilə də, Xilafətlə düşmən münasibətləri davam etdirən Bizans imperatoru VI Levlə sülh və ticarət müqaviləsi bağlaması Məhəmməd ibn Əbu-s-Sacın bölgəyə yeni hücumu ilə və nəhayət, I Smbatın Xilafətdən vassal asılılığını bir daha təsdiq etməsi ilə nəticələnir (*12, s. 88-89*).

Lakin, bununla belə, I Smbat özünün zor gücünə qonşu torpaqları ələ keçirmək, Zəngəzur qarışıq bütün ətraf yerlərin hakimlərini təsir dairəsində saxlamaq siyasətini necə olursa-olsun davam etdirməyə çalışırdı. Katolikos İohannın Dvinin (Dəbilin) I Smbatın hakimiyyətinə qarşı çıxan müsəlman əmirləri Məhəmməd və Umayyə qardaşlarının iki il müddətində (892-893) şəhəri mühasirəyə almış erməni qoşunlarına qarşı son nəticədə uğursuzluqla nəticələnən mübarizəsi haqqında məlumatı bu baxımdan maraq doğurur (*12, s. 89; bax həmçinin: 6, s. 110*).

Baqratilərin təəssübkeşi kimi çıxış edən katolikos İohannın təqdim etdiyi digər məlumat Xilafətin zəifləməsindən, Bizansın isə başının bolqarlarla vuruşmalara qarışmasından istifadə edən **I Smbatın qonşu Albaniya-Arran və İveriya (Gürcüstan) torpaqlarının işğalı hesabına öz ərazilərini genişləndirmək niyyəti ilə həyata keçirdiyi yürüşləri əks etdirir:** "Daha sonra o (yəni I Smbat), şəhər əhalisini (dvinliləri) tamam özünəxidmət boyunduruğu altına salaraq, əlini bir çox ölkələrə sahib olmaq üçün geniş açdı, ümumiyyətlə hamını birləşdirib, öz tərəfinə çəkdi və tabe etdi – kimini ürək sözü ilə, kimini isə zor gücünə ram etdi. Bununla da, həm Virkin (İveriyanın) böyük kuropalatı, həm də onunla əlbir olanlar həqiqi yaxşı qaydalar qarşısında boyun əyərək itaət etdilər. Başqa qiyamçıları isə o, tabe edib, hünəri və qoçaqlığı ilə öz ayağına gətirtdi. Beləliklə, o, öz dövlətinin hüdudlarını şimal-qərbdə Karin (Ərzurum) şəhərinədək artıraraq genişləndirdi, oradan da Klarckı (*gürc.* Klarceti) keçərək, daha sonra lap Böyük (Qara) dənizin sahilinə və [sonra] yegerlərin (Qərbi Gürcüstan) hüdudlarına və Böyük Qafqaz dağlarının ətəyinə [yetişdi], Quqark və Sanarkı (*gürc.* Xevi Sanaretis) Alan qapılarınadək (Dəryal dərəsi) ələ keçirdi; çar, həmçinin, həmin yerlərə və qapıları qoruyan qalaya sahib oldu, oradan isə Kür çayının cənub sahili ilə Tpxis (Tiflis) şəhərinə [yollandı]; o, Uti havarını Xunarakertə (Xunana), eləcə də Tusa (Tovuza) və Şamxoradək (Şəmkirədək) tutdu. **Bu yolla öz dövlətinin hüdudlarını genişləndirərək, onları hökmdarın can (*sak*) və torpaq (*bekar*) vergilərinin, gömrük rüsumunun əsarətinə saldı, qələbə əlaməti olaraq, özünün şanlı döyüş silahını ucaltdı (yəni, döyüş silahını** - qılıncını yerə sancaraq, onu abidə etdi)" (*12, s. 89-90*).

Beləliklə, göründüyü kimi, həyata keçirdiyi hərbi yürüşlər nəticəsində erməni işxanı I Smbat "öz irsi mülkləri" ilə bərabər "rəqiblərinin şəhərlərinin" də idarəsini əlinə ala bilir (*6, s. 109*). Bu barədə məlumat verən, Asogik bununla da ölkədə "sülhün bərqərar olması"nı bildirsə də (*yenə orada*), dövrün mənbələrindən, o cümlədən, elə Asogikin özündə olan digər xəbərlərdən bölgədəki ümumi vəziyyətin heç də ürəkaçan olmadığı, sabitləşə bilmədiyi, hətta əksinə, daha da mürəkkəbləşdiyi görünür; həm də, Cənubi Qafqazın bir çox yerində, eləcə də Sünikdə, ayrı-ayrı

feodal nəsilləri arasında, hətta bir nəsil daxilində yaşanan ixtilafların hələ də davam etdiyi məlum olur. Belə ki, I Smbatın qonşu ərazilərə hücumları haqqında təqribən eyni məlumatı təqdim edən Asogikə görə, əvvəllər Baqrati hökmdarı ilə müttəfiqlik edən qonşu İveriya kuropalatı II Atrnerseh (Атёр–Нерсех, 881-926) bir sıra hərəkətlərinə görə onunla olan "dostluq münasibətləri"ni pozmuş və "düşmənçilik" etməyə başlamışdı (*6, s. 111-112*).

Baqratilərlə onlara düşmən kəsilən bəzi yaxın qohumları, eləcə də Vaspurakan hakimləri Arsrunilər arasında, I Smbatın işğalçı yürüşlərinin nəticələrinə görə bəzi torpaqlarını əldən verən alban hökmdarı Qriqor Haməmin bu qarışıqlıqda hətta öz oğulları arasında əsasən hakimiyyət üstündə baş verən, Xilafət üsul-idarəsinin də yerli hakimlərin özlərinə qarşı məharətlə istifadə etdiyi münaqişələr qanlı olaylarla nəticələnmişdi. Moisey Kalankatuklu beş oğul atası olan Qriqor Haməmin böyük oğlu, "Albaniyanın yerli knyazı" adlandırdığı Əbu Əlinin 897-ci ildə, "yeni il günü... öz doğma qardaşı Smbatın əli ilə öldürüldüyü" haqqında məlumat verir (*2, s. 200*). Mənbədə elə həmin il alban hökmdarının "əmin-amanlıqla" ermənilərə qaytardığı katolikos Georqun və Sünik knyazı Aşotun da vəfat etdikləri bildirilir (*2, s. 201; 6, s. 103; 8, 101*). Həmin Sünik knyazını oğlu Smbat əvəz edir. Bütövlükdə bütün Albaniyanın hökmdarı olan Qriqor Haməmin ikinci oğlu Səhək Sevadanın qızlarından biri Sünik knyazı Smbatın arvadı olmuşdu; Baqratilərlə də qohum olmuş Səhək digər qızını erməni hökmdarı I Smbatın oğlu II Aşota vermişdi (*12, s. 163; bax: 13, s. 396*).

Nəsillərarası münasibətlərin tənzimlənməsi məqsədilə yaranan, siyasi əhəmiyyətli bu yaxın qohumluq əlaqələrinə baxmayaraq, mənbələr, artıq yuxarıda qeyd etdiyimiz kimi, onların arasındakı münaqişələrin heç də kəsilmədiyindən xəbər verir.

Yerli feodal nəsilləri arasında davam etməkdə olan hakimiyyət çarpışmalarından məharətlə istifadə edən ərəb üsul-idarəsi Xilafəti bölgədə təmsil edən Sacilərin separatçılıq meyillərinə baxmayaraq, onların nümayəndəsi Məhəmməd Afşin ibn Əbu-s-Sacın 898-ci ildə xəlifə tərəfindən Azərbaycan və Ərminiyənin valisi vəzifəsinə təyin olunduğunu elan edir. Sacilərin bölgədəki mövqeyini möhkəmlədən, yerli hakimlərin onlara itaətini təsdiq edən bu təyinatdan bir qədər sonra, 901-ci ildə, Azərbaycanda baş alıb gedən vəba xəstəliyi nəticəsində, Məhəmməd ibn Əbu-s-Sac Bərdə şəhərində vəfat edir. Onun oğlu, atasından sonra Xilafətin bölgədəki valisi vəzifəsini icra edən Divdad da az sonra öz yerini əmisi, xəlifə sərkərdələrindən olan Yusif ibn Əbu-s-Saca verməli olur (*19, s. 68; bax:3, s. 95; 7, s. 235*).

Mənbələrin məlumatından görünür ki, bu dövrdə, Xilafətin çox yerində olduğu kimi, Cənubi Qafqaz bölgəsində də davam edən mərkəzi hakimiyyətdən ayrılma prosesi Yusif ibn Əbu-s-Sacdan da yan keçmir. Onun ilk separatçılıq meyilləri Xilafətin yeni başçısı xəlifə əl-Muqtəfi (902-908) tərəfindən ehtiyatla qarşılanır. Asogikin və digər mənbə müəlliflərinin (*bax həmçinin: 12, s. 107*) məlumatından

görünür ki, bölgədəki hakimlərin bəziləri də Xilafətdən təcrid olunmaq cəhdi ilə çıxış edən Yusif ibn Əbu-s-Sacın hakimiyyətinə tabe olmaq istəmədilər. Hətta, daim Xilafətin dəstəyindən istifadə etməklə regiondakı siyasi və ideoloji mövqeyini möhkəmlətməyə çalışan Baqrati çarı I Smbat xəlifəyə hədiyyələrlə birgə göndərdiyi məktubunda onu "Sacın kafər oğlu"ndan xilas etməsini xahiş edir (*6, s. 111; 12, s. 106*). Yusifin güclənməsini Xilafətin mövcudluğu üçün təhlükə hesab edən xəlifə, I Smbatın xahişini və birbaşa ona təbəəliyini qəbul edir (*yenə orada*). Bununla belə, Yusif ilə Xilafətin dəstəklədiyi I Smbatın arasında ilk münaqişə barışıqla nəticələnir.

Xəlifə əl-Muqtafinin vəfatından sonra bu dövrdə yenidən tədricən güclənməyə başlayan Xilafətdə hakimiyyəti ələ ala bilən yeni xəlifə əl-Muqtədir (908-932) Sacilərin qarşısını almağın mümkün olmadığını nəzərə alaraq, onlara qarşı yönəldilmiş siyasətini dəyişir; taxta çıxan kimi Yusifin Azərbaycan və Ərminiyədə valiliyini yenidən təsdiq edir. İbn əl-Əsir onun "hər il xəzinəyə yüz iyirmi min dinar göndərməyə zəmanət verdiyini" bildirir (*19, s. 69*).

Baqrati I Smbatın qonşu torpaqları ələ keçirməsi ilə güclənməsinin qarşısını almağa çalışan və bununla da, bir tərəfdən özünün Cənubi Qafqazdakı mövqelərini möhkəmlətməyə cəhd göstərən, digər tərəfdən Xilafətin bölgədəki müdafiəçisi kimi çıxış edən Yusif ona qoşulan, hətta "onun Ərminiyəyə yürüşünə bələdçiliyə hazır olan" və bütün bunların müqabilində hökmdar tacı təqdim olunan Vaspurakan knyazı Qaqik Arsruni, İveriya kuropalatı Atrnerseh, eləcə də I Smbatın doğma qardaşı Şapuhun oğlu Aşotla birlikdə erməni çarına qarşı birləşirlər (*6, s. 112*). Bu, Baqratilərin başçısının mövqelərini xeyli zəiflətmiş olur. O, gərginliyi azaltmaq, Yusifin hücumunun qarşısını almaq məqsədilə katolikos İohann Drasxanakertsini Yusifin yanına göndərir. Lakin, katolikosu tutub, zindana saldıran Yusif barışıq təklifini qəbul etmir; əksinə, hücuma başlamaq və müttəfiqləri ilə görüşmək məqsədilə Naxçıvana gəlir (*12, s. 116-117; 7, s. 237*).

Yusifin qoşununa bələdçilik etməyi boynuna götürən Vaspurakan hakimi Qaqik Arsruni ilə birlikdə onun qardaşı, Ermənistan mərzbanı Qurgen də Naxçıvana gəlir (*12, s. 116*). Birləşmiş qoşun ilk zərbəni Yusifə tabe olmaq istəməyən Sünik vilayətinə endirir. Sünikin təzəcə vəfat etmiş knyazı Aşotdan sonra vilayətin qərb torpaqlarının (Gelarkunikin) işxanı olan oğlu Smbatla (909-946) birlikdə onun qardaşlarının və qohumlarının da qatıldığı qoşun hissələri vilayətin dağ yollarını, aşırımları və dərələri tuturlar; gərgin müqavimət göstərmələrinə baxmayaraq, Yusifin başçılıq etdiyi müttəfiq qoşunu 909-cu ilin aprelində süniklilərə qalib gəlir (*12, s. 117-118*). Bu barədə həmin vaxt zindanda əsir saxlanılan katolikos İohanndan daha ətraflı məlumat verən Stepannos Orbelianın yazdığına görə, öz anası Şuşanı və Vaspurakanın Yusifə müttəfiqlik edən hakimi Qaqikin qızı olan arvadı Sofini körpə oğlu ilə, eləcə də Sünikin şərq-Balk hissəsinin hakimi qardaşı Səhəkin Quqarkın hakimlərindən (bdeşx) birinin qızı olan arvadını "alınmaz Yerincək (Əlincə) qalasında" gizlədən Sünik hakimi Smbat özü Vaspurakana, qardaşı Səhək

isə Quqarka qaçırlar. Sünikdə qalan digər qardaşları Babken və Vasaq, eləcə də öz mülklərini tərk etməyən II Qriqor Supan və qardaşları əlçatmaz dağlarda və qayalarda möhkəmlənirlər. Müdafiəsiz qalan Süniki ələ keçirən Yusif bir neçə gündən sonra böyük qənimətlə və əsirlərlə yürüşünü davam etdirir. Vəziyyətin gərginliyini, müqavimətin mənasız olduğunu nəzərə alan Sünik knyazı II Qriqor Supan Yusifin Arazın sahilində saldırdığı düşərgəsinə gələrək, ona tabe olduğunu, xidmətində duracağını bildirir (*12, s. 118; 7, s. 237*).

Sünik hakiminin tabeliyi Yusif tərəfindən razılıqla qarşılansa da, mənbələr (*12, s. 124*) II Qriqor Supanın çox keçmədən (912-ci ildə) zəhərləndirilməsi və özünün tikdirdiyi kilsədə dəfn olunmasından bəhs edir. Yenə həmin mənbələr əvvəl Yusifə tabe olmuş, sonra isə qaçaraq, atasına məxsus qalalardan birində gizlənmiş Sünik süzereni Aşotun oğlu "gənc Vasaq" haqqında da məlumat verir (*12, s. 125*).

II Qriqor Supan öldükdən sonra onun digər qardaşları Səhək və Vasaq ara sakitləşənədək öz ailələri və qoşun hissələri ilə Göycə gölündəki adada olan qalada gizlənmək qərarına gəlirlər; lakin çox keçmədən, Yusifin qoşununun adaya hücum etməsindən xəbər tutub, gölün şimal-şərq tərəfindəki dağlıq əraziyə qaçır, sonra isə təqib olunduqları üçün "yollarına davam edib, Qardman və Arsaxın meşələrində olan əlçatmaz mağaralarda gizlənirlər" (*12, s. 127*). Yusifin qoşunu isə tabelikdən çıxan Sünikin şəhər və qalalarını, o cümlədən Göycənin sahillərini talan edir (*yenə orada*).

Vəziyyətin mürəkkəbliyini dərk edən Baqrati çarı I Smbat isə əvvəl bir müddət qalaların birində gizlənir, lakin nəhayət, çarəsiz qalaraq, Yusifə təslim olduğunu bildirir. 913-cü ildə o, Dvində edam edilir (*12, s. 131-132; 6, s. 113*).

Bölgəni tam tabe etmək niyyəti ilə hətta əlçatmaz qalaları da mühasirə etməkdən çəkinməyən Yusif, elə həmin il üsyankar Sünik knyazlarının ailə üzvlərinin gizləndiyi Əlincə qalasını ələ keçirir. Sünik knyazları Smbat və Səhəkin anaları və arvadları əsir alınır, qalada qorunan varidatları ələ keçir (*12, s. 133*). Xəbər Vaspurakanda olan işxan Smbata, Quqarkda olan Səhəkə çatanda, onlar qoşun toplayıb, hücuma keçmək, əsirlikdə olan ailələrini xilas etmək istəsələr də, buna nail ola bilmirlər (*yenə orada*).

Beləliklə, bir neçə il müddətində davam edən, Sünik qarışıq Cənubi Qafqazın demək olar bütün qərb və cənub-qərb bölgələrini də əhatə edən bu qanlı mübarizə, nəhayət ki, Yusif ibn Əbu-s-Sacın qələbəsi ilə başa çatır. Qərbdə Ani və Dvindən şərqdə Xəzər dənizinədək, cənubda Zəncandan şimalda Dərbəndədək geniş bir ərazi Sacilər sülaləsinin başçılıq etdiyi Azərbaycan dövlətinin tabeliyinə daxil edilir. İbn Havqəl 344 (953)-cü ilə aid məlumatında əvvəllər Sacilər dövlətinə (898-941), daha sonra Salarilər dövlətinə (941-983) vergi verənlər sırasında Baqratilərin, Arsrunilərin, Curzan hökmdarının, Şirvanşahın, Şəki, Bərdə və başqa yerlərin hakimləri ilə yanaşı "Vayzur sahibi Əbu-l-Qasim əl-Vayzurinin" də adını çəkir, onun "50 min dinar və hədiyyələr" verdiyini qeyd edir (*20, s. 354*). Onun sözlərinə görə, "həmin hökmdarların çoxu hər il Azərbaycan hökmdarlarına (muluk Azərbican) nə arası kəsilən, nə də imtina olunan lazımı vergilər ödəyirlər. Onların

hər biri ona hakimlik edənin və onun inkişafına [kömək] edənin (mətndə: onu mədəniyyətləndirənin) itaətindədir. İbn Əbu-s-Sac onlardan [vergi alarkən] bir dəfə az, başqa dəfə isə hədiyyə yolu ilə aldığı əhəmiyyətsiz şeylə qənaətlənirdi. Lakin bu məmləkət (Azərbaycan) əs-Salar kimi tanınmış əl-Mərzban ibn Məhəmməd ibn Müsafirin [əlinə] keçdikdə, o, onlar üçün divanlar, qanunlar və [başqa] zəruri şeylər təsis etdi" (*20, s. 348*).

Yeri gəlmişkən, qeyd etməliyik ki, öz dövlətinin təəssübkeşi kimi çıxış edən ərəb səyyahı və coğrafiyaçısı İbn Havqəl X yüzilin ortalarında bölgədə baş verən bir sıra hadisələr haqqında verdiyi siyasi mahiyyətli məlumatla, Xilafətdən təcrid olunaraq, ona tabe olmaq istəməyən, müstəqil dövlət yaratmaq niyyətində olan müsəlman Yusif ibn Əbu-s-Saca qarşı çıxır; onu pisləyir, xəlifənin dəstəklədiyi, "müsəlmanların himayəsində" olan xristian I Smbatı müdafiə edirdi (*21, s. 343*). Hətta "Bərdədən əl-Ərməndəki Dəbilə olan yolun üstündəki", yəni Bərdədən qərbdə olan alban-Arran torpaqlarının, eləcə də "xoşagələn, çox da böyük olmayan" yaşayış yeri kimi dəyərləndirdiyi "əs-Sisəcanın" onun "mülkiyyətində" olduğunu, Yusifin həmin yerləri ələ keçirdiyini bildirir (*yenə orada, s. 350*). Halbuki, hadisələrin bilavasitə şahidi olan erməni katolikosu İohann Drasxanakertsinin artıq yuxarıda təqdim etdiyimiz məlumatına görə, Aşot Baqratuni hakimiyyətə gəldikdən sonra "əlini şimal hüdudlarına doğru uzatdı", Qafqaz dağlarında yaşayan tayfaları, Quqark və Uti əhalisini "öz hakimiyyətinə tabe etdi" (*12, s. 78*); onun oğlu I Smbat 890-cı ildə hakimiyyətə gəldikdən sonra atasının işğalçılıq siyasətini davam etdirmiş, mənbədə "dövlətinin hüdudlarını genişləndirmək" adlanan hərbi yürüşlər nəticəsində bir çox gürcü və alban torpaqlarını, o cümlədən hələ atası sağlığında üsyan edərək, tabelikdən çıxmaq istəyən albanların Uti vilayətini yenidən ələ keçirmiş, yerli əhali can (sak) və torpaq (bekar) vergiləri ilə yüklənmişdi (*12, s. 89-90*). Əmir Yusif ibn Əbu-s-Sac isə həmin yerlərin bir hissəsini qaytara bilmiş, öz dövlətinin hüdudlarına daxil etmişdi.

Bununla yanaşı yerli və ərəb mənbələrinin müqayisəsi təsdiq edir ki, Tərtər çayı boyunca, indiki Qarabağ, Kəlbəcər, daha sonra Zəngəzurdan keçən Bərdə-Dəbil yolu üstündə yerləşən Qalqatus (Kalankatuk), Matris (Meqatis), Davmis (Divdakan) kəndlərini, eləcə də mütəxəssislərin (bax: Markvart, s. 56) Sünikin Göycə gölü sahilindəki Gelakuni (Geqakuni) adlı yerlə əlaqələndirdiyi Kil-Kuy (Kilvay, Kəlkəva) və digər yaşayış məntəqələrini dövrün müəllifləri (əl-İstəxri, əl-Müqəddəsi, Moisey Kalankatuklu və b.) Ərminiyəyə–əl-Ərmənə deyil Arrana – Albaniyaya aid edirlər (bax həmçinin: 24, II, s. 489; IV, s. 477; V, s. 53; 7, s. 68; 5, s. 283, qeyd 40-43). Bununla yanaşı, Bərdədən qərbdə olan, Baqratilərin işğalçı yürüşləri nəticəsində müvəqqəti olaraq onlara tabe edilən bu yerlərin tədqiq edilən dövrdə Arrana-Albaniyaya aidliyi öz əsərini İbn Havqəldən bir neçə il sonra, X əsrin 80-ci illərində qələmə alan əl-Müqəddəsinin məlumatı ilə də təsdiq olunur. Bu məlumata görə, yuxarıda adları çəkilən yaşayış məntəqələrinin aid edildiyi Arran (əl-Ran) vilayəti "təqribən [ər-Rihab] iqliminin* üçdə biri, [Xəzər] gölü ilə ər-Ras (Araz) çayı arasında ada kimidir. Əl-Məlik (Kür) çayı onu uzununa bölür. Paytaxtı Bərdədir" (22, s. 374). Onu da qeyd edək ki, həmin illərdə (898-929) ermənilərin katolikosu olan İohann Drasxanakertsi

* Ər-Rihab iqlimi əl-Müqəddəsiyə görə (*22, s. 373-374*) "Azərbaycan, Arran və Ərminiyə" bölgəsinə verilən vahid addır (*bax: 5, s. 121*).

öz əsərində qonşu xalqlar haqqında məlumat verirkən, onların sırasında gürcülər (yeqerlər), yunanlar, quqarklarla yanaşı albanlardan olan utilərin, eləcə də Qafqaz dağları ətəyində yaşayan şimal tayfalarının da adlarını çəkir (12, s. 141).

Beləliklə, bir tərəfdən xəlifə sarayındakı hərc-mərclikdən, digər tərəfdən də regiondakı çəkişmələrdən istifadə edən Yusif ibn Əbu-s-Sac Xilafətin Azərbaycan və Ərminiyə vilayətlərində möhkəmlənərək, böyük bir ərazidə qısaömürlü də olsa, güclü dövlət yarada bildi. Lakin xaricdən davam edən işğalçı yürüşlər, daxildə ayrı-ayrı mülk sahibləri arasında baş verən arasıkəsilməz münaqişələr və bunların nəticəsi olan qarşılıqlı hücumlar Sacilərin tabeliyinə keçmiş bu ərazilərin bir çox yerdə viran qalmasına, yerli əhalinin öz yurdlarını tərk edərək, əlçatmaz dağlarda, qalın meşələrdə gizlənməsinə, hətta qonşu ölkələrə qaçmasına səbəb olmuşdu. Vəziyyət Zəngəzuru da əhatə edən, "yeddi il" müddətinə uzanan (*12, s. 143*) quraqlıq və aclıq nəticəsində xeyli ağırlaşmışdı. İqamətgahını bu dövrdə Dvində quran Yusif ibn Əbu-s-Sacın vergiyığanları, görünür, elə yaranmış bu çətin vəziyyətə görə onun göstərişi ilə güzəşt etmiş, İbn Havqəlin yazdığı kimi "azla" və ya "hədiyyə yolu ilə aldıqları əhəmiyyətsiz şeylə" qənaətlənməli olmuşdular (*20, s. 348*).

Katolikos İohannın yazdığı kimi "qardaşın qardaşa, qohumun qohuma qarşı çıxdığı", bir-biri ilə vuruşduğu bu dövrdə "qılınclarını həmişə bellərində" hazır saxlayan (*12, s. 142*), "böyük malikanələrə sahib zəngin xırda hökmdarlar"ın (*məliklərin, 20, s. 348*) "bir-birlərinin qanlarını qarşılıqlı olaraq, düşməndən betər axıtmaları, elə özləri özlərinin şəhərlərini, kəndlərini, malikanələrini və evlərini dağıtmaları" (*12, s. 142*) bölgə əhalisinin həyatını olduqca dözülməz etmişdi. Bizansın Cənubi Qafqaza olan iddialarını məqam düşdükcə gerçəkləşdirmək niyyətindən əl çəkməyən Konstantinopoldakı patriarxı Nikolayın katolikos İohanna göndərdiyi məktub vasitəsilə Ərminiyə və Albaniya işxanlarını qarşılıqlı çəkişmələri unutmaq, dostluğa və birliyə gəlmək dəvəti, Sacilərin timsalında ərəblərə qarşı mübarizəyə qalxmaq çağırışı da heç bir nəticə vermir (*12, s. 145-146*).

Mənbələrin məlumatından görünür ki, Baqrati çarı I Smbatın qardaşı Şapuhun oğlu, Sacilərin tabeliyini qəbul etmiş Ermənistan sparapeti Aşotdan fərqli olaraq, Sünikin böyük işxanı Smbat, öz ailəsini və xəzinəsini Van gölünün cənub-qərbindəki əlçatmaz dağlarda gizlətmiş Vaspurakan hakimi Qaqik Arsruni ilə Yusifə qarşı birləşir (*12, s. 147*). Lakin sengiməк bilməyən ara müharibələri, xüsusilə, Bizansın dəstəklədiyi, Baqrati çarı I Smbatdan sonra hakimiyyətə gələn oğlu II Aşotla (914-928) onun adaşı və əmisi oğlu sparapet Aşot arasında daha da qızışan "hay-küylü nifaq"dan Yusifin məharətlə istifadə etməsi mövcud durumun bir müddət nisbətən sabitləşməsinə gətirib çıxarır. Sparapet Aşota Yusif tərəfindən tac verilməsi müxalif qüvvələr arasındakı ədavəti yenidən kəskinləşdirir. Aralarında bağladıqları sülh sazişinə baxmayaraq, sparapet Aşotun Valarşapat ətrafındakı yerləri tabeliyinə keçirməsi Baqrati çarı II Aşotun böyük qoşunla ona hücum etməsinə səbəb olur. Çoxsaylı hərbi qüvvə, silah və sursat itirən sparapet Aşot Dvin şəhərinə qaçır.

Lakin qohumların qarşılıqlı hücumları, baş verən hadisələrdə bilavasitə iştirak edən katolikos İohannın məlumatına görə, hələ iki ilə yaxın müddətdə davam edir. Nəticədə "ölkə sarsılır, fəlakətə düçar olur, dağılır, viran və xaraba qalır" (*12, s. 163*). Lakin, çox keçmədən, Sünikin knyazı Smbatın, eləcə də II Qriqor Supanın qardaşı knyaz Vasaqın da dəstəklədiyi Baqrati çarı II Aşot əmisi oğlu ilə barışıq elan edir (*12, s. 160-161*).

915-ci ildə II Aşotun vaxtilə atası I Smbatın işğal etdiyi Quqarka, Xram çayı sahilindəki Şamşulde qalasının tabelikdən çıxmaq cəhdilə çıxış edən rəisləri Vasaq və Aşot qardaşlarına qarşı yönəldilən yürüşü çətinliklə əldə olunan qələbə ilə nəticələnir. Elə həmin il Sünik knyazı Smbat, nəhayət, vətəninə qayıdır (*12, s. 161-162*). Onun kiçik qardaşları Səhək, Babken və Vasaq da daxili vəziyyətin sabitləşməsindən istifadə edərək, doğma yurdlarına dönür, hər biri öz mülkünün idarəsini yenidən əlinə alır. İlk növbədə quruculuq və bərpa işlərini həyata keçirən qardaşlar, az sonra, iki il öncə, 913-cü ildə, Əlincə qalasının alınması ilə əsir düşmüş arvadlarının da vətənə dönməsinə nail olurlar (*12, s. 162*). Göyçə (Gelam) gölü ətrafındakı torpaqlarına qayıdan II Qriqor Supanın qardaşları Səhək və Vasaq elə həmin illərdə (915-916) öz irsi mülklərinə sahib çıxırlar (*yenə orada*).

Mənbələrin məlumatından görünür ki, Baqratilər arasında əldə edilmiş barışıq, əslində, yalnız zahiri idi. Onların hələ də davam etməkdə olan çəkişmələrindən istifadə edən Yusif hakimiyyət tacını bu dəfə mövcud durumda özünü daha arxayın aparan Baqrati II Aşota verir. Bu hadisə Baqrati hökmdarının Albaniya hökmdarı Qriqor Həməmin ikinci oğlu, Arsax və Utinin sahibi böyük işxan Səhək Sevadanın qızlarından birinə evlənməsi ilə eyni vaxta düşür. Maarifpərvər, evində məktəb açdıran, uğurlu bir insan kimi təqdim olunan "igid və bacarıqlı" Səhək Sevada Moisey Kalankatuklunun məlumatına görə, "Girdiman və Parisos vilayətlərini özünə tabe etmiş, quldurları ram edərək, Coraygetin (Dzoragetin, Şirak) ağası olmuşdu". Mənbədə verilən "erməni çarı Smbat dəfələrlə onunla döyüşdü, lakin onu özünə tabe edə bilmədi" məlumatı, eləcə də, alban knyazının qızının həmin I Smbatın oğlu Aşotun arvadı olması erməni tarixşünaslığında qərarlaşmış alban əsilli xristian əhalinin Baqratilərə "tabeçilik" iddiasını tamamilə inkar edir (*2, s. 203*).

Baqrati çarı II Aşotla alban işxanı Səhək Sevadanın qızı arasındakı izdivac haqqında məlumat verən, hadisələrin şahidi katolikos İohannın yazdığına görə, "orada rəqs edib, mahnı oxunanda, ostikan Yusif ona padşah tacı, qiymətli bəzəklər, möhtəşəm və gözəl xələtlər, qızıl yüyənli, əla əsləhəli atlar, eləcə də kömək olaraq ərəb süvari alayı göndərdi" (*12, s. 163*). Tacı alan II Aşot Yusifə çoxlu hədiyyə və pul yollayaraq, onun verdiyi atlı dəstəsi və qaynatası Səhək Sevadanın qoşunu ilə əmisi oğlu sparapet Aşotun olduğu Dvinə hücum edir. Baş verən vuruşma Səhək Sevadanın hücumda iştirak edən oğlu Qriqorun təhriki ilə hərbiçilərin döyüş meydanından qaçması nəticəsində məğlubiyyətlə qurtarır. Bu hadisədən sonra İveriyaya (Virkə) gedərək, oradan böyük qoşun toplayan II Aşot, yenidən

Valarşapata qayıdır (*12, s. 164*).

Alban hökmdarının oğlu ilə qohumlaşmış Baqrati II Aşot bu qohumluq münasibətlərinin köməyilə vaxtilə atası I Smbatın işğalına məruz qalmış, lakin tabelikdən çıxaraq yenidən üsyan etmiş Albaniyanın Uti vilayətinə hücum etmək qərarına gəlir. Onların birləşmiş qoşununa öz böyük dəstəsi ilə "Quqarkın Alan qapıları yanındakı hissəsinin hakimi" də qoşulur (*12, s. 164*). Üsyançıların başında duran yerli hakim Movses (Moisey, Musa) tabe olmaq müraciətini rədd edir, lakin çoxsaylı ordunun hücumunu dəf edə bilməyərək, qərbə-Sünikə, işxan Smbatın iqamətgahına qaçır. Buradan, görünür, real kömək əldə edə bilməyən Movses Sisakan ərazisindən keçərək, sanarların torpağına getdiyi zaman ələ keçir, gözləri kor edilir (*12, s. 165; 8, s. 112*).

Mənbələr, xüsusilə, Baqratilər arasında daha da dərinləşən nəsillərarası münasibətlərin gərginləşdiyi bu dövrdə Sünik knyazı, Qelarkunidə irsi hakimiyyətini bərpa etmiş Vasaqın erməni hökmdarı II Aşota yazdığı və bölgənin feodal qurumları arasındakı münasibət məsələlərinə aydınlıq gətirən məktubu haqqında da məlumat verir (*12, s. 166*). Baqrati hökmdarına müraciət edən Vasaq onun yanına "təhlükəyə məruz qalmadan girib-çıxması üçün yazılı surətdə and içməsini" istəyir (*12, s. 166*).

Baş verən hadisələr haqqında katolikos İohanndan daha ətraflı məlumat verən Stepan Orbelian Sünik knyazı Vasaqın Baqrati hər iki Aşot arasında davam edən və getdikcə daha da qızışan, qanlı vuruşmalara gətirib çıxaran nifaqdan çəkindiyini, II Aşota inamı olmadığı üçün onun yanına getmək istəmədiyini bildirir. Şapuhun oğlu Aşotun ona daha çox meyil göstərdiyini yazan mənbə müəllifi Sünik knyazının belə müraciətlə çıxış etməsinin digər səbəbi kimi onun Baqrati II Aşotun düşməni olan İveriya knyazı (*bdeşx*) Qurgenin kürəkəni olmasını göstərir (*yenə orada*).

Müraciəti aldıqdan sonra Sünik knyazını əvvəlcə ehtiramla qarşılayan II Aşot üstündən çox keçmədən, Vasaqın guya onun düşmənləri ilə əlbir olduğunu, onlarla məktublaşdığını bəhanə edərək, əl-qolunu bağlatdırıb, Kayean qalasında zindana saldırır, Sünikdəki mülki torpaqlarını isə ələ keçirir. Yalnız katolikos İohannın vasitəçiliyindən və xahişindən sonra Baqrati hökmdarı Sünik knyazını azad edəcəyinə və mülkünə qaytaracağına söz versə də (*12, s. 166*), hadisələrin sonrakı gedişi onun öz vədinə əməl etmədiyini, Vasaqın bir müddət sonra, irəlidə görəcəyimiz kimi alban knyazı Səhək Sevada tərəfindən azad olunduğunu göstərir.

İbn Havqəlin, artıq qeyd etdiyimiz kimi, "Azərbaycan hökmdarları" adlandırdığı Sacilərin bölgədə möhkəmlənməsi, yerli hakimlərdən, o cümlədən Sünik knyazlarından yığılan və illərdən bəri Xilafətin xəzinəsinə axan vergilərin artıq 912-ci ildən Yusif ibn Əbu-s-Sacın göstərişi ilə Sacilərin xəzinəsinə getməsi (*7, s. 241*) mərkəzin Yusiflə əlaqədar siyasətinin yenidən dəyişməsinə səbəb olur. İbn əl-Əsirin yazdığı kimi, Yusif "o qədər pul yığdı ki, bundan sonra qüvvətli olub, xəlifəyə boyun əyməyi özünə rəva bilmədi" (*19, s. 69*). Onun Xilafətin şimal bölgəsində, o cümlədən Azərbaycan və Arran ərazisində baş verən hadisələrdə iştirak edən Əbu

Duləfilər xanədanı nümayəndəsini Qoğtənin və eləcə də Naxçıvanın əmiri təyin etməsi Yusifin bölgədəki yerli hakimlərin tabeliyini əldə edə bildiyi həmin illərə təsadüf edir (*4, s. 76; bax həmçinin: 18, s. 121*). Mənbələr (*O.Drasxanakertsi, St.Orbelian*) Sünikin böyük işxanı Smbatın qardaşları Səhək, Babken və Vasaqla* birlikdə əvvəllər Sünikə məxsus, 913-cü ildə isə, yuxarıda qeyd edildiyi kimi, Yusifin ələ keçirdiyi və görünür, elə həmin illərdə Əbu Duləfilərə verdiyi Əlincə (Yerincək) qalasını və onun ətrafındakı yerləri qaytarmaq tələbi ilə Əbu Duləfə müraciət etmələri haqqında məlumat verir. Həmin yerlərin ona xəlifə tərəfindən əta edildiyini bildirən Əbu Duləfin rədd cavabı qanlı vuruşmaya səbəb olur. Ağır döyüşün həlledici anında Sünik knyazı Smbatın qoşununda olan, St.Orbelianın "skif türklər" adlandırdığı muzdlu süvari dəstəsinin Əbu Duləfin tərəfinə keçməsi və bu zaman gənc knyaz Vasaqın həlak olması ilə döyüş Naxçıvandakı iqamətgahına qayıdan Əbu Duləf ordusunun xeyrinə başa çatır (*12, s. 167-168*).

Bundan sonra öz mülklərinə qayıdan qardaşlar atadan qalan irsi torpaqları aralarında bölürlər: böyük qardaş Smbata Sünikin ən mühüm-qərb hissəsi və Vayotsdzor, Səhəkə-Həkəri çayınadək şərq hissəsi, Babkenə isə yerdə qalan kiçik bir pay torpağı çatır (*St.Orbeliandan sitat, bax: 12, s. 179*).

Çox keçmədən (*təqr. 917-ci ildə*), Sünik işxanı Səhək vəfat edir, onun Göyçə gölü sahilindəki mülkünə isə irsən azyaşlı oğlu sahib olur. Katolikos İohann knyaz Səhəkin özünün tikdirdiyi, gölün qərb sahilində yerləşən Noratun kilsəsinin qapısı yanındakı məqbərədə dəfn edildiyini bildirir (*12, s. 164*).

Sacilərə tabe vilayətlərin hakimlərinin ərazi üstə çəkişmələrinin davam etdiyi bu gərgin dövrdə mövcud vəziyyəti ağırlaşdıran həmin hakimlərin, çox vaxt, yaxın qohumluq əlaqələrinə baxmayaraq, aralarındakı münasibətlərin səmimilikdən uzaq olması, nəsildaxili ədavətin və qərəzliyin səngiməməsi və nəticədə, bugünkü dostun çox keçmədən düşmən kimi çıxış etməsi idi. Mənbələrdəki məlumat, xüsusilə, Baqratilər və digər erməni nəsilləri arasında hakimiyyət üstündəki mübarizənin daha kəskin olduğunu, bu mübarizəyə istər-istəməz digər Cənubi Qafqaz vilayətlərinin hakimlərinin, o cümlədən, əksər hallarda bir-biriləri ilə razılığa gələ bilən Sünik knyazlarının da qatıldığını göstərir.

Mərkəzin sıxışdırdığı Yusif ibn Əbu-s-Sacın başının xəlifə qoşunları ilə Sacilərə tabe müxtəlif yerlərdə (Rey, Sərab, Zəncan, Ərdəbil və b.) döyüşlərə qarışması (*7, s. 242-243*) Yusifin özünün tac verdiyi II Aşotun yaranmış vəziyyətdən istifadə edərək, yenidən qonşulara qarşı işğalçılıq siyasətini davam etdirməsinə səbəb olur.

Dövrün hadisələrinin şahidi və sözsüz ki, Baqrati II Aşota isti münasibəti ilə fərqlənən katolikos İohann onun növbəti işğalçı hücumunun əvvəllər özünə yaxın dost bildiyi Tao-Klarcetinin** iri feodallarından olan, İveriya hökmdarı Atrnersehin bacısı oğlu knyaz Qurgenə qarşı yönəldildiyini bildirir (*12, s. 168*). Bu məqsədlə

* Sonuncunu Sünikin Gelarkuni ərazisinin knyazı II Qriqor Supanın qardaşı Vasaqla qarışdırmamalı

** Tao-Klarceti və ya Gürcü çarlığı. Gürcüstanın cənub-qərbində feodal dövlət. Hazırda Türkiyə Respublikasının şimal-şərqindəki ərazi.

öz qoşunu ilə İveriya ərazisinə gələn Baqrati hökmdarı ona qoşulmuş İveriya hökmdarının qoşunu ilə birlikdə knyaz Qurgenlə döyüşə başlayır. Maraqlıdır ki, Baqratilər arasında yeni münaqişəyə səbəb olan bu döyüşdə Tao-Klarceti knyazına II Aşotun doğma qardaşı Abasın və digər qardaşının oğlu sparapet Aşotun dəstələri də qoşulur. Uzun çəkən qarşılıqlı hücumlardan sonra, nəhayət, sülh danışıqlarına başlanılması haqqında qərar qəbul olunur. Lakin bu zaman II Aşotun qaynatası, Arsax və Utinin sahibi, alban knyazı Səhək Sevadanın hələ də Baqratilərin vassal asılılığında olan Utiyə hücum etmə xəbəri gəlir. Sonrakı hadisələr bu hücumun məqsədinin, görünür, II Aşotun verdiyi vədə baxmayaraq, hələ də Dzoraporda* Kayean qalasında əsir saxlatdırdığı Sünik knyazı Vasaqı xilas etmək, eləcə də Səhək Sevadanın özünün Baqratilərin təsirindən qurtarmaq olduğunu təsdiq edir.

Uti ərazisində və Dzoraporda bir neçə qalanı və yaşayış yerini ələ keçirən Səhək Sevada həmin qalalarda yaşayan yerli alban əhalisini özünün tabeliyində olan qalalara köçürür. Kayean qalasını da tutan alban knyazı Sünik knyazı Vasaqı və onunla birlikdə "azatların" qalada əsir saxlanılan arvadlarını azad edir; burada özünün gözətçi dəstəsini yerləşdirən Səhək Sevada onun yaxınlığındakı digər qalanı da ələ keçirir. Qaladakı erməni qarnizonunu qılıncdan keçirərək, onun sakinlərini öz knyazlığındaki qalalara köçürür, hələ yığılmamış taxıl zəmilərinə Baqratilərin əlinə keçməsin deyə od vurdurur. Bu uğurlara baxmayaraq, gah bu, gah da digər tərəfin üstünlüyü ilə bir neçə gün davam edən vuruşma, nəhayət, Səhək Sevadanın qoşunu daxilində baş verən qarışıqlıq nəticəsində onun özünün və oğlunun əsir düşməsi ilə tamamlanır (*12, s. 170*). II Aşot Qardmanı ələ keçirərək, yenidən həmin yerləri tabe edə bilir. Onun əmri ilə alban knyazı Səhək Sevada ilə oğlu Qriqorun gözləri kor edilir (*12, s. 171; 13, s. 397*).

Katolikos İohann Baqrati hökmdarının ona qarşı "inamsızlıq yaratmış, adamları ondan uzaqlaşdırmış", eləcə də onun istər Səhək Sevadaya, istərsə də Sünik knyazına olan real münasibətini aşkar edən bu addımını "qorxudan" atdığını II Aşotun özünün aşağıdakı sözləri ilə bildirir: "Əgər mən (II Aşot, *N.V.*) işxanı və onun oğlunu buraxsam, bu mənim ölümüm deməkdir. Əgər mən belə görkəmli kişiləri zindana saldırsam və onlar məsələn, [Sünik knyazı] Vasaq kimi birisi tərəfindən azad edilsələr, elə bu da, sözsüz, mənim ölümümə səbəb olacaq" (*12, s. 171*).

Baqrati çarı II Aşotun, özünün də dediyi kimi, "ölüm" qorxusundan atdığı bu addımını onun işğalçılıq siyasətinə məruz qalan qonşu hakimlər (o cümlədən Sünik knyazları) böyük narazılıqla qarşılayırlar. Lakin bu zaman əsirlikdə olan əmir Yusifin qulamı Subukun xəlifə əl-Muqtədir tərəfindən məcburiyyət qarşısında olsa da, bölgənin hakimi təyin edilməsi Baqrati II Aşotun öz rəqiblərinə nisbətən nüfuzunu artırır. Belə ki, onunla "Yusifdən də artıq" dostluq ittifaqı yaradan Subuk II Aşota "şahənşah" titulunu verir (*12, s. 171; 7, s. 143; 15, s. 245*).

* Dzorapor – 880-ci ildə Baqrati çarı I Aşotun işğal edərək, öz ərazisinə birləşdirdiyi yer. X əsrin əvvəlində burada bir neçə qala tikilir. Sünik knyazı Vasaq həmin qalalardan birinə - Kayeana (Kayan) salınmışdı.

Bölgənin yeni hakimi Subukun II Aşotun əsas rəqiblərindən olan Vaspurakan knyazı Qaqik Arsruniyə qarşı çıxışı və Vaspurakan hakiminin isə Sacilərə tabeliyini bildirməsi II Aşotun üstünlüyünü bir qədər də möhkəmləndirir. Katolikos İohannın bu məlumatı (*12, s. 171-172*) IX-X əsrlərdə yaşamış Tovma Arsruninin 910-cu ilə qədərki hadisələri təsvir edən əsərinə anonim müəllifin yazdığı, 940-cı ilə qədərki hadisələri əhatə edən əlavəsində olan məlumatdan məzmunca seçilir. Həmin fərqli məlumata görə, Yusif Azərbaycandan getdikdən sonra, Vaspurakan hakimi Qaqik Arsruni şərqə - Azərbaycana hücum etmiş, bir çox qalaları ələ keçirə bilmişdi; Bu zaman Yusifin, əslində, Baqrati II Aşotla müttəfiqlik edən qulamı Subuk xəlifənin göndərdiyi padşahlıq tacını və gözəl xələti guya Qaqikə vermiş, o, isə bunların müqabilində, "şərq hüdudlarında vuruşmağa gedən" xəlifə qoşunlarının onun mülklərindən keçmələrinə kömək etmişdi. Tovma Arsruninin bu məlumatına baxmayaraq, dövrün reallığı katolikos İohannın xəbər verdiyi kimi Subukun da Baqratilərdən məhz II Aşota üstünlük verdiyini təsdiq edir. Yenə həmin müəllif, qonşu hakimlərlə ərazi davasını davam etdirən bu erməni knyazının İveriya işxanı Qurgenlə vuruşması, qələbə qazanması, onun qoşununun döyüşçülərinin hamısını əsir götürməsi, "gözlərini çıxartmaqla, burun və qulaqlarını kəsməklə şikəst etməsi" haqqında məlumat verir (*12, s. 173*).

Erməni hökmdarı II Aşotun qonşu torpaqları ələ keçirməsi yerli əhalinin kəskin etirazına səbəb olmuşdu. Görünür, elə buna görə, o, arxanı möhkəmlətmək, hakimiyyət davası etdiyi qohumları və digər erməni nəsilləri ilə barışıq yaratmaq istəyir və buna müəyyən qədər nail ola bilir (*12, s. 173-174*). Utidə, mənbədə Amran adlandırılan hakimin başçılığı ilə ətraf yerlərin də feodal-mülk sahiblərinin qatıldığı, geniş vüsət tapan üsyan Baqratiləri böyük çətinliklə üzləşdirir (*12, s. 175-176*).

II Aşotun rəqibi olan Vaspurakan hakimi Qaqik Arsruni isə, katolikos İohannın məlumatına görə, Baqratilərdən fərqli olaraq əksər "qonşular və qohumlarla" dostluq münasibətlərini saxlamağa çalışır, lakin bununla yanaşı xəlifənin bölgədəki nümayəndəsi hesab olunan Sacilərə vergi verilməsini davam etdirirdi (*12, s. 176*).

II Aşotun işğal yolu ilə Cənubi Qafqazın xüsusilə xristian etiqadlı əhalisi yaşayan yerlərini, o cümlədən Süniki tabe etmək cəhdi, eləcə də hələ də zindanda olan Yusifin sadiq qulamı Subukun Sacilərin bölgədəki mövqeyini daha da möhkəmləndirməsi Xilafət üsul-idarəsinin təşvişinə, Cənubi Qafqazla əlaqədar siyasətində yenidən, bu dəfə də dəyişiklik etməsinə səbəb oldu. Xəlifənin əmri ilə 922-ci ildə Yusif ibn Əbu-s-Sac həbsdən azad edilərək, qiymətli hədiyyələr və xələtlə mükafatlandırıldı, ildə xəzinəyə 500 min dinar vergi ödəməsi, oradakı əsgərləri ərzaqla təmin etməsi şərtilə Azərbaycan və Ərminiyənin, o cümlədən Rey, Qəzvin, Əbhər və Zəncanın valisi təyin olundu (*19, s. 72; 7, s. 244*). Bu təyinatın təşəbbüskarı əmir Yusifi "tədbirli, igid" bir insan kimi xəlifəyə təqdim edən, onun köməyilə Sacilərə tabe torpaqlardan "hücumların və quldur yürüşlərinin kəsiləcəyinə" inanan Yusifin köhnə rəqibi, vaxtılə (917-918-ci illərdə) xəlifə qoşunlarının başında ona qarşı vuruşan sərkərdə

Munis olmuşdu (*12, s. 177-178*).

Təyinatı alan kimi öz qoşunu ilə paytaxt Ərdəbilə gələn əmir Yusif, burada özünün sadiq qulamı Subukun vəfatı xəbərini alır; 924-cü ildə Reyə, sonrakı ildə Həmədana hücum edərək, həmin şəhərləri yenidən ələ keçirir (*7, s. 244-245*). Onun şimala istiqamətlənən hücumundan xəbər tutan yerli hakimlər vergiləri "hətta iki dəfə artığına" ödəməklə Sacilərə tabeliklərini təsdiq edirlər (*12, s. 178-179*).

Xilafətin dağılmaması xatirinə məcburiyyət qarşısında əmir Yusifin yenidən vali vəzifəsinə qaytarılmasına baxmayaraq, Sacilərin hakimiyyətinin möhkəmlənməsi mərkəzin planlarına daxil deyildi. Bunun qarşısını almağa çalışan xəlifə əl-Muqtədir bu dəfə əmir Yusifin Azərbaycan və Ərminiyədəki hakimliyini saxlamaqla yanaşı, əslində isə Sacilərə tabe Şimal torpaqlarından uzaqlaşdırmaq məqsədilə, 314 (926-927)-cü ildə ona Bizansla həmsərhəd ərazinin – əl-Məşriqin də hakimliyini verir (*19, s. 73*).

Bu təyinata etiraz edə bilməyən əmir Yusif öz yerinə müvəqqəti olaraq köməkçisi, adamların "Subuk" adlandırdığı Nasrı bölgəyə göndərir. Ailəsi ilə Naxçıvana gələn Nasr, burada, Sünik işxanı Smbatın kiçik qardaşı Babkeni qəbul edir. Qardaşı Səhəkin oğlunun* onların ata mülkünün çox hissəsini təkbaşına idarə etməsini özünə qarşı ədalətsiz addım kimi qiymətləndirən Babken Nasrdan kömək istəyir. Məsələni həll etmək məqsədilə Nasr o biri qardaşı da Naxçıvana dəvət edir; onların hər ikisi ilə sülh müqaviləsi bağlayaraq, özü ilə Dvinə aparır. Bu barədə məlumat verən katolikos İohann Sünik knyazlarının da Dvinə aparılma məqsədini Nasrın, görünür, Sacilərə tabe olmaq istəməyən şəhər sakinlərini aldadaraq, zərərsizləşdirmək niyyətində görürdü (*12, s. 181*). Maraqlıdır ki, mənbədə Nasrı qarşılayan 40-dan artıq əyan "kafir" (burada yəni, "xristianlığa etiqad etməyən") adlandırılır**. Nasrın bu fəndi öz işini görür: aldanan şəhər sakinləri əsir alınır, Dvinə gətirilərək zindana atılır. Sünik knyazlarından istifadə edən Nasr onların da həbs olunması əmrini verir (*yenə orada*). Beləliklə, Dvin şəhəri yenidən Sacilərin əlinə keçir.

Nasrın əmir Yusif tərəfindən geri çağırılması ilə onun yerinə təyin olunmuş Bəşir (Bşir) adlı hakim Sacilərin bölgədəki mövqelərinin möhkəmləndirilməsi işini davam etdirir. Sünik knyazlarını hələ də əsirlikdə girov kimi saxlayan yeni hakimin ilk yürüşü Göycə gölündəki adada, Sünikə məxsus qalada sığınacaq tapan Baqrati II Aşota qarşı yönəldilir. Ağır döyüş Bəşir ordusunun məğlubiyyəti ilə başa çatır (*12, s. 192-193*).

Bu hadisədən sonra süvari qoşun dəstəsinin başında Sünikə qayıdan Nasr Vayotsdzorda, öz mülkündə sığınacaq tapan Sünik işxanı Smbatla görüşür. Smbatın

---

* Mənbədə Səhək adı yazılsa da, katolikos İohann öz əsərində (*12, s. 164*), artıq yuxarıda qeyd etdiyimiz kimi, Sünik işxanı Səhəkin vəfat etdiyini, onun mülkünə irsən azyaşlı oğlunun (adı yazılmır) sahib olduğunu bildirir. Görünür, burada söhbət Səhəkin oğlu haqqında gedir.

** A.N.Ter-Gevondyan (*15, s. 137*) həmin adamların əksərən erməni olduğunu iddia edir və bunu sparapet Aşotun bu şəhərdə qaldığı bir neçə il ərzində burada ermənilərin sayının arta bilməsi ilə izah edir. Halbuki, katolikos İohann açıq-aşkar həmin adamların "kafir" (əsərin rus dilinə tərcüməsində "неверные") olduqlarını bir neçə yerdə qeyd edir.

hələ də əsirlikdə saxlanılan qardaşlarını azad edəcəyinə söz verən Nasr onun verdiyi hədiyyələrlə Dvinə qayıdır. Kiçik qardaş – knyaz Babken əsirlikdən azad edilir; Təyin olunan vergilərin Sacilərə tam ödənilməsi müqabilində digər Sünik knyazının da buraxılacağı və irsi mülkünün ona qaytarılacağı vəd olunur (*12, s. 194-195*).

Vergilərin ağırlığı qurtarmaq bilməyən müharibələrdən də əziyyət çəkən bölgə əhalisinin vəziyyətini o qədər çətinləşdirmişdi ki, onlar hətta öz ev-eşiklərini tərk edərək, qaçmağa məcbur olurdular. Sünikin əlçatmaz, alınmaz qalalarının çoxluğuna baxmayaraq, yerli əhali hətta belə qalalarda da təhlükəsizliklərinə əmin ola bilmirdi. Vergilərin bəzi hallarda ödənilməsinin arasının kəsilməsi və ya gecikdirilməsi isə mövcud gərginliyin daha da artmasına, yaşayış yerlərinin boşalmasına səbəb olurdu. Mənbədəki məlumatdan görünür ki, Nasrin hücumu haqqında xəbər tutan Sünikin Kelah qalasının sakinləri qalanın ələ keçəcəyi, özlərinin isə məhv ediləcəyi qorxusundan onu tərk edirlər. Yalnız iki ildən sonra, qalanın boş olduğundan xəbər tutan Nasr, "heç bir çətinlik çəkmədən onu ələ keçirir", özünə tabe edir və öz adından bütün ətrafdakı yerlərə ağalıq etməyə başlayır (*12, s. 195*).

Beləliklə, əmir Yusifin bölgəyə göndərdiyi hakimlər digər tabe vilayətlərdən olduğu kimi Sünikdən də gələn və Sacilərin xəzinəsinə axıdılan vergilərin aramsızlığına nail ola bilirlər. Bu isə Xilafətdən təcrid olunaraq müstəqil inkişaf yoluna qədəm basan Sacilər dövlətinin möhkəmlənməsinə səbəb olur.

Mərkəzi hakimiyyət Sacilərin əldə etdikləri uğurların əsas səbəbini sülalənin başında əmir Yusif kimi bir şəxsiyyətin durmasında görürdü. Məhz buna görə Yusif xəlifənin əmri ilə üsyan etmiş qərmətilərlə döyüşə göndərilir və 927-ci ildə əsir düşərək həlak olur. Lakin, əmir Yusifin həlak olması Sacilərin bölgədəki hakimiyyətini sarsıda bilmir. Xəlifə əl-Muqtədirin onun ölümündən sonra Azərbaycan və Ərminiyənin valiliyinə təyin etdiyi, Yusifin qardaşı oğlu Əbu-l-Musafir əl-Fəth ibn Məhəmməd cəmi ilyarım hakimlik edə bilir. Bu qısa, bölgə üçün nisbətən sakit dövrdə Sünik knyazları öz mülklərini idarə etməklə yanaşı Sacilərə ödəniləcək verginin də arasını kəsmirdilər.

Əmir Yusiflə qohumluq telləri ilə bağlı olan vali Əbu-l-Musafirin öldürülməsi ilə Sacilər dövlətinin idarəsi onun qulamlarının – çox qısa müddətdə Vasif əs-Sirvaninin, daha sonra Muflihin, Deysəmin və başqalarının əllərinə keçir (*bax: 3, s. 112; 7, s. 246*).

Əmir Yusifin xəlifənin əmri ilə Cənubi Qafqazdakı tabe torpaqları tərk etməsi, daha sonra həlak olması, elə həmin il Baqrati II Aşotun da vəfat etməsi və bütün bunların nəticəsi olaraq yaranmış qarışıqlıq Bizansa bölgəyə olan köhnə iddialarını gerçəkləşdirmək imkanı verir. 927-931-ci illərdə Bizans imperatorunun qoşunlarının dəfələrlə hücumları olur. Lakin, əsasən bölgənin müsəlman Sacilərin tabeliyində olan yerlərinə istiqamətlənmiş bu hücumlar bizanslıların məğlubiyyəti və geri çəkilməsi ilə başa çatırdı. Həmin hücumlardan 317 (929/30)-ci ildə baş verən biri haqqında məlumat verən İbn əl-Əsir bu dövrdə Sacilərin bölgədəki hakimi Muflihin başçılıq etdiyi qoşunun bizanslıları məğlub etməsi, hətta onları Bizans torpaqlarınadək

izləməsini bildirir (*19, s. 75*). İbn əl-Əsirin digər məlumatına görə, bundan iki il sonra, 319 (931)-cu ildə bizanslılar ermənilərin "təhriki" ilə böyük bir qoşunla hücum edərək, "Bərkərini, Xilatı və onu əhatə edən kəndləri xarabaya çevirib, küllü miqdarda müsəlman qırıb əsir apardılar. Bu barədə xəbər Azərbaycan valisinə (Mufliхə, *N.V.*) çatanda, o, çoxsaylı əsgər və könüllülərlə birlikdə Ərminiyəyə yollandı. Ramazan ayında (17.X-16.X.931) o torpaqlara çatıb, erməni başçılarının yığışdığı şəhərə hücum etdi, ailələrini qırıb, mal-dövlətlərini talan etdilər..." (*19, s. 76*).

Erməni tarixşünaslığında qəbul olunmuş iki fikrin: – Baqrati çarı II Aşotun hakimiyyətinin son illərində "ərəb qoşunları Ermənistandan tamam qovuldular" və görünür, Asogikin "Abas erməni torpağında sülhü və abadanlığı bərpa etdi" (*6, s. 117*) sözlərinə əsaslanaraq irəli sürülən "Abasın (928-953) dövründə Ermənistan əsasən tam müstəqil idi – sülh dövrü yetişdi" (*bax: 15, s. 245*) fikirlərinin hökm sürməsinə baxmayaraq, həm yerli, həm ərəb mənbələrinin (*Tovma Arsruni, İbn əl-Əsir və b.*) bu ərazidə baş verən və ardı-arası kəsilməyən qanlı döyüşlər haqqında məlumatları nəzərə alınarsa (*bax: 15, s. 245-247*) bu dövrdə Baqrati xanədanının başçılıq etdiyi ərazidə sülhün və əmin-amanlığın bərqərar olduğunu demək düzgün olmazdı. Belə ki, ərəb-Bizans qarşıdurmasının daha da artdığı məhz həmin və bir qədər sonrakı illərdə bir tərəfdən Cənubi Qafqazdakı siyasi hakimiyyətini möhkəmlətmək cəhdləri ilə çıxış edən Bizans imperatorunun, digər tərəfdən Muflihdən sonra Sacilərin Azərbaycan və Ərminiyədəki hakimi Deysəm ibn İbrahimin (932-941) dövründə əl-Cibəl (Gilan) vilayətinin hakimi Ləşkəri ibn Mərdinin qoşunlarının bölgəyə hücumları baş vermişdi (*6, s. 124; 19, s. 77; bax: 15, s. 245-246*). Asogik Baqrati Abasın özünün də "qeyri-adi enerji ilə ətraf ölkələrə qələbə yaydığını", iverlərin, sarmatların, abxaz knyazının hücumlarının qarşısını ala bildiyi haqqında məlumat verir (*6, s. 117*).

Qarşılıqlı hücumların səngimədiyi, gah bu, gah da digər yerdə baş qaldırdığı bu qarışıq dövrdə, çox vaxt həmin hücumlardan kənarda qalan Sünikdə köhnə ideoloji mübarizənin yenidən dirçəlməsi baş verir. Belə ki, məhz həmin dövrdə, xüsusilə Sünik knyazı Smbatın (909-940) hakimiyyəti illərində, kilsə və monastırlar tərəfindən icma torpaqlarının zorla ələ keçirilmə cəhdləri yerli əhalinin silahlı çıxışlara gətirib çıxaran ciddi etirazlarına səbəb olmuşdu (*11, s. 158*). Bölgənin bir çox yerlərində ali ruhanilərə qarşı çevrilən bu hərəkat həmin vaxt Albaniyanın Şəki məlikliyinin başçısı Atrnersehin* vəfatından sonra onun xalkidonçuluq təriqətini qəbul edən dul qalmış arvadı məlikə Dinarın fəaliyyəti ilə sürətlə yayılırdı. Orta əsrlər gürcü mənbələrində adı çox çəkilən məlikə Dinarın gürcü Baqratilər nəslindən, gürcü (Tao Klarceti) hökmdarı I Aşotun (Kuropalat) nəticəsi olduğu məlumdur. Onun təriqətçilik fəaliyyətinə alban katolikosları Səhək və Qaqik, eləcə də oğlu

* **Atrnerseh** (Adərnərsə) – Alban padşahlığını bərpa etmiş Qriqor Haməmin oğlu. Mənbələr onun dəqiq hakimiyyəti illərini müəyyənləşdirmək imkanı verməsə də təqribən X əsrin əvvəllərindən həmin əsrin 40-cı illərinədək taxtda qaldığını təsdiq edir (bax: *1, s. 359*). Onun haqqında məlumat verən əl-Məs'udi kitabının yazıldığı 943-cü ildə Atrnersehin (Azərnərsə ben Haməm) Şəki hökmdarı olduğunu bildirir (*1, s. 359; 5, s. 250*).

şahzadə İşxanik* kömək göstərirdilər (*10, s. 222-223*). Yerli Sünik knyazlarının zahirən bu mübarizədən kənarda qalmaları görünsə də, əslində, bölgədə baş verən belə ciddi ideoloji-siyasi hadisənin onların dəstəyi olmadan baş verməsi çətin ki, mümkün olaydı. Bu baxımdan atası Dzagikdən sonra Qafan və Baqkın knyazı olan Cavanşirin fəaliyyətini qeyd etmək olar. Onun, xüsusilə, erməni katolikosu Ananiyanın hakimiyyəti illərində (943-967), irəlidə görəcəyimiz kimi, Sünik kilsə xadimlərinin ideoloji baxışlarını dəstəkləməsi, cəmiyyətdə böyük hörməti olan oğlu Vahanın fəaliyyəti az sonra Sünik knyazlığının Baqratilərin təsir dairəsindən tamam çıxmasında mühüm rol oynadı.

Artıq qeyd etdiyimiz kimi, IX əsrin sonlarınadək öz müstəqilliyini saxlaya bilmiş Sünik kilsəsi yalnız Baqrati knyazı Aşotun müdaxiləsindən sonra xalkidonçuluğu (diofiziliyi) tərk etmiş, qriqoryanlığı və bununla yanaşı, yerli dini rəhbərin erməni kilsəsi tərəfindən təyin olunmasını qəbul etmişdi. Vardanın məlumatından görünür ki, erməni katolikosu Yexişe (Yeqişe, Yelisey, 938-943) albanların təsiri altında erməni kilsəsinin tabeliyindən çıxmaq istəyən Sünik arxiyepiskopu Yakovu (Akob) itaətə gətirməyə çalışmış, bu məqsədlə Sünikə gələrək, Tatev monastırında onunla və eləcə də Sünik knyazı ilə görüşmüş, çox çətinliklə də olsa süniklilərin yenidən xalkidonizmə dönməsinin qarşısını ala bilmişdi. Mənbədə, həmçinin, atası Dzagikdən sonra Qafan və Baqkın taxt sahibi görkəmli knyaz Cavanşirin oğlu Vahanın katolikos Yeqişe tərəfindən Sünik arxiyepiskopu təyin edilməsi, onun Baqk qalasının ətəyində "möhtəşəm müqəddəs İohann monastırını tikdirməsi" haqqında məlumat vardır. Vardanın yazdığına görə, Yeqişe bu səfəri zamanı albanları müqəddəs Qriqorinin (yəni erməni kilsəsinin, *N.V.*) razılığı olmadan katolikos təyin etməməyə də inandırmışdı (*8, s. 114*).

Lakin məlikə Dinarın və onun tərəfdarlarının ara verməyən fəaliyyəti Sünik kilsəsinin Albaniya katolikosluğuna birləşdirilməsi cəhdlərini gücləndirirdi. 943-cü ildə yeni seçilmiş, Asogikin dili ilə desək "müqəddəsliyinə görə tərifi göylərə qaldırılan, öz kilsəsinin dindarları üçün canı yanan" erməni katolikosu Ananiya Mokatsinin Albaniya knyazlarına və ruhanilərinə dəfələrlə göndərdiyi müraciətlər cavabsız qalır (*6, s. 118*). Tatev yeparxiyasının yenidən tabelikdən çıxma xəbəri katolikos Ananiyanın daha sərt addımlar atmasına səbəb olur. O, Baqrati Abasa müraciət edərək, xalkidonçularla nigahı qadağan etməsini tələb edir**, hələ də Sünikdə arxiyepiskop Vahanla yanaşı öz fəaliyyətini davam etdirməkdə olan, erməni katolikosunun çağırışına hay verməyən, knyaz Cavanşirin himayəçilik etdiyi arxiyepiskop Yakovu vəzifəsindən tamam uzaqlaşdırır, hətta Sünik kilsə kafedrasının mitropolitlik statusunun ləğv olunduğunu bildirir (*8, s. 114*).

---

* İşxanik – Qriqor Haməmin nəvəsi Atrnersehin oğlu və varisi. İbn Havqəl (*20, s. 355*) onu Əşcanik (Əshas) adlandırır, müsəlman adının Əbu Əbd əl-Məlik olduğunu, Salarilərə 1 milyon dirhəm illik vergi ödədiyini bildirir. Təqribən X yüzilin 50-ci illərinin sonunadək hakimiyyətdə olmuşdur.

** Görünür, buna, mənşəcə gürcü olan və bütün gürcü xristianları kimi diofizi etiqadlı məlikə Dinarın alban hökmdarı Atrnersehlə izdivacından sonra məlikənin ölkədə ideoloji münaqişəni qızışdıran xalkidonçuluq təbliğatı səbəb olmuşdu.

Mənbələr məhz həmin illərdə yalnız Albaniyanın vilayətlərində və o cümlədən Sünikdə deyil, bölgənin digər yerlərində də artmaqda olan dini-siyasi hərəkatlar (xalkidonçuluq, tondrakilik) haqqında məlumat verir, həmin yerlərin xristian əhalisinin erməni kilsəsindən üz döndərmək cəhdlərinin qarşısını almaq üçün katolikos Ananiyanın fəaliyyətini xüsusi qeyd edirlər (*bax həmçinin: 9, s. 86-87*).

Onu qeyd etməliyik ki, Baqratilərin katolikos Ananiyanın vasitəsilə bölgədəki xristian əhalinin çoxluq təşkil etdiyi vilayətlərdə dini-siyasi üstünlüyü qorumaq cəhdlərinə baxmayaraq, onların özləri də Salari hakimlərindən vassal asılı vəziyyətdə idilər. İbn Havqəlin Azərbaycan Salarilər dövləti tərkibində olan və bu sülalənin nümayəndələrinə vergi ödəyən vilayətlər sırasında Sünik (Vayzur) və digər yerlərin sahibləri ilə yanaşı Baqrati "Bənu Sənbatın" da adını çəkməsi ("Bənu Sənbata Daxili Ərminiyədəki nahiyələrinə görə iki milyon dirhəm vergi təyin etdi", -*20, s. 355*) yuxarıda təsvir edilən hadisələrin baş verdiyi həmin dövrə, yəni X yüzilin ortalarına aiddir. Cənubi Qafqazda yeni siyasi qüvvənin – Şəddadilər sülaləsi nümayəndələrinin meydana çıxması da məhz bu dövrdə baş vermişdir.

948/49-cu ildə Salari hakimi Mərzban ibn Məhəmmədin Rey hakimi ilə apardığı müharibədə əsir düşməsini, dörd il əsirlikdə qalmasını bildirən İbn əl-Əsir (*19, s. 82-83; 18, s. 37-38*) həmin dövrdə Salarilərə tabe vilayətlərdə, eləcə də Sünikdə, yerli hakimlərin hərtərəfli dini-siyasi müstəqillik əldə etmək cəhdləri haqqında məlumat verir (*19, s. 84-85*).

951-ci ildə bölgədə yaranmış qarışıqlıqdan istifadə edən Şəddadilər nəslinin banisi Məhəmməd ibn Şəddad Salarilərin tabeliyində olan Dvin şəhərini ələ keçirir (*bax: 18, s. 8-9*). Hələ də əsirlikdə olan Mərzban ibn Məhəmmədin yerinə Salarilər dövlətini idarə edən oğlu İbrahim özünün vassalı olan Vayzur (Vayotsdzor) hakimi Vasaqın başçılıq etdiyi qoşunu Məhəmməd ibn Şəddada qarşı göndərir (*18, s. 9*). Lakin Sünik qoşununun hücumu uğursuzluqla nəticələnir. Az sonra Baqrati hökmdarı III Aşotun (953-977) Dvini Şəddadilərdən almaq cəhdi yenə də boşa çıxır (*yenə orada*). Yalnız əsirlikdən qayıtdıqdan sonra Salari Mərzban 343(954-955)-cü ildə Dvini qısa müddətə qaytara bilir (*18, s. 11;ərəb mətni s. 7; 3, s. 192*). Bununla belə, Salarilərin hakimiyyətinin hələ də davam etdiyi bu dövrdə hakim sülalənin nümayəndələri ilə yanaşı Şəddadilər də bölgədə möhkəmlənməyə çalışırlar. Münəccimbaşının məlumatına görə, Məhəmməd ibn Şəddadın vəfatından sonra onun oğlu Əbulhəsən Əli I Ləşkəri təqribən 10 il müddətində (955-965) ailəsi ilə birlikdə Vaspurakan hökmdarı, müsəlman adı Əbu Səhl (959-972) olan Hamazaspın iqamətgahında qalır.

İki müsəlman sülaləsi – hakimiyyətdə olan Salarilər və hakimiyyəti ələ keçirməyə çalışan Şəddadilər arasında mübarizənin artdığı bu dövrdə erməni Baqratilərin bölgədəki ideoloji mübarizəni öz xeyirlərinə həll etmək cəhdləri davam edirdi. 958-ci ildə, nəhayət, Albaniyaya getmək qərarına gələn erməni katolikosu Ananiya, Xaçına gələrək, burada alban din xadimləri ilə keçirdiyi görüşlərdə onları

xalkidonçuluqdan uzaqlaşdırmağa çalışmış, alban katolikosu Qaqikin "albanların xristianlığı ermənilərdən əvvəl qəbul ediblər" fikrini təkzib etmiş, "Albaniyanın arxiyepiskopluq, Ərminiyənin isə katolikosluq olduğu" iddiasını irəli sürmüşdür.

Daha sonra, Albaniyada, o cümlədən Sünikdə, vəziyyəti sabitləşdirməyə cəhd göstərən Ananiya yerli xristianların erməni kilsəsinə tabeliyini, daha doğrusu bu vasitə ilə Baqratilərin bölgədə öncül mövqeyini təmin etmək məqsədilə özünün Van gölündəki Axtamar adasında yerləşən iqamətgahını o zaman Baqrati III Aşotun (953-977) özünə paytaxt etdiyi Ani şəhərinin yaxınlığındakı kiçik Argina şəhərinə köçürür.

Xaçından və Sünikdən qayıtdıqdan az sonra katolikos Ananiya yerli hakimlər və din xadimləri ilə əldə olunan razılığa rəğmən, həmin yerlərdə xalkidonçuluğun yenidən bərqərar olma xəbərini alır. Asogikin məlumatına görə o, "ilahi qanunların mahir şərhçisi" olan teoloq və filosoflara müraciət edərək, onlara bidətçi çıxışların qarşısını almaq məqsədilə təbliğatı gücləndirməyi tapşırır: "Onların hamısı baş yepiskop Ananiyanın əmri ilə ilahi kitabları dərindən tədqiq etdikdən sonra, bu kitabların əsasında Xalkidon kilsəsinin ardıcıllarının ikinci dəfə xaçaçuran olunması qərarını verirlər" (*6, s. 123*).

Lakin katolikos Ananiyanın bütün bu cəhdlərinə baxmayaraq bölgəni bürümüş dini-siyasi hərəkatın qarşısını almaq mümkün olmadı. Hətta erməni hökmdarı Abasdan sonra hakimiyyətə gələn III Aşot, eləcə də onun xələfləri Baqratilərin təsir dairəsində olan bir çox yerlərin, o cümlədən Sünikin dini-siyasi tabelikdən çıxması və az sonra əldə etdiyi müstəqilliyi ilə barışmalı olurlar (*15, s. 248*).

Hadisələrin bu gərginliyini Albaniya – Arranda hələ də davam edən və sözsüz ki, ucqar vilayətlərdə, o cümlədən Sünikdə də əks-səda doğuran ideoloji münaqişələr daha da artırırdı. 965-ci ildə albanların "üsyançı" dini rəhbəri Qagiki katolikosluq kürsüsündə əslən Sünikdən olan David əvəz edir. Moisey Kalankatuklu onun namizədliyinin dini-siyasi birliyi təmin etməyə çalışan katolikos Ananiyanın özü tərəfindən təqdim olunduğunu xüsusi qeyd edir (*2, s. 207*). Erməni tarixşünaslığında qəbul olunmuş fikrə əsasən bu münasibətlə təşkil olunmuş mərasimdə həmin vaxt artıq Albaniyanın (Şəki məlikliyinin) hökmdarı olan İşxanikin, onun anası qatı "xalkidonçu" adlandırılan məlikə Dinarın iştirak etmələri albanların, görünür, yenidən guya erməni-qriqorian təriqətinə döndüklərini bildirir (*10, s. 223*). Lakin bölgədə baş verən hadisələrin sonrakı cərəyanı siyasi qarşıdurmanın artdığı bu dövrdə ideoloji problemin heç də belə asanlıqla həll olunmadığını göstərir. Belə ki, az sonra vəfat edən katolikos Ananiyadan sonra erməni patriarxı seçilmiş Sünik mitropoliti Vahanın fəaliyyəti dini ixtilafın hələ də davam etdiyini təsdiq edir. Sünik knyazı Cavanşirin oğlu mitropolit Vahanın erməni kilsəsinin başçısı seçilməsi Sünik xristianlarının öz istəklərinə rəğmən alban kilsəsi ilə birləşə bilmədiklərini göstərməklə yanaşı, alban kilsəsinin özündə də, görünür, dini ixtilafın davam etdiyini bildirir. Vəziyyətin mürəkkəbliyi katolikosluq rütbəsinə qalxmış sünikli Vahanın, Asogikin məlumatından göründüyü kimi, xalkidonçularla əlaqəni

kəsməməsi, Xalkidon kilsəsinin "yaxınlaşmaq istədiyi ardıcılları ilə yazışmağa girişməsindən" də məlum olur (*6, s. 126*). Mənbələrdəki məlumat Sünikdaxili mübarizənin olduğunu da əyan edir. Belə ki, bölgənin müxtəlif yerlərindən Vahanın fəaliyyətini qiymətləndirmək üçün Ani şəhərinə yığışmış din xadimləri arasında Sevan monastırının rahibi Stepanos (Stefan) da vardı. Növbəti erməni katolikosu rütbəsinə qısamüddətli də olsa məhz həmin Stepanos seçilir. Sünik knyazı Cavanşirin oğlu Vahan isə Vaspurakana qaçaraq, orada Qagik Arsruninin oğlu, müsəlman adı Əbu Səhl olan Vaspurakan hökmdarının yanında sığınacaq tapır (*yenə orada*).

Bölgədə baş verən hadisələr haqqında dövrün mənbələrinin verdiyi məlumatın təhlili daxili parçalanmanın və xarici müdaxilənin heç də azalmadığı, ideoloji qarşıdurmanın yüksəldiyi bu illərdə Vaspurakan hakimlərinin təkcə Sünikdən olan katolikos Vahana deyil, yuxarıda qeyd etdiyimiz kimi, Şəddadi Məhəmmədə və onun oğlanlarına da siyasi sığınacaq verməsi, Baqratilərə müxalif olan qüvvələrin bir yerə toplanmasına və sözsüz ki, müəyyən danışıqlar aparmasına şərait yaratmışdı. Münəccimbaşının (*18, s. 12, ərəb mətni s. 7*) az qala 10 il müddətində Vaspurakanda qalan Şəddadi Ləşkərinin 965-ci ildə Sünikə getməsi, 963-cü ildə vəfat etmiş Vasaqdan sonra hakimiyyəti əlinə alan Vayzur "sahibinin" (I Smbatın, 963-998) yanında "qısa müddət" qalması məlumatı da, görünür, bu səfərin təsadüfü olmadığını göstərir. Maraqlıdır ki, az sonra, demək olar eyni vaxtda (970-71-ci illərdə), həm Şəddadilərin, həm də Sünik knyazlarının siyasi tarixində mühüm hadisələr baş verir: bu vaxtadək yalnız Dəbildə qərarlaşan Şəddadilər Gəncənin idarəsini əllərinə alaraq, sülalənin hakimiyyətinin əsasını qoymuş, Sünikdə isə böyük knyaz Smbatın başçılığı ilə mərkəz şəhəri Qafan olan, Salarilərin tabeliyindən çıxa bilmiş Sünik padşahlığı yaranmışdı.

Gəncənin tutulması, Salarilərin oradakı əmirinin öldürülməsi, eləcə də Sünikin tabelikdən çıxması xəbəri bölgədəki hakimiyyətini hələ də saxlaya bilmiş Salari hakimi Mərzbanın oğlu İbrahimə (962-981) çatdıqda, o, təcili surətdə Ərdəbildən Gəncəyə gələrək, şəhəri mühasirəyə alır. Lakin qələbə qazana bilmədiyi üçün I Ləşkəri ilə sülh bağlamalı olur (*18, s. 15*). Vardanın məlumatına görə, bu hadisədən sonra nəinki Gəncə, az sonra hətta Bərdə və Şəmkir (Şəmkir) də Salarilərin əllərindən çıxır (*8, s. 125*).

I Ləşkərinin vəfatından sonra (978-ci il) hakimiyyətə gələn qardaşı Mərzbanla (978-985) digər qardaşı I Fəzl arasında yaranmış hakimiyyət çəkişmələrindən, eləcə də taxtda olan Mərzbanın səriştəsizliyindən istifadə edən bəzi yerli hakimlər Şəddadilərin bu vaxtacan ələ keçirdikləri ərazilərin bir hissəsini qaytarmağa çalışırlar. Məhz həmin vaxt şirvanşah Məhəmməd ibn Əhməd (981-991) yenidən Bərdəni tuta bilsə də, 985-ci ildə Şəddadilər dövlətində baş verən yeni hakimiyyət dəyişikliyi nəticəsində taxta sahib olan I Fəzl (985-1031) ilk növbədə Bərdə və Beyləqanı geri qaytara bilir (*18, s. 17*). Tarixçi Vardan onun "Axovan (Albaniya) sahibi Həmamın oğlu Qagiki yanına çağırıb qətlə yetirməsi və torpaqlarını tutması", bundan sonra bir qədər də möhkəmlənərək, "Xaçını, Gorusu, Sevordiki" ələ keçirməsi, "Dzoraget

hakimi Qagik, Axovan hökmdarı Kürike* və iverlərin hökmdarı Baqaratla onlara dinclik vermədən müharibə etməsi, sonra Dvini tutaraq, Ərminiyənin üzərinə 3 min dinar məbləğində vergi təyin etməsi" haqqında məlumat verir (*8, s. 125-126*).

Tarixçi Asogikin məlumatından görünür ki, 982-ci ildə, yəni Şəddadilərin mövqeyinin hələ möhkəmlənmədiyi, Salarilərin isə az qala bütün mülklərinin əllərindən çıxdığı bir dövrdə, müəllifin Qoğtən əmiri adlandırdığı, Əbu Duləf** (mənbədə: Абу-Талеб, Абу-Телуб) axırıncı Salari hökmdarı I İbrahimin oğlu Əbulheycənin son iqamətgahı olan Dəbil şəhərinə hücum etmiş, onu və o cümlədən Naxçıvanı ələ keçirə bilmiş, Əbulheycənin ailəsi ilə ölkədən qaçmasına səbəb olmuşdu (*6, s. 132*). Yenə həmin müəllif 983-cü ildə Əbu Duləfin erməni feodal nəsli Arsrunilərin xanədanı olan Vaspurakan vilayətinə hücumu haqqında xüsusi bölmədə (XIII) məlumat verir (*6, s. 132-133*). Asogik Əbu Duləfin 905 nəfərlik piyada qoşun dəstəsi ilə həyata keçirdiyi hücum zamanı "Kakyar" adlı yerdə düşərgə salması, Vaspurakan hakimi Aşot Arsruninin göndərdiyi "knyazlar knyazı" Abel-Xaribin onu müşayiət edən knyaz Qriqori və mərzban Tiqranla birlikdə başçılıq etdikləri ordunu geri çəkilməyə və tərk-silah olmağa məcbur etməsi, yalnız şəhərin əhalisinin pul və qiymətli əşyalar ödəməklə xilas olmasını bildirir. Qeyd etməliyik ki, Asogikin əlyazmasının tədqiqatçısı və naşiri N.Emin Əbu Duləfin qoşununun tərkibi haqqında məlumat verirkən mənbədə olan bir sözün (xazkok, xazik) anlaşılmadığını bildirsə də, bu sözün "xəzərlər" kimi tərcüməsinə üstünlük vermişdi (*6, s. 132-133, qeyd 1*). Döyüş zamanı öldürülən erməni döyüşçülərinin çoxunun xristianlıqdan dönmə müsəlman olduqlarını xüsusi qeyd edən Asogik, onların buna görə də "Allahın qəzəbinə" gəldiklərini bildirir (*yenə orada; həmçinin: 4, s. 81*).

Lakin Əbu Duləf tutduğu yerləri, görünür, yalnız bir neçə il əlində saxlaya bilmişdi. Belə ki, 987-ci ildə Asogikin "taciklər", yəni, ərəblər kimi təqdim etdiyi Əbu Duləf qoşunu (*6, s. 133*) hələ Salarilərin hakimiyyəti dövründə Cənubi Azərbaycan "feodalları içərisində ən qüdrətlisi" hesab olunan (*3, s. 241; 4, s. 81*) Rəvvadilər nəslinin görkəmli nümayəndəsi "Aterpatakan (Azərbaycan) əmiri" Əbulheycə ibn Rəvvad (Asogikdə: Абель-Хадж сын Ровда или Рованда) tərəfindən məğlubiyyətə uğradılır. Qoğtən və Naxçıvan əmirinin ələ keçirdiyi Salarilərə məxsus torpaqlar 100 minlik qoşunla hücuma keçən Rəvvadilər tərəfindən geri qaytarılır. Asogik Rəvvadi Əbulheycənin Əbu Duləfin mülkiyyətində olan Qoğtən vilayətini qarətə məruz qoyması, Dvini tutması, böyük qənimət və bac-xərac əldə etməsi haqqında məlumat verir (*6, s. 140*). Bu qələbə Rəvvadilərin bölgədə möhkəmlənməsi ilə yanaşı əvvəl Salarilərə, 983-cü ildən isə Qoğtən əmiri Əbu Duləfə bac ödəyən bir sıra yerli hakimlərin, o cümlədən 970-ci ildən bəri Sünik hakimi olan I Smbatın elə həmin ildə tabelikdən çıxması üçün şərait yaradır. Lakin 988-ci ildə Vaspurakana növbəti yürüş zamanı Rəvvadi hökmdarının vəfat etməsi, Əbu Duləfin bundan istifadə edərək yenidən Naxçıvan və Dvində möhkəmlənməsinə səbəb olur. Asogikə görə, Dvini

* Burada özünü "ranların və kaxların hökmdarı" adlandıran, paytaxt şəhəri Telavi (Təlab) olan Kaxeti- Eretinin (Sanariya) ilk hökmdarı III Kvirike (1010-1037) nəzərdə tutulur.

** Tədqiqatlara görə Abbasilərin hakimiyyəti dövründə Xilafətin şimal vilayətlərinə köçən və bu yerlərdə məskunlaşan ərəb nəsillərindən olmuşdur. Bu haqda bax: *4, s. 79-80*.

ələ keçirən Qoğtən əmiri Xaçının sahibinin vasitəçiliyi ilə erməni məliki II Smbatla sazişə girib, dinc yaşamaq haqqında onunla müahidə də bağlayır (*6, s. 140-141*).

Mənbələrin müqayisəli tədqiqi göstərir ki, bu dövrdə cərəyan edən hadisələri mürəkkəbləşdirən əsas amillərdən biri də regiondakı iri və xırda dövlətlərin, o cümlədən, onların tabeliyində və ya təsir dairəsində olan, lakin sərbəstliyə can atan feodal mülk sahiblərinin qarşılıqlı münasibətləri idi. Bu dövlətlərin hər biri kiçik bir imkanı da əldən vermədən biri digərinin ərazisi hesabına öz torpaqlarını genişləndirməyə, öz qüdrətini bəyan etməyə çalışırdı.

Bu baxımdan Baqrati II Smbatın vəfatından sonra hakimiyyətə gələn qardaşı I Qagikin (989-1020) həyata keçirdiyi hücumlar onun qonşu torpaqlar hesabına ərazilərini artırmaq siyasətini nümayiş etdirir. Asogik onun "Vayotsdzor, Xaçın və Parisos hüdudlarında çox sayda qala və nahiyələri ələ keçirməsi" haqqında məlumat verir (*6, s. 183*). Demək olar eyni vaxtda Şəddadi əmiri I Fəzlin, artıq qeyd etdiyimiz kimi, qonşu torpaqlar hesabına ərazisini genişləndirmə məqsədilə atdığı addımlar bölgədəki qarşıdurmanın daha da artmasına, hadisələrin bir qədər də qəlizləşməsinə səbəb olmuşdu.

Onu da qeyd etmək lazımdır ki, Şəddadi hökmdarı I Fəzlin məhz bu siyasəti ona qarşı bəzi yerli feodallarla birləşmiş erməni-gürcü koalisiyasının yaranmasına səbəb olur. Maraqlıdır ki, əsasən regionun xristian hakimlərinin təşkil etdikləri bu koalisiyaya sonralar bəzi müsəlman əmirlər, o cümlədən Cəfərilər sülaləsindən olan Tiflis əmiri də qatılmışdı (*3, s. 197*).

Qardaşı I Smbatın bir sıra müasir tarixçilər tərəfindən "erməni torpaqlarının birləşdirilməsi və mərkəzləşdirilməsi" adlandırılan (*bax məs.: 14, s. 124*), əslində isə qonşu torpaqlara təcavüz olan siyasətini, artıq qeyd etdiyimiz kimi, davam etdirən I Qagik 998-ci ildə Sünikdə hakimiyyətə keçən Vasaqın (998-1040) qızı Katramide ilə nigaha girir. Bu xanımı "mömin çariça" adlandıran Asogik (*6, s. 181*) Katramidenin hələ II Smbatın əmrilə Ani şəhərində tikdirməyə başladığı möhtəşəm kilsənin inşasını uğurla başa vurması haqqında məlumat verir. Cənubi Qafqazda hətta fərqli dinli və dilli hakim sülalələr arasında ənənəvi olan bu cür qohumluq əlaqələri bəzi digər yerli hakimlərlə olduğu kimi Baqratilərlə Sünik knyazları arasında da bu mürəkkəb dövrdə "müvəqqəti siyasi konsolidasiya" (*14, s. 124*) yaratsa da, bunu heç də erməni tarixşünaslığının təqdim etdiyi kimi Sünikin Ani Baqratilərindən vassal asılılığı kimi qiymətləndirmək düzgün olmazdı. Belə ki, məhz bu dövrdə, yəni XI yüzilin əvvəllərində, bölgədə baş verən feodal parçalanma prosesi "katastrofik miqyas" almış, feodal ara müharibələri artmış, Yaxın Şərqdə xarici siyasi vəziyyətin dəyişməsi isə, sözsüz ki, bu prosesin daha da kəskinləşməsinə səbəb olmuşdu.

Beləliklə, IX əsrin son rübündən başlayaraq bütün Xilafət ərazisində parçalanma prosesinin daha da genişlənməsi, tarixi Azərbaycan ərazisinin qərb bölgələrində siyasi durumun mürəkkəbləşməsinə səbəb olmuş, vəziyyətin hədsiz gərginliyinə

gətirib çıxarmışdı. Hər yerdə olduğu kimi qərb regionunda da yerli feodalların mərkəzdən asılı olmayan siyasət yürütmələri və müstəqil dövlət yaratmaq cəhdləri onları bir tərəfdən bir-birləri ilə üz-üzə qoymuş, digər tərəfdən isə bu torpaqların iddiasında olan xarici qüvvələrin müdaxiləsini intensivləşdirmişdi.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:

1. Azərbaycan tarixi. 7 cilddə./Məsul redaktor Nailə Vəlixanlı – c. 2, Bakı, 1998.
2. Kalankatuklu Moisey. Albaniya tarixi./Müqəddimə, tərcümə, qeyd və şərhlər akademik Z.Bünyadovundur – Bakı, 1993.
3. Şərifli M.X. IX əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətləri. – Bakı, 1978.
4. Vəlixanlı Nailə. Naxçıvanın VII-XII əsrlər dövrü tarixdə və tarixşünaslıqda. – Naxçıvan, 2015.
5. Vəlixanlı Nailə. Azərbaycan VII-XII əsrlərdə: tarix, mənbələr, şərhlər. – Bakı, 2016.
6. [Асогик] Всеобщая история Степ'аноса Таронского Asox'ика по прозванию – писателя XI столетия. – Москва, 1864.
7. Буниятов Зия. Азербайджан в VII-IX века./ Избранные сочинения в 3-х томах. – т. I, Баку, 1999.
8. Вардан. Всеобщая история./Rus dilinə tərcümə və izah M.Eminindir. – Москва, 1861.
9. Гандзакеци Киракос. История Армении. – Москва, 1976.
10. Григорян Г.М. Новонайденные надписи Ваанаванка. /Вестник Общественных наук АН Арм. ССР – Ереван, 1972, №1.
11. Григорян Г.М. Очерки истории Сюника IX-XV века. – Ереван, 1990.
12. Драсханакертци О. История Армении./Пер. с древне арм. М.О.Дарбинян–Меликян.–Ереван, 1984.
13. Мамедова Фарида. Кавказская Албания и албаны. – Баку, 2015.
14. Степаненко В.П. Политическая обстановка в Закавказье в первой половине XI века./Античная древность и средние века. – Свердловск, 1978, вып. 11.
15. Тер-Гевондян А.Н.Армения и арабский халифат. – Ереван, 1974.
16. Петрушевский И.П. О дохристианских верованиях Нагорного Карабаха. - Известия Аз ГНИИ, 1930, т. I, вып.5.
17. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. IV в. до н.э. – VII в. н.э. – Москва-Ленинград, 1959.
18. Minorsky V.F. Studies in Caucasion History. – Cambridge, 1953.

19. İbn əl-Əsir. Əl-kamil fi-t-tarix./Ərəbcədən tərcümə Z.Bünyadovundur. – Bakı, 1996.
20. İbn Havqəl. Kitab surat əl-ard./Y.Kramersin nəşri. BGA, c. 2, - Luqduni Batavorum, 1938-1939.
21. Əl-Məs›udi. Murac əz-zəhəb./B. De Meynarın nəşri – Paris, c. 1-2, 1861.
22. Əl-Müqəddəsi. Əhsən ət-təqasim fi mərifət əl-əqalim./M.de Quyenin nəşri – BGA, c. 3.-Leyden, 1876.
23. Ət-Təbəri. Tarix ər-rusul va-l-muluk. – Qahirə, 1968.
24. Yaqut əl-Həməvi. Mu'cəm əl-buldən. Beyrut, 1977, I-V.

Naila Velikhanli

Political situation in the western part of South Caucasus in the period of weakness of Arab Caliphate (end of 9th-10th)

Summary

Key words: *Syunik, Alban's prince, army races Bagratid's Sajid's, Dulafid's gregorianization, christianity*

In the article, on the basis of medieval synchronous arabic and armenian sources and appropriate historical literature, carrying out the political situation of the western regions of historical Azerbaijan after the collapse of Abbasid Caliphate. Present article describe activities of albans, armenians, Syuniks and other local knyazs, their mutual relations and invansion of armenian Bagratids. The main goal of Bagratids was the achievement of the political hegemony in the region by the religious subordinate (grigorization) of the Christian population, mainly Syunik, also mentioned activities of Sadjids, Shaddadids and other rulers which led to significant changes in region.

Политическая обстановка в западных регионах Южного Кавказа в результате ослабления Арабского Халифата (конец IX-X вв.)

Резюме

Ключевые слова: *Сюник, албанские князья, военные походы Багратидов, Саджиды, Салариды, Шаддадиды, Дулафиды, григорианизация, халкидонство.*

В статье на основе сведений средневековых синхронных арабских

и армянских источников и с привлечением соответствующей научной исторической литературы рассматривается сложная политическая обстановка, сложившаяся у западных границ исторического Азербайджана после упадка Аббасидского Халифата. Рассматриваются деятельность албанских, армянских, сюникских и других местных князей, их взаимоотношения, захватнические походы армянских Багратидов на соседние грузинские и албанские земли, их попытки путём религиозного подчинения – григорианизации добиться политической гегемонии над христианским населением региона и в особенности Сюника, а также действия Саджидов, Шаддадидов и других, приведшие к значительным изменениям политической обстановки в регионе.

Nərgiz Əliyeva

Orta əsr Azərbaycan tarixindəki bəzi faktların dəqiqləşdirilməsində müqayisəli təhlil metodunun rolu

Açar sözlər: *Azərbaycan, orta əsrlər, xilafət, mənbələr*

UOT 94 (479.24)

Orta əsrlər Azərbaycan tarixinin öyrənilməsində ərəb dilində yazılmış qaynaqların müstəsna rolu vardır. Azərbaycanın ortaçağ tarixinin tədqiqi sahəsində müəyyən işlər görülsə də, bir sıra problemlər hələ də öz həllini tapmamışdır. Bunun səbəbi orta əsrlər dövrünə aid yazılı mənbələrin yetərincə üzə çıxarılmaması, bəzilərinin tədqiqata cəlb edilməməsi, eləcə də elmi dövriyyədə olan qaynaqların tarixçilərimiz tərəfindən kifayət qədər öyrənilməməsidir.

Hələ orta əsrlərdə bəzən yer adlarının və şəxs adlarının yazılışında səhvlərə yol verilirdi. Xüsusilə hədis elmində isnadları çox olan əsərlərdəki səhvlərin aradan qaldırılması üçün yeni əsərlərin yazılmasına ehtiyac duyulurdu. Müəlliflərə kömək məqsədi ilə yazılmış belə köməkçi əsərlər Ərəb Şərqində geniş yayılmışdı. Orta əsrlərdə adların və yer adlarınının dəqiqləşdirilməsi ilə bağlı xeyli əsərlərin meydana gəlməsi ola bilsin ki, bu amala xidmət edirdi. Ərəb ədəbiyyatı tarixində 60-dan yuxarı əsəri əhatə edən və "əl-Mütəlif və-l müxtəlif" janrının məhsulu olan əsərlər bu qəbildəndir. Bu qəbildən olan əsərlərdən birinin müəllifi azərbaycanlıdır.

Ümumiyyətlə, orta əsrlərdə "Mütəlif və Muxtəlif", "Muttəlik və Müftərik", "Mustəbih", "Mubbemat" və "Vəfayət" kimi janrlar olmuşdur ki, bunların da meydana gəlməsinə səbəb şəxsiyyətlərin, xüsusilə eyni yüzildə yaşayanların bir-birinə qarışdırılmasının böyük xətalara yol açması olmuşdur. Ravilər arasında adları, atalarının adları ilə birlikdə bəzən babalarının adarı və ya künyə və nisbələri eyni olan şəxsiyyətlər olmuşdur. Xəlil ibn Əhməd adını daşıyan altı, Əhməd ibn Cəfər ibn Həmdan adlı dörd nəfərə rast gəlinir. Adları, ləqəbləri, künyələri və nisbələri yazılış baxımından eyni və bir-birinə yaxın, oxunuşları fərqli olan ravilərin kimliyinin təsbit edilməsi rəvayətləri dəyərləndirmək baxımından son dərəcə əhəmiyyətli olmuş, çoxlu əsərlərin meydana gəlməsinə təkan vermişdir. Bu səpgidə olan əsərlər

tarix, coğrafiya, ədəbiyyat, rəssamlıq və s.sahələrdə intişar tapmışdır. Bu növ əsərlər, o cümlədən "Kitab əl -Müştərik" əsərini zəruri edən onun yazıçı, tarixçi, ədib, tədqiqatçı üçün eyni dərəcədə əhəmiyyətli olması idi. 16 min toponimi əhatə edən və sanballı əsərlərdən sayılan "Mücəm əl-Buldən" ("Ölkələrin əlifba sırası üzrə siyahısı") coğrafi lüğətində Azərbaycanın 132 məntəqəsi haqqında məlumat verən tədqiqatçı alim əsərində oxşar, yəni omonim tarixi-coğrafi yer adlarının məhz hansı ölkəyə aid edilməsi məsələsi üzərində işləyərək dəqiqləşdirmələr aparmış, nəticədə 4261 coğrafi obyektin daxil olduğu 1091 yer adını əhatə edən "Kitab əl-Müştərik" kitabını ərsəyə gətirmişdir. XIII əsrin əvvəllərində iki dəfə Azərbaycanda olmuş görkəmli ərəb alimi, coğrafiyaşünası və səyyahı Yaqut əl-Həməvinin özü, onu bu əsəri yazmağa sövq edən səbəbi belə açıqlayır: "Mucəm əl-Buldən"dən seçdiyim mübahisə doğuran, yazılış və tələffüzünə görə uyğun, yerləşdiyi yerə görə müxtəlif olan əsl adı, kökü itib batan, danışanların öz arzusuna uyğun olaraq üstünlük verdikləri nisbələri qısa olaraq misal gətirdim ki, onları yazıya alanların işi yüngülləşsin" [10, p.3-4]. Düzdür, Yaqut əl-Həməvidən əvvəl də oxşar yer adlarının təsnifatını vermək cəhdləri olmuşdur. Lakin bu problem başqa səpgidə olan əsərdə verilmiş və ayrıca tədqiqat obyekti olmamışdır. Eyni adlı coğrafi yerlərin (vilayət, şəhər, qala, kənd, hətta məhəllə, bazar, müqəddəs yerlər və s.), o cümlədən dağ, göl, ada, və s. adların aşkara çıxarılıb tutuşdurulması və təsnifatı sahəsində mühüm addım olan bu əsərdə əsas məqsəd yer adlarının müqayisəli şəkildə verilməsidir. Məsələn, Gəncənin iki coğrafi omonimi olduğunu qeyd edən müəllif, əgər birincinin Arran vilayətinin mərkəzi olan əzəmətli şəhər olması və ədəb əhlinin onun Cənzə kimi adlandırmasını qeyd edirsə, ikincinin İsfahanla Luristan arasında yerləşdiyini bildirir [10, p.376].

Əsəri fərqləndirən xüsusiyyətlərdən biri onun «Mucəm əl-Buldən»dən sonra yazılması və orada verilən bəzi fikirlərin yenidən dəqiqləşdirilməsidir. "Kitab əl- Müştərik"in Azərbaycana aid məlumatları tərcümə edilmişdir [1, 240 s.]. Müəllifə görə, müəllifin digər əsərləri ilə müqayisə metodu ilə tədqiq olunan bu əsər məlumatların dəqiqliyinin yoxlanması ilə seçildiyi üçün üstün mövqe tutur. Məsələn: "Mucəm əl-Buldən"də ar-Rass (Araz-N.Ə) çayı haqqında danışan müəllif Arranda bu çay boyunca min şəhərin olması və Allahın onlara Musa adlı peyğəmbər göndərməsi barədə hədisi rəvayət edərək bildirir ki, Musa peyğəmbər onları Allaha və imana çağırmış, lakin insanlar onu aldatmış, əmrinə asi olmuşlar. O, bəndələri lənətləmiş və Allah Taifdən əl-Haris va-l-Həvarisi onların üzərinə göndərmişdir. Deyirlər ki, ər- Rass əhli bu iki dağın altındadır [9, c.44]. Müəllif "Kitab əl- Müştərik"də bu fikrin üzərinə yenidən qayıdır və deyir ki, mən belə fikirdən uzağam, çünki bura peyğəmbərlərin düşdükləri yer deyil. Orta əsr müəllifləri tədqiqatlarında dəqiqləşdirmə metoduna daha çox fikir vermiş və bu işdə "əl-Müştərik" tipli əsərlərin köməyindən istifadə etmişlər. Əl-Qalqaşandi (1355-1418) [14, .ص 359, 360, 363], əs-Suyuti (XV əsr) [18, . 8 ص] və ibn-Məcid (XVI

əsr) [6, c. 205-251] mənşələrini götürmüş şəxsiyyətlərin yer adlarının və onların öz adlalının düzgün yazılış formasını verərkən, məhz onun bu əsərinə istinad etmişlər. Qeyd etmək lazımdır ki, müəllif heç də bütün ölkələrlə, eləcə də şəxsiyyətlərlə eyni dərəcədə tanış deyildi. Araşdırmalarımız belə nəticəyə gəlməyə imkan verir ki, onun Şimali Azərbaycana səfəri baş tutmasa da, bu ölkə və onun alimləri haqqında məlumatlarını eyni dərəcədə mötəbər hesab etmək olar.

“Kitab əl-Müştərik”də müəllif Azərbaycanın digər yerlərlə oxşar olan 21 məntəqələrinin adını dəqiqləşdirir və demək olar ki, məqalələrin yekun hissəsində həmin şəhər, kənd, vilayət və s.-dən mənşələrini götürmüş görkəmli şəxsiyyətlər, onların müəllimləri və tələbələri haqqında sistemli şəkildə məlumat verir. Beləliklə, bu əsəri müxtəlif bölgələrdən olan bir çox mədəniyyət xadiminin mənşəyinin dəqiqləşdirilməsi baxımından da mühüm mənbə sayıla bilər. Beləki, tədqiqatçıların işini yüngülləşdirmək məqsədilə müəllif oxşar yer adlarını sadalayaraq, eyni nisbəli şəxsiyyətlərin məhs hansı bölgədən olduğunu da vurğulayır. Məsələn: Əl-Bab adı ilə 4 yer adlamasına baxmayaraq, Züheyr ibn Nueym əl-Babi öz mənşəyini məhz Şirvanın Dərbəndi olan Bab əl-Əbvabdan götürmüşdür [10, p. 32]; Xuveyin (Xoy-N.Ə) iki yerdə olmasını qeyd edən müəllif – birincisinin Əbu Musa Xəndəyinin arxasında vadi olduğunu göstərir, əlavə olaraq yazır ki, ərəblərin burada aclıq günü olmuşdur. Şair demişdir: Yəzid bizi aclıq vaxtı Xuveydə tərk etdi. İkinci Xuvey isə, Azərbaycan nahiyyəsində böyük və məşhur şəhərdir. Əbu Bəkr Məhəmməd ibn Yəhya ibn Müslim əl-Xuveyyu bu şəhərdəndir. O, müəzzin Cəfər ibn İbrahim haqqında rəvayət etmişdir. Onun haqqında isə, şafii alim Əbü-l-Qasim Abdulla ibn Məhəmməd ibn İbrahim ibn İdris məlumat vermişdir. Elmin müxtəlif sahələrini əhatə edən bir çox alim öz nisbəsini buradan götürmüşdür [10, p.164]; Məyanic adlı məqaləsində alim bu adın iki yerə şamil edilməsi, birincinin – Şamda yer adı olduğunu, Əbu Bəkr Yusif ibn əl-Qasim ibn Yusif əl-Məyanicinin Şamdakı Məyanicdən, Qazı Əbülhəsən Əli ibn əl-Həsən ibn Əli əl-Məyanicinin isə Azərbaycandakı Məyanicdən olduğu vurğulanır [1, s.192-193].

Əsərdə tarix, coğrafiya və eləcə də eyni toponimin bir neçə yerdə işlənməsinə dair xeyli konkret misalların gətirilməsi onun onomastika elmi üçün də əhəmiyyətli mənbə olduğunu göstərir.

“Kitab əl-Müştərik” əsərinin tədqiqi belə nəticəyə gəlməyə imkan verir ki, yazılış formasına görə eyni, yerinə görə fərqlənən və mənşələri əl-Bab, Qurran, Xuvey, Məyanic, Bərdə və Marağaya aid edilən nüfuzlu şəxsiyyətlər arasında azərbaycanlılar üstünlük təşkil edirdi. Yaqutun «Kitab əl-Müştərik» əsərində istifadə olunan qiymətli məlumatlar hələ öz dövründə bir neçə ölkələrin xalqlarını birləşdirən müsəlman mədəniyyəti xadimlərinin, o cümlədən azərbaycanlı ziyalıların üzə çıxarılması işində mühüm mənbə olmuş, həmin xalqların mədəniyyətlərindəki ortaq xüsusiyyətlərin müəyyənləşməsinə aydınlıq gətirmişdir.

Orta əsrlərdə olduğu kimi bu gün də faktların dəqiqləşdirilməsi üçün müqayisə

metodundan istifadənin vacibliyi qalır. Azərbaycan tarix elminin müasir səviyyəsi tələb edir ki, tədqiqat və maraq dairəsini genişləndirməklə həmin mənbələr bir daha gündəmə gətirilərək yeni gözlə nəzərdən keçirildikdən sonra tədqiq edilsin, ən azından xəbər verilən məlumatların hansı dövrə aid olduğu təyin edilsin, başqa sözlə deyilərsə, faktlar dəqiqləşdirilsin. Lakin, o da məlumdur ki, bu mənbələrdəki informasiya bəzən kompilyativ xarakter daşıyır, yəni müxtəlif əsrlərdə özlərindən əvvəl yazılmış mənbəyə isnad vermədən məlumat təkrarlanır, sanki bu məlumat yenicə gündəmə gətirilən kimi verilir. Müasir dövrdə mənbələrin müqayisəli təhlili metodu vasitəsilə biz məlumatların hansı müəllifə məxsus olduğunu üzə çıxarmaqla yanaşı bu məlumatlar vasitəsilə Azərbaycan ziyalılarının yaşadığı dövrü və hadisələrin həmin məlumat və ya faktların dövrünü təyin etməyə çalışırmışıq. Müqayisə üçün XI, XII və XIII əsrlərdə yaradıcılıq fəaliyyəti göstərmiş müəlliflərin əsərlərindən nümunələr gətirmişik. İlk öncə XIII əsr mənbəsi olan "Mucəm əl-Buldan", daha sonra XII əsr mənbəsi "Kitab əl-Ənsab" və "Mucəm əs-Səfər, daha sonra isə "əl-İkməl" əsərlərini qarşılıqlı müqayisə etmiş, onların məlumatlarını tutuşduraraq bəzi ziyalıların yaşadıqları dövrü dəqiqləşdiləş bilmişik.

XI əsrin birinci yarısında Səlcuq hücumlarının dağıdıcı nəticələri Səlcuq feodal dövlətinin 90-cı illərədək intensiv çiçəklənmə dövrünü əvəz edən və XII əsrin II yarısınadək davam edən tənəzzül çevrəsi belə ümumi inkişaf meylinin qarşısını ala bilməmişdi. Həmin dövrdə ölkənin hüdudlarından uzaqda belə şöhrət tapmış istedadlı azərbaycanlı dilçi alimlərin, bəlağət ustalarının, ilahiyyat alimlərinin də sayı artmışdı. Bu cəhətdən Azərbaycanın görkəmli şəxsləri barədə məlumatı da ehtiva edən "Mucəm əl-Buldən" əsərinin [19] özünəməxsus yeri vardır. XIII əsrin əvvəllərində iki dəfə Azərbaycanda olmuş bu görkəmli ərəb alimi, coğrafiyaşünası və səyyahı Yaqut əl-Həməvinin məlumatlarının ölkəmizin ictimai-iqtisadi həyatı ilə bərabər mədəni həyatının öyrənilməsində də böyük rolu olmuşdur. Onun əsərləri monqol hücumları ərəfəsində və ilk monqol hücumlarından sonra Azərbaycan şəhərlərinin vəziyyəti, IX–XIII əsrlərdə buradan çıxmış görkəmli alim və mədəniyyət xadimlərinin başqa mənbələrdə təsadüf edilməyən orijinal məlumatı əldə etməsi, dövrün mədəni həyatına daha dərindən bələd olması, islam dünyasının ayrı-ayrı mərkəzləri arasında elmi və mədəni əlaqələrin daha geniş öyrənilməsi kontekstində olduqca qiymətlidir. Yaqut Azərbaycanda ədəbiyyatın çiçəkləndiyi, inkişaf etdiyi dövrdə yaşayıb-yaratmışdır. Yaqut əl-Həməvi bu əsərinə şəhər, kənd, ölkə və vilayət haqqında verdiyi məlumata konkret yerlərdən mənşəyini götürmüş görkəmli şəxslər haqqındakı informasiyanı da əlavə etmişdir. Akademik İ.Kraçkovskinin haqlı olaraq dediyinə görə "Yaqut əl-Həməvinin "Coğrafi lüğəti" ("Mucəm əl-Buldən"-N.Ə.) təkcə tarix və coğrafiyaya deyil, onlarla eyni səviyyədə hicri tarixinin altı əsrinin dinini, mədəniyyətini, etnologiyasını, folklorunu və ədəbiyyatını təcəssüm etdirir" [8, s.339]. Buna görə də altı əsr kimi geniş bir dövrü əhatə edən məlumatın dəqiqləşdirilməsinə ehtiyac yaranır. Bu əsər üzərində tədqiqat apardığımız və yaşam

dövrünə görə axırıncı müəlliflərdəndir. Ona görə də bəzi məlumatlar, o cümlədən şəxsiyyətlərin yaşadığı dövrü dəqiqləşdirmək üçün biz ondan əvvəl yaşayıb yaratmış bioqrafik mənbələrə müraciət etdik. Ümumiyyətlə, orta əsrlərdə hədis və sünnələrdə dəqiqliyin gözlənilməsinə xüsusi diqqət yetirilmişdir. Hər şeydən əvvəl məlumatın səhihliyinə, kimdən götürülməsinə ciddi fikir verilirdi. Ona görə də dövrün ziyalıları məlumat verdikləri mühəddislərin və ya digər sahədə fəaliyyət göstərmiş şəxslərin isnadını, informasiya topladığı və təhsil aldığı müəllimlərinin adlarını əsərlərində qeyd edirdilər. Şəxs adları yazılarkən onların nisbələrinin, yəni şəxsiyyətin mənşəyi götürülən yer adının düzgün yazılmasına xüsusi əhəmiyyət verilirdi. Belə ki, yer adlarını bildirən sözlərin sait səsləri hərəkələnməkdən başqa ayrıca sözlərlə də yazılırdı. Bu isə yazının üzünü köçürənlərin səhvinin azalması, şəxsiyyətin ad göstəricisinin gələcək nəsillərə düzgün çatdırılması niyyəti ilə edilirdi. Yaqutun azərbaycanlı zəka sahibləri haqqında "Mucəm əl-Buldən" əsərində topladığı məlumat orijinallığı və etibarlılığı baxımından maraqlıdır. Əsərdə yer adlarının hər bir hərfinin sözlərlə ifadə edilməsi yer adının düzgün yazılması ilə bərabər şəxsiyyətlərin nisbələrinin dəqiqləşdirilməsində də böyük əhəmiyyət kəsb edir. Müəllif XIII əsrin əvvəllərində qələmə aldığı «Mucəm əl-Buldən» əsərində Naxçıvandan olan Əbülfəzl Həddad (Xudadad-?) ibn Asim ibn Bukran ən-Nəşəvi haqqında məlumat verərkən göstərir ki, o, Gəncədə kitabxana xəzinədarı olmuşdur. Həmin əsərində müəllif daha dörd naxçıvanlı haqqında da məlumat vermişdir. Bu naxçıvanlıların nisbələri də ən-Nəşəvidir. Tədqiqatçı alim R.Məmmədovun gümanına görə ən-Nəşəvi nisbəli alimlər haqqında informasiyaya XII-XIII əsr məxəzlərində təsadüf edilməsinə baxmayaraq, onlar daha əvvəl, təxminən X-XI əsrlərdə yaşamışlar. Müəllif bu ehtimalın ortaya çıxmasını XII-XIII əsrlərdə yaşamış naxçıvanlı alimlərin, bir qayda olaraq, özləri üçün nisbəni "ən-Nəşəvi" şəklində deyil, "ən-Naxçıvani" şəklində götürmələri ilə bağlayır və əlavə edir ki, Yaqut əl-Həməvinin adlarını çəkdiyi "ən-Nəşəvi" nisbəli alimlərin XII-XIII əsrlərdə yaşayıb fəaliyyət göstərməsi barədə məxəzlərdə heç bir məlumat yoxdur [5, s. 141-142]. Doğrudan da, hər iki müəllifin əsərində yuxarıda qeyd olunmuş naxçıvanlı ziyalıların anadan olma və ya ölüm tarixi haqqında birbaşa heç bir məlumat verilmir. Lakin mənbələrin müqayisəli təhlil metodundan istifadə edərək bəzi faktları dəqiqləşdirmək, yəni Azərbaycan ziyalılarından bəzilərinin yaşadığı dövrü təyin etmək mümkün olmuşdur.

Əbülfəzl Xudadad ibn Asim ibn Bukran ən-Nəşəvi haqqında məlumat verən mənbələrdən biri də əs-Səmaninin (1113-1167) "Kitab əl-Ənsab" ("Nisbələr kitabı") dır [3, s.239]. Bu əsərin Yaxın Şərq, Orta Asiya, o cümlədən Azərbaycanın tarixi coğrafiyası və mədəniyyət tarixinin öyrənilməsi üçün əhəmiyyəti böyükdür. Müəllif hədis toplamaq arzusu ilə ölkələri dolaşmış və doğma Mərv şəhərinə qayıdandan sonra şəhərlər və bu şəhərlərdən mənşəyini götürmüş ziyalılardan bəhs edən 603 vərəq həcmində "Kitab əl-Ənsab" əsərini yazmışdır. Tarixçi ibn əl-Əsirin yazdığına

görə, Əbdülkərimin çoxsaylı səyahətləri zamanı görüşdüyü şəxslərin sayı 4000-ə çatmışdır [11, ص.152-151].

Bu o dövrün səyyah aimlərinin bioqrafiyasında rekord rəqəm idi. Əs-Səmaninin məlumat verdiyi ziyalıların çoxu mühəddislər, sufi şeyxlər, ilahiyyatçı- alimlər idi. Ərəb Şərqində Quranı bilmək, onu təbliğ və təfsir etmək, hədisləri seçib səhih və qeyri-səhih olanları ayırmaq o qədər ənənəvi hal almışdı ki, alimlik əlaməti məhz bu sahələri bilən insanlara şamil edilirdi. Bu da təsadüfi deyildi, çünki peyğəmbər (s.a.s) və onun tərəfdarlarının sahib olduqları elmi biliklər universal xarakter kəsb edir və hər bir elmin zirvəsi sayılırdı. Hədis toplamaq niyyəti ilə səyahətlərə çıxan əs-Səmaninin əsərində bu qəbildən olan ziyalılara üstünlük verilməsinin obyektiv səbəbi də bu idi. «Kitab əl-Ənsab» əsərində Azərbaycanın tarixi coğrafiyasına aid qiymətli məlumatla yanaşı, bir çox azərbaycanlı, o cümlədən 4 nəfər naxçıvanlı şəxsiyyət haqqında məlumat verilmişdir [15, ص.388-387].

«Kitab əl-Ənsab» əsərində Naxçıvana səfəri haqqında qeydlərin olmamasına baxmayaraq, Nəşavə haqqında verdiyi məlumat əs-Səmaninin bu şəhər və onun alimləri haqqında geniş təsəvvürə malik olmasından xəbər verir. Əs-Səmaniyə görə "Xudadad ibn Asim ibn Bukran ən-Nəşəvi Əbu Nəsr Əbdülvahid əl-Qəzvini, Həsən ibn Əli və Müslim Əbdürrəhman ibn Ğazv əl-Əttar ən-Nihavəndi haqqında rəvayət etmişdir. Onun, haqqında söhbət açdığı şəxslərdən biri də azərbaycanlı qazı Əbu Saleh Şüeyb ibn Saleh ibn Şüeyb ət-Təbrizi olmuşdur. əs-Səmaninin "Kitab əl-Ənsab" əsərinə əsasən, bu ziyalının yaşadığı dövrü XII əsr qəbul etmək olardı. Lakin, üçüncü bir mənbənin XI əsrdə yaşayıb fəaliyyət göstərmiş İbn Makulanın şəxslərin adlarının dəqiqləşdirilməsi ilə bağlı «Əl-İkməl fi raf›i-l-irtiyəb ani-l-mu»təlif va-l-mux-təlif fı-l-əsmə va-l-kunə va-l-ənsab"(«Ad, künyə və nisbələrdəki oxşar və müxtəliflik üzərində olan şübhələrin aradan qaldırılmasının başa çatdırılması") əsərinin digər ondan sənsa yaşayıb yaratmış müəlliflərin əsərləri ilə müqayisə edilməsi belə bir qənaətə gəlməyə verdi ki, iki müəllif, yəni əs-Səmani vəYaqut əl-Həməvi 3-cü bir mənbəyə- İbn Makulanın (XI əsr) "əl-İkməl" əsərinə əsaslanmışdır.

Ərəb ədəbiyyatı tarixində mavlə, böyük əmir, alim, tarixçi, ədib, hafiz, tənqidçi, nəssəbə (genealogiya ilə məşğul olan alim -N.Ə.) kimi məşhur olan Əbu Nəsr Əli ibn Hibbətullah ibn Əli ibn Cəfər ibn Əli ibn Muhəmməd İbn Makula (1030-1082) öz dovrünün tanınmış simalarindandır [4, s.27]. Makula Bağdadda vəzirlər, qazilər yetişdirən hörmətli, sayılıb-seçilən bir ailənin adı olmuşdur. Ibn-Makulanın «əl-Mütəlif və-1 Müxtəlif "janrında yazdığı «əl-İkməl fi raf'i-1-irtiyəb ani-l-mu»təlif va-l-mux-təlif fı-1-əsmə va-1-kunə va-l-ənsab" («İsim, künyə və ləqəblərdəki oxşar və müxtəliflik üzərində olan şübhələrin aradan qaldırılmasının başa çatdırılması") əsərində "ən-Nəşəvi" nisbəsinin aid olduğu yerin Nəşavə şəhərinin adından götürüldüyü qeyd edilir. İbn Makula göstərir ki, Nəşavə Arranın vilayətlərindən birinin şəhəridir. Ona Naxcuvan da deyilir. İbn Makula "ən-Nəsəvi" məqaləsində üç naxçıvanlı - Harun ibn Hayyan Əbu Musa, Əbu Hatim Əbdürrəhman ibn Əli ibn

Yəhya ibn Muhəmməd ibn ər-Ruvvas ən-Nəşəvi və Xudadad ibn Asim ibn Bukran Əbülfəzl ən-Nəşəvi haqqında məlumat verir. Xudadad ibn Asimin rəvayət etdiyi şəxslərin adını əs-Səmani olduğu kimi vermişdir, təkcə Əbu Nəsr Əbdülvahid ibn Hübeyra əl-Qəzvininin adını daha qısa variantda göstərir. Əs-Səmani yazır ki," İbn Makula Gəncədə (mətndə Cənzə -N.Ə.) olarkən Xudadad bin Asimi dinləmişdir". Azərbaycan tarixşünaslığında üzə çıxarılmış İbn Makulanın Xudadad ibn Asim ən-Nəşəvi haqqında Yaqut əl-Həməvidə və əs-Səmanidə olmayan daha bir məlumat vardır. Bu məlumata görə Xudadad ən-Nəşəvi Əbu Nasr əl-Hüseyn ibn Əli ibn Cəfər ən-Nərizidən (Nəriz-Azərbaycanda kənd-N.Ə.) hədis söyləməsidir. İbn Makula əlavə edir ki, Xudadad ən-Nəşəvi onun haqqında bizə hədis söyləməklə bərabər onun izahını da vermişdir [12, 544 ص.].

Bu məlumat deməyə əsas verir ki, Xudadad ibn Asim Ən-Nəşəvi İbn Makulanın yaşadığı dövrdə, yəni Yaqut əl-Həməvidən iki, Əs-Səmanidən bir əsr əvvəl yaşamışdır. Hər iki mənbədə mövcud olan informasiya sayəsində Xudadad ibn Asim ən-Nəşəvinin yaşadığı dövrü təyin etmək mümkün olmuşdur. Bu, bir daha görkəmli alim akad.V.V. Bartoldun fikrinin təsdiqinə bariz nümunədir: «…Əgər bir müəllifin X əsrdə, digərinin XI əsrdə yazdığını biliriksə, bu heç də o demək deyil ki, ikincinin məlumatı birinciyə nisbətən daha sonrakı dövrə aiddir. Demək olar ki, bütün müəlliflər heç bir mənbə və tarix göstərmədən kitablardan yazırlar, çox zaman da elə olur ki, XI əsrdə yazılmış əsərdə X əsrdə yazılmış əsərə nisbətən daha erkən mənbədən istifadə edilir [7, c. 16].

Yaqut əl-Həməvinin məlumat verdiyi digər bir şəxs Əl-Müfərric ibn Əli Abdulla ən-Nəşəvi və onun atası "Əl-Muşkani" ləqəbli əl-Hafiz Əbu Abdulla əl-Müfərric ən-Nəşəvidir. Yaqut əl-Həməvinin yazdığına görə əl-Müfərric hədis hafizlərindən və fəqihlərin tanınmış simalarından biri olmuşdur [19, C. 5, s.278]. O, Əbüllabbas ən-Nibhani ən-Nəşavi və onun timsalında (nəzərində) öz ölkəsinin şeyxləri haqqında məlumat vermişdir. Əs-Siləfi onun atasından söhbət açmışdır. Mənbədən gğründüyü kimi, Yaqut əl-Həməvi bu şəxsiyyət haqqında məlumatı Əs-Siləfidən əxz etmişdir. Əs-Siləfinin "Mucəm əs-Səfər" əsərinin Azərbaycana aid hissəsinin tədqiqi və digər mənbələrlə müqayisəsi n\ticəsində məlum oldu ki, çox hörmətli şeyxlərdən sayılmış Əbu Tahir əl-Siləfinin (1085-1180) hədis toplamaq həvəsi ilə səyahət etdiyi şəhərlərdən biri də Naxçıvan olmuşdur [17, 358 ص.].

Əbu Tahir əs-Siləfi Naxçıvana səyahəti zamanı əl-Müfərric ən –Nəşəvi ilə görüşmüşdür. Görüşdə əl-Müfərric öz atası "əl-Muşkani" ləqəbli Nəşəvə hafizi Əbu Abdulla və onun şeyxlərinin faydalı fəaliyyəti haqqında danışmışdır. Əs-Siləfi davam edərək yazır ki, Əbu Abdulla Əbül-Müfərric hədis hafizlərindən və fəqihlərin əyanlarından olmuşdur. Daha sonra əl-Müfərric ən-Nəşəvi Əbül-Abbas ən-Nibhani ən-Nəşavi və onun simasında öz şəhərinin şeyxləri haqqında onu məlumatlandırmışdır. Əs-Siləfi demək olar ki, bir əsr ömür sürmüş, sinli yaşında - 95 yaşında vəfat etmişdir [2, s.27]. Lakin onun ölkələri dolaşdığı vaxtın 1117-ci

ilə qədər davam etdiyini nəzərə alsaq, Əbu Abdullanın XI əsrin sonu və ya XII əsr əvvəllərində yaşadığını qəbul etmək mümkündür.

Yaqut əl-Həməvi Qəbələ şəhərinə aid edilən və əl-Qəbəli nisbəsi ilə tanınan Əbu Bəkr Muhəmməd ibn Ömər ibn Hafs əl-Hökm əs-Suğri haqqındakı məlumatı əs-Səmanidən götürdüyünü qeyd etmədiyinə görə ilk baxışdan əl-Qəbəlinin onunla bir vaxtda yaşayıb fəaliyyət göstərdiyi qənaətinə gəlmək olar. Lakin əs-Səmaninin "əl-Ənsab" əsəri ilə müqayisəsi nəticəsində məlum oldu ki, əs-Səmaninin məlumatı Yaqutun məlumatına nisbətən daha genişdir. Bununla bərabər bu arada daha bir məlumatı da dəqiqləşdirə bildik. Yaqut məlumat verir ki, əl-Qəbəli indi haldan düşmüşdür (qocalmışdır-N.Ə.). Lakin bu məlumatın hansı mənbədən götürdüyünü göstərmir. Əs-Səmani isə yazır ki, bu məlumat əd-Daraqutniyə məxsusdur. Nəzərə alsaq ki, əd-Daraqutni (ö.385/995) X əsrdə yaşamışdır, onda bu şəxsiyyətin də X əsr alimlərindən və ya bəlkə də ondan da əvvəl olduğu qənaətinə gəlmək olar. Digər tərəfdən əs-Səmani "Qəbəli" nisbəsinin hansı şəhərə mənsubluğunu verərkən çətinlik çəkmiş, ya da dəqiqləşdirmə aparmaq məqsədilə bu yerin hara aid edilməsi yerini "....." ağ qoymuşdur. Lakin Yaqut əl-Həməvinin "Mucəm əl-Buldən" əsəri mədəniyyət tarixindən daha çox tarixi-coğrafi əsər olduğuna görə o, bu yeri dəqiqləşdirərək buranın Qəbələ şəhəri olduğunu göstərir və onun Dərbənd yaxınlığında Ənuşirvanın atası Qubad şah tərəfindən əsası qoyulmuş qədim şəhər kimi təqdim edir.

Başqa bir alim Əbu Bəkr Əhməd ibn Harun ibn Ravh əl-Bərdicini Yaqut əl-Həməvi hafiz (Quranı əzbər yadında saxlayan) adlandırmışdı. Yaqut əl-Həməvi Həmzə ibn Yusif əs-Səhminin dili ilə əd-Daraqutniyə əsaslanaraq inamı dağ kimi olan Əbu Bəkr Əhmədi hədis elminin dayaqlarından hesab etmişdir. O, h.301-ci il ramazan ayında (914 cü il mart/aprel) vəfat etmişdir. Əbu Bəkr Harunun nisbəsini dəqiqləşdirmək üçün Əl-Hakim Əbu Abdulla və əs-Səmaniyə müraciət edərək müqayisələr apardıq. Burada qeyd etmək yerinə düşər kmi, müəlliflər adların və nisbələrin yazılışına və nisbələrin hansı yerə mənsub olmasına xüsusi fikir verirdilər. Yəni adlardakı və ya yer adları yazılarkən hərflərin ərəbcə adları ilə bərabər üzərlərindəki hərəkələr də göstərilirdi. Buna görə də, məsələn, Əhməd ibn Harunun adının bir hissəsi olan əl-Bərdici sözünün yazılışındakı saitlərin adları yazılandan sonra bu sözün hansı yer adından götürüldüyü açıqlanır. Əbdulkərim əs-Səmaninin verdiyi məlumata görə Azərbaycanın uzaq şəhəri olan Bərdiclə Bərdə arasındakı məsafə 14 fərsəxdir (təqribən 90-100 km.-N.Ə.). Bağdaddakı Dəclə çayı kimi böyük olan Kür adlı çayla əhatə olmuşdur. Həmin məlumatdan Yaqut əl-Həməvi də öz coğrafi lüğətində istifadə etmişdir. Bu informasiyanın mənbəyi isə Əbu Bəkr Muhəmməd ibn Əli əs-Sabuni əl-Bərdəinin əsəridir. Əs-Səmani yazır: "Əbu Bəkr Muhəmməd ibn Əli əs-Sabuni əl-Bərdəinin belə dediyini eşitmişəm: "Mən ondan Bərdə və Bərdic haqqında soruşanda dedi: "Bərdədən Bərdicə 14 fərsəxdir, Bərdicin kənarından Bağdaddakı Dəclə kimi böyük olan Kür çayı axır" [15, 329 ص.].

Əs-Səmani onu Nişapurlu Hafiz də adlandıraraq 10-a qədər alimdən dərs aldığını vurğulayır. Onların arasında Əbu Zər'a əd- Diməşqi (ö.281/894), Nasr ibn Əli əl- Cəhdami kimi alimlər olmuşdur. Əs-Səmani qeyd edir ki, X əsrin ilk illərində yəni h.303(915)-cü ildə ruhani rəhbərimiz (məşəyixunə) Əbu Hafiz Əbu Əli (yəni İbn Makula-N.Ə.) Məkkədə Əbu Bəkr əl-Bərdicinin mühazirələrini dinləmişdir. Müəllif hesab edir ki, o, Məkkə yaxınlığında qalmış, orada da vəfat etmişdir. "Alimlər arasında onun haqqında geniş bilgi olmuşdur" ifadəsi isə elm aləmində bu şəxsiyyətin böyük nüfuzu olması qənaətinə gətirir. "Əl-Ənsab" əsəri onlardan Əbül-Abbas əl-Valid ibn Bəkr əl-Əndəlusini misal gətirir. Hafiz Əbu Abdulla əl-Hüseyn ibn Abdulla ibn Bukeyr demişdir: "Öyrəndim ki, bəzi hafizlər Əhməd ibn Harunun Bərdəli olmasını inkar edirlər, o bərdəli bərdiclidir. Ondan hədis öyrənən bir çoxları, o cümlədən Əbu Şeyx əl-İsfahanı onu bərdəli kimi qələmə verir". Bizcə, onun nisbəsi haqqında daha doğru məlumatı Əl-Hakim Əbu Abdullanın (ö. h.405/1095) "Nişapur tarixi" əsərində tapmaq olar. Nişapurlu hafiz Əbu Abdulla qeyd edir ki, Azərbaycandan olub Bərdə və Bərdic şəhərlərinin hər ikisini nisbə kimi götürmüş fiqh alimi Əbu Bəkr Əhməd ibn Harun ibn Ravh Əl-Bərdəi əl-Bərdicinin anadan olduğu yeri Bərdic hesab etmək olar. Bərdə şəhəri isə Arranın paytaxtı kimi tanınmış şəhər olduğu üçün bu şəhərin adını da alim özünün ikinci nisbəsi kimi qəbul etmişdir.

Azərbaycanlı alim İbrahim ibn Muhəmməd əl-Cənzi haqqında bəhs edn Əs-Səmani bu nisbənin Cənzəyə (Gəncə-N.Ə.) aid olduğunu qeyd edir [16, 127 ص.].

Əs-Səmaniyə görə "hədisin mənaları haqqında yazmış İbrahim əl-Cənzi şafii məzhəbli fəqihdir. Ləyaqətlidir. İki ildir ki, vətəninə getmişdir. Onun vəfat etməsi xəbəri mənə çatıb". İbn Makula da bu şəxs haqqında eyni məlumatı verir [13, 49 ص.].

Hər iki müəllif bunu əd-Daraqutnidən (918-995) əxz etdiklərini yazırlar. Buna görə də İbrahim ibn Muhəmməd əl-Cənzinin X əsrdə yaşayıb yaratdığını qəbul etmək olar.

Beləliklə, Yaqut əl-Həməvinin məlumatlarını əsas götürməklə, Əs-Səmani, İbn Makula, əs-Siləfi, əl-Hakim Əbu Abdulla, əd-Daraqutni kimi ərəbdilli bioqrafik mənbələrin yazdıqlarını da nəzərə almaqla, bəzi azərbaycanlı alimlər haqqında məlumatları dəqiqləşdirmək mümkün oldu.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahsı:

1. Əliyeva N.A. Azərbaycan Yaqut əl-Həməvinin əsərlərində, Bakı, 1999.
2. Əliyeva N.A. Əbu Tahir əs-Siləfi və Şirvanın bəzi görkəmli şəxsiyyətləri // Azərbaycan Tarixi Muzeyi – 2006.
3. Əliyeva N.A. Əbdülkərim əs-Səmani və onun elmi irsi // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 2005, № 5, 6.

4. Əliyeva N.A. İbn Makula (1030-1082) və onun "əl-İkməl" əsəri // Azərbaycan Tarixi Muzeyi-2008.
5. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, 1977.
6. Ахмед ибн Лютфуллах (Мунаджим баши) «Джами ад-Дувал» Ибн ал-Азрака ал-Фарики из «Истории Маяфаррикина» // Труды института истории. XII т. Баку: 1957.
7. Бартольд В.В. Очерк истории туркменского народа // Туркмения, т. 1. Л., 1929.
8. Крачковский И.Ю. Арабская географическая литература. Избр. соч., т. IV. М-Л., 1957, т.4.
9. Фильштинский И.М., Шидфар Б.Я. Очерк арабо-мусульманской культуры. М., 1971, III т.
10. Jakut's Moschtarik, das ist Lexicon geografische Homoniyme. Aus den Handschriften zu Wien und Gotting, 1846.
11. ابن الاثير كتاب الكامل فى التاريخ.الجلد الثالث. بيروت، ١٩٨٠.
12. ابن ماكولا .الاكما ل. الجلدالاول . بيروت،١٩٩٠
13. ابن ماكولا .الاكما ل. الجلدالثالث . بيروت،١٩٩٠
14. القلقشندى ابو العباس. صبح الاعشى، الجلد الرابع.
15. السمعانى ابوسعد عبد الكريم ابن محمد. الانساب. ۶ ج. ، بيروت،١٩٩٨، الجلد الاول
16. السمعانى ابو سعد عبد الكريم ابن محمد. بيروت .١٩٩٨، الجلد الثالث
17. السلفى ابو طاهر.معجم السفر /mostafa.com .، ص www. ٣٥٨
18. السيوطى جلال الدين عبد الرحمان ابن ابو بكر. نظم العقيان فى اعيان الاعيان
19. ياقوت الحموى. معجم البلدان .بيروت ،١٩٧٧

Nargiz Aliyeva

Role of comparative analysis of sources in clarifying some facts in Azerbaijan's Middle Ages history

Summary

Key words: *Azerbaijan, medieval period, Caliphate, sources, place names*

Both in the medieval and in the modern period of the history of Azerbaijan, the method of comparative analysis has an important role to clarify some data. In the article, on the basis of information provided by sources of the X-XIII centuries, historical data were investigated and compared. As a result, some historical facts were clarified.

Наргиз Алиева

Роль сравнительного анализа в уточнении некоторых фактов по истории средневекового Азербайджана

Резюме

Ключевые слова: *Азербайджан, средневековый период, Халифат, источники*

Как в средневековом, так и в совеменном периоде истории Азербайджана метод сравнительного анализа имеет важную роль для уточнения некоторых данных. В статье, на основе информации, предоставленной источниками X-XIII вв были исследованы и сопоставлены исторические данные. В результате были уточнены некоторые исторические факты по истории

Əli Fərhadov

XX əsrin əvvəlləri Azərbaycan maarifçilərinin yaradıcılığında din və din xadimləri (“Molla Nəsrəddin” jurnalının materialları əsasında)

Açar sözlər: *C.Məmmədquluzadə, “Molla Nəsrəddin” jurnalı, din, missionerlik*

UOT 94 (479.24)

Qeyd edək ki, XIX əsrdə Azərbaycanda islam dininin təsiri güclü olsa da, Mirzə Kazımbəy kimi xristianlığı və ya M.F.Axundov kimi ateizmi seçən ziyalılarımız da olmuşdur. İslama qarşı mübarizə aparan bu kimi mütəfəkkirlərə qarşı cavab verən din xadimlərindən Bakı qazısı Mir Məhəmməd Kərim əl-Bakuvi özünün azərbaycanca ilk Quran təfsirində - “Kəşfül-həqayiq” adlı üççildlik əsərində və müxtəlif çıxışlarında bu məsələyə xüsusi yer ayırmışdır. O, Quranın “Ali-İmran” surəsinin 99-cu ayəsindən hərəkətlə “əhli-kitab”ın (xristian və yəhudilər-Ə.F.) müsəlmanları islamdan uzaqlaşdırmaq üçün Quranda eyib və nöqsan axtardıqlarını yazmış (5, s.240) və “əl-Bəqərə” surəsinin 145-ci ayəsindən hərəkətlə beləlirinə tabe olanları “həvayi-nəfsə tabe olan zalim” adlandırmışdır (5, s.92).

Görkəmli Azərbaycan yazıçısı C.Məmmədquluzadəni də dinlərə, xüsusilə islama baxışına görə ziddiyyətli bir şəxsiyyət saya bilərik. Onun təsisçisi və redaktoru olduğu “Molla Nəsrəddin” jurnalında dini mövzular tənqidi maarifçilik baxımdan geniş təhlil edilmişdir. Jurnalın 1901, 1911-1914, 1923-1930-cu il nömrələri Milli Azərbaycan Tarixi Muzeyi kitabxanasının fondunda № 47-də mühafizə edilir (13).

C.Məmmədquluzadə yaradıcılığının ilk dövründə açıq-aşkar islam əleyhdarlığı içində olmayıb, hətta “Baş yarmaq” (3; 17, s.134-136), “Qayırma hədislər” (11; 17, s.160-161), “Orucu batil eyləyən şeylər” (43; 17, s.90-93), “Hicab məsələsi və cavabımız” (40; 37, s.490-495), “Niyə məni döyürsünüz?” (46; 2, s.211), “Məscidlərimiz” (42; 2, s.222) və s. məqalələrində islamla yox, din pərdəsi altındakı xurafat və mövhumatla, qadınları din adı altında əsarətdə saxlayanlarla mübarizə apardığını qeyd etmiş, müsəlmanların cahil və nadan ruhanilər tərəfindən istismarına qarşı çıxmışdır. C.Məmmədquluzadə dini maarifçilik baxımından

müsbət addım olan hicab məsələsini də jurnalın səhifələrində izah etmişdi. O, - "Ey nadan mollaların sözünə qulaq asıb məndən bir neçə günlüyə üz çevirən camaat! Görürsüz, nə qədər böyük müctəhidlər və alimlər üz açmağın caiz olmağını yazırlar. Biz də məsələni ixtilaflı bilib üz açmağın caiz olmağını yazdıq. Hətta bu xüsusda da Qurani-Kərimdən dəlil gətirdik", deyərək Quranın "Nur" surəsi 31-ci ayəsindən hərəkətlə qadının əl və üzünü örtməsinin məcburi olmadığını, bunu məcbur edənlərin isə şəriətdən bixəbər, "ruhani dərisindəki qurd" olduqlarını, xalqı aldatdıqlarını göstərmişdi (40; 37, s.490-495).

Lakin onun və baş redaktoru olduğu "Molla Nəsrəddin" jurnalının satira istiqamətli dil üslubu və dini məsələlərə çox vaxt birtərəfli yanaşması cəmiyyətdə ona qarşı mövqelərin müxtəlifliyinə səbəb olmuşdur. Məsələn, 1910-cu illərdə Bibiheybət ziyarətgahını özlərinin gəlir mənbəyinə çevirən "Nəcəf uşaqları"nın bu əməlinə qarşı mübarizə aparan əl-Bakuvinin (9; 14) fəaliyyəti "Molla Nəsrəddin" jurnalı tərəfindən qazının ziyarətgahın gəlirini mənimsəmək istəməsi şəklində qələmə verilmişdi (38; 17, s.479-481). Yenə "Molla Nəsrəddin" jurnalı "Biz" məqaləsində əl-Bakuvi kimi dəyərli din xadimlərini "Bir millətin ki, üləmasının başçısı ola ...Ağa Mir Kərim.. - o millətin içi boşdur" (39; 17, s.485-486) şəklində təhqir edir, onların karikaturalarını öz səhifələrində dərc edirdi (10; 37, s.668-669). Yenə "Molla Nəsrəddin"də müsəlman qəbristanlığının rus hökuməti tərəfindən sökülmək istənməsi məsələsində qazı əl-Bakuvi günahkar sayılırdı (44; 17, s.234-235).

Əl-Bakuvinin "Kəşfül-həqayiq" əsərində şəriətin zina cəzasını izah edən sözləri (6, s.587) C.Məmmədquluzadə tərəfindən xalqın tərbiyəsinə vurulan zərbə kimi qiymətləndirilir, bu əsəri nəşr etdirən görkəmli xeyriyyəçi H.Z.Tağıyev tənqid edilirdi (30; 17, s.487-490). "Molla Nəsrəddin" jurnalında əl-Bakuvi də bu sözlərlə günahlandırılırdı: "Müqəddəs bir kitabın səhifələrində ... sözləri yazıb çapa vermək – qələm zinasıdır" (45; 17, s.487-490).

Əl-Bakuvinin nəinki zina, hətta ən adi yad kişi-qadın münasibətlərinin qadağan olduğu və qətl kimi ağır bir cəza ilə cəzalandırıldığı müsəlman cəmiyyətində baş verə biləcək sui-istimalların qarşısını almaq və əslində xalqı maarifləndirmək üçün ortaya qoyduğu bu fiqhi məsələ əslində elə peyğəmbərin hədislərində və uzun əsrlər boyu fəqihlərin əsərlərində geniş izah edilmişdi. Əl-Bakuvi isə sadəcə bu məsələyə öz təfsirində yer verməklə azərbaycanlı oxucuları bu sahədə dini baxımdan şüurlandırmaq qayəsini güdmüşdü. "Nur" surəsinin ilk ayələrində Quran açıq-aşkar şəkildə zinanı qadağan etməklə yanaşı hər hansı bir insana zinakarlıq isnadını edənləri də bunu sübut edə bilmədikləri təqdirdə cəza ilə hədələyir və cəmiyyətdən təcrid edilməsinə çağırır (12). Quranın bu ağır hökmlərini izah edərək və III xəlifə Ömərin dövründə baş verən bir zina hadisəsini konkret nümunələrlə misal gətirərək müsəlmanları islam hüququnun bu çətin məsələlərini başa salan müəllifin bu xeyirxah və maarifləndirici əməli "Molla Nəsrəddin" tərəfindən müəllifə qarşı təhqir obyektinə çevrilir və müsəlmanları qızlarını oxutmamağa sövq etməyə xidmət

edirdi. Məhz bu kimi təhqiramiz hərəkətlərinə görə jurnal və bu jurnalı oxuyanlar əl-Bakuvi tərəfindən kafir elan edilmişdi (21; 17, s.174-175; 7; 37, s.502).

C.Məmmədquluzadə "Müəllimlər" (24; 7, s.312-313), "Zina" (30), "Zarafat" (29), "Batdağ" (16) və s. məqalə və felyotonlarında Ə.Ağaoğlu, Hacı Məcid, əl-Bakuvi, Əbu Turab, Axund Yusif Talıbzadə kimi islam maarifçilərini təhqir edir, "çəyirtkə" adlandırır (17, s.225-226), qəzet sütunlarında bu kimi din xadimlərinə yer ayrılmasına etiraz edir (19, s.67), X.Əlibəyova, M.Əlibəyov kimi ziyalılara sataşıb (15) onların karikaturasını çəkdirir (34), H.Z.Tağıyevlərə yaltaqlıqda, "çəkməsilən"likdə günahlandırır (23), islamçılığa, dini ibadətlərə, fiqhi məsələlərin izahına qərəzli və istehza ilə yanaşırdı. Bütün bu kimi təhqirlər Ağa Əlizadə kimi bir çox görkəmli din xadiminin (4, s.174) və "İşıq" qəzetinin etirazlarına (8; 35; 36), Bakı ruhanilərinin ondan Qafqaz canişininə şikayət etməsinə səbəb olmuş (47, s.109-110), iraqlı Nəcəf müctəhidlərinin (47, s.116-117), qazı əl-Bakuvinin (20) və başqalarının onu küfrlə ittiham etməsi ilə nəticələnmişdi (48). Y.V.Çəmənzəminli kimi ziyalılar da "Bəy, insan xalqını bu qədər aşağılamaz" – deyərək C.Məmmədquluzadəni tənqid edirdilər (49).

Qeyd edək ki, C.Məmmədquluzadədən narazı olanlar sadəcə müsəlman din xadimləri deyildi. Bəhai dini icmasının nümayəndələri də C.Məmmədquluzadə bəhailiyə istehza etdiyi üçün (47, s.135), özlərinin dini rəhbəri Əbdülbəhanın bir oğlan uşağı ilə guya əylənib, bu şəkildə ibadət etdiyini yazıb, karikaturasını çəkdirdiyi üçün C.Məmmədquluzadədən məhkəməyə şikayət etmişdilər (32; 47, s.129, 133, 137). Bəhailərin məhkəməyə etirazı nəticəsində "Molla Nəsrəddin" jurnalının redaksiyası 400 rubl məbləğində cərimə edilmişdi (47, s.143). O dövrün "Turkestanskiye vedomosti", "Zakavkazye" kimi qəzetlərində də "Molla Nəsrəddin"in bütün din və məzhəblərə düşmən olduğu qeyd edilmişdi (47, s.137).

Əl-Bakuvinin və digər din xadimlərinin C.Məmmədquluzadəni küfrlə ittiham etməsi subyektiv hərəkət kimi görünsə də, C.Məmmədquluzadənin "İşıq", "Füyuzat", "Həyat" kimi qəzet-jurnalları islamı təbliğ etməkdə günahlandırması (31, s.10), namaz, oruc kimi ibadətlərin, ümumiyyətlə şəriətin insanlığa zərərli olmasını ifadə etməsi (31, s.35, 39, 43; 41; 18, s.6-9), müsəlmanların cəhalət və fəlakət içində qalmasının səbəbini islamda görməsi, ruhaniliyi maarifçiliyə zidd sayması (28; 31, s.29), "Molla Nəsrəddin"in 1909-cu il 29-cu nömrəsində yazdığı kimi "mollaya dolaşması, seyidi pisləməsi, cənnətə, cəhənnəmə, axirətə əl uzatması" (22; 31, s.15), hətta daha sonralar Allahı, məscidləri açıq-aşkar təhqir və inkar etməsi (26; 27; 18, s.400, 428) onun dinə istehzalı baxışının və özünün də etiraf etdiyi kimi "dinsiz"liyinin nəticəsi idi. C.Məmmədquluzadə açıq-aşkar ateist olduğunu elan etməsə də, onun öz ifadəsilə zamanın şərtləri buna imkan vermədiyi üçün (19) o, islamın əsaslarına hücumla öz qayəsini ortaya qoyurdu və bu fikirlər də dindarlar tərəfindən dinə təhqir kimi qəbul edilirdi.

Qeyd edək ki, dövrün Molla Ruhulla kimi din xadimləri insanların küfrlə

ittiham edilməsini yanlış sayıb, "din və imana qarışmaq kimsənin həddi degil" (33; 1, s.94) deyərək küfr məsələsində fərqli mövqe tutsalar da, Bakı quberniyası müsəlmanlarının ali dini rəhbəri kimi əl-Bakuvinin C.Məmmədquluzadə haqqında öz fikrini bildirməsi onun öz vəzifəsindən qaynaqlanan bir məsələ idi və o, müsəlmanları dini mövzuda maarifləndirməkdə məsul idi.

Dinə baxışında ziddiyyətli mövqe tutmasına, hətta peyğəmbər nəslinin ədalətli hakimiyyət uğrunda məruz qaldığı Kərbəla faciəsini "iki qəbilə rəisinin "portfel" savaşı" (18, s.266-267) adlandırmasına baxmayaraq C.Məmmədquluzadə Azərbaycanın dünyəvi baxımdan maariflənməsi, savadlanması uğrunda mübarizə aparmış, xalqını bu şəkildə milli mübarizəyə səsləmişdi: "Bu gün Kərbəla meydanı – Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır. Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa, – gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur. Bu gün ən böyük ibadət, ən birinci din və vətənpərvərlik oraya kömək etməkdir ki, həm Allah, həm də həzrət Hüseyn razı qalsın" (25; 17, s.355-356).

C.Məmmədquluzadənin yaradıcılığında xristian missionerliyi mövzusu da işlənilmişdir. O, özünün "Molla Nəsrəddin"də çap olunmuş "Misyonerlik" (1921, № 6) adlı məqaləsində çar Rusiyası hökumətinin xristianlığı təşviq və islama düşmənçilik siyasətini geniş işıqlandırmışdı (18, s.60). C.Məmmədquluzadə "Molla Nəsrəddin"dəki "Rus məxrəci" (1917, №16), "Misyonerlik" (1921, № 6), "Misyonerlər" (1908, № 45), "İcazeyi-ittihad" (1908, № 45) adlı məqalələrində qeyd edirdi ki, çarizmin dəstəklədiyi xristian missionerlər "müsəlmanların qanını şişəyə tutmaqda", "bizləri ruslaşdırıb dilimizdən və vətənimizdən bilmərrə (birdəfəlik-Ə.F.) ayırmağa" davam edirlər (17, s.334-335, 434-435; 18, s.28, 60). Dahi mütəfəkkir o dövrdə V.Radlov kimi xristian missionerlərin əlifba islahatı ideyası ilə müsəlmanları öz keçmişlərindən uzaqlaşdırmağa çalışdığını, bəzi azərbaycanlıların isə "rus siyasətindən bixəbər" olduqları üçün bunu müsbət qarşıladığını da yazırdı (19, s.53). Qeyd edək ki, çar hökumətinin məmurları müsəlmanların ana dilində təhsil almasına da məhdudiyyətlər qoyurdu. C.Məmmədquluzadə M.Miropiyev kimi xristian missionerlərinin timsalında çar məmurlarının Azərbaycan dilinin tədris saatlarını azaltdığını, seminariya tələbələrinə öz milli dillərində danışmağı qadağan etməyə cəhd etdiyini yazırdı (13, s.195). O, həmçinin azərbaycanlıların öz dillərində təhsil almaq istəmələrini missionerlərin "axmaqlıq" adlandırdığını göstərirdi (19, s.116). Mütəfəkkir missionerlərin müsəlman şagirdlərini "cəbrən (zorla-Ə.F.) ata-anasının dinindən yadırğadıb İncil və İsa dərsləri ilə beyinlərini laxlatmaq, onları cəbrən xristian ibadətxanasına daxil etmək" istədiklərini də "Molla Nəsrəddin" jurnalının səhifələrində ortaya qoymuşdu (18, s.60). "Molla Nəsrəddin" jurnalında müsəlman qəbristanlığının çar hökuməti tərəfindən sökülmək istənməsi də C.Məmmədquluzadə tərəfindən tənqid edilmişdir (37, s.668-669).

C.Məmmədquluzadə dini azadlıq baxımından şeyxülislam və müftilərin çar

məmurları tərəfindən təyinlə yox, seçimlə işbaşına gəlməsi ideyasını da təklif edirdi. O, özünün "Molla Nəsrəddin" jurnalındakı "Müftilik məsələsi" (1917, № 4) adlı məqaləsində - "Seçki üsulu – müsəlmançılığın tarixinin əvailində (əvvəlində-Ə.F.) başlanıb" deyərək, Quranın "Şura" surəsi 38-ci – "Onların işləri öz aralarında şura (məşvərət) ilədir" ayəsinə işarə edirdi. C.Məmmədquluzadə dinlərarası münaqişə yaradanlara qarşı mübarizə aparır, din azadlığını müdafiə edirdi. Məsələn, o, "Molla Nəsrəddin" jurnalının 20 fevral 1913-cü il, 6-cı nömrəsindəki "Babi" məqaləsində Quranın "əl-Bəqərə" surəsi 256-cı – "Dində məcburiyyət yoxdur" ayəsini nümunə gətirərək insanların dinsiz, dindar və ya istənilən dini, məzhəbi seçmə haqqının olması fikrini müdafiə edirdi. O, öz yaradıcılığında din adı altında xalqı istismar edənləri, 1905-1911-ci illər İran inqilabı dövründə əksinqilabi qüvvələrin babi adı altında inqilabçılara, şah rejiminin əleyhdarlarına necə divan tutduqlarını ifşa edirdi (17, s. 277-278).

Nəticə olaraq deyə bilərik ki, C.Məmmədquluzadə islama baxışında ziddiyyətli fikir sahibi olmasına baxmayaraq, cahil din xadimlərinin müsəlmanları aldatmasına qarşı mübarizə aparmışdır. Həmçinin çar məmurlarının, xristian missionerlərinin müsəlmanları assimilyasiya etmək cəhdinə qarşı çıxmış, dövrün dünyəvi maarifçilik baxımından inkişafında müsbət rol oynamışdır. O, Azərbaycan xalqının milli tərəqqisinə "Molla Nəsrəddin" jurnalı vasitəsilə öz töhfəsini vermişdir. Onun əsərlərinin tədqiqi dövrün ictimai təhlilində və dini radikalizmə qarşı mücadilədə böyük əhəmiyyətə malikdir, daim tədqiq və təbliğ edilməlidir.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:

1. Axundov M. Şəhidi-mərhumi-fazil əl-Hac Molla Ruhullah Axundun əhvalatına dair məcmuədir. Bakı, 1913.
2. Azərbaycan publisistikası antologiyası. Tərtib edəni: C.Bəydilli (Məmmədov). Bakı, 2007.
3. Baş yarmaq // "Molla Nəsrəddin", №6, 10 fevral 1907.
4. Cümhuriyyətin və sovet dövrünün şeyxülislamı. Redaktor və Ön sözün müəllifi: Şeyxülislam Allahşükür Paşazadə. Bakı, 2011.
5. Əl-Bakuvi, Kəşfül-həqayiq. 3 cilddə, I cild, Tiflis, 1904.
6. əl-Bakuvi. Kəşfül-həqayiq. 3 cilddə, II cild, Tiflis, 1904.
7. Hikmətli sözlər // Molla Nəsrəddin, 1906, № 24.
8. İdarədən itizar. "İşıq" qəz., 1911, 23 iyul.
9. İlkin Q. Bakının üç üləması. "Ədəbiyyat və İncəsənət" qəz., 1990, 24 avqust.
10. Karikatura // Molla Nəsrəddin, 1907, № 45.
11. Qayırma hədislər // Molla Nəsrəddin №16, 21 aprel 1907.
12. Qur`ani-Kərim (Ərəb dilindən tərcümə edənlər: Ziya Bünyadov, Vasim Məmmədəliyev), Bakı, 1991.
13. "Miropiyev M.A." // Cəlil Məmmədquluzadə Ensiklopediyası. Bakı, 2008.

14. Məhəmmədsadıq A. Bibiheybət ziyarətgahı. "Günəş", 3 dekabr 1910, № 83.
15. Məmmədquluzadə C. "İşıq" // Molla Nəsrəddin, № 12, 1911.
16. Məmmədquluzadə C. Batdağ // Molla Nəsrəddin, 1907, № 43.
17. Məmmədquluzadə C. Əsərləri, II cild. Bakı, 2004.
18. Məmmədquluzadə C. Əsərləri, III cild. Bakı, 2004.
19. Məmmədquluzadə C. Əsərləri. IV cild. Bakı, 2004.
20. *Məmmədquluzadə C.* Qafqaz şeyxül-islamına iki dənə açıq məktub // Molla Nəsrəddin, №22, 1907.
21. *Məmmədquluzadə C.* Müftilik məsələsi // Molla Nəsrəddin, № 4, 1917.
22. Məmmədquluzadə C. Molla Nəsrəddin // Molla Nəsrəddin, № 29, 1909.
23. Məmmədquluzadə C. Mustafabəy Əlibəyov // Molla Nəsrəddin. № 28, 1911.
24. Məmmədquluzadə C. Müəllimlər // Molla Nəsrəddin, №36, 1908.
25. Məmmədquluzadə C. Necə qan ağlamasın daş bu gün, qırxılır gör neçə min baş bu gün // "Molla Nəsrəddin", № 2, 1909.
26. Məmmədquluzadə C. Pillə-pillə // Molla Nəsrəddin, № 1, 1929.
27. Məmmədquluzadə C. Allahı "çistka" etmək olarmı? // Molla Nəsrəddin, № 37, 1929.
28. Məmmədquluzadə C. Tacül-hac // Molla Nəsrəddin, № 25, 1910.
29. Məmmədquluzadə C. Zarafat // Molla Nəsrəddin, № 16, 1907.
30. Məmmədquluzadə C. Zina // Molla Nəsrəddin, №25, 1911.
31. Məmmədov M. C.Məmmədquluzadə din və mövhumat əleyhinə. Bakı, 1962.
32. "Molla Nəsrəddin", № 20, 1913.
33. Molla Məhəmmədzadə A.M.R. İkisinə bir daş. "Həyat" qəz., 1906, 17 fevral.
34. Molla Nəsrəddin, № 18, 1911.
35. Molla Nəsrəddin. "İşıq" qəz., 23 aprel, 1911.
36. Molla Nəsrəddinə cavab. "İşıq" qəz., 28 may, 1911.
37. Molla Nəsrəddin. 10 cilddə. I cild. Tərtib edən. T. Həsənzadə. Bakı, 1996.
38. Molla Nəsrəddin. Bibiheybət ziyarətgahı // "Molla Nəsrəddin", №1, 1911.
39. Molla Nəsrəddin. Biz // Molla Nəsrəddin, № 14, 1911.
40. Molla Nəsrəddin. Hicab məsələsi və cavabımız // Molla Nəsrəddin, №23, 1907.
41. Molla Nəsrəddin. İdarədən // Molla Nəsrəddin, № 1, 1917.
42. Molla Nəsrəddin. Məscidlərimiz // Molla Nəsrəddin, № 34, 1906.
43. Molla Nəsrəddin. Orucu batil eləyən şeylər // Molla Nəsrəddin, №30, 1906.
44. Molla Nəsrəddin. Ölülər // Molla Nəsrəddin, №46, 1907.
45. Molla Nəsrəddin. Zina // Molla Nəsrəddin, №25, 1911.
46. Niyə məni döyürsünüz? // Molla Nəsrəddin, № 4, 1906.
47. Paşayev A. Molla Nəsrəddinin dostları, düşmənləri. Bakı, 2010.
48. Hacıbəyov Ü. Vladiqafqaz camaatına bir də açıq məktub. http://uzeyir.musigi-dunya.az//az//publicism_112.html

49. Herisçi H. Mən "Molla Nəsrəddin"çiləri şarlatan sayıram. http://www.azadliq.org//content//article//24945296.html

Али Фархадов

Религии и религиозные деятели в творчестве азербайджанских просветителей начала XX века (на материалах журнала «Молла Насреддин»)

Резюме

Ключевые слова: *Дж. Мамедкулизаде, журнал «Молла Насреддин», религия, миссионерство*

В статье анализируются религиозные взгляды Дж. Мамедкулизаде, его противодействие невежественным религиозным деятелям и христианским миссионерам на примере борьбы журнала «Молла Насреддин», учредителем и редактором которого он был, с религиозными предрассудками и мракобесием. Отношение к этому вопросу нашло отражение и в трехтомном труде «Открытие истины» («Кашфуль-хагаиг») и многочисленных выступлениях кадия Баку Мир Мухаммеда Керима аль-Бакуви. В статье использованы экземпляры журнала, хранящиеся в фонде библиотеки Национального Музея Истории Азербайджана.

Ali Farhadov

Religion and religious figures in the writings of Azerbaijani enlighteners of early 20th century (on the basis of the materials of "Molla Nasraddin" journal)

Summary

Keywords: *J.Mammadguluzadeh, journal "Molla Nasraddin", religion, missionary*

The article analyzesJ.Mammadguluzadeh's religious stance and struggle against ignorant pious figures and Christian missioners in the example of the journal "Molla Nasraddin" which was founded and edited by him to fight against religious superstition and obscurantism in early 20th century. The first Koran tafsir (commentaries) in Azerbaijani – three-volume "Kashfyul-hagayiq" - and various speeches of Baku ghazi Mir Mahammad Kazim al-Bakuvi, one of the religious figures of the time make reference to these issues. The article used the copies of the journal protected in the library fund of the National Museum of History of Azerbaijan.

İlqar Hacıyev

Bakı neft sənayesində tibbi-sanitar işin təşkilinə dair (“Neftyanoe delo” qəzetinin materialları əsasında)

Açar sözlər: *Bakı, neft sənayesi, “Neftyanoye delo”, tibb, sanitariya.*

UOT 94(479.24)

XIX əsrin sonunda Bakı neft sənayesi sürətlə inkişaf etsə də, burada çalışan fəhlə və qulluqçuların həyat şəraiti acınacaqlı vəziyyətdə olaraq qalır, onların məişət və iş şəraitinin yaxşılaşdırılması, sosial problemlərinin həlli istiqamətində işlər görülmürdü.

Bakının mədən-zavod rayonunda tibbi xidmət də zəif təşkil olunmuşdur. Fəhlə və qulluqçular müxtəlif təsirlərin altında tez-tez xəstələnir, onların əksəriyyəti tibbi müayinə və müalicədən kənarda qalırdı. Bu məqalədə də XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakı neft sənayesində tibbi-sanitar işin təşkili məsələləri tədqiq olunmuşdur.

Mövzu tədqiq olunarkən Bakı neft sənayeçiləri qurultayı Şurasının orqanı olan, 1899-1920-ci illərdə nəşr edilmiş “Neftyanoye Delo” qəzetinin materiallarından mənbə kimi istifadə olunmuş, bu qəzetin materialları ilə yanaşı digər ədəbiyyat və mənbələrə də istinadlar edilmişdir.

XIX əsrin sonunda Bakının mədən-zavod rayonunda tibbi-sanitar işin vəziyyəti qənaətbəxş deyildir. Mədən və zavodlarda ilkin tibbi yardım üçün vasitələr olmamış, həkim və feldşer saxlanılmamışdır. Yalnız bəzi iri firmaların daimi həkim və feldşerləri olmuşdur[1,v.334].

Balaxanıda yaşayan və fərdi qaydada xəstə qəbul edən həkim M.P.Zaxarbekov 1887-ci ildə Nobel qardaşları, Xəzər-Qaradəniz firmasının, Tsaturov, Liazanov və Şibayevin fəhlə və qulluqçularının daimi müalicəsini öz üzərinə götürmüşdür[4;5].

Benkendorf ticarət evinin və Muromtsevin mədənlərində daimi həkim və feldşerləri vardır[16,s.187].

Nobel qardaşları firmasının daimi həkim heyəti və apteki olan xəstəxanası,

şirkətin Balaxanı mədənlərində daimi feldşeri olan qəbul məntəqəsi olmuşdur. 1889-cu ildən isə Bakı şəhər xəstəxanası yanında Lyudviq Emanuiloviç Nobel adına palata təşkil olunmuşdur[9,s.134-135]. Həmçinin 1892-ci ildə Qaraşəhərdə vəba epidemiyası zamanı firmanın xüsusi barakı fəaliyyət göstərmişdir[36,s.314].

27 dekabr 1888-ci ildə şəxsi təşəbbüslər əsasında mədənlərdə10 çarpayılıq müalicəxana açılmışdır. 1 yanvar 1889-cu il tarixə olan məlumata görə, bu müalicəxananın təşkilində faktiki olaraq 23 firma iştirak etmişdir[39,s.95-96].

Neft sənayesi fəhlə və qulluqçularına tibbi yardımın təşkili Bakı neft sənayeçilərinin ilk qurultayının 6 noyabr 1884-cü ildə keçirilən X iclasında müzakirə olunmuş, bu işin təşkili barədə müxtəlif fikirlər səsləndirilmişdir[38,s.270-275].

1 may 1893-cü ildən başlayaraq qurultay hasil etdiyi neftin hər puduna görə firmalardan rüsum toplamağa başlamışdır. Bu da qurultaya təsərrüfat fəaliyyəti ilə məşğul olmaq imkanı vermişdir[17,s.65]. Həmin il Bakı neft sənayeçiləri qurultayı Şurasının Balaxanıda mədən xəstəxanası (mənbələrdə, ədəbiyyatda, eləcə də "Neftyanoye Delo" qəzetində Sabunçu xəstəxanası, Balaxanı-Sabunçu xəstəxanası da adlandırılır), 1894-cü ildə isə Qaraşəhərdə xəstəxanası açılmışdır. 1898-ci ildən Qaraşəhər ambulatoriyası fəaliyyətə başlamışdır. Bu ambulatoriya əvvəllər Nobel qardaşları firması tərəfindən saxlanılmış, sonuncu bu ambulatoriyanı saxlamaqdan imtina etdikdən sonra ambulatoriya Tatosov zavoduna köçürülmüş və qurultayın sərəncamında olmuşdur[3,s.232]. Həmin il ümumilikdə qurultayın 2 xəstəxana və 4 ambulatoriyası fəaliyyət göstərmiş, il ərzində qurultayın Balaxanı mədən və Qaraşəhər xəstəxanalarında 2984 stasionar xəstə olmuş, Balaxanı, Qaraşəhər, Ağşəhər və Bibiheybət ambulatoriyalarına 40384 xəstə müraciət etmiş, eləcə mədən həkimləri tərəfindən xəstələrə evdə 6448 dəfə baxılmışdır[41,s.155-156; 42,s.201].

1899-cu ilin əvvəlində Balaxanı mədən xəstəxanası əvvəlkinə nisbətən daha yaxşı təchiz olunmuş yeni binaya köçürülmüşdür. Xəstəxana xəstələr üçün 5 barakdan, 6 korpusdan ibarət idi. Xəstəxana yanında 3 kabinetdən və gözləmə zalından ibarət olan ambulatoriya və aptek də vardır. Xəstəxananın ümumi ərazisi təqribən 2 desyatin idi.

"Neftyanoye Delo" qəzetində göstərilir ki, bu xəstəxana yanındakı ambulatoriyadan əlavə hər birinin ödənişsiz dərman verəcək apteki olan Balaxanıda köhnə mədən xəstəxanasının yaxınlığında Nəcəf-Quli İbrahimovun evində və Sabunçuda Bakı neft sənayeçiləri qurultayına məxsus binada ambulatoriyalar fəaliyyət göstərəcəkdir.

Beləliklə, 1899-cu ilin əvvəlində mədənlərdə Bakı neft sənayeçiləri qurultayının 100 çarpayıdan ibarət mədən xəstəxanası və 7 həkimin çalışdığı 3 ambulatoriya mədən əhalisinə xidmət göstərəcəkdir[8,s.6-7].

Lakin "Neftyanoye Delo" qəzetinin 1899-cu ildə dərc olunmuş 1-14-cü nömrələrində Bakı neft sənayeçiləri qurultayı Şurasının kontorunun elanlarından məlum olur ki, avqust ayına olan məlumata görə mədən əhalisinin ambulator xəstələri

2 punktda – Balaxanı mədən xəstəxanası yanında və Nəcəf-Quli İbrahimovun evində yerləşən Balaxanı ambulatoriyasında qəbul olunmuşdular[19].

Bakı neft sənayeçiləri qurultayının Qaraşəhər ambulatoriyası 1899-cu ilin əvvəlində Tatosov zavodu yanındakı tikilidən Qaraşəhərdə Musa Nağıyevin binasına köçürülmüşdür[18].

Balaxanı-Sabunçu xəstəxanasında 1899-cu ilin ilk yarısında xəstələr aşağıdakı sayda olmuşdur:

aylar	ambulator xəstələr	stasionar xəstələr	evdə baş çəkilən xəstələr	stasionar xəstələrdən ölənlər
yanvar	3578	228	624	12
fevral	3865	247	482	12
mart	4992	318	495	10
aprel	4453	343	528	14
may	5622	361	648	8
iyun	5478	373	385	13

Cədvəl “Neftyanoye Delo” qəzetinin aşağıdakı materialları əsasında tərtib olunmuşdur : [42,s.202;43,s.261; 44,s.352; 45; 46,s.568; 47,s.616].

17 fevral 1900-cu ildə Bakı neft sənayeçiləri qurultayının Ramanada Mitrofanovun emalatxanasının yanında qurultaya məxsus binada ambulatoriyası açılmışdır[14,s.1; 20].

1900-cu il ərzində qurultayın zavod-mədən ərazisində aşağıdakı məntəqələri: 110 çarpayılıq Balaxanı-Sabunçu mədən xəstəxanası və həmin xəstəxana yanında ambulatoriya və aptek, Qaraşəhərdə 30 çarpayılıq xəstəxanası, Balaxanı, Qaraşəhər, Ağşəhər, Bibiheybət və Ramana ambulatoriyaları fəaliyyət göstərmişdir[24,s.539].

Həmin ilin ilk 4 ayı ərzində orta hesabla gündəlik Balaxanı-Sabunçu xəstəxanasında 114, Qaraşəhər xəstəxanasında 28, Balaxanı-Sabunçu xəstəxanası yanında ambulatoriyada 161, Bibiheybət ambulatoriyasında 85, Qaraşəhər ambulatoriyasında 82, Ağşəhər ambulatoriyasında 64, Balaxanı ambulatoriyasında 51, Ramana ambulatoriyasında 41 nəfər xəstə olmuşdur[48,s.547-548].

Bakı neft sənayeçiləri qurultayı Şurasının xəstəxana və ambulatoriyalarında yalnız neft rüsumu ödəyən firmaların xəstələri pulsuz müalicə olunurdular. Neft rüsumu ödəməyən firmaların fəhlələri isə ödəniş əsasında müalicə edilirdi. Hər iki halda, xəstələr ambulatoriyalarda müalicə üçün işlədikləri firmanın kontorundan order gətirməli idilər[15,s.321-322].

Həmçinin qurultayın xəstəxana və ambulatoriyalarında kasıb qismində müalicə olunanlar da olurdu. Lakin qurultayın qərarına əsasən onların sayı xəstəxanada olan xəstələrin sayının 10%-ni keçməməli idi[10,s.47; 28.s,9].

Mexaniki zavod xəstə fəhləyə xəstəxanaya bir dəfə getməsi üçün order verirdi. Baxmayaraq ki, elə xəstələr olurdu ki, onlar sağalmaları üçün xəstəxanaya bir neçə dəfə getməli idilər. Misal üçün, “Neftyanoye Delo” qəzetində göstərilir ki, sifilis xəstəsinə hər gün dərialtı iynə vurulması lazım idi. Belə olan halda xəstə ya öz hesabına müalicə olunur, ya da ki müalicədən imtina etmək məcburiyyətində qalırdı. Adətən ambulatoriya belə xəstələri kasıb qismində pulsuz müalicə edirdi. Bununla da neft rüsumu ödəməyən firma xəstənin müalicə xərclərini Bakı neft sənayeçilərinin fondunun üzərinə atmış olurdu.

Elə hallar olurdu ki, neft rüsumu ödəməyən firmaların xəstə fəhlələri müalicə üçün müraciət etdikdə onun stasionar müalicəyə ehtiyacı olduğu müəyyən olunurdu. Bəzi neft rüsumu ödəməyən firmalar isə xəstənin stasionar müalicəsindən imtina edirdilər, xəstəni işdən çıxardırdılar. Belə olan halda da həmin xəstələr kasıb qismində pulsuz müalicə olunurdular[15,s.323].

Neft rüsumu ödəməyən elə firmalar vardır ki, fəhlə və işçiləri yalnız iş zamanı xəsarət aldıqda müalicə olunmağı üçün order verirdi. Qalan hallarda xəstə yalnız öz hesabına müalicə olunmalı idi. Onların isə müalicəyə vəsaitləri olmadığı üçün müalicədən imtina edir, ya da kasıb qismində müalicə olunanlar siyahısına düşürdülər.

Neft rüsumu ödəməyən firmaların əksəriyyəti yalnız işçi və fəhlənin özünə müalicəsi üçün order verirdi. İşçi və fəhlənin ailə üzvləri xəstələndikdə aylarla müalicəsiz qalırdı. Onlar xəstəxanaya gələndə artıq müalicə etmək mümkünsüz olurdu. Ailə üzvləri adətən dəfnə görə ölüm kağızı almaq üçün xəstəxanaya müraciət edirdilər[15,s.323].

“Neftyanoye Delo” qəzetində göstərilirdi ki, bu məsələnin ən münasib həll yolu neft rüsumu ödəməyən firmalardan fəhlə və qulluqçularının sayına uyğun olaraq könüllü xəstəlik pulu yığılması idi[15,s.324].

Q.Startsev “Neftyanoye Delo” qəzetində dərc olunmuş məqaləsində göstərir ki, neft rüsumu ödəməyən firmalar fəhlə ağır xəstələndikdə işdən çıxardırdılar. Hətta qanuna görə də firmalar fəhlələrini pulsuz müalicə ilə təmin etməyə borclu idilər[35,s.951].

Bakı neft sənayeçilərinin növbəti XIV qurultayında neft rüsumu ödəməyən firmaların qurultayın tibbi xidmət xərclərində iştirakına cəlb edilməsi məsələsi qaldırılmış, bu məsələni həll etmək zərərçəkmişlərin təminatı məsələləri üzrə işləyən komissiyaya həvalə olunmuşdur. Komissiya isə həmin firmaların tibbi xərclərdə iştirakına dair qaydalar müəyyən etmişdir. Qaydalara əsasən neft rüsumu ödəməyən firmalar əvvəlki ildəki (1 sentyabrdan 31 avqusta qədər olan) fəhlə və işçilərinin sayına uyğun olaraq qurultayın tibbi xərclərində iştirak edəcəkdirlər. Tibbi xərclərdə iştirak edən firmaların nümayəndələrinin qurultay iclaslarında tibbi xərclərin müzakirələrində qurultayın həqiqi üzvü qismində iştirak hüququ olacaqdır[21].

Neft rüsumu ödəməyən firmalar üçün hər bir fəhləyə görə illik 6 rubl ödəniş müəyyən olunmuşdur. Bu ödəniş məcburi olmayıb maraqlı tərəflər arasında

razılaşdırılmaqla könüllü xarakter daşıyırdı. Əgər 1901-ci ildə 3 neft rüsumu ödəməyən firma ödəniş edib qurultayın tibbi xidmətindən istifadə edirdirsə, 1904-cü ildə onların sayı 15-ə yüksəlmişdir. Lakin bu sayda qənaətbəxş deyildir[37,s.2].

1901-ci ildə Bakı neft sənayeçiləri qurultayı Şurasının mədən xəstəxanası yanında ambulatoriyasına 67094, Balaxanı ambulatoriyasına 22543, Ramana ambulatoriyasına 41735, Bibiheybət ambulatoriyasına 28287, Qaraşəhər ambulatoriyasına 33958, Ağşəhər ambulatoriyasına 33330 dəfə xəstələrin baş çəkməsi qeydə alınmışdır. Həmin il ərzində Balaxanı xəstəxanasına 2721 nəfər, Qaraşəhər xəstəxanasına isə 656 nəfər stasionar xəstə daxil olmuşdur[49,s.461-462].

15 iyul 1902-ci ildə mədən xəstəxanası yanında ambulatoriya və aptek yeni binaya köçürülmüşdür[50,s.774-775]. Həmin ildə Bakı neft sənayeçiləri qurultayının 6 ambulatoriyası - mədən xəstəxanası yanında ambulatoriya, Qaraşəhər, Balaxanı, Bibiheybət, Ağşəhər, Ramana ambulatoriyaları və 2 xəstəxana – Balaxanı mədən və Qaraşəhər xəstəxanaları fəaliyyət göstərmiş, bu tibb məntəqələrində 212 nəfər (həkim, tibb bacısı və s.) çalışmışdır. İl ərzində ambulatoriyalara 238.676 gəliş qeydə alınmış, 1902-ci il ərzində Balaxanı xəstəxanasına 2903, Qaraşəhər xəstəxanasına isə 624 nəfər stasionar xəstə daxil olmuşdur[51,s.683-685].

Bakı neft sənayeçiləri qurultayı Şurası özünün tibb müəssisələrindən əlavə Mixaylov şəhər xəstəxanasında və Bayıl hərbi lazaretində də xəstələrini yerləşdirirdi. Qurultay 1903-cü il üçün xərclər smetasında Mixaylov xəstəxanasında xəstələrin müalicəsi üçün 2000, Bayıl hərbi lazaretində müalicəsi üçün isə 6000 rubl vəsait ayırmışdır[34]. Qurultay Şurasın həmçinin 1901-ci ildən zavod rayonunda şəxsi evdə yerləşən 6 çarpayılıq uşaq xəstəxanası da saxlamağa başlamışdır. Bu xəstəxananın saxlanılması üçün qurultay 1901-ci il xərclər smetasında 3000, 1902-ci il xərclər smetasında 3000 rubl ayırmışdır. Qurultay bu xəstəxananı "Kaspi" şirkətinin vəsaiti hesabına uşaq xəstəxanasının tikintisi başa çatana qədər saxlamağı, xəstəxananın tikintisi başa çatdıqdan sonra isə həmin xəstəxananı saxlamağı öhdəliyinə götürmüşdür[22,s.44; 32; 33].

Bakı neft sənayeçiləri qurultayı Şurası sanitariya sahəsinə də vəsait ayırırdı. Lakin tibbi xidmətlərə xərclənən vəsait qədər çox deyildi. Qurultayın tibb müəssisələrinin həkimləri eyni zamanda sanitariya tədbirlərinin həyata keçirilməsində iştirak edirdilər. 1904-cü ilin yayında İrandan vəbanın Şimali Azərbaycana da yayılmaq ehtimalı olduğundan Bakı neft sənayeçiləri Şurası sanitar həkimlərin və nəzarətçilərin sayının, ehtiyat dərman və dezinfeksiya vasitələrinin həcminin artırılmasını, epidemiya yayıldığı zaman Ağşəhərdə 30 çarpayılıq barakın təmir edilməsini, Qaraşəhərdə müvəqqəti 60 çarpayılıq taxta barak tikilməsini, Bibiheybətdə ambulatoriyanın yanğınsöndürənlər komandasının binasına köçürülməsini və ambulatoriyanın binasında xəstəxana təşkil edilməsini, xəstəxananın işçi heyətini köhnə məktəb binasında yerləşdirilməsini, mədən xəstəxanasının yeni tikilmiş 6-cı barakından və yeni camaşırxanasından müvəqqəti

istifadə edilməlisini qərara almışdır[52,s.1038].

Bundan əlavə Bakı neft sənayeçiləri qurultayı Şurası Balaxanı-Sabunçu-Ramana rayonuna 4, Qaraşəhərə isə 1 sanitar-sahə həkimi dəvət etməyi qərara almışdır. 1904-cü il sentyabr ayında Şuranın 21 daimi və 6 müvəqqəti həkimi vardır[53,s.1570].

1904-cü ildə qurultayın 165 çarpayılıq Balaxanı-Sabunçu mədən xəstəxanası və bu xəstəxana yanında ambulatoriyası (ədəbiyyatlarda Sabunçu ambulatoriyası da adlandırılır), 30 çarpayılıq Qaraşəhər xəstəxanası, Qaraşəhər, Ağşəhər, Ramana, Balaxanı və Bibiheybət ambulatoriyaları fəaliyyət göstərmişdir[25,s.10].

1905-ci ilin əvvəlində "Kaspi" şirkətinin 25 illiyinin şərəfinə həmin şirkətin 50000 rubl ianəsi hesabına Qaraşəhərdə tikilmiş uşaq xəstəxanasının açılışı olmuşdur. Xəstəxananın binası 2 mərtbəli əsas korpusdan və yoluxucu xəstələr üçün nəzərdə tutulmuş bir mərtəbəli köməkçi binadan ibarət idi[11,s.20-22].

1905-ci ildə ermənilərin Bakıda törətdikləri qırğınlar qurultayın tibb müəssisələrinə də təsirsiz ötüşməmişdir. Belə ki, qırğınlar zamanı qurultayın Ramana ambulatoriyasının binası dağıdılmışdır[11,s.23].

İmperator II Aleksandr sahil küçəsində yerləşən sənaye müəssisələrinin fəhlə və qulluqçuları üçün də tibbi müəssisənin təşkilinə ehtiyac vardır. Bu məsələnin həllində Kür-Xəzər gəmiçilik şirkətinin mexaniki zavodunun, Əli-Abas Dadaşev varislərinin mexaniki zavodunun və qurudakı dokunun (gəmi təmir olunan yer – İ.H.), "Bakı doku" firmasının, Bakı pivəistehsalı və buz zavodlarının, "Artur-Koppel" səhmdar cəmiyyətinin, İşanikov qardaşlarının, Şlimak, Karaev, Nesterovun müəssisələrinin nümayəndələri iştirak etmişdilər. 1906-cı ilin mart ayında sahil küçəsində ambulatoriya açılmış və "İmperator II Aleksandr sahil küçəsi rayonunun sənaye müəssisələrinin fəhlələri üçün 1-ci Bakı pulsuz ambulatoriyası" adlandırılmışdır. Ambulatoriyaya 1 il ərzində (mart 1906 - mart 1907) 779-u kişi, 71-i qadın olmaqla 850 nəfər 4002 dəfə müraciət etmişdir[6].

1907-ci ildə qurultayın Balaxanı mədən xəstəxanasında rentgen kabineti açılmışdır[13,s.853].

Həmin il Balaxanı mədən xəstəxanasında 220 çarpayı olmuş, 20 çarpayı xüsusi olaraq doğuş üçün ayrılmışdır. Xəstəxanada 1 yanvar 1907-ci ildə 226 nəfər xəstə olmuş, il ərzində 4827 nəfər xəstə daxil olmuş, 4519 nəfər çıxmış, 331 nəfər ölmüş, 1 yanvar 1908-ci ilə xəstəxanada 203 nəfər xəstə qalmışdır. Qaraşəhər xəstəxanasında da 220 çarpayı olmuşdur. 1 yanvar 1907-ci ildə Qaraşəhər xəstəxanasında 60 xəstə olmuş, il ərzində 3154 nəfər daxil olmuş, 2745 nəfər çıxmış, 336 nəfər ölmüş, 1 yanvar 1908-ci ildə 133 nəfər xəstə qalmışdır. Bu xəstəxana ilə yanaşı 70 çarpayılıq xüsusi uşaq xəstəxanası da fəaliyyətini davam etdirmişdir[7,s.21-22].

1907-ci ildə Ramana ambulatoriyasına 49262, Bibiheybət ambulatoriyasına 88142, Balaxanı mədən xəstəxanası yanında ambulatoriyaya 33224, Ağşəhər ambulatoriyasına 48962, Qaraşəhər ambulatoriyasına 79355 dəfə ambulantlar

tərəfindən baş çəkilmişdir[7].

Suraxanıda mədənlərdə işləyən firmalar - Xəzər-Qara dəniz cəmiyyəti, Bakı neft cəmiyyəti, Nobel qardaşları firması, "Motovilixa" firması, Qalperin qardaşları firması, Benkendorf və K° firması, Kolobov firması, Urbanoviç və K° firması, Mirzoyev qardaşları firması, Ş.Əsədullayev, M.Muxtarov, İ.A.Mantaşev və K° cəmiyyəti orada xüsusi ambulatoriya təşkil etmişdilər. Ambulatoriyanın ilkin tibbi kömək üçün 3 çarpayıdan ibarət qəbul otağı vardır. Həkimi daxili xəstəliklər üzrə mütəxəssis idi. Həmçinin 1 feldşeri də vardır. Ambulatoriyada xəstələri qurultayın Balaxanı xəstəxanasına göndərmək üçün kareta (hər tərəfi örtülü, dördtəkərli minik arabası- İ.H.) saxlanılırdı[7,s.22-23].

1907-ci ildə qurultayın tibb müəssisələrinin və Suraxanı ambulatoriyasının tibbi xidmətindən ümumilikdə 40181 nəfər fəhlə yararlanmışdır[7,s.23]. Həmin il qurultayın tibb müəssisələrinin 30 daimi, 6 müvəqqəti həkim də daxil olmaqla 367 nəfər daimi, 68 nəfər müvəqqəti işçi heyəti olmuşdur[12,s.59].

Neft rüsumu ödəməyən, qazma işləri ilə məşğul olan, əvvəllər xüsusi razılıqla qurultayın tibbi xidmətindən istifadə edən firmalar 1907-ci il 20 oktyabrda sindikatda birləşmişdilər və özlərinin tibbi xidmətlərini təşkil etmişdilər. Onların Balaxanı-Sabunçu ərazisində 2 (Ramana və Balaxanı ambulatoriyaları), Bibiheybətdə 1 ambulatoriyası vardır. 1907-ci ildə 8780 (Bibiheybətdə 3010 və Balaxanı-Sabunçu mədənlər ərazisində 5770) nəfər fəhlə bu qurumun tibbi xidmətindən istifadə etmişdir[7,s.23].

Bununla belə kiçik firmalar sindikata daxil olmamışdır və həmin firmaların fəhlələri göstərilən müəssisələrin tibbi xidmətlərindən kənarda qalmışdılar. Onlar Mixaylov şəhər xəstəxanasına, 6 pulsuz şəhər müalicəxanasına, Bayıl lazaretinə və şəxsi müalicəxanalara müraciət edirdilər. Eləcə də qurultay tərəfindən kasıb qismində müalicə olunurdular. Qurultay xəstəxana çarpayılarının 10%-ini kasıblar üçün ayırmasına baxmayaraq xəstəxanalarında kasıb qismində müalicə olunanların sayı daha çox idi[7,s.23].

Qaraşəhər və Ağşəhərdə isə qurultayın tibbi xidmət müəssisələrindən başqa digər təşkilatlar mövcud deyildir[7,s.23].

Binəqədi ərazisində də neft sənayesinin inkişaf etməsi burada fəhlə və qulluqçuların sayının artmasına səbəb olmuşdur. Bakı neft sənayeçiləri qurultayı Şurası bu ərazidə də tibb xidmətin təşkil edilməsinə səy göstərirdi[54,s.27].

XX əsrin əvvəllərində fəhlə tətillərində səsləndirilən əsas tələblərdən biri də fəhlə və qulluqçular üçün tibbi xidmətin təşkil edilməsi məsələsi ilə bağlı idi. Bakı neft sənayeçiləri qurultayı Şurasının yanında Statistika Bürosunun müdiri V.İ.Frolovun 1903-1906-cı illərdə Bakı neft sənayesində baş vermiş fəhlə tətillərində səsləndirilən tələbləri 10 qrupa bölmüşdür ki, bu qruplardan biri də bədbəxt hadisələr və xəstəliklə bağlı idi. İ.V.Frolov göstərir ki, xəstəliklə bağlı tələblər ilbəil artmışdır. Bu tələblərə qurultayın xəstəxanalarına mütəxəssislərin dəvət edilməsi,

şəxsi apteklərdən alınan dərmanların pulunun firma və ya qurultay Şurası tərəfindən ödənilməsi, klinik müalicənin firma tərəfindən etdirilməsi və s. daxil idi[40,s.48].

1914-cü ildə Birinci Dünya Müharibəsinin başlanması tibb sahəsinə də təsirsiz ötüşməmişdir. Belə ki, həkimlərin müəyyən hissəsi orduya səfərbər olunmuşdur. Həmin il qurultay Şurasının Qaraşəhər xəstəxanasında çalışanlar üçün tikilmiş yeni korpusda əsgərlər yerləşdirildiyindən Qaraşəhər xəstəxanasının işçiləri köhnə, şəxsi əmlak olan, zəif təhciz olunmuş tikilidə yaşamağa davam etmişdilər. Eləcə də, Qaraşəhər xəstəxanasının qadın korpusunun açılışı baş tutmamışdır[26,s.8]. Tədqiqatçı Xəlilov P. göstərir ki, 1914-cü ildə qurultayın tibb sahəsində keçirdiyi ən mühüm tədbir Suraxanı ambulatoriyasının açılışı olmuşdur. Lakin həmin ambulatoriya Suraxanıda əvvəl mövcud olmuş, 1914-cü ildə həmin ambulatoriya qurultayın tabeçiliyinə keçmişdir[2,s.65; 26,s.12].

Bakı neft sənayeçilərinin XXXIII qurultayında 1915-ci il üçün xərclər smetasının layihəsində tibbi yardım işi üçün 640523 (Sabunçu xəstəxanasına 220993, Sabunçu ambulatoriyasına 40066, Sabunçu aptekinə 13558, Balaxanı ambulatoriyasına 11723, Ramana ambulatoriyasına 19473, səyyar xidmətə 9905, Bibiheybət ambulatoriyasına 30499, Qaraşəhər xəstəxanasına 195155, Qaraşəhər ambulatoriyasına 24530, Qaraşəhər aptekinə 8220, aptek anbarına 6107, Ağşəhər ambulatoriyasına 21532, Suraxanı ambulatoriyasına 12642 və ümumi tibbi xərclər üçün 26120) rubl daimi, xəstəxana və ambulatoriyaların təchizatı üçün isə 7730 rubl birdəfəlik xərc ayrılması istənilmişdir[27] və həmin qurultayda daimi tibbi xərclər üçün 1915-ci il üçün xərclər smetasında 642.619 rubl vəsaitinin ayrılması təsdiqlənmişdir[29,s.41].

Bakı neft sənayeçiləri qurultayının 1916-cı il üçün xərclər smetasında tibbi yardım işinin təşkili üçün 671.157 rubl daimi xərc[30,s.41], 1917-ci il xərclər smetasında 708192 rubl daimi xərc ayrılması təsdiqlənmişdir[31,s.42]. 1917-ci ildə pul dəyərini itirmişdir. Qara fəhlənin bir günlük əməkhaqqı 1 aprel 1917-ci ilə qədər 1 rubl idisə, 1 aprel 1917-ci ildən 4 rubl 60 qəpik, 1 may 1918-ci ildən 10 rubl 35 qəpik olmuşdur[23,s.21-22]. Bu da göstərir ki. 1917-ci ildə əvvəlki ilə nisbətdə tibb sahəsinə daha çox vəsait ayrılsa da, inflyasiyaya nəzər yetirdikdə əvvəlki ilə nisbətdə az olduğunu görürük.

Yuxarıda göstərilənlərdən belə qənaətə gəlinir ki, XIX əsrin sonu – XX əsrin əvvəllərində Bakı neft sənayeçiləri qurultayı Şurasının tibbi-sanitar sahədə fəaliyyəti, bu sahəyə ayırdığı vəsaitin həcminin ilbəil artırılmasına baxmayaraq Bakı neft sənayesi fəhlə və qulluqçularının səhiyyə ilə bağlı problemləri həllini tapmamış, xüsusilə neft hasil etməyən, qazma və neft sənayesi ilə bağlı digər işlərlə məşğul olan kiçik firmaların işçiləri tibbi xidmətdən kənarda qalmışdılar. Bakının mədən-zavod rayonlarının sakinlərinin, eləcə də neft sənayesi fəhlə və qulluqçularının səhhətinə mənfi təsir edən amillər aradan qaldırılmamışdır.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi, fond 276, siyahı 3, iş 268.
2. Xəlilov P. Bakı neft sənayeçiləri qurultayının səhiyyə və mədəni-maarif sahələrində fəaliyyəti. Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya, əlyazması hüququnda, Bakı, 2015, 170 səhifə.
3. Xəlilov P. XIX əsrin sonlarında "Bakı neft sənayeçiləri qurultayı"nın neft sənayesi fəhlələrinə tibbi-sanitariya yardımına dair \\ Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, Bakı, 2011, №1, səh.230-235.
4. Бакинские Известия, 5 февраля, 1887. №11, с. 1.
5. Бакинские Известия, 5 марта, 1887. №19, с. 3.
6. Браиловский М. Первая бакинская безплатная амбулатория для рабочих промышленных заведений района набережной Императора Александра II \\ " Нефтяное Дело" 4 декабря 1907 г., № 22, с. 1646-1649.
7. Браиловский М. Врачебная помощь рабочим в промышленных предприятиях в районе Бакинского градоначальства \\ "Нефтяное Дело",17 ноября 1908 г., №21, с. 21-25.
8. Врачебное дело сьезда нефтепромышленников на промыслах \\ "Нефтяное Дело", 10 января 1899 г., №1, с. 6-7.
9. Двадцатипятилетие товарищества нефтяного производства бр. Нобель /1879-1904/. СПб., 1904, 172 с.
10. Доклад ревизионной комиссии, избранной на XXVII съезде XXVIII съезду нефтепромышленников \\ Труды XXVIII очередного съезда нефтепромышленников в гор. Баку. Том II. Баку, Типография Первого Типографского Т-а и "Труд" Берладира, 1910, с. 1-154.
11. Доклад ревизионной комиссии XXII съезду Бакинских нефтепромышленников\\ Труды XXII–го очередного съезда нефтепромышленниковъ в г. Баку. Баку, Типография 1-го Типографского Товарищества, Том II-й, 1906. с. 1-78.
12. Дурново А.С. Некоторые данные о медико-санитарной организации Съезда бакинских нефтепромышленников \\ Труды первого всероссийского съезда фабричных врачей и представителей фабрично-заводской промышленности. Москва, Типография Торгового Дома М.В.Балдин и К°. Арбат, д.№7,1910, с. 56-71.
13. Из деятельности учреждений съезда нефтепромышленников \\ "Нефтяное Дело", 18 июня 1907 г., №11, с. 852-853.
14. Каспий, 22 февраля 1900, №40.
15. К вопросу о медицинской помощи у фирм, не платящих попудного сбора \\ "Нефтяное Дело", 31 марта 1900 г., №6, с. 321-324.

16. Мамедов М. Вопросы здравоохранения на Съездах бакинских нефтепромышленников \\ Milli Azərbaycan Tarixi Muzeyi – 2017, Bakı, 2017, с. 186-203.
17. Мамедов М. Хозяйственная деятельность Совета Съезда Бакинских нефтепромышленников (1893-1905 гг.) \\ Milli Azərbaycan Tarixi Muzeyi – 2009, Bakı, 2009, səh. 64-79.
18. "Нефтяное Дело", 30 января 1899 г., №2, с. 135.
19. "Нефтяное Дело", 15 апреля 1899 г., №7, с. 343.
20. "Нефтяное Дело", 15 февраля 1900 г., №3, с. 130.
21. Об упорядочении дела врачебной помощи рабочим у фирм, не платящих попудного сбора \\ "Нефтяное Дело", 2 ноября 1900 г., №20, с. 1172-1176.
22. Объяснительная записка к проекту сметы доходов и расходов съезда нефтепромышленников на 1901 г. \\ Труды пятнадцатого экстренного съезда нефтепромышленников в г. Баку. Баку, Типография А.Г.Юзбашева, 1901.
23. О вознаграждении рабочих, потерпевших вследствие несчастных случаев \\ "Нефтяное Дело", 31 января 1920 г., №1, с. 20-23.
24. О врачебной помощи съезда нефтепромышленников в 1900 году \\ "Нефтяное Дело", 8 июня 1901 г., №10, с. 539-542.
25. Отчет о деятельности Совета съезда XXII-му съезду нефтепромышленников. Отдел II(хозяйственная деятельность совета). Баку, Типография Перваго Типографского Товарищества, 1906 г., 74 с.
26. Отчет о деятельности Совета съезда за 1914 г. XXXIV-му съезду нефтепромышленников. Отделъ II (хозяйственная деятельность Совета). Баку, Типография " Труд"С.Г.Берладир и К°, 1915, 170 с.
27. Протоколы XXXIII очередного съезда нефтепромышленников \\"Нефтяное Дело", 22 декабря 1914 г., №24, с. 4-16.
28. Протоколы ревизий учреждений съезда в 1908 году \\ Труды XXVII очередного съезда нефтепромышленников в гор. Баку. Том II. Баку, Типография 1-го Типографского Товарищества и "Труд" Берладира, 1909, с. 1-186.
29. Смета доходов и расходов Съезда Бакинских нефтепромышленников на 1915 г. \\ Труды XXXIII очередного съезда нефтепромышленников в гор. Баку. Баку, Типография "Труд" С.Г.Берладира и К°, 1915, с. 1-104.
30. Смета доходов и расходов Съезда Бакинских нефтепромышленников на 1916 г. \\ Труды XXXIV очередного съезда нефтепромышленников в гор. Баку. Баку, Типография "Трудъ" С.Г.Берладира и К°, 1916, с. 1-100.
31. Смета доходов и расходов Съезда Бакинских нефтепромышленников на 1917 г. \\ Труды XXXVI очередного съезда нефтепромышленников в гор. Баку. Баку, Типография "Труд" С.Г.Берладира и К°, 1917, с. 1-98.
32. Смета расходов на 1901 год, утвержденная XV экстренным съездом

нефтепромышленников \\ Труды пятнадцатого экстренного съезда нефтепромышленников в г. Баку. Баку, Типография А.Г.Юзбашева, 1901.
33. Смета расходов на 1902 год, утвержденная XVI очередным съездом нефтепромышленников \\ Труды XVI–го очередного съезда нефтепромышленников в г. Баку, Том I-й, Баку, Типография 1-го Типографского Товарищества, 1902.
34. Смета расходов на 1903 год, утвержденная XVII очередным съездом нефтепромышленников \\ Труды XVII–го очередного съезда нефтепромышленников в гор. Баку, Том I-й, Баку, Типография А.К.Касабова, Арм. Ул., соб. д., 1903.
35. Старцев Г. К вопросу о постановке врачебного дела на промыслах \\ "Нефтяное Дело", 21 сентября 1900 г., №17, с. 950-953.
36. 30 лет деятельности товарищества нефтяного производства Братьев Нобель (1879-1909), Баку, 1909, 217 с.
37. Труды XX–го очередного съезда нефтепромышленников в г. Баку, Том II-й, Баку, Типография 1-го Типографского Товарищества, 1905, 525 с.
38. Труды первого съезда нефтепромышленников в гор. Баку. Баку, Типография-Скоропечатня В.Неручева, 1885, 430 с.
39. Труды пятого съезда нефтепромышленников в гор. Баку. Баку, Типография газеты "Каспий", 1889, 186 с.
40. Фролов В.И. Очеркъ забастовочнаго движения рабочихъ Бакинскаго нефтепромышленнаго района 1903-1906 г. Баку, Типография "Труд" С.Г. Берладира и 1-го Тип. Т-ва, 1907, 228 с.
41. Хроника \\ "Нефтяное Дело", 15 февраля 1899 г. №3, с. 152-157.
42. Хроника \\ "Нефтяное Дело", 1марта 1899 г., №4, с. 196-202.
43. Хроника \\ "Нефтяное Дело", 15марта 1899 г., №5, с. 258-261.
44. Хроника \\"Нефтяное Дело", 15 апреля 1899 г., №7, с. 350-352.
45. Хроника \\ "Нефтяное Дело", 16 мая 1899 г., №9, с. 425-426.
46. Хроника \\ "Нефтяное Дело", 1 июля 1899 г., №12, с. 561-568.
47. Хроника \\ "Нефтяное Дело", 17 iюля 1899 г., №13, с. 609-627.
48. Хроника \\ "Нефтяное Дело", 4 июня 1900 г., №10, с. 544-548.
49. Хроника \\ "Нефтяное Дело", 5 мая 1902 г., №8, с. 461-467.
50. Хроника \\ "Нефтяное Дело", 18 июля 1902 г., №13, с. 773-776.
51. Хроника \\ "Нефтяное Дело", 11 июля 1903 г., №12, с. 676-689.
52. Хроника \\ "Нефтяное Дело", 9 июля 1904 г., №12, с. 1038-1041.
53. Хроника \\ "Нефтяное Дело", 24 сентября 1904 г., №17, с. 1570-1581.
54. Хроника \\ "Нефтяное Дело", 1 сентября 1911 г., №16, с. 27-33.

Ilgar Hajiyev

About the organızatıon of medical-sanıtary work ın Baku oıl ındustry (on the basıs of materıals of "Neftyanoye delo" newspaper)

Summary

Key words: *Baku, oil industry, Neftyanoye Delo, medicine, sanitation.*

In the article issue of the organization of medical-sanitary work in Azerbaijan oil industry at the end of XIX – at the begining of XX century were researched on the basis of the materials of "Neftyanoye Delo" newspaper being the organ of Baku oil industrialists congress council and research shows that though the part of workers and employees of Baku oil industry were provided with medical care in the results of actions in medical-sanitary field of Baku oil industrialists congress council and some big oil industry companies, the big part of workers and employees weren't provided with health care and factors which had negative impacts to their health weren't eliminated.

Илгар Гаджиев

Об организации медико-санитарного дела в бакинской нефтепромышленности (на основе материалов газеты "Нефтяное дело").

Резюме

Ключевые слова: *Баку, нефтепромышленность, Нефтяное Дело, медицина, санитария*

В статье исследована организация медико-санитарного дела в Бакинской нефтепромышленности в конце XIX-начале XX века на основе материалов газеты "Нефтяное дело", органа Совета съезда бакинских нефтепромышленников. В нем указывается, что в то время в результате действий проводимых Советом съезда бакинских нефтепромышленников, крупными фирмами в медико-санитарной области часть рабочих и служащих Бакинской нефтепромышленности были обеспечены медицинским лечением. Но при этом большинство осталось в стороне от медицинского осмотра и лечения, причины, негативно влияющие на их здоровье не были устранены.

Фархад Джаббаров

Армянский террор против азербайджанцев накануне межнационального конфликта 1905-1906 гг.

Ключевые слова: *армянский террор, армяно-азербайджанский конфликт, антимусульманская пропаганда*

UOT 94 (479.24)

В начале XX в. армянский национал-экстремизм на Южном Кавказе достиг своего пика и его главным катализатором, несомненно, стал закон от 12 июня 1903 г. о секуляризации имущества армяно-григорианской церкви. Эта радикальная мера, предпринятая с целью привести в соответствие с законодательством систему образования, установить контроль над деятельностью армянской церкви, обернулась целой серией террористических актов против представителей власти, акциями неповиновения, столкновениями с полицией и войсками. В ходе вооруженных столкновений с полицией и войсками, акций неповиновения в 1903-1904 гг. Российская империя впервые ощутила на себе горькие результаты многовековой покровительственной политики своему самому «верному» союзнику на Кавказе. Давала о себе знать и ранее проводившаяся опасная политика заигрывания с армянами и поощрения их к антитурецким действиям. Власти не могли эффективно противодействовать экстремизму, так как армяне пользовались длительной безнаказанностью за преступления против Османской империи, а теперь повернули вектор своей борьбы против России. Активную роль в этом процессе играла партия «Дашнакцутюн», которая была хорошо вооружена, обладала военной организацией, придерживалась тактики террора, пользовалась поддержкой церкви.

Однако после принятия закона 12 июня 1903 г. армянское движение на Кавказе, возглавляемое церковью и партией «Дашнакцутюн», превратилось в реальную угрозу не только как для властей Российской империи, но и для

неармянского, прежде всего, азербайджанского населения Южного Кавказа.

В отличие от армян, азербайджанцы, как и в целом, мусульманское население России, занимая последнее место среди замеченных в противоправительственной деятельности народов империи, не только не проявляли склонности к участию в радикальных выступлениях, но и сопротивлялись попыткам привлечь их к этому. Данные попытки активно предпринимались армянами. В частности, накануне армяно-азербайджанского конфликта 1905-1906 гг. дашнаки выпустили несколько прокламаций с призывами к азербайджанцам встать в один ряд с революционными партиями против царизма. Следует отметить, что тема таких прокламаций активно обсуждалась уже после резни, в частности ее упоминал в своем отчете сенатор А. М. Кузминский. О прокламациях, где армяне призывали азербайджанцев примкнуть к революционным авантюрам, неоднократно упоминали в своих свидетельских показаниях известные общественные деятели. В частности, переводчик Бакинского губернского жандармского управления А. Рзабеков свидетельствовал: «…уже с 1895 г. армяне агентурным путем всячески старались убедить мусульман в непригодности русского правительства, в том, что Кавказ всегда находился раньше в руках армян и татар, двух братских наций, которые теперь порабощены русскими, что русское правительство это тирания, что за границей, т. е. в Западной Европе живется хорошо и свободно, – и призывали татар действовать солидарно с ними против русского правительства, но татары не особенно доверчиво к этому относились, будучи довольны русским правительством, т. к. они имеют живые примеры, что мусульманам в Персии гораздо хуже живется, что там власти грабят народ. Видя, что уговоры не помогают, армяне стали распространять среди мусульманского населения прокламации на татарском, т. е. азирбейджанском, и персидском языках, а также и на русском языке. Такие прокламации распространялись в течение последних трех лет, но и эти прокламации не действовали, тогда армяне стали распространять угрожающие прокламации…» (9, л. 84 об.). Член Бакинской городской управы К. Сафаралиев вспоминал: «За несколько месяцев – приблизительно за два или три месяца до погрома, по почте посылались прокламации на разных языках, и на татарском и персидском языках – якобы от имени армянского революционного комитета, призывающие татар к совместному изгнанию русских с Кавказа и к единению. Вообще, присылались прокламации, где требовались реформы для всей России. Я прокламацию получил только раз на персидском языке... Эти прокламации возбуждали татар против не только русского правительства, но и русского народа вообще. К подобным прокламациям татары относились не сочувственно, даже враждебно» (9, л. 84 об.). Гласный Бакинской думы И. Гаджиев показывал на допросе, что армяне

стали распространять разные прокламации к азербайджанцам с призывом к общей борьбе против правительства: «Рабочие татары постоянно жалуются, что они стали нищими, т. к. армяне, по постановлениям их революционного комитета, устраивают на промыслах и всюду стачки и забастовки, силой заставляют рабочих татар бросать работу и лишают их заработка. Поэтому татары рабочие крайне возбуждены против армян. Они говорят, что армяне во время забастовок получают вспомоществование от своего революционного комитета, а татарам никто ничего не дает и они голодают. В последние три года армяне еще стали распространять разные прокламации к татарам, призывающие татар на общую борьбу против правительства. Когда татары рабочие отвечали по поводу этих прокламаций забастовщикам словесно, что они не могут принять участие в борьбе с правительством, потому что им не разрешают почетные татары, то забастовщики стали угрожать, что перебьют почетных татар и угрозу эту выражали и в прокламациях, которые мне пришлось читать» (9, л. 252 об.-253).

Из приведенных фактов становится видно, что прокламации армянского революционного комитета были обращены к азербайджанским рабочим – самой многочисленной прослойке бакинского пролетариата. По данным переписи 1903 г., в Баку, вместе с промыслово-заводским районом, насчитывалось до 75-80 тыс. рабочих, из которых около 30 тыс. человек составляли нефтепромысловые рабочие. По своему национальному составу эта часть пролетариата состояла в большинстве своем из азербайджанцев (17, с. X). Поэтому понятно было стремление армян, как и социал-демократов и эсеров, привлечь эту значительную в количественном отношении силу к забастовочному и погромному движению, чтобы придать антиправительственной борьбе еще более массовый характер. Понятен и отказ азербайджанских рабочих от участия в забастовках, которые, действительно, отрицательно сказывались на их материальном положении. Если же учесть тот факт, что азербайджанские рабочие были самой низкооплачиваемой категорией пролетариата (по подсчетам М. Казиева, средний размер их годового дохода на нефтепромыслах составлял 337,13 руб., в то время как у армянских рабочих он равнялся 413 руб., русских – 600 руб., грузинских – 445 руб.) (14, с. 20), то несложно увидеть, в каких тяжелых материальных условиях они жили в обычное время. Небезынтересно будет отметить и следующую деталь, объясняющую, почему рабочие-азербайджанцы не были склонны примыкать к стачкам. Это вновь связано с экономическими причинами. По воспоминаниям большевика С. М. Эфендиева, нефтепромышленники охотно шли на удовлетворение требований квалифицированных рабочих (русских, армян), но были неуступчивы в вопросе о повышении заработной платы промысловым рабочим (азербайджанцам). «При этом, – писал С. М. Эфендиев,

– капиталисты руководствовались двумя соображениями: во-первых, таким путем они добивались раскола бакинского пролетариата по национальным его составным частям, удовлетворив более передовую часть за счет отсталых; во-вторых, такой прием диктовался простым коммерческим расчетом, что лучше увеличить ставки небольшой квалифицированной части рабочих, чем хотя бы малость прибавлять к окладам многотысячных неквалифицированных промысловых рабочих» (22, с. 23-24).

Провокации армян не ограничились только распространением прокламаций. По данным полиции, армяне, чтобы спровоцировать азербайджанцев на антиправительственные акции, пытались использовать в своих целях траурный день «Шахсея», когда мусульмане-шииты поминают внука пророка Мухаммеда – Хусейна, павшего в неравном бою. 15 марта 1904 г., когда азербайджанцы собирались отметить этот день, в Баку армяне планировали бросить бомбу в толпу и распустить слух о том, что эта акция подстроена охранкой. Представители власти предупредили об этом замысле местных мусульманских лидеров (13, с. 105). Касаясь этого инцидента, бакинский губернатор М. А. Накашидзе отмечал: «…В 1904 году, во время агитации против правительства мусульмане получили (и теперь продолжают получать) прокламации «социал-демократической армянской организации» с приглашением соединиться с армянами и заодно действовать против правительства. В этих прокламациях в резких словах порицаются те мусульмане, которые принесли поздравление бывшему главноначальствующему князю Голицыну по случаю избавления его от смерти (после его поранения). Когда наступило время мусульманского траура «Шахсея» и в городе начали циркулировать слухи, будто бы армяне хотят бросить бомбу среди татар, то последние выпустили прокламацию, написанную безграмотно на гектографе, под заглавием «К армянам и жидам!», в которой говорится, что, как видно из полученных ими сведений, жиды и армяне хотят бросить бомбу среди мусульман во время «Шахсея Вахсея» и что они – татары с радостью готовы встретить их бомбу, с тем, чтобы они, армяне, с радостью встретили татарское мщение. Видимо, слух о бомбах произвел сильное впечатление на мусульман. Об этом я сужу по тому возмущению, с которым мусульмане говорят до сих пор о них. Как видно из собранных прокламаций, обе эти национальности обменивались часто прокламациями, в которых коренным образом расходятся во взглядах на существующий строй. Прокламации имеются в делах канцелярии и в губернском жандармском управлении» (11, л. 121).

К сожалению, обнаружить упомянутые в свидетельских показаниях ив приведенной цитате М. А. Накашидзе прокламации в архивах Азербайджана не удалось. Невольный скепсис наводили часто встречаемые в показаниях признания свидетелей, что они не помнят, где видели прокламации, кому

их передали и т. д. Действительно, может быть, версия об армянских прокламациях была специально подброшена властями для провоцирования межнациональных противоречий? Однако дальнейшие поиски привели меня в российские архивные фонды, где удалось найти одну из них, что положило конец сомнениям в их существовании. Текст прокламации был направлен 10 марта 1904 г. главноначальствующим на Кавказе Г. С. Голицыным министру внутренних дел В. К. Плеве. В свою очередь, самому Г. С. Голицыну ее представил елизаветпольский губернатор. Прокламация армянского революционного комитета называлась «К мусульманам» и в ней звучал призыв к азербайджанцам принять участие в революционном движении. В документе внимание привлекает фраза, в которой армяне выражали свое возмущение «имевшими место за последнее время проявлениями преданности правительству со стороны представителей мусульманского населения» (18, л. 96-96 об.). Следовательно, армяне вменяли в вину азербайджанцам их безучастное отношение к экстремистским действиям и политической борьбе.

Ответ азербайджанцев на подобные призывы присоединиться к борьбе с правительством был категоричным. Когда в одной из армянских прокламаций прозвучала угроза «Будьте готовы к тому, что мы обагрим землю вашей кровью и предадим ваши трупы огню, который охватит мир», мусульмане потребовали оставить их в покое и в ответ заявили, что если армяне нарушат мир, то они создадут «из степей кладбище» для армян (5, с. 24).

«Интересно обратить внимание на интервал времени между двумя принятыми решениями: руководство СССР спешило и за довольно краткий отрезок времени решило судьбу десятков тысяч людей. Становится ясным, что между требованием Армянской ССР присоединить Нагорный Гарабах к Армении и выселением азербайджанцев из Армении существовала прочная связь. На самом деле руководство СССР определило последовательность решения этих двух проблем: сперва были переселены азербайджанцы, а затем была решена судьба требований Армянской ССР относительно НКАО» (10).

Наряду с М.Дж.Багировым, секретарь ЦК Компартии Грузии К.Чарквиани тоже был обеспокоен развитием армянского национализма на Южном Кавказе и попытками за счет соседних республик построить «Великую Армению». Он направил Сталину письмо «О деятельности армянских националистов в Закавказье», где рассказал о территориальных требованиях армян к Грузии и о борьбе с армянскими буржуазными националистами. Сталин направил это письмо Л.Берия для выяснения всех обстоятельств. Это выяснение привело к тому, что в начале 1949 года процесс репатриации зарубежных армян был

прекращен. 162 репатрианта, пустившиеся в путь из Америки в феврале 1949 года, были последними в этом процессе (2).

Переселение азербайджанцев из Армянской ССР, якобы «на добровольных началах», но фактически явившееся депортацией, нанесло урон не только самим депортированным и их семьям, которые вынуждены были переселяться с насиженных мест в гораздо более худшие условия, но и создало предпосылки для эскалации националистических и сепаратистких настроений среди армянского населения. Тут важно отметить также и тот факт, что до сих пор в исторических справках и исследованиях различных авторов депортация азербайджанцев представляется, как обычное переселение народов из одной местности в другую, депортация азербайджанского населения Армянской ССР несправедливо оценивается, в то время как мирное население было лишено права жить на своих территориях, было фактически лишено своего имущества, и освобождено от занимаемых должностей.

На взгляд автора, объективное и правдивое отражение и осмысление процесса депортаций, выявление причин депортаций внесет вклад не только в развитие исторической науки в целом, но и поможет предотвратить подобные депортации народов в будущем.

Список использованной литературы:

1. Алиева С. Так это было. Национальные репрессии в СССР 1919-1952 годы. Нальчик, 2012.
2. Гасанлы Д. Послевоенные территориальные претензии СССР к Турции или «нереальные планы» г-на С.Саргсяна. ИА Regnum, 8 августа 2011.
3. Григорьян Х. О настроениях среди азербайджанского населения Армении в связи с предстоящим его переселением в Азербайджанскую ССР. 03.05.1948 г. // АПД УДП АР, ф.1, оп.221, д.5.
4. Земсков В. Н. Спецпоселенцы в СССР, 1930-1960. М., 2003.
5. Иванов И.С. Очерки истории Министерства иностранных дел России. 1802—2002: В 3 т. Т. 2. М., 2002
6. Поливанов О.А., Рожков Б.Г. Отечественная история. 1917-1945. Учебное пособие для абитуриентов и студентов гуманитарных факультетов педагогических вузов. СПб., 1997.
7. Постановление Совета министров СССР «О мероприятиях, связанных с переселением колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-Араксинскую низменность Азербайджанской ССР». 10.03.1948 г. // АПД УДП АР, ф.1, оп.222, д.48.
8. Постановление Совета министров СССР «О переселении колхозников и другого азербайджанского населения из Армянской ССР в Кура-

Араксинскую низменность Азербайджанской ССР». 23.12.1947г. // АПД УДП АР, ф.1, оп.222, д.48.
9. Zubok Vladislav Martinovich. A Failed Empire: The Soviet Union in the Cold War from Stalin to Gorbachev. — UNC Press, 2007. — 467 p.
10. http://carpetsmagazine.com/bolgeler/elave/iravan/ru/files/assets/basic-html/
11. http://www.hrono.info/dokum/194_dok/19480310azer.html

Günel Tağızadə
1947-1950-ci illərdə Ermənistan SSR-in Azərbaycan əhalisinin Kür-Araz ovalığına deportasiya edilməsi məsələsi.

Xülasə

Açar sözlər: *SSSR, deportasiyalar, Stalin, azərbaycanlılar, Bağırov, erməni milliyyətçiləri, Kür-Araz ovalığı, nazirlər şurası*

Məqalə Ermənistan SSR-in Kür-Araz ovalığının ərazisinə deportasiya edilməsinin müxtəlif səbəbləri ilə bağlı araşdırmaya həsr olunmuşdur.Tədqiqat nəticəsində müəllif tarixi faktlara və arxiv məlumatlarına əsaslanan yuxarıda göstərilən hadisələrin bir çox səbəblərini açıqlamışdır. Sovet rəhbərliyinin təklif etdiyi faktiki məlumatların və versiyaların müqayisəli təhlili aparılmışdır.

Gunel Taghizade
To the question of the deportation of the Azerbaijani population of the Armenian SSR to the Kura-Araz lowland in 1947-1950.

Summary

Key words: *USSR, deportations, Stalin, Azerbaijani people, Baghirov, Armenian nationalists, Kura-Araz lowland, council of ministers*

The article is devoted to the study of various reasons for the deportation of the Azerbaijani population of the Armenian SSR to the territory of the Kura-Araz lowland. As a result of the research, the author reveals several reasons for the above events based on historical facts and archival data. A comparative analysis of the actual data and versions proposed by the Soviet leadership has been carried out.

Həbibə Əliyeva, Nasir Quluzadə

Şəmkir rayonunun Qapanlı kənd qəbiristanlığındakı zoomorf məzar daşları

Açar sözlər: *Qapanlı, at, qoç, məzar daşı, epiqrafika*

UOT 902
UOT 930.271

Milli Azərbaycan Tarixi Muzeyi öz fondlarını və ekspozisiyasını yeni maddi mədəniyyət nümunələri ilə zənginləşdirmək, eləcə də Azərbaycanın qədim maddi mədəni irsini öyrənmək məqsədilə hər il mütəmadi olaraq bölgələrə elmi səfərlər təşkil edir. Belə səfərlərdən biri də 10-13 iyul 2018-ci il tarixlərində baş tutmuşdur. Həmin elmi səfərin əsas məqsədi hələ 2017-ci ildə Bakı şəhər sakini, 19.10.1972-ci il təvəllüdlü İbrahimov Mehman Abbas oğlu tərəfindən Şəmkir rayonunun Qapanlı kənd qəbiristanlığında baxımsız vəziyyətdə olan zoomorf məzar daşları haqqında verdiyi məlumatı yerində yoxlamaq, onlardan bir nümunənin Muzey ekspozisiyası üçün gətirmək idi. Bu məqsədlə adı çəkilən rayona Muzeyin rəhbər və elmi əməkdaşlarından ibarət 5 nəfərlik qrup ezam olundu. Bu məqalənin müəllifləri də həmin qrupun tərkibinə daxil idilər.

Qrup təyin olunmuş məkana - Qapanlı kəndinin şimal-şərqindəki (şimal 40^{0}52'27.78», şərq 46^{0}13'08.88») qəbiristanlığa çatdıqdan sonra ilk olaraq əraziyə vizual baxış keçirdi. Dəniz səviyyəsindən 201 m hündürlükdə yerləşən bu qəbiristanlığın uzunluğu 323, eni isə 190 m olmaqla, ərazisi təqribən altı hektara yaxındır. Burada əsasən müasir dövrün qəbirləri üstünlük təşkil edir. Həmin qəbirlər qəbiristanlığın şimal hissəsində cəmləşib. Əvvəlki dövrlərin, daha dəqiq desək XVIII-XIX əsrlərin qəbirləri azlıqda olmaqla yanaşı, bəzilərinin baş daşları sınmış və yerə yıxılmış vəziyyətdədirlər. Belə təsəvvür yaranır ki, yeni qəbirlər salındıqca köhnələr dağıdılaraq sıradan çıxarılır. Köhnə qəbirlərin dağılması həmçinin baxımsızlıqdan da irəli gəlir. Çünki tamamilə boş ərazilərdə baş daşları sındırılmış köhnə qəbirlərə də rast gəlmək mümkündür. Köhnə qəbirlərin həm salamat qalmış, həm də sındırılmış baş daşları cənub-qərbə (şimal-şərqə) doğru istiqamətləniblər. Baş daşların mərkəzi

olmaqla ön tərəflərinə ərəb qrafikalı yazılar həkk edilib. Kitabələrin, eləcə də baş daşlarının kənarları altıləçəkli ulduzlu dairələrlə, müxtəlif məzmunlu təsvirlərlə və yazılarla haşiyələnib. Baş daşlarının arxa tərəfi sayadır. Onların hündürlükləri 216 sm qədər olub, uzunluqları 48-60, enləri isə 16-31 sm arasında dəyişir. Köhnə qəbirlərdə sinə daşlarına ümumiyyətlə rast gəlinmədi.

Digər bölgələrdə apardığımız epiqrafik tədqiqatlara əsaslanaraq, demək olar ki, Qapanlı kənd qəbiristanlığındakı məzar daşları üzərində ərəb əlifbasının xətt növlərindən yararlanan həkkaklar mərhumun ölüm tarixini və adını yazmaqla yanaşı, mənzum şerlərdən, Qurani-Kərimin ayələrindən geniş istifadə etmişlər. Bunu da qeyd etmək lazımdır ki, həm bədii tərtibatına və həm də zəngin kitabələrinə görə bu məzarlıqdakı qəbir daşlarının tədqiqatına böyük ehtiyac duyulur.

Köhnə qəbirlərin kiçik bir hissəsini isə zoomorf məzar daşları təşkil edirdi. Bölgəyə ezam olunmuş qrup tərəfindən beşi at, yalnız biri qoç olmaqla ümumilikdə altı ədəd zoomorf məzar daşı qeydə alındı. Demək olar ki, bu qəbirlərin hamısı həm forma, həm də bədii tərtibat baxımdan daha böyük maraq doğururdu. Onların saxlanma vəziyyətinə gəldikdə isə bəziləri tam, bəziləri isə sınmış və yerə yıxılmış vəziyyətdədir. At formalı məzar daşlarının başları cənuba doğru istiqamətlənib. Bütün zoomorf məzar daşları yüksək peşəkarlıqla yonularaq hazırlanıblar. Heykəllərin hamısı ensiz olub, gövdələri hündürdür:

1. Qeydə alınmış ilk zoomorf məzar daşı at formasındadır. O yerli dağ cinsindən yonulmuş daşdandır. Bu məzar daşı həm ölçülərinə, həm də bədii tərtibatına görə daha çox diqqət cəlb edir. Məzar daşında təsvir olunan atın gözləri badamvari, burun dəlikləri isə ovalvari halqa formasında yonulub. Alnın ortasında dərin oyuq açılıb. Ağzı kiçik yarıq şəklində verilib. Baş nahiyəsində yüyənin qayışları qabarıq zolaqlarla göstərilmişdi. Alnında və burun dəlikləri arasında romb şəkilli bəzəklər də var. Heykəlin boynuna boyunbağını xatırladan zolaq da həkk edilib. Boyunbağı aşağıda ürəkşəkilli bəzəklə tamamlanır. Boyun nahiyəsindəki digər zolaqvari çıxıntı ilə cilov göstərilmişdi. Heykəlin sinəsi şiş şəklində irəliyə doğru çıxıntılıdır. Bel hissəsində isə qabarıq şəkildə yəhər formalaşdırılmışdır. Digər bir çıxıntı ilə yəhərin altındakı çul verilib. Yəhərdən aşağıda isə gövdənin sağ və sol tərəflərində olmaqla iki yarımdairəvi üzəngi yonulmuşdu. Üzəngilər yəhərlə qayışı xatırladan qabarıq zolaq vasitəsilə birləşiblər. Məzar daşının sağ tərəfi saya olsa da, sol tərəfində tağ şəkilli oyuq açılıb. Oyuqda ərəb əlifbası ilə kitabə həkk edilib. Tağın kənarları, eləcə də gövdənin üzəri altı və çox guşəli ulduzlarla, dairələrlə, kətəbə içərisində verilmiş dini məzmunlu sözlərlə və təsvirlərlə bəzədilib. Məzar daşının arxa hissəsində isə yəhərdən başlayaraq aşağıya doğru uzanan və quyruğu xatırladan mürəkkəb həndəsi qabarıq yonulub. Heykəlin əksər hissəsi paxırla örtülüb. Məzar daşının hündürlüyü 152, uzunluğu 148, eni isə 29 sm-dir. Kitabənin ölçülərinə gəldikdə hündürlüyü 81, eni 36 sm-dir.

Kitabədə mərhumun adı ikinci variantda ərəb dilində süls elementli nəsx xətlə

yazılmış, lakin ölüm tarixi hicri qəməri təqvimlə cızma üsulu ilə yazıdan yuxarı hissədə həkk olunmuşdur:

١٢٨٨
هذا المرقد
المرحومة المغفورة
المعلومة خديجه بنت
محمد من جماعت قپانان

Kitabənin tərcüməsi: *"1288 (miladi təqvimlə 1871-ci il). Bu qəbir rəhmətlik, bağışlanmış (Allah tərəfindən) Məhəmməd qızı məlum (bəlli) Xədicə xanımındır, atası Qapanlı camaatının (qrup, əhali) yiyəsimiş (sahibi)".*

Qeyd: Kitabədə قپانان – "qapanlılar" ifadəsindən istifadə olunmuşdur. Təbii ki, həkak bu ifadə ilə Şəmkir rayonu Qapanlı kəndinin sakinlərini bildirmişdi. Ehtimal olunur ki, hazırki Qapanlı kəndinin əhalisi vaxtilə Qərbi Azərbaycanın Zəngəzur mahalının Qapan qəzasından köç etmiş azərbaycanlılardır (15).

Tağın ətrafında dərin formada yonulmuş xüsusi ayrı-ayrı haşiyələrdə "*Allah, Məhəmməd"*, birinci şiə imamı "*Əli"*, peyğəmbər Məhəmmədin sevimli qızı "*Fatimə"* və nəvələri, Kərbəlada şəhid olan "*Həsən"* və "*Hüseyn"in* isimləri isə birgə səkkizguşəli haşiyədə həkk olunmuşdur:الله، محمد، علي، فاطمه، حسن، حسي

Məzar daşının kitabəli tağının kənar hissələrində cızma üsulu ilə iki dairənin içində, eləcə də atın boyun və yalında qar dənəciyinə bənzər səkkiz guşəli ulduzlar işlənilmişdir. Atın yal hissəsində yenədə də cızma üsulu ilə yuxarısı yarımdairə ilə birləşdirilmiş uzunsov dördkünc haşiyənin içində əllərində dairə və konus formalı əşya tutmuş qadın təsviri, aşağı hissədə isə məişət əşyası olan qayçı işlənilmişdir. Atın boyun hissəsində isə qadın darağı təsvir edilmişdir. Məzar daşının ümumi bədii kompozisiyası yarımdairəvi həndəsi ornamentlərlə, eləcə də ayaq hissəsində cızma üsulu ilə verilmiş yarpaq və iki ədəd qönçə təsvirləri ilə tamamlanmışdır.

Azərbaycan, eləcə də türk dünyasındakı at fiqurlu məzar daşları üzərində aparılan tədqiqatlara və oxşar abidələrə əsaslansaq, belə nəticəyə gəlmək olar ki, qadına məxsus at formalı ilk məzar daşı Qapanlı kənd qəbiristanlığında rast gəlinib. Bu daş həm fiqurun üzərində həkk olunan kitabəsi, həm də bədii kompozisiyası ilə təsdiqlənir.

2. Növbəti, ikinci məzar daşı da ata oxşar olmaqla, birinci nümunədən nisbətən natamamlığı ilə seçilir. Belə ki, baş hissəsi salamat olmaqla, burada at əsləhəsinin bəzi elementlərini sezmək mümkündür. Atın sağ gözü badamvari, burun dəliyi isə ovalvari halqa formasında yonulub. Başın sol hissəsi qopduğundan, həmin hissədəki göz və burun dəliyi qalmamışdı. Alnın ortasında dərin oyuq açılıb. Baş nahiyəsində yüyənin qayışları qabarıq zolaqlarla göstərilmişdi. Alnında romb şəkilli bəzək də var. Heykəlin boynuna boyunbağını xatırladan zolaq da həkk edilib. Boyunbağı aşağıda ürəkşəkilli bəzəklə tamamlanır. Bundan başqa boyunda verilmiş və yəhərə doğru uzanan digər zolaq isə cilovu xatırladır. Heykəlin sinəsi şiş şəklində irəliyə doğru çıxıntılıdır. Bel hissəsində isə qabarıq şəkildə yəhər formalaşdırılmışdır.

Digər bir zolaqla isə yəhərin altındakı çul göstərilib. Yəhərdən aşağıda gövdənin sağ və sol tərəflərində olmaqla iki yarımdairəvi üzəngi yonulmuşdu. Üzəngilər yəhərlə qayışı xatırladan qabarıq zolaq vasitəsilə birləşiblər. Məzar daşının sağ tərəfi saya olsa da, sol tərəfində tağ şəkilli oyuq açılıb. Oyuqda ərəb əlifbası ilə kitabə həkk edilib. Tağın kənarları nazik zolaqla haşiyələnib. Gövdənin yuxarı sağ küncündə kətəbə həkk edilib. Məzar daşının arxa hissəsində isə quyruğu xatırladan mürəkkəb həndəsi qabarıq yonulub. Məzar daşı sağa doğru təqribən 70^0 bucaq altında əyilmiş vəziyyətdədir. Heykəlin bəzi hissələri paxırla örtülüb. Məzar daşının hündürlüyü 124, uzunluğu 114, eni isə 25 sm-dir. Kitabənin ölçülərinə gəldikdə hündürlüyü 57, eni 30 sm-dir.

Daşın səthindən dərin formada yonulmuş haşiyələrin içində rəhmətə gedən qadının vəfat tarixi və ərəb dilində nəsx xətilə kitabə yazılmışdır. Kitabəli tağın son hissəsi ovulduğu üçün mərhumənin atasının adı oxunmaz haldadır.

١٣٠٤
هذا المغفورة
هذا المرقد المرحومة
....

Kitabənin tərcüməsi: *"1304 (miladi təqvimlə 1887-ci il) / Bu bağışlanmış (Allah tərəfindən), bu qəbir rəhmətlik................. ."* .

Atın belindəki üzənginin içində birinci şiə imamı - علي "*Əli*"nin ismi həkk olunmuşdur. At fiqurunun yalındakı iri butalı nəbati naxış daşın səthindən dərin formada yonulmuşdu. Həmin naxışın içində şiə imamlarının adları - حسن و حسين "*Həsən və Hüseyn*" sözləri birgə haşiyədə həkk olunmuşdur. Bədii tərtibatına və kitabəsinə görə bu məzar daşı da qadına məxsusdur.

3. Üçüncü qeydə alınmış zoomorf məzar daşı at formasında olsa da, lakin əvvəlkilərdən fərqli olaraq baş nahiyəsindən sınmışdır. Boyun hissəsi lentvari qabarıq zolaqla əhatələnmişdir. Bel hissəsində isə qabarıq şəkildə yəhər formalaşdırılmışdır. Yəhərdən aşağıda isə gövdənin sağ və sol tərəflərində olmaqla iki üçbucaqvari üzəngi yonulmuşdu. Üzəngilər yəhərlə qayışı xatırladan qabarıq zolaq vasitəsilə birləşiblər. Məzar daşının sağ tərəfi saya olsa da, sol tərəfində tağ şəkilli oyuq açılıb. Oyuqda ərəb əlifbası ilə kitabə həkk edilib. Tağın kənarları, eləcə də gövdənin üzəri altıləçəkli ulduzlu dairələrlə və tovuzquşu təsvirlərlə bəzədilib. Məzar daşının arxa hissəsində isə quyruğu xatırladan mürəkkəb həndəsi qabarıq yonulub. Bir qədər sağa doğru əyilmiş məzar daşının yağıştutan hissələri paxırla örtülüb. Məzar daşının hündürlüyü 118, uzunluğu 90, eni isə 24 sm-dir. Kitabənin ölçülərinə gəldikdə hündürlüyü 49, eni 29 sm-dir.

Tağın kənarlarındakı sahə məzar daşının ümumi kompozisiyasına uyğun olaraq həndəsi ornametlərlə, daxili isə nəbati naxışlarla bəzədilmişdi. Kitabə ərəb dilində nəsx xəttilə həkk olunmuşdur. Orada yalnız mərhumun adı və ölüm tarixi həkk olunmuşdur:

هذا المرقد المرحوم
علي اصى بن باباشي
سنة۱۳۰۷

Kitabənin tərcüməsi: *"Bu qəbir rəhmətlik Əli İsa oğlu (bin) Babaşinindır / 1307 (miladi təqvimlə 1890-cı il)".*

4. Dördüncü at formalı məzar daşı isə birincidən 3-4 m aralıda, onun arxasında qeydə alındı. Bu məzar daşı da birinci ilə birlikdə qəbiristanlığın qərb hissəsindədir. O azacıq sola, daha çox isə irəliyə doğru əyilmişdir. Ona görə də heykəlin baş hissəsi torpağa batmışdı. Bu cəhətinə görə də onun sifət cizgilərini təyin etmək mümkün olmadı. Lakin alnın ortasında açılmış dərin oyuq nəzərə çarpır. Bundan başqa baş nahiyəsində yüyənin qayışları qabarıq zolaqlarla göstərilmişdi. Heykəlin boynuna boyunbağını xatırladan zolaq da həkk edilib. Boyunbağı aşağıda ürəkşəkilli bəzəklə tamamlanır. Boyun nahiyəsindəki digər zolaqvari çıxıntı ilə cilov göstərilmişdi. Heykəlin sinəsi şiş şəklində irəliyə doğru çıxıntılıdır. Bel hissəsində isə qabarıq şəkildə yəhər formalaşdırılmışdır. Digər bir çıxıntı ilə yəhərin altındakı çul göstərilib. Yəhərdən aşağıda isə gövdənin sağ və sol tərəflərində olmaqla iki yarımdairəvi üzəngi yonulmuşdu. Üzəngilər yəhərlə qayışı xatırladan qabarıq zolaq vasitəsilə birləşiblər. Məzar daşının sağ tərəfi saya olsa da, sol tərəfində çatma tağ şəkilli oyuq açılıb. Oyuğun yuxarısında islimi naxış, onun aşağısında isə ərəb əlifbası ilə kitabə həkk edilib. Tağın kənarları nəbati naxışlarla bəzədilib. Məzar daşının arxa hissəsində isə yəhərdən başlayaraq aşağıya doğru uzanan və quyruğu xatırladan mürəkkəb həndəsi qabarıq yonulub. Heykəlin bir hissəsi paxırla örtülüb. Məzar daşının hündürlüyü 129, uzunluğu 145, eni isə 23 sm-dir. Kitabənin ölçülərinə gəldikdə hündürlüyü 82, eni 38 sm-dir.

Tağın içində, yuxarı hissədə iri həcmdə mürəkkəb nəbati naxışlar işlənilmişdir. Nəbati naxışın altında isə dörd düzxətli haşiyələrdə ərəb dilində gözəl süls xətilə kitabə həkk olunmuşdur. Təəssüflər olsun ki, aşağı hissədəki haşiyə tam ovulduğundan kitabənin son sözləri və tarixi oxunmaz vəziyyətdədir.

Kitabə Qurani-Kərimin 28-ci surəsinin ("əl-Qəsəs" - "Hekayət" Məkkədə nazil olmuşdur) sonuncu, 88-ci ayənin yarı hissəsi ilə başlamışdır. Həkkak ayəni haşiyə içərisinə məharətlə yerləşdirməyi bacarmışdır. Quran ayəsindən sonra kitabədə mərhumənin adı və atasının adı yazılmışdır:

.........كُلُّ شَيْءٍ هَالِكٌ إِلَّا وَجْهَهُ لَهُ الْحُكْمُ وَإِلَيْهِ تُرْجَعُونَ
هذا المرقد المرحومة المغفورة
عصمت ....خانم دوستى صبيه رضيَه محمد.....

Kitabənin tərcüməsi:" .... *Allahdan başqa hər şey məhvə məhkumdur. Hökm Onundur. Siz (qiyamət günü) məhz Onun hüzuruna qaytarılacaqsınız! (Peyğəmbər əleyhissəlam üçün icrası əsla mümkün olmayan bu şeyləri ona qadağan etmək və tez-tez xatırlatmaq əslində müşriklərin və kafirlərin əllərini ondan üzmələri və*

mənasız təkliflərlə onu narahat etməmələri üçündür)./

Bu qəbir rəhmətlik, bağışlanmış ... gözəl yeniyetmə (qız) Dosti İsmət xanım Məhəmməd........".

Bədii tərtibatı və kitabəsinin zəngin olması bu məzar daşının da qadına məxsus olmasını təsdiq edir. Həm bədii tərtibatına, həm də yazı üslubuna görə bu at formalı məzar daşını XIX əsrin əvvələrinə aid etmək olar.

5. Qeydə alınmış növbəti, beşinci məzar daşı birincinin ön hissəsində yerləşir. Həmin məzar daşı da ata oxşardır. Lakin əvvəlkilərdən fərqli olaraq yerə yıxılmış vəziyyətdədir. Onun gözləri badamvari, burun dəlikləri isə ovalvari halqa formasında yonulub. Alnın ortasında dərin oyuq açılıb. Baş nahiyəsində yüyənin qayışları qabarıq zolaqlarla göstərilmişdi. Alnında və burun dəlikləri arasında romb şəkilli bəzəklər də var. Heykəlin boynuna boyunbağını xatırladan zolaq da həkk edilib. Boyunbağı aşağıda ürəkşəkilli bəzəklə tamamlanır. Heykəlin sinəsi şiş şəklində irəliyə doğru çıxıntılıdır. Bel hissəsində isə qabarıq şəkildə yəhər formalaşdırılmışdır. Digər bir çıxıntı isə yəhərin altındakı çul göstərilib. Yəhərdən aşağıda isə gövdənin sağ və sol tərəflərində olmaqla iki yarımdairəvi üzəngi yonulmuşdu. Üzəngilər yəhərlə qayışı xatırladan qabarıq zolaq vasitəsilə birləşiblər. Məzar daşı solböyrü üstə yıxıldığından, həmin tərəfinin vəziyyəti naməlumdur. Üzdə olan sağ tərəfi isə sayadır. Məzar daşının arxa hissəsində isə yəhərdən başlayaraq aşağıya doğru uzanan və quyruğu xatırladan mürəkkəb həndəsi qabarıq yonulub. Heykəlin əksər hissəsi paxırla örtülüb. Məzar daşının hündürlüyü 132, uzunluğu 111, eni isə 24 sm-dir.

Çox ehtimal ki, digər at formalı məzar daşlarında olduğu kimi bu abidənin də özünəməxsus kitabəsi mövcuddur. Lakin məzar daşı üzü üstə yıxıldığı üçün kitabəsinin mövcudluğunu müəyyən etmək mümkün olmadı. Gələcəkdə əlavə işçi qüvvəsinin köməkliyi ilə bu qeyri-müəyyənliyi aradan qaldırmaq mümkün olacaq.

6. Qrup tərəfindən qeydə alınmış sonuncu zoomorf məzar daşı qoç formalıdır. At heykəllərindən şimal istiqamətində xeyli aralıda qeydə alınmış bu məzar daşı sağ böyrü üstə yerə yıxılmış vəziyyətdədir. Yerə uzanmış vəzəyyətdə olduğundan, eləcə də əvvəlki məzar daşlarına nisbətən bəsit işləndiyindən sifət cizgiləri aydın görünmür. Onun qoç olması əsasən baş və quyruq nahiyəsindən sezilir. Belə ki, at formalı məzar daşlarında mövcud olan bir çox elementlər, xüsusilə də yəhər, yüyən, cilov və üzəngi yoxdur. Əksinə, baş nahiyəsinin yan tərəfindəki burulmuş yarımdairəvi və ucu şiş çıxıntı buynuzu xatırladır. Daha sonra, arxada yonulmuş iri haçavari yarıq qoyun quyruğuna bənzəyir. Məhz bu əlamətlərinə görə sonuncu bu məzar daşının qoça aid olmasını iddia edə bilərik. Onun sol tərəfində, gövdənin mərkəzində at formalı məzar daşlarında olduğu kimi tağ şəkilli oyuq açılıb. Həmin oyuğa ərəb əlifbası ilə yazılar həkk edilmişdi. Tağın sol kənarına isə altıləçəkli ulduza malik dairə salınmışdı. Məzar daşının üzəri paxırla örtülmüşdü. Məzar daşının hündürlüyü 105, uzunluğu 127, eni isə 20 sm-dir. Kitabənin ölçülərinə gəldikdə hündürlüyü 49, eni 32 sm-dir.

Daşın səthindən dərin formada yonulmuş tağın içində hicri qəməri tarixlə mərhumun vəfat ili və ərəb dilində nəstəliq xətlə kitabə həkk olunmuşdur:

١٣٠٩

هذا المرقد المرحوم

عليسلام بن.... نياامَل

غفور الله.....

Kitabənin tərcüməsi: "*1309 (miladi təqvimlə 1891/92) / Bu qəbir rəhmətlik Əlislam oğlu Niyaməlindir / Günahları bağışlayan Allah..... /*".

Beləliklə, tərəfimizdən qeydə alınmış zoomorf məzar daşlarının foto şəkilləri çəkilmiş, ölçüləri götürülmüş, zəruri qeydlər aparılmış, kitabələrin estampları çıxarılmışdı. Yerli sakinlərdən aldığımız məlumata əsasən bu cür məzar daşlarının sayı indikindən daha çox olmuşdu. Belə ki, bir neçə il öncə at formalı məzar daşlarından bir neçəsi Gəncə istiqamətində aparılmışdır. Belə nəticəyə gəlmək olar ki, hazırda tədqiqat obyekti seçdiyimiz abidələr tezliklə dövlət mühafizəsinə alınmasa, bir neçə ildən sonra Qapanlı kənd qəbiristanlığında zoomorf məzar daşlarının varlığına son qoyulacaq. Məlumat üçün bildirək ki, at formalı məzar daşları rayonun İrmaşlı kənd qəbiristanlığında da mövcuddur. Lakin onların sayı və vəziyyətləri haqqında dəqiq məlumat əldə etmək mümkün olmadı. Oxşar at heykəlləri Tovuz rayonu Ağdam kəndində, Gəncədə və digər bölgələrdə qeydə alınıb (3, s. 211). Göründüyü kimi zoomorf, xüsusilə də at formalı məzar daşları XVIII-XIX əsrlərin əvvəllərində geniş yayılmış və bölgə üçün səciyyəvi abidələrdəndir. Lakin zoomorf məzar daşları XVI-XVII əsrlərdə daha geniş yayılmışdır. Belə ki, Azərbaycanın müxtəlif bölgələrində – Qarabağ, Naxçıvan, Gəncə, Qazax, Kəlbəcər, Lerik, Laçın, Gədəbəy və s. yerlərdə, eləcə də Qərbi Azərbaycan (Ermənistan) və Gürcüstan Respublikasının lap qədim zamanlardan azərbaycanlılar məskunlaşdığı bölgələrində rast gəlinir. Türkiyə Respublikasının Şərq bölgələrində də daş qoç heykəllərinə rast gəlinmişdir. Arxeoloji və etnoqrafik baxımdan daha az öyrənilmiş Cənubi Azərbaycanda daş qoç heykəlləri Pirkəndi və Bisnadeh kəndlərindəki qəbiristanlıqlardan tapılmışdır (9, s. 48). At heykəllərinə gəldikdə, bu daş abidələrə Naxçıvan, Kəlbəcər, Laçın, Qazax, Gəncə, Tovuz və s. rayonlarda rast gəlinib. XVI-XVII əsrlərdə hazırlanmış at məzar daşlarının ən nəfis nümunələri Laçın rayonunun Zabux, Seyidlər, Soltanlar kəndi yaxınlığında və Gəncənin Göy İmam qəbiristanlığında yerləşirdi (3, s. 29-33).

Bu qoç heykəllərinin az bir qismi Milli Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında nümayiş etdirilir (11). Hətta Mil-Qarabağdan tapılmış heykəlin üzərində "*Allah, Məhəmməd, Əli, Ağalar...*" yazısı və ov səhnəsi həkk olunmuşdur.

Bu abidələrin öyrənilməsinə gəldikdə, ayrı-ayrı vaxtlarda həm əcnəbi, həm də yerli müəlliflər onlar haqqında müxtəlif məlumatlar vermişlər. Bu abidələr haqqında ilk məlumatlar XIX əsrə təsadüf edir. Belə ki, Azərbaycanda olmuş isveçrə səyyahı Dyubua-de Monpere 1834-cü ildə Qarabağda çoxlu daş heyvan heykəlləri

gördüyünü və yerli əhalinin onlara xüsusi ehtiram bəslədiyini qeyd etmişdir. Daş heykəllərimiz haqqında maraqlı qeydlərə rus alimi V.M.Sisoyevin qeydlərində də rast gəlirik. 1926-1927-ci illərdə Azərbaycanın Naxçıvan, Ordubad, Laçın və s. rayonlarında olmuş rus alimi V.M.Sisoyev yazır ki, Naxçıvan şəhərinin şərq tərəfdən kənarında qədim qəbiristanlıqda hündürlüyü 62, uzunluğu 150, eni isə 40 sm olan daş qoç heykəli var. Yerli əhali həmin heykələ xüsusi münasibət bəsləyir. Belə ki, sonsuz qadınlar həmin heykəlin altından keçməklə tezliklə ana olacaqlarına inanırlar (14, s. 125).

Sonrakı dövrlərdə zoomorf məzar daşları yerli mütəxəssislərin də diqqətini cəlb etmiş, bu maraqlı daş abidələr haqqında müxtəlif elmi əsərlər ərsəyə gəlmişdir (1; 4; 7; 9; 13). Bundan başqa zoomorf məzar daşlarına digər mövzulara həsr olunmuş tədqiqat işlərində də toxunulmuşdur (3; 12). Ancaq bütün bunlara baxmayaraq zoomorf məzar daşlarının öyrənilmə səviyyəsini qənaətbəxş hesab etmək olmaz. Belə düşünməyə haqqında bəhs etdiyimiz məzar daşlarının indiyədək kompleks şəkildə elmi tədqiqatlara cəlb olunmaması əsas verir. Təsadüfi deyil ki, bu abidələrlə bağlı tarixşünaslığımızda kifayət qədər boşluqlar var. Təkcə onların meydangəlmə dövrü və qaynaqları ilə bağlı dəqiq və yekdil fikir yoxdur. Tərəfimizdən təqdim olunmuş bu məqaləni isə tarixşünaslığımızdakı mövcud boşluğun doldurulması istiqamətində kiçik bir cəhd kimi dəyərləndirmək olar.

Zoomorf məzar daşlarının mənşəyinə gəldikdə inamla deyə bilərik ki, bu abidələr daha qədim dövrlərdə geniş yayılmış zoolatriyanı (iki yunan sözunun birləşməsi olub, ζῳον – heyvan və λατρεία-pərəstiş, inanc və s. mənalarını bildirir), yəni heyvan inancını özündə əks etdirir. Belə ki, neolit dövründə Azərbaycanda istehsal təsərrüfatı, xüsusilə də onun tərkib hissəsi olan maldarlıq təsərrüfatı meydana gəldikdən sonra qədim tayfaların ideoloji təsəvvürlərində məzmun və forma dəyişiklikləri baş vermişdi. Belə ki, maldarlıq təsərrüfatında bəslənilən ev heyvanlarının qədim insanların əsas qida mənbələrindən birini təşkil etməsi və digər faydalıqları onlara pərəstişi şərtləndirmiş, dini ayin və mərasimlərin əsas obyektinə çevirmişdir (8). Təsadüfi deyil ki, həm Qobustan qayaüstü rəsmlərində, həm də müxtəlif tarixi mərhələləri təmsil edən arxeoloji tapıntılarda qoç və ata aid təsvirlərə, eləcə də heyvan inancını özündə ehtiva edən digər elementlərə rast gəlmək mümkündür (2, s. 112; 11). Adlarını vurğuladımız heyvanlar bizim şifahi xalq ədəbiyyatımızda, xüsusilə bayatılarımızda, nağıllarımızda, dastanlarımızda, sayaçı sözlərimizdə, holavarlarımızda və digər janrlarda əsas obrazlardandır. Məsələn, "Qoç döyüşünə qoç dözər", "Qoç igid qurddan çəkinməz", "Qoçdan qoç törər", "Təkədə qoç hünəri olmaz", "At ət ilə, igid don ilə", "At ölər nalı qalar, İgid ölər namı qalar", "Yaxşı at nalı gözlər, yaxşı igid dalı", "Ər altında at olur, qeyrət altında ər olur" və s. bu kimi atalar sözləri qoç və atın ulu əcdadlarımızın bədii təfəkküründə də dərin iz buraxdığını bir daha sübut edir.

Qəhrəmanlıq dastanlarımızdan olan həm "Kitabi-Dədə Qorqud"da (5, s. 65-

66), həm də "Koroğlu"da (6, s. 171-172) biz ata olan xüsusi münasibətin şahidi ola bilərik. Yenə də "Koroğlu" dastanında onun əsas qəhrəmanının – Koroğlunun "Qoç Koroğlu" kimi adlandırılması da təsadüfi sayılmamalıdır (6, s. 171-172).

Onu da qeyd edək ki, keçmişin yadigarı sayılan qoç və at formalı məzar daşları heç də təkcə qədim əcdadlarmızın dini əqidəsini və ya fəlsəfi görüşünü deyil, həmçinin daşişləmə sənətinin tarixi, bədii üslub xüsusiyyətlərini də əks etdirir. Bu abidələr üslub xüsusiyyətlərinin müxtəlifliyi ilə daşdan düzəldilmiş plastik sənət tariximizin inkişaf yolları haqqında ətraflı məlumat verir. Belə ki, orta əsrlərin, eləcə də tədqiqat dövrünə aid zoomorf məzar daşları bizdə onu düzəldən ustanın fərdi yaradıcılığı, kompozisiya, rəsm, daşı kəsmə, oyma bacarığı və s. barəsində də lazımi təsəvvür əmələ gəlməsinə səbəb olur. Bundan əlavə, daş qoç və at heykəllərimizin yarandığı mühitin təbiətindən, daşından və ənənəsindən asılı olaraq o yerin bədii sənət üslubu haqqında da maraqlı məlumatlar verir.

Beləliklə, 2018-ci ildə Şəmkir bölgəsinə təşkil edilmiş elmi səfər zamanı beşi at, biri isə qoç formalı olmaqla altı zoomorf məzar daşı qeydə alındı. Qapanlı kənd qəbiristanlığında yerləşən həmin zoomorf məzar daşlarında ərəb əlifbası ilə həkk edilmiş kitabələr mövcud idi. Həmin kitabələrə əsasən haqqında bəhs olunan məzar daşlarının XIX əsrə aid olması müəyyən edildi. Bundan başqa baxımsız vəziyyətdə olan həmin məzar daşlarının gələcək aqibəti də müəmmalıdır. Daşişləmə sənətinin gözəl nümunələri sayıla biləcək bu abidələr onun yaratmış sənətkarın bədii estetik zövqü və dini dünyagörüşü haqqında da dolğun təsəvvür yaradır.

Məqalənin elmi əhəmiyyəti ondan ibarətdir ki, burada ilk dəfə Şəmkir bölgəsinin bir qrup zoomorf məzar daşı arxeoloji və epiqrafik baxımdan öyrənilmiş və bir daha təsdiq edilmişdir ki, həmin abidələr Azərbaycanın maddi və mənəvi mədəniyyəti üçün səciyyəvidir. Belə ki, bu abidələr xalqımızın ata və qoça olan xüsusi ehtiramını özündə ehtiva edir. Bu ehtiram həmin heyvanların təsərrüfatdakı faydalılığından, həm də onların müqəddəs Qurani-Kərimdə də xatırlanmasından qaynaqlanır.

Məqalənin əməli əhəmiyyəti ondan ibarətdir ki, zoomorf məzar daşları haqqındakı zəruri məlumatlar Azərbaycanın XIX əsr sakinlərinin dəfn adəti, daşişləmə sənəti, ideoloji təsəvvürləri və maddi mədəniyyətinin öyrənilməsində, eləcə də arxeoloji və etnoqrafik əsərlərin yazılmasında mənbə rolunu oynaya bilər. Həmçinin tələbələr, magistrlər, doktorantlar, elmi işçilər, müəllimlər və digər sənət sahibləri də məqalədən maddi və mənəvi mədəniyyət mövzusunun öyrənilməsi zamanı bəhrələnə bilərlər.

İstifadə edilmiş mənbə və ədəbiyyat siyahısı:

1. Ağazадə T., Babayev F. Hişkərədə qoç heykəli // Tarix və onun problemləri, № 2, 2000.
2. Cəfərzadə İ.M. Qobustan. Qayaüstü rəsmlər. Bakı, 1999.
3. Əfəndi R. Azərbaycan İncəsənəti. Bakı, 2007.
4. Ələkbərov A.İ. Qoyun-qoç fiqurlu qəbir daşları və onların yayılma arealı / Azərbaycanın antik və orta əsr arxeologiyası problemləri (Ö.Ş.İsmizadənin anadan olmasının 100 illiyinə həsr olunur). Bakı, 2006.
5. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, 2004.
6. Koroğlu. Bakı, 2005.
7. Quluzadə N.V. Azərbaycanda qoç inancı // Kültür evreni. Kültür Ajans Tanıtım ve Organizasyon Ltd. Şti., Ankara-Türkiyə, № 2, 2009.
8. Quluzadə N.V. E.ə. VI-III minilliklərdə maldarlıq təsərrüfatının heyvanlarla bağlı inanclara təsiri // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası, № 2, 2007.
9. Məmmədov K.H. Qoçbaşı abidələr / Altay dünyası, № 5-6, Bakı, 1999.
10. Milli Azərbaycan Tarixi Muzeyi Arxeologiya fondunun materialları: 27387, 27388, 24992
11. MATMAF: 27311, AF 1986, AF 253, 21386, AF 1453, AF 1146, AF 999, AF 2254, 24202, 27387, 27388, 24992, 7784
12. Nemət M. Azərbaycanda pirlər. Bakı, 1992.
13. Aliyeva H.M. Azerbaycan`da eski türklerin totemi olarak kabul edilen koç ve at fiğurlu mezar taşları / Uluslararası Türk Dünyası Eğitim Bilimleri ve Sosyal Bilimler Kongresi'nin materialları. Antalya, 2017.
14. Сысоев В.М. Нахичеванский край-Нах. ССР (Отчет о поездке летом 1927 года) / Изв. Азкомстарис, вып. 4 (тетрадь 2), Баку, 1929.
15. Qafan. http: // az.wikipedia.org/wiki/Qafan

Habiba Aliyeva, Nasir Guluzadeh

Zoomorphic tombstones in Gapanli village cemetery of Shamkir region

Summary

Key words: *Gapanli, horse, ram, gravestone, epigraphy.*

The presented article dedicated to the results of the scientific visit to Shamkir region in 2018 organized by the National Museum of the History of Azerbaijan. Zoomorphic tombstones had been discovered in the Gapanli village cemetery. Five of the gravestone are in the form of a horse and one in the form of a ram.

The authors provide information about the geographical location, description,

origin, inscriptions, similar examples and other interesting features of these tombstones.

These tombstones belonging to the XIX century are considered as epigraphic, historical and ethnographic sources.

Габиба Алиева, Насир Гулузаде

Зооморфные надгробия на кладбище села Гапанлы Шамкирского района

Резюме

Ключевые слова: *Гапанлы, лошадь, овен, надгробия, эпиграфика.*

Представленная статья посвящена результатам научной поездки в Шамкирский район, организованной Национальным музеем истории Азербайджана в 2018 году. Изучены надгробные зооморфные камни, обнаруженные на кладбище деревни Гапанлы. Пять из могильных камней были в форме лошади и одна в форме овна.

Авторы предоставляют информацию о географическом местоположении, описании, происхождении, надписях, аналогичных примерах и других интересных особенностях этих надгробных камней.

Надгробные плиты XIX века считаются ценными эпиграфическими, историческими и этнографическими источниками.

Aida İsmayılova

Orta əsr bəzək əşyalarının hazırlanma texnologiyasının bəzi xüsusiyyətləri

Açar sözlər: *artefakt, bəzək, hazırlanma texnologiyası, zərgərlik*

UOT 902

Artefaktlar arxeoloji qazıntıların nəticəsi olaraq aid olduqları dövrə aid bir çox informasiyanın daşıyıcıları və əvəzsiz əşyavi mənbədirlər. Həmin artefaktlara öyrənmək istədiyimiz problemin prizmasından baxmaq olduqca əhəmiyyətlidir. Bu mənada orta əsr bəzək əşyaları da istisna deyil. Bəzəklər maddi mədəniyyətin digər komponentləri kimi hər bir xalqın etnik-dini mənsubiyyətini, iqtisadi-mədəni inkişaf səviyyyəsini, estetik və bədii zövqünü müəyyənləşdirməkdə qiymətli mənbədir (1, s. 83). Bəzəklərin araşdırılması xalqın həm də rifahı ilə sıx bağlı olduğundan sosial-iqtisadi və mədəni tərəqqinin inkişaf dinamikasını, tənəzzül və yüksəlişin qabarıq əks etdirir. Məqalədə Milli Azərbaycan Tarixi muzeyinin IX-XIII əsrin əvvəlləri materiallarının nümunəsində bəzək əşyalarının hazırlanma texnologiyası ilə bağlı bəzi məsələlər öz əksini tapmışdır.

Arxeoloji tədqiqatların nəticələri Azərbaycanın orta əsr zərgərlərinin başlıca olaraq yerli xammala əsaslanmaqla istehsalı təşkil etdiklərini müəyyənləşdirməyə əsas verir. Kiçik Qafqazın filiz yataqlarından çıxarılan filiz yatağın yaxınlığında kürələrdə əridilir və bəzək əşyalarının istehsalı üçün xammal tədarük olunurdu (2, s. 104-105). Etnoqrafik tədqiqatlardan məlumdur ki, ənənəvi zərgər dükanlarında başlıca xammal növləri olan qızıl, gümüş və ləl-cəvahirat həm satınalma yolla əldə olunur, həm də sifarişçinin özü tərəfindən təqdim edilirdi. Zinət istehsalında mühüm texnoloji tələblərindən biri xammalın xalis deyil, başqa metallarla (mis, gümüş) qarışıq tərkibdə işlənməsindən ibarət idi. Məhz bu yolla qatışığın əritmə, döymə və həddəmləmə əməliyyatları üçün zərurui olan yumşaqlığı və elastikliyi tənzimlənirdi. Zinət istehsalının mühüm texnoloji tələblərindən biri xammalın xails deyil, başqa metallarla (mis, gümüş) qatışıq tərkibdə işlənməsindən ibarət idi. Bu yolla qatışığın

əritmə, döymə və həddələmə əməliyyatları üçün zəruri olan yumşaqlığı və elastikliyi tənzimlənirdi. Zərgərlik məmulatı yerlik, haşiyə və mərkəz sahə olmaqla, müxtəlif bəzək ünsürlərindən, çox vaxt isə əlavə bəndləyici hissələrdən ibarət tərtiblənirdi. Zərgərliyin ən qədim və bəsit üsullarından biri qəlibkarlıq olmuşdur. Sonrakı mərhələdə isə arayışlama, bəndləmə, lehimləmə, rəngləmə prosesləri aparılırdı. Bəzək əşyalarının hazırlanma texnologiyası xammaldan və təyinatından asılı olaraq fərqli idi (5, s. 197-198, 204-207).

Metal bilərziklərin istehsalında yerli zərgərlər müxtəlif texniki üsullardan yararlanmışdılar. En kəsiyi dairəvi, boru formalı olan bilərziklər düzəldilərkən xammal, metal təbəqə döyülərək nazikləşdirilir və ondan hazırlanacaq bilərziyin ölçüsünə uyğun hissəsələr kəsilirdi. Həmin nazik lövhə boru şəklinə salınmaq üçün tədricən əyilərək ucları bir-birinin üstünə qoyulur və döymə üsulu ilə bir qədər bərkidildikdən sonra üzləri lehimlənirdi. Hazırlanan bu mis borucuqdan bilərzik düzəltmək üçün onun içərisinə əvvəlcə qum doldurulur və qızdırıldıqdan sonra tədricən əyilərək dairə-bilərzik şəklinə salınırdı. Bu bilərziklərin üzərinə naxışlar zərb üsulu ilə vurulurdu.

En kəsiyi dairəvi olan bilərziklərin böyük bir hissəsi müxtəlif diametrdə məftildən hazırlanmışdır. Məftilçəkmə prosesi zamanı əvvəlcə üzərində cərgə ilə müxtəlif diametrli deşiklər açılmış metaldan düzbucaqlı bir təbəqə hazırlanır. İstənilən diametrdən məftil almaq üçün metal çubuq qızdırılır və sonra həmin deşiklərdən kəlbətinlə dartma üsulu ilə çəkilib çıxarılır (4, s. 98).

En kəsiyi yarımdairəvi olan bilərziklər əsasən tökmə və döymə üsulu ilə hazırlanmışdır. Tökmə üsulu ilə hazırlamaq üçün əvvəlcə qəlib hazırlanır, sonra metal əridilərək oraya tökülür və üstünə hamar qapaq- daş qoyulur. En kəsiyi yarımdairəvi olan uzun çubuq alınır. Çubuq lazımi ölçüdə kəsilir, isidilir və hamar tərəfi içəriyə olmaqla tədricən əyilərək dairəvi bilərzik şəklinə salınır. Döymə üsulunda isə əvvəlcə mis təbəqə çubuq formasında kəsilir və döyülüb məftil şəklinə salınır. Sonra döymə üsulu ilə bir tərəfi düz, digər tərəf isə yarımdairəyə oxşar formada düzəldilir (4, s. 94). En kəsiyi rombvari olan bilərziklərin hazırlanma texnologiyası en kəsiyi yarımdairəvi olan döymə üsulu ilə hazırlananlarla eynidir. Fərqli cəhəti en kəsiyinin rombvari olmasıdır.

Ümumiyyətlə, bilərziklərin istehsalında tökmə, döymə, eşmə, lehimləmə, bəndedilmə, zərbetmə və s. üsullardan istifadə edilmişdi və tədqiq olunan dövrün zərgərlik sənətinin inkişafının və uyğun idi.

Şüşə bilərziklərin istehsalında tətbiqivə texniki üsullar əsasən aşağıdakılardan ibarətdir. Ərinmiş şüşə kütləsindən çubuq çəkilərək onun halqa şəklində əyib, ucların birləşdirilməsi başlıca üsul idi. Halqa şəklinə salınan şüşə çubuq hələ istikən ucları adətən, biri-digərinin üzərinə qoyularaq sıxılır və yapışdırılırdı. Bəzən uclar qaynaq edilirdi. MATM-ın Arxeologiya fondunda qorunan şüşə bilərzik nümunələrinin bir çoxunda ucların birləşmə, qaynaq yeri aydın bilinir. Eşmə

üsulu ilə hazırlanan bilərziklər nazik şüşə çubuqların yumşaq vəziyyətdə xüsusi alətin köməyi ilə eşilərək hazırlanırdı. İnkrustasiya ilə bəzədilmiş bilərziklərin istehsal texnologiyası bir qədər mürəkkəb idi. Saxsı və ya metal lövhənin üzərinə rəngbərəng şüşə dənəciklər tökülür, şüşə əsası yumşalana qədər isidib lövhənin lövhənin üzərindəki şüşə qırıntılarının üzəri ilə o tərəf bu tərəfə yayırdılar. Nəticədə rəngli şüşə qırıntıları bilərziyin hazırlanacağı əsasa yapışır, üstdə xüsusi polixrom təbəqə yaradırdı (6, s. 78).

Bunu da qeyd edək ki, orta əsr Şabran şəhərinin şüşə məmulatının spektral analizi orta əsr Azərbaycan şəhərlərində şüşə məmulatı istehsalında Na-Ca-Si şüşə sinfinə üstünlük verildiyi halda bilərziklərin istehsalında Na-Pb-Si tərkibli şüşədən də istifadə olunduğunu göstərmişdir. Belə şüşə hazırlanarkən reseptdə dəyişiklik edilir, başlıca komponent kimi silisium-qurğuşun-natrium-kalium-kalsium-maqnezium oksidləri iştirak edir. Na-Ca-Si şüşə sinfinə daxil olan tiplərdə silisium oksidinin miqdarı 6,4-65 % olduğu halda Na-Pb-Si sinfinə mənsub şüşə tiplərində xeyli aşağı 30-40 % təşkil edir. Əksinə qurğuşun və qalayın tərkibdə payı yüksəlir, bəzən 20 % artıq olur. Misal üçün Şabran şəhər yerindən tapılmış, bu tipə aid şüşə bilərzik nümunələrində qurğuşun oksidinin miqdarı 10-20 %-ə qədərdir (3, s. 181).

Etnoqrafik materiallardan aydın olur ki, üzük düzəltmək üçün aşqarlı qızıl ərintisini butadan rəcəyə töküb soyudandan sonra xüsusi üzük qəlbinin müvafiq novçasında döyürdülər. Ərintinin novçaya düşən üzü qabarıq, əks üzü isə yastı forma alırdı. Bu qayda ilə hazırlanmış barmaqcığı tələb olunan ölçüdə qayçı ilə kəsdikdən sonra yastı üzünün üstünə əyib qatlayır və ağız-ağıza kətirirdilər. Üzük xişdək və üzük milinin köməyi ilə lazımi formaya salınırdı (5, s. 208).

Üzüyün uclarını bir-birinə bitişdirmək üçün ilişgə sahəsinə müvafiq ölçülü lehim tikəsi kəsib qoyandan sonra əl məngənəsində onu ehmalca sıxır və kürəyə qoyurdular. Hərarət nəticəsində lehim əriyib üzüyün uclarını bir-birinə bitişdirilirdi.

Qaşlı üzüklərə bədii tərtibat etibarı ilə bir-birindən fərqlənən müxtəlif formalı "qaş" əlavə edilirdi. Bir qayda olaraq, üzük qaşı ya qızıldan, ya da cəvahiratdan (yaqut, firuzə, zümrüd, ləl, əqiq, brilyant) düzəldilirdi. Üzüyün qaşı daş-qaşla tərtibləndikdə ona qızıldan müvafiq formalı oturacaq düzəldilirdi. Üzük qaşının oturacaqlı lehimləmə üsulu ilə onun üstünə bərkidilirdi (5, s. 208-209).

Üzüklərin bir hissəsi en kəsiyi dairəvi olan məftil, digər hissəsi isə ensiz metal lentdən düzəldilmişdir. Məftildən halqa şəklində düzəldilmiş üzüklərin ucu qaynaq edilərək birləşdirilmişdir. Qaşlı üzüklərin halqaları ya məftildən, ya da ensiz metal lentdən qaşları isə mineral daşlardan, ya da metal lövhədən hazırlanmışdır. Qaşları metaldan olan üzüklərin bir qismi üzük-möhürlərdir.

En kəsiyi dairəvi olan qaşlı üzüklərin hazırlanması üçün əvvəlcə halqası, sonra qaşları düzəldilir. Halqa üçün məftil istənilən ölçüdə kəsilir və qızdırıldıqdan sonra tədricən əyilərək ucbauc birləşdirilib qaynaq edilir. Döymə üsulu ilə üzüyün qaşı yastılanaraq təbəqə halına salınır və istənilən formada düzəldilir. Gəncə və Beyləqan

şəhər yerlərindən qaşı kvadrat, düzbucaqlı, rombvari, dairəvi, oval formalı olan üzüklər tapılmışdır.

En kəsiyi lent şəklində olan digər üzüklər hazırlanarkən istənilən diametrdə məftil götürülərək döymə üsulu ilə ensiz lent şəklinə salınır. Üzüyün ölçüsünə uyğun hissələr kəsilərək isitmə yolu ilə halqa şəklində düzəldilir. Belə üzüklərin qaşları halqasına nisbətən enli olub, müxtəlif formada hazırlanır.

Daş-qaşlı üzüklərdə isə halqanın hazırlanması qaydası eyni idi, mineral daşlar üçün əvvəlcədən düzəldilmiş daş yuvası qaynaq yolu ilə üzüyün halqasına yapışdırılaraq sonradan mineral daş yerinə taxılır və qaşın qıraqları bərkidilir.

Sırğaların da hazırlanmasında əsasən döymə üsulu tətbiq olunurdu. Asmalar isə əsasən tökmə üsulu ilə hazırlanmışdır. Beyləqan şəhərindən tapılmış metal bəzək əşyalarının kimyəvi tərkibinin müəyyən edilməsi üçün aparılan analizin nəticələrinə əsasən tərkibdə aparıcı metal mis olmuşdur (9, s. 80-82).

Azərbaycanın orta əsr abidələrindən tapılmış metal zinət əşyalarının spektral analizinin nəticələrinə əsasən demək olar ki, onların əksəriyyəti bir metaldan deyil, bir neçə metalın qarışığından hazırlanmışdır. Bunlardan Beyləqanın IX-XII əsrlərə aid olan mis bilərziyinin (8 qram) tərkibində 5,1 % qalay, 8,4 %, qurğuşun, 2,9% sink, 0,6 % mərgümüş, 0,2 % sürmə, gümüş 0,17 %, bismut 0,0005 %, nikel 0,02 %, kobalt, 0,005 %, dəmir 0,2 %-dir. Digər zinət növlərindən olan bilərzik və üzüyün tərkibində və müxtəlif komponentlər aşkar olunmuşdur (8, s. 172-173).

Azərbaycanda orta əsrlərdə sənətkarlar əqiq, obsidian, yaşma, dağ bülluru, firuzə kimi daşlardan nəfis zərgərlik məmulatı hazırlanmasında istifadə etmişlər. Onların içərisində əqiq muncuqlar üstünlük təşkil edir. Əqiq muncuqları hazırlamaq üçün əvvəlcə xammalı isti kürənin içərisində yerləşdirib, onu təzəklə qarışdırırdılar. Bu zaman əqiqin tərkibindəki su çıxır və onun keyfiyyəti daha da yaxşılaşır. Bundan sonra sobadan çıxan əqiq halqa forması alır.

Başqa bir üsul isə əqiqi sobada qızdırır və sonra isti dəmirin üzərində ehtiyatla döyərək istənilən formaya salırdılar. Sonradan həmin əqiq parçasını muncuq hazırlamaq üçün müxtəlif ölçüdə kəsirdilər. Kəsmə əməliyyatını deşmə əvəz edirdi. Muncuqda hər iki tərəfdən burğu vasitəsilə deşik açılırdı (7, s. 89-90).

Şüşə muncuqlar müxtəlif rəngli və formalıdırlar. Xırda muncuqları boru formalı dartılmış şüşə kütləsini kiçik hissələrə doğramaqla hazırlamışlar. Bəzi muncuqların hazırlanmasında isə metal çubuqlardan istifadə edilirdi. Həmin çubuq hazır xəlitəyə basılır. Şüşə ərintini soyutduqdan sonra muncuqlar istənilən ölçüdə doğranırdı.

Metal çubuqla yanaşı uzadılmış şüşə çubuqlardan da istifadə edilmişdir. Digər muncuqlardan fərqli olaraq bunların deşiyi tam formalaşmadan sonra açılırdı. Dairəvi yaxud yastılanmış eyni rəngli, iki və çox təbəqəli şüşə kütləsindən kəsilir, üzərləri cilalanır və burğu vasitəsilə deşik açılırdı. Həm xarici, həm də texnoloji xüsusiyyətlərinə görə gözmuncuqları digər muncuqlardan fərqlənirlər. Belə "gözcüklü" muncuqları hazırlamaq üçün əvvəlcə muncuqlar, sonra isə ayrıca olaraq

"gözlər" hazırlanırdı. Sonra həmin "gözlər" hazır muncuğa geydirilir və yenidən həmin yerə maye şüşə kütləsi tökülürdü. Mərkəzi "gözün" ətrafına iki rəng ağ və qara, bəzi hallarda isə göy rəngli şüşə kütləsi tökülür və beləliklə ağ fonda qara kipoiklər alınırdı. Birrəngli muncuqların üzərində xırda ovuntular əmələ gətirilərək həmin ovuqlara müxtəlif rəngli şüşə kütləsi tökmək yolu ilə inkrustasiya edilmiş muncuqlar hazırlanırdı (7, s. 88).

Muncuqların hazırlanmasında ən son əməliyyat cilalama prosesindən ibarətdir. Bu proses sənətkardan böyük səy və vaxt tələb edirdi. Digər qiymətli daşlardan muncuq hazırlanmasında da eyni texnoloji üsullardan istifadə olunmuşdur.

Sümükişləmə sənətində əsas xammal kimi ev heyvanlarının sümük və buynuzlarından geniş istifadə edilmişdir. Sümüyü istifadə etməmişdən öncə onu yaxşıca qaynadırdılar. Bu proses nəticəsində sümük yumşalırdı və onu kəsmək asan olurdu. Sümüyün bıçaqla kəsilməsi çox çətin olduğundan onu mişarlayaraq hissələrə ayırırdılar. Deşik açmaq üçün isə daş burğulardan istifadə edilirdi.

Sümük düymələri hazırlamaq üçün əvvəlcə lazımi ölçüdə sümük hissəsi kəsilirdi. Bunun üçün boru formalı sümükdən istifadə edilirdi. Kəsilmiş sümük hissənin hər tərəfi yaxşıca cilalanır və üzərində deşik açılırdı. Sonrakı əməliyyat naxışaçmadan ibarət idi (6, s. 92).

MATM-ın kolleksiyasındakı bəzək əşyalarının hazırlanma texnologiyasının təhlilinə yekun vuraraq belə qənaətə gələ bilərik ki, orta əsrlərdə Azərbaycan xalqının məişətində işlədilən bəzək əşyaları Şərq üçün səciyyəvi olan kateqoriyaları əhatə edir və yerli sənətkarlar dövrün texniki nailiyyətlərinə yiyələnmiş, zərif sənət əsərləri yaratmışdır.

İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı:

1. Azərbaycan etnoqrafiyası: 3 cilddə, II c., Bakı, 2007.
2. Dostiyev T.M. Azərbaycanın orta əsr şəhərləri (IX-XIII əsrin əvvəlləri). Bakı, 2016.
3. Dostiyev T.M. Şimal-şərqi Azərbaycan IX-XV əsrlərdə. Bakı, 2001.
4. İbrahimov F.Ə. Azərbaycanın orta əsr şəhərlərində metalişləmə sənəti. Bakı, 1988.
5. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq (tarixi-etnoqrafik tədqiqat). Bakı, 1999.
6. Rəcəbova B.A. Azərbaycanın ənənəvi sənətkarlıq məmulatı və istehsal tarixindən (IV-XVII əsrlər). Bakı, 2009.
7. Rəcəbova B.A. Azərbaycanın orta əsr qadın bəzəkləri (IV-XIII əsrlər). Bakı, 2000.
8. Rəcəbova B.A. Zərgərlikdə istifadə olunan bəzi metallar haqqında / Bakı Universitetinin xəbərləri, humanitar elmlər seriyası, № 1, Bakı, 2012.

9. Рагимова М., Алиева Л. Проблемы употребления некоторых металлов в средневековом Азербайджане XII-XIII вв. Баку, 2003.

Aida İsmailova

Some features of the technology of preparing medieval decorations

Summary

Key words: *artifacts, decor, preparing technology, goldsmith*

The article deals with the technology of making jewelry related to the IX-XIII centuries. Some features of bracelets, rings, beads, buttons were mentioned. One of the oldest and simplest ways of jewelry production is moulding. And in the subsequent carried out binding, soldering, painting, polishing and polishing.

Аида Исмаилова

Некоторые особенности технологии изготовлении средневековых украшений

Резюме

Ключевые слова: *артефакты, декор, технология изготовлении, ювелирное дело*

В статье рассматривается технология изготовления ювелирных изделий, относящихся к IX-XIII векам. Были упомянуты некоторые особенности браслетов, колец, бусинок, пуговиц. Один из старейших и самых простых способов ювелирного производства - литье. А в последующем выполняли связывание, пайку, покраску, шлифовку и полировку.

Малахат Фараджева

Планы жилищ на скалах Гобустана

Ключевые слова: *петролифы Гобустана, пещера Ана зага, Беюкдаш, Кичикдаш, культурный ландшафт археологического комплекса Гобустан.*

UOT 902

Введение

Культурно-исторический феномен археологического комплекса Гобустан находится на западном берегу Каспийского моря на стыке между Европой и Азией, который на протяжении тысячилетий являлся транзитной территорией.

Следует отметить,что в ландшафте Гобустана горы являются одной из самых ярких его достопримечательностей. Плоские вершины с раскинутыми скалистыми глыбами у подножия гор представляют необычный пейзаж, которые своими причудливыми формами стали местом активной человеческой жизнедеятельности. Расположенные вплотную друг к другу, эти глыбы образовывали пещеры, которые на протяжении тысячелетий служили для древних поселенцев как жилища и культовые святилища, где проходили ритуальные церемонии, магические обряды, поклонение духам предков и гор. В этом отношении Гобустан являл собой идеальный ландшафт для традиционного обитания общества номадов аридной зоны Азербайджана (Рис. 1).

Результаты исследования

Археологический комплекс Гобустана составляет площадь 4530 га территории, где расположены более тысячи археологических памятников, датируемых начиная с эпохи раннего мезолита до средних веков. Эти памятники гармонично вписываются в ландшафт и образуют культурный контекст, где отразилась в достаточной полноте эволюция общественной, культурной жизни и мировоззрения древнего населения Гобустана.

Следует отметить, что местный культурный ландшафт зафиксирован по 2-м тенденциям:

- Несмотря на то, что стоянки и поселения рассредоточены на большой территории Гобустана, они относительно небольшие;
- Процесс расселения и культурная система показывает долгую продолжительность, которая повлияла на своего рода устройство и расположение жилищ и поселений, а также на материальную культуру.

Главным компонентом культовой зоны и смысловым центром всего комплекса являлись горы Беюкдаш, Кичикдаш и Джингирдаг. Петроглифы сосредоточены, в основном, со стороны моря.Начиная с эпохи бронзы до средневековья Гобустан приблизительно представлял современный ландшафт без особых изменений.

В период средневековья на территории Гобустана появляются караван-сараи, места поклонения-святилища, средневековые кладбища и захоронения с разнообразными надгробными плитами с арабской и фарсидской надписью, с выбитыми различными изображениями на камнях. Появляются схематические изображения козлов, караванов верблюдов, вооруженные копьями всадники, надписи и изображения с религиозной и исламской тематикой. Жители Гобустанских гор мигрируют на низменные территории. Но в горах функционируют гышлаги для сезонного использования. В это время территория Азербайджана была густо заселена. В этот период уже существовали такие государства как Манна и Мидия, Атропатена, Албания. Происходят такие крупные события, как нашествие Римской империи, Арабского халифата, возникают ханства[1]. Все перечисленные события каким-то образом отразились на наскальных изображениях Гобустана. В средневековье живописная природа и причудливое нагромождение скал Гобустана и инжировая роща в Дубенды были одними из близких мест к средневековым городам и селам на побережье Каспийского моря и поэтому ханы, беки и придворная знать использовали эти территории как места отдыха и охоты на коз, онагров-гюров. Все эти развлечения живописно и ярко отразились на наскальных изображениях Гобустана, Абшеронского полуострова, Гемигая, Кельбаджар и миниатюрах Азербайджана. Античный и раннесредневековый период в Азербайджане выявлен в Гейтепе, Гараджамирли, в античной Габале, Галатепе, Шамкир и Агсу.

Особую категорию петроглифов на наскальных изображениях Азербайджана составляют планы жилищ. Общеизвестно, что в местах, имеющих поблизости пастбища и удобные для земледелия территории, появлялись поселения. Планы жилищ и поселений обнаружены в Гобустане на верхней террасе горы Беюкдаш на камне 35, на камне 29 с северной стороны фигуры 82, 84 [2]; (Рис. 2; 3;9) на горе Джингирдаг –Язылы тепе на

камне 1 фигура 12 [Рис. 4]. План поселения на камне 35 очень напоминает круглоплановую сроительную архитектуру из сырцового кирпича эпохи неолита и энеолита Азербайджана, представленную на таких поселениях как Гейтепе, Исмаиллы тепе, Овчулар тепеси [3, р.74-82] (Рис. 5). На камне 35 возможно представлена планировочная композиция поселения (подведенные к жилищам пути, изгороди, круглоплановые жилища), которые в какой-то степени выявляют контуры и виды планировки жилых образований в древности. Думается, что здесь изображена планировочная структура небольшого поселения. На камне изображен схематический план небольшого поселения с оградами, обозначающими хозяйственные дворы и разделяющими жилые строения. Этому периоду также характерны изображения козлов в реальную величину с пересекающими тело линиями, танцующие фигуры, напоминающие национальный танец «яллы» как на верхней террасе горы Беюкдаш на камнях 46 и 86. Они датируются ранним периодом эпохи бронзы. По-видимому линии на теле животного высекались в целях магии. Подобного рода пережитки магических приемов сохранились в Азербайджане до начала XX века. Они применялись не только в целях удачной охоты, но и как оберег для животных от хищников или оставшихся без надзора в лесу, поле и для уничтожения «кровного врага» [4, стр.563].

Изображения ***планов жилищ*** эпохи раннего железа, зафиксированные на верхней террасе горы Беюкдаш на камне 29 с северной стороны (фиг.82,84) представляют изгородь и две ячейки. Линии, проходящие между ячейками делят строение на части. Имеющиеся в петроглифе овалы и треугольники возможно показывают места для хранения сена или загона для скота. Данная планировка находит некоторое сходство с планом поселения, который был обнаружен археологами на вершине горы Беюкдаш (Рис. 6-2), [5, стр.18]. Удивительное аналогии они находят с планами жилищ отдаленных регионов местности Camel site в Негев (Рис. 7) [6, стр.416].

Не менее интересно изображение на камне 1 горы Джингирдаг, которое было изучено и дополнено деталями [7, камень 1, фиг.12]. ***План постройки на камне 1*** имеет сходство с домами раннего и позднего средневековья. Схема жилища, представленная на камне 1 на горе Джингирдаг очень напоминает архитектуру селения Гала. Такого типа жилища в средневековье строились с глиняными или каменными дымоходами - отверстиями в виде круглоплановых выступов и назывались местными жителями «дублалы эв» [8, стр.93,105,109]. Жилища обычно строились 2-х комнатные, посередине сравнительно большой комнаты располагали очаг- «кюрсю» (Рис. 6-1). Сходство изображения с планом остатков сооружения из 2-х комнат, находящегося рядом с камнем 1 наталкивают на мысль, что здесь изображен план данного типа строения. Планировочные композиции поселений и жилищ довольно частый сюжет в

наскальном искусстве. Они представлены в коллекции наскального искусства Сармышсая, в Кураминских горах в Ташкентской области и др. [9, p.197-205]. Среди крупных многофигурных композиций в наскальном искусстве Кызыл – Келя зафиксированы фигуры козлов в непосредственной близости или внутри овальных и круглых сооружений. По мнению А.П.Окладникова расположение козлов и лошадей рядом с круглоплановыми изображениями, позволяет предположить, что на скалах показаны загоны для скота или ловушки для диких животных. В качестве примера он приводит остатки круглых оградок, выложенных из крупных валунов, которые встречаются между моренными грядами рядом с петроглифами в Елангаше. Центральную часть оградок обычно пересекают цепи камней, по периметру которых расположены сооружения из валунов в несколько рядов. Подобные оградки изображены на скалах Елангаша и имеют идентичные перегородки. По всей видимости, данные загоны-оградки использовались для содержания животных во время непогоды и в ночное время. Такого типа дворы-оградки также встречаются на петроглифах Алтая, Тувы и Забайкалья. Следует отметить, что на петроглифах Тувы ограды располагаются непосрественно с изображениями жилищ. Данные оградки А.П.Окладников рассматривает как границу территории древнего владения рода и как символы изобилия и плодородия [10, стр. 50, 114].

На скалах Гобустана также можно встретить многочисленные изображения тамг-знаков племенной принадлежности и родовой собственности. Они чаще всего встречаются на караванных путях, вблизи древних поселений. Эти знаки встречаются на всем пространстве Большого Гобустана, отмечая древний путь (Рис.8). Караваны верблюдов, отмеченные на горах Беюкдаш и Кичикдаш и караван-сараи указывают на пути передвижения торговых путей. Это говорит о том, что с древних времен Гобустанская зона находилась на транзитной территории между Европой и Азией. Таков приблизительный историко-культурный контекст петроглифов Гобустана, сохранивший до наших дней своего рода повествования, которые могут интерпретироваться как рассказы прославления мифических родоначальниц, архаических охотников, немногих пережитков ритуальных обрядов.

Выводы

Практика изучения в области наскального искусства показала, что изображенные на скалах петроглифы и ландшафт, как правило, тесно взаимосвязаны между собой. Ландшафт играет важную и зачастую ключевую роль на всех уровнях интепретации петроглифов. Места наскального искусства могут находиться недалеко от естественно определенных сакральных мест и не всегда локализуются именно ими. Напротив, весьма часто эти места сосредоточены на более масштабных по размеру территориях и считающихся

сакральными ландшафтными зонами. Во-вторых, эти места сосредоточены недалеко от водных источников, причем вне зависимости от того, были ли эти места заселены человеком или нет. В-третьих, для этих целей, как правило, выбирались пещеры или площадки с которых, открывались красивые природные ландшафты [11, с.116]. Памятники Гобустана образуют целый комплекс, как совокупность археологических объектов разных видов (поселения, пещеры, курганы, петроглифы, кладбища, захоронения, святые места и др.) охватывающих период от раннего мезолита до средних веков и Нового времени.

Список использованной литературы:

1. Azərbaycan Tarixi. XI cilddə. 1-ci cild. Bakı, 2007.
2. Farajova M. About specifics of rock art of Gobustan and some innovative approaches to its interpretation ("Firuz 2" shelter). / Quaternary International. 2017.
3. Quliyev F., Nişiyaki Y., Hüseynov F., Kadowaki S., Tanno K., Hayakawa Y., Hacızadə N., Babayeva T., Kume S., Shimogama K., Arimatsu Y., Ch.Akashi. Göytəpə neolit yaşayış yerində arxeoloji qazıntılar//Azərbaycanda Arxeolojı tədqiqatlar - 2009. Bakı, 2010.
4. Cəfərzadə İ.. Məqalələr toplusu., Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.Qobustan Milli Tarix – Bədii Qoruğu / Baş redaktor t.e.d. Q.İsmayılzadə. Bakı, 2012.
5. Muradova F. Qobustan tunc dövründə. Bakı, 1979.
6. Steven A. Rosen. Handbook of Landscape Archaeology. 2008.
7. Джафарзаде И.М. Гобустан. Баку, 1973.
8. Əliyeva R. Unikal Qala kəndi. Bakı, 2007.
9. Tashbayeva K., Khujanazarov M., Panov V., Samashev Z. Petroglyphs of central Asia. Bishkek, 2001.
10. Окладников А. П. Окладникова Е.А. Древние рисунки Кызыл – Келя. Новосибирск, 1985.
11. Paul S.C.Taçon. Theory building and model making in Australian rock art research, / Theoretical Perspectives in Rock Art Research. Ed. Helskog K., Oslo, Novus forlag, 2001.

Məlahət Fərəcova
Qobustan qayalarında yaşayış məskənlərinin planı

Xülasə

Açar sözlər: *Qobustan petroqlifləri, Ana zağa mağarası, Kiçikdaş, Qobustan arxeoloji kompleksinin mədəni landşaftı.*

Qobustan arxeoloji kompleksi tarixi erkən tunc dövründən orta əsrlərə qədər olan mindən çox arexoloji abidənin yerləşdiyi 4530 ha ərazidən ibarətdir. Bu abidələr ərazi ilə ahəngdarlıq təşkil edərək, cəmiyyətin inkişafını bütünlüklə əks etdirən mədəni kontekst yaradır. Azərbaycan qayaüstü rəsmlərinin əsas kateqoriyasını sığınacaqlar və yaşayış yerlərinin planları təşkil edir, hansı ki, Qosbustanda Böyükdaş dağının yuxarı səkisində 35 nömrəli daşın üzərində, 29 nömrəli daşın şimal hissəsində və Cingirdağ dağında – Yazılı təpədə 1 nömrəli daşın üzərində aşkar olunmuşdur. Yeni aşkar olunmuş təsvirlər əsasında müəllif sığınacaq və yaşayış məskənlərini yenidən yaratmağa cəhd etmişdir. Nəticədə Xəzər dənizinin qərb sahilinin tunc dövründən orta əsrlərə qədər mövcud olmuş mədəni landşaftının yenidən qurulması mümkün oldu.

Malahat Farajova
Plans of the residential settlements on Gobustan Rocks

Summary

Key words: *Petroglyphs of Gobustan, Ana zaga cave, Kichikdash, Cultural Landscape of Gobustan archaeological complex.*

The Gobustan archaeological complex consists of 4530 hectares of land dating from the Early Bronze Age to the Middle Ages. These monuments arrange harmony with the territory and create a cultural context that fully reflects the development of society. The main categories of Azerbaijan rock paintings are shelters and plans for settlements, which were found on the upper terrase of the Boyukdash Mountain on the stone number 35, also in the northern part of the stone number 29 and on Cingirdag ountain- Yazili tepe on stone number 1. Based on newly discovered images, the author attempted to recreate shelters and settlements. As a result, reconstruction of the western coast of the Caspian Sea from the Bronze Age to the Middle Ages was possible.

Подрисуночные подписи

1. Дислокация основных стоянок и поселений с конца верхнего палеолита до средневековья на юго-западном побережье Каспийского моря (М.Фараджева, 2017).
2. Гора Беюкдаш, верхняя терраса, камень 35. Предполагаемый план поселения (М.Фараджева, 2016).
3. Гора Беюкдаш, пещера Ана зага. Камень 29 (северная сторона) (М.Фараджева, 2014).
4. Гора Джингирдаг. План жилища на камне 1(М.Фараджева, 2016).
5. Круглоплановые поселения эпохи неолита и энеолита: 1- Исмаиллы тепе (Алмеммедов Х.И. и др.,2012); 2 –Ментештепе (Ф.Гулиев и др., 2012); 3- Гейтепе (Ф.Гулиев и др., 2012).
6. 1 - архитектура селения Гала (R.Əliyeva,2007); 2 - План поселения на вершине горы Беюкдаш (Мурадова.Ф., 1979).
7. Архитектура жилищ местности Camel site в Негев (After Steven A. Rosen, 2008, стр.416).
8. Караваны и святилища –«пиры» на территории Большого Гобустана.
9. Гобустан, гора Беюкдаш, камень 29 с северной стороны. 3D планы жилищ (малиновый цвет) периода раннего железа.



Qobustan, Jingirdagh mountain, stone 1





Qala village.Housing scheme. R. Aliyeva, 2007



Gobustan, Beyukdash settlement. F.Muradova, 1979

Gobustan, Beyukdash mountain, upper terrase, stone 35




КАРАВАНСАРАИ И СВЯТИЛИЩА НА ТЕРРИТОРИИ БОЛЬШОГО ГОБУСТАНА
1.Каравансарай "Сангачал"
2.Святилище "Суфи Хамид"
3.Каравансарай "Гарачылар"
4.Святилище "Йел пири"
5.Святилище "Хури гызлары" ("Дочери гурий")
6.Святилище "Чевирме баба"
7.Святилище "Гара Атлы"
8.Святилище "Пир Гусейн"
9.Святилище "Суфи Новруз"



İlyas Babayev, Sevil Ağamalıyeva, Laçın Mustafayev,
Ülviyyə Heydərova, Sevinc Hüseynova

2017-ci ildə Qəbələnin Antik şəhər ərazisinin V qazıntı sahəsində aparılan arxeoloji tədqiqatlar

Açar sözlər: *Antik şəhər, oval tikili, keramika, çiy kərpic, kirəmit, əhəng və çınqıl qarışıqlı döşəmə*

UOT 902

2017-ci ilin 15 iyun – 15 iyul tarixlərində Qəbələ arxeoloji ekspedisiyası AMEA-nın müxbir üzvü, t.ü.e.d., prof. İlyas Babayevin rəhbərliyi ilə Qəbələnin Antik şəhər yerinin, digər elmi ədəbiyyatlarda "Çaqqallı", "Güllütala", "Antik ərazi" və s. kimi adlandırılan V qazıntı sahəsində arxeoloji tədqiqatlar aparmışdır. Qaraçay və Qoçalan çayları arasında olan yüksəklikdə yerləşən Antik şəhər yeri 50 hektardan çox ərazini əhatə edir. E.ə. IV – b.e. I əsrlərində Qafqaz Albaniyası dövlətinin mərkəzi şəhəri olan bu tarixi abidənin qalıqları müasir Qəbələ şəhərindən 20 km cənub – qərbdə, Çuxur Qəbələ, Tövlə və Şamlı kəndlərinin yaxınlığında yerləşir (8, s. 56; 7, s. 47).

Antik şəhər ərazisində aparılan uzun illərin arxeoloji qazıntıları nəticəsində müəyyən edilmişdir ki, bu ərazidə e.ə. II minilliyin sonunda yaşayış yeri olmuş, e.ə. I minilliyin sonunda isə şəhərə çevrilmişdir. Bu faktı Antik şəhərin IV qazıntı sahəsindən əldə edilən materiallar və xeyli sayda təsərrüfat quyularının izlənildiyi son tunc – erkən dəmir dövrünə aid zəngin mədəni təbəqə təsdiq edir (2, s. 372; 4, s. 24; 6, s. 27).

V qazıntı sahəsinin tədqiqat obyekti kimi seçilməsi təsadüfi xarakter daşımır. Bu qazıntı sahəsi şəhər yerinin cənub hissəsində, müdafiə divarlarının yaxınlığındadır. Şəhər yerinin bu hissəsinə məxsus olan ərazisini perspektivli sahə kimi qiymətləndirmək olar. Belə ki, 1967–1983-cü illərdə I və II qazıntı sahələrində (I, II qazıntı sahələri V qazıntı sahəsinin yaxınlığındadır) aparılan arxeoloji qazıntılar zamanı ictimai binaların qalıqları, xeyli sayda dam örtüyü kimi istifadə olunan kirəmitlər, gil bullalar, e.ə. III-I əsrlərdə zərb olunan yerli pullar, eyni zamanda

ticarət, iqtisadi və mədəni münasibətlət zamanı başqa ölkələrdən gətirilən, Parfıya hökmdarlarının draxmaları, Yuli Sezarın və Klodinin (Roma) gümüş denariləri tapılmışdır (11; 12, s. 177–196; 8, s. 59-60, 62; 7, s. 50-51). Tapıntılar arasında digər ölkələrdən gətirilən əşyalar da vardır.

Qeyd edək ki, antik dövrədək Azərbaycanın tikinti texnikası və memarlığında kirəmitlərdən istifadə edilmirdi. Belə tapıntıya ilk dəfə olaraq kütləvi halda Qəbələnin Antik şəhər yerində rast gəlinmişdir (10, s. 48–49; 11, s. 77–78). Kirəmitlərdən tikintidə istifadə edilməsi antik dünyanın, yunan mədəniyyətinin Albaniyanın maddi mədəniyyətinə - tikinti texnikasına olan təsiridir (9, s. 308). Əldə olunan artefaktlar antik dövrdə Qəbələdə kifayət qədər inkişaf etmiş yüksək şəhər mədəniyyətinin olmasını və Qafqaz Albaniyasının bir çox ölkələrlə müxtəlif səpkili əlaqələr qurduğunu göstərir. O cümlədən tapıntılar göstərir ki, şəhərin bu hissəsində e.ə. III–I əsrlərdə ticarətlə əlaqədar tikililər və inzibati binalar olmuşdur.

Eyni zamanda Antik şəhərin qalıqları olan sahənin demək olar 90%-i becərilir, bundan başqa qədim şəhərin cənub tərəfinin I və II qazıntı sahələrinin yaxınlığında isə ferma salınmışdır ki, bu da ərazinin tədqiqatına ciddi mane olur. Abidənin gözlə müşahidə edilə biləcək yerüstü əlamətləri antropogen təsirə məruz qalır və itir (əsasən kənd təsərrüfatı işləri zamanı və fermerlərin müdaxiləsi nəticəsində). Daimi tikililər isə abidələrin tədqiq olunmasını mümkünsüz edir. Bu problem ərazidə nəzərdə tutulan gələcək tədqiqatların aparılmasına xeyli dərəcədə mənfi təsir göstərir. Bütün bunları nəzərə alaraq Qəbələ arxeoloji ekspedisiyası yeni qazıntı sahəsi secərkən 1967-1983-cü illərdə qazıntı aparılan I və II sahələr arasında kiçik təpəcik şəkilində seçilən ərazidə tədqiqatların davam etdirilməsini qarşıya məqsəd kimi qoymuşdur.

V qazıntı sahəsində ilk qazıntı işləri 2015-ci ildə aparılmışdır. Qazıntı aparılan ərazi 20x35 m ölçüsündədir (şimaldan cənuba 35 m, şərqdən qərbə isə 20 m). 700 m^2 sahəni əhatə edən ərazi 28 bərabər hissəyə ayrılaraq, sıra ardıcıllığı ilə şimaldan cənuba 1-dən 7-dək, qərbdən şərqə isə əlifba sırası ilə (a,b,c,d) nömrələnmişdir. Hər bir sahə 25 m^2-dən ibarətdir. Həmin ili ilk olaraq qazıntı sahəsinin 25–30 sm dərinliyində üst qatı götürülmüş, mədəni təbəqə izlənilmişdir (7, s. 50-51). Şəhər yerinin üst təbəqəsi əkin sahəsi kimi istifadə olunduğundan dağıntıya məruz qalmış və qarışıq təbəqə halına gəlmişdir. Qarışıq təbəqədə çiy kərpiclərə rast gəlinsə də nizamlı tikili qalığı izləmək mümkün olmamışdır. Bu səbəbdən mədəni təbəqədə olan ləkələr və tikili qalıqlarını aydın şəkildə izləmək mümkün deyildir. Qazıntı zamanı müxtəlif keramika fraqmentləri, kirəmit qalıqları və s. aşkar edilmişdir. Tapıntıların anoloji təhlili göstərir ki, toplanan materiallar antik dövrə aid olub e.ə. III – b.e. I əsrlərini əhatə edir.

2017-ci ildə isə V qazıntı sahəsinin arxeoloji tədqiqi davam etdirilərək, Antik şəhərin öyrənilməsi prosesi daha da zənginləşdirilmişdir.

Qazıntı sahəsinin üst qatı 25–30 sm qazılıb təmizləndikdən sonra mədəni təbəqədə olan ləkələr və çiy kərpicdən ibarət tikili – divar qalığı aydın müşahidə

edildi. Tədricən bütün qazıntı sahəsi 10 sm dərinləşdirilərək çiy kərpicdən olan divar qalığı ilə paralel yanıq ləkələri izlənildi (***Şək.1***). Yanıq ləkələri ilk olaraq qazıntı sahəsinin cənub və şərq tərəfində, C 5 kvadratında 2-3 sm qalınlığında və bu kvadrata yaxın digər kvadratlarda müşahidə edildi. O cümlədən C 5 kvadratından 1 ədəd kobud hazırlanmış daş toxa, C 4 kvadratından isə 25-30 sm dərinliyindən bir ədəd bişmiş kərpic və kərpicin yanından, həmçinin üstündən iri qum və xırda çınqılla əhəng qarışıqlı hörgü və suvaq məhlulu aşkar edilmişdir. Antik şəhərdə bunadək suvaq, yaxud hörgü məhlulu kimi müasir sementi əvəz edən əhəng qarışıqlı məhluldan istifadə olunmasına rast gəlinmişdir (11, s. 86).

Çiy kərpiclərin aşkar edilməsi burada antik dövrə aid tikilinin olduğunu göstərirdi. Divar qalığı şimaldan cənuba tərəf uzanırdı (***Şək.2***). Qazıntı sahəsinin cənub-şərq tərəfindən, cənub istiqamətində C 5, C 6 kvadratlarında aşkar edilən kərpiclər izləndikcə binanın planı müəyyən edildi (***Şək.3***). Bu tikili Antik şəhər ərazisində aşkar olunmuş oval formalı binalarla oxşarlıq təşkil edirdi. Say etibarı ilə bu tikili Antik şəhərdə aşkar edilən 5-ci oval formalı binadır. Xatırladaq ki, e.ə. III – I əsrlərə aid 4 oval formalı bina III və IV qazıntı sahələrindən 1983–2011-ci illər ərzində aşkar edilmişdir (3, s. 89–96). 1-ci və 4-cü oval formalı binalar da üst təbəqədən aşkar edilmişdir. 2-ci oval formalı tikili bir qədər gec, 3-cü oval bina isə e.ə. III əsrə aiddir. 4-cü və 5-ci binanın aşkar edilmə dərinliyi demək olar ki, eynidir.

C 3 və B 2, 3 kvadratları izlənilərkən 40–50 sm dərinlikdə dağılmış şəkildə, yarımdairəvi formada çiy kərpic qalıqları aşkar edilmişdir. B 2, 3 kvadratlarında kərpiclərin izləndiyi ərazinin ölçüləri şimaldan cənuba 4,3 m, şərqdən qərbə 2, 2 m-dir. C 3 kvadratında eyni formalı təbəqənin ölçüləri şimaldan cənuba 3,6 m, şərqdən qərbə 3 m-dir. Bundan əlavə B 2 kvadratında 1,4 x 0,8 m ölçüsündə düzbucaqlı quyu açılmışdır.

Binanın divarları izlənilərkən məlum oldu ki, burada tam və yarım çiy kərpiclərdən istifadə edilmişdir. Tikilidə istifadə olunan kərpiclər 20x40, 33x36, 36x34, 36x36, 37x34 sm arasında dəyişməklə müxtəlif ölçüdədirlər. Divarın eni əsasən 1,8 m, yan-yana düzülmüş dörd tam, 1 yarım kərpicdən ibarətdir. Yarım kərpiclər əsasən divarın kənarına – həm iç, həm də çöl tərəfinə qoyulmuşdur. Divarın cənub tərəfindəki eni bəzi yerlərdə 2 m-ə çatır. Daxildən binaın eni şərqdən qərbə 12 m-dir. Binanın şimal oval hissəsi (A 1, 2 və C kvadratları) divarları ilə birlikdə qazıntı sahəsinin kənarına düşdüyü üçün tikilinin uzunluğunu tam şəkildə izləmək mümkün olmamışdır. Binanın aşkar olunan hissəsinin uzunluğu 29 m təşkil edərək, bir ümumi zaldan ibarətdir. Qeyd edək ki, Antik şəhərdə bir ümumi zaldan ibarət oval binalar ilə bərabər, otaq şəklində arakəsmələri olan oval tikili də izlənilmişdir. IV oval formalı binanı misal göstərmək olar (1, s. 216; 5, s. 407).

Qazıntı zamanı məlum oldu ki, divarların daş bünövrəsi yoxdur. 2011-ci ildə IV qazıntı sahəsində tapılan 4-cü oval formalı binanın da daş bünövrəsi yox idi (3, s. 96; 5, s. 407). Hər iki bina eyni dövrə, e.ə. I əsrə aid olub, o cümlədən üst mədəni

təbəqədən aşkar edilmişdir.

Divarların qalmış hündürlüyünü öyrənmək və daş bünövrəsinin olmamasını dəqiqləşdirmək üçün üçün A4 kvadratının cənub hissəsində qazıntı sahəsinin qərb kənarından oval binanın divarına qədər 1 m enində, 2,8 m uzunluğunda ümumi dərinliyi (0 nöqtəsindən) 1,2 m olan kəşfiyyat şurfu atıldı (profildən kəsiyin hündürlüyü 80 sm). Kiçik kəşfiyyat şurfu oval binanın həqiqətən də daş bünövrəsinin olmamasını və 4 kərpicdən ibarət divarın salamat qalmış hündürlüyünün 50–55 sm təşkil etdiyini göstərdi. Kərpiclər 12 sm hündürlüyündə olub, kərpiclər arası hörgü məhlulunun qalınlığı isə 2 sm-dir. Kəsikdə izlənilən kərpiclərin altında, şərq tərəfdə kiçik bir hissədə (30x50 sm) səpələnmiş şəkildə çay daşları izlənilib. Ümumən yoxlama məqsədi ilə qazılan 83 sm-lik kəsikdə yuxarıdan aşağıya doğru bir birini əvəz edən 4 təbəqə izlənilmişdir. Birinci (1) təbəqə çiy kərpiclərdən ibarət oval tipli tikiliyə məxsus divardır. İkinci (2) çay daşlarından ibarət olan və qara rəngli qarışıq təbəqəni kəsən təbəqə, üçüncüsü (3) qara rəngli qarışıq təbəqədir ki, bu təbəqədə yanıq izləri, yanmış ağac-kömür hissələri müşahidə edilmişdir. Dördüncü (4) qonur – qəhvəyi rəngli saxsı və kömür qırıntıları ilə izlənilən təbəqədir (***Şək. 4***). Bir birini əvəz edən təbəqələr dərinliyə doğru mədəni qatların artdığını və dövr etibar ilə qədimləşdiyini göstərir. Kəşfiyyat şurfu atılan kiçik sahədən antik dövr üçün xarakterik olan saxsı qabların qulp, gövdə, oturacaq kimi hissə və fraqmentləri aşkar edilmişdir (tapıntılar: S/q 2026, s/q 2028, s/q 2029).

Binaya giriş yeri şərqdən olmuşdur. Burada eni 3 m olan qapı yeri aşkar edilmişdir (D 3 ilə D 2, C 2 kvadratları arasında). Oval tikilinin şərq tərəfində açılan qapı yerini dəqiqləşdirmək üçün alt təbəqə izlənildi. 3 m uzunluğunda 1,8 m enində olan qapı yeri qazılarkən təqribən 75-80 sm dərinlikdə qapı boşluğunu divardan-divara, həm çöldən, həm də içəri tərəfdən birləşdirən sıra ilə düzülmüş kərpiclər müşahidə edildi. Hər sıra 7 kərpicdən ibarət idi. Ortadakı boşluqda isə qarışıq formada çay daşları tapıldı. Daha sonra qapı yerinin hər iki tərəfdən divara yaxın – şimal hissədə 30 sm, cənub hissədə 1 m eni və daha 20 sm dərinliyi olan hissəsi açıldı. Bir qədər yuxarıdan izlənilən çay daşlarının davamı mövcud dərinlikdə də aşkar edildi. Bu daş divar düz şimal-cənub istiqamətindədir, uzunluğu 2,5 m, eni isə 0,6 m təşkil edir. Oval tikilinin divarı isə 3 kərpic hündürlüyündə izlənilirdi (***Şək. 5***). Qazıntı müddətinin başa çatması səbəbindən qapı yerinin hansı səbəbdən bu şəkildə olması tam müəyyən edilmədi. Çox güman çay daşlarından və kərpic düzümündən ibarət olan bu sadə qurğu qapı yerinin möhkəmləndirilməsi məqsədini güdmüşdür. Ya da çay daşlarından ibarət təbəqə oval tikiliyə məxsus olmayıb tamamilə ayrı tikiliyə-alt təbəqəyə məxsus tikinti qalığıdır.

Oval tikilinin döşəməsi təqribən 0,7-0,8 m dərinlikdə izlənmişdir. B4 və C4 kvadratlarının bəzi yerlərində narın çınqıl qarışıqlı əhəng məhlulu ilə təqribən 1,5 sm qalınlığında suvanmış oval binanın döşəməsinin qalıqları aşkar edilmişdir (***Şək.6***). Bu məhlul Roma betonunu *(opus caementicium)* xatırladır və öz dövrü

üçün müasir bir tikili texnikası sayılır. Bu fakt qazıntı zamanı aşkar edilən ən maraqlı və yeni tapıntıdır. İndiyədək belə tapıntı nəyin ki, Antik şəhər ərazisində, heç Azərbaycanın bu dövrədək olan digər arxeoloji abidələrində də müşahidə edilməmişdir. Döşəmənin əhəng məhlulu və cınqıl qarışığı ilə suvanmasına ilk dəfə V oval tikilinin qazıntılar zamanı rast gəlinmişdir. Bir qədər öncə qeyd etdiyimiz kimi tədqiqatlar zamanı müəyyən edilmişdir ki, Albaniyanın tikinti texnikasında hörgü, yaxud suvaq materialı kimi əhəng qarışıqlı məhluldan istifadə olunmuşdur. Antik şəhərdə bişmiş kərpicdən ibarət tikililərin hörgü və divarının suvanmasında yeni üsul kimi bu məhluldan istifadə olunduğu təyin edilmişdir. Eramızın I əsrinə aid olan bu təkmilləşmiş tikinti texnikası Romada icad olunmuş və bu dövrdə binaların inşaasında geniş tətbiq edilirdi. Antik dövrdə bəzi ölkələrdə, məsələn Şimali Qaradəniz ətrafında əhəng qarışıqlı məhluldan yalnız suvamaq və mozayka işində tətbiq edilirdi. Hörgü məhlulu kimi isə gildən istifadə edilirdi. Gürcüstanda da eramızın ilk əsrlərindən hörgüdə əhəng qarışıqlı məhluldan istifadə edilmişdir. Daş və bişmiş kərpicdən qurulan bina və digər tikililərin hörgüsündə adi palçıq – gil yararlı olmadığından antik dünyanın təsiri ilə meydana gələn yeni üsuldan Albaniyanın yerli əhalisi səmərəli şəkildə istifadə etmişdir (11, s. 86; 9, s. 305). Lakin döşəmə şəklində bu hələlik bu dövrədək olan ilk tapıntıdır. Dövr etibarı ilə də əgər bina eramızın I əsrinə təsadüf edirsə, belə nəticəyə gəlmək olar ki, əhəng qarışıqlı məhluldan tikintidə istifadə olunması Albaniyada Roma ilə eyni, bəlkə də daha erkən dövrə təsadüf edir.

Burada eyni zamanda yanğın izləri də müşahidə olunurdu. C 6 kvadratında 3,3 x 2 m ölçüsündə yanıq təbəqə açılmışdır. C 4 kvadratında 60–70 sm dərinliyində kvadratın cənubi-qərb küncündə oval tikilinin daxilində çevrə şəkilli qızarmış torpaq qatı (ocaq yerinə bənzər) izlənilmişdir ***(Şək.7).*** B 4 kvadratında da, oval tikilinin daxilində 60-70 sm dərinliyində yanıq izləri müşahidə edilmişdir. Ümumiyyətlə yanğın izləri həm binanın daxilində, həm də xaricində 40–80 sm dərinliyində yuxarıdan aşağıya doğru bir neçə dəfə təkrar olunmaqla aktiv müşahidə edilir.

Qazıntının başa çatmasına az qalmış qazıntı sahəsinin cənub tərəfindəki C 6 kvadratı izlənilərkən digər tikiliyə məxsus çiy kərpiclərdən ibarət növbəti bina qalıqları aşkar edildi. İlkin ehtimala və divar qalığının istiqamətinə əsasən bu bina da oval tikiliyə məxsus ola bilər. Lakin qazıntı mövsümünün başa çatması işi sona çatdırmağa imkan vermədi. Ərazidə gələcək tədqiqatların aparılması və qazıntıların davam etdirilməsi vacib və Antik şəhərin tədqiqi baxımından olduqca əhəmiyyətlidir.

2017-ci ilin arxeoloji tədqiqatları zamanı qazıntı sahəsinin üst təbəqəsi götürülərkən burada Antik dövrə aid olmayan bir gümüş sikkə də tapılmışdır. Bundan başqa, aşkar olunan materiallar içərisində kirəmit fraqmentləri (solen) və nov şəkili kalipter, bişmiş kərpic fraqmenti (qalınlığı 5,5 sm), müxtəlif tipli saxsı qabların parçaları, iri təsərrüfat küplərinin hissələri, heyvan sümükləri, daş toxa (s/q 2014) və s. tapılmışdır.

Qazıntılar nəticəsində əldə olunan arxeoloji tapıntıların ilkin təhlili V sahədə aşkar olunmuş bu oval tikilini b.e. I əsrinə aid etməyə imkan verir.

İstifadə olunmuş ədəbiyyat:

1. Babayev İ.A., İsgəndərov E.Ə., Alışov N.Ə., Mustafayev L.X., İsmayılov R. Qəbələ arxeoloji ekspedisiyasının Antik Qəbələ dəstəsinin çöl-tədqiqat işləri haqqında // Azərbaycanda arxeoloji tədqiqatlar – 2011, Bakı, 2012.
2. Babayev İ.A., Mustafayev L.X., İsmayılov R., Alışov N.Ə. Beynəlxalq Qəbələ arxeoloji ekspedisiyasının Antik Qəbələ dəstəsinin apardığı çöl-tədqiqat işləri (Qəbələ rayonu) // Azərbaycanda arxeoloji tədqiqatlar – 2012, Bakı, 2013.
3. Babayev İ., Mustafayev L., İsmayılov R., Alışov N. 2012-ci ildə Qəbələnin Antik ərazisində aparılmış arxeoloji tədqiqatların hesabatı // Qəbələ arxeoloji ekspedisiyasının hesabatları. 2011-2012, Bakı, 2014.
4. Babayev İ., Mustafayev L., Alışov N., Hüseynov S. 2013-cü ildə Qəbələnin Antik ərazisində aparılmış arxeoloji tədqiqatların hesabatı // Qəbələ arxeoloji ekspedisiyası: Hesabatlar, tapıntılar 2013, Bakı, 2015.
5. Babayev İ.A., Nəcəfova İ.M., Mustafayev L.X., Alışov N.Ə., Hüseynov S.Ə. Qəbələ arxeoloji ekspedisiyası Antik Qəbələ dəstəsinin tədqiqat işləri haqqında (Qəbələ rayonu 2013-cü il) // Azərbaycanda arxeoloji tədqiqatlar – 2013-2014, Bakı, 2015.
6. Babayev İ., Nəcəfova İ., Məmmədova B., Mustafayev L., Hüseynov S., Alışov N. 2014-cü ildə Qəbələnin Antik ərazisində aparılmış arxeoloji tədqiqatların qısa hesabatı // Qəbələ Arxeoloji ekspedisiyası: Hesabatlar, tapıntılar 2014, Bakı, 2016.
7. Babayev İ., Nəcəfova İ., Məmmədova B., Heydərova Ü., Mustafayev L. 2015-ci ildə Qəbələnin antik ərazisində aparılmış arxeoloji tədqiqatların qısa hesabatı // Qəbələ arxeoloji ekspedisiyası: Hesabatlar, tapıntılar 2015-2016, Bakı, 2017.
8. Qəbələ arxeoloji ekspedisiyasının hesabatları 2005-2010-cu illər, Bakı, 2012.
9. Mustafayev L.X. Antik dünya mədəniyyətinin Qafqaz Albaniyasının memarlıq və tikinti texnikasına təsiri//Milli Azərbaycan Tarixi Muzeyi – 2014.
10. Бабаев И.А. Античная черепица Кавказской Албании // Советская археология, № 2, 1974.
11. Бабаев И.А. Города Кавказской Албании в IV в. до н.э. – III в. н.э. Баку, 1990.
12. Бабаев И.А. Денежное обращение Кавказской Албании в Эллинистическую эпоху (конец IV – первая половина I вв. до н.э.) // Azərbaycan Tarixi Muzeyi – 2002.

***Ilyas Babayev,* Sevil Agamaliyeva, Lachin Mustafayev,**
Ulviyya Heydarova, Sevinj Huseynova

Archaeological research at the Fifth excavation field of Ancient site of Gabala in 2017

Summary

Key words: A*ncient city, oval planned building, pottery, mudbrik, roof tiles, lime mortar mixed with fine gravel*

The article describes the archaeological research conducted in 2017 at the Fifth excavation field of the Ancient site of Gabala, located near the modern village of Chukhur Gabala in the Gabala region of Azerbaijan and the results of excavations which have got the great scientific importance. Building remains of the 5th oval planned structure were revealed during the excavations on the territory of the Ancient site. Some of its characteristics are similar to other oval planned buildings, which were previously found on the other excavation fields of the Ancient site of Qabala. Despite the similarity in the plan, there are a number of features in the construction equipment used in the construction of the 5th oval structure. Unlike 1, 2 and 3 oval buildings that had a foundation, built of river stone, during the construction of the 5th oval building, as in the case with the 4th building, there is no stone foundation. Based on the archaeological material collected during the excavations, the oval building can be attributed to the I AD.

Another interesting fact is that the floor surface of the oval structure was covered with lime mortar mixed with fine gravel. Such a find was made for the first time in Azerbaijan and so far the only one for ancient history. In addition, the remains of ceramic vessels, roof tiles, stone hoe, pieces of obsidian, animal bones, etc. were revealed.

***Ильяс Бабаев,* Севил Агамалиева, Лачын Мустафаев,**
Ульвия Гейдарова, Севиндж Гусейнова

Археологические исследования на V раскопе Античного городища Габалы, проведенные в 2017 году

Резюме

Ключевые слова: *Античное городище, овальное сооружение, керамика, сырцовый кирпич, черепица, настил из смеси известкового раствора и мелкого щебня.*

Статья повествует об археологических исследованиях, проведенных в

2017 году на V раскопе Античного городища Габалы, расположенного близ современной деревни Чухур Габала Габалинского района Азербайджана и о достигнутых результатах раскопок, имеющих большое научное значение. В ходе раскопок на территории Античного городища были выявлены строительные остатки 5-го по счету овального сооружения. Строение по ряду своих характеристик схоже с другими овальными постройками, обнаруженными ранее на других участках Античного городища. Несмотря на схожесть в плане, существует ряд особенностей в строительной технике, примененной при сооружении 5 овального строения. В отличии от 1, 2 и 3 овальных построек, имевших фундамент, сложенный из речного камня, при строительстве 5 овального здания, как и в случае с 4-м зданием, каменный фундамент отсутствует. На основе археологического материала, собранного в ходе раскопок, овальное здание можно отнести к I в. н.э.

Другой интересный факт состоит в том, что поверхность пола овального строения была покрыта известковым раствором, смешанным с мелким щебнем. Подобная находка сделана впервые в Азербайджане и пока единственная для древней истории. Помимо этого, были выявлены остатки керамических сосудов, черепицы (солены и калиптеры), каменная мотыга, куски обсидиана, кости животных и др.

Leyla Rüstəmova, Bəxtiyar Cəlilov

Gəncə-Qazax bölgəsinin İlk Tunc dövrü metal silahları

Açar sözlər: *Gəncə-Qazax, Kür-Araz, silah, metallurgiya, spektral analiz*

UOT 902

Gəncə-Qazax bölgəsinin İlk tunc dövrü abidələrindən tapılan metallurgiya nümunələrinin böyük bir hissəsi silahlardan ibarətdir. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş silah nümunələri xəncər, balta, nizə ucluqları və süngü formalı silahlarla təmsil olunurlar. Bu tip metal əşyalar bölgədə Xaçbulaq kurqanı (Daşkəsən rayonu), Həsənsu yaşayış məskənində (Ağstafa rayonu) sallama qəbirdən və Gədəbəy rayonu ərazisindən tapılmışdır.

Arxeoloji tədqiqatlar zamanı tapılmış metal nümunələrinin təhlili göstərir ki, bu dövrə aid metal silahların bir qismi xəncərlər və tiyələr olmuşdur. Gəncə-Qazax bölgəsində xəncər tipli silah nümunəsi tərəfimizdən Gədəbəy rayonu Tarix və Diyarşünaslıq muzeyindən götürülərək tədqiqata cəlb edilmişdir. Qeyd edilən xəncər nümunəsi təsadüfi tapıntı olub, aşkar edildiyi ərazi məlum deyil. Xəncərdən analiz üçün nümunələr götürülmüş və Almaniyanın Bohum dağ-mədən muzeyində spektral analizləri aparılmışdır. Analizlərin nəticələri göstərir ki, silah nümunəsi mis-mərgümüş qarışıqlı ərintidən hazırlanmışdır. Ərintinin tərkibində mərgümüş 1,7 % təşkil edir (Cədvəl 1).

Gədəbəy xəncərinin kiçik tiyəsi ikiağızlı olmaqla, formaca yarpaqşəkillidir. Xəncərin tiyəsinin uzunluğu 3,9 sm, saplağının uzunluğu 5 sm-dir. Gövdəsinin əsas hissəsindən başlayaraq, xəncər tiyəsi, uca doğru getdikcə hər iki tərəfdən daralır və iti sonluqla bitir. Xəncərin eyni formalı, tiyəsinə nisbətən uzun və nazik saplağı var. Uca doğru yığılan saplağın sonluğunun en kəsiyi dördkünc formalıdır.

1960-cı ildə İ.Cəfərzadə Xaçbulaq yaylağında kurqanlarda apardığı qazıntılar zamanı İlk tunc dövrünə aid edilən kurqandan digər maddi-mədəniyyət nümunələri ilə yanaşı formaca Gədəbəy nümunəsi ilə eyniyyət təşkil edən bir ədəd xəncər

tapmışdır [8, s.29]. Xaçbulaq kurqanından tapılmış çox da böyük olmayan, ikiağızlı xəncər formaca yarpaqşəkillidir. Gövdəsinin əsas hissəsindən başlayaraq, xəncər tiyəsi aşağıya doğru getdikcə hər iki tərəfdən daralır və iti, bir az da qırılmış sonluqla bitir. Araşdırmalar göstərir ki, xəncər soyuq döymə üsulu ilə hazırlanmışdır. Dəstəyinə bərkidilmiş tiyə hissəsi düz, enli və qısadır. Tiyənin hər iki tərəfi dişlidir və bu dişlər itiləyici daşların köməkliyi ilə itilənmişdir. Bundan başqa, xəncərin tiyə hissəsinin ortasında itiləmə üsulu ilə demək olar ki, oval formasında olan deşik açılmışdır. Bu iş bir tərəfdən həyata keçirilmişdir. Xəncərin tiyəsi dəstəyinə bir-birinə keçirilmiş üç ayrı-ayrı dördkünc formalı halqalar vasitəsilə bərkidilmişdir. Lakin dəstəyin formasını və ölçüsünü müəyyən etmək mümkün olmamışdır. Çox güman ki, o, taxtadan olmuşdur və zaman keçdikcə çürümüşdür. "Halqalar"ın ölçüsünə və formasına görə, ehtimal etmək olar ki, xəncərin, kənarları bir qədər yuvarlaq, dördüzlü qısa dəstəyi olmuşdur. Bundan əlavə, onun xəncərin tiyəsinə bərkidilmiş bir sonluğu digərinə nisbətən qalındır. Xaçbulaq kurqanından tapılmış xəncərin ümumi uzunluğu - 112 mm, dəstəyinə yaxın olan hissəsinin eni 33 mm, qalınlığı 3 mm, tiyəsinin isə uzunluğu 39 mm, eni 23 mm-dir. Xəncərin dəstək hissəsinin nə ilə qurtardığı və ya sonluğuna hansı forma verildiyi məlum deyil [8, s.29-30].

Tədqiq edilən bölgədən digər xəncər nümunəsi Həsənsu abidəsindən, ilk tunc dövrünə aid sallama qəbirdən tapılmışdır. (3, s.107-108) İki ağızlı xəncər tiyəsi, yarpaqvari olmaqla, digər nümunələrdən öz üzünluğu ilə fərqlənir. Nisbətən enli olan xəncər tiyəsi, uca doğru tədricən daralaraq iti sonluqla tamamlanır. Tiyə dördkünc formalı ensiz və uzun saplağa malikdi.

Bu tip xəncərlər Qafqaz ərazisində Trialeti [9, s.70-72], Novosvobodnı [19] və Bamut [23] kurqanlarından tapılmışdır.

Tədqiq edilən dövrə aid analoji xəncər nümunələri Azərbaycan ərazisində Sərkərtəpə [17, s. 22], Naxçıvan [6, s. 12] abidələrindən, Xankəndi (125 və 119 nömrəli) [98, s. 173] və Borsunlu (9 nömrəli) [1, s.41] kurqanlarından məlumdur.

Mütəxəssislər hesab edir ki, bu tiyələr soyuq döymə üsulu ilə hazırlanmış və eneolit dövrü daş bıçaqlarına bənzədilirdi. İlk tunc dövrünün erkən xəncərləri adətən böyük olmayan üçbucaq və ya yarpaqşəkilli formada olub, gövdə hissəsi dəstəklə birləşdirilmişdir. Tiyələrin istehsalında qəlib texnologiyasının meydana gəlməsi, onların formasının dəyişməsinə səbəb oldu. Sonrakı tiplərin ölçüləri nisbətən böyük olub, saplaq hissə möhkəm və yastı-düz tiyədən ayrılmışdır [13, s.126]. İlk növbədə tədarük edilmiş metal uzunsov hala gətirilir, sonra döyülüb yastılanır və lazım olan formaya salınırdı.

Arxeoloji tədqiqatların nəticələri göstərir ki, xəncər tipli silahlar e. ə. III minilliyin I yarısında cənubi Qafqazda (Kvaçxelebi kurqanı, Xizanaant-qora, Elar və d.) çox geniş yayılmışdır [13, s.126].

Nizələr. Gəncə-Qazax bölgəsinin İlk tunc dövrü silah nümunələrinin bir qismi metal nizələrlə təmsil olunur. Tədqiq olunan ərazidə bu tip nümunələrdən

biri Həsənsu qədim yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı sallama qəbirdən tapılmışdır [3, s.99]. Nizə ucluğu sallama qəbirdən, arxası borulu və yastı-pazşəkilli baltalarla birlikdə aşkar edilmişdir. Nizə ucluğu enli yarpaqvari tiyəli və qısa saplaqlıdır.

Nizə ucluğu üzərində aparılan metalloqrafik tədqiqatlar göstərmişdir ki, onların istehsalında tökmə, soyuq döymə, qızdırılma və intensiv soyuq döymə üsullarından istifadə edilmişdir. Nizənin kəsər hissəsində istehsal qüsuru olması ehtimal olunan çatdan götürülmüş nümunənin, Almaniyanın Bohum arxeometallurgiya laboratoriyasında aparılan analizləri nəticəsində onun mərgümüş və az miqdarda gümüş tərkibli tuncdan hazırlanması müəyyən olunmuşdur. Mütəxəssislər hesab edir ki, gümüş süni qatışıq deyil və istifadə olunan filizin tərkibində mövcud olmuşdur[21, s. 30].

Maraq doğuran məqamlardan biri ondan ibarətdir ki, İlk tunc dövrünə aid nizə ucluqları demək olar ki, bütün Qafqaz ərazisində arxeoloji abidələrdə deşikli pazşəkilli və ya yastı formalı baltalarla birlikdə rast gəlinir [9, s.11; 11, s.72, 7; 14, s.29; 15, s.21]. Analoji nizə ucluğu bizə Qobustan ərazisində kurqan tipli abidələrdə aparılan arxeoloji qazıntılardan da məlumdur [2, s.32].

Tədqiq olunan dövrə aid nizə ucluqları öz formalarına əsasən 2 tipə bölünür. Onlardan biri enli, yarpaqvarı tiyəsi və kiçik ölçülü dördkünc formalı saplağı olanlar, digərləri isə, armudvari nazik-uzun tiyəli və qələmvari uzun saplaqlı nizə ucluqlarıdı. Azərbaycan ərazisində, ikinci tipə aid nizə ucluqları Telmankənd kurqanından nazik yastı baltalarla birlikdə tapılmışdır. Bu cənubi Qafqazda tapılan erkən Kür-Araz tipinə aid arxaik nizədir [15, s.21]. Amirans-qoradan bu nizələrin hazırlanması üçün istifadə edilən uzunsov qəlib forması tapılmışdır [13, s.124].

İlk tunc dövrünə aid nizə ucluqlarına Kiçik Asiya ərazisində (Qara-Həsən, Dindartəpə, Xoruztəpə) [23, s.101] geniş rast gəlinməkdədir.

Baltalar. Gəncə-Qazax bölgəsinin İlk tunc dövrü silahlarının bir qismi tunc baltalarla təmsil olunur. Tədqiq edilən bölgənin İlk tunc dövrünə aid arxeoloji abidələrindən tapılmış baltalar, əsasən, iki tipə ayrılmaqla, dəstəkləri boruluvə yastı pazşəkillidir. Həsənsu qədim yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən sallama qəbirdənhər iki tipə aid tuncdan hazırlanmış balta nümunələri tapılmışdır. Bunlar küp hissəsi borulu balta və yastı-pazşəkilli baltalardır ki, yarpaqşəkilli kiçik nizə ucluğu,yarpaqşəkilli xəncər, isgənə tipli alətlər və metal bəzək əşyaları ilə birlikdə aşkar edilmişdir [3, s.99].

Keyfiyyətcə yaxşı saxlanılmış yuxarısı dairəvi borulu balta işlək ağıza doğru genişlənir. Ağdam rayonunun Xındırıstan kəndində təsadüfən tapılmış bir balta Həsənsu baltasına bənzəsə də tipoloji olaraq fərqlənir. Bu baltanın ən yaxın və çoxsaylı paralelləri Gürcüstan ərazisindəki erkən tunc dövrü abidələrindən, Dağıstandakı e.ə. III minilliyə aid Vəlikənd katakombalarından məlumdur. Həsənsu baltası yalnız işlək ağzının hər iki tərəfinin çıxıntılı olması ilə onlardan fərqlənir [3, s.99].

Balta nümunələrinin kimyəvi tərkibinin analizi nəticəsində müəyyən olunmuşdur ki, onlar mərgümüşlü tuncdan (Cu-As) hazırlanmışdır. Hər iki silahda mərgümüşün yüksək səviyyəsi bu əşyaların daha möhkəm tərkibli olması məqsədini daşımışdır [3, s.99]. Analizin nəticələrindən məlum olan digər elementlərin aşağı (təbii) göstəricisi, Qafqazın ilk tunc dövrü metal məmulatı üçün səciyyəvi olub, belə birləşmələrin tərkibində təbii qatışıq hesab edilir və çox güman ki, metalın tərkibindəki mis-mərgümüş birləşməsi ilə bağlı olmuşdur.

Tunc baltalar e. ə. III minillikdə Cənubi Qafqazın demək olar ki, bütün ərazilərində istifadə edilirdi. Arxeoloji tədqiqatlar zamanı tapılmış bu dövrə aid baltalar bir neçə qrupa bölünür. Bunlardan ən qədimi arxaik qrupuna aid olub, pazşəkilli deşikli baltalardır [9, s.10; 7, s.91; 14, s.25]. Bu tip baltalar daşdan və ya gildən iki taylı qəlib formasında hazırlanmış və sonra döymə üsulu ilə müəyyən formaya salınmışlar.

Onların əksər nümunələri təsadüfi şəraitdə tapılmışdır. Yaşayış yerlərində bu tip baltaların qəlib formaları xronoloji cəhətdən analoji abidələrdə aşkar edilmişdir. Baltaların gil qəlib formaları Kültəpə yaşayış məskəninin aşağı qatlarında (dərinlik 12, 15 m), Qarnidə (dərinlik 2.5 m), Şenqavitdə aşağı qatda daş qəlib forması (dərinlik 3.34 m) aşkarlanmışdır. Gipsdən hazırlanmış Qarni qəlibi kiçik pazşəkilli balta formasındadır. Analoji olaraq oxşar baltalar iki ayrı-ayrı formada hazırlanmış, bunları dövrünə görə bir-birinə yaxın baltalar saymaq olar. Kültəpə balta qəlib forması təqribən e. ə. 2920+90 əhatə edir. Bu baxımdan, borulu baltalarıcənubi Qafqazda demək olar ki, Kür-Araz mədəniyyətinin ilk mərhəsinə, yəni III minilliyin başlanğıcına aid etmək olar və Cənubi Qafqazda bu dövr üçün yeni tip baltalara rast gəlinir [3, s.97-108].

Bu seriyadan olan baltalar əsasən kompleks şəkildə deyil, ayrı-ayrı yerlərdən tapılmışdır. Belə ki, İğdırda və Svanetidəbu tip baltalara təsadüf edilmişdir. Onlar bir-birindən pazşəkilli işlək hissələri və düz külüng hissəsi ilə fərqlənir.

İndiki Ermənistanın (Leninakan, Eçmiədzin) və Gürcüstanın (Mecvris – Xevi, Yalbuzi, Brdadzori, Kulbanebi) müxtəlif abidələrindən tapılmış baltalar bir qədər əyilmiş işlək hissəsi və endirilmiş külüng hissəsi ilə əvvəlkilərdən fərqlənir. Bu əlamətlər Karaz yaşayış məskənindən 4 m dərinlikdən tapılmış və Karaletidə təsadüfi tapılmış baltalardada özünü göstərir.Gürcüstan ərazisindən tapılmış ən qədim 3 ədəd nümunə isə arxaik dövrünə aid düz baltalar arasında növbəti balta tipləri meydana gətirir. Bu balta tiplərinə əsasən Qərbi Gürcüstanda rast gəlmək olur. Oraqşəkilli, əyilmiş boru tipli – arxası əyilmiş baltalara, eyni zamanda son Kür-Araz dövrü abidələrində rast gəlmək olur[13, s.123].

Borulu baltaların yaranması forma etibarilə daş baltalara əsaslanırdı. Bu baltaların daş versiyası e.ə. IV minillikdə artıq Mesopotamiyada, onların gil modeli isə Ur və Okairada [20, s.183, 209] tapılmışdır. Bir sıra tədqiqatçılar bu tip baltaların ilk dəfə İranda [13, s.123] istehsal olunduğunu iddia edirlər. Bu tip uzun borulu

baltaların döyüş baltası olması ziddiyyətli fikirdir. Yaxın Şərqdə onlar çox geniş yayılmışdır və e. ə. III minilliyin başlanğıcında cənubi Qafqazda bu tip baltaların istehsalı üçün nümunə olmuşdu. Ön Asiya və Maykop mədəniyyətinə aid borulu baltalardan götürülmüş nümunələrin analiz nəticələri göstərir ki, onların əksəriyyəti mis-nikel qarışıqlı tuncdan hazırlanıb. Bu tip baltalar Şimali Qafqaza, Cənubi Qafqaz ərazisindən keçmişdir. Artıq e. ə. III minillikdə Dağıstanda bu tip baltalar istehsal edilirdi. Bunu həmin dövrə aid Qaqatlin yaşayış məskənindən tapılmış gil qəlib formasının tapılması da təsdiqləyir. Analoji olaraq həmin dövrə aid Mekeqi kəndindən tapılmış bu tip balta tökmək üçün gil qəlib və həmin dövrün sonuna aid Yuxarı Qubinski yaşayış məskənindən tapılmış qəlib tökmə emalatxanası da bunu təsdiqləyir[13, s.122].

Tədqiqatçılar hesab edir ki, E.ə. III minilliyin ortalarında borulubaltaların istehsalı İran-Mesopotamiya sərhəddindən çıxaraq, daha geniş, yəni kiçik Asiya, Orta Asiya, Fələstin, Yunanıstan, Bolqariya, Slovakiya, Bosniya, Qafqaz və Ukrayna ərazilərinə qədər yayılmışdır [13, s.123].

E. ə. III minilliyin II yarısında Cənubi Qafqaz ərazisində yeni balta tipləri-ucu oraqşəkilli əyilmiş borulu, yəni təbərzin [10, s.15; 11, s.71; 7, s.144; 14, s.38] baltalar meydana gəlir.

E. ə. III minilliyin başlanğıcında cənubi Qafqaz ərazisində təbərzin baltalarla yanaşı yastı, düz baltalar da tökmə üsulu ilə istehsal edilirdi. Onların yerli istehsal olduğunu,yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın hələ eneolit dövrü abidələrindən tapılmış çoxsaylı yastı balta qəlib formaları, həmçinin, Gürcüstan ərazisində Kvaçxelebi abidəsinin C 1 layından tapılmış təktaylı yastı balta qəlibinin tapılması sübut edir. Gürcüstandan tapılmış qəlib nümunəsi e. ə. 2800 + 90 illərlə dövrləşdirilir. Cənubi Qafqaz ərazisində eyni dövrə aid, analoji yastı-pazşəkilli baltalar Astara rayonu ərazisində, Telmankənd kurqanından 2 ədəd, [16, s.66] Tbilisi yaxınlığından bir ədəd [15], Karaz yaşayış məskənindən 1 ədəd tapılmışdır. Tapıntıların təhlili göstərir ki, iskənə baltaların analoji daş versiyası əmək aləti kimi mövcud olmuşdur. Ön Asiyada mis yonan baltaların kütləvi istehsalına e. ə. IV minilliyin başlanğıcında rast gəlinirdi. Lakin bu baltaların o dövr üçün kütləvi istehsalı əsasən İrana aiddir. Onlar I Suz, III – IV Sialk, I Hissar (Pijdəlitəpə) geniş yayılaraq e. ə.IV-III minillikdə Şumerdə (XI – XII Qavra, Arpaçay, El-Ubeyd, Kiş), Anadoluda (Alaca, XVI Mersin, II Troya), Aralıq dənizi ərazilərinə qədər gəlib çıxmışdır[13, s.123].

Lakin Qədim Şərqdə olan metal baltaların bu nümunələrinə, Cənubi Qafqazın yerli erkən metal dövrü abidələrində tez-tez rast gəlindiyini söyləmək çox çətindir. Bu baxımdan II variant daha çox ehtimal edilir. Belə ki, e. ə. III minilliyin sonuna yaxın nazik, yastı baltalara demək olar ki, hər bir Qafqaz qəbir abidəsində rast gəlmək olar.

Şimali Qafqazın e.ə. III minilliyin ortalarına aid Novosvobodnaya və Vordviyenskaya abidələrində yastı – düz baltalara rast gəlmək mümkündür.

Azərbaycanın şimal-şərqində Şabran rayonu ərazisində borulu balta və onunla birlikdə dördkünc yastı iskənə balta tapılmışdır. Analoji baltaların qəlib forması, Xaçmaz rayonunda, Sərkərtəpə yaşayış yerindən tapılmışdır. Digər balta 1985-ci ildə Masallı rayonunun Tatyan kəndində torpaq işləri aparılan zaman təsadüfi aşkar edilmişdir. Tədqiqatçılar baltanı ilk tunc dövrünə aid edirlər. Tapılmış baltanın yeri Cəlilabad rayonunun I Mişarcay yaşayış yerinin tunc dövrü təbəqəsindən tapılmış balta qəlibi forması olan yerlə qonşudur. Gürcüstanda yastı balta bir ədəd Saçxeridə, bir ədəd Diqomidə və iki ədəd Bedenidə məlumdur[13, s.123].

Süngü formalı silahlar. Gəncə-Qazax bölgəsində tapılan silah nümunələri göstərir ki, bu ərazidə məskunlaşmış tayfalar İlk tunc dövründə nizələrlə paralel süngü formalı silahdanda istifadə etmişlər. Arxeoloji tədqiqatlar zamanı aşkar edilən metal silahlar içərisində süngü tipli əşyalara da rast gəlinmişdi. Tədqiq edilən bölgədə bu tip nümunə Xaçbulaq kurqanından [18, s.25] tapılmışdır. Analoji nümunə II Kültəpə yaşayış məskənində 9,35 m dərinlikdə e.ə. 2930 +90 il ilə tarixləndirilən orta təbəqəsindən (dərinlik 8, 50 m.) tapılmışdır[13, s.125],[4, s.105]. Bu onu göstərir ki, artıq e.ə.III minilliyin başlanğıcında Azərbaycan ərazisində süngü formalı silah nümunələrindən istifadə edilmişdi.

Analoji silah nümunələri Gürcüstan ərazisində, Saçxeridən Çarçis-qora və Kvaçxelebi abidələrindən tapılmışdı [11, s.74], [7, s.139]. B.Kuftin Saçxeri nümunələrini qədim şərq analogiyaları ilə müqayisə edərək e.ə. 2400-2200-cüillərə aid etmişdir.

Tədqiqatlar göstərir ki, süngülər Ön Asiyada nizələrlə eyni zamanda meydana gəlmiş və eyni arealda mövcud olmuşdur. Lakin nizələrə nisbətən bir qədər seyrək yayılmışlar. Ən qədim süngü nümunələrinə Ön Asiyada və Yaxın Şərqdə Ur nekropolunda [20, s.243], Anadoluda (Soli, Tarsus və s.) [23, s.93] və İranda (III Hissar) [22] təsadüf edilmişdir. Yaxın Şərq süngüləri Akkad və Elam hökmdarlıqları dövrünə aid edilməklə, e. ə. III minilliyin II yarısı və II minilliyin başlanğıcı, e.ə. 2500-2200-cü illərlə dövrləşdirilir.

Tədqiqatlar göstərir ki, e.ə.III minilliyə bütöv bir çərçivədə yeni mədəni-tarixi təzahür kimi baxmaq lazımdır. Bu dövrdə metallurqlar mükəmməl şəkildə metal filizini əridir, metal qarışıqlarından istifadə edir, tökmə, soyuq və isti döymə üsullarından, məftil hazırlama metodundan və mumdan hazırlanmış qəlib modellərin tətbiqinə geniş yer verirdilər.

Gəncə-Qazax bölgəsinin İlk tunc dövrü abidələrindən tapılan əşyalar bəhs edilən dövrdə metallurgiya və metalişləmədə texnoloji biliklərin artmasını və yeni texniki üsulların yaranmasını sübut edir. Belə ki, balta dəstəyi üçün boruşəkllı deşiklərin düzəldilməsi metallurgiyaya yeni üsulların tətbiq edildiyini göstərir. Artıq III minillikdə Gəncə-Qazax bölgəsində güclü metallurgiya mərkəzinin yarandığını görürük. Ümumilikdə bu dövrdə Cənubi Qafqazın metallurgiya və metalişləmə mərkəzlərinin inkişafını çoxsaylı mis-mərgümüş qarışıqlı, spesifik tunc

əşyaların qərbə doğru hərəkət etməklə, Krım və Şimali Qaradəniz boyu tayfaların metallurgiyasına təsirini müşahidə etmək olur. Belə ki, Kür-Araz mədəniyyəti bütün Cənubu Qafqazı, Şərqi Anadolunu, Aralıq dənizinin şərq hissəsinə doğru əraziləri əhatə edirdi. Kür-Araz mədəniyyətinin yayılma arealı imkan verir ki, artıq IV minilliyin sonu, III minilliyin əvvəllərində Cənubi Qafqazda metallurgiyanın kifayət qədər inkişaf etmə səbəbi aydınlaşsın.

İlk tunc dövrünə aid Gədəbəy xəncər nümunəsinin spektral analizlərinin nəticələri

(Analizlər Almaniya, Bohum Dağ-Mədən Muzeyinin arxeometallurgiya laboratoriyasında aparılmışdı)

Cədvəl 1.

Element izləri																Əsas elementlər		
Tapıldığı Ərazi	əşya	DBM lab. N	Ag	Sn	Sb	Te	Pb	Bi	Au	P	S	Fe	Co	Ni	Zn	Se	Sn	As	Cu
Gədəbəy	xəncər	4245/14	690	800	280	4	150	15	n.d.	180	120	280	4	6800	100	5	0,08	1,70	93,3

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Cəfərov H.F. Azərbaycan e.ə. IV minilliyin axırı - I minilliyin əvvəllərində. Bakı: Elm, 2000, 183 s.
2. Muradova F.M. Qobustan tunc dövründə. Bakı: Elm, 1979, 117 s.
3. Müseyibli N., Axundova G., Ağalarzadə A.. Ağstafa rayonunda tunc dövrünün qəbir abidələri // Azərbaycanda arxeoloji tədqiqatlar, 2011. Bakı, 2012, s. 97-108.
4. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə. Bakı: Elm, 2003, 338 s.
5. АхундовТ.И. Древние погребения Шеки, // МКА.т. XI.Баку, 1993,с.121-135.
6. Бахшалиев В.Б. Металлургия и металлообработка на территории древней Нахичевани: Автореферат диссерт. На соиск. Уч.ст. канд. Ист. Наук. Ленинград, 1986, 18 с.
7. Джапаридзе О. К истории грузинских племен на ранней стадии медно-бронзовой культуры.Тбилиси, 1961, 144с.
8. Джафарзаде И.М. Хачбулагская археологическая експедиция 1960 г. / МКАVII т. Баку, 1967, с. 15-45.

9. Куфтин Б.А. Археологические раскопки в Триалети. Тбилиси: Издательство АН Грузин.ССР, 1941, 231 с., с илл.
10. Куфтин Б.А. К вопросу о древнейших корнях грузинской культуры на Кавказе по данным археологии //ВГМГ, XIII-В, Тбилиси, 1944, с.291-334.
11. Куфтин Б.А. Археологическая маршрутная экспедиция 1945 г. В Юго-Осетию и Имеретию. Тбилиси: Издательство АН Грузин. ССР, 1949, 229 с.
12. Кушнарева К.Х. Памятники медного века в Нагорном Карабахе//СА, М., 1954, вып. XX, с.166-179.
13. Кушнарева К.Х., Чубинишвили Т.Н. Древние культуры Южного Кавказа. Ленинград: Наука, 1970, 191 с., с илл.
14. Мартиросян А.А. Армения в эпохе бронзы и раннего железа. Ереван, Изд-во АН Арм. ССР, 1964, 313 с.
15. Махмудов Ф.Р., Мунчаев Р.М., Нариманов И.Г. К древней металлургии Кавказа//СА, М., 1968, № 4, с. 16-26.
16. Махмудов Ф.Р. О бронзовых топорах Талыша // МКА, т. VII, Баку, 1973, с. 64-73.
17. Мусаев Д.Л. Археологические исследования поселения ранней бронзы на Бориспольтепе // Тезисы докладов, АЕИ в Азербайджана (1985). Баку: Елм, 1986, с. 20-22.
18. Нариманов И.Г., Исмаилов Г.С. Археологические раскопки в Хачбулаге в1959 //, Изв. АН Азерб.ССР, 1961, №3, с. 19-30.
19. Попова Т.Б. Дольмены у станицы Новосвободной. М.:// Советская Россия, 1963, 95 с.
20. Чайлд Г. Древнейший Восток в свете новых раскопок. М.: ИНЛ, 1956, 383 с.
21. Courcier A, Jalilov B, Aliyev İ., Guliyev F., Jansen M, Lyonnet B. Mukhtarov N. and Museibli N. "The ancient metallurgy in Azerbaijan from the end of the Neolithic to the Early Bronze Age (6th -3rd millennia BCE): an overview in the light of new discoveries and recent archaeometallurgical research. Bochum, 2016, pp. 25-36.
22. Schmidt E.F. Excavation at Tepe Hissar Danghan, Philadelphia //The University of Pensilvania Press, 1937, 478 p.
23. Stronach D.B. The development and diffusion of metal type in early bronze age Anatolia. AS, VII, 1957, 103 p.

Leyla Rustamova, Bakhtiyar Jalilov

Metal weapons of the Early Bronze Age of Ganja-Gazakh region

Summary

Keywords: *Ganja-Gazakh, Kura-Araxes, weapon,metallurgy, spectral analysis*

This paper presents the study of Bronze weapons found in Bronze Age sites of Ganja-Gazakh region. The weapon specimens revealed belonging to this period are represented by daggers, axes, spearheads and bayonet-shaped weapons. Studied weapons were found in Khachbulag, Hasansu sites and around Gadabay region (casual finding). Also, a broad typological classification of bronze weapons has been conducted and comparative analyses were carried out with similar analogues found from the Caucasus region. Spectral and crystallographic study researches on bronze weapons indicate the developed dynamics of metallurgy and metalworking in the Ganja-Gazakh region during this period.

Лейла Рустамова, Бахтияр Джалилов

Оружиераннего бронзового века Гянджа-Газахского региона

Резюме

Ключевые слова: *Гянджа-Газах, Кура-Араз, оружие, металлургия, спектральный анализ*

В статье нашло отражение оружие из бронзы, выявленное в Гянджа-Газахском регионе. Оружие представлено кинжалами, топорами, наконечниками стрел и штыком. Исследованные артефакты археологически выявлены на памятниках Хачбулаг, Гасансу и на территории Гядабейского района. Проведена типологическая классификация бронзовых оружий, приведены их аналогии, выявленные на памятниках Кавказа. Спектральный и кристаллографический анализы бронзовых оружий показывают высокий уровень развития металлургии и металлообработки в Гянджа-Газахском регионе в исследуемый период.

Esmira Rəhimova

Əzim Əzimzadənin əsərlərində xalq həyatının təsviri

Açar sözlər: *etnoqrafiya, xalq, məişət, nigah, akvarel*

UOT 39

Azərbaycan xalqının XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid həyatı, məişəti, eləcə də maddi və mənəvi mədəniyyəti özünəməxsusluğu ilə diqqət cəlb edir. Bunu deməyə həmin dövrə aid toplanmış zəngin maddi mədəni irsimiz əsas verir. Belə ki, ölkə muzeylərinin fondlarında, arxivlərində, kitabxanalarında, eləcə də şəxsi kolleksiyalarda yuxarıda qeyd etdiyimiz dövrə aid böyük maraq doğuran və elmi əhəmiyyət kəsb edən xeyli əşyavi, sənədli, yazılı və təsviri mənbələr qorunur və öyrənilir. Məhz bu mənbələr əsasında dəyərli mütəxəssislərimiz tərəfindən Azərbaycan etnoqrafiyasının bu və ya digər nəzəri məsələlərinə, problemlərinə həsr olunmuş sanbalı elmi-tədqiqat əsərləri ərsəyə gətirilmiş və bu gün də gətirilməkdədir. Həmin əsərlərlə tanış olduqda xalqımızın qeyd olunan dövrünə aid zəngin mədəniyyəti və məişəti haqda geniş təsəvvür formalaşır. Lakin buna baxmayaraq həmin dövrün etnoqrafiyası ilə bağlı hələ də həllini gözləyən məsələlər, qaranlıq məqamlar qalmaqdadır. Hesab edirik ki, həmin məsələləri həll etmək, qaranlıq məqamları işıqlandırmaq üçün təsviri mənbələrin, xüsusilə də rəsm əsərlərinin əhəmiyyəti danılmazdır. Bu baxımdan Azərbaycan etnoqrafiyasının öyrənilməsində satira qrafikasının meydana gəlməsi və inkişafında böyük xidməti olmuş, “Molla Nəsrəddin” jurnalının əsas simalarından biri, istedadlı rəssam Əzim Əzimzadənin rəsm əsərlərinin mənbə kimi rolu xüsusilə qeyd edilməlidir.

Bildiyimiz kimi, Ə.Əzimzadə XX əsr milli təsviri sənətimizin inkişafında əvəzsiz rol oynamış, qrafikamızı yeni janrlar və obrazlarla zənginləşdirmiş, rəssam kadrların yetişməsinə güclü təkan vermişdir. Onun zəngin irsində aparıcı yeri sosial-məişət mövzuları, cəmiyyətdə baş verən hadisələrə münasibət, cəhalətin ifşası, çarizmin müstəmləkəçilik siyasəti, məmurların özbaşınalığı, despotizm kimi neqativ halların tənqidi və onlara qarşı mübarizə tuturdu. Azərbaycan məişətinə

dərindən bələd olması, xalqla üzvi surətdə bağlılığı və düşmənlərə qarşı sonsuz nifrəti rəssama ilham verir və onun satirasını gücləndirirdi (4, s. 5).

Ə.Əzimzadə yaradıcılığının mühüm xüsusiyyəti obrazların milli koloritliyi, folklor ənənələrinə yaxınlığı, satira və yumor elementlərinin dərin ifadəliliyi ilə səciyyələnir. Rəssam buna təkcə zahiri etnoqrafik elementlər vasitəsilə deyil, həm də xalqın ruhunu, təbiətini, nəcib arzularını, mənəvi-əxlaqi dəyərləri yumor dilində ifadə etməklə nail olmuşdur. O, Azərbaycan xalqının həyatını hərtərəfli və yaxından öyrənməyin nə qədər zəruri və faydalı olduğunu yaxşı bilən sənətkar idi.

Təsadüfi deyil ki, Ümümmılli lider H.Əliyev 30 dekabr 1995-ci il tarixdə kiçik yaşlı rəssamın fərdi sərgisindəki nitqində Azərbaycan təsviri sənətinin tarixindən bəhs edərkən Ə.Əzimzadənin yaradıcılığını yüksək qiymətləndirmişdir: "Azərbaycanın rəssamlıq məktəbi çox zəngindir. Azərbaycan rəssamları keçmiş əsrlərdə də, yaşadığımız, başa çatmaqda olan XX əsrdə də dünya incəsənətinə, mədəniyyətinə böyük töhfələr veriblər. Biz bununla daim fəxr etmişik və fəxr edirik. Azərbaycanda rəssamlıq məktəbi xüsusən XX əsrin əvvəllərindən başlayaraq Əzim Əzimzadə və başqa böyük rəssamlarımızın açdığı yolla gedən sənətkarlar tərəfindən yaranıbdır" (3, s. 474).

Həqiqətən də, Əzim Əzimzadənin rəsmləri XX əsr Azərbaycan təsviri sənəti salnaməsində şərəfli yer tutsa da, lakin nədənsə həmin əsərlər dəyərli etnoqraflarımızın diqqətindən kənar qalmış, onların etnoqrafik baxımdan öyrənilməsi həyata keçirilməmişdir. Məhz bu boşluğu aradan qaldırmaq, Ə.Əzimzadənin əsərlərinin mənbə kimi rolunu vurğulamaq, eləcə də Azərbaycanın bəhsi gedən dövrə aid xalq həyatı ilə bağlı mövcud təsəvvürlərini daha da zənginləşdirmək məqsədilə biz bu mövzuya müraciət etmişik. Qeyd edək ki, hazırki tədqiqat işi Ə.Əzimzadənin zəngin yaradıcılığının etnoqrafik baxımdan öyrənilməsi istiqamətində ilk cəhddir. Mövzunun öyrənilməsi üçün Ə.Əzimzadənin çoxsaylı əsərlərindən bəzi nümunələr tədqiqata cəlb edilmişdir.

Azərbaycanın XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid xalq həyatının maraqlı məqamlarından birini ailə və nigah münasibətləri təşkil edir. Bildiyimiz kimi bu münasibətləri öyrənmək üçün mütəxəssislər əsasən rəsmi sənədlərə, dövri mətbuata, həmin dövrdə yaşamış müəlliflərin əsərlərinə, görkəmli şəxsiyyətlərin memuarlarına və digər yazılı qaynaqlara müraciət etmişlər. Lakin Ə.Əzimzadənin aşağıda verilmiş maraqlı rəsm əsərləri də ailə və nigah münasibətlərinin öyrənilməsində özünəməxsus əhəmiyyətə malikdir. Belə əsərlərdən biri 1935-ci ildə işlənmiş "Bəy və gəlin" adlı akvareldir (9,s.42).Rəsmdə şərq üslubu ilə bəzədilmiş, döşəməsinə xalı salınmış gəlin otagı təsvir olunmuşdur. Yaşlı qadının qucagında kiçik yaşlı "gəlin" əyləşmişdir. İçəriyə yaşlı bəy daxil olur. Rəsmdən də gördüyümüz kimi tədqiqat dövrünün nigah münasibətlərində bəzən yaş həddi gözlənilmirdi. Hələ yetkinlik yaşına çatmamış qızlar özlərindən qat-qat yaşlı kişilərə ərə verilirdi.

Erkən evlilik mövzusunda 1937-ci ildə çəkilmiş digər maraqlı akvarel "Ata qızını

zorla ərə verir" adlanır (5, s. 76). Xalılarla bəzədilmiş böyük otağın ortasında bir kişi dayanmışdır. Onun üz-gözündən qəzəb yağır. Görünür ki, bu evdə heç kəs onun sözündən çıxa bilməz. Kişi qızını özünün istədiyi adama ərə vermək istəyir. Lakin qız ərə getmək istəmir. Zavallı qız zalım atanın ayaqlarına yıxılıb yalvarır, amma onu dediyindən döndərmək mümkün deyil. Əsərdə insan psixologiyası qüvvətli ifadə olunmuşdur. Bu evdəki hadisə asan başa düşülür, gənc qızın halına yanılır.

Görkəmli sənətkarın "Təzə və köhnə arvad", "Arvad boşama" kimi akvarelləri də etnoqrafik cəhətdən zəngin sənət əsərləri hesab edilir. 1935-ci ildə çəkilmiş "Təzə və köhnə arvad" akvarelində(5, s.75).Tədqiqat dövründə Azərbaycanda mövcud olmuş nigah adətləri, xüsusilə "poliqamiya" (çoxkəbinlilik) kimi nigah forması haqqında təsəvvür yaranır. "Kişinin birinci arvadın üstünə "günü" gətirməsi onun qadını tərəfindən xoş qarşılanmırdı. Şəriətin ona verdiyi hüquqdan istifadə edən kişi ikinci arvad alırdı. "Günü" adlanan həmin qadın ailədəki mövqeyi ilə barışmaq istəmirdi. Bundan başqa birinci arvad da üstünə "günü" gətirilməsini qəbul etmirdi. Buna görə də"günü" arvadlar arasında tez-tez münaqişə düşür, biri digərini ərinin gözündən salmağa çalışırdı. Çox vaxt ər ikinci arvadın tərəfini saxlayır, birinci arvadı boşayırdı. Bəzən də "günü" arvadlar belə dava-dalaşla ailədə bu gərginliyi ömürlərinin sonuna qədər davam etdirirdilər"(1,s.368).

Sənətkarın ailə məişəti mövzusunda 1937-ci ildə çəkdiyi "Kişi arvadını döyür" adlı əsəri də öz dövrünün ailədaxili münasibətləri, eləcə də məişəti haqqında müəyyən təsəvvür yaradır. Rəsmin adın da göründüyü kimi elə həmin dövrdə tez-tez ailədaxili münaqişələr baş vermiş, kişi və qadın münasibətlərində müəyyən gərginlik yaşanmışdır. Bu rəsmdə də qəzəblənmiş ərin özündən çarəsiz vəziyyətdə olan arvadını saçlayıb döyməsi səhnəsini görmək mümkündür."Otaq alt-üst olmuş, samovar böyrü üstə yıxılmış, hər yana qırılmış qab-qacaq tökülmüşdür. Anasının böyrünə qısılmış balaca uşaq da, haraya yüyürən qarı da, bu ailədə tez-tez baş verən dava-dalaş səhnəsi də böyük ustalıqla canlandırılmışdır" (4, s. 74). Rəsmdən göründüyü kimi XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan ailəsində kişi ailədə üstün mövqeyə malik olduğu halda, qadın hüquqsuz və müdafiəsiz fərd rolunda çıxış etmişdi.

Tədqiqat dövrünün Azərbaycan ailəsində qadının hüquqsuz və köməksiz vəziyyətdə olmasını Ə.Əzimzadənin növbəti əsərindən görmək mümkündür. Onun 1935-ci ildə yaratdığı "Ağır zəhmət" akvarelində Azərbaycan qadınının məişət qayğıları altında necə əzilməsini böyük məharətlə təqdim edilmişdir(5,s. 42). Sadə bir süjet seçən rəssam bu əsərində yoxsul kəndli ailəsində qadının çəkdiyi əziyyəti göstərmək istəmişdir: müxtəlif mətbəx avadanlığı ilə dolu bir otaqda torpaq döşəmə üzərində diz çöküb oturmuş qadın tabaqda xəmir yoğurur. Evdə başqa bir adam olmadığından qadın körpəsini belinə şəlləmişdir. Onun 5-6 yaşlı oğlu isə mətbəx dolabının üstünə dırmaşıb rəfdən nə isə götürür. Əsərdə bu cür həyat tərzi keçirən qadının gecə-gündüz ağır zəhmət çəkməsi, vaxtından əvvəl qocalması, belinin

əyilməsi qabarıq cizgilərlə təsvir olunmuşdur. Bununla da rəssam cəmiyyətin qadınlara bəxş etdiyi bu həyat tərzini tənqid etmiş olur.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan ailələrində müşahidə olunan hallardan biri də boşanmadan sonra əmlakın bölüşdürülməsidir. Bu mövzu Ə.Əzimzadə fırçasından da yan keçməmişdir. Onun yenə də 1935-ci ildə yaratdığı “Var-yoxun bölüşdürülməsi” adlı akvareli bu baxımdan böyük maraq doğurur. Belə ki, “Azərbaycanda ailə birliyinin qorunması hər zaman önəm daşımışdır. Bəzən isə ailə daxilində baş verən münaqişələr, məişət zorakılığı ailənin varlığını zərbə altına qoymuş, boşanmanı labud etmişdi(2,s.385). Boşanmadan sonra isə ailə əmlakının bölüşdürülməsi məsələsi gündəmə gəlirdi. Elə adı çəkilən rəsmdə də başı əmmaməli, saqqalı və barmaqları xınalı bir kişinin – qazının ər və arvada düşən mirası bölüşdürməsi təsvir olunmuşdu.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan xalq həyatında Novruz və dini bayramların, mərasimlərin və əyləncə xarakterli müxtəlif oyunların da öz yeri vardır. Etnoqrafik baxımdan böyük maraq doğuran həmin bayram və oyunlar Ə.Əzimzadə yaradıcılığından da yan keçməmişdir. Hələ gənc yaşlarından xalqın adət-ənənələrinə dərindən bələd olan rəssam bunları realist sənətkar qüdrətilə təsvir etməyi bacarmışdır. Onun “Kosa-kosa”, “Novruz bayramı”, “Qurban bayramı”, “Ramazan bayramı”, “Aşura”, “Kəndirbaz oyunu”, “Qoç döyüşdürmə” və s. rəsm əsərləri etnoqrafik məlumatlarla zəngin təsviri mənbələrdir. Bu əsərlərdə Ə.Əzimzadə xalq oyunları və əyənləncələrində iştirak edən insanların xarakterini, hadisələrə münasibətini aydın cizgilərlə təqdim edə bilmişdir. Bu baxımdan 1930-cu ildə fırçaya alınmış “Kosa-kosa” mərasimini əks etdirən akvarel daha diqqət cəlb edir. Rəssamın təsvirindən göründüyü kimi xalq arasında geniş yayılmış “Kosa-kosa” oyununda bəyzadə məsxərəyə qoyulur. Küçədə gedən bir nəfər kosanı xatırladan uzun müqəvvanı camaata göstərir. Müqəvvaya cırıq çuxa geydirilmiş, başına şiş papaq qoyulmuş, üzünə un sürtülmüş, sallaq bığlar yapışdırılmış, çuxasının altından qarnına yastıqca sarınmış, əlində naxışlı ağac, boynundan zınqırov asılmışdır. Etnoqrafik mənbələrdən də məlumdur ki, əhalinin toplaşdığı meydanda Kosanın köməkçisi ortalığa çıxıb nəğmələr oxuyur və onu meydana çağırır.”Kosa gülməli oyunları ilə meydana toplaşanları əyləndirir, köməkçi isə tamaşaçılardan Kosa üçün pay istəyir. Kosaya heç kim pay vermək istəmir”(10,s. 94).Köməkçi keçi görkəminə salınmış digər məzhəkəçini səhnəyə dəvət edir. Xalq arasında sevilən “keçi”yə meydandakılar onun gözlədiyindən də artıq pay verirlər. Kosa keçinin yığdıqlarını əlindən alır və meydandan qovub çıxarır. Varlanmış Kosa sevinclə meydanda atılıb-düşür, gülməli hərəkətlər göstərir, bununla da ətrafda bayram əhval-ruhiyyəsi yaradır.

Ə.Əzimzadənin tədqiqat dövrünə aid xalq oyunları mövzusuna həsr etdiyi növbəti əsər “Kəndirbaz” adlı akvarelidir. 1935-ci ildə işlənmiş bu əsərdə adından da göründüyü kimi xalq arasında geniş yayılmış meydan tamaşası - kəndirbaz

oyunu canlandırılmışdır. Etnoqrafik mənbələrdən də Kəndirbazlar öz tamaşalarını göstərmək üçün ilk olaraq meydanlarda bir-birindən 20-25 m aralıda iki yoğun ağacı yerə basdırır, sonra isə 5-6 m hündürlükdə ağacların üstündən kəndir çəkib yerə bərkidirdilər. Qurğu hazır olduqdan sonra isə 4-5 m uzunluğunda ağacdan (ləngərdən) istifadə etməklə kəndirin üzərində hərəkət edir, müxtəlif oyunlar göstərirdilər. Kiçik kəndirbaz dəstələrində keçipapaq və çalğıçılar kimi köməkçilər (zurnaçılar, balabançılar və nağaraçalanlar), böyük kəndirbaz dəstələrində isə çalğıçılarla yanaşı xırda səhnəciklər və oyunlar göstərən, «mütrüb» adlandırılan artistlər və qadın «çəngiləri» (rəqqasələr) də iştirak edirdilər. Kəndirbaz oyunlarında bəzən təlim görmüş heyvanlardan da istifadə edilirdi. Keçipapaq kəndirbaz oyununda əsas ifaçılardan biri olmaqla, kəndirbazın hərəkət və oyunlarını aşağıda məzəli tərzdə təqlid edən təlxək idi. O, oyun zamanı hoppanıb-düşür, heyvan və quşların səsini yamsılayır, məzəli hərəkətləri ilə ətrafdakıları əyləndirir, tamaşaçılardan nəmər yığırdı. Keçipapağın nərəsi və çalğıçıların ifa etdiyi "Koroğlu" havası ilə kəndirbaz cuşə gəlir, bir-birindən maraqlı və təhlükəli nömrələr göstərərdi. Rəsmdən də göründüyü kimi kişilər kəndirbaza tamaşa etmək üçün qurğunun ətrafına toplaşmış, qadınlar isə qonşu evlərin damına çıxmışlar.

Azərbaycan xalqının yaratdığı çox zəngin mənəvi mədəniyyət irsi nümunələrindən biri də xalq oyun və əyləncələridir. Xalqımızın həyat və məişətində xüsusi yer tutan oyun və əyləncələr öz məzmunu etibarı ilə olduqca geniş və rəngarəng olub, maddi və mənəvi yaradıcılığın bütün sahələrini əhatə edir. Xalqımızın tədqiqat dövrünün oyun və əyləncələri sırasında itboğuşdurmanı, xoruz və qoç döyüşdürməni qeyd etmək olar. Bu cür əyləncələr də Ə.Əzimzadə yaradıcılığında da yer almışdır. Onun 1935-ci ildə ərsəyə gətirdiyi "Qoç döyüşdürmə"adlı rəsmində adından göründüyü kimi qoç döyüşü təsvir olunmuşdur(9,s.68).Rəsmdən məlum olur ki, tədqiqat dövründə qoç döyüşləri meydanlarda təşkil edilirdi. Əsasən kişilərin əhatəsində və maraq dairəsində baş verən bu döyüşlər xüsusi ehtirasla qarşılanırdı. Belə ki, kişi tamaşaçılar meydanın kənarında iki qoçun döyüşünü seyr etməklə, hansı heyvanın qələbə qazanacağı haqqında bir-birilə çəkişirlər. Rəsmə əsasən deyə bilərik ki, bu döyüşlərə qadınlar da maraq göstərmişlər.

Xalq oyunları və əyləncələri mövzusunun davamı olaraq rəssamın 1938-ci ildə çəkdiyi "İt boğuşduranlar" akvareli də maraq doğurur. Rəssam XIX əsrin sonu-XX əsrin əvvəlləri üçün xatakterik olmuş bu əyləncə səhnəsini çox inandırcı təsvir etmişdir. Təsvirdən də aydın olur ki, itboğuşdurma biçilmiş əkin sahəsində baş verir. Kəndlilərin əhatəsində baş verən bu döyüşü xeyli insan tamaşa edir. İt döyüşünü kişilərlə yanaşı kiçik yaşlı uşaqlar, hətta qadınlar da izləyirlər. Meydanın ortasında yarı əyilmiş vəziyyətdə iki nəfər itləri bir-birinin üstünə qısqırtmaqla məşğuldur.

Rəssamın etnoqrafik baxımdan maraq doğuran əsərlərindən biri də 1937-ci ildə işlədiyi "Çillə kəsmək" adlı akvarelidir. İbtidai təsəvvürlərə söykənən, insanların üzləşdikləri qorxulu hadisələr və xəstəliklər zamanı onlardan xilas olmaq, yaxa

qurtarmaq üçün icra etdikləri "çillə kəsmək " ayinini rəssam böyük ustalıqla işləmişdir. Adətən çilləsi kəsilən adamın əl və ayaq baş barmaqlarına ağ rəngli ip üç dəfə sarınır. Çilləni kəsən isə ovsun oxuya-oxuya ipləri qayçı ilə kəsirdi. Ayin icra olunduqdan sonra iplər çilləsi kəsilənin başının üstündə tutulub üzərinə "qırxaçar" camdan su axıdılırdı. Bu ayin insanlarda dərd-bəlanın yuyulması, çilləsi kəsilənin üzüntüdən xilas olması inancı yaradırdı.

Xalqımızın mənəvi aləmində İslam dinin mühüm yeri vardır. Min ildən artıq zaman çərçivəsində islam dini xalqın dünyagörüşündə, adət-ənənələrində, etik davranış qaydalarında əsas rol oynamış, onun genetik yaddaşında dərin iz buraxmışdı. Məhz bunun nəticəsidir ki, xalqımızın dünyagörüşünə, həyata baxışına, inamlarına hakim kəsilən islam dini dünyagörüş, inam, inanc səviyyəsindən çıxaraq xalqımızın yaşam tərzinə, həyat tərzinə çevrilib.

İslam dinin xalqımızın həyat tərzinə göstərdiyi təsir böyük rəssamın əsərlərində də qabarıq vurğulanır. Belə ki, onun 1938-ci ildə "Aşura günündə" adlanan kiçik akvarelində aşura mərasimi təsvir edilib. Rəsmdə kürəklərinə zəncir vurub və xəncərlərlə başlarını yaran insanların "şaxsey-vaxsey" səhnəsini izləmək mümkündür. Şəklin sol tərəfində çoxlu qanaxma nəticəsində huşunu itirmiş bir nəfərə yardım göstərildiyi əks olunur. Şəklin sağ küncündə isə niyyət etmiş qadının öz uşağının başını küçə bərbərinə çərtdirməsi göstərilir.

İslam dininin xalq həyatındakı rolu rəssamın 1938-ci ildə yaratdığı "Ramazan ayında dövlətlinin iftar açması" adlı akvarelidir (5, s.44) (şəkil 1). Akvareldə bir dövlətli ailəsində ramazan süfrəsi təsvir edilib. Ailənin üzvləri yerə sərilmiş süfrənin başına toplaşmışlar. Burada hər cür naz-nemət vardır. O biri otaqdan qulluqçular məcməyilərdə plov və şərbət gətirirlər. Ailənin başçısı, şişman tacir yumşaq mütəkkəyə söykənərək cavan arvadı ilə yanaşı oturmuş, papağını və Quran kitabını yanına qoymuºdur. Əvvəlki arvadı isə qızı və oğlu ilə bir qədər uzaqda əyləşmişdir. Bu interyer, mükəmməl detallar-Avropa mebeli və yerə salınmış süfrə, naxışlarla bəzədilmiş dekorativ kətəbəli dini təsvirlər və onlarla yanaşı asılmış çılpaq qadın təsvirləri – bütün bunlar tacirin firavan həyatının göstəricisidir.

Rəssamın digər akvarelində, "Ramazan ayında yoxsulun iftar açması"ında isə biz tam əks mənzərəni görürük. Onların nə dərəcədə kasıb olması ailə başçısının və onun qoca qadınının simasından, uşaqlarının kədərli gözlərindən çox aydın şəkildə görünür (5,s. 44) (şəkil 2).

Xalqımıza məxsus adətlərdən olan toy mərasimi də rəssamın əsərlərində öz əksini tapmışdır. Toyu müəyyən mənada kütləvi bayram kimi də qəbul etmək olar. Toy mərasimi iki ailənin və qohumların bayramı çərçivəsindən çıxaraq elin-obanın bayramına çevrilir. Azərbaycanda toy və evlənmə ilə bağlı tarixən müxtəlif sosial statuslara malik adət-ənənələr və ayinlər müşahidə edilmişdir (6, s. 192). Bu adət və ayinlərin qabarıq ifadəsi Ə.Əzimzadənin "Dövlətli evində toy"(şəkil 3),Kasıb evində toy"(şəkil 4).akvarellərində öz ifadəsini tapmışdır. "Dövlətli evində toy"

akvarelində məclisə toplaşmış qadınların al-əlvan, ipək və xara parçalarından hazırlanmış geyimləri, bahalı zinət əşyaları, zəngin bəzənmiş otaq diqqəti cəlb edir. "Kasıb evində toy" akvareli isə bunun əksinə olaraq tamaşaçıda kədərli əhval-ruhiyyə yaranır.

Əzim Əzimzadənin Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar fondunda mühafizə edilən "Novruz bayramı" adlı rəsm əsəri yağlı boya ilə çəkilmiş,onun ümümi ölçüləri 36 x 51 sm-dir (şəkil 5). Bu əsərdə xalqımızın əzəli-əbədi bayramı olan Novruzun əhatəli təsvirini görə bilərik (7). Bu tabloda milli adət-ənənələrimiz zəngin etnoqrafik çalarlarla təsvir edilmiş, bayram şadyanalığı qabarıq şəkildə öz əksini tapmışdır.

Əzim Əzimzadə bütün əsərlərində Azərbaycanın zəngin etnoqrafik mənzərisi ilə yanaşı, cəmyyətdəki sosial durum, varlı və yoxsul ailələrin həyat tərzi, dövrün bir sıra sosial, iqtisadi, mədəni məsələləri bütün çılpaqlığı ilə göz önünə sərilir. Rəssamın məişət mövzusuna həsr etdiyi akvarelləri dövrün mənfiliklərinə sanki bir ayna tutur. Bu aynada hakim dairələrin yarıtmaz, qüsurlu idarə sistemi və onun yaratdığı problemlər çox ustalıqla kağız üzərinə köçürülümüşdür. Bu mənada Ə.Əzimzadənin əsərləri tariximizin, etnoqrafiyamızın eyni zamanda xalq həyatının öyrənilməsində əvəzsiz və dəyərli mənbədir.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan etnoqrafiyası: 3 cilddə, II cild, Bakı, 2007.
2. Bünyadova Ş. Orta əsr Azərbaycan ailəsi. Bakı, 2012.
3. Əliyev H. Mənəvi irsimizin keşiyində. II Kitab. Bakı, 2001.
4. Əzim Əzimzadə / İradə Əzimzadənin redaktəsilə, Bakı, 2006.
5. Qazıyev A. Xalq rəssamı Əzim Əzimzadə. Bakı,1953.
6. Məhərrəmova S. XIX-XX əsrlərdə Kiçik Qafqazın cənub-şərq bölgəsinin tarixi- etnoqrafik tədqiqi (Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının materialları əsasında). Tarix elm. dok... dis. Bakı, 2010.
7. Milli Azərbaycan Tarixi Muzeyinin Təsviri materiallar fondu: İF 163.
8. Nəcəfov M. Əzim Əzimzadə. Bakı,1980.
9. Nəcəfov M. Xalq rəssamı ƏzimƏzimzadə. Bakı,1959.
10. SeyidovM. Yaz bayarmı.Bakı,1990

Esmira Rahimova

Displaying the life of the people in the works of AzimAzimzadeh

Summary

Key words: *Ethnography, people, way of life, marriage settlement, water-colour*

The author of the article gives a brief overview of the development of fine art in Azerbaijan at the beginning of the 20th century, and then goes directly to the consideration of AzimAzimzade'screativity.Here he describes his activities in the journals "MolaNasreddin", "Drum", "Zanbur", "Tuti", "Kalniyat" in the early period of creativity.

During the Soviet periodAzimAzimzade worked in the newspaper Kommunist and continued his cooperation with the magazine MolaNasreddin.The article gives a detailed analysis of the artist's works, the main themes of which were social inequality, Russia's colonial policy, despotism and bureaucratic chaos, exposing ignorance. A special place was occupied by the problem of the disenfranchised position of women in the family.

Эсмира Рагимова

Отображение народной жизни в произведениях АзимаАзимзаде

Резюме

Ключевые слова: *этнография, народ, быт, брак, акварель*

Автор статьи дает краткий обзор развития изобразительного искусства в Азербайджане в начале XX в., а затем переходит непосредственно к рассмотрению творчества АзимаАзимзаде.Здесь описывается его деятельность в журналах «Мола Насреддин», «Барабан», «Занбур», «Тути», «Калнийят» в ранний период творчества.

В советский период АзимАзимзаде работал в газете «Коммунист» и продолжал сотрудничество с журналом «Мола Насреддин».В статье дается обстоятельный анализ работ художника, основными темами которых были социальное неравенство, колониальная политика России, деспотизм и чиновничий беспредел, разоблачение невежества. Особое место занимала проблема бесправного положения женщины в семье.

şəkil 1

şəkil 2

şəkil 3

şəkil 4

şəkil 5

Şəhla Nuruzadə

Azərbaycanlıların yas adətləri ilə bağlı bəzi inancları mənəvi dəyərlər sistemində

Açar sözlər: *milli-mənəvi dəyərlər, dünyagörüşü, ölüm və həyat, yas adətləri*.

UOT 39

Mənəvi dəyərlərə çox vaxt milli xarakterin bəzi xüsusiyyətlərini, adət və ənənələri, milli etiketin və dindarlıq dərəcəsinin xüsusiyyətlərini, dünyagörüşünün elementlərini, mifologiyanı və s. aid edirlər. Yas və dəfn adətləri demək olar ki, yuxarıda göstərilən bütün dəyərləri - xalqın dünyagörüşünü, mifologiyasını, adət-ənənələrini, dini inanclarını, etiket normaları, eləcə də milli xarakterini və s. dəyərlərini özündə əks etdirir.

Dəfn və yas adətləri ənənəvi dəyərlərin qorunub saxlanmasında və gələcək nəsillərə ötürülməsində böyük əhəmiyyət kəsb edir. Ölüm və həyat xalqın dünyagörüşünün əsas anlayışlarıdır. Eyni zamanda ölüm və həyat zaman və əbədilik, indiki həyat, gələcək, keçmiş, tale və yaddaşla sıx bağlıdır. İnsanlar bütün bunların cavablarını dində, mifologiyada, həyat və o biri dünya haqqında inanclarda axtarmışlar və axtarmaqda da davam edirlər.

Azərbaycanlıların milli-mənəvi dəyərlər sistemində ölümlə, yasla, dəfnlə bağlı anlayışlar xüsusi yer tutur. Məqalənin qarşısında duran əsas məqsəd azərbaycanlıların yas adətləri ilə bağlı bəzi inanclarını araşdırmaqdır.

Hər bir etnosun dünyagörüşündə həyat və ölüm məsələləri mərkəzi rol oynayırdı və bu məsələlər etnik mədəniyyət kontekstində dərin məna kəsb edir. Azərbaycanlıların ənənəvi dünyagörüşünə əsasən insanın həyat yolu Allah tərəfindən qabaqcadan müəyyən edilmişdir. İnsan dünyaya gəlir, böyüyür və müəyyən bir gündə dünyasını dəyişir.

Yas adətlərində "ölüm" və "həyat" haqqında təsəvvürlər digər xalqlarda olduğu kimi türk xalqlarının da dünyagörüşündə xüsusi yer tutur. Məsələn, xakasların ənənəvi dünyagörüşünə əsasən bu dünyada hər bir şey həyatı digər canlı varlıqlardan

alır, öz vaxtı gəldikdə isə onu digərlərinə verir. Dünyaya gəlmə, inkişaf və ölümün təbii hal olduğu canlı orqanizm olan dünya üçün ölüm yeni bir vəziyyətə keçid kimi qəbul olunur. Dünyanın ilkinliyi ideyasının üstünlük təşkil etməsi pozitiv dünyagörüşünün yaradılmasına kömək etdi. İnsan ölümü yalnız varlığın yerinin dəyişməsi, kainatın dəyişkən vəziyyətində keçid mərhələsi kimi qəbul edir [14].

Bütün xalqlarda ölümlə əlaqədar müxtəlif miflərə rast gəlinir. Antik dövrün mifoloji təsəvvürlərində ölüm insanları ölümsüz allahlardan fərqləndirən əsas əlamətdir. Şumer-akkad mifologiyasında, xüsusilə də “Gilqamış” dastanında qəhrəmanlıq və böyük igidliklər göstərən insan ölümsüzlükdən məhrum olur, lakin ölümdən sonra yenidən dirilir. Yunan mifologiyasına Şərq mifologiya sistemindən əzab çəkən və ölən allah ideyası daxil oldu. Lakin bu ölüm müvəqqətidir, belə ki, allah zühr edir (əkinçilik təsərrüfatı prosesinin mifoloji təcəssümü - taxıl əkilməsi və cücərməsi ilə əlaqələndirmək olar). Bibliya miflərində ilk insanların “günaha batması” nəticəsində allah onların sonrakı nəsillərini cənnətdən və ölümsüzlükdən məhrum edir. Xristian mifologiyasında insanın “ilk günahı” və allah tərəfindən cəzalandırılması haqqında mifə İsa peyğəmbərin bütün insanların günahdan azad edilməsi müqabilində könüllü ölməsi haqqında inam əlavə olundu [16, s. 635].

İslamda bu dünyada yaxşı əməllər edən insanların öldükdən sonra diriləcəkləri haqqında inam mövcuddur. Qurani Kərimin İsra surəsində bu barədə deyilir: “Məgər onlar (öləndən sonra bir daha diriləcəklərini inkar edənlər bu böyüklükdə) göyləri və yeri (yoxdan) yaradan Allahın (bu kiçiklikdə) onlar kimisini (yenidən, eynilə) yaratmağa qadir olduğunu görmürlərmi?!” [3, s. 204].

Ölüm haqqında dini-mifoloji təsəvvürlər (inanclar) ruh, axirət dünyası, bir sıra dini magik ayinlər (dəfn ayini, əcdadların ruhuna inam və s.) mövcuddur. Avropa xalqlarının mifologiyasında ölü qoca qarı və ya hörüklü skelet kimi təsəvvür olunur. Slavyan xalqları üçün ölüm qadın, german xalqları üçün kişi obrazında təsvir olunur.

İslamda ölüm mələyi Əzraildir. Qurani Kərimdə Səcdə sürəsində bu barədə yazılır: “(Ya Rəsulum!) De: Sizə müvəkkil olan ölüm mələyi (Əzrail) canınızı alacaqdır. Sonra da (qiyamət günü) Rəbbinizin hüzuruna qaytarılacaqsınız!” [3, s. 311].

Dini inamından asılı olmayaraq hər bir insan bu sualları özünə verir: Öldükdən sonra onu nə gözləyir? Onun ruhu hara gedəcək? Öldükdən sonra da həyatını davam etdirəcəkmi?

Türk ilahiyyatçısı Süleylam Toprak “ölümə” dini-fəlsəfi yanaşaraq yazır: “Heç bir insanın məhv olmaq istəmir, yeni bir yola çıxacağında (yəni öldükdə “o biri dünyaya gedəcəyində”- Ş.N.) o, psixoloji olaraq həmin yol və çatacağı yer haqqında məlumatı olmasını istəyir, bu, onun yolda və çatacağı yerdə başına gələcək şeylər üçün hazırlıqlı olmasını təmin edər” [13, s. 15].

İbtidai icma quruluşundan bu günədək insanların ölümlə əlaqədar inancları, yas mərasimində həyata keçirdikləri ayinlər sözsüz ki, “ölümü”, “öldükdən sonra nələr baş verəcəyini” dərk etmək istəyindən və onun qarşısında qorxudan və ya hər hansı

bir inancdan – "axirət dünyasına inam", "ölünün Allah qarşısında günahlarının bağışlanması", "ölünün ruhunu şad etmək" və s. inanclardan irəli gəlir.

İslamın Azərbaycanda yayılması ilə insanların dünyagörüşündə, həyat tərzində bir sıra mühüm dəyişikliklərlə yanaşı ibtidai dəfn ayinləri, həyat və ölüm haqqında təsəvvürlər də köklü dəyişikliklərə məruz qaldı. Lakin bu və ya digər dərəcədə müasir azərbaycanlıların yas mərasimində islamaqədərki ayinlər hələ də keçirilir. Azərbaycanlıların digər adət-ənənələrində olduğu kimi, yas adətlərində də dini sinkterizm özünü göstərir.

Dinindən, ideologiyasından asılı olmayaraq insan öldükdən sonra onun o biri dünyaya yola salınması adəti həyata keçirilir. Yas adətində həyata keçirilən bir sıra proseslər ayin xarakteri daşıyır.

İbtidai dini formalardan biri olan "animizm" can (bədən) və onun ruhu haqqında, ruhun bədəndən ayrı mövcud olması və yaşaya bilməsi əqidəsi əsasında meydana çıxmışdır. Ruh həyatın təcəssümü hesab olunur, yəni nəfəsin kəsilməsi, həyatın bitməsi kimi dərk olunurdu. Ölüm və yuxu ruhun bədəni müvəqqəti tərk etməsi kimi başa düşülürdü. Ruh haqqında təsəvvürlərin meydana çıxması ilə əlaqədar olaraq ölümə münasibət də dəyişir. Əgər ilk zamanlarda insanın ölümünə əbədi bir yuxu kimi baxılırdısa, indi insan ölərkən onun ruhunun yaşaması və buna görə də ona münasibəti və qayğı göstərmək fikri meydana gəlir. Tədricən "axirət dünyaya" inam inkişaf etməyə başlayır. Bunun da təsiri altında bir sıra ölü basdırma (dəfnetmə) adət və mərasimləri meydana çıxır.

Eramızdan əvvəl III-I minillikdə Azərbaycanda "axirət dünyaya" inanma məfkurəsi (insan ölməyib, müvəqqəti yuxuya gedir və müəyyən dövrdən sonra oyanmalıdır) əsas yer tutduğu üçün qəbirlərə ölülərlə bərabər, xüsusi qablarda yemək, içmək, ev əşyaları, ölünün silahını və başqa şeylər qoymaq adəti geniş yayılmışdı [4, s. 80]. "Axirət dünyaya" inamla əlaqədar olaraq qədim Azərbaycanda qəbrə ölünün əşyaları ilə yanaşı yemək ehtiyatı da qoyurdular. Buna görə də bu cür qəbirlərdən külli miqdarda maddi mədəniyyət abidələri tapılır ki, bunlar Azərbaycanın qədim mədəniyyətini və dini ayinlərini öyrənmək üçün böyük əhəmiyyət kəsb edirlər.

"Axirət dünya"ya inam məfkurəsi islamda artıq başqa formada öz əksini tapdı. İslam dinində "axirət dünya"ya inam Qurani Kərimin bir sıra ayələrində öz əksini tapmışdır. Bunlardan Ənam surəsinə istinad edək: "Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Axirət yurdu müttəqilər üçün daha xeyirlidir. Məgər dərk etmirsiniz?" [3, s. 85].

Dəfnetmə ölümün mərhələlərindən biridir. Ölüm inanclardan irəli gələrək ölüm əvvəli, ölüm vaxtı və ölümdən sonrakı mərəhələlərə bölünür. Bu mərhələlərin hər birində həyata keçirilən mərasimlər, eləcə də ayinlər insanın "bu dünyadan" "o biri dünyaya" getməsini asanlaşdırmaq, onun Allah tərəfindən günahlarının bağışlanması, eləcə də ruhlara inamla əlaqəlidir.

Dəfn adətlərində həyta keçirilən bu və ya digər ayinlər, oxunan dualar, halva

verilməsi, ölü basdırıldıqdan sonra məzara gülab çilənməsi, yasa gələnlərin əllərini gülabla yumaları məhz insanların "o dünyada", yəni "axirət dünyasında" günahlarının bağışlanmasını" Allahdan diləmək niyyətini güdür. Məhəmməd Füzulinin qəzəllərində gülabın verilməsi mənəvi üstünlük kimi verilir:

"Əksi-ruyin suya salmış sayə, zülfün toprağa,
Ənbər etmiş toprağın adın, suyun ismin-gülab" [1, s. 196].

Anlam: Ey mehriban mürşüd, sən iki – maddi və mənəvi dünya arasındakı ilahi feyz vasitəsi olarkən, dünyəvi və fani vücudlara (su, topraq) mənəvi üstünlük (ənbər, gülab) və əbədiyyətə qoşulmaq istedadını bağışlayan rəhbərsən) [1, s. 198].

Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində də ölünün üstünə gülab tökülməsinin qədimdən azərbaycanlıların dünyagörüşündə yer tutmasını sübut edir:

"Mən bir misəm, üstüm zərlə örtülü,
Üstünə tər gülab səpilmiş ölü"...
Ölmüşdü sərкərdə, sınmışdı qoşun.
Ağladı, o gecə bir matəm qurdu,
Sonra da yorulub ayağa durdu.
Gülabı, ənbəri müşkə qataraq,
Sürtdü o bədənə ürəyində dağ.
Gülabla, кafurla yudu tərtəmiz,...
Кafurla, gülabla şahı yuyantəк
Özünü də yudu tərtəmiz, qəşəng. [2, s. 73; 450].

Buradan göründüyü kimi, gülabın bir mənası da ölünün "nahaq dünyadan" "haq dünyasına" təmiz getməsinə (burada eləcə də, mənəvi təmizlik də nəzərdə tutulur) yardım etməkdir.

Xalq arasında ölən adam üçün çox ağlamaq günah hesab olunur. İnama görə, guya göz yaşı qəbrə tökülər və əmələ gələn nəmişlik ölüyə əziyyət verə bilərmiş. Digər tərəfdən də islamın təsiri ilə xalq arasında "ölənin dalınca çox ağlamağın" Allahın "işinə qarışmaq" kimi fikir formalaşmışdır. Məsələn, bu cür yanaşma Qurani Kərimdə Əraf surəsində aşağıdakı kimi göstərilir: "Hər bir ümmətin (əzəldən müəyyən edilmiş) əcəl vaxtı (ölüm, tənəzzül və ya əzaba düçar olma çağı) vardır. Onların əcəli gəlib çatdıqda bircə saat belə (ondan) nə geri qalar, nə də irəli keçə bilərlər!" [3, s. 101].

Bu fikir azərbaycanlılar arasında "ölüm haqdır" ifadəsində öz əksini tapmışdır. Azərbaycanlıların ölümü "tale", "alın yazısı", "nahaq dünyadan haq dünyaya getmək" kimi qəbul etmələri, sözsüz ki, insanların yaxın adamlarının ölümünü - "itkisini" təmkinlə, səbrlə qəbul etməsinə kömək edir. Bu fikirlər Mövlanənin fəlsəfəsində də öz əksini tapmışdır. "Mövlanə yazır:

"Bu qulun təbiəti və yaradılışı belə olursa aləm, onun əmrinə, onun fərmanına tabe eyil də nədir?"

Yaxşı… nədən dua edib də Yarəbbi, bu təqdiri sən təbdil et deyə yalvarsın?

İştə şeyxə görə Allah rızası baxımından öz ölümü də, övladlarının ölümü də halva kimiydi.

O vəfakar, o yoxsul şeyxə övlad ölümü, kadayıf kimi gəlmişdi

O halda Allah rızasını, duada görmədikçə nədən dua etsin" [13].

Digər tərəfdən də azərbaycanlıların yas mərasimində şəriətə zidd olsa da, ağı demək, möhkəmdən ağlamaq adətləri qalmaqdadır. Məsələn, xalq arasında belə bir deyim var: "Filankəsin (yəni, mərhumun) yasında heç ağlayan olmadı" və ya "ölünü ağlayarlar" və s.

Ölən adam üçün yas tutmaq, ağlamaq, yas məclisi qurmaq Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində də öz əksini tapmışdır:

"Ölmüşdü sərкərdə, sınmışdı qoşun.

Ağladı, o gecə bir matəm qurdu,...

Bir məclis düzəltdi, deyərdi hər кəs:

Heç кəs belə məclis düzəldə bilməz" [2, s. 450].

Ölümün qaçılmaz olması düşüncəsi azərbaycanlıların xarakterinə də öz təsirini etmişdir. Məsələn, hər bir azərbaycanlıda belə bir düşüncə tərzi formalaşmışdır ki, əgər ölüm qaçılmazdırsa bu dünyada - "fani dünyada" özünü elə aparmalısan ki, haramı halaldan ayırmalısan ki, (məsələn, yetimin malını yeməməli, zalımlıq etməməli və s.) "o biri dünyada" – "haq dünyasında" bütün bunların hesabını verməyəsən. Halalı haramdan ayırmaq azərbaycanlıların əsas xarakterik xüsusiyyətlərindən biridir. Məsələn, XX əsrin 20-ci illərində Sovet hökumət orqanları mülkədar torpaqlarını müsadirə edib kəndlilərə payladıqda həmin torpaqları götürməkdən imtina edən, hətta bu torpaqları götürməyə məcbur olduqda belə gizli olaraq onun əvvəlki sahibinə köməklik edən azərbaycanlı kəndlilərə rast gəlinirdi. Azərbaycanın görkəmli mütəfəkkiri Ceyhun Hacıbəyli belə kəndlilər haqqında yazırdı: "Mühüm odur ki, onu saxlayan (başqasının malına sahib olmaqdan, haram mala yiyələnməkdən – Ş.N.) başlanğıc var və bu başlanğıc ona müsadirə olunmuş torpaqdan imtina etməyi hökm edirdi, belə ki, bu cür torpaqdan istifadə etmək haram sayılırdı" [15, s. 46]. Halal və haram davranışlar Qurani Kərimdə də öz əksini tapmışdır. Sözsüz ki, islamda bu məsələlərə münasibət azərbaycanlıların dünyagörüşünə də təsir etmişdir. Məsələn, Qurani Kərimdə ən-Nisa surəsində yazılır: "Yetimlərin mallarını (həddi-buluğa çatdıqda) özlərinə verin və pisi (haramı) yaxşı ilə (halalla) dəyişdirməyin! (Yetimlərin malı sizə haram, öz malınız isə halal olduğu halda, onları bir-birilə dəyişməyin!) Onların mallarını öz mallarınıza qatıb yeməyin! Həqiqətən, bu, böyük günahdır" [3, s. 51]. Daha sonra Hud surəsində göstərilir: "Əgər mömінsinizsə, (bilin ki, ölçüdə və çəkidə düz olandan sonra) Allahın (halal olaraq) verdiyi mənfəət (dünyada və axirətdə) sizin üçün daha xeyirlidir. Mən də sizə nəzarətçi deyiləm!" [3, s. 155].

İslamda "axirət dünya"ya münasibət islam fəlsəfəsində də öz əksini tapmışdır. Məsələn, Mövlanənin fəlsəfəsində "axirət dünyası", "ölüm" haqqında düşüncələr, "insan öldükdən sonra diriləcəyi haqqında inam" öz əksini tapır: "Allah dedi ki:

"Yaxşı… imanını bağışladım. Hətta diləsən indi dirildim də…Yalnız onu deyil, xatirin üçün bütün ölüb basdırılmış olanları dirildim. Musa, "Yarəbbi, bu dünya ölümlü dünyadır. Sən, onu aydınlıq aləmdə dirilt. Bu fani dünya, varlıq dünyası deyil. Sonunda yenə öləcək deyil mi… Dirilmənin faydası nədir?" [12, s. 88].

İslam dini qəbrə əşya qoymağı qadağan etdikdən sonra, insanlar qəbrə əşya qoymaq əvəzinə qəbrin baş daşında həmin əşyaların şəklini çəkdirirdilər. Azərbaycanlıların yas adətləri ilə bağlı inamlarında ruhlara inam xüsusi yer tutur. Ölüləri yandırıb külünü gil qablarda basdırmaq adəti də azərbaycanlıların qədim adətlərindən biri idi və ruhlara inamla əlaqədar idi. Tunc dövrünə aid olan və Xanlar rayonunda kurqanlardan tapılan (içərisi kül ilə dolu olan) sarkofat və küplər sübut edir ki, bəzi hallarda ölüləri tam yandırandan sonra onun yalnız külünü basdırmışlar. Etnoqrafik materiallara əsasən deyə bilərik ki, ölünün yandırılması, onun bədənini tamamilə məhv edib, ruhunun bədənə qayıtmasına yol verməmək üçün edilirdi. Beləliklə, ölü canlı insanlar üçün tamamilə zərərsiz bir vəziyyətə gətirilirdi. Gəncəçay rayonunda arxeoloji qazıntılar zamanı tapılan çoxlu dini ayin çalaları sübut edir ki, tunc dövründə Azərbaycanda ölülərə artıq hörmət etmə (əcdad ayini), yəni onları müxtəlif yollarla yad etmək, qəbir üstə getmək, onlar üçün ehsan vermək adətləri mövcud olmuşdur [4, s. 84].

Ölülərə hörmət etmək ayininin qalıqları indi də Azərbaycanda saxlanmaqdadır. Son zamanlara qədər qəbirlərə müqəddəs bir yer kimi baxılır. Əhali ölən əcdadının (ata, ana və s.) qəbrinə and içir, bəzi yerlərdə onların ruhlarının insan həyatına qarışmalarına inanır və buna görə də çətin gündə onlardan kömək diləyirdi. Məsələn, "ölən atamın goruna and olsun", "anamın qəbri haqqı" və s. bu kimi xalq ifadələri ehtimal ki, bu dini inancların yaşamaqda olan qalıqlarıdır. Bəzi bölgələrdə xeyir iş görərkən vəfat etmiş adamın qəbri üstünə su töküb, onu görüləsi işdən guya agah edirdilər.

Dinin ən çox özünü göstərdiyi sahə yas mərasimidir. Ailə məişətinin əsas hissəsi olan dəfn mərasimi insanların mənəvi həyatında mühüm yer tutur. Mərhumun dini qayda-qanunla basdırılması ("o biri dünyaya yola salınması") onun yaxın adamlarının mənəvi borcu hesab olunur. S.A.Tokarev yazır: "Dəfn adətləri şüurlu xarakter daşıyır. Bu cəsədin təcrid olunması və onun yaddaşda saxlanması, yas keçirilməsi və s. ilə izah olunur" [17, s. 603]. Müasir dəfn mərasimi təxminən aşağıdakı qaydada yerinə yetirilir. Mərhumun yatağı Qiblə (Məkkə) istiqamətində çevrilir, onun çənəsi bağlanır, üstü örtülür və Qurandan surələr oxunur.

Şəriətə görə mərhum öldüyü gün və ya səhəri gün basdırılır. Mərhum basdırılmamışdan əvvəl məsciddə və ya bunun üçün nəzərdə tutulmuş xüsusi yerlərdə yuyulur, kəfənə bükülür. Bundan sonra evə gətirilir. Bundan sonra mərhum təmiz (haq dünyasına getmək üçün hazır) hesab olunur, kəfəni açmaq, ona əl vurmaq onu mundarlamaq kimi qiymətləndirilir. Burada məqsəd onun o biri dünyaya (haq dünyasına) təmiz getməsidir. Daha sonra Qurandan surələr oxunur.

Bir müddətdən sonra, şər qarışmamış (hava qaralmadan) qəbiristanlığa aparılır və basdırılır. Azərbaycanlılar bunu, eyni zamanda "torpağa tapşırılma" adlandırırlar.

Dəfn mərasimi zamanı molla mərhumu sirkələyərək deyir: "Əgər səndən soruşsalar sən hansı dindənsən, cavab ver – mən müsəlmanam; əgər soruşsalar sənin peyğəmbərin kimdir, cavab ver – Məhəmməd; əgər soruşsalar hansı qanunu tanıyırsan – cavab ver Şəriəti" [5, s. 110]. İslamda bu adət "təlqin" adlanır. Bu mərasim mərhumun Allah tərəfindən bağışlanması üçün edilir. Məhəmməd peyğəmbər cənazə götürüldükdən bir müddət sonra məzarın başında duraraq adamlara bu sözləri deyərdi: "Qardaşınız üçün Allahdan bağışlanmasını və ona sükut verilməsini istəyin. O, indi sorğuya çəkilməkdədir". Təlqinin sonunda deyilir: "Ey Rəbbim! Onu tək buraxma. Sən mülk verənlərin ən xeyirlisisən". Hənəfilərə görə "təlqin" edilməsi nə əmr, nə də qadağadır. Malikilərə görə, "təlqin" ölüm döşəyində edilməlidir, şafiilərə və hənbəlilərə görə "təlqin" edilməsi savabdır [6, s. 368]. Azərbaycanlılar yas mərasimini 40 gün, bəzi bölgələrdə isə 52 gün (sünnilərdə) keçirirlər. Ölünün "üçü", "yeddisi", hər "cümə axşamında", "qırxında" Qurandan surələr oxunur, yas (ehsan) süfrəsi açılır, halva çalınır. Yas mərasimində verilən yeməklər "ehsan" adlanır. Daha sonra "il" və "Qara bayram" keçirilir. Bütün bu mərasimlərdə molla dəvət olunur, Quran oxunur, halva verilir.

"Ölüm"lə əlaqədar azərbaycanlıların dünyagörüşündə xüsusi yer tutan ayinlərdən biri də ruhlarla əlaqədardır. Ruhlara inam islam dinində də öz əksini tapmışdır. Lakin azərbaycanlıların yas mərasimlərində ruhlarla əlaqədar yerinə yetirdikləri bəzi ayinlər islamdan əvvəlki dini inancları ilə əlaqədardır. Məsələn, bunlardan yas mərasimində halva verilməsini qeyd etmək lazımdır.

Azərbaycanda yas mərasimində, eləcə də ölü ilə əlaqədar digər mərasimlər və ayinlər yerinə yetirildikdə halva bişirilməsi ayin xarakteri daşıyır. Qədim türk dini olan Tenqriçilikdə ruhlar/ata ruhları önəmli bir yer tutur. Həyat ölümlə bitmir, davam edir. Bu və sonrakı dünya bir-biri ilə bağlıdır. Ruhların yardımına nail olunması və ya onlardan gələ biləcək zərərlərdən qorunmaq üçün bir sıra tədbirlər görülür. İy çıxarmaq bunlardan biri idi [8].

Halva hazırlanması onun iyi (ətiri) ilə əlaqələndirilir. Ölülərin ruhuna yağı iyinin yaxşı gələcəyi haqqında inam var. Hər hansı bir insana "sənin halvanı nə vaxt yeyəcəyik" və ya "sənin halvanı yeyək" dedikdə "sən öləsən" mənasında işlədilir. Qədir gecələrində, cümə axşamlarında ölənlərin ruhuna halva çalınması (bişirilməsi) ölən adamın "ruhunun şad edilməsi" mənasını daşıyır. Azərbaycanda yas günlərində, bayramlarda qəbir üstününə halva qoyulmasında məqsəd ölən adamın "ruhunun şad edilməsi" məqsədini daşıyır.

Türk mədəniyyətində halvanın xüsusi yeri vardır. Məsələn, koryaklarda (Kamçatkanın şimal-şərqində yaşayan yerli xalq) cənazə günü hazırlanan halvaya "canlık" (yaşayan – Ş.N.) deyilir. Bu halva ölünün yeddinci günü hazırlanır və ev-ev paylanır [9].

Ölünün xeyri üçün halva dağıdılması (paylanması) Anadoluda da geniş yayılmışıdır. Anadoluda ölünün üçü, yeddisi, doqquzu, qırxında və ilində oxunan Qurani Kərim, Cümədə arifə günləri halva qovrulması, yemək verilməsi və pişi qızardılması ilə onların iyinin çıxarılması keçmiş ruhların xoşbəxt və ya bədbəxt olması inançından irəli gəlir. Məzar ziyarətində də halva paylanılır [10]. Bu adət də sözsüz ki, ruhlara inamla əlaqədardır.

Türk etnoqrafı Yaşar Kalafat yazır: "Belə gecələrdə pişi növü bişirilir, yağ qoxusu çıxan yeməklər hazırlanır, yağ əridilərkən ocağa bir parça yağ atılır, ət qovurması hazırlanınca da ocağa və ya tavaya bir parça ət atılır və deyilir: "tavada olan insanlara, havada olan mələklərə" [10].

Tenqriçilik inancına görə insan ölüncə "yuxarı kəndə (göyə - Ş.N.)" gedir. Gedən cismi deyil, canı(ruhu)dır. Yer üzündə insanların çeşidli vasitələrlə etdikləri tüstülər də bu ruhlara gedir. Ölüncə yaxşı ruhlar yuxarıdakı kəndə, pis ruhlar isə yerin altındakı kəndə gedərlər. Bu inanc islamdan sonra yerini "cənnət" və "cəhənnəm"ə buraxmışdır. Bu gün müəyyən zamanlarda iyi çıxması üçün hazırlanan yeməklərin sadəcə "iyi" qalmışdır. Bunlar (ölünün ruhu üçün hazırlanan yeməklər nəzərdə tutulur) mənaları düşünülmədən hazırlanır [9].

Azərbaycanda, eləcə də digər türk xalqlarında insanın öldükdən sonra ruhunun cümə axşamları evinə gəldiyi və yaxınlarını ziyarət etdiyi haqqında inanc var. Bu inanc Krım, Dağıstan, Anadolu, İran və İraq türklərində də var. İnanca görə ölülərin ruhları evlərinə gəlir və yaxınlarını nəzarət edir, əgər onlar həmin gün evdə Qurani Kərim oxuyub, halva qovurub ailə və yaxın adamlarıı ilə yaxşı rəftar edirlərsə ruhlar xoşbəxt olaraq geri dönərlər. Əgər ruhlar evdə dava-dalaş, haqsızlıq görərlərsə geri bəbdəxt dönərlər. Adətən bu dünyadan köçənlərlə bu dünyada qalanların ruhları arasında davamlı əlaqə vardır [11].

Azərbaycanda, eləcə də digər türk xalqlarında halva yalnız yas mərasimi ilə əlaqədar deyil, eləcə də bir sıra mərasimlərdə də paylanır. Məsələn, nəzir dedikdə halva hazırlanır və pirə aparılır və ya qonşulra, yaxın adamlara paylanır. Bir çox türk xalqlarında halva şad günlərdə də hazırlanır. Kərain türkləri də matəm günlərində olduğu kimi sevinc günlərində də halva paylayırlar. Cənazə dəfnindən geri qayıdanlara Qara halva Udur /Matəm halvası verilir. Ölünün qırxıncı günündə Ağ halva/Rəngli halva verirlir. Kərainlər toy mərasimində də dəvət olunanlara Ağ halva verirlər [8].

Azərbaycanda eyni zamanda "Qara bayram" və "Qara çərşənbə" anlayışı da var. Bu anlayış müasir dövrədək öz aktuallığını saxlamışdır. Dəfn və yasla bağlı mərasimlər "yasdançıxma" mərhələsi ilə bitir. "Qara bayram" mərhumun qırxı çıxdıqdan sonra qarşıdan gələn ilk Novruz, Qurban və Ramazan bayramları zamanı keçilirdi.

Bayrama bir və ya bir neçə gün qalmış qohumlar və ya yaxın qonşu qadınlar yığışıb qənd, çay, şirniyyat kimi bayram sovqatları ilə mərhumun evinə gedirlər. Qənd və çay, şiriniyyat yasdançıxma rəmzi hesab edilirdi. Qadınlar qəbiristanlığa gedər, özləri

ilə gətirdikləri səməni, şirniyyat və meyvəcatı qəbrin üstünə qoyardılar. Bu mərasim mərhumun xatirəsinin yad edilməsi ilə yanaşı, yas evinin yasdan çıxması və qarşıdan gələn bayramın urvatlı qeyd edilməsi məqsədi ilə keçirlirdi. Artıq qed edildiyi kimi, "yaslı qalmaq" taleyə qarşı çıxmaq kimi qəbul olunur. Azərbaycanlılarda bu inamla əlaqədar "yasla toy ekiz yaranıb" və s. atalar sözləri var.

Azərbaycanlıların milli-mənəvi dəyərlər sistemində ölümlə, yasla, dəfnlə bağlı inanclar xüsusi yer tutur. Artıq qeyd edildiyi kimi, azərbaycanlıların yas və dəfn adətlərində bir sıra dəyərlər – adət-ənənələr, dünyagörüşü, dini baxışları, etiket qaydaları və s. qorunub saxlanır.

İstifadə olunmuş ədəbiyyatın siyahsı:

1. Əsğər Ş. Məhəmməd Füzulinin Qəzəllərinin Irfani Şərhi. I cild, Bakı, 2008.
2. Gəncəvi N. Xosrov və Şirin. Bakı, 2004.
3. Qurani-Kərim Məalı. Bakı, 2006,
4. Quliyev H., Bəxtiyarov A. Azərbaycanda qədim dini inamlar və onların məişətdə qalıqları. Bakı, 1968.
5. Nuruzadə Ş. XX əsrin 20-30-cu illərində Azərbaycanda etnokonfessional şərait. Bakı, 2010.
6. Döndüren Hamdi. Delilleriyle İslam ilmihalı. İnam, ibadet-günlük hayat. İstanbul, 2005.
7. Kalafat Y. Azerbaycan-İran-Anadolu-Irak Halk İnançları Hattı. Ankara, 2012.
8. Kalafat Y. Karadeniz Yöresi Kültür Tarihinde "Helva". http://yasarkalafat.info/?p=234
9. Kalafat Y. Orta Toroslar və Makedoniya yöreleri halk inanışları karşılaştırması. file:///D:/ya%C5%9Far%20kalafat/PdfViewer.pdf
10. Kalafat Y. Altaylardan Anadoluya kamizm (Başlanglçtan günümüze tenqriçilik-Göktengri inam sistemi).
11. Kalafat Y. Göklen türkmenleri (Türkmenistan) Halk inançlarında ölüm temasına dair bazi karşılaştırmalar. http://turkoloji.cu.edu.tr/HALKBILIM/yk_goklen/yk_goklen.htm
12. Mesnevi-i Şerif. http://dosyalar.semazen.net/MESNEVI-I_SERIF_3.cilt.pdf
13. Toprak S. Ölümden sonraki hayat (Kabir hayatı). İstanbul, 2001.
14. Арчимачева М. Ю. Этнические ценности «жизнь», «смерть», «душа» в традиционном мировоззрении хакасов. //http://ksu.edu.kz/files/nauka/3I/2017/1nomer/archimacheva_myu-7.pdf
15. Гаджибейли Дж. Избранное. Баку, 1993
16. Мифы народов мира. Энциклопедия. М., 2008.
17. Токарев С. Ранние формы религии. М., 1990.

Шахла Нурузаде

Некоторые верования азербайджанцев, связанные с траурными традициями в системе духовных ценностей».

Резюме

Ключевые слова: *национально-духовные ценности, мировоззрение, смерть и жизнь, похоронные обычаи.*

В статье «Некоторые верования азербайджанцев, связанные с траурными традициями в системе духовных ценностей» исследуются верования, связанные с представлениями «о жизни и смерти», «этим миром», «потусторонним миром», «духами» в мировоззрении азербайджанцев. Похоронные и траурные обряды отражают в себе мировоззрение народа, его мифологию, обычаи, традиции, религиозные представления, правила этикета, а также его национальный характер.

В статье анализировано также и то, что в связи с распространением ислама в Азербайджане, наряду с переменами в мировоззрении, образе жизни людей произошли перемены и в траурных обрядах и представлениях о смерти. Шариат подготовил правила переселения души в потусторонний мир. Однако, так или иначе в траурных церемониях современных азербайджанцев все еще наблюдаются обычаи из доисламского периода. Так, к примеру, на траурной церемонии прихожанам раздают халву и наливают на руки гюлаб (розовая вода). Похороны умершего человека по религиозным правилам является моральным долгом близких людей («отправление в потусторонний мир»).

Shahla Nuruzade

Some beliefs related to Azerbaijanis' mourning traditions in the system of moral values

Summary

Keywords: *national moral values, outlook, death and life, mourning traditions.*

The article titled "Some beliefs related to Azerbaijanis' mourning traditions in the system of moral values" examines the beliefs about "life and death", "the universe", "the life after death" and "spirits" in the world view of Azerbaijanis. The mourning and funeral traditions reflect the nation's outlook, mythology, customs, religious beliefs, etiquette norms, as well as the national character and etc. Funeral and mourning traditions are the carriers of traditional values. At the same time,

he article shows that the spread of Islam in Azerbaijan has caused crucial changes in people’s outlook and lifestyle along with the serious changes in basic funeral rites. The Shari’ah has set up precise rules in order for the soul to move to the Hereafter. However, before Islamization mourning ceremonies are still being held by modern Azerbaijanis. The article describes the tradition of giving halva in funerals and spraying rose water on people’s hands. The burial of dead by religious rules (“farewell to the other world”) is considered as a moral duty of the person’s close ones.

Nurəngiz Qarayeva

Xalq bayramlarının milli filmlərdə əksi

Açar sözlər: *Milli, film, Novruz, bayram, ənənə*

UOT: 39

Azərbaycan etnoqrafiyasının mühüm problemlərindən olan mənəvi mədəniyyət - xalq bayramları və mərasimlər, musiqi sənəti, oyun və əyləncələr, dini inanclar, qonaqpərvərlik və s. məsələlərin öyrənilməsi öz aktuallığı ilə daim diqqət mərkəzindədir. Belə bir vacib problem incəsənətin aparıcı sahələrindən biri olan Azərbaycan filmlərində də geniş və əhatəli şəkildə əks olunmuşdur. Milli adət və ənənələr, ailə-məişət, valideyn-övlad münasibətləri və ictimai məişətdə etiket milli kinomuzda bədii şəkildə təcəssüm olunmuşdur. Milli kino sənətində yer alan mənəvi dəyərlərdən biri xalq bayramlarıdır.

Daha geniş auditoriyanı əhatə etmək imkanı olan filmlər adət-ənənələrin işıqlandırılması sahəsində çox əhəmiyyətli olub, mədəni irsimizin təbliğində tutarlı vasitələrdən biridir.

Novruz Azərbaycan xalqının qədim və əziz bayramlarından biridir. Çox qədim dövrə aid olan Novruz adətləri ulu babalarımızdan başlayaraq, xalqımızın həyatında özünəməxsus əbədi və unudulmaz bir yer tutmuşdur (8, s.46).

Novruz bayramına ilk dəfə yazıçı İsmayıl Şıxlının eyniadlı romanı əsasında rejissor Hüseyn Seyidzadənin ekranlaşdırdığı "Dəli Kür" filmində yer verilmişdir. Bu da təsadüfi olmayıb, həmin dövrün Azərbaycanda həyata keçirilən mədəni siyasətilə bağlı idi. Belə ki, Sovet siyasi ideologiyasının milli və dini adət-ənənələrin keçirilməsinə qoyduğu məhdudiyyətlərə baxmayaraq 1967-ci ildə Azərbaycan KP-nın MK ideoloji məsələlər üzrə katibi Şıxəli Qurbanovun təşəbbüskarlığı (6,s.2) və Azərbaycan KP-nın Birinci katibi Vəli Axundovun dəstəyi ilə Novruz bayramının dövlət səviyyəsində keçirilməsinə nail olundu (10,s.10). Təşkilatçılar bayrama dini don geyindirilməsinin qarşısını almaq məqsədilə ona "Bahar bayramı" adı verilməsini məqsədəmüvafiq hesab etdilər. Növbəti illər Novruz bayramının dövlət

səviyyəsində keçirilməsinin qarşısı alınsa da, "Dəli Kür" filminin rejissoru Həsən Seyidzadə bu səhnəni filmin ssenarisinə əlavə edir və bununla bağlı o zamanlar Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının direktoru işləyən, SSRİ Xalq artisti Adil İsgəndərovdan dəstək alır (13,s.3). Filmdə baharın gəlişi və Novruz şənliyi bədii çalarlarla canlandırılmışdır. Novruz bayramı ilə bağlı lopa (şamal) yandırmaq, torba atmaq, yumurta döyüşdürmək, üzük falı, qonşulara bayram payı verilməsi və s. bayram ənənələri ilə bağlı məlumatlar bu ekran əsərində bədii şəkildə təcəssüm olunmuşdur. Filmdə bayram axşamında bacadan torba sallayıb Novruz payı istəmək adəti daha geniş işıqlandırılmışdır. "Dəli Kür" bədii filminin ardınca 1970-ci ildə çəkilən məşhur "Yeddi oğul istərəm" filminin ssenarisinə də Novruz bayramı ilə bağlı fraqmentlər daxil edilir. Sonrakı illərdə "Bayram axşamı", "Baharın sorağında", "Xatirələr sahili", "Qızıl uçurum" bədii filmlərində Həsən Seyidzadənin qoyduğu ənənə davam etdirilir.

Xalqımızın qədim Novruz bayramı ilə bağlı adət-ənənələri və bayram atributları milli filmlərimizə ustalıqla daxil edilmişdir. Filmlərdə insanların Novruzu böyük ruh yüksəkliyi, həvəslə qeyd etməsi nümayiş olunur. Milli filmləri dərindən təhlil etməklə Novruz bayramı, bayramla bağlı ənənələr, torba atdı, bayram süfrəsi, bayram xonçası, oyun və əyləncələr haqqında müəyyən məlumatlar əldə etmək olar.

Məlum olduğu kimi Novruzun ən mühüm atributlarından biri səmənidir. Səməni yazın gəlişini və məhsuldarlığı simvolizə edir. Etnoqraf H.A.Quliyev yazırdı: "Səməni adətinin nə zaman və harada meydana gəlməsi hələlik dəqiq məlum deyildir. Lakin antik müəlliflərdən Plutarx (ermızın 42-126-cı illər) midiyalıların taxılı müqəddəs etdiklərini və ondan ilin əvvəlində "omana" adlanan yemək hazırladıqlarını xəbər verir. Çox ehtimal ki, bizim dövrümüzə qədər davam edərək yaşamış buğda göyərtmək adəti və səməni bişirilməsi həmin adətlə səsləşir ki, bu da islam dinindən bir neçə yüz il əvvələ aiddir (9,s.160). Minilliklər boyunca davam edən səməni cücərtmək ənənəsi hər bir evdə bolluq, bərəkət rəmzi kimi qorunub saxlanmışdır. Belə vacib Novruz atributu haqqında Azərbaycanda uşaqdan-böyüyə hər kəsin məlumatı olsa da, gələcək nəsillərə və digər xalqlara təbliğ olunması üçün filmlərdə yer verilməsi olduqca əhəmiyyətlidir. İlk dəfə səməni haqqında məlumat "Yeddi oğul istərəm" filmində verilir. Filmdə əlində səməni olan qızlar nümayiş olunur. Daha sonra səmənini müstəqillik illərində çəkilmiş "Bayram axşamı" filmində görürük.

Filmlərdə yer alan Novruz atributlarından biri də tonqaldır. Tonqal hər tərəfdən görünən bir yerdə yandırılır, böyükdən kiçiyə qədər hamı tonqalın üstündən hoppanır. İnama görə ilin ağrı-acısı, uğursuzluğu odda düşüb yanır (4,s.185). Tonqalın üstündən atlanarkən nəğmə oxuyurlar:

Ağırlığım-uğurluğum odlara
Yazda mənlə hoppanmayan yadlara
Ağırlığım od olsun,
Odda yanan yad olsun (4,s.185).

Tonqalçatma mərasimi isə nədənsə yalnız "Bayram axşamı" filmində yer almışdır.

Azərbaycan xalqının məişət mədəniyyətində süfrə, yemək mədəniyyəti əsas yerlərdən birini tutur. Babalarımız süfrə açmağı mərdlik əlaməti hesab edir, belə adamlar xalq arasında xüsusi hörmətə sahib olur, "açıq süfrəli", "bol süfrəli" adını qazanırdılar. Bayram süfrələri, xüsusən Novruz süfrəsi öz zənginliyi, rəngarəngliyi ilə seçilirdi. İnanclara görə növbəti ilin ruzi-bərəkətli olması Novruz süfrəsindən asılı idi. Süfrə nə qədər zəngin olardısa, ailənin gələcək həyatının eləcə davam edəcəyinə inanılırdı. Novruz bayramı axşamında köhnə ilin tamam olması və təzə ilin başlanmasına bir az qalmış bayram süfrəsi açılır. Xalq arasında "yeni il süfrəsi", "Novruz süfrəsi" adlanan (4,s.182) bu süfrə "təhvil süfrə"si adı ilə də məlumdur (3,s.64). Süfrəyə məhz bayram axşamı üçün bişirilmiş "bayram aşı", içərisində yeddi cür nemət olan "bayram xonçası" və başqa nemətlər düzülür, ailə üzvlərinin sayına uyğun "bayram şamı" yandırılırdı. Bayram süfrəsi ilə bağlı məlumatlara "Dəli Kür," "Baharın sorağında", Qızıl Uçurum", "Bayram axşamı" filmlərində rast gəlmək mümkündür.

Novruzun yadda qalan, maraq kəsb edən atributlarından biri də Kosa və Keçəldir. Kosa-Kosa oyunu uzun əsrlər boyunca xalq arasında davam etdirilmiş, Sovet rejiminin ideoloji siyasəti onu aradan qaldıra bilməmişdi. Kosa-kosa mərasimi qış və yaz fəsillərinin mübarizəsini əks etdirən xalq tamaşasıdır. Kosa isə bütün görkəmi və geyimi ilə qışın simvoludur (3,s.17-19). Novruz bayramında ifa olunan bu "Kosa-kosa" tamaşasının əsas qayəsi və başlıca ideyası qışın qovulması, məğlub olması, baharın qarşılanmasıdır. Belə ki, Kosanı-yəni qışı Keçi-bahar öldürür və bununla da hamını sevindirir (11,s.100). Burada qarşı-qarşıya qoyulan iki surət vardır: Birisi Kosa, o birisi isə keçidir. Kosa qışın, keçi isə yazın, yaşıllığın, həyatın, baharın rəmzidir. Xalq keçini alqışlayır, ona rəğbət bəsləyir. Kosanın çılpaq, tüksüz olması qışda təbiətin öz yaşıl paltarını soyunması ilə üzvü surətdə bağlıdır (11,s.100). Kosa-kosa törəniş etibarilə ən qədim zamanlarla bağlı olub, XX əsrin ortalarına kimi, yazqabağı şənliklər ərəfəsində uşaq və subay gənclər tərəfindən icra olunan bir mərasim tamaşasının adıdır. Əsrimizin astanasında bu oyun Novruz şənliklərindəki saya gəzisi və bu kimi mərasim tamaşalarına qovuşub, onlarla eyniləşdirmişdir (2,s.259). Buradakı baş surət və əsas tənqid hədəfi artıq qışı təmsil edən Kosa olmuşdur. Oyun iştirakçıları onunla birlikdə dəf çala-çala, evbəev, qapı-qapı gəzib əylənmiş, ətrafdakıları yazın gəlişi münasibətilə təbrik etmişlər. H.Sarabski "Kosa-kosa" oyunu haqqında olduqca maraqlı məlumatlar vermişdir. Məlumata görə, bayrama bir neçə gün qalmış məhəllə uşaqları həyətləri gəzməklə "Kosa-kosa" adlanan xüsusi bir oyun oynar, tamaşaçılardan xuşgəbar, pul toplayardılar (12,s.20). Həmin el oyunu 1917-ci ildə Bakıda ilk dəfə teatr səhnəsində oynanılmışdır. Onun digər adı "Koskosa", "Kosaöldü" və "Kosagəzdirmə"dir. 1970-ci ildə çəkilən "Yeddi oğul istərəm" filmində bu xalq tamaşası öz parlaq həllini tapmışdır. Bayramın gəlişi

münasibətilə məzhəkəli oyun-tamaşaların göstərilməsi filmdə özünəməxsus şəkildə yer almışdır. Yazın gəlişi münasibətilə insanlar sevinir, şadlıq edir, bayrama məxsus oyun-tamaşalar, mərasimlər göstərilir. Bu mərasimlərdən Kosa-kosa xüsusilə seçilir. Kadrlarda kəndin küçələrində keçirilən Novruz şənliyində Kosa, Keçəl personajları və onların oyunbazlığı görünür. Qeyd olunmalıdır ki, Kosa və Keçəl rolunda oynayan aktyorlar personajlara uyğun, özünəməxsus geyimdədirlər. Filmdə səhnədə oyunbazlar da görünür. Oyun xalq arasında aktyor yaradıcılığı, tamaşa, rəqs, idman və pantomima kimi sənətləri əhatə edib birləşdirən sinkretik anlayışdır. Zəngin mənəvi mədəniyyət irsi nümunələrindən olan oyunlar xalqımızın həyat və məişətində (xüsusilə Novruz bayramında, toy və el şənliklərində) mühüm yer tutur. Oyunbaz Novruz bayramı günlərində də öz oyunu, çevikliyi, hazırcavablığı, məzəli hərəkətləri, him-cimlə danışmaq qabiliyyəti, rəqs etməyi, mahnı oxumağı, yüksək aktyorluq məharəti ilə ətrafdakıları məşğul edib əyləndirən məzhəkəçilərə verilən addır (4,s.150-151).

Boz ayın başlanğıcından sonuna qədər davam edən yumurta döyüşdürmək ənənəsi cavanların intizarla gözlədiyi, çox maraqla keçirdiyi Novruz əyləncələrindən biri idi. Yumurta, ümumiyyətlə, Novruz bayramının əsas rəmzlərindəndir. Yumurtanın daha çox sarı, qırmızı, yaşıl rənglərlə boyadılması da, sözsüz ki, günəşlə-odla, baharla, təbiətin oyanması istəyi ilə bağlıdır. Çərşənbə, Novruz süfrələrini bişmiş, boyadılmış yumurtasız təsəvvür etmək mümkün deyil. Novruz bayramında yumurta boyamaq və döyüşdürmək demək olar ki, bütün bölgələrimiz üçün səciyyəvidir. Dədə-babadan yumurtalar soğan qabıqları, qızıl boya (marena) ilə boyanardı. Bişmiş və boyanmış yumurtalar xonçanın əsas nemətlərindən biridir. Döyüşdürmək məqsədilə həm bişmiş, həm də çiy yumurtadan istifadə olunur. Yumurta döyüşdürənlər əvvəlcə onun bərk-boşluğunu təyin etmək yumurtaları dişə vuraraq yoxlayırlar. Bişmiş və boyanmış yumurtalar xonçanın əsas nemətlərindən biridir. Yumurta döyüşdürülməsi “Dəli Kür” və “Yeddi oğul istərəm” filmlərində əks olunmuşdur. “Dəli Kür” filmində Çernyayevski ilə uşağın yumurta döyüşdürməsi səhnəsinə olduqca maraqlı quruluş verilmişdir. “Yeddi oğul istərəm” filmində də həmçinin, bayram zamanı uşaqların böyük həvəslə yumurta döyüşdürməsini izləyirik.

Qeyd etmək lazımdır ki, “Yeddi oğul istərəm” filminin əsas motivi Novruz bayramını önə çəkməkdən ibarət olmasa da, bayram mərasimlərinin, ənənələrinin bəzi detallarını özündə əks etdirməsi olduqca təqdirəlayiqdir. Filmdə Novruz bayramı, bayramla bağlı yerli özünəməxsusluq bədii şəkildə, həm də bir qədər geniş təsvir edilə bilərdi. Lakin dövrün tələbi buna imkan vermirdi. Onu da qeyd edək ki, Kosa, Keçəl personajlarına “Baharın sorağında” bədii filmində də müraciət edilmişdir.

Novruz bayramının böyük təntənə ilə qeyd edilməsi səhnəsi quruluşçu rejissor Toğrul Məmmədovun ssenarisi əsasında (2017) çəkilən “ Bayram axşamı” filmində verilmişdir.

Filmdə bayram adətləri və atributları: zəngin bayram süfrəsi, süfrədə əsas yer

tutan xonça, beli qırmızı kəmərli securityəməni, şamlar, bayram şirniyyatının (şəkərbura, paxlava) hazırlanması, tonqal üzərindən atdanma, küsülülərin barışması, torba atdı, qonşuların bayramlaşması və s. geniş şəkildə işıqlandırılmışdır. Qeyd olunan Novruz elementlərinin filmdə yer alması gənc nəsildə milli-mənəvi dəyərlərimizə, mədəni irsimizə sevgi hissi aşılayır, müəyyən məlumatların formalaşmasına şərait yaradır. Elə filmin əsas məqsədi də bundan ibarətdir.

İnanca görə hər bir ailə Novruzu xoş-əhval ruhiyyə və sevinc ilə qarşılamalı, umu-küsünü bir kənara qoymalıdır. Əks halda günlər yeni ilin sonuna qədər qəm-qüssə ilə keçər, kədər insanların simasından əksik olmaz (5,s.79). Filmdə “Uzun müddət görüşməyən doğmaları bir araya yığan səbəb Novruz təntənəsidir”, “Bu bayramda sənə həm uzaq qohum, həm yaxın qonşu doğma olur”, “Ənənəyə sadiq qalaraq hər kəs xoş hisslərini gözəl nemətlərlə dolu süfrə arxasında bölüşür” ifadələrini səsləndirirlər. “Xoş gəldin hər birimizə doğma olan Novruz bayramı”, “Hər kəsi bir yerə toplayan bayram axşamı” söyləyirlər. “Bayram axşamı” filmində bu bayramı “baharın elçisi” adlandırırlar. “Bütün bayramlardan seçilən ən şirin bayramdır Novruz bayramı” deyə söyləyirlər. “İl boyu küsülü qalıb, bu günü bəhanə edib barışmaq istəyənlərin bayramıdır bu bayram. Əgər adi günlərdə sən özünü tək hiss edirsənsə, bu bayram səni heç vaxt tək qoymaz” fikrini nəql edirlər. Doğurdan da filmin adına uyğun olaraq bayram axşamında qonşular, qohumlar bir araya gəlirlər. Ənənəvi olaraq süfrə başına toplaşıb, Novruz bayramının gəlişini şadlıqla və xoş ovqatla qarşılayırlar. Süfrədə milli mətbəximizdən yarpaq dolması, müxtəlif şirniyyatlar, çərəzlər, meyvələr görünür. G.Yoloğlu qeyd etmişdir ki, Novruz qışın bitməsi, yazın gəlməsi qışda ölmüş təbiətin dirilməsini simvolizə edən, günəşin sayəsində günlərin uzanmağa başladığı bir vaxtda keçirilən bayramdır. İnsanın soyuq qış günlərindən sonrakı çoxdan arzusunda olduğu gözəl dəyişikliklərə sevindiyi gündür və həmin gün öz canında, həyatında, həyətində bu dəyişikliyi duya bilən hər kəsin bayramıdır. Deməli, Novruz həm də birləşdirən, dostluq, barış gətirən bayramdır (14,s.292). Bol bayram süfrəsi, fala baxmalar, qapı pusmalar, güləş, at yarışı, dəstə-dəstə, məhəllə-məhəllə gəzib mahnı oxumaq, əvəzində Novruz hədiyyəsi, payı almaq, el ağsaqqalının alqışları, ağartı, hədiyyə, barış, bərabərlik, əkinçiliklə məşğul olan türklərdə səməni, heyvandarlıqla məşğul olanlarda evdə suya qoyulmuş meyvə ağacı budağı, od, ocaq bu bayramın ayrılmaz hissələridir (14,s.296).

“Xatirələr sahili” filmində (1972) Novruz bayramı qısa, epizodik şəkildə xatırlanır. Filmdə kənd camaatı bayram axşamı lopa (şamal) yandırıb, əl-ələ tutub rəqs edirlər. Təəssüf ki, bu filmdə də Sovet rejiminin ideoloji qadağaları Novruz bayramına aid başqa detalları işıqlandırmağa imkan verməmişdir. Rejissor Novruzla bağlı zəngin mərasimlərimizi dolğun olaraq işıqlandırmamışdı. Filmdə sözügedən bayramı dolğun şəkildə, milli dəyərlərimizi nəzərə alaraq təqdim etmək olardı. Rejissor Fikrət Əliyevin İbrahim bəy Musabəyovun “Neft və milyonlar

səltənətində" povestinin motivləri əsasında çəkdiyi "Qızıl uçurum" filmində (1981) Novruz bayramı ənənələrini az da olsa görmək mümkündür. Uşaqlar tonqal üstündən hoppanırlar, yeniyetmələrin əllərində isə lopa görünür. Filmdə torba atma ənənəsi də öz əksini tapmışdır. Bayram axşamında belə bir fikir səsləndirilir ki, "Novruz bayramında gözəl rəvayətlər var. Belə deyirlər ki, il təhvil olanda axar sular süd kimi ağarır. Kim onu görsə cəmi diləkləri hasil olar." Filmdə rejissor az da olsa bayram atributlarının və detallarının əks olunmasına çalışmışdır. Xüsusən, bayram axşamında axar sular haqqında səsləndirilən fikirlər inam və etiqadların öyrənilməsi baxımından çox maraqlıdır. Novruz"un mənşəyi ilə bağlı müxtəlif mülahizələr mövcuddur. Mirəli Seyidova görə Novruz mövsüm mərasimi ilə bağlı yaz bayramıdır. Digər diqqəti çəkən mülahizə isə "Novruz"un "Yaradılış bayramı" olmasıdır. Dünyanın yaranmasında iştirak edən dörd ünsür dörd çərşənbədə qeyd olunur və bu yaradılış bayram edilir (11,s.96). Filmlərdə bayramla bağlı epizodların əksəriyyətində xonça, səməni, şəkərbura, paxlava, qoğal və boyanmış yumurtalarla bağlı görüntülər mütləq şəkildə yer alıb. Tonqal üstündən hoppanma, torba atdı, qurşaq sallama, yumurta döyüşdürmək, Kosa-kosa oyunu, bayramla bağlı inamlar və s. səhnələrdən ibarət maraqlı görüntülər isə xüsusi olaraq əks olunmuşdur. Kadrlarda insanların xoş arzularla, səmimiyyətlə və gülər üzlə bir-biri ilə bayramlaşması səhnələri də yer almışdır. Azərbaycanda bu adətə "bayramlaşma" adəti deyirlər. Məlumdur ki, baharın gəlişi ilə təbiət canlanır, əkin-biçin vaxtı gəlir, əkinçilər öz işlərinə başlayırlar. Qeyd olunmalıdır ki, Novruzla bağlı kadrlarda əkin-biçin işlərinin başlanması və bu münasibətlə şənliklər keçirilməsi mövzusunu da görmək olar. Rejissor baharın gəlişi və Novruzun keçirilməsi ilə əkin-biçin işlərini paralel olaraq göstərməyə çalışmışdır. Milli kinomuzda bu məsələlərə diqqət yetirilmiş, toxunulan məsələ doğru olaraq işıqlandırılmışdır. Novruz bayramı mövzusu tam olaraq, bütövlükdə yalnız "Bayram axşamı" filmində (2017-ci ildə çəkilmişdir) ekranlaşdırılmışdır. Digər sadalanan filmlərdə isə bayram mövzusu ayrı-ayrı səhnələrdə, bəzən geniş, bəzən də məhdud şəkildə əhatə olunmuşdur.

Azərbaycanda mövsüm mərasimləri içərisində "Xıdır", "Xıdır Nəbi", "Xıdır İlyas" mərasimlərinin də özünəməxsus yeri vardır. Bu mərasim fevral ayının ilk ongünlüyündə keçirilir. Bu mərasimin nəğmələri onun yazı qarşılamaqla, yağış, yaşıllıq arzusu ilə bağlı olduğunu göstərir. Bunun Azərbaycanda "Xıdır Nəbi", Türkiyədə isə "Hıdırellez" variantları qalmışdır (7,s.13-14). Azərbaycanda "Xıdır Nəbi" mərasimi böyük çillə bitdikdən sonra, yəni fevralın əvvəllərində keçirilir. "Xıdır Nəbi" mərasiminin özünəməxsus nəğmələri vardır:

Xıdır İlyas, Xıdır İlyas,
Bitdi çiçək, gəldi yaz.
Xanım ayağa dursana,
Yük dibinə varsana,

Boşqabı doldursana,
Xıdırı yola salsana (7, s.14).

"Xıdır Nəbi" mərasimi "Baharın sorağında" filmində geniş işıqlandırılmışdır. Filmdə əsasən qışla yazın qarşıdurması, mübarizəsi önə çəkilmişdir. Qeyd edək ki, filmdə rejissor yanaşmasının nəticəsi olaraq "Xıdır Nəbi" və Novruz personajları birlikdə verilmiş, hətta "Qodu-qodu" mərasiminə də toxunulmuşdur. Novruz, Keçəl, Kosa "Qış şahzadəsi"nin əsir saxladığı "Bahar şahzadəsi"nin ardınca yola düşürlər. Filmin süjet xəttindən görünür ki, Novruz, Keçəl və Kosa "Qar şahzadəsi"nin əsarəti altında olan qarlı-çovğunlu çöldə irəliləyirlər. Onlara bu yolda "Qar şahzadəsi"nin göndərdiyi "Yel Baba" və "Bulud "mane olmağa çalışır. Bu məqamda Dərviş onların köməyinə gəlir. Yel Baba və Buludu qovması üçün onlara bu sehirli nəğməni oxumalarını tapşırır:

Ay kosa-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana.

Filmdə yer alan "Yel baba" mənfi obrazda verilsə də, xalqımızın mifoloji dünyagörüşünün bəhrəsi olub, folklor nümunələrində müsbət personaj kimi qorunmaqdadır. Burada "Yel baba" Xıdırın Boz atının yeli kimi təqdim olunur. Xıdır Nəbi bayramında insanlara ruzi paylayır, xırman zamanı dənin sovrulmasına yardım edir. "Xıdır gecələri"ndə axşamdan səhər açılana qədər külək əsir. Deyirlər ki, Xıdır Nəbidi, atını çapıb bərəkət paylaya-paylaya gedir, əsən külək də onun bədoy atının yelidi.Xıdır Nəbibyaramındaadamalar onun gəlişi şərəfinə nəğmələr oxuyurlar:

Qış çilləsi Xıdır İlyas gələndə
Nərlənər gərdişi, ay ellər qıj-qıj (4,s.103).

"Yel baba"nı Xıdır Nəbi günlərində uşaqlar əkin-biçinlə bağlı xırman nəğməsi kimi oxuyardılar:

A Yel baba, yel baba,
Qurban sana, gəl baba
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı,
A Yel baba, yel baba,
Qurban sana gəl baba.
Sovur bizim xırmanı,
Atına ver samanı (1,s.84).

Xatırladaq ki, filmdə yer alan Dərviş obrazı da elə Xıdırın özüdür.

Filmdə mərasim süfrəsində mütləq səməni halvası və qovutun olması vurğulanır. "Xıdır Nəbi" bayramının əsas atributlarından biri hesab olunan qovut qovrulub üyüdülmüş buğdadan hazırlanırdı. Filmdə həmçinin, səməni halvası və onun hazırlanmasından da söhbət gedir. Müxtəlif ədviyyatlı səməni halvası isə Azərbaycan mətbəxinin dadlı mərasim yeməyi olub may-iyun aylarında bişirilirdi. Filmdə qadınlar cücərmiş (rişələnmiş) buğdanı daşla əzir, sıxıb suyunu çıxarırlar. Alınmış bu şirəyə un əlavə edib iri qazanlarda səməni halvası bişirirlər. Səməni halvası bişirilərkən ağbirçək nənə "Bizə bolluq, təravət gətirsin", "Elimiz-obamız şən olsun", "Ocaqları səməni qazanı kimi həmişə qaynar olsun", "Ocaqları yanar olsun" ifadələrini işlədib alqış edir. Səməni halvasını qadınlar hamılıqla, birlikdə hazırlayırlar. Bu səhnələr insanların bayram vaxtı qaynayıb - qarışması və səmimi bir ortam yaratması təsiri bağışlayır, xalqımızın ictimai yardım formalarından biri olduğunu qabardır.

Filmdə həmçinin, Novruz şirniyyatlarından qoğal bir daha yada salınır. Qoğalın günəşə bənzədiyi, nə acı, nə şirin olduğu vurğulanır. Epizodik olaraq bayram süfrəsi, şamlar, səməni, xonça, yumurta döyüşdürmə və tonqal üstündən hoppanma kadrlarını da görmək mümkündür. Adamlar tonqal üstündən hoppanaraq söyləyirlər:

Ağırlığım od olsun,
Odda yanan yad olsun.
Ağırlığım –uğurluğum odlara,
Yazda mənlə dost olmayan yadlara.
Alovdan atlanmaq gərək,
Cəfaya qatlanmaq gərək.

Filmin sonunda Novruz "Bahar şahzadəsi"ni "Qar şahzadəsi"nin əsarətindən qurtarır, Novruz və "Bahar şahzadəsi"nin toyu olur. Onların toy günü təbiətin canlanması başlayır. Eldə-obada şadyanalıq başlayır, mərasimlər icra olunur. Qeyd etmək lazımdır ki, filmdə "Fəsillər şahzadəsi", "Qar şahzadəsi", "Bahar şahzadəsi", Xıdır Nəbi, Novruz, Yel baba, Bulud personajları burada mifaloji anlamda verilmişdir. Filmdə aşıq musiqisi və yaradıcılığı da yer almışdır. Bayram ovqatında çalınan saz havası və aşıq ifası insanlarda xoş əhval-ruhiyyə yaradır. Kəndlilər tərəfindən qodu daşının axtarılması da filmin maraqlı məqamlarından biridir. Qodu daşı isə onlara əkinlərinin bol məhsul verə bilməsi üçün lazımdır. Milli filmlərimizdə Novruz bayramı kontekstində xalqımızın qədim, başlıca məşğuliyyət növü olan əkinçilik və maldarlıq etnoqrafik baxımdan təsvir edilmişdir. Lakin bayram əhatəsində bu təsvirlərə çox az rast gəlinir. Əslində filmdə adları çəkilən personajlar vasitəsilə təbiət hadisələri, qışla yazın mübarizəsi, qışın sərt keçməsinə baxmayaraq yazın gəlişi, torpağın canlanması mövzusu önə çəkilmişdir.

Təəssüf ki, müasir dövrdə zəngin ənənələrə malik Xıdır Nəbi mərasimi məişətimizdən çıxmaq üzrədir. Belə ki, bu mərasim yalnız Naxçıvan və Qazax-Tovuz bölgələrində qeyd olunur. Filmdə Xıdır Nəbi bayramının personajlarına yer verilməsi təqdirəlayiq hal kimi dəyərləndirilməlidir.

Qeyd etmək istərdik ki, Novruz bayramı YUNESKO-nun qeyri-maddi irs üzrə Reprezentativ siyahısına daxil edilsə də, həmin bayramda nümayiş olunan bəzi ənənəvi mərasimlər ("Xan oyunu" və s.) artıq aradan çıxmaq üzrədir. Naxçıvan bölgəsində keçirilən Novruz şənliklərində təşkil olunan xalq oyunlarının, meydan tamaşalarının daha maraqlı, daha canlı olduğunu nəzərə alaraq gələcəkdə bədii filmlərdə yer almasını çox əhəmiyyətli hesab edirik. Bir daha xatırlatmaq istərdik ki, filmlər çox güclü təbliğat vasitəsidir və unudulmaqda olan mədəni irs nümunələrinin təbliğində, qorunub saxlanmasında və gələcək nəsillərə ötürülməsində mühüm rola malikdir.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:

1. Abdulla B. Azərbaycan folkloru. Bakı, 2015.
2. Azərbaycan xalq ədəbiyyatından seçmələr (qaravəllilər, oyunlar və xalq tamaşaları). Tərtib edənlər: İsmayılov H., Orucov T. Bakı, 2005.
3. Babayev T. Abdulla B. Novruz bayramı. Azərbaycan etnoqrafiyası. 3 cilddə, III cild. Bakı, 2007.
4. Babayev T. Abdullayev B. Novruz bayramı ensiklopediyası. Bakı, 2008.
5. Əsədli K. XIX-XX əsrlərdə Şirvan bölgəsinin etnoqrafik səciyyəsi. Bakı, 2017.
6. Həmzəoğlu K. Novruz bayramı "Dəli Kür" filminə necə düşdü. Millət qəzeti. 2014.
7. Xəlil A. Türk xalqlarının yaz bayramları və Novruz. Bakı, 2013.
8. İmanoğlu F.V. Azərbaycanın milli-mənəvi və maddi dəyərləri. Bakı, 2018.
9. Quliyev H.A. Məişətimizdə adət və ənənələr. Bakı, 1976.
10. Qurbanov Ə. Milli və ümumbəşəri bayram. Bakı, 2010.
11. Orucov T. Azərbaycanda Novruz bayramı və Kosa-kosa tamaşası. Motif Akademi Halkbilimi Dergisi. 2011-1 (Ocak-Haziran) (Azerbaycan Özel Sayısı-I).
12. Sarabski H. Köhnə Bakı. Bakı, 2006.
13. Sarıyeva İ. Azərbaycan kino sənətində Novruz bayramı. Bakı xəbərləri. ictimai-siyasi qəzet, 2015.
14. Yoloğlu G. Türk xalqlarının mərasim sistemində Novruzun yeri (tarixi-etnoqrafik tədqiqat). Bakı, 2018.

Nurengiz Garayeva
Display of folks holidays in national films

Summary

Key words: *National, film, Novruz, holiday, tradition*

The traditions of our people deal with holiday of Novruz were also found in our national films. Analyzing our films, one can learn ethnographic traditions, rich holidays of Azerbaijani people and examples of moral culture. Novruz holidays festive attributes can be seen in the movies. Presentation of jokes on the occasion of the holiday was presented in a unique way. The article has frames where movies contain attributes and attributes; holiday table, khoncha, samani, candles, cooking (decoration), throwing a fire, peace of mind, throwing bags, vacation of neighbors, etc.

Нурангиз Гараева
Отражение народных праздников в национальных фильмах

Резюме

Ключевые слова: *Национальный, фильм, Новруз, праздник, традиция*

Традиции народного праздника Новруз нашли свое отражение в национальных фильмах.

Анализируя фильмы, можно в полной мере узнать этнографические обычаи и познакомиться с элементами богатых праздников, присущих азербайджанскому народу и связанную с ними духовную культуру.

В фильмах можно увидеть атрибуты праздника Новруз.

С приходом праздника проводятся различные самобытные юмористические приставления и народные игрища.

В статье представлены кадры, отражающие традиции и обряды праздника Новруз. Подробно показаны убранство праздничного стола, хонча (поднос с традиционными сладостями), семени (ростки пшеницы), изготовление и украшение праздничного печеного – шекер-буры, обычаи прыжков через костер, примирения, находящихся в соре, подбрасывания сумы к дверям соседей и их совместного веселья.

Nardanə Yusifova

Xalçalardakı rənglərin və həndəsi elementlərin aranjemanı (muzey materialları əsasında)

Açar sözlər: *rənglərin aranjemanı, inteqrasiya, xalçalarda rəng duyumu, elm-təhsil-yaradıcılıq vəhdəti.*
UOT 7

Məqalədə məqsəd, Milli Azərbaycan Tarixi Muzeyində qorunub saxlanan xalçalardakı rənglərin və həndəsi elementlərin aranjemanını qeyd etməkdir. Elmin, təhsilin və ya ictimai həyatın bütün sahələrində rənglərin aranjemanı mövcuddur. Təbiətin özündə bu hal daha qabarıqdır. Əslində xalçalar təbiətin rəng müxtəlifliyini özündə əks etdirir. Nəinki qədim xalçalarda, hətta müasir dövr Azərbaycan xalçalarında da təbiətin bütün rəngarəng gözəllikləri əks olunub. Xalçaları istər rəng, istərsə də tərtibat baxımından araşdırarkən ilk diqqət çəkən onun rəngləri olur. Onlara rəng və ya süjet etibarı ilə diqqət yetirəndə aydın olur ki, burada işlədilən hər rəngin, hər bir naxışın və ya kompozisiyanın əsası olan rənglərin müəyyən dərəcədə özünəməxsus məzmunu da vardır. Xalçaların rəng kompozisiyasında hər rəngin, hətta rəng çalarlarının təmsil etdiyi rəmzlərin olduğunu görmək mümkündür. Belə ki, qırmızı alovun, göy suyun, şəkəri torpağın rəmzidir deyimini təsdiqlənmiş olur. Azərbaycan xalça məktəbləri nümunələrində naxışlar dəyişdikcə, onlarla yanaşı rəng çalarları da dəyişir. Bəzən elə kompozisiyalar vardır ki, sanki naxış, rəngin çalarlarını dəyişə bilir. Yəni, necə ki, ornamentlərin –naxışların işıq-kölgə effekti, perspektiv görüntüləri olduğu kimi, rənglərin də öz ifadə təi vardır.

Azərbaycan xalçasında çoxəsrlik ənənələrin sabitliyi və həyat gerçəkliklərinin müxtəlifliyi üzvi surətdə birləşir. Xalçaçılıq, məişətdə istifadəsinə görə çoxfunksiyalı sənətdir. Qeyd etmək olar ki, xalçaçılıq bəlkə də dekorativ-tətbiqi sənətin yeniləşməsində vacib olan ən çətin sahəsidir. Çox vaxt adama elə gəlir ki, yaranma tarixi yüz illərlə ölçülən xalçaçılıqda hər şey tədqiq olunub, onun hər kəsi heyran edən kompozisiya həllinə və naxış tərtibatına nə isə əlavə etmək mümkünsüzdür. Bunu, elə bu sahənin inkişaf tarixi də təsdiqləyir. Lakin, dekorativ tətbiqi sənətin bütün sahələrində, eləcə də xalçaçılıqda rast gəlinən hər hansı bir forma, quruluş və

ya gözəllik, hər vaxt tədqiqat obyekti olmuşdur. Hər bir tədqiqat işi elmi əsaslara söykəndiyindən, xalçalar üzərindəki araşdırmaları da əhatəli olaraq aparmaq lazım gəlir. Belə araşdırmanı aparmaq və əldə olunan nəticələri olduğu kimi insanlara çatdırmaq üçün insana əhatəli düşünmək, düşündüklərini analiz etməklə hər hansı bir elmə yox, elmlərin vəhdətinə bağlamaq lazımdır.

Xalçalardakı rənglərin və həndəsi elementlərin aranjemanının elmi mahiyyətini izah edək. Yəni aranjeman daha çox riyazi termin olduğundan humanitar sahənin mütəxəssisləri onu tam dərk etsin deyə bu bu məlumatı vermək vacibdir. Aranjeman-mümkün olan yerdəyişmələr deməkdir. Aranjemanlar iki yerə bölünür: təkrarlar olan və təkrarsız olan yerləşdirmələr. Məsələn, hazırda mobil telefonların köməyi ilə dünyanın istənilən nöqtəsi ilə əlaqə yaratmaq mümkündür. Bu zaman yığmaq istədiyimiz telefon nömrəsindəki rəqəmlərin sayı adətən onluq say sistemindəki rəqəmlərin sayından çox olur. Ona görə də istədiyimiz nömrəni yığarkən rəqəmlərin təkrar olunacağını gözləmək olar. Bu riyazi mənada o deməkdir ki, sonlu çoxluğun elementlərindən məlum uzunluqlu mümkün variantlar düzəldərkən həmin variantlarda elementlər təkrar ola bilər. Belə variantların tapılmasının praktik əhəmiyyəti var. Bu məsələni riyazi qanunlarla həll etmək olur, belə ki, elə riyaziyyatda "Rəqəmlərin aranjemanı" deyilən böyük bir bölmə vardır. Bu riyazi metodun köməyi ilə təbiətdəki nizamlılıq kimi, ictimai həyatda da rəqəmlərin düzülüşündə və istifadəsində bir riyazi qanunauyğunluq vardır. Hər kəsə məlumdur ki, heç kimin nə mobil, nə adi telefon, nə maşın, nə də həyatın bütün sahələrində rast gəldikləri rəqəm birləşmələri qarışıq düşmür. Yəni bu nizamlılıq, aranjeman deyilən riyazi qayda əsasında aparılır. Bu qaydalılığı xalçadakı rənglərə və ornamentlərə və hətta həndəsi fiqurlara da şamil etmək olur. Elə buna görə də xalçaları əhatəli olaraq tədqiq edərkən buradakı rənglərin arasındakı aranjeman qaydalarının işlədilməsi incəsənət tarixində yeni bir nəzəriyyəyə ("Fəza təfəkkürü və incəsənət", nəzəriyyə müəllifə məxsusdur) əsaslandığının şahidi olmaq mümkündür. [3.s.37–49]

Rənglərin aranjemanı və onların inteqrasiyasından danışarkən qeyd etmək olar ki, əsas rəngləri qarışdırmaqla, qarışıq rənglər almaq olur. Tədqiq edilən xalça nümunələrinə istinadən göstərmək olar ki, qırmızı və sarı rəngin qarışığından narıncı rəng, sarı və göy rənglərin qarışığından isə yaşıl rəng alınır.

Ağ rəng əsas rəngdir. Ağ rəngi heç bir rəng qarışığından almaq olmur. Rənglərə ağ rəng qatdıqda isə möcüzələr baş verir. Maraqlısı budur qara rəngi digər rənglərə qatdığda rənglər tündləşir.

Daha yaxşı olar ki, xalçalardakı rəng aranjemanının düzülüşünü hansı rənglərin qarışığından və hətta rənglərin müxtəlif tonlarından almağın mümkünlüyünü qeyd edək. Yəni,

SARI+GÖY=YAŞIL

GÖY+QIRMIZI=BƏNÖVŞƏYİ

QİRMİZİ+SARI=NARINCI

QIRMIZI+QARA=QƏHVƏYİ

Əslində rəng nəzəriyyəsi xüsusi bir elmdir. Bu haqda sənətşünaslıq doktoru Adil Qazıyev "Rəngşünaslıq kursu" əsərində geniş məlumat verir. Alim hətta qeyd edir ki, xəstələri müəyyən rəng vasitəsilə də müalicə etmək olar. Lakin bu metodu hər kəsə eyni şamil etmək olmur. Çünki təbiətdə olan rənglərin hər biri insanlara müxtəlf cür təsir edə bilir. Beləliklə, istər xalçalarda, istərsə də təbiətin bütün sahələrindəki rəng məsələsi incəsənət nəzəriyyəsinin mürəkkəb sahələrindən biri sayılır. Elə bu nəzəriyyəyə əsaslanaraq qeyd etmək olar ki, rəng də səs kimi bir titrəmə hadisəsidir. Rəngi təyin etmək üçün işıq, görünən səth və görən göz lazımdır. İşıq və rəng bir enerjidir. Rəng gözlə qəbul edilən bir işıq hadisəsidir. Bizi əhatə edən hər bir əşyanın rəngi var. Rənglər insanların həyatına, əhvalına, sağlamlığına təsir edir. Rənglərin mənasını bilməklə insan bacarıqlarını, xasiyyətini müsbət cəhətlərini inkişaf etdirə, mənfi keyfiyyətlərini isə aradan qaldıra bilər. Rənglərin insanlarda yaratdığı təbii hiss və duyğunu bütün sənətkarlar kimi xalçaçılar da mükəmməl bilirlər. Onlar bunun nəzəriyyəsini bilməsələr də təcrübi olaraq tətbiqini göstərə bilirlər. Xalçaçı rəssamlarda isə bi duyğu daha güclü və qabarıq olur, belə olmasaydı onlar bu qədər rəngarəng görüntülü xalça eskizləri hazırlaya bilməzdilər.

Xalçalardakı gözəllik nümunələrini araşdırdıqca belə nəticəyə gəlmək olur ki, tək bir xalça üzərindəki bu kompozisiya elementlərinin rənglərini və onların aranjeman qaydasında düzülüşünü illərlə müxtəlif sənət-elm adamları araşdırsa da yenə də xalça möcüzəli, sirli bir aləmə aid olduğundan onun haqqında tam olaraq fikir söyləmək mümükün olmadığı təsdiqlənər.

Məqalədə, bir neçə eksponat nümunəsi əsasında bu yanaşma tərzini, Milli Azərbaycan Tarixi Muzeyinin "Etnoqrafiya elmi fond" unda olan xalça nümunələrinin səthindəki həndəsi elementin köməyi ilə sübut etməyə çalışaq. Qeyd edək ki, bu xalçalar əsrlərin yadigarı olub, bizə tariximiz, milli-mənəvi dəyərlərimiz haqqında əsl həqiqətləri çatdırırlar. Azərbaycan xalçası xalqımızın ruhunu yaşadan, onun mənəvi dünyasında özünə layiqli yer tutan çox qiymətli sənət nümunələridir. O da məlumdur ki, milli xalçalarımızda xalqımızın ruhu yaşayır, zəngin milli-mənəvi dəyərlərimiz xalçaların əsas atributudur. Bu xalçalardakı rənglər sənətkarın yaradıcı təxəyyülünün məhsulu olmaqla xalqın mənəvi dünyasının daşıyıcılarıdır. Beləliklə, bir neçə xalça nümunələrinə diqqət yetirək.

Şəkil 1. 4002 (Bakı.Yun. XIX-XX.166x103). Bu xalçada əsas rəng qırmızıdır. Yerliyi qırmızı, göl hissəsindəki düzbucaqlılarla əhatələnmiş hissə tünd mavi, simmetrik şəkildə verilmiş səkkizbucaqlının daxilində də həmin rənglər verilmişdir.

Şəkil 2. 4007 (Bakı1.Yun. XIX.140x97). Bu xalçada əsas rəng tünd mavi fon üzərində kənarları qəhvəyidir.

Şəkil 3. 6726 (Sirvan.XX.yun.200x122). Bu xalçada əsas rəng sürmeyi-qəhvəyidir. Xalçanın göl hissəsinin və yelənin yerliyi də adı çəkilən rəngin tündüdür.

Şəkil 4.7185 (Xalça "Qazax". XX əsr).Bu xalçada əsas rəng sürmeyidir.

Rənglərin aranjemanı, inteqrasiyası olduğu kimi, həndəsi elementlərin də aranjemanı - inteqrasiyası vardır. Mövzu çox geniş olduğundan, məqalədə, ancaq qrafiki çertyojlarla molekulyar quruluşlu üçbucaqların birləşməsindən alınan altıbucaqlı ornament nümunəsinə əsasən aranjimanını göstərək. Bu ornamentlərə dekorativ- tətbiqi sənətin bütün sahələrində və eləcə də xalçalarda rast gəlinir.

Bu molekulyar ornament nümunəsinə nəinki Azərbaycan incəsənətində, eləcə də türk dünyasının bütün sənət sahələrində rast gəlmək olur. Ornamenti yaradan həndəsi fiqurun, yəni bir üçbucağın həndəsi molekulyar adı tsiklopropandır [1.s.78–79] .Qrafiki cizgiyə fikir versək,bu fiqurlardan yaranan və xalçaların yelən hissəsində daha çox istifadə olunan üçbucaq əsaslı naxış kompozisiyasının molekulyar birləşməsini almaq olduğunun şahidi olarıq. Yəni, qrafik cizgidəki kimi.

Üçbucaq əsaslı xalça naxışlarından digər bir nümunəni də göstərməklə bu silsilənin həndəsi və ya molekulyar davamını təsdiqləmiş oluruq.

Nümunə kimi göstərilən xalcaları ya rəng və ya tərtibat baxımından araşdırarkən onların hansı xalça məktəbinə aid olmasına baxmayaraq sanki bir harmonik görüntü göz önündə canlanır. Elə götürək muzeydə mütamadi olaraq sərgilənən Quba xalça məktəbi nümunələrini. Bu xalçalar xoş rəng ahəngilə seçilir. Hətta daha çox göz önündə olan xalçalarda ilk öncə diqqəti cəlb edən görüntülərdən birində, sanki qar dənələri yerə düşüb ətrafı ağ örtüyə bürümüş, tortaqda əriyib ilk cücərtilər üzə çıxana kimi evlərdə xoş ab-hava yaradır, insan qəlbini isindirir. Bu hərarət qırmızı, göy, qəhvəyi və s. rənglərlə ifadə olunur. Burada da rənglərin aranjemanı önəmli yer tutur. Hələ buradakı əsas fona kölgə salan digər rəng çalarları daha çox diqqəti cəlb edir.

Muzeyin fondundakı xalçalarda rəng həllinə, həcminə diqqətlə yanaşılsa, qırmızı rəngin ən çox istifadə olunduğunu görmək mümkündür. Hələ ən qədim dövrlərdən başlayaraq müasir rənglərin meydana çıxdığı vaxta qədər xalçaçılıqda istifadə etmək üçün qırmızı rəngi gəndalaş, nar, boyaqotu, biyan və s. bitkilərdən və "qırmız" adlı böcəkdən alardılar. Bu rəng xoşbəxtliyi, sevgini təcəssüm etdirir, odun-ocağın rəngini bildirir. O da məlumdur ki, qədim zamanlarda Azərbaycanda oda sitayiş geniş yayılmışdı. Bu inam Zərdüştilik dini ilə əlaqədardır. Bu dində oda pərəstiş mühüm yer tuturdu. [4.s.82-85]. Azərbaycanın çox yerlərində indiyədək yanan şamı üfürüb söndürmək, yanan ocağa su tökmək, oda boş yerə and içmək böyük günah sayılırdı. Hətta indiki dövrdə də toylarımızda qırmızı rəngdən istifadə üstünlük təşkil edir.

Xalçalarda istifadə edilən rənglər təkcə rəngarənglik, göz oxşamaq üçün deyil, eyni zamanda insanların sağlamlığına, əhval-ruhiyyəsinə də təsir edir. Qeyd etdiyimiz kimi, insana rahatıq verən yaşıl rəng sinir sisteminə və başqa xəstəliklərə də yaxşı təsir etdiyi üçün hər vaxt psixoloji seanslarda geniş istifadə edilir [2.s.21–56]. Bunun fərqində olan xalçaçı rəssamlar xalçalarda yaşıl rəngə geniş yer verirlər. Muzeydəki Quba, Şirvan, Gəncə, Qazax, Qarabağ və Təbriz xalçalarının rəng həllində yaşılın müxtəlif çalarlarından geniş istifadə olunmuşdur. Məqalədə,

xalçalardakı rənglərin mahiyyəti yox, rənglərin aranjemanı araşdırıldığından yuxarıda göstərilən xalça nümunələrinə istinadən qeyd etmək olar ki, XXI əsrə qədər gəlib çatmış xalça məmulatları, xalqın bədii fəlsəfi təfəkküründə həlledici rol oynamışdır. Dekorativ tətbiqi sənət sahələrində xalça yaradıcılığı formaları, xalqımızın bəzək sənətindəki riyazi nizamlılığı daha açıq formada əks etdirir. Çeşidli naxış kompozisiyaları ilə zəngin olan Azərbaycan xalçaları bu baxımdan dərin tədqiq olunmalı və öyrənilməli olan bir sənət sahəsidir. Çünki xalça naxışları, Azərbaycanın bədii forma və quruluşlarını daha önəmli və tam araşdırılmasına çox böyük ehtiyac duyulan bir sahəsidir. Azərbaycan xalçalarının forma, toxunma texnikası, süjet, ornament, rəng və kompozisiya rəngarəngliyi onların tədqiqi üçün geniş meydan açır. Xalça Azərbaycan xalqının ədəbiyyatı, memarlığı, bədii miniatür və dekorativ-tətbiqi sənətinin digər növləri ilə çoxlu tellərlə bağlıdır. Rənglər də bağlılıqdan biri sayıla bilir.

Azərbaycan xalçaları mürəkkəb həndəsi və nəbati naxış quruluşuna görə təkrarsızdır, onlar naxış sistemlərinin peşəkarlığına görə seçilir. Əgər xalçalara diqqətlə baxılarsa, onların hər birinin rəng və toxunmasına, naxışlarına və rəsmlərinə görə özünəməxsus fərdiliyinin, üslub və keyfiyyətinin olduğunu görmək mümkündür. Bu, Azərbaycan xalçaçılığının rəngarəngliyinin və zənginliyinin əsasında durur. Azərbaycan xalçaları əvəzsizdir, çünki onlar çoxçalarlı olmaları, rənglərinin zənginliyi ilə seçilirlər. Başqa ölkələrdə xalça naxışları tez-tez təkrarlanır, Azərbaycan ustalarında isə bu olmur. Azərbaycan xalçaçılığı bütün bəşəriyyətə məxsus inciləri ilə bizim günlərdə də dünyada şöhrət qazanıb. Azərbaycanın xalça incəsənəti onun çoxəsrlik tarixə malik xalqının mənəvi dünyasını, estetik duyumunu, bədii yanaşma istedadını və fəlsəfi dünyagörüşünü əks etdirir. Bu incilər haqqında sonsuza qədər danışmaq mümkündür.

Beləliklə, qeyd etmək olar ki, xalçalar üzərindəki ornamentlər, işarələr, yazı və rəsmlər xalqımızın qədim ənənələrini, həyat və məişətini təmsil edən amillərdir. Dərin və əhatəli tədqiqə ehtiyacı olan xalçamız sənətşünaslar tərəfindən tarixi baxımdan, ornamental quruluş formasından və digər görünməyən, lakin tədqiqata ehtiyacı olan tərəfdən araşdırılmalıdır. İllər boyu yox, bir neçə yüzilliklər boyu xalçalarımız müxtəlif elm və sənət adamları tərəfindən müxtəlif formada araşdırılsa belə, yenə də onun sirrini tam açıqlamaq mümkün deyildir. Sanki xalça sirli bir aləmə işarədir.

İstifadə edilmiş ədəbiyyat

1. Məmmədov X.S. Naxışların yaddaşı. Bakı, 1981.
2. Hüseynov M. Xalça sənətində naxış yaddaşı. Bakı, 2012.
3. Yusifova N.İ.Fəza təfəkkürü və incəsənət. Bakı, 2010.
4. Zamanov N. Düşündürən naxışlar. Bakı, 1981.

Nardana Yusifova

Arrangement of the colorations and geometric elements on the carpets (based on museum artifacts)

Summary

Key words: *arrangement of the colorations, combination, sense of coloration on the carpets, research-educational-creative unity*

The article is about the study of an arrangement of the coloration and geometric elements on the carpets preserved in the National Museum of History of Azerbaijan, based on carpet schools mainly in Baku, Shirvan and in Gazakh. The content is brought to the attention expressing geometric elements i.e. essence of each composition or decoration and coloration used as a plot on the carpets. It is evident that ornaments-decorations have the light-shade effects, perspective views; as well as the coloration has its specific manner of expression. This manner, with any form, structure or beauty occurred in all fields of decorative arts as well as in the carpet weaving is actually based on the scientific facts. In order to see, understand and share it with others, one should globally think and analize these thoughts and based not only on single but interdisciplinary sciences.

Нардана Юсифова

Аранжеровка цвета и геометрических элементов на коврах (на материалах музея)

Резюме

Ключевые слова: *аранжировка цвета, интеграция, ощущение цвета на коврах, единство науки и образования и творчества*

В статье на примере Бакинской, Ширванской и Газахской школ ковроткачества исследуется аранжировка цвета и геометрических элементов на коврах, хранящихся в Национальном Музее Истории Азербайджана. Обращает на себя внимание каждый цвет, каждый узор, вписанный в канву

сюжета, либо геометрический элемент, лежащий в основе содержания рисунка ковра. Указывается, что узоры орнамента имеют эффект цвета и тени, собственную перспективу, присутствует особый способ исполнения цвета. Этот способ, являясь выражением прекрасной формы и структуры во всех сферах декоративно-прикладного искусства, в том числе и в ковроткачестве, опирается на научные основы. Чтобы это увидеть, осознать и передать другим в первозданном виде, человек должен обладать всесторонним мышлением, способностью анализировать мысли, исходя не из одной отрасли науки, а всего комплекса научных знаний.

Milli Azərbaycan Tarixi Muzeyinin "Etnoqrafiya elmi fondu"nda saxlanan xalçaların, rəng və həndəsi elementlərinin aranjeman baxımından araşdırılan nümunələri.

Şəkil 1.4002
(Bakı.Yun. XIX-XXəsr.166x103)

Şəkil 2.4007
(Bakı.Yun. XIX əsr.140x97)

Şəkil 3.6726
(Sirvan.Yun XX əsr.200x122)

Şəkil 4.7185
(Qazax.Yun.XX əsr.200x130)



Qrafiki cizgi 1.Polespirotsiklopropan yığımlı polispirotsik¬lopropiltsiklo¬heksan ornament nümunəsi



Qrafiki cizgi 2. 24 triqonal prizmanın cüt-cüt birləşməsinin üst görünüşü



Qrafiki cizgi 3. Xalçalarda istifadə olunan naxış elementləri

Агасалим Эфендиев

История Сефевидов в искусстве Азербайджана 16 века

Ключевые слова: *государство Сефевидов, шах Тахмасиб, Ибрагим-мирза, Абдуррахман Джами, «Хафт Авранг».*

UOT 94 (479.24)

История Азербайджанского Государства Сефевидов и его взаимоотношений с Османской империей всегда привлекала пристальное внимание как отечественных, так и зарубежных историков. Последняя треть 16 века неразрывно связана с войной этих двух империй. Наряду с общими фундаментальными работами по истории этих государств, в которых, в частности, отражена и история сефевидо-османских взаимоотношений, существуют также иллюстрации к современным тому времени трудам летописцев.

О желании шаха Тахмасиба I установить мирные взаимоотношения с Османской империей красноречиво свидетельствуют и дипломатические миссии, отправленные сефевидским шахом ко двору султана в 1568 и 1576 годах по случаю восшествий на престол соответственно султана Селима II и султана Мурада III. Несмотря на то, что турецкая сторона даже не направила официального извещения о восшествии на престол султана Мурада III, сефевидский двор снарядил по этому случаю очень внушительную как по составу, так и по ценности преподнесенных подарков делегацию, среди которых особое место занимали более 50 томов редких рукописных книг, в том числе и щедевр в искусстве рукописной книги – «Шахнаме», на создание которого ушло 20 лет. По материалам «Джавахир ул-ахбар» Будага Мюнши Казвини известно, что в ответ на настойчивые просьбы своего любимого племянника Султана Ибрахима Мирзы отправить вместо этой книги что-то другое, шах Тахмасиб I заявил, что для него «важнее мир и покой, нежели книга, которую ему не придется прочитать.

Не смотря на то,что во время этих войн города и деревни в Азербайджане

и прилегающих территориях были разорены и разрушены, погибли тысячи людей, элита обоих государств продолжала культурные взаимоотношения. В этот период генералы, послы, государственные деятели, поэты и писатели с обеих сторон поддерживали тесные отношения, которые привели в итоге к тому, что значительное число драгоценных рукописей нашли путь из Ирана в османскую столицу. Некоторые из этих дорогостоящих произведений были подарены О. с. сефевидскими послами, приезжавшими с различными миссиями , но значительное число их было приобретено или получено как подарок во время войны османскими генералами, чиновниками, губернаторами провинций.

Межплеменная вражда стала основной причиной оккупации страны османскими войсками в 1585 году. Еще в 1548 году в ходе третьего похода султана Сулеймана I в Азербайджан османская сторона предприняла попытку восстановления крепости, но безуспешно. Внезапной атакой старший сын шаха Тахмасиба I Исмаил Мирза сорвал намерение османских властей и разрушил строившуюся крепость.

Поскольку шах Тахмасиб I потерял доверие к своим братьям и самому отважному из сыновей – Исмаилу (будущему Исмаилу II), то он все более опирался на родственниц, первым делом на сестру Султаным (ум.1562) и дочь Перихан-ханум (ум.1578). Сохранился прекрасный портрет Султаным работы Мирзы Али в частной коллекцтт в США.

Рукопись «Гераносса-дейн» Амира Хосрова Дехлеви дает историю сложных взаимоотношений шаха с братом Сам-мирзой. И хотя слава его была велика, «Гераносса-дейн» или «Соединение двух благоприятных звёзд» не был в числе наиболее иллюстрируемых рукописей ни тимуридских, ни тюркоманских.

Возможно, сцена встречи двух братьев здесь иллюстрирует одновременно два события, оба из сефевидской истории: это приезд шаха Исмаила в Исфахан к новорождённому Тахмасибу, а также встречу шаха Тахмасиба с братом Сам-Мирзой весной 1531 г., соответственно названию «Соединение двух благоприятных звёзд». (2, с. 132)

Если с первым из событий всё ясно, то второе событие требует специального рассмотрения, поскольку именно оно и иллюстрировано, а не центральное событие встречи отца с сыном. Юный принц Сам-Мирза (1517-61), номинальный правитель Герата, убежал из осаждённого узбеками города в 1529 г., когда его гвардеец Хусейн-хан Шамлу получил свободный коридор для отступления для принца и его войска. Но сроки эвакуации, обговоренные Хусейн-ханом, а также нежелание примкнуть к Тахмасибу породили при дворе сомнения в намерениях Сам-Мирзы и его благонадёжности. Поэтому последующий тёплый приём Тахмасибом Сам-Мирзы был для последнего большим облегчением, и он вполне мог заказать эту рукопись в благодарность шаху. (5, с. 249)

Как известно, во времена создания этой рукописи «Дивана» Хафиза

малолетний Сам-Мирза был правителем Герата под опекой Хусейн-хана Шамлу двоюродного брата шаха по материнской линии, и последний ещё более укрепил связи с шахским двором, выдав свою дочь за Сам-Мирзу. В 1534 году он организовал неудачный переворот. По надписи видны амбиции Сам-Мирзы. Он велел изменить надпись, поскольку считал, что Тахмасиб в битве с османами обречен на неудачу.

Рукопись «Сильсалат-ал Заххаб» Джами (Санкт-Петербург, Дорн 434, переписана Шах Махмудом аль-Нейшабури в Ардебиле в первый год пребывания на посту правителя этого города Сам Мирзы в августе 1549 года. Данная рукопись содержит двухстраничный фронтиспис, приписываемый Мирза Али, что в свою очередь подтверждает шаткое положение художников и каллиграфов, которые вынуждены были искать покровительства у принца-бунтаря. «Любая связь с Сам Мирзой вызывала гнев Тахмасиба, как ранее в случае с Мир Мусаввиром. После назначения Сам Мирзы правителем Ардебиля им завладела идея возродить библиотеку-ателье, но Тахмасиб лишил своего брата источников дохода, сократив его жалованье, что в свою очередь вынудило Сам Мирзу заняться коммерцией. В такой ситуации навряд ли Сам Мирза смог бы реализовать свою мечту по созданию собственной библиотеки-ателье. (8, с.62)

Большие проблемы шаху Тахмасибу создавали его братья Алкас-мирза и Сам-мирза, в частности, мятеж ширванского беглярбека Алкас-мирзы: Перед новым османским вторжением положение Сефевидского государства осложнилось в связи с его мятежом. Используя сепаратизм местной ширванской знати, Алкас-мирза решил объявить себя независимым государем. Весной 1546 г. шах Тахмасиб с войсками двинулся к Тебризу и выслал Ургендж-оглы в Ширван для переговоров с Алкас-мирзой. Мать сообщила шаху о раскаянии своего сына и его просьбу о прощении с обещанием, что этого больше никогда не повторится.

Но после возвращения эмиров из Ширвана, воспользовавшись междоусобицами кызылбашской знати в столице, Алкас-мирза вновь обьявил себя независимым. Поэтому шах Тахмасиб при возвращении из похода в Грузию решил расправиться со своим мятежным братом.Они встретились у берегов р. Самур с войсками Шаха и были разгромлены. Войско стало массами переходить на сторону шаха. С горсточкой людей Алкасу все-таки удалось скрыться в горах и добраться до владений Шамхала. Затем он перебрался к Азовскому морю и достиг Кафы (Феодосии), откуда направился в Стамбул (6, с. 112).

Новым беглярбеком Ширвана был назначен сын шаха Исмаил-мирза (будущий шах Исмаил II). По сообщению Шереф-хана Алкас-мирза, уговаривая султана пойти походом на Сефевидов, предсказывал ему, что как только султан вступит в Ирак, кызылбаши отвернутся от шаха.

Однако, в 1549 г. Алкас-мирза поссорился с султаном. и отказался вернуться

в Стамбул по требованию Сулеймана. Поэтому против него было направлено тридцатитысячное войско Мухаммед-паши. Спасаясь от султана, Алкас бежал в крепость Мериван, где правил Сурхаб-бек. Согласно Хасан-беку Румлу, шах послал к Сурхабу Бахрам-мирзу с двадцатитысячным войском. Обещаниями и угрозами Бахрам-мирза заставил выдать Алкаса и доставил к шаху, который заключил своего мятежного брата в крепость Кахкаха, где он вскоре был убит.

В это время Тахмасиб получил известие, что султан послал кулларагаси Османа Челеби с четырехтысячным войском для восстановления крепости Карс. Против него был выслан старший сын Тахмасиба Исмаил-мирза с Гѐкча-солтаном Каджаром. Осман Челеби, захватив с собой 600 человек явился в ставку принца, где, внезапно обнажив меч, напал на него. Люди Османа по примеру своего главаря кинулись на кызылбашей. Однако Исмаил-мирза проявил хладнокровие, не растерялся. Крепость Карса была разрушена кызылбашами.

Маневры Исмаила очень напоминает тактику его деда шаха Исмаила I, который таким же образом в 1510 г. разбил Шейбани-хана у Мерва.Исмаил-мирза, известный под именем шаха Исмаила II, вступил на политическую арену четырнадцатилетним юношей. Когда в 1547 г. (954 г. х.) брат шаха Алкас-мирза взбунтовался и перебрался ко двору турецкого султана, юному Исмаилу было поручено вместо него правление Ширваном.

Ужасающее впечатление на турок оказала решительная победа кызылбашских войск под командой Исмаил-мирзы над османским правителем Эрзурума, заносчивым Искендер-пашой в 1552 г. (969 г. х.). В этой битве Исмаилу удалось осуществить тактический маневр, заключаю-щийся в том, что кызылбаши путем ложного отступления вывели противника из крепости, а в открытом поле окружили и наголову разгромили войска Искендер-паши, взяв в плен ряд знатных сановников турецкого султана.

Этот блестящий триумф Исмаила принес ему славу непобедимого полководца. Турки, на которых он наводил ужас своими дерзкими молниеносными рейдами, назвали его «безумным Исмаилом» («Дели Исмаил»). Даже через двадцать лет предание о подвигах Исмаила было еще живо в Азербайджане и, как бывает в этих случаях, непомерно приукрашивалось.

Исмаил, не спрося шаха, послал правителям областей письма с требованием, чтобы они немедленно собрали войска и в нарушение Амасийского договора вторглись в османские владения. Шах не мог одобрить подобные опасные признаки неповиновения, тем более, что еще свежи были в его памяти тяжелые удары, нанесенные ему родными братьями Алкасом и Самом. К тому же шаху хорошо была известна популярность его сына в среде кызылбашских воинов. Логично предположить, что Тахмасиб серьезно опасался того, что Исмаил стремится отстранить его от престола и занять его место.

Опасаясь дальнейшей деятельности Исмаила, Тахмасиб немедленно

послал в Герат начальника своей гвардии (курчибаши) Севиндик-бека Афшара с приказом отстранить Исмаила. На его место правителем Герата вновь был назначен Мухаммед-мирза. Севиндик-бек доставил Исмаила Масум-беку, который заключил его в крепость Кахкаха.

Исмаил томился в заключении 19 лет, 6 месяцев и 21 день. Двадцатичетырехлетним, полным сил и энергии переступил он порог крепости и смог выйти из нее только сорокатрехлетним человеком, надломленным морально и физически. Это заключение оставило непоправимый след в душе Исмаила, оно отразилось в дальнейшем в его нечеловеческих жестокостях во время короткого правления.

Во время пребывания Исмаила в Кахкаха произошло событие, которое предопределило волнения при дворе и раскол в среде знати после смерти шаха Тахмасиба.

В этой истории показательна трагическая судьба Ибрахима Мирзы.

В 1554 г. шах Тахмасиб назначил Султана Ибрахима-Мирзу правителем Мешхеда, одного из важнейших городов империи. Его назначение совпало с процессом женитьбы на Говхар-Султан-ханым, старшей дочери шаха Тахмасиба. Этот брак был совершён по решению шаха, или, по крайней мере, был одобрен им. Один из сефевидских историков сообщал, что она выделялась среди других образованностью, красотой и мудростью. Точную дату свадьбы определить невозможно, но ей предшествовали длительные празднества обручения в Мешхеде, на протяжении нескольких месяцев в течение весны и лета 1560 года.

Охлаждение Тахмасиба к живописи привело к тому, что многие его художники перешли на службу к Султану Ибрахиму-Мирзе в Мешхед. Также и щедрость Хумаюна и его репутация как великодушного покровителя искусств побудила многих художников к переходу на службу к Хумаюну, а запрет на употребление вина, введенный Тахмасибом, вынудил оставшихся призадуматься о новом месте работы. Но один лишь этот факт не мог послужить причиной массового недовольства и исхода художников из одной из величайших мастерских всех времен.

Очевидно, что самым главным фактором послужило то, что Тахмасиб утратил интерес к живописи, а это в свою очередь привело к увольнению большинства ведущих художников. По мнению Диксона и Велча, кульминацией охлаждения Тахмасиба к живописи стал указ «Об искреннем раскаянии» 1556 года, фактически явившийся запретом светского искусства. Тем самым, подчеркнув, что религиозные воззрения играли решающую роль в принятии данного указа. Данный указ не был принят из-за раскаяния Тахмасиба, а был адресован кызылбашским эмирам и сефевидской знати с целью отказа ими от мирских удовольствий и раскаяния в совершенных грехах. Личное «искреннее

раскаяние» Тахмасиба произошло в Джашарме в 1534 году и впоследствии было провозглашено в Герате. (3, т.1, с. 83)

За этим раскаянием последовал указ, запрещающий деятельность, противоречащую религии, такую как разведение голубей, сбривание бороды, игра на музыкальных инструментах танбуре и нагаре, а также указ о закрытии таверн, притонов, заведений, где употреблялись алкоголь и наркотики. Это привело к значительному сокращению доходов, поступающих в казну, убытки оценивались в 12 тысяч туманов за год. С учетом алчности Тахмасиба эти жесткие меры свидетельствовали об искренности его раскаяния.

Живопись не была запрещена исламом. Относительно живописи не было определенного мнения. Ортодоксальные суннитские богословы считали живопись попыткой подражать Создателю и возвратом к идолопоклонничеству. В свою очередь, шиитские богословы не рассматривали эти проблемы. Был ли запрет у шиитов на живопись, остается вопросом, однако Тахмасибу удавалось перехитрить закон. Примером тому может послужить случай, когда он аннулировал неприкосновенность, дарованную им принцу Баязиду, который вел безуспешную борьбу против своего отца Сулеймана Великолепного (1520-1566 годы правления) и брата Селима II (1566-1574 годы правления). Баязид потерпел поражение и вынужден был бежать к Тахмасибу, но еще до того, как прибыть в столицу Казвин ему удалось добиться неприкосновенности с помощью религиозной клятвы, которая исключала какие-нибудь оговорки или же отступления. Тахмасиб в своем дневнике лично признался, что ради хороших отношений с Сулейманом, с которым он впоследствии в 1555 году заключил мирный договор, вынужден был вернуть принца Баязида. Тем самым, нарушив обещание не убивать Баязида и не выдавать его отцу – султану Сулейману. Позже он оправдывал себя тем, что он выдал Баязида его брату Селиму, а не Сулейману. Позже, Баязид и его четверо сыновей были казнены по приказу Селима. (8, с. 58) Один из эпизодов этой истории отражен в миниатюре «Прием Тахмасибом турецких послов» из сборника документов «Баяз» 1602-1603 годов, хранящегося в РНБ в Петербурге.

Еще один из представителей Сефевидов пал жертвой дворцовых интриг. В хрониках рассказывается и о блестящих победах, одержанных над турками сыном Тахмасиба, наследным принцем сефевидского престола Хамза Мирзой. Известно, что после завоевания османами Ширвана сефевидский двор, не заинтересованный в войне с Османской империей, тем более в условиях сложной внутриполитической ситуации, пытался урегулировать ситуацию мирным путем, настаивая на соблюдении условий Амасийского договора. Но, поскольку эти попытки оказались безуспешными, оставался единственный выход – мобилизовав все силы, осуществить военный поход против османов.

80.000-ая объединенная сефевидская армия во главе с принцем Хамза

Мирзой и везирем Мирза Салманом, переправившись через понтонный мост на Куре 26 рамазана 986 г.х./26 ноября 1578 г. подошла к Шемахе . Окружив город со всех сторон, кызылбашские войска начали наступление с верхней части города, со стороны крепости Гюлистан и сломили сопротивление османов. Сохранился портрет Хамза-мирзы в албоме из галереи Фрир в Вашингтоне.

25 октября 1585 г. на берегу реки Фехусфендж произошло еще од-

но крупное сражение при личном участии Хамза Мирзы. По пути в Шамб-и Газан османские войска вновь были атакованы войсками Хамза Мирзы.

На фоне этих событий привлекает внимание личность Асафи паша. Сочинение этого османского автора «Шючайет-наме» Асафи паша, 994/1586 года. представляет для нас особый интерес потому, что вышло из-под пера не просто современника, а очевидца описываемых сцен.

В то время, когда Асафи вместе с Осман пашой поехал к крепости Габала, тогда находящейся в осаде, он был захвачен Сефевидами в плен в 1582 г. Его увезли в Казвин, заключили в тюрьму, а Хамза Мирза помог ему бежать. Это событие также отражено в миниатюре рукописи «Шючайет-наме» из Музея Топкапы в Стамбуле.

Фархад-паша, повторно назначенный главнокомандующим османской армии, в сентябре-октябре 1586 г. предложил сефевидам заключить перемирие. Вопреки сопротивлению кызылбашских эмиров, Хамза Мирза, реально оценивая ситуацию и рассчитывая получить мирную передышку, согласился на эти условия, но при этом он настаивал на обязательном выводе османских войск из Тебриза. Для этого по предложению Фархад-паши было решено послать одного из сефевидских принцев в Стамбул, которому, султан, возможно,«передаст Тебризский вилайет. Хамза-Мирза вымолил у них мир и принял условие османов отправить к ним в залог мира своего малолетнего сына Хейдар-Мирзу как номинального правителя Тебриза.

Однако планам Хамза Мирзы не суждено было осуществиться, поскольку недалеко от Гянджи он пал жертвой заговора высокопоставленных эмиров, недовольных его централистической политикой. Гибель этого самоотверженного сефевидского принца, возглавлявшего борьбу за отвоевание захваченных территорий, фактически означала прекращение дальнейшего сопротивления кызылбашских войск завоевателям.

Убийство Хамзы-Мирзы поставило шаха Мухаммеда в чрезвычайно затруднительное положение и вынудило его написать самое льстивое и самоуничижительное письмо, когда-либо адресованное Сефевидами в Высокую Порту. Проклиная Исмаила II за возобновление сефевидо-османской вражды, он признал господство османов над его владениями и попросил Мурада III даровать ему неоккупированную часть страны как наследственный

удел (ölkə). Но вскоре он был низложен и заменен своим младшим сыном Аббасом. Дальнейшие переговоры привели к осуществлению плана Хамза-Мирзы и, как и было ранее договорено, его четырехлетний сын Хейдар-Мирза был послан в Порту. Через несколько лет этот несчастный ребенок умер от чумы. Миниатюра «Торжественный въезд Хейдара-Мирзы в Стамбул в 1590 г.» из «Дивана» Махмуда абд аль-Баки (Нью-Йорк, Музей Метрополитен) отражает эпизод этой трагической истории.

История влиятельного вельможи Мирза Салмана неразрывно связана с судьбой Хамза Мирзы. Впервые при дворе новая политическая фигура Мирза Салман появился в последний период правления шаха Тахмасиба и был назначен управляющим дворцовым хозяйством. Ему удалось даже выдать свою дочь замуж за наследника престола Хамза-мирзу, а старшего сына Мирза Абдуллу сделать везиром царевича. Таким образом, Мирза Салман стремился к полной неограниченной власти.

Хотя Искендер Мунши в общем высоко отзывается об уме и способностях Мирзы Салмана как государственного деятеля, но отмечает также и то, что его происки, направленные против кызылбашских племен, срывали военное мероприятия и наносили ущерб интересам Кызылбашские эмиры узнали о кознях везира против них и решили убить его: Это случилось в Герате в 1583 г.

Диван Хафиза (Топкапы, Н.986) был создан в октябре 1581 г. для Мирзы Салмана. Миниатюры Дивана, по нашему мнению, отражают важнейшие события в политической карьере Мирзы Салмана. В каждой из четырех миниатюр в той или иной аллегорической форме присутствует сам визирь. Такова и отдельная миниатюра «Игра в човган» с его изображением с мячиком для игры.

Таким образом, к 1586—1589 гг. почти весь Азербайджан был постепенно занят армиями султана Мурада III. Пришедший к власти в Казвине новый сефевидский правитель шах Аббас I. ввиду тяжелого положения государства, поспешил продолжить мирные переговоры с Турцией, начатые еще Хамза-мирзой. Сефевиды были вынуждены принять жесткие условия султана, чтобы сохранить остальные свои владения. По условиям Стамбульского мира 1590 г. к османской Турции отошли, помимо Азербайджана, Армения, Грузия, а также западные области Ирана.

Список использованной литературы:

1. Эфендиев О.А. Азербайджанское государство Сефевидов в XVI веке. Баку, 1981.
2. Filiz Gagman and ZerenTanindi. "Remarks on Some Manuscripts from the Topkapi Palace Treasury in the Context of Ottoman-Safavid Relations."Muqarnas

8: 1996, pp. 132-148,
3. Dickson, M. B. & Welch, S.C., 1981. The Houghton Shahnameh, Cambridge: Harvard University Press.
4. Ottoman-persian relations. Under sultan Selim and shah Ismail I. Encyclopædia iranica. Originally Published: July 20, 2006.
5. Soudavar A. a Art of the Persian Courts: Selections from the Art and History Trust Collection. New York: Rizzoli, 1992. 423 pp.
6. Soudavar A., The early Safavids and their cultural interactions with surrounding states. Iran, 2000, p. 94. pp. 89 – 120.
7. Soudavar, A., 2013. "The Patronage of the Vizier Mirzā Salmān," Muqarnas, vol. 30, 213-34.
8. Soudavar A. Between the Safavids and the Mughals: Art and Artists in Transition. Iran 37, 1999, стр. 49-66.

Ağasəlim Əfəndiyev
Səfəvilər Tarixi XVI Əsr Azərbaycan Incəsənətində

Xülasə

Açar sözlər: *Səfəvilər dövləti, Şah Təhmasib, İbrahim-Mirzə, Ə.Cami, Həft Əvrəng.*

Miniatür sənəti illüstrasiyalarda Şərq ədəbiyyatının bütün zənginliyini əks etdirmişdir. Lakin, tamamilə səhv olaraq, belə bir səhv rəy formalaşmışdır ki, rəssamları özlərinə müasir olan dövr maraqlandırmırdı. Bu məqaləmizdə biz qarşımıza məqsəd qoymuşuq ki, reallığı bərpa edək və qöstərilmiş dövrün ən əhəmiyyətli epizodlarının əks olunduğu miniatürləri araşdıraq.

Agasalim Efendiyev
The history of Safavids in the Azerbaijan art of the 16th century

Summary

Key words: *Safavid State, shah Tahmasib, İbrahim-Mirza, A.Jami, Haft Awrang.*

The art of miniature reflects rich nature of oriental literature. But there is wrong opinion that artists were indifferent to contemporary events. The purpose of our article is to show the real situation and to represent several miniatures which depict important episodes of contemporary period – second half of 16th century.

Elfira Məlikova-Qurbanova

Azərbaycanda muzeyşünaslıq elminin formalaşmasında Milli Azərbaycan Tarixi Muzeyinin rolu (Milli Azərbaycan Tarixi Muzeyinin arxiv materialları əsasında)

Açar sözlər: *muzeyşünaslıq, muzey, tarix, arxiv, elm*

UOT 39

Muzeyşünaslıq muzeylərin tarixini və muzey fəaliyyətini tədqiq edən ictimai elmdir. Bu elmin tədqiqat obyektini muzeylər, tarixi abidələr və muzey profillərinə aid olan elmi fənnlər təşkil edir. Muzeyşünaslığın nəzəri sistemi, metodu və elmlər arasında yeri muzey fəaliyyəti nəticəsində formalaşmışdır. Əldə edilən məlumatlar: arxiv, kitabxanalar, muzey arxivləri, çap edilmiş elmi informasiya xarakterli materiallar əsasında yığılmışdır. Muzey əməkdaşları tərəfindən tərtib edilən – kitablar, kataloqlar, bələdçi kitabçaları, bukletlər muzeyşünaslıq elmi üçün yeni elmi informasiya bazası yaratmışdır. Son illərdə dünya miqyasında Muzeyşünaslığın sərhədləri genişləndirilmiş, elmin tərkib hissəsi müəyyən edilmiş, digər elm sahələri ilə qarşılıqlı münasibətlər əhatəli şəkildə öyrənilmişdir.

Azərbaycanda muzey işi tarixinin mərhələli şəkildə öyrənilməsi çağdaş muzeyşünaslığımızın əsas mövzularındandır. Muzeylərin strukturunda dövrlərin tələblərinə görə aparılan dəyişikliklər müxtəlif elmlərlə əlaqələrin yaranmasına səbəb oldu. Muzeyşünaslıq tədqiqatlarının sərhədləri xeyli genişləndi. Müəyyən dövrlərdə muzey kolleksiyaları, bir sıra elm sahələrində fundamental tətbiqi tədqiqatlarin aparılması ücün əsas bazaya çevrildi. Alimlərin muzey dəyərlərinə ayırdığı diqqət öz bəhrəsini verdi. Nəticədə "muzeylər elmi-tədqiqat mərkəzləri kimi" böyük status qazanaraq müxtəlif profillərə bölündü. Artıq iki əsirdən çoxdur ki, elmi-tədqiqat işi muzeylərin əsas aparıcı fəaliyyət istiqamətini təşkil edir. Muzeylər elmi-tədqiqat müəssisələri və mədəni-maarif mərkəzləri kimi öz təsdiqini artıq XVIII əsrin sonu - XX əsrin əvvəllərində tapmışdır. XX əsrin 20-ci illərindən başlayaraq muzeylərdə elmi-tədqiqat işi iki fərqli istiqamətdə aparılırdı. Belə ki, bir tərəfdən muzeylərə elmi-tədqiqat müəssisələri kimi baxılır, digər tərəfdən isə muzey

fəaliyyətinin "siyasi maarifləndirmə" çərçivəsinə salınması, yəni məhdudiyyətlərin qoyulması bir fakt olaraq qalırdı. Uzun müddət bu mövzu kəskin mübahisələrə səbəb olmuşdur. SSRİ məkanında muzeylərdə elmi araşdırmaların aparılmasına ayrılan diqqət İkinci vətən müharibəsindən sonrakı dövrlərdə daha da gücləndirilmişdir.

1950-ci illərin sonunda dünya muzeylərində elmi yaradıcılıq işlərinə dair keçirilən təcrübələrin təbliğ edilərək təhlilinin aparılmasına ciddi şəkildə cəhd göstərilirdi. 1968-ci ildə AFR-də (Almaniya Federativ Respublikası) İKOM tərəfindən keçirilən Ali konfransda "Muzey və tədqiqat işi" əsas mövzu olaraq müzakirə edildi. Artıq bu illərdə Qərbin bir sıra muzeylərinə elmi qurum kimi baxılırdı. Muzeylərdə professor heyəti qrup şəklində çalışırdı. Elmi-tədqiqat və Ali Təhsil müəssisələri ilə muzeylərin əlaqələri getdikcə gücləndirilirdi". Muzeylərdə tədqiqat işləri iki istiqamətdə aparılırdı:

1. Muzey kolleksiyası və abidələrin öyrənilməsi (daşınmaz abidələr, qeyri-maddi irs obyektləri). Bu tədqiqat işləri muzeydə qorunan qiymətli eksponatların aid olduğu elm sahələrinin mütəxəssisləri (tarix, etnoqrafiya, arxeologiya, biologiya, sənətşünaslıq və başqa elmlər) tərəfindən aparılırdı.
2. Tədqiqat yaradıcılığı prosesində üzə çıxan yeni mənbələr, elmi dövriyyəyə daxil olurdu. Elmi problem genişlənərək dərinləşirdi. Müxtəlif elmi profillərə aid olan muzeylərdə aparılan muzey tədqiqatları, adətən, gələcəkdə muzey işində (xüsusilə ekskursiya mətnində) istifadə edilməsi labüd olan istiqamətlərə yönəldilirdi. (8.s.257)

Yuxarıda təqdim edilən iki elmi istiqamət müasir dövrdə dünyanın ən qabaqcıl muzeylərində davamlı olaraq aparılır. Bu sırada Azərbaycan Milli Tarixi muzeyinin də adını çəkmək olar. 2020-ci ildə 100 illik yubileyini qeyd edəcək Azərbaycan Milli Tarix muzeyi bu illər ərzində qədim və zəngin tarixə malik olan xalqımızın milli-mənəvi dəyərlərini öyrənib yaşadaraq onların tədqiqi, təbliği və nümayişi ilə məşğul olur. Belə ki, Azərbaycanda muzey işinin tarixi haqqında materialların bir çoxu Azərbaycan Tarix muzeyinin Sənədli Mənbələr Fondunda saxlanır. Materiallar arasında hədsiz maraq yaradan sənədlər mövcuddur. Onlardan: Çarizm dövründə Azərbaycandan çıxarılmış muzey dəyərlərinin qaytarılmasını təsdiq edən sənədlər, diyarın tarixi haqqında olan əlyazmaları və fondda qorunan kitabların əldə edilməsinə dair məlumatları misal göstəmək olar. Bu məlumatlar 1920-ci illərin əvvəllərində muzey komitəsinin iclas protokollarında öz əksini tapır. Fond sənədləri içində xüsusi diqqət çəkən sənəd, ilk əlyazma şəklində olan, 1930-cu ildə dərc edilmiş Muzeyin "Bülleten"idir (3). Muzey işçiləri qarşısında "Muzeyi mədəni təkamül vasitələrindən birinə çevirmək" kimi ciddi tapşırığin qoyulması dövrün ruhunu qoruyub saxlayan faktlardan biridir. Eyni zamanda Muzeyin Sənədli Mənbələr fondunda 1920-ci illərdə Azərbaycan Dövlət Muzeyində qəbul edilmiş sərəncamlar, 1930-1940-cı illərə aid olan məlumatlar və hesabatlar, 1934-cü ildə Respublikanın ilk muzey işçilərinin birinci stenoqrafik hesabatı əhəmiyyətli dərəcədə

maraq doğurur və Azərbaycanın muzey işində olan dəyişikliklərin izlənməsinə şərait yaradır. Azərbaycan Dövlət muzeyinin (müxtəlif illərdə - Tarix muzeyi, Azərbaycan Xalqının Tarixi Muzeyi, Din Tarixi Muzeyi) 1934-1937, 1940-1941, 1944-1946-cı illərinə aid əmrlər kitabları. Məhz muzeyin əlyazmalar fondunda qorunan bu əmrlər digər mənbələrdə olmayan işçilər və onların yaradıcılığı, sərgilər və ekspozisiyalar, müxtəlif dövrlərdə muzey işinin ümumi istiqamətləri, ştat və struktur dəyişiklikləri, sonuncu repressiyalar haqqında tarixi sənədlərdir. Bu sənədlər, Azərbaycan SSR-i rəhbərliyinin – mədəni-maarif müəssisələrinin milliləşdirilməsi, incəsənət abidələrinin qeydiyyatı və qorunması, muzey əhəmiyyətli əşyaların (təsadüfü tapıntılar, xəzinələr daxil olmaqla) Azərbaycan Dövlət Muzeyinə təhvil verilməsi məsələləri ilə əlaqədar qəbul etdiyi əmrlər, dekret və sərəncamlar Respublikada muzey quruculuğunun ilkin mərhələsinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Bütün bunlar və müvafiq direktiv materiallar, 1920-ci illərdə qəbul edilmiş qərar və fərmanlar "Kommunist" və "Bakinskiy raboçiy" qəzetlərində dərc edilirdi. Məhz 1920-1940-cı illər arası Azərbaycan Dövlət muzeyinin yaradıcılığı haqda bu qəzetlərin tarixi, muzey əməkdaşlarının orada iştirakı, xüsusi muzeylərin muzey tərkibindən ayrılması, sərgilərin açılması, muzey işçilərinin respublikanın ictimai-siyasi həyatında aktiv iştirakı və s. göstərilir. 1940-1941-ci illərə aid Azərbaycan Tarixi muzeyinin arxivində - ikinci Vətən müharibəsi ərəfəsində "Azərbaycan Xalqının Tarixi Muzeyinin şəxsi ştatının tərkibi və smetası haqqında məlumat"lar adlı qovluqda 1 yanvar 1941-ci il tarixində muzeydə çalışan Ali təhsilli işçilər haqqında məlumat maraq doğurur.

1.Leviatov V.N. - ADU-nin məzunu, dissertant (elmi dərəcəsi yoxdur) elmi katib
2.Minkeviç N.V.-ANİ-nin məzunu, EAAF-nın aspirantı, arxealogiya fondunun müdiri.
3.Qazıyev S.M. – ATİ-nin məzunu, Tarix fondunun müdiri. Tarix elmləri namizədi.4.Paxomov Ye.A. – TAİ-nin məzunu,Numizmatika fondunun müdiri. elmi dərəcənin alınmasi üçün sənədləri SSRİ Elmlər Akademiyasına təqdim edilmişdir. 5.Kilçevskaya Z.A. – ADU-nun məzunu, Etnoqrafiya fondunun müdiri Elmi dərəcəsi yoxdur.
6.Tuzinkeviç Yu. T. – ADPİ-nun məzunu, kiçik elmi işçi.
7.Lev A.Ya. - ADPİ-nin məzunu, kiçik elmi işçi.
8.Kuntarovskaya Z.A. ADPU məzunu, kiçik elmi işmi.
9.İsmailov İ.M. AKNİ-nin məzunu, "Sosializm quruculuğu" şöğbəsinin müdiri
10.Quzinfiter İ.İ. ADU-nun məzunu, kiçik elmi işçi.
11.Qusakov B.M. Şərqşünaslıq İnstitutunun 3-cu kurs tələbəsi,kiçik elmi işçi.
12.Semyonova N.A. MHİ –nun məzunu, kiçik elmi işmi.
13.Şelokova Ye.M. ADU-nun məzunu, kiçik elmi işçi (9).

Azərbaycan Xalqının Tarixi muzeyinin Ali təhsilli mütəxəssisləri haqda verilən məlumat (1 yanvar 1941-ci il) kitabçasında belə nəticəyə gəlirik ki, on üç nəfərdən

yalnız iki nəfəri – 1.“Qədim Tarix” şöbəsinin müdiri Qazıyev Saleh Mustafa oğlu, 2.“Sosializm quruculuğu” şöbəsinin müdiri İsmayılov İsmayıl Mehti oğlu Ali təhsilli milli kadrlarımızdandır.

1937-ci ildə kütləvi repressiyanın ən yüksək kulminasiya zirvəsinə çatdığı dövrdə Azərbaycanın onlarla görkəmli, milli ziyalıları məhv edildi. Azərbaycan elminə ciddi zərbə vuruldu. Onlarla alimlərin içərisində muzey işçiləri də var idi. Onlardan: M.F.Quliyeva, B.Şapiro, A.İ.Abdullayev və başqaları həbs edildi. Muzeyin əmrlər kitabında onların tutduğu vəzifələrdən azad edilməsi haqda verilən əmrdə belə qeyd edilir: “İşdə törətdikləri hərcmərcliyə və işçilərlə apardıqları intriqaya görə”, ”xalq düşmənlərini qorumaq üçün yaydıqları antisovet fikirlərə görə”, “xalq düşməni kimi” və s. (1.s.115). Bu Azərbaycan tarixində baş verən ən agrılı və dəhşətli hadisələrindən yalnız biridir.

Əlbəttə, V.N.Leviatov, İ.Meşşaninov N.V.Minkeviç,Ye.A.Paxomov və s. bu kimi alimlərin Azərbaycanda arxeologiya elminin inkişafında əməyi böyükdür. Məsələn, Tarix Muzeyinin sənədli mənbələr fondunda 1940-cı il muzey yaradıcılığı haqda elmi katib V.Leviatovun geniş hesabatı var. Bu hesabatda “Qədim Azərbaycan” və “Qədim Azərbaycan qəbilələrinin Midiya dövlətinə birləşməsi” haqda məlumatlar araşdırılaraq təqdim edilir (Bu işi icra edən elmi işçilər – S.Qaziyev və Y.Şelokova olmuşdur). Qədim Tarixi dövr üzrə planın, akademik İ.Meşşaninov tərəfindən yoxlanması göstərilir.

Azərbaycan muzeyşünaslığının tarixi, Azərbaycanda muzey işi tədqiq edilərkən bir sıra faktlarla rastlaşırıq. “Akademiyanın işciləri içərisində Azərbaycan elminin ən parlaq nümayəndələri: Əskərov Salman Mümtaz, Bəkir Çobanzdə, Vəli Xulufli, Abdulla Şərifov, İdris Həsənov, Əbdüləziz Salamzadə, Əli Mahmudzadə, Hənifə Zeynallı, Əziz Qubaydulin, Abdulla Tağızadə və başqaları 12493 saylı iş əsasında günahkar bildirilmiş, əksəriyyəti üçün ölüm cəzası kəsilmişdir “(1).

Azərbaycanın akademiya institutlarinda işçilərin azalması nəticəsində 1937-ci ildə Elmlər Akademiyasının Azərbaycan Filialında struktur dəyişikliyi baş verdi ki, bu da Tarix, Arxeologiya və Etnoqrafiya institutunun, Dil və Ədəbiyyat İnstitutu ilə birləşməsinə və yeganə Tarix, Dil və Ədəbiyyat İnstitutunun yaradılmasına gətirib çıxardı. Azərbaycan Tarix Muzeyi bu İnstitutun tərkibinə daxil olduqdan dərhal sonra, muzeyin işini idarə etmək üçün prof. A.R.Zifeldtin sədrliyi ilə daimi komissiya yaradılır. Komissiya tərkibinə Ə.Ələkbərov, Butnik-Sivarskiy, Ye.A.Paxomov, O.M.Sokolovckaya, Ağamir Məmmədov, M.İzmaylov kimi mütəxəssislər qəbul edilir. İşə başlayan Komissiyaya təklif edilir ki, dekada müddətinə Azərbaycan Tarix Muzeyinin plan və profili ilə əlaqədar olan məsələlərə baxılsın və Prezidiuma təsdiqə verisin (10). Artiq 1937-ci ildən başlayaraq Tarix Muzeyi Azərbaycan tarixinə aid olan əşyavi dəlilləri, sənədli və bədii materialları toplayaraq tədqiq edən respublika elmi-tədqiqat və elmi-maarifləndirmə müəssisəsinə çevrildi. Muzeyin Tarix İnstitutu ilə planlı şəkildə birgə işinin aparılması nəticəsində böyük arxeoloji tədqiqatlar başladı. Muzeyin bəzi qocaman işçilərindən (muzeydə qalmaq şərti ilə)

İ.Cəfərzadə və Ye.Paxomov Tarix İnstitutuna işə qəbul edildi. 1938-ci ildə arxeoloji qazıntıların nəticəsində məhz muzey əməkdaşları tərəfindən epiqrafik abidələrin elmi araşdırılması istiqamətində işlər başladı. Nəticədə, Azərbayacanın orta əsrlər Tarixi haqqında yeni səhifələr açıldı. Muzey kollektivi Azərbaycan tarixi ilə əlaqədar ekspozisiyanın təşkili üçün fondların yeni eksponatlarla zənginləşməsinə böyük əmək sərf etmişlər. Belə ki, təkcə 1938-ci ildə muzeyin bütün fondlarına 6321 ədəd eksponat daxil oldu (5).

Elmlər Akademiyası Azərbaycan Filialı tərkibində olan Muzeyin elmi işlərini nizama salmaq üçün, Akademiyanın Prezidiumu III beşilliyin iş planını müzakirə edərkən, 21 may 1937-ci ildə qəbul etdiyi fərmana əsasən Azərbaycan Tarix Muzeyinin elmi iş planını Akademiyanın Tarix İnstitutunun planına daxil edir. 23 iyun 1937-ci ildə "muzeylərin böyük siyasi və mədəni-maarifçilik əhəmiyyətini nəzərə alaraq respublikada" Azərbaycan Xalq Komissarlar Soveti "Muzeylər evi"nin yaradılması haqda fərman qəbul etdi(4).Arxiv materiallarına əsasən belə nəticəyə gəlmək olar ki, Tarix Muzeyinin elmi prosesini məhz, bu tarixi dövrdən başlayaraq təhlil edərək, qiymətləndirmək olar.

Azərbaycan üçün ziddiyyətli olan məhz bu dövrdə Muzeyşünaslıq elminin fundamental bazası yaradılmışdır. Qeyd etmək lazımdır ki, 1938-ci ildə Tarix, Dil və Ədəbiyyat İnstitutunun rəhbərliyinin hesabatından məlum olduğu kimi, 1939-cu ilin yanvar ayından əməkdaşların qarşısına qoyulan məsələlərin həlli bir qədər də genişləndirildi. Tərkibində Azərbaycan Xalqının Tarixi muzeyi fəaliyyət göstərən İnstitut, əvvəldə olduğu kimi iki ayrı instituta bölündü: 1)Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu, 2) Nizami adına Ədəbiyyat və dil İnstitutu. Bununla əlaqədar, əvvəllər də muzeyin tərkibində olan Ədəbiyyat-əlyazmalar şöbəsi, Ədəbiyyat İnstitutuna verildi. İnstitutun bazasında M.F.Axundov adına Azərbaycan Ədəbiyyatı Tarixi Muzeyi yaradıldı (7. s.11).

Respublikada aparılan hər bir elmi yeniliklər "Sovetskiy muzey", "Narodnoye prosveşeniye", "Mədəni-maarif", eyni zamanda 1930-1960-cı illərdə Azərbaycan SSR Elmlər Akademiyasının "Xəbərlərində" və Azərbaycan Tarix Muzeyinin elmi əsərlərində "Azərbaycan tarixinə dair materiallarda" işıqlandırılır. Buna misal olaraq M.A.Qaziyevin 1960-cı ildə Azərbaycan SSR EA "Xəbərlər"ində "Azərbaycanda muzey işi tarixindən" adlı məqaləni göstərmək olar. Bu məqalədə Azərbaycanda muzey işinin başlanğıcı haqda, belə məlumat verilir: "Muzey işi və onunla əlaqədar olan diyarşünaslıq Sovet hakimiyyəti quruculuğundan dərhal sonra geniş miqyasda inkişaf etməyə başladı"(6). İlk dəfə olaraq məhz bu məqalədə 1954-1960-cı illərdə muzeylərin elmi-maarifçilik yaradıcılığı haqda qısa olsa da maraqlı məlumatlar verilir. Azərbaycanda muzey quruculuğu işinin tarixi haqda daha geniş və müfəssəl məlumatlar ilk dəfə olaraq tarixçi alim Valentin Yakovleviç Qarnik tərəfindən ciddi tədqiq edilmişdir. Belə ki, 1968-ci ildə Azərbaycan Tarixi muzeyinin əsərlər toplusunun VII cildində V.Y.Qarnikin "Организация

характер краеведения и краеведческих музеев в Азербайджане в 20-х гг."adlı elmi məqaləsi çap edildikdən sonra, ("20-ci illərdə Azərbaycanda diyarşünaslıq muzeylərinin təşkili və diyarşünaslığın xarakteri" kimi tərcümə edilir) 1971-ci ildə "Oçerki istorii Muzeynoqo dela v SSSR" ("SSRİ-də Muzey işinin tarixinə dair oçerklər") adlı elmi əsərlər toplusunda ("Oçerki istorii muzeynoqo stroitelstva v Azerbaydıanskoy SSR (1920-1964)) "Azərbaycan SSR-də muzey quruculuğu tarixinə dair ocerklər"(1920-1964) adlı elmi əsəri çap edildi .

2005-ci ildə Tarixçi alim Aytən Baxşiyevanın "Из истории Музейного dela в Азербайджане" adlı (rus dilində) ("Azərbaycanda Muzey işi tarixinə dair" adlı monoqrafiyası çap edildi).

Ümumiyyətlə, Azərbaycan Tarixi Muzeyinin elmi arxiv sənədləri, Azərbaycanda muzey işinin başlanması və inkişafı ilə əlaqədar olan əsas məlumatları özündə əks etdirir. Bütün informasiyalar muzey işçiləri tərəfindən tədricən tədqiq edilməkdədir. Azərbaycanda Dövlət Muzeyinin yaradılmasının 80 illiyi ilə əlaqədar 2000-ci ildən başlayaraq AMEA Milli Azərbaycan Tarixi Muzeyinin təsisçiliyi ilə: "Milli Azərbaycan Tarixi Muzeyi" adlı elmi əsərlər toplusunun çap edilir.(2) Artıq ilk nüsxənin çapından on səkkiz il keçir. Bu topluda çıxış edən müəlliflər çox sayda elmi və arxiv materiallarına istinad edərək əhəmiyyətli faktları təqdim edirlər. Elm üçün gərəkli olan faktların, böyük zəhmət nəticəsində təqdimatı eyni zamanda arxiv sənədlərinin nizama salınmasına xidmət edir. Təqdim edilən məqalələrin demək olar ki, hər biri yeni tədqiqatların aparılmasına yönəldilən əsərlərin başlanğıcıdır. Ən mühüm faktlatdan biri də odur ki, dərc edilən toplunun sonunda Milli Azərbaycan Tarixi Muzeyinin il ərzində gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin problemlər üzrə hesabatları, Beynəlxalq əlaqələr, muzey əməkdaşlarının iştirak etdiyi ölkədaxili və beynəlxalq konfranslar və muzey əməkdaşlarının nəşr etdirdikləri elmi əsərlər haqqında məlumatlar verilir. Məsələn, Təkcə 2016-2018-ci illər ərzində muzey əməkdaşlarının iyirmidən çox kitabının və onlarla məqalələrin çap edilməsi böyük elmi potensialın armasından xəbər verir. Əlbəttə, arxiv sənədlərinin araşdırılması hələ də müəyyən çətinliklər yaradır. Çünki Azərbaycan tarixinə aid olan bir sıra dəyərli sənədlər Azərbaycanın xaricindədir. Məhz ona görə də AMEA-nın İnstitutlatı, Ali Təhsil müəssisələri və muzeylərdə planlı şəkildə aparılan elmi tədqiqatlar zamanı tarixi keçmişimizdən bu günümüzə gəlib çatan arxiv sənədlərinin sona qədər araşdırılmasına nail olmaq üçün böyük zaman və zəhmət tələb olunur.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:

1. Bünyadov Ziya. Qırmızı terror. – 1996.
2. Milli Azərbaycan Tarixi Muzeyi. Elmi əsərlər toplusu. 2016, 2017.
3. Бюллетень Азгосмузея №1. – Баку, 1930 (ФДИ МИА, ИНВ. № 287)
4. ГААР. Ф. 411, оп.28.
5. Ишханов Б.И.Музей Истории Народов Азербайджана. – Известия Аз.ФАН, № 3, 1939.
6. Казиев М.А. Из истории музейного дела в Азербайджана. – Известия АН Аз ССР, сон, 1960, № 2
7. Климов А.А. Институт Истории , языка и литературы. Известия АзФАН СССР, 1939.
8. Музейное дело России. Под общей редакцией. Каулен М.Е.
9. (ответственный редактор). Коссовой И. М.,Сундиевой А .А.- М., ВК. 2010. – 676 с.
10. Музей Истории Народов Азербайджана Аз ФАН. Сведение на специалистов с высшим образованием по сост. на 1-е января 1941г.
11. ЦНА НАНА (Центральный Научный Архив Национальной Академии Наук Азербайджана

Elfira Melikova

The role of the National Museum of History in the formation of Museum Science in Azerbaijan

Summary

Key words: *museum science, museum, history, archive, science*

Research work is one of the leading activities of the National History Museum of Azerbaijan. The historical development of the museum makes it possible to trace its constant connection with science. At certain periods, museum collections became the basic basis for fundamental and applied research of a number of areas of science.In the History Museum of Azerbaijan, large scientists worked and worked, important discoveries were made with in their walls and fundamental works were created. The museum is a scientific base for museum experts.

Эльфира Меликова

Роль Национального Исторического Музея Азербайджана в формировании науки Музееведения в Азербайджане

Резюме

Ключевые слова: *музееведение, музей, история. архив, наука*

Научно-исследовательская работа является одной из ведущих направлений Азербайджанского Национального Музея Истории. Научные публикации музея играют огромную роль в формировании музееведческой науки Азербайджана. Определённый период музейного коллекционирования играет главную роль в формировании основной базы исследования. Среди стен музея Истории ведутся научные работы и издаются важные публикации которые являются фундаментальными. Музей является научной базой для музейных экспертов.

Fərhad Cabbarov

Bir daha Hacı Zeynalabdin Tağıyevin Bakı şəhərinin su təchizatı probleminin həllində roluna dair

Açar sözlər: *H.Z.Tağıyev, şəhər duması, Şollar-Bakı su kəməri, xeyriyyəçilik*

UOT 94 (479.24)

Görkəmli Azərbaycan sahibkarı və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin fəaliyyətinin bir qolunu Bakı şəhərinin su təchizatı probleminin həllində yaxından iştirak təşkil edirdi. Qeyd etmək lazımdır ki, indiyədək bu fəaliyyətin əsasən bir istiqaməti - H.Z.Tağıyevin Şollar suyunun çəkilməsində rolu öyrənilmişdir. Halbuki, Şollar-Bakı kəmərinin tikintisindən xeyli əvvəl o, öz vəsaiti hesabına şəhərə kiçik su kəməri çəkdirmiş və şirinləşdirici su aparatının quraşdırılmasını maliyyələşdirmişdir.

Məlum olduğu kimi, H.Z.Tağıyevin böyük biznesə gəlişi XIX əsrin 70-ci illərinə təsadüf edir. O, öz kapitalını həmin dövrün ən gəlirli sahəsinə – neft işinə yatırır. H.Z.Tağıyevin maraqları Azərbaycan iqtisadiyyatının bütün sahələrini əhatə edirdi: o, gəmiçilik, gəmiqayırma, enerji sektoru, pambıq, toxuculuq, balıq, şərabçılıq sənayesinə, rabitəyə kapital qoymuş, böyük meşə massivlərinin sahibi, Bakı Tacir Bankının təsisçisi olmuş, torpaq sahələrinin alqı-satqısı üzrə əməliyyatlar aparmışdı. H.Z.Tağıyev təkcə uğurlu sahibkar deyil, həm də görkəmli ictimai xadim idi. O, dəfələrlə Bakı dumasının üzvü seçilərək, şəhərin infrastukturunun inkişafına yönələn bir çox layihələrin hazırlanmasında və həyata keçirilməsində iştirak etmişdir.

H.Z.Tağıyevin ictimai və sahibkarlıq faəliyyətində Bakının su problemi həmişə öndə duran məsələlərdən biri olub. Hələ 17 aprel 1874-cü ildə Rusiya imperatoru II Aleksandrın buyuruğu ilə H.Z.Tağıyev öz vəsaiti hesabına Bakıya su kəmərini çəkdirdiyinə görə üzərində "Səyinə görə" yazısı olan və Stanislav lentində boyundan asılan gümüş medalla təltif olunmuşdu (4, vv. 4-7 arx.). Həmin kəmər haqqında ətraflı məlumat olmasa da, bu faktın özü Hacının Bakı əhalisinin suya olan tələbatının təminində yaxından iştirak etdiyini, onun xeyriyyəçiliyinin bir qolunun bu sahədə də özünü göstərdiyini təsdiqləyir.

1878-ci ildə Bakıda "Şəhər Əsasnaməsi"nin tətbiqi ilə digər təsərrüfat məsələləri kimi, su təchizatı da ictimai idarəçiliyin sərəncamına keçdi. Ən kəskin problem kimi, su problemi Bakı dumasının iclaslarında daha çox müzakirə olunan mövzulardan idi. Və yeni təşkil olunan Bakı dumasının ilk iclaslarında şəhərin su təchizatı məsələsi ilə bağlı məhz H.Z.Tağıyev tərəfindən əməli təklif irəli sürüldü. 1879-cu il yanvarın 11-də dumanın iclasında çıxış edən H.Z.Tağıyev təklif etdi ki, şəhər idarəsinin sərəncamına 1000 rubl ayrılsın və həmin vəsait su mənbələrinin axtarışına, yeni su kəmərinin layihə işlərinin maliyyəşdirilməsinə sərf olunsun. H.Z.Tağıyevin təklifi dumanın qərarı ilə qəbul edilmiş (6, v. 7 arx.; 9, v. 57 arx.) və ona əsasən ən yaxşı layihə üçün elan edilən müsabiqə ilə əlaqədar Kür, Araz, Samur, Zuğulba, Altıağac və Göygöl mənbələrindən Bakıya su kəməri çəkmək üçün şəhər idarəsinə 40-dan çox təklif daxil olmuşdur. Lakin bu təkliflərin hamısı rədd edilmişdir, çünki onların reallaşdırılması üçün böyük xərc tələb olunurdu, şəhər özünüidarəsinin vəsaitləri isə çox kasad idi (14, s. 96).

XX əsrin əvvəllərində Bakıya torpaqaltı və bulaq suyunun çəkilməsi ideyası ortaya çıxanadək dumaya şəhərə müxtəlif mənbələrdən suyun çəkilməsi layihələri daxil olurdu. Bu layihələrdə Kür, Samur çaylarından, Zuğulba mənbəyindən suyun gətirilməsi təklif edilirdi. Bütün bu layihələrin öyrənilməsi, qiymətləndirilməsi və yekun rəylərin verilməsi üçün yaradılan komissiyalarda H.Z.Tağıyev iştirak edirdi. Bunların arasında 1881-ci ildə Zuğulba mənbələrinə baxış üçün təşkil olunan komissiyanı qeyd etmək olar. Həmin komissiya Zuğulba suyuna mənfi rəy verəndən sonra yeni tərkibi seçildi və H.Z.Tağıyev növbəti dəfə komissiyanın üzvü oldu (6, v. 7 arx.; 9, v. 57 arx.; 15, c. 39-41). H.Z.Tağıyev daimi su kəməri tikiləndək müvəqqəti təchizat mənbələri haqqında müzakirələrdə də iştirak və mümkün variant kimi Kür çayından gəmilər vasitəsilə suyun daşınmasını təklif etmişdir (sutkalıq təchizatın 90 min vedrə olmaq qarantiyası və bir vedrə suyun 0,7 qəpiyə satılması şərti ilə). Bu layihə qəbul olunmadı və qeyd etmək lazımdır ki, sonradan H.Z.Tağıyev Kür suyunun Bakıya gətirilməsinin ən ardıcıl əleyhdarlarından birinə çevrildi.

Şəhər dumasının əhalinin suya olan tələbatını həll etmək üçün gördüyü tədbirlərdən biri şirinləşdirici aparatın tikilməsi idi. Bu qurğu daimi kəmər çəkilənədək müəyyən dərəcədə su problemini həll etməli idi. Şirinləşdirici aparatın quraşdırılması kimi mühüm bir iş H.Z.Tağıyevin xeyirxah iştirakı ilə həyata keçirilmişdir. XIX əsrin 90-cı illərinin sonunda Rusiyada və dünyada məşhur mühəndis-texnoloq, alman əsilli Nikolay Yaqn Bakıda şirinləşdirici aparatın quraşdırılması təklifi ilə şəhər rəhbərliyinə müraciət etmişdi. Rusiya dövlətinin sifarişi ilə o, Krasnovodskda (indiki Türkmənbaşı) çoxistifadəli şirinləşdirici aparat inşa etmiş və mütəxəssislərin rəyinə görə, aparat praktik, alınan yaxşı keyfiyyətli suyun ucuzluğu baxımından olduqca qənaətli idi. Ümumilikdə mühəndis 9 şirinləşdirici aparata patent almışdır və onun ixtirası böyük rəğbətlə qarşılanmıdşır. Bakı şəhər idarəsi nəzdində fəaliyyət göstərən su təchizatı üzrə komissiyanın

1 yanvar 1898-ci il tarixli iclasında N.F.Yaqn ilə müqavilənin layihəsi müzakirə olundu.

Müqavilənin şərtləri belə idi:

1.Şirinləşdirici aparat istehsal gücü sutkada 50 min vedrəyədək olmaqla tikilirdi.

2.Şəhər sutkalıq istehlakın 40–60 min vedrə civarında, illik isə 18250 min vedrə olacağına təminat verirdi.

3.Konsessiyanın müddəti 8 ildir.

4. Suyun qiyməti bir vedrə üçün 0,5 qəpik müəyyən edilirdi.

5.Tikinti müddəti müqavilənin imzalanması vaxtından başlayaraq 7 ay müəyyən edilirdi (5, vv. 3-4).

Müqavilənin şərtləri razılaşdırılsa da, layihənin həyata keçirilməsi yubanmışdı. Məsələ burasındadır ki, N.F.Yaqn şirinləşdirici aparatı H.Z.Tağıyevin ayırdığı vəsaitə quraşdırmalı idi. Lakin naməlum səbəblərdən onlar arasında saziş baş tutmamış və N.F.Yaqn H.Z.Tağıyevin təklif etdiyi şərtlər əsasında kapital tapa bilmədiyindən müqavilənin şərtlərində dəyişikliklər etmişdir. Dəyişikliklər suyun qiyməti və şirinləşdirici aparatın tikintisi müddətinə aid idi. Əvvəlki qiymət 0,6 qəpiyə, tikinti vaxtı isə daha 1 ay artırılırdı (1, vv. 88 arx.-90).

Çox keçmədi ki, N.F.Yaqnın şirinləşdirici aparatının tikintisi məsələsi müsbət həllini tapdı. 1898-ci il martın 17-də şəhər dumasının iclasında bildirildi ki, H.Z.Tağıyev aparatın qıraşdırılması üçün kapital ayırmağa razı olmuş, buna görə də suyun qiyməti əvvəl şərtlərə uyğun – 0,5 qəpiyə olacaq (1, v. 142). Maraqlıdır ki, Yaqn aparatının inşası həlledici mərhələyə keçdiyi bir vaxtda dumanın iclasında yenə də müzakirələr başladı: şəhər üçün Zuğulba suyu, yoxsa şirinləşdirilmiş su daha yaxşıdır? Müzakirələr zamanı H.Z.Tağıyevin çıxışı olduqca diqqətəlayiqdir. Faktiki olaraq, bu çıxışda su probleminin dərhal həllinin vacibliyini, bu və ya digər layihənin uğuru və uğursuzluğu haqqında sonsuz və uzun-uzadı müzakirələrin şəhər əhalisi üçün ağır nəticələrini dərk edən bir nüfuzlu şəxsin və onun kimi düşünən ictimai xadimlərin mövqeyi əks olunmuşdur. H.Z.Tağıyev öz mövqeyini belə ifadə etmişdir: "...su təchizatı kimi olduqca mühüm bir iş daim ləngidilir. Bunun da səbəbi odur ki, şəhərin maraqlarından daha çox ayrı-ayrı şəxslərin maraqlarına üstünlük verilir, nəticədə isə şəhərə əhəmiyyətli dərəcədə maddi ziyan dəyir. Komissiyanın təklif etdiyi şirinləşdirilmiş su öz keyfiyyətinə görə Zuğulba suyundan qat-qat üstündür. Zuğulba suyu xalq arasında "qara su" adı ilə tanınır və daimi istifadə zamanı hətta heyvanlar üçün də zərərlidir". Söylədiklərini əsaslandırmaq üçün H.Z.Tağıyev belə bir misal göstərdi ki, tikdirdiyi toxuculuq fabrikinə Zuğulba suyunu çəkdirmək onun üçün daha əlverişli olsa da, o, şirinləşdirici aparat quraşdırır, çünki istəmir ki, Zuğulba suyundan istifadə edən fəhlələri xəstəliklərə tutulsunlar (1, v. 143-143 arx.).

Nəhayət, 1898-ci il noyabrın 28-də şəhər idarəsi ilə "Artur Koppel" səhmdar cəmiyyəti arasında Yaqn sistemli şirinləşdirici aparatın tikintisi haqqında müqavilə imzalandı (12, v. 1-1 arx.; 13, vv. 4, 74; 10, v. 120) və növbəti ilin avqust ayında

aparat fəaliyyətə başladı. Beləliklə, H.Z.Tağıyevin maliyyə dəstəyi ilə tikilən şirinləşdirici aparat vasitəsilə şəhərin su təchizatında yaranan gərginlik müəyyən dərəcədə azaldıldı.

XIX əsrin son 20 ili ərzində Bakı şəhər özünüidarəsi su təchizatının yaxşılaşdırılmasına 32- min rubldan artıq vəsaiti xərcləmiş (21, c. 106), lakin bununla belə, Bakının su problemi yenə də öz həllini tapmamışdır. Sonu görünməyən müzakirələr, lazımi vəsaitlərin çatışmazlığı, əlverişli təkliflərin verilməməsi, bəzən isə bürokratik əngəllər, şəhər idarəsinin və dumanın belə bir ciddi məsələyə canıyananılıqla yanaşmaması son nəticədə Bakı əhalisi üçün ağır problemlər yaradırdı. Nəhayət, su təchizatı üzrə komissiyanın 3 avqust 1899-cu il tarixli iclasında su kəməri layihəsinin tərtibi üçün məşhur ingilis mühəndisi Uilyam Lindleyin Bakıya dəvət olunması qərara alındı (7, v. 14).

1899-cu ilin oktyabrında Bakıya gələn U.Lindley Quba qəzasında və Samur dairəsində oldu. İlkin tədqiqat nəticəsində o, belə qənaətə gəldi ki, həm torpaqaltı, həm də bulaq suyunun axtarışlarını aparmaq lazımdır. Bakıya qayıdan U.Lindley 1899-cu il dekabrın 18-də su təchizatı üzrə komissiyanın iclasında məruzə ilə çıxış etdi. O, qeyd etdi ki, "...Bakı şəhəri üçün ən yaxşısı torpaqaltı və bulaq sularından təchizatdır, texniki, keyfiyyət və kəmiyyət baxımından yalnız torpaqaltı və bulaq suları Bakı üçün arzuolunandır" (10, v. 69-69 arx.). U.Lindley inadla sübut edirdi ki, Qusarla Xəzrə arasındakı yüksək düzənliklər Şahdağın və Şahbuzdağın zirvələrindəki qarların əriməsindən və bu ərazidə çoxsaylı yağışların yağmasından yaranan torpaqaltı sularla çox zəngindir.

Bakı şəhər duması torpaqaltı suların axtarışı haqqında məsələni müsbət qarşılasa da, eyni zamanda bu layihəyə dəstək vermədi. Duma üzvlərinin əksəriyyəti Kür su kəmərinin tərəfdarları kimi çıxış etdi. Ona görə də şəhər özünüidarəsi U.Lindleyə Kür və Samur çaylarından kəmərin çəkilməsi üçün axtarışlar aparmağı və layihələr hazırlamağı tapşıraraq, komissiyanın torpaqaltı və bulaq suyunun axtarışları üçün 150 min rublun ayrılması haqqında təklifini rədd etdi. U.Lindleyin göstərdiyi yerlərdə torpaqaltı suların sınaq qazıması üçün 30 min rublun ayrılması haqqında komissiyanın vəsatəti də təmin olunmadı (10, v. 69-69 arx.).

Buna baxmayaraq, dumada U.Lindleyin təklifinə dəstək verənlər də var idi. Dumanın üzvü H.Z.Tağıyev torpaqaltı və bulaq suyunun çəkilməsinin qatı tərəfdarı idi. Özünün bu məsələyə münasibətini o, şəhər idarəsinə yazdığı 22 iyun 1901-ci il tarixli ərizədə belə ifadə etmişdir: "Təsadüfən öyrəndim ki, Bakı şəhər duması özünün 19 iyun tarixli iclasında mühəndis Lindleyin gələcək Bakı su kəməri üçün torpaqaltı suyun axtarışı məqsədilə təcrübə buruqlarının sınaq qazımasına dair təklifini müzakirə edərək... tələb olunan məbləği ayırmaqdan imtina etmişdir. Mən, buranın köhnə sakini kimi, doğma şəhərin maraqlarını qəlbimə yaxın bilərək və torpaqaltı bulaq suyunun çay suyundan, xüsusən də Tiflisin imtina etdiyi daim çirkli Kür suyundan və ya yenə də çirkli Samur suyundan hər zaman daha üstün olduğuna

əmin olaraq, şəhər idarəsindən xahiş edirəm ki, mühəndis Lindleyin təklif etdiyi torpaqaltı suyun axtarışları üzrə işləri mənim hesabıma aid edilsin. Bu məqsədlə mən... iyirmi beş min rubl ayırıram..." Şəhərə borc şəklində ayrılan bu vəsaitin şərtini H.Z.Tağıyev öz ərizəsində belə izah etmişdi: əgər işlər uğurla nəticələnərsə və U.Lindley Quba qəzasındakı Şahdağın ətəyində içməli su mənbələrini taparsa, onda şəhər idarəsi həmin 25 min rublu H.Z.Tağıyevə geri qaytarır. Əks halda o, bu vəsaitdən imtina edirdi. Məhz bu ərizədə H.Z.Tağıyev sonralar məşhur kəlama çevrilmiş sözlər işlətmişdir: "bu [Şollar – *F.C.*] suyun bol ehtiyatlara malik buzlaqlı Şahdağın mövcud olacağı əbədi zamanlara qədər şəhəri təmin edə biləcəyinə tam əminəm" (11, vv. 77-78).

Lakin H.Z.Tağıyevin təklifi şəhər özünüidarəsi tərəfindən rəğbətlə qarşılanmadı. 1901-ci il sentyabrın 20-də ərizəyə baxan su təchizatı üzrə komissiya hər hansı qərar çıxarmaqdan imtina etmiş və məsələni dumanın müzakirəsinə verməyi qətiləşdirmişdir. Komissiyanın bu addımı atmağa vadar edən səbəb isə dumanın ümumiyyətlə torpaqaltı su axtarışlarını qadağan etməsi idi (10, vv. 96 arx.-97).

Nəhayət, oktyabrın 9-da keçirilən iclasda Bakı şəhər duması H.Z.Tağıyevin 22 iyun tarixli ərizəsini müzakirə etmişdir. H.Z.Tağıyevin təklif etdiyi 25 min rublu minnətdarlıqla qəbul edən duma şəhərin torpaqaltı sudan istifadə etmək niyyətində olacağı təqdirdə pulu qaytarmağı öhdəsinə götürdü (8, v. 77). Bu cür qeyri-dəqiq cavab isə H.Z.Tağıyevin narazılığına səbəb olmuşdu. Şəhər başçısı M.A.Belyavskiyə yazdığı məktubda o, öz fikrini belə izah edirdi: "...Mənim təklifimi müzakirə edən duma gələcəkdə anlaşılmazlıqların olmaması üçün (!!) onu qəbul etməyi mümkün saymış, lakin bu şərtlə ki, əgər ictimai idarə Bakı şəhərinin təchizatı üçün bulaq (torpaqaltı) suyundan istifadə edərsə, o zaman təklif etdiyim 25000 rubl mənə geri qaytarılacaq. Belə çıxır ki, əgər şəhər əhalisini tam təmin edə biləcək qədər su aşkar olunarsa, lakin ictimai idarə hər hansı səbəbdən bu sudan istifadə etmək istəməzsə, verdiyim 25000 rubl mənə geri qaytarılmayacaq. Belə şərtlərlə mən razılaşa bilmərəm, çünki ianəyə bərabər bu addım... heç bir ianəyə ehtiyacı olmayan böyük şəhər üçün xəcalət deməkdir; əhalinin maraqları naminə şəhərin yaxşı, sağlam suyun tapılmasına onlarla min rubl sərf etməyə tam imkanı çatır..." (8, v. 81).

Qeyd etmək lazımdır ki, H.Z.Tağıyev sonadək torpaqaltı və bulaq suyunun çəkilməsi üçün Gildə və Şollarda axtarışların aparılmasının qatı tərəfdarı kimi çıxış edirdi. Şəhər idarəsində, dumada, mətbuatda U.Lindleyin axtarışları sərt tənqid olunanda, onların səmərəsizliyi, Kür və Samur suyunun daha əlverişliliyi haqqında mübahisələr gedəndə H.Z.Tağıyev ardıcıl olaraq bu fikirlərə qarşı etiraz etmişdir. Bu baxımdan onun şəhər dumasının 1904-cü il 18 may tarixli iclasında Şollarda və Gildə U.Lindleyin apardığı tədqiqatların müzakirəsi zamanı söylədikləri maraq doğurur. H.Z.Tağıyev deyirdi: "Çox təəssüf ki, biz 15 il ərzində bu məsələni həll edə bilmirik. Nədənsə, biri belə istəyir, digəri başqa cür, hər kəs öz məqsədini güdür və

onlara tamamilə tanış olmayan iş haqqında danışırlar. Əgər əmin olublarsa ki, orada [Gildə və Şollarda – *F.C.*] yaxşı su var, onda bizə Kür və Samur gərək deyil. Tiflisdə vərəm olanda, küçələri Kür suyu ilə sulamağa icazə vermirdilər. Heç bir məsələ qaldırmaq lazım deyil [iclasda U.Lindleyin axtarışlarının səmərəsizliyi haqqında məsələnin qaldırılması təklif olunmuşdu – *F.C.*] və mən dumadan işi ləngitməməyi xahiş edirəm. Gil torpaqaltı suyu haqqında necə qərarlaşdınızsa, onun üzərində də dayanın" (2, v. 125).

H.Z.Tağıyevin U.Lindleyi müdafiə etməsini daha bir nümunədə görmək olar. Keçmiş Bakı şəhər başçısı A.İ.Novikov öz xatirələrində dumanın iclaslarının birində Şollarla bağlı debatları təsvir edərkən yazırdı: "...Qızğın mübahisələr gedir, əleyhdarlar mədəni insanlar olsalar da, onların dəlilləri zəifdir. Savadı az olan, qatı lindleyçi Tağıyevin əzəmətli siması seçilir. Uzun sürən mübahisələrdən sonra əleyhdarlar güzəştə getmirlər. Lindley dediyinin üstündə möhkəm dayanır.

- Lindleyin yerində mən olsam, - deyir Tağıyev, - Bakını çoxdan atıb gedərdim. Özləri özlərinə xeyir istəmirlər. Onun özgə işində inadına heyranam" (20, c. 104).

Həqiqətən də, H.Z.Tağıyev U.Lindleyin apardığı Gil və Şollar axtarışlarını ən düzgün və səmərəli hesab edirdi və tarix onun yanılmadığını təsdiqlədi. Şollar kəməri artıq istifadəyə veriləndən sonra keçmiş Bakı şəhər rəisi N.V.Rayevski H.Z.Tağıyevə yazacaqdı: "...məni Bakıya işləməyə çağırarkən dediyiniz sözləri xatırlayıram: "...su, su, Şollar – budur bizim əsas işimiz"" (19, c. 4-5).

Maraqlıdır ki, Şollar kəmərinin tarixindən bəhs edən bəzi müəlliflər bu layihənin həyata keçirilməsində H.Z.Tağıyevin rolunu həddən artıq şişirdərək, az qala layihənin uğurla nəticələnməsini sırf onun adıı ilə bağlayırlar. Bəzən publisistik yazılarda, mətbuatda, elektron KİV-lərdə və hətta elmi ədəbiyyatda belə bir fikirlərə rast gəlmək mümkündür ki, Şollar-Bakı kəməri H.Z.Tağıyevin maliyyə vəsaiti hesabına tikilib, kəmərin baş mühəndisi Uilyam Lindleyi Bakıya Hacı dəvət edib və nəhayət, 1917-ci il yanvarın 22-də kəməri işə salmaq şərəfi H.Z.Tağıyevə nəsib olub. Sözsüz ki, Şollar-Bakı kəmərinin gerçəkləşməsində böyük xeyriyyəçinin rolu danılmazdır və yuxarıda bu haqda ətraflı bəhs edildi. O, həqiqətən də şəhər dumasında Şollar mənbəyində axtarışların aparılmasına, U.Lindleyin işlərinə daim dəstək nümayiş etdirmiş, müəyyən texniki işlərin görülməsinə maliyyə vəsaiti ayırmış, su kəmərlərinin çəkilməsi təcrübəsini öyrənmək üçün məxsusi olaraq Parisə səfər etmişdir. Onun yüksək nüfuzu ilə hesablaşaraq, Şollar-Bakı kəmərinin tikintisinə xüsusi nəzarət funksiyasını həyata keçirmək üçün yaradılan Nəzarət komissiyasının fəxri sədrlyini H.Z.Tağıyevə həvalə etmişdilər.

Lakin Şollar kəməri tək bir milyonçunun, o cümlədən H.Z.Tağıyevin maddi imkanları xaricində olan bir layihə idi. Qeyd edək ki, 1911-ci ilin məlumatına görə H.Z.Tağıyevin varidatı 16 mln. rubl təşkil edirdi (3, v. 199 arx.), Şollar su kəmərinin tikintisi isə xəzinəyə ümumilikdə 31,3 mln. rubla başa gəlmişdir (21, c. 41). Kəmərin inşası davam etdiyi 6 il ərzində şəhər tərəfindən 35 müqavilə imzalanmış

və 170-dən artıq iri sifarişlər verilmişdir (21, s. 34). Kəmərin inşası üçün buraxılan istiqrazların ümumi məbləği 32 mln. rubla yaxın idi (21, s. 41). Beləliklə, Şollar-Bakı su kəməri bütövlükdə təsərrüfat üsulu ilə həyata keçirilən layihə olmuşdur.

O ki qaldı, H.Z.Tağıyevin Şollar-Bakı kəmərinin açılış mərasimində kranı açmaq şərəfinə layiq görülməsinə, o dövrün mətbuatı birmənalı olaraq bu faktı təsdiq etmir. Buna misal kimi, H.Z.Tağıyevin özünün sahibi olan "Kaspi" qəzetində açılış mərasimi haqqında verilən qeydi göstərmək olar. Qəzet yazırdı ki, 1917-ci il yanvarın 21-də Krasnovodsk (indiki S.Vurğun) küçəsində suyun ilk şırnağı axmağa başlamış (16, c. 3), yanvarın 22-də, bazar günü isə, Şollar-Bakı su kəmərinin baş inşaatçısı U.Lindley Bakı şəhər başçısı L.L.Bıçın, duma, şəhər idarəsi üzvlərinin və çoxsaylı izdihamın iştirakı ilə "Şamaxinka" adlı ərazinin arxasındakı əsas təzyiq anbarına Şollar suyunu buraxdı. Su kəmərin mərzləşdirmə kamerasından yüksək təzyiqlə 4,5 mln. vedrəyədək tutumu olan bu nəhəng qurğunu doldurmağa başladı (17, c. 3). Ehtimal etmək olar ki, H.Z.Tağıyev ümumiyyətlə Şollar suyunun Bakıya buraxılması mərasimində iştirak etməmişdir, çünki Hacı o zaman xəstə idi. Bu barədə mətbuatda da məlumat var. Belə ki, "Kaspi"nin 1917-ci il 17 fevral tarixli nömrəsində yazılmışdır ki, Nuxa müsəlman xeyriyyə cəmiyyətinin sədri Əmircanov H.Z.Tağıyevə sağalması münasibətilə təbrik teleqramını göndərmişdir (18, c. 4).

Beləliklə, H.Z.Tağıyevin Bakı şəhərinin su təchizatı probleminin həllində fəaliyyəti əsasən 3 istiqamətdə özünü daha qabarıq göstərirdi: 1) öz vəsaiti hesabına su kəmərini çəkdirməsi; 2) müvəqqəti su təchizatı qurğusu olan şirinləşdirici aparatın tikintisinin maliyyələşdirilməsi; 3) Şollarda hidroloji-texniki axtarışların aparılması və oradan kəmərin çəkilməsinin lobbiləşdirilməsi, bu layihəyə maliyyə yardımı.

İstifadə olunmuş mənbə və ədəbiyyatın siyahısı:

1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi: fond 50, siyahı 1, iş 79.
2. Yenə orada: f. 50, siy. 1, iş 242.
3. Yenə orada: f. 169, siy. 65, iş 69.
4. Yenə orada: f. 314, siy. 2, iş 115.
5. Yenə orada: f. 389, siy. 4, iş 710.
6. Yenə orada: f. 389, siy. 7, iş 1.
7. Yenə orada: f. 389, siy. 7, iş 6.
8. Yenə orada: f. 389, siy. 7, iş 13.
9. Yenə orada: f. 389, siy. 7, iş 14.
10. Yenə orada: f. 389, siy. 10, iş 5.
11. Yenə orada: f. 389, siy. 10, iş 13.
12. Yenə orada: f. 389, siy. 12, iş 1.

13. Yenə orada: f. 389, siy. 12, iş 3.
14. Cəfərli C. Azərbaycanlı deputatların Bakı Şəhər Dumasında fəaliyyəti (1893-1917). Tarix elmləri namizədi elmi dərəcəsini almaq üçün dissertasiya. Bakı, 2004.
15. Известия Бакинской городской думы, 1915, № 5-6.
16. "Каспий", 23 января 1917 г., № 18.
17. "Каспий", 24 января 1917 г., № 19.
18. "Каспий", 17 февраля 1917 г., № 38.
19. "Каспий", 1 марта 1917 г. № 48.
20. Новиков А.И. Записки городского головы. СПб., 1905.
21. Оджагова К. Городское самоуправление в Баку в конце XIX-начале XX вв. Баку, 2003.
22. Отчет заведующего Отделом по постройке Баку-Шолларского водопровода инженера П.П. Фрезе. Баку, 1918.

Farhad Jabbarov

Once again about Haji Zeynalabdin Tagiyev's role in solving the problem of water supply in Baku

Summary

Keywords: *H.Z.Tagiyev,city counsil, Shollar-Baku pipeline, philanthropism*

It will right to stress that Shollar-Baku pipeline has right to stand in a row of great infrastructure projects realized in the XX country. Finally provided at the distance of hundred kilometers from the city, during difficult time of war period, adverse conditions Shollar nevertheless became the symbol of victory of engineering-technical ideas, human will and aspiration of all supporters of Shollar water. The article is about the role of H.Z.Tagiyev, both in laying on the water supply system and in solving the problem of water supply in Baku just before construction of the Shollar-Baku water supply system.

Фархад Джаббаров

Еще раз о роли Гаджи Зейналабдина Тагиева в решении проблемы водообеспечения города Баку

Резюме

Ключевые слова: *Г.З.Тагиев, городская дума, Шоллар-Бакинский водопровод, благотворительность*

Шоллар-Бакинский водопровод имеет полное право стоять в одном ряду с грандиозными инфраструктурными проектами, осуществленными в XX в. Проведенный на расстоянии сотен километров от города, в сложных условиях военного времени, при неблагоприятных условиях работы, Шоллар стал, тем не менее, символом победы инженерно-технической мысли, человеческой воли и стремления всех сторонников шолларской воды окончательно решить проблему водообеспечения Баку. В статье рассмотрена роль Г.З. Тагиева как в проведении водопровода, так и в решении проблемы водообеспечения города Баку накануне строительства Шоллар-Бакинского водопровода.

Fərhad Cabbarov

“Mənim üçün bu haqda düşünmək çətindir...”: H.Z.Tağıyevin qız məktəbinə məxsus pullar haradadır?

XIX əsrin sonunda Azərbaycan qızlarını ana dilində təhsilə cəlb etmək, onları hərtərəfli biliklərə, ailə və məişətdə bacarıqlara yiyələndirmək, eləcə də qabaqcıl Avropa mədəniyyəti ilə tanış etmək məqsədilə dünyəvi müsəlman qız məktəbinin yaradılması ideyası meydana gəldi. Bu ideyanın əsas hərəkətvericisi məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev oldu. Nəinki Azərbaycanda, eləcə də bütün islam aləmində ilk dünyəvi qız məktəbinin açılması böyük əks-səda doğurdu. Çoxları bu hadisəni müsəlman qadınının intibah dövrünün başlanğıcı, bütün islam dünyası üçün böyük hadisə kimi qiymətləndirirdi. H.Z.Tağıyev qız məktəbini açmaq haqqında fikrini ilk dəfə rəsmən 1896-cı ildə bildirmişdi. O, məktəbin tikintisinə 25 min, onun saxlanılmasına isə toxunulmaz kapital kimi 125 min rubl ianə etmiş və təhsil müəssisəsinə Rusiya imperatriçəsinin adının verilməsinə nail olmuşdu. 1901-ci il oktyabrın 7-də İmperatriçə Aleksandra Fyodorovna adına Bakı rus-müsəlman qız məktəbinin təntənəli açılışı oldu. Birinci il məktəbə 58 qız qəbul olunmuşdu, onlardan 35 nəfər pulsuz təhsil alırdı. Məktəb, onun yaradıcısı və fəxri hamisi H.Z.Tağıyevin sədrlik etdiyi Hamilər Şurası tərəfindən idarə olunurdu. Şagirdlərə Azərbaycan və rus dilləri, ilahiyyat, riyaziyyat, coğrafiya, rəsmxətt, musiqi, evdarlıq dərsləri keçilirdi. Pansion tipli bu təhsil ocağında qızlar üçün hər cür şərait yaradılmışdı: onlar gündə dörd dəfə yeməklə təmin olunurdular, məktəbin ayrıca xəstəxanası, mətbəxi, camaşırxanası, hamam otaqları, sanitar xidmətləri var idi. Təhsil ocağında qızların estetik tərbiyəsinə xüsusi diqqət yetirilirdi. Onları mütəmadi olaraq Tağıyev teatrına, kinoya aparırdılar, məktəbdə xor, ədəbiyyat və rəqs dərnəkləri fəaliyyət göstərirdi. H.Z.Tağıyevin 1918-ci ilə qədər fəaliyyət göstərən qız məktəbinin məzunları sonralar müxtəlif ixtisaslara yiyələnərək, Azərbaycanın ictimai həyatında mühüm rol oynadılar.

Lakin XX əsrin əvvəllərində baş verən mürəkkəb ictimai-siyasi hadisələr qız məktəbinin fəaliyyətinə də təsirsiz ötüşmədi. Birinci Dünya müharibəsinin başlanması ilə əlaqədar başqa şəhərlərdən şagirdlərin gəlişi, ərzağın gətirilməsi ilə bağlı çətinliklər ortaya çıxdı. Məktəb faktiki olaraq 1917-ci ilin payızından etibarən

öz fəaliyyətini dayandırdı. Məhz həmin təlatümlü dövrdə H.Z.Tağıyevin vaxtilə qız məktəbi üçün ianə etdiyi və banka qoyduğu pul (yuxarıda qeyd olunduğu kimi, həmin məbləğ 125 min rubl təşkil edirdi, lakin üstünə gələn faizlər hesabına 1917-ci ildə 262 min rubla bərabər idi) Bakıdan çıxarıldı və təhsil ocağı ona məxsus olan yeganə maliyyə fondundan məhrum oldu.

Bu barədə H.Z.Tağıyevin arxivdə qorunan məktubundan bəlli olur. Sənəd Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin 372-ci fondunun 1-ci siyahısında, 40 saylı işdə qorunub saxlanılır. Bakı Dairə Məhkəməsinin andlı müvəkkili A.K.Leontoviçə ünvanlanan, rus dilində yazılan həmin məktubda onun yazılma və göndərilmə tarixi göstərilməsə də, təxmini söyləmək olar ki, sənəd 1917-ci ilin sonu-1918-ci ilin əvvəllərinə aiddir. Məhz bu dövrdə Cənubi Qafqazda, o cümlədən Bakıda hakimiyyət dəyişiklikləri baş verir, siyasi anarxiya hökm sürürdü. Belə bir şəraitdə rus-müsəlman qız məktəbinə məxsus 262 minlik toxunulmaz kapital naməlum şəraitdə Bakıdan çıxarıldı. H.Z.Tağıyevin məktubunda nə yazılmışdı? Arxiv sənədinə müraciət edək:

"Möhtərəm cənab Aleksandr Konstantinoviç!

Mənim Bakıda yaratdığım rus-müsəlman qız məktəbi və onun nəzdindəki müsəlman qızlar üçün pedaqoji kurslar əsasən toxunulmaz kapital kimi ianə etdiyim 262000 rubldan əldə olunan gəlirlər hesabına fəaliyyət göstərir və inkişaf edirdilər. Həmin kapital 4 %-lik dövlət rentası şəhadətnamələrinə yatırılmış, məktəbin Hamilər Şurasının sərəncamında olmuş və saxlanılmaq üçün Dövlət Bankının Bakı şöbəsinə qoyulmuşdur.

Son dövrün hadisələri dövlət kassasının Bakıdan təxliyyəsinə gətirib çıxarmış, bununla bərabər Dövlət Bankının Bakı şöbəsində saxlanılan bütün şəxsi əmanətlər, o cümlədən yuxarıda adı çəkilən kapital da Bakıdan aparılmışdır. Həmin əmanətlərin harada saxlanıldığı və kimin ixtiyarında olduğu nə mənə, nə də Hamilər Şurasına məlum deyil və buna görə, həmçinin Sizə bəlli olan digər səbəblərə görə biz, həmin kapitalın Bakıya, mənim indiyədək sədri olduğum məktəbin Hamilər Şurasının ixtiyarına qaytarılması haqqında məsələ qaldırmaq iqtidarında deyilik.

Bakı rus-müsəlman qız məktəbi və nəzdindəki müsəlman qızlar üçün pedaqoji kurslar zehniyyət nurunu ətrafa yayan qızları yetişdirən müsəlman xalq maarifinin ilk gülüstanıdır. Həmin məktəbi bitirən müsəlman qızları öz biliklərini və maarifpərvərliklərini ailələrinə ötürür, ilk layla ilə, ana südü ilə birgə övladlarına öyrədirlər. Beləliklə, adı çəkilən məktəbin yetirmələri münbit zəmində zehniyyət və mənəviyyat toxumlarını səpirlər. Həmin zəmin xüsusən indiki dövrdə mənim xalqımım ehtiyac duyduğu maarifin tezliklə yayılmasına təminat verəcək. Məktəbin özünün yeganə möhkəm fondundan məhrum olması onun fəaliyyətini dayandırır, maarifin yayılmasını ləngidir. Müsəlman üçün, xüsusilə mənim üçün bu haqda düşünmək çətindir, çünki həmin maarif ocağı mənim çoxillik zəhmətim və vəsaitim hesabına yaradılmışdır.

Çox hörmətli Aleksandr Konstantinoviç! Bakı rus-müsəlman qız məktəbini adı çəkilən vəsaitdən məhrum etmək qərarını verənin müsəlman əhalisinə nə qədər böyük zərbə vurduğunu Sizin həssas ürəyiniz anlayar. Sizin xalqın əzablarına və hər bir ədalətsizliyə qarşı canıyananlığınız, yorulmaz ictimai faydalı fəaliyyətiniz bu işdə də dəstək verəcəyinizə məndə əminlik yaradır.

Buna əmin olaraq, mən, biz müsəlmanların məyusluğunu Sizə bildirir və çox xahiş edirəm ki, müsəlman cəmiyyətinin xeyrinə daha bir zəhməti öz üzərinizə götürün: Bakıdan, düşünürəm ki, yalnız tələsik təxliyyə nəticəsində çıxarılan 262000 rublluq toxunulmaz kapitalın Bakı rus-müsəlman qız məktəbinə qaytarılmasına dair harada və necə məsləhət bilirsinizsə, vəsatət qaldırın".

Təəssüflər olsun ki, arxiv sənədləri arasında H.Z.Tağıyevin ürək ağrısı ilə qaldırdığı məsələnin həll olunub-olunmaması, A.K.Leontoviçin vəsatətlə çıxış edib-etməməsi haqqında heç bir məlumat yoxdur və bu səbəbdən 262000 rubl vəsaitin taleyi indiyədək naməlumdur. Güman etmək olar ki, əlavə axtarışlar və tədqiqatlar Azərbaycanın təhsil tarixində özünəməxsus rol oynamış H.Z.Tağıyevin qız məktəbinin salnaməsində yeni faktları üzə çıxaracaq...

Санубар Касимова

К истории одной акции «каспийско - куринского акционерного пароходного общества» Г.З. Тагиева (из коллекции нмиа)

Ключевые слова: *Г.З. Тагиев, акция, Каспийско-Куринское общество, примечание, судовладельцы, флот, капитал.*

UOT 929.6

Вступление в XX столетие сопровождалось экономическим кризисом, который тяжело отразился на положении нефтяной промышленности Азербайджана. Мировой экономический кризис стимулировал концентрацию капиталов в Каспийском торговом флоте, а разорение недостаточно мощных транспортных фирм усилило тенденцию к объединению судовладельцев. Это обусловило стремление нефтепромышленников к монополизации морского транспорта.

Большая часть состава Каспийских нефтеналивных пароходов была построена в России. По роду собственности каспийские пароходы принадлежали торговым домам, акционерным обществам и отдельным судовладельцам. Крупными владельцами наливных пароходов являлись «Т-во Бр.Нобель», «Восточное общество», «Мазут», М.Б.Усейнов, Г.А.Дадашев и др.(4, с. 82) На создание Каспийского наливного флота были истрачены огромные деньги. Происходило укрупнение акционерных предприятий за счет прилива новых капиталов, в том числе и банковского капитала.

Почти 80% вывоза всех нефтепродуктов осуществлялось по Каспийскому морю.

Как известно, Г.З.Тагиев играл ведущую роль не только в добыче, но и в переработке (в частности, в выработке керосина) и транспортировке нефти. В 1903 году Г.З.Тагиев являлся главным пайщиком акционерного предприятия товарищества «Каспий», которое располагало пятью крупными наливными пароходами. Со временем, позиции «Каспия» стали ослабевать (3. с.75).. Г.З.Тагиев, продав фирму и объединившись с И.Велиевым (который имел три наливных парохода), учредил новое «Каспийско-Куринское акционерное

пароходное общество», с основным капиталом 2.000.000 рублей (1, с. 192). Открыв во многих городах агентства и конторы общества, построив нефтехранилища, он увеличил состав флота. В 1907 г. «Каспийско-Куринское акционерное пароходное общество» располагало 3 наливными пароходами, 2 товарно-наливными судами, 8 товарно-пассажирскими, 2 буксирными, всего - 15 судами с общей грузоподъемностью 516 млн. пуд, что составляло 5,7 % всех судов на Каспии (2, с. 36). Владения таким мощным сухогрузно-пассажирским, наливным и товарно-наливным флотом дало возможность конкурировать с крупными фирмами. В «Каспийское-Куринское акционерное пароходное общество» входили пароходы: «Або», «Баку», «Бакинец», «Горизонт», «Имам», «Искендеры», «Колона», «Кострома». «Кизил», «Агач», «Ленкоранец», «Лиза Соколова», «Мухсага», «Сальянец», «Туман», «Хорасан», «Конкум», «Нижний-Новгород», «Ахтуба», «Забурхиге», а также 4 баркаса, и 20 барж. Многие из судов были нефтеналивными (4, с. 158).

В Фонде материалов вспомогательных исторических дисциплин Национального музея истории Азербайджана под инвентарным номером 2348 хранится акция «Каспийско-Куринского акционерного пароходного общества», выданная Гаджи Зейналабдину Тагиеву.

Акция привлекает внимание своим индивидуальным значением и наличием полного комплекта купонов. Это говорит о том, что Г.З.Тагиев, не использовав дивиденды, увеличивал свой капитал.

Данный подлинник был подарен музею 21 июня 2013 г., жительницей города Баку Хейдаевой Назимой Сафиевной. Из-за неудовлетворительной сохранности, ценная бумага была направлена на реставрацию и консервацию в лабораторию музея, после чего было составлено ее подробное описание.

Акция состоит из трех частей, размером: 74 x 33 см, на лицевой стороне титульного листа акции содержатся обязательные надписи. В верхней части акции в центре имеется гербовый знак – аббревиатура слов: «М.Ф.(Министерство Финансов), С-т. П. (Санкт-Петербург)», вокруг по всей окружности слова: «Гербовый сбор уплачен». Оттиск печати круглый в узорной восьмиугольной рамке. Слева и справа от гербового знака в декоративном оформлении номер акции: «№1245». Под ними имеется надпись печатным крупным шрифтом на русском языке: «Каспийско-Куринское акционерное пароходное общество». Ниже мелким шрифтом слова: «Устав высочайше утвержден 24 января 1904 г.». Все это проведено продольной чертой. Под чертой указана цифра вложения: «Основной капитал «2.000.000 рублей», еще раз подчеркнутой продольной чертой. В центре листа крупным объемным шрифтом слово: «Акция», ниже «в двести пятьдесят рублей». Далее прописными русскими буквами и в скобках французскими буквами, слово – «Выдано», далее каллиграфическими, прописными, чернильными буквами

написано имя владельца: «Гаджи Зейнал Абдину Тагиеву». Под именем мелким печатным шрифтом надпись: «Примечание к § 23. Владельцы акций могут быть только русские подданные.». Далее в нижней части акции все надписи переведены на французский язык разделяющим каллиграфическим орнаментом русский текст от французского.

В нижней части акции с правой стороны подписи: «Председателя правления, члена правления, кассира», с левой стороны, на круглой печати, в центре надпись: «Куринско-Каспийское», по всей окружности: «Акционерное пароходное общество», под которой подпись бухгалтера. Все написано печатными буквами на русском и французском языках, подписи же выполнены от руки перьевой ручкой. В нижней части акции на русском и французском языках – «Баку» и дата – «1904». Весь титульный лист акции имеет водяной рисунок в виде ромбовидных, ажурных узоров, обрамленный в рамку восточного орнамента, в которой несколько фризовых рисунков образовывают общую композицию «коврового типа». Среди рисунков по бокам надписи: слева «Каспийско-Куринское акционерное пароходное общество», справа – то же самое на французском языке, вверху – «Акция в 250 рублей» и внизу тоже самое на французском языке.

На оборотной стороне титульного листа «Извлечения из устава» (на старо русском и французском языках):

«§24. Основной капитал общества назначается 2.000.000 рублей, разделенных на 8 000 акций, по 250 рублей каждая.

§30. На акциях означаются звание, имя и фамилия (фирма) владельца. Акции вырезываются из книги номерами по порядку и выдаются за подписью трех членов Правления, бухгалтера, и кассира с приложением печати Общества.

§31. К каждой акции прилагается лист купонов на получение на нем дивиденда в течении десяти лет; на купонах означаются номера акции к которым каждый из ним принадлежит, и года в последовательном порядке. По истечении десяти лет, владельцам акции имеют быть выданы новые листы купонов, в том же порядку, на следующие десять лет и т.д.

§32. Передача акции от одного лица другому делается передаточною надписью на акциях, которые при соответственном заявлении, должны быть предъявлены правлению общества для отметки передачи в его книгах. Само правление делает передаточную надпись на акциях только в случаях, предусмотренных в ст. 2167 т.Х.ч.1.Св.Зак; д.1900 ; и по судебному определению.

§34. Купоны не могут быть передаваемы отдельно от акции, за исключением купонов за текущий год; при передачи этих последних не требуются никаких передаточных надписей на купонах или заявлений о передаче их.

§35. Утративший акции или купоны к ним, за исключением купонов за

текущий год, должен письменно объявить о нем Правлению, со значением номеров утраченных акций или купонов. Правление производит за счет его публикации. Если по прошедшим со дня публикации, не будет доставлено никаких сведений об утраченных акциях или купонах, то выдаются новые акции или купоны, под прежними номерами и с надписью, что они выданы в замен утраченных. Об утрате купонов за текущий год Правление никаких заявлений не принимает, и утративший означенные купоны лишается право на получение по ним дивиденда.

§36. В случаи смерти владельца акции и учреждения над именем его опеки, опекуны, по званию своему, в делах Общества никаких особых прав не имеют и подчиняются, наравне с прочими владельцами акции, общим правилам его Устава.

§63, О времени и месте выдачи дивиденда Правление публикует всеобщее сведение.

§64, Дивиденд, не потребованный в течении десяти лет, обращается в собственность Общества, за исключением тех случаев, когда в течение земской давности считается по закону приостановленным; в таких случаях с дивидендными суммами поступают согласно судебному о них решению или распоряжению опекунских учреждений. На не полученные своевременно дивидендные суммы, хранящиеся в кассе Правления, проценты не выдаются.».

Далее, написано «Примечание», где многие слова стерты и не были прочитаны.

В нижней части листа название производства данной бумаги «Экспедиция заготовления государственных бумаг».

Текст охвачен орнаментальным фризовым рисунком по всему периметру листа.

Справа титульный лист акции соединен с корешком, где размещены надписи: название, номер, наминал, кому выдано, город, год и подпись бухгалтера. Корешок с титульным листом объединяет продольная вертикальная орнаментальная полоса, на которой крупным печатным шрифтом надпись: «Каспийско-Куринское акционерное пароходное общество». Рисунок водяного знака корешка отличается от рисунка титульного листа, на котором просматриваются соединяющие крупные геометрические цепи.

Слева к акции прикреплены неиспользованные талоны с 1904 по 1913 год на русском, а на оборотной стороне французском языках. На каждом талоне название общества, номер купона и год на получение дивиденда с подписью председателя правления Г.З.Тагиева. Водяной знак на талонах соответствует водяному знаку титульного листа.

Акция «Каспийско-Куринского акционерного пароходного общества», о которой шла речь в статье, может считаться уникальной, т.к. ее аналоги не были обнаружены при знакомстве с электронными коллекциями большинства музеев постсоветского пространства, а также на аукционах ценных бумаг. Мы

не исключаем возможности появления других именных акций Г.З.Тагиева, так как являясь нефтяным магнатом, он имел возможность приобрести сотни таких экземпляров, однако до нас дошла акция под номером 1245.

Список использованных источников и литературы

1. Акционерно-паевые предприятия России. М., 1913.
2. Гусейнова Д.С. Рабочие моряки Каспия. Баку, 1981.
3. Ибрагимов М.Дж. Предпринимательская деятельность Г.З.Тагиева. Баку, 1990.
4. Самедов В. Каспийский нефтеналивной флот (1874-1917). Баку, 2013.

Sənubər Qasımova

H.Z.Tağıyevin “Xəzər-Kür Səhmdar Gəmiçilik Cəmiyyətinin səhmi”nin tarixinə dair (MATM-nin kolleksiyasından)

Xülasə

Açar sözlər: *Hacı Zeynalabdin Tağıyev, səhm, Xəzər-Kür Səhmdar Gəmiçilik Cəmiyyəti, qeyd, gəmi sahibkarları, donanma, kapital.*

Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin Köməkçi Tarixi Fənn Materialları fondunda qorunan dəyərli materiallardan biri də görkəmli xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevə təqdim edilmiş Xəzər-Kür Səhmdar Gəmiçilik Cəmiyyətinin səhmidir.

Hacı Zeynalabdin Tağıyevin Azərbaycanın neft sənayesinə bəxş etdiyi töhfələr bu sahənin əsaslı irəliləyişinə təkan vermişdir.

1904-cü ildə H.Z.Tağıyev 2,000.000 rubl məbləğində olan ilkin kapital ilə yeni müəssisə - Xəzər-Kür Səhmdar Gəmiçilik Cəmiyyətini təsis etmişdir.

Məqalədə tarixi faktlara əsaslanaraq, Neftdaşıma Donanmasının tarixinə nəzər salınmış, tanınmış Rusiya firmalarının bu sahənin inkişafına göstərdikləri təzyiq xüsusi qeyd edilmişdir. 1911-ci ildə H.Z.Tağıyev məhz belə rəqabət səbəbindən, Xəzər-Kür Səhmdar Gəmiçilik Cəmiyyətinin səhmini təhvil vermək məcburiyyətində qalmışdır.

Yuxarıda qeyd olunan səhmin kuponlarının tam vəziyyətdə qalma səbəblərindən biri də, H.Z.Tağıyevin yığılan səhmdə toplanan məbləği daha da artırmaq məqsədilə istifadə etməməsi idi.

Məqalədə fondda qorunan Cəmiyyət səhminin ətraflı təsviri verilmiş, keçmiş sovet məkanında mövcud olan muzey kolleksiyaları sırasında keçirilən sorğu

nəticəsində, səhmin bənzərinin olmaması qeyd edilmişdir.

H.Z. Tağıyevin maddi baxımdan imkanlı şəxs olmasını nəzərə alaraq, ona məxsus digər səhmlərin olması ehtimalı inkar edilməməlidir.

Sahibkar Tağıyev yüzlərlə belə nüsxələr əldə etmək imkanına malik olsa da, yalnız 1245 saylı səhm dövrümüzədək gəlib çatmışdır.

Sanubar Gasimova

About history of joint-stock of "Caspian-Kura Joint-Stock Steamship of Company" by H.Z. Tagiyev (from the collection of NMHA)

Summary

Key words: *H.Z. Tagiyev, action, Caspian-Kura society, note, shipowners, fleet, capital.*

In the National Museum of the History of Azerbaijan, specifically in the Materials Fund of the Auxiliary Historical Disciplines holds a valuable and security-share paper-stock: "Caspian-Kura Joint-Stock Steamship Company", issued directly to Haji Zeynalabdin Tagiyev.

The history of oil business of H.Z.Tagiyev indicates a significant influence to the development of the oil industry in Azerbaijan in general. In 1904, H.Z.Tagiyev converted his bulk fleet and in result, he established a new joint-stock "Caspian-Kura Society", with a main capital of 2000.000 RUB. The article describes the history of the fleet, as well as a detailed description of the paper stock.

The article describes about the history of the oil fleet and the pressure from large Russian companies. H.Z.Tagiyev weakened in competition in 1911, was forced to sell the stock of "Caspian-Kura joint-stock shipping company".

The stock attracts a huge attention because of individual value and the presence of a full set of coupons. This means, that H.Z.Tagiev, not used the dividends and increased his contribution.

We do not exclude the possibility of the appearance of other stocks of H.Z.Tagiyev, since as an oil magnate he had the opportunity to acquire hundreds of these kind of copies, however, the stock number 1245 reached to nowadays.

Mədəniyyət tariximizə dair sanballı əsər

Azərbaycan tarixinin, eləcə də onun mədəniyyət tarixinin 14 əsrlik bir dövrü İslam dönəminə düşür. İslam dövrü mədəniyyət tariximizin ən zəngin dövrüdür desək yanılmarıq. Bu günlərdə “Elm və təhsil” nəşriyyatı tərəfindən çap edilən “Azərbaycanda islam mədəniyyəti (VII – XIII əsrin əvvəlləri)” adlı monoqrafiaya məhz mədəniyyət tariximizin nailiyyətlərlə dolu olan həmin zəngin dövrünə həsr olunmuşdur.

Geniş oxucu kütləsinə çatdırılan bu kitabın müəllifi bütün elmi fəaliyyətini Vətənimizin mədəniyyət tarixinə, onun müxtəlif istiqamətlərinin öyrənilməsinə həsr etmiş, Azərbaycanın mədəniyyət ümmanının dərinliklərinə baş vurmuş görkəmli şərqşünas-tarixçi alim, tarix üzrə elmlər doktoru Nərgiz Ağasəlim qızı Əliyevanın qələminə məxsusdur.

N.A.Əliyeva tariximizin öyrənilməsi üçün böyük əhəmiyyətə malik olan ilkin qaynaqları, ilk növbədə ərəbdilli yazılı qaynaqları araşdıra-araşdıra Vətənimizin mədəniyyət tarixinin dərinliklərinə gedib çataraq xalqımızın zəngin irsə malik olduğunu üzə çıxarmağı, onu geniş oxucu kütləsinə çatdırmağı sanki özünə borc bilir.

Müəllif öz əsəri ilə bir çox böyük alimlərin müxtəlif fomalarda ifadə etdiyi danılmaz fakt olan həqiqəti bir daha bizə xatırladır: “Gələcək tarix bütün böyüklüyü ilə keçmiş tarixin sarsılmaz özülü üzərində dayanır. Keçmiş tarix elə bir müəllimdir ki, sələflərin vəsiyyətlərini bütün təfsilatı ilə xələflərə çatdırır”. Həmin keçmiş tarixdə isə ən böyük pay bu və ya digər xalqın özündən sonra qoyub getmiş olduğu mədəni irsə məxsusdur. Burada istər-istəməz məşhur ərəb alimi Corci Zeydanın məşhur kəlamı yada düşür: “Bir millətin həqiqi tarixi o millətin mədəniyyət tarixidir”. Başqa sözlə, gələcək keçmişə bağlıdır. Hər bir millət, hər bir xalq, hər bir insan nə qədər can atsa da, keçmiş adlı kökündən qopa bilməz.

Nərgiz xanım bu həqiqəti bütün varlığı ilə qəbul edən və ömrünü bu işə bağlayan yorulmaq bilməyən tədqiqatçıdır. Onun hər məqaləsi, hər monoqrafiyası elmi-ədəbi mühitdə, geniş oxucu kütləsi arasında maraqla qaşılanır, Çünki o, hər bir əsərində təkcə şərqşünas kimi deyil, həm də hər şeyi dərin elmi süzgəcdən keçirən, əsl həqiqətləri üzə çıxarmağa çalışan obyektiv bir tarixçi kimi çıxış edir.

Müəllif təqdim etdiyi yeni monoqrafiyasında da özünün elmi-tədqiqat prinsiplərinə sadiq qalmışdır. Özünün də qeyd etdiyi kimi, Azərbaycanda İslam mədəniyyətinin ərəblərdən monqollaraqədərki dövrünü açmaq üçün həmin dövrdə və ona yaxın dövrlərdə Xilafət bayrağı altında birləşmiş elm-bilik adamlarının, eləcə də ölkə daxili və xaricində bu mövzuya toxunan yaşlı və gənc nəslin əsərlərindəki

məlumatlardan maksimum dərəcədə yararlanmağa çalışmışdır.

Hər bir xalqın mədəniyyət tarixi onun yaradan xalqın tarixi qədər qədimdir, dərindir. N.A.Əliyevanın kitabı bu danılmaz həqiqəti bir daha bizə çatdırır və şübhəsiz, onu oxuyan hər kəsin daxili mənəviyyatının daha da zənginləşməsində böyük rol oynayacaq.

Məlumdur ki, ölkəmiz VII əsrdə Ərəb xilafətini tərkibinə daxil edilmişdir. Ərəb xilafətinin ələ keçirdiyi ölkələr, o cümlədən Azərbaycan islamlaşdıqca yeni din bu ölkələrin xalqlarını ideoloji cəhətdən birləşdirən əsas qüvvəyə çevrildi. İslam Azərbaycanın iqtisadi-siyasi, etnik-mədəni və dini həyatında dərin iz buraxdı və bir sıra nəticələrə gətirib çıxardı. Müxtəlif etnoslar arasında dini birlik yarandı. Yeni dini qəbul emiş bu xalqların hamısı birlikdə artıq eyni icmanın – müsəlman icmasının üzvləri sayılırdılar. Bu din mənəvi dünyagörüşündə dərin iz buraxdı və tədricən müsəlman mədəniyyəti və həyat tərzi formalaşdı. Təqdim edilən monoqrafiyada məhz bu məsələlərə diqqət yönəldilmiş, ölkəmiz ərazisində İslam mədəniyyətinin formalaşması xronoloji ardıcıllıqla dərindən araşdırılmışdır.

Monoqrafiya yeddi fəsildən ibarətdir. Müəllif birinci fəsildə mövzuya dair qaynaqlar və elmi ədəbiyyat haqqında ətraflı məlumat verir. Burada yazılı mənbələrin elmi əhəmiyyəti üzə çıxarılır, mədəniyyət tarixi ilə bağlı araşdırmalar aparmış digər alimlərimizin əsərləri layiqincə qiymətləndirilir.

Monoqrafiyanın ikinci fəslində Azərbaycanda İslam mədəniyyətinin yayılma mərhələləri xronoloji ardıcıllıqla tədqiq edilmişdir. Azərbaycandakı İslamaqədərki mənzərəni ümumi şəkildə nəzərdən keçirən müəllif ardıcıl olaraq İslam mədəniyyətinin ölkəmizdə yayılmasını bir neçə mərhələyə (Raşidi xəlifələri mərhələsi, Əməvilər dövrü, Abbasilər dövrü, yerli müstəqil dövlətlər dövrü, Səlcuqlar və Atabəylər dövrü) bölmüş və hər dövrün özünəməxsus xarakterik xüsusiyyətlərini şərh etmişdir.

Monoqrafiyanın üçüncü fəslində İslam mədəniyyətinin yaranması və inkişafı prosesində Azərbaycandakı vəziyyət və yerli əhalinin baş verən proseslərə münasibəti öz əksini tapmışdır. Həmin fəslin birinci yarımfəslində Azərbaycanda İslamdan əvvəlki dövrdəki elmi-mədəni mühit haqqında ümumi məlumat verilir. Həmin fəslin ikinci yarımfəslində İslam mühitindəki ilk addımlar, üçüncü yarımfəslində isə Azərbaycan şəhərlərində İslam mədəniyyətinin bərqərar olaması prosesi nəzərdən keçirilmişdir. Zənnimizcə, üçüncü fəslin sonuncu yarımfəsli əsərin ən uğurlu hissəsidir. Burada bir sıra Azərbaycan şəhərlərinin İslam mədəniyyəti mərkəzləri kimi rolu araşdırılmışdır. Azərbaycanın Ərəb xilafətinin tərkibində olduğu dövrdə Bərdə şəhərinin həm siyasi-inzibati, həm də elmi-mədəni mərkəz kimi rolu əhəmiyyətli dərəcədə artmışdı. Bu mədəniyyət və təhsil ocağında yerli alimlərlə fikir mübadiləsi, elmi mübahisələr aparmaq üçün ətraf şəhər və vilayətlərdən ziyalılar gəlirdilər. Müəllif burada Bərdədən çıxmış bir çox ziyalılar haqqında oxuculara məlumat verir. Həmin yarımfəsildə İslam mədəniyyəti

mərkəzlərinə çevrilmiş bir sıra digər şəhərlərimiz, xüsusilə Gəncə, Naxçıvan, Dərbənd, Beyləqan, Tiflis, Təbriz şəhərlərinin mədəni həyatı, həmin şəhərlərin yetişdirdiyi elm adamları haqqında ətraflı məlumat verilir.

Kitabın IV fəsli Azərbaycan alimlərinin həm mədəni, həm də ictimai-siyasi həyatda fəaliyyətinə həsr olunmuşdur. Müəllif həmin fəslin I yarımfəslində Azərbaycan alimlərini fəaliyyət sahələrinə uyğun olaraq qruplaşdırmış, mühəddislər, fəqihlər, dilçilər, ədiblər, şairlər, musiqiçilər, sufilər haqqında elmə məlum olmayan bir sıra faktları ilk dəfə olaraq geniş ictimaiyyətin diqqətinə çatdırmışdır.

IV fəslin ikinci yarımfəslində Azərbaycan ziyalılarının dövlət idarəetmə strukturunda fəaliyyətinə geniş yer verilmişdir. Üçüncü yarımfəsildə isə Azərbaycandan çıxmış alimlərin fəzilətləri, onları başqalarından fərqləndirən üstün cəhətləri göstərilmişdir. Müəllif haqlı olaraq belə bir qənaətə gəlir ki, ərəb müəlliflərinin qələmə aldıqları Azərbaycandan olan alimlər elmin müxtəlif sahələrində özlərini sınayan, dövrün elmi səviyyəsinə görə uğurlar qazanmış hərtərəfli biliyə malik ziyalılar kimi şöhrət sahibi olmuşlar.

Monoqrafiyanın V fəslində Azərbaycanın Ərəb xilafətinin tərkibinə daxil olan digər ölkələrlə elmi-mədəni əlaqələri araşdırılmışdır. Bu fəsil iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsildə azərbaycanlı ziyalıların Xilafətin müxtəlif mədəni mərkəzlərində fəaliyyəti, ikinci yarımfəsildə isə ərəblərin ölkəmizdə məskunlaşması və yerli əhali ilə qaynayıb-qarışaraq assimilyasiyaya məruz qalması prosesi əks olunmuşdur. Burada ziyalılarımızın Şamda (Suriyada) fəaliyyətinə xüsusi diqqət yetirilmişdir. Tədqiqat nəticəsində məlum olur ki, Azərbaycan ziyalılarının bir çoxu Suriyanın mədəniyyət mərkəzləri kimi məşhur olan Dəməşq, Hələb, Homs şəhərlərində təhsil almış, bəziləri orada qalaraq müxtəlif tədris müəssisələrində dərs demişlər.

N.A.Əliyeva öz əsərində ziyalılarımızın müxtəlif ölkələrə üz tutmasının səbəblərinə də aydınlıq gətirmişdir. Müəllif doğru olaraq qeyd edir ki, XIII əsrdə monqolların ilk yürüşləri dövründə ziyalılarımızın bir qismi ölkəni tərk edərək Misir və Suriyanın elm və mədəniyyət mərkəzlərinə üz tutmuşlar. Burada həmin ölkələrdə fəaliyyət göstərmiş ziyalılarımız haqqında bir sıra maraqlı faktlar ilk dəfə olaraq elmi dövriyyəyə daxil edilmişdir. Həmin yarımfəsildə müxtəlif ölkələrdə təhsil alaraq Vətənə qayıtmış elm və mədəniyyət nümayəndələrinin fəaliyyətinə də yer verilmişdir.

Monoqrafiyanın VI fəsli ərəblərin gətirdiyi yeni dinin yayılması nəticəsində Azərbaycanda yaranmağa başlayan mədəniyyət ocaqları və təhsil müəssisələrinə həsr olunmuşdur.

İslamın bərqərar olmasından sonra Azərbaycanda kitabxana mədəniyyəti daha da inkişaf etmiş və mədrəsələr fəaliyyətə başlamışdır. Monoqrafiyada Gəncə mədrəsəsi və kitabxanası haqqında maraqlı faktlar ilk dəfə olaraq oxucuların diqqətinə çatdırılmışdır. VI fəsildə müstəqil fəaliyyət göstərən Beyləqan, Atabəylər, əl-Qazi, Zəncan, İqbaliyyə, əl-Adiliyyə, Sührəverdiyyə, əz-Zahiriyyə əl-Batiniyyə, ən-Nasiriyyə, Mərənd mədrəsələri, eləcə də məscidlərin nəzdində fəaliyyət göstərən

bir çox mədrəsələr haqqında məlumat verilir.

Həmin fəsildə təhsildə müəyyən rol oynamış digər tədris müəssisələri haqqında da məlumat verilir. Onların sırasında xanəgahlar, zaviyələr və təkyələri qeyd etmək olar.

VI fəsildə Azərbaycandan çıxmış görkəmli təhsil xadimlərinin fəaliyyətinə də geniş yer verilmişdir. Müəllifin qeyd etdiyi kimi, ərəbdilli müəlliflər Azərbaycanın bir sıra elm və təhsil ocaqlarını ziyarət edərkən həm görkəmli müdərrislər, həm də mədrəsələr haqqına maraqlı məlumatlar vermişlər. Azərbaycandakı təhsil müəssisələrində dərs deyən müdərrislər arasında yerli müdərrislərlə yanaşı, digər ölkələrdən gələn müdərrislər də var idi. Digər tərəfdən azərbaycanlı alimlər digər ölkələrdəki təhsil ocaqlarında fəaliyyət göstərirdilər. Monoqrafiyada Xətib Təbrizi, Müinəddin əl-Marağayi, Əbu Abdullah ət-Təbəri, Əbu Bəkr əl-Urməvi, Fəxrəddin əl-Musannə və başqaları haqqında məlumat verilir.

Monoqrafiyanın VII fəsli Azərbaycanda müsəlman memarlığının yaranması və inkişafına həsr olunmuşdur. İslamın qəbul edilməsi Azərbaycanda incəsənətin müxtəlif sahələrində (musiqi, memarlıq), əhalinin məişətində və gündəlik həyat tərzində də öz təsirini göstərdi.

Azərbaycan memarlığında İslam memarlıq elementləri gücləndi. İslamın yayılması yeni tipli binaların, xüsusilə dini təyinatlı binaların inşası ilə müşayiət olunurdu. Ümumiyyətlə İslam memarlığı bir sıra ictimai və dini binalarla – məscidlər, minarələr, saray kompleksləri, karvansaralar, örtülü bazarlar, və s. təmsil olunmuşdu. Monoqrafiyada həmin memarlıq nümunələri haqqında qısa, lakin olduqca dəyərli məlumatlar verilir.

Monoqrafiyada verilən məlumatlar göstərir ki, bir sıra Azərbaycan şəhərləri müsəlman dünyasının elm və mədəniyyət mərkəzləri olmuşdur. Azərbaycan ziyalıları dünya mədəniyyətinin ayrılmaz tərkib hissəsi olan İslam mədəniyyətinin inkişafında mühüm rol oynamışlar.

Oxuculara tədqim edilən bu yeni monoqrafiyanın əsas məzmununu kiçik bir yazıda əhatə etmək çox çətindir. Əminliklə demək olar ki, Nərgiz Ağasəlim qızı Əliyevanın oxuculara təqdim etdiyi “Azərbaycan islam mədəniyyəti (VII – XIII əsrin əvvəlləri) ” monoqrafiyası yüksək elmi səviyyədə yazılmışdır və müstəqillik dövrü orta əsrlər tarixşünaslığımızın ən mühüm uğurlarındandır.

Qətiyyətlə demək olar ki, müəllif öz qarşısına qoyduğu məqsədə nail olub və onun böyük zəhmətlə ərsəyə gətirdiyi bu kitab Vətənimizin orta əsrlər tarixində, xüsusilə mədəniyyət tarixində özünəməxsus yer tutacaq, alimlər və geniş oxucu kütləsi tərəfindən böyük rəğbətlə qarşılanacaq.

R.Ə.Ağayev
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
“Azərbaycanın orta əsrlər tarixi” şöbəsinin
aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru

"XIX. yüzyılın sonu– XX. yüzyılın başlarında Güney Kafkasya'da Ermeni ayrılıkçılığı" monografisine rapor

Dünyada cereyan eden çatışma, devletler ve milletler arasında varolan çelişkiler onların tarihi köklerinin, etnik ilişkilerin ve sorunların nedenlerinin öğrenilmesi tarih, siyaset bilimi, sosyoloji bilimleri karşısında yeni görevler koyuyor. Şu anda Güney Kafkasya'da Ermenistan-Azerbaycan Dağlık Karabağ, ayrıca Gürcü-Abhaz, Gürcü-Oset çatışmalarının devam etmesi bölgenin tarihi ile uğraşan uzmanlar için bu konunun araştırılmasını önemli kılıyor.

Dr. Ferhat Cabbarov`un Güney Kafkasya'da ulusal ilişkiler, Ermeni-Azerbaycanlı çatışmaları ve 1905-1906 yıllarında yaşanan etnik sorunlara adanmış monografisi Azerbaycan'ın, aynı zamanda tüm Güney Kafkasya bölgesinin XIX. yüzyılın sonu – XX. yüzyılın başları döneminin tarihi için büyük bilimsel ve teorik önemi bulunan bir eserdir. Zengin arşiv kaynakları esasında yazılmış monografi Rusya İmparatorluğunun Güney Kafkasya'yı işgal etmesinden Ermenilerle Azerbaycanlılar arasında yaşanan ilk çatışmalara kadar büyük bir zaman dilimini kapsıyor. Rusya›nın milli politikasının temel yönleri, Ermenilere ve Azerbaycanlılara karşı gösterdiği farklı tavırlar, Ermenilere daha geniş imtiyazlar tanınması, Azerbaycanlıların ise ekonomik, siyasal, kültürel, dini haklarının kısıtlanması gibi konulara değinen yazar haklı olarak belirtiyor ki, tüm bu nedenler iki millet arasında çelişkilerin temeli oldu. Rusya'nın Güney Kafkasya politikası ile ilgilenen uzmanlar için monografide çar hükümetinin Ermeniler konusunda taraf değişikliğinin, müttefiklikten çatışmaya kadar yol açan sürecin aydınlatılması son derece ilginçtir. Dr. F.Cabbarov bu konuları aydınlatıyor. Ferhat Cabbarov şu sonuca varıyor ki, bir zamanlar Ermenileri iyice destekleyen, onların Osmanlı'da bölücülük hareketine destek olan Rusya hükümeti XIX. yüzyılın 80›li yıllarından itibaren Gregoryen Kilisesi›ne, Ermeni örgütlerine ve okullarına karşı sert önlemler almıştır. Bunun temel nedeni, Ermeni ayrılıkçı hareketinin Güney Kafkasya'ya yayılması ve Rusya'nın devlet çıkarlarına zıt olması idi. 1890`lı yıllardan başlayarak 1905 yılına kadar Ermeni Gregoryen Kilisesi ve Ermeni toplumu Rusya hükümetine karşı mücadele etmiş, işte bu yıllarda Taşnaksütyun ve Hınçak örgütleri Güney Kafkasya›da geniş terör faaliyetine başlamış ve bölgede Rusya için en tehlikeli düşmana çevrilmişler. Yazar gösteriyor ki, Rusya'nın hakim dairelerine karşı yapılan bu terör eylemleri ve kitlesel gösteriler sırasında Ermeniler Kafkasya Müslümanlarını da bu işe dahil etmeye çalışmış, fakat Müslümanlar Ermenilerle birlikte bu harekete katılmaktan vazgeçmişlerdi. Bunun sonucu olarak Ermenilerin

Müslümanlardan intikam almak istemesi, onları kendi siyasi çıkarları açısından kullanmak girişimleri 1905 yılında başlamış milli katliamın temel nedenlerinden biri olarak değerlendirilebilir.

Monografinin üstün özelliklerinden biri olarak 1905-1906 yıllarında gerçekleşen Ermeni-Azerbaycanlı katliamlarının geniş coğrafi mekanda öğrenilmesi gösterile bilir. Bakü, Gence, Şuşa, Nahçıvan, Zangezur, Tiflis, Erivan ve diğer bölgelerde yaşanan olaylar karmaşık, karşılaştırmalı bir şekilde sunulmuştur. Önceki yazarların eserlerini analiz eden Dr. F.Cabbarov yeni arşiv belgelerini kullanarak, eksiksiz bir bilimsel eser ortaya koymuş, özgün bir yaklaşım sergilemiştir. Kitapta sunulan olgular temelinde XX. yüzyılın başlarında Ermeni terörünün ölçüsü, Müslüman nüfusun uğradığı mahrumiyetler, Rusya hükümet dairelerinin tavrı, Azerbaycanlıların milli mücadelesi, milli birliğe doğru atılmış adımlar hakkında yeni bilgiler verilir. Monografide dikkati çeken noktalardan biri de Ermeni-Azerbaycanlı katliamları sırasında ölenlerin say göstergeleri ile ilgili yazarın geldiği sonuçlardır. Yazar şu sonuca varıyor ki, katliamlar sırasında ölen Azerbaycanlıların sayısı hiç de az olmamış, sadece onların cesetleri hemen savaş meydanından çıkarıldığından rakamlarda Ermenilerin daha çok, Azerbaycanlıların ise sanki daha az zarar çekmesi çelişkisi ortaya çıkmıştır.

Monografide bahsedilen birçok konu, Türkiye tarihçiliği açısından büyük önem arz edir. Öyle ki, Ermeni ayrılıkçılığının temeli Osmanlı'da başlamış, Ermeni örgütleri hem Türk halkına, hem de Osmanlı hükümetine karşı geniş terör eylemleri gerçekleştirmiştiler. Rusya'da yaşayan Ermeni-Gregoryen papazları, Ermeni aydınları ve girişimcileri Osmanlı'da cereyan eden bu terör eylemlerine silah ve mali açıdan aktif destek veriyorlardı. Yazar, haklı olarak, Osmanlı İmparatorluğunun ardından Rusya'nın Ermeni terörizmi için bir deneme zemini haline geldiği fikrini ifade ediyor. Bu açıdan Dr. F.Cabbarov'un monografisindeki konular, Osmanlı İmparatorluğu ve Rusya'da gerçekleşen ayrılıkçı süreçlerin benzer özelliklerinin ortaya çıkmasına izin verir. Burada Osmanlı ve Rus arşiv belgelerinin karşılaştırmalı analizi de yapılmaktadır.

Monografinin sonunda, kaynaklar listesi Dr. F.Cabbarov`un araştırmasının yüzlerce arşiv çalışması, kaynak, kitap ve makale içerdiğini gösteriyor. Konu hakkında tarihsel hataları ve çelişkili yaklaşımları gösteren ve eleştiren Dr. F.Cabbarov bu monografisi ile kapsamlı bir analiz yapmıştır. Dr. F.Cabbarov'un monografısi konunun kapsamlılığı, özgünlüğü ve sorunlara özgün bakış açısı ile dikkat çekiyor. İnanıyorum ki, bu monografinin yayımlanması Azerbaycan tarihinde olduğu kadar Güney Kafkasya'nın tarihi açısından da önemli bir bilimsel çalışma sayılacaktır.

Prof. Dr. Nesrin SARIAHMETOĞLU (Türkiye)

Milli Azərbaycan Tarixi Muzeyinin 2018-cı ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin hesabatı

Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının icrası ilə əlaqədar tapşırılmış işlərin yerinə yetirilməsi haqqında məlumat

Azərbaycan Respublikası Prezidentinin *"2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında sərəncamının* icrası çərçivəsində hesabat dövründə Milli Azərbaycan Tarixi Muzeyində silsilə tədbirlər keçirilmişdir. 25 may-5 sentyabr tarixlərində muzeydə "Azərbaycanın istiqlal müjdəçiləri" adlı sərginin açılışı olmuşdur. Cümhuriyyətin görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətinə həsr olunan sərgidə qurulmuş vitrin və panellərdə onların fotoşəkilləri, şəxsi əşyaları nümayiş etdirilir. Sərgidə muzeyin fondlarında mühafizə edilən, həmçinin şəxsi kolleksiyalarda saxlanılan qiymətli sənədlər, Cümhuriyyət dövrünün pulları və qiymətli kağızları, fotoşəkillər və s. təqdim olunur. Xüsusi panellərdə Cümhuriyyət qurucularının tərcümeyi-halları və fəaliyyyəti barədə məlumat verilir. Sərgidə həmçinin Milli Azərbaycan Tarixi Muzeyinin nəşr etdirdiyi "Azərbaycan Cümhuriyyəti tarixinin yadigarları" kataloqunun təqdimatı olmuşdur. Kataloq muzeyin fondlarında Cümhuriyyət dövrünə aid eksponatları əhatə edir və bu dövr mütəxəssisləri üçün qiymətli mənbə bazası rolunu oynayır.

"Azərbaycan Xalq Cümhuriyyəti İli" çərçivəsində Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları Cümhuriyyət tarixinin populyarlaşdırılması sahəsində də səmərəli işlər görmüşlər. Mayın 16-da Azərbaycan Cümhuriyyətinin qurucularından biri M.Rəsulzadənin milli mühacirətin görkəmli nümayəndəsi S.Təkinərə 1950-1955-ci illərdə yazdığı orijinal məktublarının muzeyə hədiyyə olunması mərasimi keçirilmişdir. Mayın 29-da muzeyin təşkilatçılığı ilə Cümhuriyyətin maarif naziri olmuş N.Şahsuvarova və Şahsuvarovlar nəslinə həsr olunmuş dəyirmi masa keçirilmişdir.

Muzeyin elmi katibi t.ü.f.d., dos. F.Cabbarov və Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri t.ü.f.d., dos. S.Əhmədov CBC televiziya kanalının "Tarixin ağ ləkələri" layihəsi çərçivəsində silsilə verilişlərdə iştirak edərək Cümhuriyyət

tarixinin ayrı-ayrı problemlərinə dair çıxışlar etmişlər. T.ü.f.d., dos. F.Cabbarov həmçinin aprelin 18-də M.Lomonosov adına Moskva Dövlət Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Beynəlxalq dəyirmi masada iştirak etmiş və əsas məruzəçi kimi "Azərbaycan Xalq Cümhuriyyəti ilə Sovet Rusiyası arasındakı münasibətlərdə neft amili" mövzusunda çıxış etmişdir.

Yanvar-may ayları ərzində Xarici əlaqələr və elmi-kütləvi iş şöbəsinin əməkdaşları E.Dadaşov, t.ü.f.d., dos. Ə.Fərhadov, t.ü.f.d., dos. B.Kərimov, t.ü.f.d. F.Ağayev və b. muzeyin Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun dəstəyi ilə keçirdiyi Cümhuriyyət tarixinin ayrı-ayrı məsələlərinə həsr olunmuş seminarları təşkil etmiş və mühazirələrlə çıxış etmişlər.

Muzeyin kolleksiyasında saxlanılan 12 eksponat, 80-dən artıq fotoşəkil Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Paris, Varşava, Roma, Vatikan, London, Berlin və Tbilisi şəhərlərində keçirilən səyyar sərgilərdə nümayiş olunmuşdur. Muzeyin Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri t.ü.f.d., dos. S.Əhmədov həmçinin Berlində təşkil olunan "Şərqdə ilk dünyəvi parlament respublikası: dəyərlər və irs" elmi konfransda (06.11.2018) məruzə ilə çıxış etmişdir.

Azərbaycan ordusunun 100 illiyi münasibətilə muzeydə 22 iyun-22 dekabr tarixlərində "Ordum varsa, yurdum var!" sərgisi təşkil olunmuşdur. Sərgidə 200-ə yaxın eksponat, 19 iriölçülü informasiya paneli, 3 heykəl, 30-dan artıq fotoşəkil nümayiş olunmuşdur. Ekspozisiyada həmçinin şəxsi kolleksiyalarda saxlanılan və müvəqqəti olaraq sərgi üçün verilən 20-dən artıq tarixi eksponat göstərilmişdir. Sərginin açılış mərasimində t.ü.f.d., dos. S.Əhmədovun müəllifi və tərtibçisi olduğu "Azərbaycan ordusu (1918-1920) rəsmlərdə" albomunun və "Azərbaycanın hərbi geyim tarixindən" adlı silsilə açıqçalar toplularının ("Azərbaycanın hərbi geyim tarixindən. Qədim və orta əsrlər", "Azərbaycanın hərbi geyim tarixindən. XVIII-XIX əsrlər", "Azərbaycanın hərbi geyim tarixindən. 1918-1920-ci illər") təqdimatı olmuşdur.

14 sentyabr-14 dekabr tarixlərində muzeydə Qafqaz İslam Ordusunun Bakını azad etməsinin 100 illiyinə həsr olunmuş "Millət sizə minnətdardır" sərgisi keçirilmişdir. Sərgidə Muzeyin Silahlar və bayraqlar fondu, Xatirə əşyaları və hədiyyələr fondu, Köməkçi tarixi fənn materialları fondundan 120-dən artıq unikal tarixi eksponat tamaşaçılara təqdim edilir. Onlar sırasında türk və Azərbaycan döyüşçülərinin silah və ləvazimatı, Bakı Soveti, Sentrokaspi Diktaturası və ingilis qoşunlarının silahları, döyüş yerlərində tapılmış artefaktlar, azərbaycanlı döyüşçülərin təltif olunduğu osmanlı ordenləri, həmçinin Qafqaz İslam Ordusuna həsr olunmuş kitab və kataloqlar nümayiş etdirilir. Hərbi-siyasi hadisələrin xronoloji ardıcıllıqla təqdim edilməsi məqsədilə sərgidə 14 informasiya-məlumat panelləri üzərində mətnlər, 100-ə yaxın fotoşəkil, dövrün şairlərinin şerlərindən parçalar, döyüşlərin xəritəsi, döyüş səhnəsi təsvirləri hazırlanmışdır.

Muzeyin şöbə müdiri t.ü.f.d., dos. S.Əhmədov həmçinin sentyabrın 15-

də Bakının azad olunmasının 100 illiyinə həsr olunmuş Azərbaycan və Türkiyə hərbiçilərinin paradında istifadə edilən tarixi geyimlərin rekonstruksiyasının elmi məsləhətçisi olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin *"1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncamı*nın icrası çərçivəsində hesabat dövründə t.ü.f.d., dos. F.Cabbarovun "Cənubi Qafqazda erməni ekstremizmi (XIX əsrin ikinci yarısı – XX əsrin əvvəlləri)" monoqrafiyası (rus dilində, Bakı: TEAS PRESS, 2018, 768 səh.) çapdan çıxmışdır. Monoqrafiyada Rusiya imperiyasının Cənubi Qafqazda milli siyasəti, azərbaycanlılara və ermənilərə fərqli münasibəti, ermənilərə himayədarlıq siyasətinin daha sonra qarşıdurma ilə əvəzlənməsi səbəbləri, Cənubi Qafqazda erməni ekstremizminin meydana gəlməsi araşdırılır. Əsərdə həmçinin 1905-1906-cı illərdə baş vermiş erməni –azərbaycanlı münaqişəsinin tarixi, bölgənin müsəlman əhalisinə qarşı törədilən terror və qırğınlar, həmin qırğınların 1918-ci il soyqırımı ilə paralelləri tədqiq olunur. Monoqrafiya geniş mənbə bazası və elmi ədəbiyyat əsasında yazılmış, Azərbaycan, Rusiya, Gürcüstan, Türkiyə arxivlərinin materialları tədqiqata cəlb edilmişdir.

T.ü.f.d., dos. F.Cabbarov həmçinin martın 30-da Moskvada Azərbaycanın Rusiyadakı Səfirliyi və Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə XX əsrin əvvəllərində Cənubi Qafqazda erməni ekstremizminin tarixinə dair məruzə ilə çıxış etmişdir.

Sərəncamın icrası çərçivəsində aprelin 6-da muzeydə erməni esktremizminə və ermənilərin azərbaycanlıara qarşı törətdiyi terror və qırğınların tarixinə həsr olunmuş elmi seminar keçirilmişir. Bakı Dövlət Univeristetinin, Xəzər Universitetinin, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Dövlət İdarəçilik Akademiyasıının müəllim və tələbələrinin iştirak etdikləri seminarda t.ü.f.d., dos. F.Əhmədova və t.ü.f.d., dos. F.Cabbarov mühazirələrlə çıxış etmişlər. Xarici əlaqələr və elmi-kütləvi iş şöbəsinin əməkdaşları E.Dadaşov və t.ü.f.d. Ə.Fərhadov təhsil müəssisələrində soyqırıma həsr olunmuş mühazirələrlə çıxış etmişlər.

Elmi tədqiqat işləri planlarının yerinə yetirilməsi haqqında məlumat

Təsdiq olunmuş plana əsasən Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşları Azərbaycan tarixinin bütün dövrlərinə aid maddi mədəniyyət abidələrinin toplanması, mühafizəsi, tədqiqi, nəşri, onların ekspozisiya və sərgilər vasitəsilə nümayişi və təbliği istiqamətində 4 problem üzrə 5 mövzunu əhatə edən 18 iş üzərində çalışmışlar. 2018-ci ildə planda nəzərdə tutulmuş 10 işin və 4 işin 4 mərhələsinin icrası başa çatmışdır.

Muzeyin elmi tədqiqat planına daxil olan **I problem** *"Azərbaycan xalqının qədim dövrdən bu günə qədərki tarixini əks etdirən maddi və mənəvi mədəniyyət nümunələrinin muzeyin ekspozisiyasında və sərgilərində nümayişi və təbliği"* adlanır.

Problemə daxil olan *"Azərbaycanın qədim, orta əsrlər, yeni və Xalq Cümhuriyyət dövrlərini, Hacı Zeynalabdin Tağıyevin həyat və fəaliyyətini əks etdirən ekspozisiyanın daimi təkmilləşdirilməsi və yeniləşdirilməsi, müxtəlif mövzularda sərgilərin qurulması"* mövzusu üzrə (mövzunun rəhbəri: Elmi ekspozisiya və sərgilərin təşkili şöbəsinin müdiri t.ü.f.d., dos. S.Əhmədov) müvafiq şöbə və fondlar təkmilləşdirmə işini apararaq, vitrinlərdə və panellərdə mövcud boşluq və xətaları aradan qaldırmış, ekspozisiyanı yeni eksponatlarla zənginləşdimişlər. Daimi ekspozisiyada "Şirvanşahlar dövlətində yandırıcı-atıcı mərmilər" mövzusunda yeni bölmə yaradılmış, "Azərbaycanın qədim və orta əsr arxeoloji zərgərlik məmulatları" bölməsi isə tamamilə yenidən qurulmuşdur. Bununla yanaşı, elmi şöbələr tərəfindən ekspozisiyanın ayrı-ayrı bölmələri üzrə yeni bələdçi mətnlərinin hazırlanması işinə başlanılmışdır.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyinə hazırlıq çərçivəsində muzeydə may ayında başlamış əsaslı təmirlə əlaqədar olaraq yeni ekspozisiyanın qurulması işinə start verilmişdir. Müvafiq şöbə və fondlar ekspozisiyanın təkmilləşdirilməsi, onun müasir muzeyşünaslıq prinsipləri əsasında yenidən qurulması istiqamətində müvafiq tapşırıqlar almış və işə başlanılmışdır.

Mövzu çərçivəsində muzeydə üç sərgi - "Azərbaycanın istiqlal müjdəçiləri", "Ordum varsa, yurdum var!" və "Millət sizə minnətdardır"sərgiləri təşkil olunmuşdur.

Hesabat dövründə Milli Azərbaycan Tarixi Muzeyi həmçinin səyyar sərgilərdə də öz kolleksiyasının inciləri ilə iştirak etmişdir. 25-27 sentyabr tarixlərində Bakıda keçirilən 3-cü "ADEX 2018" Azərbaycan Beynəlxalq Müdafiə Sərgisində muzeyin Silahlar və bayraqlar fondunun və Etnoqrafiya fondunun 58 eksponatı – tarixi silahlar və xalçalar nümayiş olunmuşdur. Sərgini ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev muzeyin pavilyonu ilə tanış olmuş, sərgilənən eksponatlarla maraqlanmışdır. Ölkə başçısı muzeyin fəaliyyətindən məmnunluğunu ifadə etmişdir.

Muzey kolleksiyasının eksponatları həmçinin aşağıda adları göstərilən sərgilərdə nümayiş edilmişdir: "Şirvanşahların irsi dünya muzeylərində" (təşkilatçı - "İçərişəhər" Dövlət Qoruq İdarəsi), "Dağılaraq zirvələrə doğru qalxırıq" (təşkilatçı - YARAT Müasir İncəsənət Mərkəzi), "Keçə müasir incəsənətdə və ənənədə" (təşkilatçı – Azərbaycan Dövlət Xalça Muzeyi).

II Problem "*Muzeyin fondlarında qorunan maddi mədəniyyət nümunələrinin, Azərbaycan tarixinin müxtəlif dövrlərinin elmi tədqiqi və nəşri, respublika və beynəlxalq səviyyəli elmi konfransların, seminarların keçirilməsi, Azərbaycanın müxtəlif bölgələrinə toplama işi məqsədilə ekspedisiyaların təşkili"dir.* Bu problem 2 mövzunu əhatə edir.

"Azərbaycan tarixi problemlərinin elmi tədqiqi və nəşri" mövzusuna (mövzunun rəhbəri: elmi işlər üzrə direktor müavini t.ü.e.d., dos. N.Əliyeva) daxil olan birinci

iş çərçivəsində aprelin 17-də muzeydə Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası" adlı II Respublika elmi konfransı keçirilmişdir. Konfransda muzey əməkdaşları ilə yanaşı, elmi tədqiqat institutlarının, ali məktəblərin, muzeylərin elmi əməkdaşları iştirak etmişlər. Elmi forumda respublika muzeylərində qorunan maddi mədəniyyət və dekorativ sənət nümunələrinin, kolleksiyaların, arxiv və kitabxanalarda mühafizə edilən əlyazmalar, əski kitab və jurnalların tədqiqi ilə bərabər, onların saxlanma vəziyyəti, restavrasiyasına dair elmi məruzələr dinlənilmişdir. (icraçı: elmi işlər üzrə direktor müavini t.ü.e.d., dos. N.Əliyeva).

Mövzuya daxil olan ikinci iş çərçivəsində Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyinə həsr olunmuş "Azərbaycanın qədim və orta əsr silahları" kitab-albomu nəşr olunmuşdur. Kitab-albomda muzeyin arxeoloji kolleksiyasında qorunan bəzi silah nümunələri haqqında müfəssəl məlumat verilmişdir. Bu nümunələrin bir qismi ötən əsrin 20-80-ci illərində Muzeyin özü, Tədqiq və Tətəbbö Cəmiyyəti, Tarix İnstitutu tərəfindən təşkil olunan ekspedisiyaların tapıntıları, digər qismi isə təsadüfi tapıntılardır. Böyük əksəriyyəti ilk dəfə elmi tədqiqata cəlb olunan bu silah nümunələri Azərbaycanın qədim silahlarının öyrənilməsində qiymətli mənbədir. Kitab-albom mütəxəssislər və hərb tarixi ilə maraqlananlar üçün nəzə tutulmuşdur (icraçılar: t.ü.f.d., dos. S.Əhmədov, E.Məmmədov, N.Qarayeva).

Problemə daxil olan *"Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası Azərbaycan tarixinin və mədəniyyətinin öyrənilməsində mənbə kimi"* adlı ikinci mövzuya 5 iş daxildir.

Muzeyin materialları əsasında tərtib olunan *"Azərbaycanda balıqçılıq"* kitab-albomunun ilkin variantı hazırlanmışdır. Kitab-albomda Azərbaycanda qədim dövrlərdən başlayaraq XX əsrin əvvəllərinə qədər balıqçılığın və balıqçılıq sənayesinin inkişaf tarixi işıqlandırılmış, muzeyin fondlarında saxlanılan 100-dən artıq eksponat haqqında məlumat verilmişdir (icraçı: t.ü.f.d., dos. B.Kərimov).

Nəşrə hazır olan *"Şərqin qızıl sikkələri"* kataloqu üçün muzeyin Xüsusi fondunda qorunan III-XIX əsrlərdə mövcud olmuş Şərq dövlətlərinin 130-dan artıq qızıl sikkəsi seçilmiş, onların xronologiyası və tipologiyası, təsviri verilmişdir. Kataloqun əsas məqsədi Şərq ölkələrinin iqtisadi-siyasi durumunun, qarşılıqlı əlaqələrinin öyrənilməsində önəmli qaynaq rolunu oynayan qızıl sikkələr haqqında məlumat verməkdir (icraçılar: Numizmatika və epiqrafika elmi fond şöbəsinin müdiri t.ü.e.d., prof. Ə.Rəcəbli, Xüsusi fondun müdiri t.ü.f.d., dos. A.Rüstəmbəyova).

Mövzuya daxil olan *"Azərbaycan Cümhuriyyəti tarixinin yadigarları"* kataloqu çapdan çıxmışdır. Kataloqda muzeyin fondlarında qorunan Cümhuriyyət tarixinə aid 240 eksponat təqdim olunur, onlar haqqında məlumat verilir, muzeyin Cümhuriyyət kolleksiyasının yaranması tarixindən bəhs edilir. İlk mənbə rolunu oynayan həmin eksponatlar 1918-1920-ci illər dövrünün öyrənilməsi, Cümhuriyyət

xadimlərinin həyat və fəaliyyətinin işıqlandırılması baxımından böyük əhəmiyyət kəsb edir (elmi redaktor: akad. N.Vəlixanlı, icraçılar: t.ü.f.d., dos. S.Əhmədov, İ.Muradəliyeva, N.Bağırova, R.İsmayılova, S.Qazıyeva).

Mövzuya daxil olan muzeyin Etnoqrafiya fondunda saxlanılan kosmetika, ətriyyat və aksesuarlara həsr olunmuş kitab-albomun hazırlanması işi çərçivəsində materiallar sistemləşdirilmiş və təsnifatı verilmişdir. Muzeyin kolleksiyasında toplanmış qadın və kişi aksessuarlarının, kosmetika və ətriyyat qablarının tədqiqi və təbliğinə həsr olunmuş kitab-albomda XIX əsrin sonu-XX əsrin əvvəllərinə aid materiallar yer alıb. Hazırlanan kitab-albomun əhəmiyyəti ondan ibarətdir ki, bu vaxtadək geyim mədəniyyəti ətraflı araşdırılsa da, geyim elementlərini tamamlayan aksesuarlar, kosmetik vasitələr və ətriyyat qabları tədqiqatlarda öz əksini tapmamış, geniş şəkildə işıqlandırılmamışdır. Həmin cəhətlər kitab-albomun maddi mədəniyyətin öyrənilməsi sahəsində həm elmi, həm də praktiki əhəmiyyətini artırır (icraçı: Etnoqrafiya elmi fond şöbəsinin müdiri t.ü.e.d., dos. G.Abdulova).

Muzey əməkdaşları tərəfindən hazırlanan "Azərbaycan Birinci Dünya müharibəsində" kataloqu fondlarda mövzu ilə əlaqədar qorunan eksponatlar, fotoşəkillər əsasında tərtib olunmuşdur. Kataloqda 1914-1918-ci illərdə cərəyan edən ictimai-siyasi hadisələrə, azərbaycanlı hərbiçilərin, həkimlərin müharibə dövründə fəaliyyətinə dair maraqlı faktlar yer almışdır (icraçılar: t.ü.f.d., dos. S.Əhmədov, t.ü.f.d. M.Məmmədov, E.Dadaşov).

Hesabat ilinin əvvəlindən şöbə və fondlar 2020-ci ildə tamam olacaq Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyi münasibətilə yubiley nəşrlərinin hazırlanmasına başlamışlar. Təsdiq olunmuş plana əsasən şöbə və fondlar muzeyin kolleksiyasını əhatə edən müxtəlif mövzulara dair bukletlər və kolleksiyanın seçmə eksponatlarını özündə cəmləşdirən "100 inci" albomu üzərində çalışmışlar. Nəticədə bu nəşrlərin bir qisminin ("Sehrli çıraq", "Xəzər Atlantidası", "Azərbaycan D.Yermakovun fotoşəkillərində", "Azərbaycan şəhərlərinin açarları", "Qadın baş bəzəkləri" (adlar şərtidir) və s.) ilkin variantı hazırlanmış və redaktədən keçmişdir.

III Problem *"Milli Azərbaycan Tarixi Muzeyinin fondlarında cari texniki işlərin aparılması, mühafizənin və təhlükəsizliyin təmin olunması məqsədilə müasir infrastrukturun təşkili"* adlanır.

Problemə bir mövzu – *"Fond kolleksiyalarının işlənməsi, pasportlaşdırılması, yeni materiallarla zənginləşdirilməsi"* daxildir (mövzunun rəhbəri: elmi fond işləri üzrə direktor müavini – baş mühafiz t.ü.f.d., dos. M.Zeynalova). Mövzu üzrə aşağıdakı işlər yerinə yetirilmişdir:

- elmi fond şöbələri və fondlar 2018-ci ilin iş planına uyğun olaraq fond işi çərçivəsində daimi ekspozisiyaya və sərgilərə verilmiş, həmçinin geriyə qaytarılmış eksponatları aktlaşdırmışlar;
- muzeyin 100 illiyi ilə əlaqədar fond materialları seçilmiş və yubiley nəşrlərinin hazırlanmasına başlanılmışdır;

- fondlara daxil olmuş yeni materiallar ilkin işlənərək, inventar kitabında qeydiyyatdan keçirilmişdir;

- eksponatların sanitar-təmizləmə işləri aparılmışdır;

- fond əməkdaşları muzeyə müraciət edən müxtəlif yerli və xarici təşkilatlara və tədqiqatçılara (o cümlədən, televiziya şirkətlərinə, Elmlər Akademiyasının müvafiq institut və təşkilatlarına, ali təhsil müəssisələrinə, dövlət qurumlarına, ictimai təşkilatlara və s.) metodiki və əməli yardım göstərmişlər.

Hesabat dövründə Etnoqrafiya fondunda tam inventarlaşdırma başa çatdırılmış, fondda 9496 eksponatın mövcudluğu müəyyən olunmuşdur.

Mövzuya daxil olan *"Bərpaya və konservasiyaya ehtiyacı olan fond materiallarının bərpa və konservasiyası"* işi çərçivəsində 2018-ci il ərzində muzeyin Bərpa laboratoriyası tərəfindən 2765 muzey eksponatı bərpa və konservasiya edilmişdir.

Mövzu üzrə *"Muzeyin məlumat bazasının təkmilləşdirilməsi"* işi davam etdirilmişdir. Hesabat dövründə fondlarda pasportlaşdırma işi çərçivəsində 9500 eksponatın elektron pasportu hazırlanmışdır.

2018-ci ilin iyul ayında muzey əməkdaşları – t.ü.f.d., dos. N.Quluzadə, t.ü.f.d., dos. H.Əliyeva, Q.Həsənova, E.Rəhimova Şəmkir və Gədəbəy rayonlarında arxeoloji ekspedisiyada olmuşlar. Ekspedisiya zamanı Şəmkirin Qapanlı kənd qəbiristanlığında məzar daşları tədqiq edilmiş, Gədəbəy rayonu ərazisində Qanlı körpü abidəsinə və alban məbədinə səfər edilmişdir. Etnoqrafiya elmi-fond şöbəsinin əməkdaşları – t.ü.f.d., dos. G.Abdulova və t.ü.f.d. T.Şiriyev Qazax, Cəlilabad, Biləsuvar rayonlarında etnoqrafik ekspedisiyada olmuş, həmin bölgələrin məişət mədəniyyətinə aid çöl materialı toplamışlar.

Cari ildə Tarixi Əşyaların Fond-Satınalma Komissiyası tərəfindən muzeyə 687 ədəd yeni eksponat qəbul edilmişdir (onlardan 17-si satınalma yolu ilə, qalanları - hədiyyə və muzey əməkdaşları tərəfindən aparılan toplama işi çərçivəsində). Muzeyə qəbul olunan yeni eksponatlardan M.Rəsulzadənin orijinal məktublarını, 2016-cı il Aprel şəhidlərinin əşyalarını, keçmiş Bakı sakini, hal-hazırda İsraildə yaşayan R.Zarbailovun hədiyyə etdiyi xalçalar, tikmə, mücrü, qələmkar süfrəni xüsusi qeyd etmək olar.

IV Problem *"Elmi maarif, elmi kütləvi işlər"*i əhatə edir. Problemə daxil olan mövzu *"Azərbaycan tarixinin KİV, internet vasitəsilə təbliği, təhsil müəssisələri, ictimai təşkilatlarla əlaqələrin genişləndirilməsi"* adlanır (mövzunun rəhbərləri: Xarici əlaqələr və elmi kütləvi iş şöbəsinin müdiri E.Dadaşov, Elmi maarif və ekskursiyalar şöbəsinin müdiri t.ü.f.d. B.Sayılov). Hesabat dövründə muzeydə 20 Yanvar və Xocalı faciələrinə, 2016-cı il aprel döyüşlərinə, Ümummilli Lider H.Əliyevin anadan olmasının 95-ci ildönümünə, Cümhuriyyətin və Milli ordunun 100 illiyinə, Qurtuluş gününə, Dövlət Bayrağı Gününə həsr olunmuş tədbirlər keçirilmişdir.

Elmlə təhsilin əlaqələrininin genişləndirilməsi işi çərçivəsində Bakı Dövlət Universitetinin, Mədəniyyət və İncəsənət Universitetinin, Rəssamlıq Akademiyasının, Xəzər, Odlar Yurdu, Azərbaycan Universitetlərinin 486 tələbəsi muzeydə tədris təcrübəsi keçmişdir. Bundan əlavə 147 tələbə muzey əməkdaşlarının ekspozisiya, fond, bərpa və konservasiya işlərinə dair mühazirələrini dinləmişdir.

Muzeyin ictimai təbliği və tanıdılması məqsədilə onun rəsmi İnternet və Facebook səhifələrində, Youtube kanalında məlumatlar mütəmadi olaraq yenilənib, hesabat dövrü ərzində muzeyin www.azhistorymuseum.az İnternet səhifəsinə müraciət edənlərin sayı 46000, Facebook səhifəsinə müraciət edənlərin sayı isə 2100 nəfəri ötmüşdür. 2018-ci ilin əvvəlində yaradılan muzeyin Youtube kanalında 20-dən artıq videomaterial yerləşdirilmişdir.

Hacı Zeynalabdin Tağıyevin 180 illik yubileyi ilə əlaqədar olaraq muzeyin "H.Z.Tağıyev" klubunun məşğələləri hesabat dövründə daha da genişləndirilərək bir neçə ali və orta məktəblərdə, müəssisələrdə təşkil olunmuşdur. Yanvar ayından etibarən Milli İncəsənət Muzeyində, Bakı Dövlət Universitetində, Azərbaycan Universitetində, Atatürk liseyində, 123, 18, 23, 26 nömrəli məktəblərdə, Dünya məktəbində H.Z.Tağıyevin adının və irsinin populyarlaşdırılması məqsədi ilə mühazirələr keçirilmişdir (t.ü.f.d., dos. F.Cabbarov). "Gənc muzeyşünaslar və muzeysevərlər" klubu fəaliyyətini davam etdirmiş, onun üzvləri üçün mühazirələr, muzeylərə ekskursiyalar təşkil olunmuşdur (e.i. S.Ələkbərova). Muzeyin "Tarix fənninin başqa fənlərə inteqrasiyası" layihəsi çərçivəsində təhsil müəssisələrində mühazirələr, Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi ilə birlikdə keçirilən "Sənət barəsində söhbət" layihəsi çərçivəsində məşğələlər təşkil olunmuşdur (t.ü.f.d. F.Ağayev).

Hesabat ilində muzeydə 1500-ə yaxın ekskursiya aparılmış, 19000 nəfər (onlardan 3702 nəfər 18 May- Beynəlxalq muzeylər günündə) muzey ekspozisiyasını ziyarət etmişdir (iyunun 20-nə olan məlumat).

Hesabat dövründə muzeyin bir sıra əməkdaşları onun fəaliyyətinə, Azərbaycan tarixinin müxtəlif problemlərinə dair televiziya, radio, mətbuat və İnternet vasitəsilə çıxışlar etmişlər.

Beynəlxalq əlaqələr

Hesabat dövrünün əvvəllərində Qazaxıstan Milli Muzeyi ilə əldə olunmuş razılığa və imzalanmış ikitərəfli memoranduma əsasən Bakıda, Milli Azərbaycan Tarixi Muzeyində Qazaxıstanın "Qızıl adamın dünya muzeylərinə səyahəti" beynəlxalq sərgilər layihəsi çərçivəsində "Böyük çölün mirası. Zərgərlik sənətinin şah əsərləri" sərgisinin keçirilməsi qərara alınmışdır. Mayın 22-də sərginin təntənəli açılışı olmuşdur. Layihənin məqsədi tamaşaçıları erkən dəmir dövründə Avrasiyanın Böyük çölünün ərazisində meydana gələn mədəni irs ilə tanış etməkdir. Sərgidə İssıq kurqanında tapılan əsləhəli sak döyüşçüsü – "Qızıl adam", Qazaxıstan

Respublikasının Milli Muzeyinin fondlarında qorunan e.ə. VIII əsrə aid qızıl məmulatlar kolleksiyası təqdim edilmişdir. Sərginin əsas eksponatı 1969-cu ildə Qazaxıstanın tanınmış arxeoloqu Kamal Akişevin rəhbərlik etdiyi ekspedisiyanın İssıq kurqanında aşkarladığı və hazırda Qazaxıstan Respublikasının rəmzinə çevrilən "Qızıl adam"dır. "Böyük çölün mirası. Zərgərlik sənətinin şah əsərləri" sərgisi 2018-ci il iyulun 1-dək davam edəcək.

Cari il noyabrın 21-28-də muzeyin nümayəndə heyəti Çin Xalq Respublikası, Fuçjou şəhərində keçirilən İpək yolu üzərində Muzeylərin Beynəlxalq Alyansının I konfransında iştirak etmişdir. Konfransda muzeylər arasında qarşılıqlı əlaqələrin inkişafı, birgə layihələr müzakirə edilmişdir. Konfransda İpək yolu üzərində Muzeylərin Beynəlxalq Alyansının idarə heyətinə seçkilər keçirilmiş və akademik Nailə Vəlixanlı alyansın vitse-prezidentlərindən biri seçilmişdir.

Milli Azərbaycan Tarixi Muzeyinin Rumıniyanın Prezident Administrasiyası nəzdində fəaliyyət göstərən Kotroçeni Muzeyi ilə əldə etdiyi şifahi razılaşmaya əsasən iki ölkənin muzeyləri arasında qarşılıqlı əlaqələrin yaradılması, sərgilərin, elmi seminar və konfransların təşkili, ümumi nəşrlərin həyata keçirilməsi qərara alınmışdır.

Beynəlxalq elmi layihədə iştirak edən muzeyin elmi-fond işləri üzrə direktor müavini t.ü.f.d., dos. M.Zeynalova Londonda çıxan "Coğrafi məkanın informasiya bazasının çoxsahəli tətbiqi" kitabının redaktoru olmuşdur.

Cari ildə muzey əməkdaşları aşağıdakı beynəlxalq elmi tədbirlərdə iştirak etmişlər:

1. M.Lomonosov adına Moskva Dövlət Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş Beynəlxalq dəyirmi masa. Rusiya Federasiyası, Moskva, 18-19 aprel (elmi katib t.ü.f.d., dos. F.Cabbarov).
2. XXX Krupnov mühazirələri. Rusiya Federasiyası, Qaraçay-Çərkəz Respublikası, Çerkessk şəhəri, 22-29 aprel (Elmi maarifləndirmə və ekskursiyalar şöbəsinin bələdçisi A.Qasımov).
3. XV "Rusiya dövlətinin tarixi" beynəlxalq maarifləndirici proqram. Rusiya Federasiyası, Sankt-Peterburq şəhəri, 9-20 aprel (Xarici əlaqələr və sərgilərin təşkili şöbəsinin müdiri E.Dadaşov).
4. Beynəlxalq XVIII Türk Tarix Konqresi. Türkiyə Respublikası, Ankara şəhəri, 1-5 oktyabr (elmi işlər üzrə direktor müavini t.ü.e.d., dos. N.Əliyeva, Arxeologiya fondunun müdiri A.İsmayılova, Etnoqrafiya fondunun müdiri S.Nəsirova).
5. İpək yolu üzərində Muzeylərin Beynəlxalq Assosiasiyasının I konfransı. Çin Xalq Respublikası, Fuçjou şəhəri (Futszyan vilayəti), 21-28 noyabr (direktor, akademik N.Vəlixanlı, elmi işlər üzrə direktor müavini t.ü.e.d., dos. N.Əliyeva, elmi-fond işləri üzrə direktor müavini t.ü.f.d., dos. M.Zeynalova).

Nəşriyyat fəaliyyəti, elmi məqalələr:

Cari ildə muzey əməkdaşlarının aşağıdakı kitabları nəşr olunmuşdur:

1. Джаббаров Ф. Армянский экстремизм на Южном Кавказе: вторая половина XIX-начало XX вв. Баку: TEAS PRESS, 2018, 768 с.

2. 20 Yanvar şəhidləri. Kataloq. Tərtibat və mətn: S.Əhmədov, E.Dadaşov, İ.Muradəliyeva. Bakı: Elm, 2018, 210 səh.

3. Azərbaycan Cümhuriyyəti tarixinin yadigarları. Kataloq. Müəllif heyəti: S.Əhmədov, İ.Muradəliyeva, N.Bağırova, R.İsmayılova, S.Qazıyeva. Bakı: AFPoliqrAF, 2018, 64 səh.

4. S.Əhmədov. Admiral Cavadov (həyatı və döyüş yolu). (Azərbaycan və rus dillərində). Bakı: Hərbi Nəşriyyat, 2018, 188 s.

5. S.Əhmədov, A.Vasilyev. Daş keşikçilər (Azərbaycan qalaları). (Azərbaycan, rus və ingilis dillərində). Bakı: İRS Publishing, 2018, 208 s.

6. Nargiz Aliyeva. Hilafetin bilim ve egitim merkezlerinde Azerbaycan aydınları. İstanbul: Cinius Yayınları, 2018, 202 s.

7. Azərbaycanın qədim və orta əsr silahları. Kitab-albom. Müəlliflər: S.Əhmədov, E.Məmmədov, N.Qarayeva. Bakı: AFPoliqrAF, 2018, 32 səh.

8. Mühacirət irsimizdən: Məhəmmədəmin Rəsulzadənin otuz məktubu. / Tərtib edən, ön söz, qeyd və şərhlərin müəllifi F.Cabbarov. Bakı: CBS, 2018, 140 səh.

9. Azərbaycan ordusu (1918-1920) rəsmlərdə. Albom. Müəllif - tərtibatçı S.Əhmədov. Bakı: AFPoliqrAF, 2018, 62 səh.

10. Vahabova S. Azərbaycan orta əsr silahları. Bakı: AFPoliqrAF, 2018, 226 səh.

11. Şərqin qızıl pulları. Kitab-albom. Müəlliflər: Ə.Rəcəbli, A.Restəmbəyova. Bakı: AFPoliqrAF, 2018, 226 səh.

12. Ətriyyat, kosmetika məmulatları. Kataloq. Tərtibçi-müəllif: G.Abdulova. Bakı: AFPoliqrAF, 2018, 100 səh.

13. Milli Azərbaycan Tarixi Muzeyi-2018. Elmi məqalələr toplusu. Bakı: AFPoliqrAF, 2018, 340 səh.

Hesabat dövründə muzey əməkdaşlarının 45 məqaləsi, 17 məruzəsi, 3 tezisi çap olunmuşdur. Xarici elmi jurnallarda çıxan məqalələrin sayı 7-dir, onlardan 2-si impakt faktorlu jurnallarda dərc olunub.

Muzey əməkdaşlarının iştirak etdiyi ölkədaxili elmi forumlar:

Hesabat dövründə muzeyin 35 əməkdaşı 6 respublika və 8 beynəlxalq səviyyəli elmi forumlarda iştirak etmişlər.

Muzeydə keçirilmiş konfranslar, seminarlar:

Cari yarımildə Milli Azərbaycan Tarixi Muzeyində 1 respublika konfransı və 2 elmi seminar keçirilmişdir:

1. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Muzey, arxiv və kitabxanalarda qorunan milli dəyərlərin tədqiqi, təbliği, mühafizəsi və bərpası" adlı II Respublika elmi konfransı (17 aprel 2018).

2. "XX əsrin əvvəllərində Cənubi Qafqazda erməni terroru" elmi seminarı (6 aprel 2018).

3. Muzey nəzdində sualtı arxeoloji ekspedisiyanın 50 və həmin ekspedisiyaya rəhbərlik etmiş V.A.Kvaçidzenin 85 illiyi münasibətilə elmi seminar (13 mart 2018).

Kadr hazırlığı

Cari ildə muzeydə 183 əməkdaş (onlardan 52 nəfər elmi işçi) fəaliyyət göstərib. Əməkdaşların arasında 1 akademik, 3 elmlər doktoru, 19 fəlsəfə doktoru, 1 professor, 12 dosent vardır. Muzeyin fəlsəfə doktoru hazırlığı üzrə 8, elmlər doktoru hazırlığı üzrə 4 dissertantı var. Hesabat dövründə muzeyin əməkdaşı Ə.Fərhadov tarix üzrə fəlsəfə doktoru diplomunu almış, doktorantlar S.Nəsirova və A.İsmayılova fəlsəfə doktoru hazırlığı üzrə dissertasiyalarını müdafiə etmişlər.

Elmi-təşkilati fəaliyyət

Hesabat dövründə muzeyin strukturunda yeni şöbə - İctimaiyyətlə əlaqələr şöbəsi yaradılmışdır. Elmi Şuranın 9 iclası keçirilmişdir.

Mükafatlar

Muzeyin direktoru akademik Nailə Vəlixanlı Azərbaycan və Yaxın Şərqin erkən orta əsrlər tarixinin mənbəşünaslıq, regionun sosial-iqtisadi, siyasi-mədəni problemlərinin və tarixi coğrafiyasının tədqiqi, təhlili və təbliğinə görə AMEA-nın Abbasqulu ağa Bakıxanov adına mükafatına layiq görülmüşdür.

MÜNDƏRİCAT

Muzey kolleksiyasının materialları Vətən tarixinin öyrənilməsində mənbə kimi

Emin Dadaşov, Ramiyə İsmayılova D.Yermakovun fotokolleksiyası Şimali Azərbaycanda salınmış rus məskənlərinin öyrənilməsində mənbə kimi (MATM materialları əsasında) 4

Bəhman Kərimov. "Talışinskilərin ailə arxivi" Azərbaycan tarixinin öyrənilməsində mənbə kimi (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) 13

Nərmin Bağırova. Muzeyin kolleksiyasında "Səadət"xeyriyyə cəmiyyətinin tarixinə dair eksponatlar................................. 23

Севиль Казиева. Шафига Ахундова – одна из первых женщин-композиторов Азербайджан... 31

Sevinc Vahabova. Silahlar üzərində şərq mədəniyyətinin elementləri 38

Sevinc Nəsirova. İslam dininin toxuculuq məmulatlarında əksi (MATM materialları əsasında) 45

Sara Əhmədova. Etnik azlıqların sənət mədəniyyəti – həsirçilik (Milli Azərbaycan Tarixi Muzeyinin materialları əsasında) 53

Фуад Агаев. К истории табачной промышленности Бакинской губернии в начале XX века 60

Tarix

Allahverdi Əlimirzəyev. Massagetlər və Azərbaycan....................................... 66

Алекпер Алекперов. Об этническом происхождении алан-асов................ 75

Nailə Vəlixanlı. Ərəb Xilafətinin zəifləməsi nəticəsində Cənubi Qafqazın Qərb bölgələrində siyasi duruma dair (IX əsrin sonu – X əsr) 96

Nərgiz Əliyeva. Orta əsr Azərbaycan tarixindəki bəzi faktların dəqiqləşdirilməsində müqayisəli təhlil metodunun rolu 124

Əli Fərhadov. XX əsrin əvvəlləri Azərbaycan maarifçilərinin yaradıcılığında din və din xadimləri ("Molla Nəsrəddin" jurnalının materialları əsasında) ... 135

İlqar Hacıyev. Bakı neft sənayesində tibbi-təşkilinə dair ("Neftyanoe delo" qəzetinin materialları əsasında) 142

Фархад Джаббаров. Армянский террор против азербайджанцев накануне межнационального конфликта 1905-1906 гг. 154

Ильгар Нифталиев. Формирование инженерно-технических и рабочих кадров для промышленности Азербайджанской ССР в 1920-1930-е гг. 169

Гюнель Тагизаде. К вопросу о депортации азербайджанского населения Армянской ССР на Кура-Аразскую низменность в 1947-1950 гг. 193

<u>Arxeologiya</u>

Həbibə Əliyeva, Nasir Quluzadə. Şəmkir rayonunun Qapanlı kənd qəbiristanlığındakı zoomorf məzar daşları 199

Aida İsmayılova. Orta əsr bəzək əşyalarının hazırlanma texnologiyasının bəzi xüsusiyyətləri 211

Малахат Фараджева. Планы жилищ на скалах Гобустана 217

İlyas Babayev, Sevil Ağamalıyeva, Laçın Mustafayev, Ülviyyə Heydərova, Sevinc Hüseynova. 2017-ci ildə Qəbələnin Antik şəhər ərazisinin V qazıntı sahəsində aparılan arxeoloji tədqiqatlar 226

Leyla Rüstəmova, Bəxtiyar Cəlilov. Gəncə-Qazax bölgəsinin İlk Tunc dövrü metal silahları 234

<u>Etnoqrafiya, sənətşünaslıq, muzeyşünaslıq</u>

Esmira Rəhimova. Əzim Əzimzadənin əsərlərində xalq həyatının təsviri 243

Şəhla Nuruzadə. Azərbaycanlıların yas adətləri ilə bağlı bəzi inancları mənəvi dəyərlər sistemində 252

Nurəngiz Qarayeva. Xalq bayramlarının milli filmlərdə əksi 263

Nardanə Yusifova. Xalçalardakı rənglərin və həndəsi elementlərin aranjemanı (muzey materialları əsasında) 273

Агасалим Эфендиев. История Сефевидов в искусстве Азербайджана 16 века 281

Elfira Məlikova-Qurbanova. Azərbaycanda muzeyşünaslıq elminin formalaşmasında Milli Azərbaycan Tarixi Muzeyinin rolu (Milli Azərbaycan Tarixi Muzeyinin arxiv materialları əsasında) 297

“Millət atası” Hacı Zeynalabdin Tağıyev

Fərhad Cabbarov. Bir daha Hacı Zeynalabdin Tağıyevin Bakı şəhərinin su təchizatı probleminin həllində roluna dair 298

Fərhad Cabbarov. “Mənim üçün bu haqda düşünmək çətindir...”: H.Z.Tağıyevin qız məktəbinə məxsus pullar haradadır?................................ 307

Санубар Касимова. К истории одной акции «каспийско - куринского акционерного пароходного общества» Г.З. Тагиева (из коллекции нмиа).. 310

Resenziya

R.Ə.Ağayev. Mədəniyyət tariximizə dair sanballı əsər.................................. 316

N.Sarıahmetoğlu. “XIX. yüzyılın sonu– XX. yüzyılın başlarında Güney Kafkasya’da Ermeni ayrılıkçılığı” monografisine rapor 320

Milli Azərbaycan Tarixi Muzeyinin 2018-cı ildə gördüyü elmi-ekspozisiya, elmi tədqiqat, elmi-kütləvi və fond işlərinin hesabatı........... 322

MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİ
- 2018 -

Kompüter tərtibatı:
Emin Dadaşov, Aynurə İsmayılova